Şeirin semantik quruluşunda çoxkomponentlilik özünü göstərir. Müəllif "idiostilikdən" asılı olaraq bədii mətnlərdə mürəkkəb və ya çoxkomponentli konstruksiyalar müəyyən yer tutur. Ədibin dil üslubunu,onun idiostilini təkcə frazeoloji və ya digər sabit-ekspressiv söz birləşmələri,xüsusi cümlə konstruksiyaları,xüsusi metoforik obrazlar sistemi deyil,həm də müəllif üçün adətkərdə,optimal olan mürəkkəb cümlə konstruksiyalarının bəzi formaları da

[1] Н.С.Поспелов о грамматической природе сложного предложения (вопросы синтаксиса современного русского языка. Москва; Наука,1950,стр. 321-337)

[2] Bəxtiyar Vahabzadə- seçilmiş əsərləri 1984 , seh.17

təşkil edir. Bu da o deməkdir ki, Azərbaycan dili üçün çoxkomponentli mürəkkəb cümlələr sistemi normativ haldır[1]. Nümunədə tabesiz mürəkkəb cümlə bir-birindən asılı olmayan və müstəqil cümlələr kimi özünü göstərib.Bu mürəkkəb cümlənin varlığını inkar etmir.Asılılıq həm tabesiz həm də tabeli mürəkkəb cümlələrin tərkib hissələri arasında mövcuddur.Lakin asılılığın formasına xarakterinə görə tabesiz və tabeli mürəkkəb cümlələr fərqlənir.

Tabesiz mürəkkəb cümlələrin tərkib hissələri bir-birindən bərabər şəkildə asılı olur. Yuxarıda verilən misaldakı kimi mürəkkəb cümlənin komponentləri intonasiya ilə bağlandıqda sadə cümlələri məna əlaqəsi birləşdirir. Çoxkomponentli cümlə iki tipli sintaktik vahidin həm məna,həm də qrammatik cəhətdən formalaşmış vahid bir konstruksiyasını yaratmışdır.

Bunu aləm bilir ,biz kimdən danaq,
On dörd il ağladı,gülmədi şeirim.[2]

Yuxarıda misal kimi verilən misralar üçkomponentli mürəkkəb cümlədir.Yazılı ədəbi dilimizdə, xüsusiyle bədii və elmi əsərlərin dilində elə cümlələr də işlənir ki,onların tərkib hissələrindən biri və ya ikisi mürəkkəb olur.Sadalama üsulu ilə qurulan bəzi tabesiz mürəkkəb cümlələr istisna olmaqla,ədəbi dilimizdə işlətdiyimiz cümlələr neçə komponentdən ibarət olursa olsun ,həmin komponentlər iki qütbə ayrılır.[3] Cümlənin bu cür qütblənməsi nitq prosesində fikrin bu və ya digər hissəsinin aktuallaşması ,yeni məlumatın verilmə forması ilə bağlıdır. Cümlə elə qütblənir ki,tabeli və tabesiz cümlə şəklində əlaqələnən bu sintaktiki vahidlərdən birincisi məlum olanı, ikinci isə yeni olanı bildirir.Cümlə bütövlükdə ya tabesiz ,ya tabeli mürəkkəb cümlə şəklində formalaşır.Fikrimcə, yuxarıda göstərilən nümunə formaca qarışıq tipli mürəkkəb cümlədir. Başqa bir misala nəzər salaq :

Odur bax...həyətdə qopub vəlvələ
Uşaqlar oynaşır,dırmaşır dama,
Mən də onlar ilə tutub əl-ələ,
Qaçmaq istəyirəm uşaqlığıma.[4]

Bu nümunədə də mürəkkəb cümlələr həm sintaktik,həm də məna baxımından bir-birinə bağlanıb.Şeir incisində semantik-sintaktik quruluşunu analiz etmək bu nümunənin linqvistik təhlilinin əsasını təşkil edir.

Verilən cümlənin ilk iki misrası zaman əlaqəli tabesiz mürəkkəb cümlədir.Bu tipli sintaktik vahidlər eyni cinsli müxtəlif fakt,hadisələr sadalənır ,ortaqlı zaman daxilində baş verir.Üçüncü və dördüncü misralardakı cümlə birinci və ikinci misralara həm zaman baxımından ,həm də məzmunca bağlanıb.

Bu gün deyilsə də bir sabah yəqin,
Məhv edər bu nifrət,bu aclıq səni,
Yıxılsam,
De,nəyin artacaq sənin,
Göstər qazancını,sonra yıx məni.[5]

Göründüyü kimi ,Bəxtiyar Vahabzadə poeziyası nəinki öz simvolik mənasına,həm də semantik tutumuna görə mükəmməldir.Paralel,ardıcıl verilən mürəkkəb cümlənin komponentləri qrammatik cəhətdən bir-birilə bağlı olub mürəkkəb konstruksiya yaradır. Bu cür konstruksiya-larla budaq cümlənin komponentlərinin baş cümlə ilə əlaqəsi müxtəlif olur: Mürəkkəb budaq cümlənin komponentlərindən biri ayrılıqda baş cümlənin eyni üzvünə aid olur,ya da mürəkkəb budaq cümlə bütövlükdə baş cümlənin bir üzvünə aid olur.Bəxtiyar Vahabzadə poeziyasında Azərbaycan dilinə yaddaqalan nümunələr vermişdir.Bu poeziyanın qrammatik cəhətdən araşdırılması,mikromətn,makromətn kateqoriyaları dəyərində müəyyənləşməsi, frazadan böyük (sverxfraza) vahidlər sisteminin sərhədlərinin təyin olunması, zənnimcə, çoxkomponentli mü-

[1] Ə.Z.Abdullayev-Çoxbudaqlı tabeli mürəkkəb cümlələr(ADU,'Elmi əsərləri'ədəbiyyat və dil ser.1,1963,s43-60
[2] B.Vahabzadə-seçilmiş əsərləri,1984,
[3] Q.Kazımov-Müasir Azərbaycan dili,2008,s.413.
[4] B.Vahabzadə-seçilmiş əsərləri,1984,s.79
[5] Bəxtiyar Vahabzadə- seçilmiş əsərləri 1984 , seh.207.

rəkkəb cümlələrin sintaktik təbiəti barədə deklarativ ideyalar irəli sürmək, nəzəri-elmi cəhətdən vacib şərtlərdən biridir.Azərbaycan dilçiliyində çoxkomponentli mürəkkəb cümlələr haqqında fikir söyləmiş filoloqların elmi fikirlərinə əsaslanaraq ,Bəxtiyar Vahabzadə yaradıcılığını araşdırmaq istərdik. Dilimizdə bu mürəkkəb sintaktik vahidlər real olaraq var,onlar digərləri kimi həm kəmiyyət,həm də keyfiyyət dəyişiklikləri prosesində iştirak edir.[1] çoxkomponentli mürəkkəb cümlələrin bir qismi zənginləşmə prosesi keçirsə də,digəri sadələşmə prosesi keçirir.Bütün bunları nəzərə alsaq,çoxkomponentli mürəkkəb cümlələrin sistemli struktur – semantik və funksional tədqiqini daha da aktuallaşdırır.

D B YYAT S YAHISI

1. H.C.Поспелов О грамматической природе сложного предложения (вопросы синтаксиса русского яçыка).// Москва; Наука;1950,ст. 321-337
2. Ə.Z.Abdullayev Çoxbudaqlı tabeli mürəkkəb cümlələr // ADU,'Elmi əsərləri' ədəbiyyat və dil seriyası 1, Bakı-1963,səh.43-60
3. Z.X. Tağızadə Müasir Azərbaycan dilinin sintaksisi//Bakı-1960 , səh. 139
4. Q.Ş. Kazımov Müasir Azərbaycan dili (sintaksis)//Bakı- 2008, səh. 413
5. B.Vahabzadə Seçilmiş əsərləri//Bakı-1984 .

R YAZ YYAT V E R

Yaqub liyev

f.d., Qafqaz Universiteti

yaliyev@qu.edu.az

XÜLAS

Məqalə iki hissədən ibarətdir. Birinci hissədə Bəxtiyar Vahabzadənin elmə və elm adamlarına münasibəti, onun şeirlərinin riyazi təhlili, riyazi metodlardan istifadə ilə Bəxtiyar Vahabzadə şeirinin öyrənilməsi və s. bu kimi məsələlərə baxılacaqdır. İkinci hissədə isə Riyaziyyat və Poeziya arasındakı analogiyalar və təzadlar mövzusunda müzakirələr aparılacaqdır. Müxtəlif riyaziyyatçıların bu barədə ziddiyyətli fikirləri qarşılaşdırılacaq. Həmçinin riyaziyyatın tarixində və tədrisində poeziyadan istifadə haqqında fərqli yanaşmalara baxılmışdır.

Açar sözl r: Vahabzadə - filosof şair, İbn əl-Yasəmin, Ömər Xəyyam, Hürufi şairlər, Cəbr, Həndəsə

Bəxtiyar Vahabzadə bir çox şeirlərində elm və elm adamına olan heyranlıq tərənnüm olunur. O da başqa ziyalılarımız kimi şərq dünyasının elm və texnologiyada geri qalışını dəfələrlə dilə gətirmişdi. Mənim şahidi olduğum bir çıxışında yaponların istehsal etdiyi maşınların ön işıqlarını öz gözləri kimi qıyıq etmələrini təsvir edir və türk dünyasının da onlarınkı ilə rəqabət apara biləcək maşınının olmamasına təəssüfləndiyini deyirdi. Başqa bir epizodda isə əvvəllər elm öyrənmək üçün rus dilini indi isə ingilis dilini bilmək məcburiyyətində olduğumuzu təəssüflə qeyd edirdi.

Hal hazırda riyazi üsullar və kompyuter texnologiyası şeirin araşdırılmasında geniş istifadə olunur. Bu üsulların Vahabzadə şeirinə tətbiq olunması da maraq kəsb edir. İlkin mərhələdə şairin bütün şeirlərinin, riyazi üsulların tətbiq oluna biləcəyi rəqəmsal formata salınması lazımdır. Daha sonra isə şairin yaradıcılığının müxtəlif dövrlərində üstünlük verdiyi strukturlar və s araşdırıla bilər. Müasir kompüter texnologiyası imkan verir ki, istifadə olunan hər bir sözün, hər bir qafiyənin şeirlərin içində rastgəlmə tezliyi və başqa bir çox statistik məlumatlar tapılsın. Bu məlumatlar əgər belə demək mümkündürsə şairin yaradıcılığının statistik portretini qurmağa imkan verir.

Ümumiyyətlə şeirlərə riyazi üsulların tətbiq olunması orta əsr hürufi şairlərin şeirlərində gizli şifrələrin açılması ilə daha da aktuallaşmışdır. Əhməd Elbrus tərəfindən aparılan tədqiqatlarda Nəsimi şeirlərindəki bir çox şifrəli yazılara aydınlıq gətirilmişdir[2]. Bu kitab Azərbaycanda

[1] Z.X.Tağızadə -Müasir Azərbaycan dilinin sintaksisi , 1960,səh.139

[2] Ахмед Эльбрус, Поэтика и Математика, Элм, Баку, 1979.

rus dilind çap olunmuşdur. Kitabın sonunda azərbaycanca və başqa dillərdə xülasələr verilmişdir. Riyaziyyatçı və filoloqların iştirak edən redaksiya heyəti tərəfindən redaktə olunmuş bu kitab Azərbaycanda çap olunan kitablar arasında xüsusi seçilir. Dövrünün tələblərinə uyğun olaraq ateizm müstəvisində yazır.

əsrlərdə şərqdə təhsil müasir təhsildən kifayət qədər fərqlənirdi. Müasir araşdırmalar göstərir ki, orta əsr İslam təhsilində əsas rolu yadda saxlama və oxumaq tuturdu. İstər Quran, hədis istərsə də tibb və ya hesab, hansı fənn olursa olsun müəllimlər tələbələrinə onu yaddaşından və ya kitabdan ucadan oxuyur, tələbələr isə onu yazır və daha sonra ucadan oxuyaraq əzbərləyirdilər. Beləliklə yadda saxlama və ucadan oxuma/müzakirə elmin iki qanadı hesab olunurdu. Bütün bunları nəzərə alsaq orta əsr cəbr və hesab kitablarının mühazirə mətnlərinə oxşaması təəccüblü deyildir. Məsələn bu mətnlərdə tez tez "əgər sənə desələr ki,..." və ya "onda bu ədədi yadında saxla..." kimi ancaq şifahi dərsdə istifadə olunan sözlər qarşıya çıxır. Bütün bunlara əlavə olaraq bir neçə riyazi poemalar da nəşr olunmuşdur. Məsələn ibn əl-Yasəmin cəbr və köklərin tapılması haqqında yaxşı yadda qalan şeirlər bəstələmişdir"[1]. Sizdə bu şeirlər haqqında təsəvvür yaratmaq üçün bir məsələnin şərtinin sərbəst tərcüməsini veririk.

Ağa dedi quluna
Çıx çölə bax səmaya
Gecədən nə keçibdir?
Nə qədəri qalıbdır?
Baxıb döndü geriyə
Ölçüb dedi ağaya
"Keçənin dörddə biri,
Qalanın üçdə biri"
Odur ki, tap gecənin
Keçən, qalan hissəsin.

İbn əl-Yasəmin
(sərbəst tərcümə)

Məsələ əlbətdə ki, çətin deyildir. Gecənin keçən hissəsini x işarə etsək, qalan hissəsi 12-x olar və beləliklə tənlik $x/3=(12-x)/4$ olur. Buradan isə tələb olunanı tapmaq artıq çətin deyil.

Beləliklə, orta əsrlərdə müsəlman riyaziyyatçıları cəbr haqqında dərsliklər yazarkən bəzən şeir üslubundan istifadə etmişlər. Bunu niyə belə etdikləri indi də sirr olaraq qalır, amma böyük ehtimal bu alimlərimiz şeirin gücünü bilirdilər və o vaxtkı gənclərin şeirin köməyi ilə riyazi faktları daha yaxşı yadda saxlayacaqlarını düşünürdülər. Bu üsulun günümüzdə də bu vəya başqa şəkildə tətbiqi haqqında fikirlər irəli sürmək olar. Ən azı humanitar təmayüllü orta məktəb siniflərinin riyaziyyat dərsliklərində bəzi ən vacib aksiomlar, qaydalar, teoremlər ənənəvi formada verilməsinə paralel olaraq əzbərləməyə münasib cümlələr və hətta şeir üslubunda da verilə bilər. Məsələn orta məktəb riyazi folklorunda Evklidin ən çox istifadə olunan iki aksiomu aşağıdakına bənzər şeirlərlə verilir.

Bir müstəvi üstündə
Iki nöqtə verilsə,
Onlardan keçən düz xətt
Bir dənədir həmişə.

***

Verilmiş bir nöqtədən
Keçməyən bir düz xəttə,
Çəkilən paralel xətt
Bir dənədir yenə də.

Hər dəfə bu aksiomlar dərsdə istifadə olunduqda bu bəndlər təkrar olunsa onlar artıq heç vaxt unudulmaz.

Riyaziyyatın tarixində yuxarıdakılara nümunə ola biləcək bir epizod daha vardır. Vedik riyaziyyat - ənənəvi hind riyaziyyatıdır[2]. Bu kitabda hər bir istifadə olunan riyazi üsul vedik sutralarla - qısa bir beytlə, əksər hallarda bir vəya iki sözdən ibarət birləşmə ilə ifadə olunur. Məsələn $(x^2+x+1)/(x^2+3x+3)=(x+1)/(x+3)$ tipli tənlikləri həll etmək üçün ümumi bir

[1] Jeffrey A. Oaks, Polynomials and equations in Arabic algebra, Arch. Hist. Exact Sci. (2009) 63:169-203.
[2] J. Maharaja, Vedic Mathematics, Motilal Banarsidas, Delhi, 1987.

"Antyayoreva" ("yalnız axırıncı hədlər") [4, s. 149] sutrasından istifadə olunur. Əvvəl yoxlayırıq ki, $(x^2+x)=x(x+1)$ və $(x^2+3x)=x(x+3)$. Deməli üsul tətbiq oluna bilər və $(x+1)/(x+3)=1/3$ yəni $x=0$. Vedik riyaziyyatda bunun kimi qısa sutralarla ifadə olunan yüzlərlə üsullar vardır. Məsələn kvadrat tənliklər, Pifaqor teoremi, konik əyrilər haqqında sutralar bizim dərsliklərdən öyrəndiyimiz üsullardan daha qısa və yadda qalandır. Kvadrat tənliyi həll etmək üçün üsulu burada misal gətirmək istəyərdim. Tutaq ki, $ax^2+bx+c=0$ kvadrat tənliyi verilib. Bu tənliyi həll etmək üçün onun sol tərəfinin törəməsini alırıq və müsbət və ya mənfi işarə ilə kök altında diskriminanta bərabər edirik $2ax+b=\pm\sqrt{(b^2-4ac)}$. Əlbətdə ki, bu bizim bildiyimiz üsula ekvivalentdir amma şagird vedik üsulu daha rahat yadda saxlayır. Maraqlanan oxucuları bu kitabı araşdırmağı məsləhət görürük.

Mənim şahidi olduğum bir epizodu oxucularla paylaşmaq istəyərdim. Orta məktəbdə yeni müəllim işlədiyim zaman şagirdlərə həndəsəni tədris etdikdə bəzi çətinliklərlə rast gəlirdim. Həndəsə şagirdlər üçün tamamilə reallıqdan uzaq və maraqsız gəlirdi. Mənim bu fənnə olan maraq və həvəsim şagirdlərə çox az əks edirdi. Bu ərəfədə kifayət qədər yaşlı bir taxta ustasının hər dəfə xətkeşlə taxta üzərində düz xətt çəkdikdə yuxarıda haqqında danışdığımız "İki nöqtədən yalnız və yalnız bir düz xətt keçir" aksiomunu və b. riyazi faktları deməsinin şahidi oldum. Ondan bunu haradan bildiyini soruşduqda isə uzun illər əvvəl texnikumda oxuyarkən riyaziyyat müəlliminin öyrətdiyini və hələ də onları unutmadığını dedi. Bu hadisə məni metodikamda ciddi dəyişiklik etməyə sövq etdi. Şagirdlərə hər riyazi elementi xüsusi ilə ən vacib olanlarını mümkün olduqca sadə, yadda qalan, əzbərlənə biləcək və dəfələrlə təkrar edərək demək və onlara dedizdirmək lazımdır. Nəzərə almaq lazımdır ki, orta məktəb riyaziyyatında xüsusilə də həndəsədə istifadə olunan əksər terminlər ya dilimizdə olan türk və ərəb mənşəli sözlərdir, ya da onların dilimizdə müəyyən qarşılığı vardır. Odur ki, bizim dilimizdə bu reforma üçün imkanlar çoxdur. Bunun üçün məsələn bəzi dərsliklərin yazılmasına yazıçıların, dil mütəxəssislərinin, peşəkar şairlərin vəya şair ruhlu riyaziyyatçıların cəlb olunması təklif oluna bilər.

Bir çox insanın "şair ruhlu riyaziyyatçı" sözünü eşitdikdə yadına ancaq bir ad gəlir. Bu məşhur fars-tacik riyaziyyatçısı Ömər Xəyyamdır. Ömər Xəyyam öz rübailəri (dördlükləri) ilə məşhurdur. Burada zəif tərcümədə də olsa bir rübaisini təqdim etmək istəyərdim.

Dünyada ən şərəfli və lətif bitki varsa,
O qara sərv ağacı və ağ zanbaq çiçəyi,
Birinin yüz əli var heç kimsəyə uzatmaz,
O birinin yüz dili heç birindən səs çıxmaz.

Ömər Xəyyam
(sərbəst tərcümə)

Maraqlıdır ki, bunu ən çox ondan gözləməyimizə baxmayaraq Ömər Xəyyamın heç bir riyazi rübaisi elmə məlum deyildir və yəqin ki, o riyaziyyata aid heç bir rübai yazmayıb. Amma dövrünün ən qabaqcıl riyazi məsələləri ilə məşğul olması onun nə qədər yüksək səviyyəli elm adamı olmasını göstərir. İlk dəfə sistematik şəkildə kubik tənlikləri həndəsi üsulla həll etmişdir. Daha dəqiq desək kubik cəbri tənliklərin həllini müəyyən ikinci tərtib əyrilərin kəsişməsi kimi tapma üsulunu təklif edirdi [5,6]. Ömər Xəyyam kubik tənlikləri cəbri üsulla da həll etmək istəyirdi. Bu barədə əsərində o yazır: "bu cür isbatlara gəldikdə isə, məqsəd cavabı ədəd olaraq tapmaqdırsa, nə biz nə də bizdən əvvəlki cəbrçilər buna nail ola bilmədilər. İstisna olaraq 1-ci və 2-ci tərtib tənliklərin cəbri həlli məlumdur. Bəlkə də bizdən sonrakılar bunu bacaracaq". Həqiqətən də Ömər Xəyyamın bu peyğəmbəranə sözü doğru çıxdı və 400 il sonra italiyalı cəbrçilər Tartalia, Kardano və başqaları üçüncü tərtib tənliklər üçün cəbri həll üsulunu nəhayət ki, tapdılar [5, s. 124].

D B YYAT

1. G.H. Hardy, A Mathematician's Apology Cambridge University Press / New York – 2009.
2. Ахмед Элübрус, Поэтика и Математика, Элм, Баку, 1979.
3. Jeffrey A. Oaks, Polynomials and equations in Arabic algebra, Arch. Hist. Exact Sci. (2009) 63:169-203.
4. J. Maharaja, Vedic Mathematics, Motilal Banarsidas, Delhi, 1987.
5. J.L. Berggren, Episodes in the mathematics of medieval Islam, New York, Springer-Verlag, 1986.
   Омар Хаййам, Трактаты, М., Иçд. Вост. Литер., 1961.

B XT YAR VAHABZAD N N L R KASI

Ramil liyev
Filologiya elmləri doktoru
AMİ-nin Azərbaycan ədəbiyyatı və onun
tədrisi metodikası kafedrasının müdiri
ramill.aliyev@gmail.com

XÜLAS

Azərbaycan ədəbiyyatının əbədiyyətə qovuşan dahi şairlərindən biri də Vəxtiyar Vahabzadədir. O, bütöv bir zamanda yazıb-yaradan, nəsillərə örnək olan bir şəxsiyyətdir. Şairin lirikasında vətən eşqi, torpaq sevgisi, türkçülük, azərbaycançılıq, xalqına sədaqət, yurduna bağlılıq qeyd olunmalı xüsusiyyətlərdir. Bəxtiyarın lirikasını bir neçə hissəyə ayırmaq olar. Onun lirikasının əsas tərəfini şeirləri təşkil edir. Bu şeirlərin məzmunu müxtəlifdir: vətəndaşlıq hissi ilə yazılan şeirlər, sevgi şeirləri, yurd şeirləri, təəssürat şeirləri, fəlsəfi şeirlər, kədərli şeirlər, əlvan şeirlər, həsrət nəğmələri və s.

Bunlar Bəxtiyar yaradıcılığında sevinc və qəmin, xoşbəxtliklə bədbəxtliyin, lirik duyğularla epik düşüncələrin bir nöqtədə birləşməsi ilə ruhumuza hopur. Şairin şeirlərində lirik «biz» lirik «mən»dən çox güclüdür. Doğrudur, onun fəlsəfi şeirlərində lirik «mən» məzmunun içində yaşayır. Şairlə oxucu arasında əlaqəni lirik «mən» yaradır. Onun «Ömür», «Qara saçlar, ağ saçlar», «Ömrün payızı», «Nəsə çatmır», «Baş», «Xeyir-şər», «Tamah-ləyaqət», «Qanmaq, qanmamaq», «Vicdan xəstəsiyik» kimi şeirlərində insan, onun problemləri məzmun içində dolğun öz əksini tapır.

B.Vahabzadə məkan və zamandan ucada duran şairdir. Onun lirikasının konkret məkan və zamana tabe olmaması şeirlərinin vüsətini göstərir. Onun lirikasının nüfuz dairəsini poetik zaman və məkan anlayışları üzrə şaxələndirə bilərik. Onun şeirlərində poetik zaman və məkan bizə nə qədər doğmadırsa, ümumilikdə lirikası da zaman keçdikcə o qədər türklüyün hüdudlarındakı sevgiyə qovuşur.

Bəxtiyar şeirində təbiilik, səmimilik duyulur. Bu şeirlərdə nəvaziş, oxşama vardır. «Ülkərin əfsanəsi» şeirində şair qəhrəmanını kədər içində oxşamaq istəyir. Bu şeir şair Əliağa Kürçaylının vəfatına dözməyən Ülkərin vaxtsız ölümünə həsr olunmuşdur. Şeirin estetik gözəlliyi matəm əhval-ruhiyyəsi ilə qoşadır. Bəxtiyarın bütün şeirləri incə duyğuların yaratdığı dəyərlərin poetik səslənişidir.

Açar sözl r: Lirika, poetika, türkçülük, lirik “mən”, lirik “biz”

LYRICS OF BAKHTIYAR VAHABZADEH

ABSTRACT

One of the distinguished poets of the Azerbaijani literature is Bakhtiyar Vahabzadeh whose creation is characterized with the patriotism, love for the land, Turkism and Azerbaijanism, dedication to the nation and homeland. The fundament of his lyrics consists of the poetry. The content of his poetry is different including verses about the patriotism, love, homeland, impressions, phylosophy, sadness and joy etc. These feelings imbue our souls with the connection at one point of saddness and joy, happiness and sorrow, lyrical feelings and epic thoughts. The lyrical “us” in the poetry of Bakhtiyar Vahabzadeh is much more stronger than the lyrical “me”. The lyrical “me” creates the linkage between the poet and the reader. In his verses such as “The life”, “Black hair, white hair”. “The autumn of the life”, “Something is missing”, “The head”, “The Good and the Evil”, “The Greediness and the Dignity”, “To understand or not”, “We are the sick of conscience” the problems of the human are reflected.

Bakhtiyar Vahabzadeh is a poet who stands above the time and space which is asserted by his poetry not being subject to the time and space.

Key words: lyrics, poetry, Turkism, lyrical “me”, lyrical “us”

Azərbaycan ədəbiyyatının XX əsrdə yetişdirdiyi şairlərdən biri də Bəxtiyar Vahabzadədir. O, yaradıcılığı etibarilə bütöv bir tarixi zamanda yaşayıb-yaradan, nəsillərə örnək olan bir şəxsiyyətdir. Şair öz yaradıcılığı boyu həmişə öz məsləkinə sadiq qalmış, şeirlərində böyük vətənini, onun zəhmət adamlarını, təbiətini, insanların daxili aləmini tərənnüm etmişdir. Onun şeirlərində türkçülük, azərbaycançılıq, xalqına sədaqət, yurduna bağlılıq qeyd olunmalı xüsusiyyətlərdir.

Bəxtiyar Vahabzadənin lirikasını üç hissəyə ayırmaq olar: fəlsəfi lirika, məhəbbət lirikası və təbiət lirikası. Fəlsəfi lirika onun poeziyasının əsasını təşkil edir. Bu şeirlərdə şair öz fəlsəfi düşüncəsini oxucularla bölüşür. Onun təbiət lirikası isə nisbətən azdır. Şairin sevgi şeirləri fəlsəfi lirika ilə təbiət şeirləri arasında həm fəlsəfi məzmunu, həm də mənəvi duyğuları ilə ifadə olunan poetik lirikadır.

Bəxtiyarın fəlsəfi və məhəbbət-təbiət şeirlərinin məzmunu müxtəlifdir: vətəndaşlıq hissi ilə yazılan şeirlər, sevgi şeirləri, yurd şeirləri, təəssüratlardan doğan şeirlər, lirik-fəlsəfi şeirlər, kədərli şeirlər, həsrət dolu şeirlər, əlvan şeirlər və s.

Bəxtiyarın lirik-fəlsəfi şeirlərini ideya və məzmunca təhlil etmək məqsədə uyğun olduğundan onların təhlilini də bu istiqamətdə aparmağı düşünürük. Şair «Yaxşı adam» şeirində insan problemini aktual mövzu kimi diqqətə çatdırır. İnsan kimə deyirlər? – bu, şairi düşündürür, oxucudan soruşur:

Yaxşı adam!
Söylə görək
yaxşılığı nədir onun
Xislətini sayma mənə
bir-bir onun!..

Şeirin struktur təhlilini aparmış olsaq, burada insanlığa verilən tərif yaxşı adama verilən məzmunla üst-üstə düşür.

Xeyirlə şər – yol yoldaşı,
Dayanıbdır ömrümüzlə yan-yanaşı.
Hər insanın cövhərini tanımaqçın
Nədir bizə məhək daşı? (1, s.18)

Yaxşı adamlığa cavab kimi şair yaddaşa həkk olunan bu misraların sonunda «məslək», «amal», «dil» metaforik-bədii ifadələrini verir. Ümumi nəticə olaraq, şeirin sonunu belə tamamlayır:

Yaxşı adam!
Söylə görək
yaxşılığı nədir onun?
Söylə görək məsləki nə,
eşqi nədir?
Qalan şeylər mənim üçün əfsanədir. (1, s.22)

Şeirdən göründüyü kimi, yaxşı adam olmağın atributları çoxdur. Şair onlardan az da olsa, bəhs edir. Şair özü də yaxşı adam olmaq istəyir. Müəllimlik etdiyi illərdə tələbə ilə üz-üzə duran vaxtlarda öz obyektivliyini qorumağa çalışır. Yaxşılıq, yaxşılıq etmək şairin şeirində fəlsəfi məzmundadır. O, bu fəlsəfi kateqoriyanı «Qiymət» poemasında geniş məzmunda işlədir. Müəllim üçün yaxşılıq tələbəsini savadlı görmək uğrunda çalışmasıdır. «Qiymət» poemasında bu yöndə şairin düşüncələrini, özünün müəllim kimi obrazını yaratdığını görürük.

Bir gün müəlliməm,
Bir gün şairəm.
Daim bir məcazda ola bilmərəm, -

deyirsə, sonrakı misralarda o, hər iki sənət arasında yaxınlıq axtarır:

Müəllimlik mənim günüm, həyatım,
Şairlik – ən uca duyğularımdır. (1, s.192)

Amma poemanın «Son söz»ündən belə görünür ki, şair müəllimliyini qazanılmış ikinci sənət hesab edir, öz şairliyini isə fitrətinin ona verdiyi xüsusiyyət sayır. O, şairliyin nə qədər çətin olduğunu fəlsəfi düşüncələrində də qeyd edir:

Dünyanı dünyaya göstərən oldun,
Təmizlik – məsləkin, ucalıq – tanrın,
Xəyanət bilməmiş sənətin dili,
Ucalıq eşqi ilə yaşayanların,
Məsləki düzlükdən od götürməli! (1, s.207)

Bəxtiyar Vahabzadə vətəndaş şairdir. O, vətən dilini hər cür təsirlərdən qorumağı borcu hesab edir. Vətənin dilində danışmağı ar bilənlərə qarhı «Ana dili» şeirində kəskin etirazlar edir.

Ey öz doğma dilində danışmağı ar bilən
Bunu iftixar bilən
Modalı ədəbazlar
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar. (2, s.9)

Şair ana dilinin hamı üçün işlək dil olmasını təqdir edir. Onun fikrincə, xalqını sevən onun dilini də sevməlidir. Ana dili insanın mənəviyyatını ucaldan başlıca meyardır. Şair üçün mənəviyyatlı olmaq insanın içindən gələn hissləri ilə bağlıdır. O, insanın mənəvi problemləri içində mənəviyyatsızlığı önə çəkir:

İnsanı tez yorar düşüncələr də,
Verib nəfəsini dərd udar insan.
Özündən başqası olmayan yerdə,
İnsan olduğunu unudar insan. (2, s.10)

Şeirdə şairin lirik «mən»i öz «qəhrəmanı» ilə üz-üzədir. Şairin lirik «mən»i öz fəlsəfi düşüncələri ilə onu tərbiyə etmək istəyir. Şairin lirik «mən»i öz «qəhrəmanlarına» - dostlarına müraciətlə deyir:

Dostların qəlbidir yurdum, məskənim,
Ürəkdə bir nisgil gərək olmasın.
Sağlığım bir yana, a dostlar, mənim,
Soyuq məzarım da heç tək olmasın. (2, s.11)

Şairin lirik «mən»i həmişə axtarışdadır. «Dağda şəlalə kimi» şeirində də onun lirik «mən»i şairi düşündürən bütün suallara cavab axtarır: «Heç üzə çıxarmı çalxalanmasa ümman?», «Kədərdəki nəşəni, şövqü anlamayanlar, Həyatın nəşəsindən, fərəhindən nə anlar?» misralarını tamamlayaraq şair yaşamağın yanmaq olduğunu demək istəyir. Bütün bu narahatlıqlara baxmayaraq, şairin lirik «mən»i nikbindir. O, öz şeirini uca zirvələrə qaldırmaq istəyir. Bu istək şeirdə belə ifadə olunur:

Bir rəngi yox, göylərin min rəngini sevirəm,
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,
Həyatı həyat kimi yaşamaq istəyirəm,
Yaşamaq istəyirəm! (2, s.11)

Şeirdə fəlsəfi lirika ilə vətəndaşlıq ruhu bir ahəngdə birləşmişdir. Şeirin sonundakı «yaşamaq istəyirəm» nidası onun nəyin uğrunda yaşamaq istəməsini üzə çıxarır. Bunlar əsl həyat uğrunda bəşəri düşüncələr olub həyatın mənasını tapmaq arzusunda olan şairin poetik axtarışlarıdır.

Bəxtiyar Vahabzadənin yaradıcılığında vətən mövzusu aparıcı xətlə inkişaf etməkdədir. Vətən onun şeirlərində doğulduğu şəhər anlamında deyil, bütöv Azərbaycanı əhatə edən sözdür. «Vətəndən-vətənə» şeirində isə şairin Vətən duyğuları ana torpağa bağlı olub, o taylı-bu taylı Azərbaycanı nəzərdə tutur.

Arazın
bu tayı Vətənim,
o tayı Vətənim.
Vətəni görməyə amanım yox mənim. (2, s.16).

Vətən duyğusu başqa bir şeirdə də öz əksini tapır:

Bu qəmim, bu dərdim dağlardan ağırdı,
Arazın suyuna qarışıb axıram.
Füzuli həsrətlə qürbətdən Vətənə baxırdı,
Mən isə…
Vətəndən – Vətənə baxıram. (2, s.17)

Şair Vətənin müqəddəsliyini başqa bir şeirində də yada salır: Vətən qeyrətini çəkməyənlərin oğul adlanmamasını yazır:

Vətən qeyrətini çəkməyən oğul,
Həm özünə yükdür, həm özgəsinə,
Bu dildə dərs deyib, qazandığın pul,
Yediyin çörək də haramdır sənə! (2, s.46)

Yaxud:

Vətənin dilinə gərəksiz deyən
Vətənin özünü necə seair bəs? (2, s.46)

Şairin şeirlərində «vətən» sözü vətən dilinin sinonimidir. Şairin dil haqqında dediyi sözlər də mənalıdır. «Mənim anam» şeirində o, dil haqqında düşüncələrini verir.

Bu dil ilə tanımışam
Həm sevinci,
Həm də qəmi…
Bu dil ilə yaratmışam
Hər şeirimi
Hər nəğməmi! (2, s.52 – 53).

Şairin lirikasında ana mövzusu həmişə öndə olmuşdur. Bəxtiyarın «Ana haqqında şeirlər» silsiləsindən «An – min il» şeirini qısa təhlil etsək, bu təhlilin poetik misraların qabağında sönük olduğu görünər. Ana itkisi ağır kədərdir. Bu kədərin şairin duyğularında izah olunması övlad üçün ağırdır. Amma şair bunu bacardı. Bu hissiyat nəşədən sonrakı kədərin qəmlər əlində əsir olmasının nəticəsidir.

Anamın ölümündən,
Bir an keçib,
ancaq o,
Daş olub insan ikən,
Öz-özünü danıbdır
Bircə anda
o bizdən
Min il aralanıbdır. (2, s.19)

Bu silsilənin «Zaman» hissəsində şair insanların vaxta biganəliyindən şikayətlənir, «zaman» məfhumunun insanlar üçün hələ itmədiyini yada salır.

Nədən məzarlıqda vaxt düşür yada?
Demə o burda da, burda da varmış!
Ölülər məskəni – məzarlıqda da
Zaman, qədəm-qədəm addımlayırmış. (2, s.20)

Zaman haqqında şairin düşüncələri müxtəlifdir. O, gah zamanın insanlar tərəfindən uydurulduğunu, gah da zamanın mücərrədliyini deyir. Burada şairin zaman düşüncəsi özü mürəkkəbləşən bir anlayışdır.

Yurd sevgisi də həmişə şair yaradıcılığında ən uca zirvəyə qalxıb. Bütün şairlərin yaradıcılığında doğulduğu torpağa ithaf olunan şeirlər olur. Bu şeirlər əksər hallarda lirik məzmun daşıyır. Bəxtiyar Vahabzadənin doğulduğu Şəkiyə ithaf etdiyi şeirlər isə fəlsəfi lirikanın məhsuludur. Yəni bu şeirlərdə yüksək poetik dillə yanaşı, fəlsəfi lirika da vardır. Şair fəlsəfənin dili ilə Şəki haqqında düşüncələrini oxucu ilə bölür. Bəxtiyarın «Şəki» şeiri yüksək fəlsəfi lirikanın bariz nümunəsidir.

Mən sənin qoynunda gəldim cahana,
Məni bəxş elədin Azərbaycana.
Həmişə mən sənin həndəvərində
uçan bir quşam,
Bir eldə doğulub
xoşbəxtəm ki,
Böyük bir Vətənə oğul olmuşam. (2, s.73 – 74)

Şəkiyə həsr olunmuş daha bir şeir. Yurd sevgisi «Ata yurdu» şeirində daha açıq şəkildə qorunur. Şair bu şeirdə doğulduğu «Yuxarı baş» məhləsindəki bir gözlü ata evini yurd sevgisinin məskəni edir.

Şəkidə məhlə var nə qədər desən,
Gəldim bu dünyaya
«Yuxarı baş»da
Bir göz evimizdə nə desən vardı,
Taxça aşağıda, buxarı başda.

Çıxdı ahıllığım o evdən çölə
Amma uşaqlığım yuxarı başda.
İndii mən həsrətəm ata yurduna,
Odu ürəkdədir, buxarı başda! (2, s.80)

Sanki bu şeir ilə şair Şəki memarlığının özünəməxsus xüsusiyyətlərindən danışır. Amma ata yurdundakı memarlıq nişanələrinə öz nisgilini qatır. Şeirdə şair təzad yaradır. O, öz ahıllığı ilə uşaqlığını ata yurdunda görüşdürür.

Bəxtiyarın fəlsəfi lirikası «Piyada-sərnişin» şeirində də qorunur. Şair ömürdən keçən illəri fəlsəfi dillə mənalandırır. Bu fəlsəfi lirika oxucunu düşündürəndir. Onu özünə hesabat verməyə çağırır. Şeirdə «yol» semantik məzmundan savayı, məcazi mənalarda da işlənir. Yol – mənzil başına aparır, yol zirvəyə aparır, yol – ömrün sonuna aparır.

Sərnişin yol getdi, yoldan xəbərsiz,
Bilmədi bu yolda kələ-kötür var.
Ancaq piyadanın, xəbər-ətərsiz
Alnında iz açdı getdiyi yollar. (2, s.74)

Şair də haqq yolunun yolçusudur. Onun ömür yolu rahat yol olmamışdır. Özünün dediyi kimi

Ömür yollarında «rahat» gedənlər –
Zirvələr başına ucala bilməz.
Təkərlər üstündə diyirlənənlər,
Çatdığı mənzildə bənd ala bilməz. (2, s.75)

Bəxtiyar şeirində yuxu psixoloji yük daşıyır. Allahın yuxusu, insanın yuxusu, yuxunun sonu olurmu? Bu kimi suallara şair cavab axtarır. «O nədir?» şeirində yuxunun bir çox semantik simvolları açılır. Şair «Dünya ulu tanrının yuxusudur» deyir. Qlobal mənada şairin düşüncəsində dünya yatır. Onun oyanması üçün şair lirik ricət edir:

Onun da
insan kimi
var olsaydı gözləri,
tərpənərdi yerindən,
çıxardı mehvərindən.
Tanrının da yuxusu
Dağılardı o zaman. (2, s.92)

Tanrının yuxusu gəlir, dünya yatır. Ona görə də Şər Xeyirə üstün gəlir. Şeirdə də bu fəlsəfəni görmək olar. Bu fikrin antitezasını irəli sürmək olar: Tanrı Xeyirin tərəfindədir. Şair poetik lövhələrlə tanrı haqqında bədii düşüncələrini oxucuya çatdırır.

Fəlsəfi lirikaya meyillənmək şairin fitrətindədir. O, yeni fikir tapmaq üçün poetik axtarışlara çıxır. Seçdiyi misra belə fikrin məna yükünün dolğunlaşmasına gətirib çıxarır. «Ümidə heykəl qoyun» şeirində də misra fikrin poetik mənalanması ilə yadda qalır. «Ümidlə qol-boyun olmaq», «ümidin ömrünün ömrümüzdən uzun olması» kimi poetik qəliblər şeirdə bədii ahəng yaradır.

Ümid bizdən çox yaşar,
O nə əvvəl, nə sondur.
Ümidin ömrü, vallah,
Ömrümüzdən uzundur. (2, s.131)

Bəxtiyar şeirindəki bu fəlsəfilik ayrı-ayrı şeirlərdə bir-birindən seçilir. «Yalan bazarı», «Bir ömür yuxu», «Bir ürəkdə dörd fəsil», «Ömür» və s. şeirlərini hər birinin özünə məxsus fəlsəfi mənası vardır. «Yalan bazarı»nda satılan mətahlara alıcının aldanması, «Bir ömür yuxu»da yuxunun tərsə yozulması, həyat eşqi, «Ömür» şeirində şamın yanmağında da məna axtarmaq, «Bir ürəkdə dörd fəsil» şeirində isə təbiət-insan münasibətlərinin sonunda insan ürəyinin bir saat içində dörd fəsil yaşamasının sirri ilə üz-üzə qalırıq.

Bəxtiyar Vahabzadə həyat haqqında düşüncələrini «Qorxu» şeirində elə təsvir edir ki, ilk insanın nə vaxtsa odla tanış olmasını belə düşünürsən. İbtidai insan oda hansı hisslərlə baxıb? Şair bu hissləri öz dərkində yaşamaqda olub. O, ilk qorxunun yaranmasında odla bağlı «cız»

sözünün vahiməli səslənişini, odla uşağın təmasını, onun oda vurulmasını, odu sonradan müqəddəsləşdirməsini maraqlı lövhələrlə təsvir edir.

Mənə «cız» - dedilər,
Ancaq qorxmadım.
Əlimi yandırıb tanıdım odu.
Mənim həyat ilə ilk tanışlığım,
Əlimi yandıran oddan başladı.
Elə ki, yandım
Odla oynamaqdan qorxdum, dayandım.
Başladı qorxu –
Başladı ehtiyat –
Başladı həyat… (2, s.169)

Şeirdə ömrün bir anının qorxunun yaranmasına necə səbəb olması düşündürücüdür. Şairin fəlsəfi duyumunda bu qorxu «dünyaya gələli, bilmirəm nədən, nəyə vurulduqsa yandırdı bizi» fikri ilə izah olunur.

«Anam təzədən böyüyür» şeiri isə lirik ovqatın məhsuludur. Şeir başdan-başa lirik hisslərlə doludur. Şeirdəki lirika fəlsəfi duyumu üstələyir.

Bir vaxt anam mənə can-can deyərdi,
İndi mən anama can-can deyirəm.
Bir vaxt anam məni çox istəyərdi,
İndi mən «anamı» çox istəyirəm. (2, s.170)

Şeirdə ana məhəbbətinin yerinin bala məhəbbəti tutmasını, sadəcə məhəbbətin öz yerini ana-övlad-nəvə arasında qəlbə uyğun olaraq dəyişdirməsini görürük.

«Həsrət nəğmələri»ndə lirik şeirlərə də rast gəlinir. «Gəlir», «Bir salama dəymədi», «Həsrət», «Özündən ayrıla bilməyəcəksən», «Kəpənək», «Yaman darıxmışam», «Bəxtiyaram mən», «Sən getdin», «Sənin dilindən», «Qocalmır», «Sən oluram mən», «İşıq surəti» şeirlərində epik lövhələr yaratmışdır. Bu şeirlərdə lirik duyğular şairin poetik axtarışlarının nəticəsi olaraq meydana gəlmişdir.

Şairin lirik şeirləri poetik gücünə görə o qədər diqqəti cəlb etmişdir ki, onların nəğməyə çevrilməsinə səbəb Bəxtiyar sözünün sehri olmuşdur. Məsələn, «Bəxtiyaram mən», «Sən getdin», «Sənin dilindən» şeirləri həm də nəğmə kimi oxunur. Bəxtiyar şeirlərinin bir xüsusiyyəti də odur ki, bu şeirlər özü nəğmə təsiri bağışlayır. Buna səbəb isə şeirin poetik cəhətdən yüksək səviyyədə olmasıdır.

Bəxtiyar şeirlərində, poemalarında şairlə xalq üz-üzədir. Şair xalqından öyrənib, xalq da şairini sevib. Son sözümüzü Bəxtiyar Vahabzadənin «Gəlin açıq danışaq» kitabında Cənubi Azərbaycan şairi Sönməz haqqında dediyi misralarla başa vurmaq istəyirik. «Beləlikl, biz şeirlərə adi şeirlər kimi deyil, öz haqqı uğrunda ayağa qalxmış xalqın könül nəğmələri kimi baxırıq. Bax, bu nöqtədə şair xalqla birləşir, onun düşünən beyninə, danışan dilinə çevrilir» (5, s.181).

D B YYAT

1. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. 2 cilddə. 2-ci c. (poemalar). Bakı: Azərnəşr, 1975.
2. Bəxtiyar Vahabzadə. Seçilmiş şeirləri. 2 cilddə. 1-ci c.. Bakı: Öndər» nəşriyyatı, 2004.
3. Bəxtiyar Vahabzadə. Seçilmiş şeirləri. 2 cilddə. 2-ci c.. Bakı: Öndər» nəşriyyatı, 2004.
4. Bəxtiyar Vahabzadə. Payız düşüncələri (şeirlər). Bakı: Yazıçı, 1981.
5. Bəxtiyar Vahabzadə. Gəlin açıq danışaq… (məqalələr toplusu). Bakı: Azərbaycan, 1989.

BAHT YAR VAHAPZADE'N N RLER NDE HAYAT FELSEFES

Yrd. Doç. Dr. Kemal EROL

Yüzüncü Yıl Üniversitesi Eğitim Fakültesi
Türkçe Eğitimi Bölümü Öğretim Üyesi
Van/Türkiye
Mail: lameklare@gmail.com

ÖZET

Bahtiyar Vahabzade (1925-2009), Azerbaycan şiirinin en büyük temsilcilerinden biridir. Onun bütün eserlerinde, bilhassa şiirlerinde, dikkat çeken en temel egemen unsur, hayata felsefi bakışının hikmetli havasıdır. İnsan ve tabiat bütünlüğünü esas alan şiirleri, lirik ve epik bir anlatıma dayanır. Şair, ölüm gerçekliği karşısında dünya hayatının yalan yüzüne kanmadan İslam itikadına uygun teslimiyetçi bir tavır sergiler.

Bahtiyar Vahabzade, eserlerinde hayata ve dünyaya ilişkin kendine özgü bir yaşam felsefesini ortaya koymaktadır. Zengin muhayyilesi, hakikate dair derin tefekkürü; hayal ile hakikat, yalan ile gerçek, dünya ile ahret, hayat ile ölüm, varlık ile yokluk ekseninde sayısı kırkı aşkın şiir kitabındaki metinlerin çoğuna bariz bir şekilde nüfuz etmiştir. Şair, bireyin hak ve hürriyetine, toplumun temel değerlerine gösterdiği hassasiyet kadar, din ve ahlak kurallarına da önem vermektedir. İnsanın geçici his ve heveslerle zaman geçirmek yerine asl olan değerlere bağlanması ve hayatını buna göre düzenlemesi gerektiğine inanır. Allah, ahret; yaşlılık, ölüm; ayrılık, hasret; dünya hayatının geçiciliği ve değmezliği, geçmişten ders alarak geleceğe yöneliş, öteler fikri ve hakikat arayışı bir bütün olarak şiirlerinin odağında yer alan tematik unsurları oluşturur.

Anahtar Kelimeler: Bahtiyar Vahapzade, şiir, hayat felsefesi, ölüm fikri

PHILISOPHICAL APPROACH TO WORLD LIFE IN BAHTIYAR VAHAPZADE'S POEMS

ABSTRACT

Bahtiyar Vahapzade is one of the biggest Pioneer of Azarbaijan poetry (1925-2099). The most striking main premineent factor is atmosphere of thought provoking to his philosophical approach to world life in all literary outputs, especially poems. His poems which get on wholeness of human and nature, are predicted on Iyric and epic expression. Poet behaves submissive attitude to Islamic beliefs, not to be deceived for Iying face of world life.

Bahtiyar Vahapzade presents dinstinctive philosophy of life on approach of life and world. His wanton imagination has penetrated appearantly the truth of profound meditation between image and real, lie and fact, life and after life, wealthy and poverty on over his fifty poem books.Poet attaches importance individual rights and liberties,fundamental values of society as much as religion and moral rules.Rather than spending time with a temporary feeling and emotions of humanbeing, being dedicated to important values and regulated their life accordingly are believed. God, afterlife, old age, death, seperation, longing and transience of life on earth, taking lessons from the past to the future orientation, intellectual and truth-seeking creates the tematic elements as a whole.

Key Words: Bahtiyar Vahapzade, poem, life philosophy, the idea of death

Giri

Bahtiyar Vahabzade'nin hayata dair görüşleri, itikatla ilgili düşünceleri, hayalden hakikate ulaşma çabası, gerçeği bulma arayışı, gelecek ile ilgili tasavvurları ve nihayet bütün bunlara ilişkin bakışını özetleyen şahsî hayat felsefesi ölüm fikri ekseninde cereyan eder. Onun telakkisine göre insanın talihi, dünyanın mukadderatına bağlıdır; dünya ise geçici ve aldatıcı olduğuna göre yaradılışın hakiki gayesine bakmak gerekir. Bu durumda dünyaya ve dünya hayatına bir gaye biçmek, dünya haricinde bir şey tasavvur etmek ile mümkün olabilecektir. Zira semavî dinler ile yüksek idealler peşinde koşan filozoflar da dünyayı anlamlandırırken harici bir kudreti tasavvur etmiş, ikisi arasında bir bağlantı kurmuşlardır. Söz konusu kudret, Allah'tır. Allah'ın varlığı, dünyanın gayesini ve anlamını belirler. Bu bağlamda dünyanın kör tesadüflerin mahsulü olmadığını ileri süren düşünürlere göre de yaşamayı ve inkişafı gerektiren mefkûre, ulvî gayenin tahakkukuna matuf olmak, yani evrenin yaratıcısını (Allah'ı) yüceltmek olmalıdır. Bu tespit, aynı zamanda "Allah, dünyayı niçin yarattı?"[1] sorusuna da bir cevaptır. Azerbaycan

[1] Bu sorunun cevabında bütün Semavî dinlerin yaklaşımı örtüşmektedir. Örneğin, Hıristiyan mistiği Echart'a göre, mahlûkat âlemi "Mutlak Varlık"ın yani Allah'ın kendisinden zorunlu bir unsurdur. Buna göre Allah, evreni

edebiyatının tanınmış millî şairlerinden Bahtiyar Vahapzade de dünya hayatına dair felsefesini bu metafizik merkezden yola çıkarak oluşturmuştur.

iir Sanatı ve Toplumsal Fikri

Bahtiyar Vahapzade, oluşturduğu şiir sanatının kendi dünya görüşünü ve sanat gerçekliğini yansıttığını ifade eder. İnanç ve idealleri ile eşya ve tabiat karşısındaki duyarlığının tamamıyla şiire nüfuz ettiğini, bu yüzden şiir sanatının kendisi için hayat felsefesinin beyanı olduğunu söylerken; özellikle "Şi'rim, Menim İmanım" adlı manzumesi için 'sanat tüzüğüm' demektedir: *"Hakikaten bu şiir benim sanat tüzüğümdür. Çünkü meydana gelen, meydana getirenin hakikaten imanıdır, dinidir, akidesidir. Buradan hareketle diyebilirim ki yazdığım şiirler hissimin, fikrimin, akidemin ifadesi olmakla benim imanımdır, dinimdir, hayat gayemdir. (…) Demek be-nim için şiir yürekte coşup taşan, çatışan duyguların, beynimi kemiren fikirlerin ifade vasıtasıdır."*[1]

Bahtiyar Vahabzade'nin kendi sanat anlayışının sınırlarını "insan ve hayat" merkezli bir duyuş ve düşünüş biçimi tayin etmektedir. Bu nedenledir ki vatan, millet, hürriyet, adalet; dil, kültür, sanat ve edebiyat kavramlarını bu merkezden bu merkezden ele alır. Toplumu ilgilendiren pek çok sorunu şiirine çok güçlü ifadelerle yansıtır. Şiirlerinde işlediği az sayıda bireysel konuların dışında tamamen toplumcu bir anlayışa sahip olan şair, ezilen, sömürülen, hürriyetleri ellerinden alınmış, yabancı kültürlerin baskısı altında yaşamaya ve yabancılaşmaya mahkûm edilmiş insanların acılarını; esir milletlerin dramlarını bir halk ozanı kimliği ile dile getirir. Onun halk şairi kimliğine felsefe, tarih ve sosyoloji gibi sosyal bilimlere vakıf; zengin, sağlam ve seviyeli bir entelektüel duruş hâkimdir.

Bahtiyar Vahabzade, ait olduğu milletin millî ve manevi değer yargılarını, kültürel aidiyetlerini ve tarihî mirasını kendi şiir sanatının merkezine almış, bunları şiiri besleyen temel kaynaklar olarak korumuştur. Bu nedenle onun, Tanzimat dönemi Türk şairlerinden Namık Kemal'in fikir çizgisinde yol aldığı söylenebilir. Nitekim *"Tek kelimeyle vatanın ve halkın acılarını sızılarını şahsi acılar sızılar gibi kendi kalbinde yaşatan bir vatandaş olmadan, vatanın şairi olmak mümkün değildir"* sözleri de ikisinin vatan şairi olmak konusundaki yakınlığı göstermektedir. Vahapzade de Azerbaycan edebiyatının vatan ve hürriyet şairi olarak kabul edilmektedir.

Vahapzade'yi çağdaşlarından farklı kılan meziyetlerinden biri, sanatkâra zaman mefhumunun, öğreticilik vasfının ve şair duyarlılığının ne kazandırdığının ileri düzeyde farkında olmasıdır. Bir Azeri manide ifade edildiği gibi *"Yıl var bir güne deymez / Gün var min aya deyer"*. Bu anlamda denilebilir ki, Vahapzade'nin kazandığı başarıların arkasında vakit ve onun nisbiliğini idrak etmiş olması yatar. Edebiyat ve sanat hakkında fikir ve düşüncelerini eserlerine aksettiren şairin kendi hayatında zamanın değerini, öğretici olmanın önemini ve şairlik mesleğinin kendisi için ne anlam ifade ettiğini şöyle belirtir:

"Yarıya bölünür günüm saatım,
Vakt menim servetim, menim varımdır.
Müellimlik menim günüm, heyatım,
Şairlik en uca duygularımdır."[2]

---

yaratmakla "Ulûhiyet" vasfını kazanmıştır. Bu durum, "Mutlak Varlık"ın kendini tanıma gayesiyle ilişkilidir. Keza, Hegel'e göre de tekâmül, mutlak ruhun kendi şuuruna sahip olması sonucu gerçekleşir. Bu durumda İslâmiyet ve Hıristiyanlık dinlerine göre Allah, "hilkât-ı âlem"i tanınmak ve anlaşılmak için; Echart gibi mistik filozoflara göre de kendini tanıtmak için dünyayı yaratmıştır. İster tanınmak, isterse tanıtmak için olsun, yaratıcıya karşı insanın kâinattaki nihaî hedefi, var olma veya yok olma tercihidir. Buna göre, inandığı yaratıcıyı, belirlenmiş kulluk vazifesini yerine getirmek suretiyle yüceltmeyen insan veya cemiyetler için dünya hayatının anlamı yoktur. (Bkz: Mehmet İzzet, "Cemiyet, Gayelilik ve Determinizm II" *Makaleler*, (Haz: Coşkun Değirmencioğlu), KB Yay., Ankara 1989, s.346.)

[1] Bahtiyar Vahapzade, "Otobiyorafim", *Ömürden Sayfalar* (Aktaran: Dr. Yusuf Gedikli, Ötüken Neşriyat, İstanbul 2000, s. 13-33.

[2] Bahtiyar Vahapzade, "Otobiyorafim", *Ömürden Sayfalar* (Aktaran: Dr. Yusuf Gedikli, Ötüken Neşriyat, İstanbul 2000, s. 13-33.

Vahapzade, sanatçı ve mütefekkir kimliğini vatan, millet ve insanlık sevgisi, tarih ve dil bilinci ile yoğurmuştur. Zira o, sanatın "millet için, vatan için tüm insanlık için yapıldığı zaman" ancak bir değer ifade edebileceğini söyler.[1]

Toplumsal Ele tiri

Bahtiyar Vahapzade'nin hayat felsefesini anlamanın bir yolu da eleştiri odağına aldığı konu ve çevreleri tanımakta geçer. O, toplumsal meseleler karşısında hassas bir şair duyarlılığına sahiptir. Toplumsal sorunlar, çözüm bekleyen millî meseleler onun şiirinin ilgilendiği temel konulardandır. Hayatı boyunca hak ve hakikat yolunda mücadele etmiş olması, kendisini Azerbaycan tarihine millî kahraman vasfıyla geçmesini sağlamıştır. Yabancı kültürlere, ait olmadığı değer yargılarına ve törelere özenen, seviyesiz modalara düşkün çevreleri eleştirmiş; gençleri taklitçilikten uzak durmaları yolunda "kökten soydan ayrılmayın" sözleriyle uyarmıştır. Kendi dilinden utanan yobazları da şu bir şiirinde şöyle beddua eder:

"Ey kendi öz dilinde konuşmayı ar bilen
Hodbin düşkün yobazlar
Ruhunuzu okşamaz koşmalar, telli sazlar
Bunlar ver benim olsun,
Fakat vatan ekmeği, sizlere genim olsun."

Vahapzade, birey ve toplum davranışlarındaki yanlışları, bunlardan doğan korkularını dikkatlere sunmak için şiirlerine yansıtır. "Vicdan" şiiri, onun bireysel ve toplumsal hayatta karşılaştığı olumsuzluklara, benimsenmiş yanlışlara bir reddiyesi ya da eleştirel bir tutumudur. Doğru - yanlış, iyi – kötü, hak - batıl gibi zıt kutupların buluştuğu kavşaklarda takip edeceği yolu seçmeye çalışırken bocalayanlar, şairin korktuğu insan tipleridir. Bildiği ve tanıdığı halde seçiminde menfaat icabı müteredditdavrananlar, onun nazarında güvenilir inançlı kimseler değildir. Sosyal hayatta haddini ve hesabını bilmezlik, Bahtiyar Vahapzade için korkunun bir başka sebebidir. Sinek kadar gücüyle kendini dev sananlar, bağışlanmış şan şerefe layık davranmayanlar, alış verişte ölçüyü dikkate almayanlar, açların halinden anlamayıp tokluğundan kuduranlar, nefsine uyanlar ve merhametten yoksun vicdansızlar onun eleştiri odağına aldığı başlıca toplumsal kesimleri oluşturmaktadır. Bu temelde "Vicdan" şiiri, şairin ilkesel anlamda ölçüsüz insana eleştirel bakışını ortaya koyması bakımından önemlidir.

Bahtiyar Vahapzade, 1960'lı yıllarda başlayan "Azerbaycan Millî Bağımsızlık Hareketi"nin öncülerindendir. 1995 yılında Azerbaycan hürriyet mücadelesindeki hizmetlerinden dolayı İstiklâl nişanı ile ödüllendirilen Vahapzade, bir yıl sonra toplumsal eleştiri veya yergi sayılabilecek türden "Vaydır Ekdiğiniz" şiirini yazdı. Toplumsal sömürü, hakkı gasp etme, milletin kanı üzerinden siyaset yapma, kısmetine razı bir halka boş yere ümit verme anlayışı yerilir. İnsaf ve mürüvvet tanımaz kimseler, memleket darda iken keyif sürenler, yetim evlerinde kimsesizlerin inleyişlerine kayıtsız kalanlar, tüyü bitmemiş yetim hakkına tenezzül edenler hicvedilir. Şiir, bu zümreden kimselerin yedikleri haram kadar kusacakları günün, yanı yaptıklarının hesabını verecekleri zamanın mutlaka geleceğine ilişkin bir inancın terennümüdür:

"Ey cibi dolular, üreyi boşlar,
Ey servet delisi, köhne nahoşlar,
Ey qeyret damarı kesik gedalar,
Peyseri qatbaqat iddialılar,
(…)
Sizin yediyiniz milletin haqqı,
İlişib qalmadı boğazınızda.
Yeyin tısqırınca, yeyin ölünce,
Bu millet eriyib çöpe dönünce.
(…)

[1] Yalçın Ünlü, "Ben Fikirlerin Çırpınan Seli'yem, Ben Bahtiyar Vahapzade'yem", *Kümbet Dergisi*, 2009, s.15.

Milletin qanıdır servetin varın,
Siz öz kefinizde, memleket darda.
Geceler çadırda ac yatanların
Payını uduzun kazinolarda.
(…)
Tamahın dibi yox... Dağıdın, sökün,
Hele yerinizde cağbacağsınız.
Göyden Allah baxır, gelecek bir gün,
Yediyiniz qeder qusacaqsınız."

"*Men Vahapzade değilem, milletimin diliyem!"* diyen Bahtiyar Vahapzade, ölçüsüz vatan ve millet aşkı kadar, sonsuz bir ecdad sevgisiyle de doludur. Aidiyetlerine ve atalarına olan yüksek mertebede bağlılığı, onu çağdaşları arasında farklı kılan bir başka yönüdür. Atalarından ve haçl

/ Elimdeki bayrağım. / Hayal gökte kanadım. / Yerde çapan Kırat'ım, / Denizdeyse yelkenim. / Sükut- mabedim benim!"

Öte yanda Vahapzade, hayatın iyi tahlil edilmesi, gerçeğin yeterli derecede kavranması, geçici olan değil, bâki olan varlığınõdikkate al

hiçbir şey ezeli olmadığı gibi ebedi de değildir. Zira dünyada var olduğu düşünülen her şey zıddıyla mevcuttur. Hayatın bir başı varsa, bir sonu da vardır. Doğmak kadar ölüm de haktır. O, İslâm akidesindeki her şeyin aslına rucü edeceği hükmüne inanır. "Sükût, Hayal, Muhabbet" başlıklı şiirinde *"Bu hayatın şartı yok. / Varla yokun dünyada benim için farkı yok."*diyen şair, "Elveda" adlı şiirinde geçici hayata sırtını çeviriyor, maddî anlamda kazanılmış ne varsa hepsine veda ediyor. Yolun sonunda sefası bitmiş ömrün sahibi, yokluğun cefasına hazır vaziyette ölümle başlayacak gerçek varlığı selamlamaktan başka çaresi yoktur.

"Deyirem sefası bitti ömrümün,
İndi dağ çıhıram, düze elveda.
Göze duman çökür, başa gar yağır,
Bahara elveda, yaza elveda.
(…)
İndi öz kökünden üzülen menem.
Özge budaglara düzülen menem.
İndi ne sen, sensen, ne de men, menem.
Biz ki, biz değildik, bize elveda."

Sanatını toplumcu bir anlayışla inşa eden Bahtiyar Vahapzade, ömrünün son demlerinde ölüm korkusunu yaşamaktan çok toplumsal mücadelesinin sona erme endişesiyle bir fikir san-cısını çektiğini, *"Yollar arasında çok talanmışam, / Fikirler elinde parçalanmışam"*[1] dizeleriyle dile getiriyor. Şair, yaşlılık döneminde ömrün sonuna yaklaştığı hissine kapılınca, geçmişi, hatırlama yoluyla bir film şeridine dönüştürüyor ve bu muhayyileden bir hakikate ulaşmaya çalışıyor. Tekrarı imkânsız geçmiş zamanın kaynaklık ettiği hüzün, şairin kendi zihni kadar bedenini de sarmalayan dayanılması güç bir acıya dönüşüyor. Bunun nedeni, bireyin tasarladığı hedefe ulaşmasını engelleyen zamanın yetmezliği, yani vefa etmeyen ömrüdür. Çünkü ait olduğu toplumun değerleri ve insanlığın geleceği uğruna verdiği hizmeti yetersiz görenler, daha fazla yaşama arzusunu taşırlar. Vahapzade'nin, "Dönge" başlıklı şiirinde *"Bu yollardan katar geçti / Kulağımda sesi kaldı. / Tükense de canda takat / Yaşamak hevesi kaldı"* sözleriyle dünya hayatına doyamadığını belirtmesi de bu nedenledir. Ömür boyunca insanın işlemiş 'el'inin yerini yaşlılık döneminde dertlenen 'dil'i alıyor. Zira yaşlılığında üretkenliğini kaybeden her sanatkâr gibi Vahapzade de derin bir sessizlik içinde hatıralarıyla baş başa kalıyor ve kazanımlarıyla teselli buluyor. Bahtiyar Vahapzade, vefatından yaklaşık on üç yıl önce yazdığı "Benden Habersiz" adlı şiirine bu duygularını yansıtıyor. Farkında olmadan gelip geçen koca bir ömrün kendisini tatmin etmediğini, *"Bir gün gördüm ki, güçten düşmüşüm / Yıllar öz atını sürdü eğersiz"* sözleriyle dillendiriyor. Yetmiş üç yaş yükünü omzunda taşırken belki de ilk kez yalnızca kendi dertleriyle sırdaş, fikirleriyle yoldaş olduğunu fark ediyor. Şairin bu manzumesi, adeta kendi yaşam sevincine gölge düşüren ölüm tefekkürünün ve mezar tasavvurunun tecessümüdür. Özne, top yekûn kendi ömründen mücessem bir tablonun karşısına geçmiş, onunla tekellüm halindeymiş gibi bir portre çiziyor. Adeta ömrün sahilinde rölantiye alınmış gibidir. Kendi mazisini zihin süzgecinden geçirirken, karşılaştığı manzara dehşet vericidir. Ömründen verdiği yetmiş üç yılın sermayesi yalnızca acıdan ibarettir. Geride *ömrünün yaprak yılları dökülmüş, bahçesi virane, bağı çepersiz* kalmış, *hayırdan şerri ayıramamış* güçsüz ve çaresiz bir insan portresi kalmıştır:

"Ey ömür! Görünür artık sahilin,
Elin kısıldıkça uzanır dilin.
Ömürden verdiğim yetmiş üç yılın
Zehiri yeterli, balı yetersiz.

Öz omuz yüküdür herkesin yaşı
Derdi – sırdaşıdır, fikri – yoldaşı,
Dönüp mizacıma kahır gözyaşı.
Sevinç de, keder de, geçmez kahırsız.

[1] Bahtiyar Vahapzade, *Gün Var Bin Aya Değer*, (Aktaran: Beşâret Đsmail), Nil Yayınları, İzmir 1992,s.228.

Fikirler selinde akandan beri
Ayıramadım ben hayırdan şerri
Dökülmüş ömrümün yaprak yılları
Bahçesi virane, bağı çepersiz"

əlvanlıq gətirmiş, onu poetik cəhətdən zənginləşdirmişdir. 14 fəsildən ibarət poemada əsas ölçü kimi sərbəst şeir üstünlük təşkil edir. Əsərin 11 fəsli əsas etibarilə sərbəst şeirdə qələmə alınmışdır. Həmin hissələrdə sərbəst şeir heca vəzni ilə çulğalanaraq vəhdət təşkil edir. Məlumdur ki, heca vəzninin sərbəst şeirə təsiri çoxdur. Bu baxımdan «Muğam» poemasında da bu təsir özünü qabarıq şəkildə göstərir. Sərbəst şeir hardasa nəsrə yaxın olsa da, o heç də ahəngsiz, qafiyəsiz, emosiyasız şeir demək deyildir. «Muğam» poemasında elə mövzular, elə motivlər vardır ki, onlar sərbəst şeirdə daha uğurlu alınmışdır. «Şur» adlı fəsildən götürülmüş bu nümunə dediyimizə əyani sübut ola bilər:

Dinlə Şuru
Öz qəlbini sənə açan,
Hər kəlməsi alov saçan
Tarix yaşlı baban kimi,
Gözüyaşlı anan kimi.
Tüstüsünə aman elə,
Oduna yan.
Dayan, düşün,
Düşün, dayan.
Dinlə onu.
Hər guşəsi
Quş qonmayan qayalardan daş tərpədər,
Kirpiklərdə yaş tərpədər.
Mahnılar var, ayaqları,
Muğamlarsa baş tərpədər.[1]

Poemadakı sərbəst şeir örnəklərində standart vəzn, bölgü, qafiyə, bənd kimi tələblərdən müəyyən qədər kənara çıxılsa da, bir sıra məqamlarda onlar sanki heca vəznli şeiri xatırladır:

Qobustanda rəqs eləyən
Qayalara, daşlara bax.
Təbiətin öz əliylə
Çarpalanan çapıq-çapıq qaşlara bax.
Cəngi səsi
Birləşdirir göyü, yeri.
Bəkə, elə burdan gəlir
Muğamların ilk rəngləri,
Təsnifləri, ritmləri...[2]

Əsərdə sərbəst şeir milli şeir ölçüsünə çox yaxınlaşır və deyərdik ki, bu poema sərbəst şeirin daha da milliləşməsində Bəxtiyar Vahabzadənin müstəsna xidmətlərinin əyani təzahürüdür.

Sərbəst şeir sanki oxucu ilə, müsahiblə üz-üzə oturub danışmağı, bir növ dialoqu xatırlatdığından şair xalq musiqisi, muğamlar, onlara qarşı olan yad münasibəti ifadə edərkən də bu ölçüyə müraciət edir. Şairin xalq ruhu, xalq mənəviyyatı ilə bağlı düşüncələri də sərbəst şeirdə olduqca gözəl səslənir:

Ürəyinin tellərindən
Tellər çəkib tara xalqın.
O tellərin nəğməsində
Öz ruhunu, öz qəlbini ara xalqın.[3]

Aşağıda verdiyimiz nümunə də bu deyilənlərə əyani sübutdur:

[1] B.Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). Bakı: Öndər nəşriyyat, 2004, s.180
[2] Yenə orada, s.181
[3] Yenə orada, s.178

Aydan arı, sudan belə durum mənim,
Ay yanıqlı Şurum mənim.
İstərəm ki, əlvan-əlvan çiçək olub
Dolaşdığın pərdələrə
Mən səpiləm.
"Uca dağlar" başındakı
"Azəbaycan maralı"nın
Gözündəki "Qara giləm"...
Nənələrin toxuduğu
Xalıların xanasından xanalandın
xınalandın.
Göygölümün ləpəsində sonalandın.
Sevgililər dodağında
Yanıb söndün,
Sönüb yandın...[1]

«Muğam» poemasında yeri gəldikcə heca vəznli şeirə də müraciət olunmuş, onun ən çox işlək olan bayatı, gəraylı və qoşmaya aid 7, 8 və 11 hecalı şeir ölçülərindən istifadə edilmişdir. Bu şeir ölçüləri xalq ruhuna çox yaxın olduğundan poemanın dilində xüsusi bir ritm və ahəngdarlıq yaratmışdır. Onu da xüsusi qeyd edək ki, şair poemada çoxlu sayda xalq ədəbiyyatı nümunələrindən – bayatı və sayaçı sözlərindən istifadə etmişdir. Poemanın, demək olar ki, əksər fəsilləri bu xalq ədəbiyyatı nümunələri ilə süslənmişdir. Təsadüfi deyil ki, əsərin ayrıca bir fəsli «Sayaçılar» adlanır və bu hissəyə dörd sayaçı sözü də daxil edilmişdir.[2]

Poemada sərbəst şeirlə bir arada yer alan heca vəznli şeirlər də, demək olar ki, əsərin bütün səhifələrinə səpələnmişdir. Bu baxımdan heca vəznli şeirin 7 hecalı şeir ölçüsünün 4-3 bölgüsündə olan aşağıdakı nümunələr daha xarakterikdir:

Düşdük qara, sazağa,
Həm qul olduq, həm ağa.
Qonduq azad quş kimi
Biz budaqdan-budağa.[3]

Yaxud:

Biz nəğməylə oyanıb
Nəğməylə də yatardıq.
Biz qoyunu, quzunu
Nəğmələrlə otardıq...[4]

Səkkiz hecalı şeir ölçüsü istər şifahi xalq yaradıcılığında, istərsə də yazılı ədəbiyyatda çox işlənən ölçülərdəndir. Səkkiz hecalı şeirdə bölgü özünü ən çox 4-4 şəklində göstərir. «Muğam» poemasında olan örnəklərdə də belə vəziyyət müşahidə edilməkdədir:

Varaqlama o tarixi,
İki qəlbin həsrətini
Varaqlarda döyündürən

«Rast» rədifli qəzəldə də vəznlə muğamın ifadə etdiyi hiss və düşüncələr bir-birini gözəl tamamlayır:

Bir aqi	-lin hikmətli	nəsihətlə	-ridir Rast.
Tarix da	-nışan köhnə	rəvayətlə	-ridir Rast.
Aqil da	-nışır, canlı	misallar çə	-kir hərdən,
Bir tale	-yin ibrətli	Hekayətlə	-ridir Rast...[1]
Məf'Ulü	*məfA'İlü*	*məfA'İlü*	*məfA'İl (fə'UlAn)*

«Hümayun» muğamının dinləyicidə aşıladığı dərin kədər hissi[2] də həzəc bəhrinin səkkizinci növünün bu variantında çox uğurlu alınmışdır:

Milləndi	qığılcım ki	-mi zülmətdə	Hümayun,
Dağ üstü	-nə dağ basdı	müsibətdə	Hümayun.
Ülviyyə	-tə, qüdsiyyə	-tə, şeyriyyə	-tə, çatmış,
Fəryadda	Segah, gizli	şikayətdə	Hümayun.[3]
məf'Ulü	*MəfA'İlü*	*məfA'İlü*	*məfA'İl (fə'UlAn)*

Azərbaycan əruzunda ən işlək bəhrlərdən ikincisi rəməl bəhridir. «Muğam» poemasında əruz vəznində olan 7 nümunədən 3-ü rəməl bəhrindədir. «Rəməl» sözü ərəbcə ləngərlənmək, dalğalanmaq, ağır-ağır, *yəni* ləngərlənə-ləngərlənə yerimək *mənasını bildirir. Bu bəhrin ahəngində dəvə yerişini xatırladan ləngərli bir ritm olduğu üçün belə adlandırılmışdır. Rəməl bəhrində bir əzəmət və vüqar hiss olunur. Klassik şairlərimizin dövrdən şikayət, hicran, qəm-qüssə ifadə edən əksər qəzəlləri rəməl bəhrində yazılmışdır. Məhz bunu nəzərə alan şair poemaya əlavə etdiyi «Çahargah», «Segah» və «Muğam» rədifli qəzəllər üçün uyğun olaraq rəməl bəhrini seçmişdir. Bu bəhrin poeziya tariximizdə 13 növü işlənmişdir. Poemada isə onlardan ikisi tətbiq edilmişdir.*

Rəməl bəhrinin ikinci növü «dördbölümlü bütöv naqis rəməl» adlanır.[4] «Muğam» poemasında bu növdə 1 qəzəl vardır. Rəməl bəhrinin bu növünün üç variantı vardır ki, əsərdəki qəzəl də üçüncü variantdadır. Həmin variant *fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilAn* ölçüsündədir.[5] Məlumdur ki, «Çahargah» mübarizə ruhu aşılayan, qələbə əzmi formalaşdıran, mübarizlik eşqi yaradan bir muğam kimi tanınır.[6] Rəməl bəhrində də bir əzəmət və vüqar hissi olduğu üçün müəllif «Çahargah» muğamına həsr etdiyi qəzəli məhz bu bəhrdə yazmışdır. Poemada dördüncü fəsil «Çahargah» adlansa da, fəslin sonunda verilən qəzəlin rədifi «Çahargah» deyil, «Çarigah»dır. Müəllif vəznin tələbinə görə «Çahargah» sözündəki ikinci hecanı uzun deyil, qısa heca şəklində – «Çarigah» kimi vermişdir. Əruzda buna «təxfif» (xəfifləşdirmə, yaxud yüngülləşdirmə) deyilir.[7]

Qəlbi vulkan	-tək coşan üs	-yandır, üsyan	Çarigah,
Açmış hər zən	-guləsindən	fikrə meydan	Çarigah.
Şahə qalxan	Dalğalardır	bir Müxalif	guşəsi,
Dəryalar lən	-gərlədən tu	-fandı, tufan	Çarigah...[8]
fA'ilAtün	*fA'ilAtün*	*fA'ilAtün*	*fA'ilAn*

Rəməl bəhrinin altıncı növü «dördbölümlü qısa incə rəməl» adlanır.[9] Bu növün üçüncü variantı *fə'ilAtün (fA'ilAtün) fə'ilAtün fə'ilAtün fə'ilAn* ölçüsündədir. Poemada bu ölçüdə

[1] Yenə orada, s. 202
[2] F.Sadıqov. Muğam (Dərs vəsaiti). Bakı: Maarif, 2011, s. 190
[3] B.Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). Bakı: Öndər nəşriyyat, 2004, s. 203
[4] Ə.Cəfər. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı: Elm, 1977, s. 353
[5] Yenə orada, s. 364
[6] F.Sadıqov. Göstərilən əsəri, s. 168
[7] Y.Şafak. Aruz terimleri. Konya: Saye, 2003, s. 48
[8] B.Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). Bakı: Öndər nəşriyyat, 2004, s. 189
[9] Ə.Cəfər. Göstərilən əsəri, s. 354

yazılmış 1 qəzəl vardır. Verilən qəlibin birinci təfiləsinin qarşısında mötərizədə *fA'ilAtün* təfiləsi verilmişdir. «Çünki rəmələn altıncı növündə yazılan şeirlərin birinci bölümü bəzən qısa heca ilə (*fə* hecası ilə), bəzən isə uzun heca ilə (*fA* hecası ilə) başlanır».[1] Altı beytlik «Segah» rədifli qəzəldən təqdim olunan nümunənin dördüncü misrasında, eləcə də beşinci və altıncı beytlərində də belə vəziyyət müşahidə olunur. Əsasən, eşq, məhəbbət, sevgi, istək hissləri aşılayan «Segah» muğamında həm də mərdlik, mübarizlik, insanpərvərlik, humanistlik, yurdsevərlik duyğuları özünü büruzə verir.[2] Muğamın bu xüsusiyyətini nəzərə alan şair «Segah»a həsr etdiyi qəzəl üçün də rəməl bəhrini seçmişdir:

Nə deyir kön	-lümü oymaq	-la, oyulmaq	-la Segah?
Gözə göz yaş	-larıtək bir	belə dolmaq	-la Segah?
Könül hıçqır	-tısı, qəlb a	-təşi, can yan	-ğısıdır.
Sən mənim göz	yaşım ol, çağ	-la, Segah, çağ	-la, Segah...[3]
fə'ilAtün (fA'ilAtün)	*fə'ilAtün*	*fə'ilAtün*	*fə'ilAn*

Rəməl bəhrinin altıncı növünün doqquzuncu variantı fA'ilAtün (fə'ilAtün) fə'ilAtün fə'ilAtün fə'ilAn *ölçüsündədir. Bu variantın birinci təfiləsi də həm uzun heca (*fA*), həm də qısa heca (*fə*) ilə başlaya bilər. Poemanın birinci beytində, eləcə də altıncı və yeddinci beytlərin birinci misralarında ilk təfilə uzun hecalıdır, yəni* fA'ilAtün *şəklindədir. Müəllif poemanın sonunda verilən «Muğam» rədifli qəzəl üçün də məzmuna uyğun olaraq rəməl bəhrini seçmişdir. Poemanın yekun hissəsi – epiloqu kimi də dəyərləndirilə bilən bu qəzəl bir növ əsərin uğurlu akkordu olduğundan onu bütünlüklə təqdim edirik:*

Daş ürəklər	-də yanıb daş	-ları sındır	-dı muğam.
Haqqa düşmə	-n olanı haq	-qa tapındır	-dı muğam.
Nə güman ey	-ləmisən on	-dakı tilsim	-ləri sən,
"Kürü ahıy	-la qurutdu",	"Salı yandır	-dı" muğam.
Onun hər gu	-şəsi bir xa	-tirə, bir can	-lı kitab,
Keçilən yol	-ları hərdən	bizə andır	-dı muğam.
Su çilər kin	-li ürəklər	-də qəzəb ton	-qalına,
Neçə qəsdi	-n önünü kəs	-di, dayandır	-dı muğam.
O, ürək yan	-ğısı, göz yaş	-ları, bir çən	-gə bulud
Oyadıb yad	-daşı, vicda	-nı utandır	-dı muğam.
Dəfn edin siz	məni Zabul	segahın ma	-yəsinə,
Deyirəm, bəl	-kə, məni bir	gün oyandır	-dı muğam.
Çox kitabla	-r oxudum, zən	-n elədim bəx	-tiyaram,
Mənə çox mət	-ləbi ahəs	-təcə qandır	-dı muğam.[4]
fA'ilAtün (fə'ilAtün)	*fə'ilAtün*	*fə'ilAtün*	*fə'ilAn*

Beləliklə, aparılan hesablamalar göstərir ki, «Muğam» poemasında əruz vəznində olan 7 nümunədə 5 vəzn ölçüsündən istifadə edilmişdir ki, bunlardan ikisi həzəc bəhrinin bir növünün, üçü isə rəməl bəhrinin iki növünün variantlarıdır.

Göründüyü kimi, Bəxtiyar Vahabzadənin «Muğam» poeması bədii tərtibatı, forma və kompozisiyası ilə yanaşı, vəzn baxımından da orijinal bir əsərdir. O, Azərbaycan poeziyasında işlənən üç şeir ölçüsünün – heca, əruz və sərbəst şeirin ilk dəfə bir arada verilməsi baxımından ədəbiyyat tariximizdə seçilən bir poemadır. Lakin çox təəssüf ki, XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri öyrənilərkən «Muğam» poemasının bu cəhəti tədqiqatdan kənarda

[1] Ə.Cəfər. Nəsimi şeirinin vəzni / Nəsimi (Məqalələr məcmuəsi). Bakı: Elm, 1973, s. 89
[2] F.Sadıqov. Muğam (Dərs vəsaiti). Bakı: Maarif, 2011, s. 152
[3] B.Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). Bakı: Öndər nəşriyyat, 2004, s. 200
[4] Yenə orada, s. 210

qalmış, özünün lazımi elmi dəyərini ala bilməmişdir.[1] Halbuki bu, poema janrı tariximizdə yeni bir ədəbi hadisə idi. Əsərin vəzninin araşdırılması XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətlərini öyrənmək baxımından olduqca əhəmiyyətlidir.

D B YYAT:

1. Cəfər Ə. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı: Elm, 1977
2. Cəfər Ə. Nəsimi şeirinin vəzni / Nəsimi (Məqalələr məcmuəsi). Bakı: Elm, 1973, s. 76-108
3. Əliyev R. XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri. Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2006
4. Sadıqov F. Muğam (Dərs vəsaiti). Bakı: Maarif, 2011
5. Şafak Y. Aruz terimleri. Konya: Saye, 2003
6. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). Bakı: Öndər nəşriyyat, 2004

B XT YAR VAHABZAD YARADICILI INDA ESTET K DEAL TAR X L K V MÜAS RLIK MÜST V S ND

QÜRB T L M RZ ö lu M RZ ZAD

AMEA-nın Ədəbiyyat İnstitutunun
Ədəbiyyat nəzəriyyəsi şöbəsinin aparıcı
elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru

Estetik ideal fəlsəfi mahiyyət kəsb edən kateqoriyalar silsiləsinə daxildir. O, yalnız məhdud bir sənət və yaradıcılıq çevrəsində mövcud olan anlayış kimi götürülə bilməz. Əslində incəsənət faktı və hadisəsi hesab olunacaq bütün yaradıcılıq istiqamətləri sistemini estetik idealsız təsəvvürə gətirmək belə mümkün deyil.

Bu mənada estetik idealın bədii sistemin tərkibində yeni və mövqeyi, onun başlıca xassə və xüsusiyyətləri ətrafında vaxtilə keçmiş ümumittifaq məkanında aparılan mübahisə və polemikalar müəyyən siyasi-ideoloji yanaşmalar istisna olunmaqla, səmərəli fikir mübadiləsi hesab oluna bilər.

Tədqiqatçıların böyük əksəriyyətinin estetik idealla bağlı ümumi rəyi belədir ki, o, "gözəllik haqqında vacib olmalı olan təsəvvürdür"[2], "bu gözəlliyin ən yüksək pilləsidir"[3].

Ədəbi-bədii düşüncənin inkişaf təkamülü əslində estetik idealın tipik səciyyəsini, dünyagörüşü və ətraf aləmlə bağlı əlaqə və münasibətlərin tənzimlənməsini ön palana çəkir, sənətkar tərəfindən mövcud cəmiyyət həyatında, ümumən dünyada baş verən hadisə və olayların fəal vətəndaşlıq mövqeyindən təhlil və qiymətləndirilməsini zamanın reallıqlarına çevirin.

Estetik idealla bağlı xüsusi monoqrafik tədqiqatın müəllifi olan Vadim Murian bəhs olunan kateqoriyaya münasibət bildirərkən belə bir qənaətə gəlir ki, idealın özü ideya-estetik həyat konsepsiyası olduğu üçün yalnız konkret həyatı, həyat həqiqətlərini bədii obrazlarla əks etdirməyi qarşısına bir məqsəd kimi qoymur (hərçənd bunlar da onun funksiyasına daxildir – Q.M.) həm də daha geniş həyati məsələlərin müəyyənliyində mühüm bir vəzifəni yerinə yetirir.

Sözsüz belə bir fəal mövqe həyat yaradıcı şəxsiyyət üçün də başlıca prinsipial mövzu və problemlərə toxunmağı təkidlə tələb və diktə edir.

Estetik idealın formalaşması həm də fərdin (sənətkarın) dünyagörüşündə mütərəqqi ideyaların yaranmasına əlverişli stimul yaradır, dərin humanizm, insanlığı və bütövlükdə bəşəriyyəti düşündürən və qayğılandıran narahat hissləri, duyğularım dilə gətirməkdə əsas vasitə rolunu oynayır.

---

[1] R.Əliyev. XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri. Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2006, s. 34-39

[2] Н.Гей, В.Пискунов. Эстетический идеал советской литературы, Москва, Изд во Академии наук СССР, 1962, стр. 31

[3] Ан. Дремов. Образ нашего современника в советской литературе. Москва, Гослитиздат, 1963, стр12.

Poeziyada bəzən fəlsəfi mühakimələrə geniş yer verilməsini qeyri-məqbul hesab edən müxtəlif fikirlər mövcuddur. Bu, əlbəttə, həyata, dünyaya bizi əhatə edən hadisələrə adi baxış səviyyəsi deyil, sənətkar belə məqamlarda daha ciddi nümunələşdirmələr aparmaq məcburiyyətində qalır, onun üçün milli hüdud və sərhədləri aşmaq, daha qlobal düşüncə tərzinə yiyələnmək ehtirası qaçılmaz olur, sadədə mürəkkəbi, ağda qaranı, həyatda ölümü və yaxud əksinə sıralanmada bir çox müəmmaları yenidən yozmaq, yeni baxış bucağından mənalandırmaq əsl yaradıcılıq tələbi kimi qarşıda durur.

Mütərəqqi dünyagörüşün sənətkar fərdiyyətinin formalaşmasında müstəsna mövqeyinə toxunan tanınmış estetik Yuri Borev bu xüsusda yazır: O, (dünyagörüşü - Q.M.) sənətkarın öz həyatından, təbiət və cəmiyyət üzərində müşahidələrindən, bəşər mədəniyyətini mənimsəməsindən, mübarizəsindən dünyaya fəal münasibətindən yaranır. Dünyagörüşü təkcə istedad və ustalığı idarə etmir, həm də özü yaradıcılıq prosesində onların təsiri altında formalaşır. Sənətkarın dünyaya baxışının bütün özünəməxsusluğu, həyati materialı

Real gerçəkliklər, həyati ziddiyyətlər, gərgin sosial-ictimai kataklizmlər bir sənə

... “Gülüstan”dakı tarixi faciənin fəsadları, psixoloji sarsıntı və fəryadları şairin qəlbini parça-parça edir, burada qələm (lələk), haqqın deyil, nahaqqın tərəfində dayanır.

... Bir qələm əsrlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınc tək.
Öz sivri ucuyla bu lələk qələm,
Dəldi sinəsini Azərbaycanın[1].

“İstiqlal”da şair xalqın başına gətirilən hadisələri müqayisəli şəkildə belə bir poetik dillə bəyan edir:

...Millət qarşılaşdı başqa yasaqla
Çəkdi imtahana böcək, quşları.
Üsullar dəyişdi, gedən bıçaqla
Gələn pambıq ilə kəsdi başları[2].

Kəskin həyati konfliktlər üzərində qurulan dramaturgiyasında da Bəxtiyar Vahabzadənin estetik idealı əsas meyar, haqqın-ədalətin keşiyində ayıq-sayıq dayanan vicdani ölçü timsalındadır. Bu cəhət onun publisistik yaradıcılığında da qabarıq nəzərə çarpmaqdadır. Xarakterik bir nümunəyə diqqət yetirmək kifayətdir ki, Bəxtiyar Vahabzadənin vulkan kimi püskürən, sərrast mühakimələri qarşısında kimsə duruş gətirə bilsin: “... Bəli, rahatıqsa, demək vicdanımızı yuxuya vermişik. Vicdan həmişə oyaq olmalıdır ki, özümüzə onun gözü ilə baxıb, əməllərimizə nəzarət edə biləkk, insani ləyaqətimizi itirməyək”[3].

Bəxtiyar Vahabzadəni cari ədəbi proseslə bağlı yazılarında da, monoqrafik tədqiqatlarında da estetik idealın mahiyyətini açmaq əsas məram və məqsədə çevrilməkdədir.

VAHABZADEN N B R R NDEN HAREKETLE RDE D L KULLANIMINA YÖNEL K DÜ ÜNCES N N D LB L M BAKIMINDAN NCELENMES

Rıdvan ÖZTÜRK

Yard. Doç. Dr., N.E. Üniversitesi A.K. Eğitim Fakültesi Türk Dili Öğret. Üyesi,
B Blok Nu: 441 Meram Konya, TÜRKİYE.
ridvanozturk1961@mail.com

ÖZET

Bahtiyar Vahabzade sadece son dönem Azerbaycan şiirinin değil, başta Türkiye olmak üzere Güney Batı grubu Türk yazı dillerinin kullanıldığı birçok bölgenin tanınmış sevilmiş bir şairidir. Şüphesiz bu tanınmada onun şahsiyeti, yetişme tarzı, düşünce dünyası, kimliği gibi hususların etkili olmasının yanı sıra; bunları yansıtmada kullandığı dilin de büyük rolü olmuştur.

Bir dili konuşan milyonlarca, hatta daha da fazla kişi olabilir, ancak o dili konuşanlardan pek az kişinin sözleri kalıcı hale gelmiş ve sözü söyleyenin dışında geniş kitlelerin duygu ve düşüncelerine tercüman olma özelliğine kavuşabilmiştir. Söz sahibi olan bu kişiler genellikle sahip oldukları bu dil yetisi ile güzel ürünler vermiş, sözü sonuç bağlamında semere şeklinde ilgililerinin beğenisine sunmuştur. Onlar şiirde kullandığı dili irdelememişler. Tabiri caizse işin mutfağını, ameliye kısmını sunma yoluna gitmemişlerdir. Şairin dili kullanımı, dil ve edebiyat araştırıcıları tarafından eserden hareketle düşünce dünyasına gidilerek tespit edilmeye çalışılmıştır. Bu elbette kullanılan ve büyük ölçüde de doğru sonuçlara götüren bir yöntemdir. Pek çok şair, bu noktada gizemli kalmayı, sözü muhatabının kendi anlama dairesinde şekillendirmeyi arzulamıştır.

Vahabzade, alışılmış, klasikleşmiş söz söyleme ve muhatabının anlayışına bırakma yönteminin yanında, şiirinde şiir okulunda dil kullanımı dersi verircesine sözün etkili olma yollarını, derin yapıdan hareketle anlatma yoluna da gitmiştir. Hem duyguyu hem de düşünceyi şiire aktarmak, şiir özelliklerini üst seviyede koruyarak bunu başarabilmek sıradan şairlerin ulaşamadığı bir seviye olmuştur.

[1] Vahabzadə B. Gülüstan. Bakı, “Şərq-Qərb” nəşriyyatı, səh. 76
[2] Yenə orada. səh. 82
[3] Vahabzadə B. Vicdan, namus və ləyaqət məqaləsi Şənbə gecəsinə gedən yol kitabında. Bakı, Azərbaycan Dövlət nəşriyyatı.1991, səh 143.

Burada Vahabzade'nin bu üst yapıyı nasıl gerçekleştirdiğini ve nasıl gerçekleştirilebileceğine dair düşüncelerini de yansıttığı "Darıxma Ha…" adlı şiirinden hareketle şairin dil kullanımının dilbilim verilerine uygunluğu işlenecektir

Anahtar Kelimeler: Vahabzade, metin dilbilim, şiir, Azeri Türkçesi, üslup

2. NCELEME

2.1. Üslup ve kelime seçimi; aleladelikteki fevkaladelik:

Bahtiyar Vahabzade'nin bu şiirinde genel kitlenin anlayacağı kelimeleri seçtiğini görmekteyiz. Şair, muhatap olarak milletini aldığını değişik yazılarında açıklamıştır. O, öncelikli olarak sanat yapmak için değil, milletine faydalı olmak için eser verme anlayışının tabii bir neticesi olarak, belli bir kesimin değil her kesimin anlayacağı bir dil kullanma yoluna gitmiştir. Bunun bir yansıması olsa gerek ki, şiirde sade ve akıcı bir üslup kullanmıştır. Ancak bu sadelik ve akıcılık, şiirde basitliği beraberinde getirmemiştir. Kolay anlaşılırlık içerisinde derin anlamları da gizleyerek okuyanın seviyesine göre anlamda çok boyutluluğu, sehlimümteni sanatını da içermiştir. Bu şiire bakış açısını aşağıdaki cümleleriyle de ortaya koymuştur:

> "… Lakin bu aleladelikte ne kadar fevkaladelik ve büyüklük var. Ben şiirde bunun taraftarıyım. Fikri kasıtlı olarak dolaştırıp ifade tarzını karmaşıklaştıranlar aslında alelade, sıradan söz söylüyor. Fakat bu aleladeliği, bu sıradanlığı okuyucuya fevkalade şekille ulaştırıyorlar. Sanatın yolu ise aksine olmalıdır. O da fevkaladeyi alelade (olağanüstüyü olağan) şekilde söylemek!"[1]

Vahabzade, birçok şiirinden farklı olarak "Darıxma Ha" başlıklı bu şiirinde duygu ifadesinin yanı sıra, duygu ifade ederken kelimelerden hareketle ifadede nasıl bir yol tutulması gerektiğini de izah etme yoluna girmiştir. Daha farklı söyleyecek olursak, anlatım kadar anlatım yolunu da göstermiştir.

Bu iç içe geçmişlik "Darıxma Ha" şiirini, düşüncenin doğrudan anlatıldığı şiirlerinden ayırmaktadır. Mesela aşağıda mısralarını vereceğimiz şiirinde Vahabzade'nin şiire bakışını ve şiir anlayışını doğrudan görmek mümkündür. Bu mısralarda "Darıxma Ha" şiirinde olduğu gibi bir duygusal olay kurgulaması yapılmadan, ders anlatırcasına düşüncenin ve bilginin doğrudan aktarımı vardır:

Yaz ilham diyeni, yürek diyeni,
Yol özü dolanıp bulacak seni.
Kalbini, beynini nahak yorma sen.
Amandır, kendinden yol uydurma sen.
Yenilik hatırına yazma sakın,
İlhamdır yaratan sanatı, şiiri.
Yazmak hatırına yağan yağışın
Ne bağa heyri var, ne dağa heyri [2]

2.2. Kelimenin çok anlamlılı ı:

Vahabzade şiirini gelen mektupta geçen "Darıxma ha" ifadesi üzerine kurmuştur. "darıxmak" fiiline Azerbaycan Dilinin İzahli Lügeti'nde şu anlamlar verilmiştir[3]:

Darıxmag:

1. Sıkılmak, canı sıkılmak, bıkmak, bezmek, rahatsız olmak; yüreği sıkılmak, kendisini kötü hissetmek
2. Nefesi daralmak, nefesi kesilmek, boğulacak gibi olmak, hava alamamak.
3. Bir şahsın veya şeyin olmadığını ıstırap ve yürek acısı ile hissetmek, bir şahıs veya şeyi görmeyi yahut onunla bir yerde olmayı hasretle arzu etmek

[1] Bahtiyar VAHABZADE; Sonbahar Düşünceleri, Kültür Bakanlığı yay. Ankara 1993, s. 79–80.
[2] Bahtiyar VAHABZADE, Vatan Millet Anadili, (Akt: F. Ordu, M. İbrahimova, S. Ağayeva), Atatürk Kültür Merkezi Yayını:213, Ankara 1999, s. 6–7.
[3] Azerbaycan Dilinin İzahli Lügeti c.II, Elm Neşriyatı, Bakü 1980, s.38.

Sözlük bilgilerinden de anlaşılacağı üzere “darıxmak” fiili işlek olarak kullanılmaktadır. Fiil asıl anlamının yanı sıra birçok yan anlam ile de kullanılmaktadır. Şiirde kullanılışına göre “darıxmak” fiili sözlükteki üçüncü anlamı daha çok göz önüne alınmıştır. Kelimenin buradaki anlamlarının yanında şu anlamları da bağlamdan hareketle eklemek mümkündür. “darılmak, kızmak, küsmek, özlemek, bunalmak, unutmak”. Yine

“Darıxıram….-A sığışmıram”[1]

bağlamı içerisinde “daralmak, bunalmak” gibi anlamlarının yanı sıra “ yerinde duramamak” anlamı da öne çıkmaktadır. İşte bu noktada Vahabzade’nin kelimenin görünen, bilinen asıl anlamına sıkışıp kalmadığını, sözlükte geçen anlamlarının tamamına yakını şiirinde kullandığı gibi, sözlükte yer almayan çalarları da şiirinde yansıttığını görebiliyoruz.

2.3. Asıl anlam, yan anlam seçimi:

Bir kelime söz dizimi içerisindeki yerine göre veya her okuyanın duygu ve anlama seviyesine göre farklı anlamlar ifade eder. Göstergenin diğer göstergelerle yapılan bağdaştırmasına göre gösterenin, yani kelimenin anlamı da farklı gösterilenlere yönelmektedir. Bu farklı anlamları kazandırabilmek veya kazandırılmış anlamları söyleminde yansıtabilmek, diğer bir deyişle anlam dünyasını çok boyutlu hale getirebilmek ifadede fark yaratmaktadır.. Vahabzade de şiirinde,

“Sözler yatır guzu kimi
Çalarları haraydadır” (s.102)

diyerek ifadenin derinliğinin ve inceliğinin, anlamın derinliği ve inceliği ile bağlı olduğunu belirtmiştir. Kelimenin çok anlamlılığı ve bu çok anlamlılığın kullanılışı ve tabii ki tekrara düşmeden kullanılışı sözün elastikiyetinden ziyade, şairin dili kullanma becerisi ile doğrudan ilgilidir. Vahabzade kelimenin kavram-anlam alanını bir ağaç metaforundan (eğretilemesinden) hareketle anlatma yoluna gitmiştir. Kelimenin asıl anlamını ağacın gövdesine, yan anlamlarını ise ağacın dalları ve yapraklarına benzetmiştir:

Kim déyir ki,
Her kelmenin
Bir me’nası, bir yükü var?
Yox! Ürekde dile gelen yaşıl sözler,
budaglardır,
Yüz budagın bir kökü bar.
Kök ürekdir.
Yapraglarda rengi yaşıl,
Sesi, sözü pıçıltılar.
Pıçıltının sesi birse,
Min metlebi, min sözü var.
Men sözün öz me’nasını istemirem.
Bir mezmuna o, gül olur,
O, duygudan mehrum olur.
Yoxsul olur.
Men vurgunam her kelmenin
çalarına. (s. 102–103)

2.4. Kelimenin anlam kazanmasında ortamın etkisi:

Vahabzade, söze, kelimeye anlam katarken sözün kullanıldığı ortamın etkili olduğunu belirtmektedir. İletişim bilgisi bakımından ele alındığında; “Söz kim tarafından, kime, hangi ortamda söylenmiştir?” sorularının cevabı, anlamı da belirleyici olarak karşımıza çıkar. Bazen nesnenin aslından çok yansıması dikkat çekici ve anlam ifade edici olarak görülür ve algılanılır.

[1] Bahtiyar VAHABZADE, Lirika, Azerbaycan Dövlet Neşriyatı, Bakü. 1990, s.103.

Vahabzade, mısralarında "ay" metaforunu (eğretilemesini) kullanarak ayın yansımasının aydan daha çok renge büründüğünü belirtmiştir:

Göydeki ay, yalnız aydır,
Suya düşse,
Gırçınlanan dalgalarda
Néçe renkden çelengi var. (s.103)

2.5. Sözü söylerken kaynak ile alıcı arasında ili ki seviyesi:

Şair yerine göre doğrudan haykırıcasına, emredercesine söz söylemektense, muhatabının gönlüne hitap eden ve onu düşünmeye sevk eden tarzda söylenmesi gerektiğini belirtmektedir: Dolaylı yoldan anlatım yani muhatabı sözün anlamının farkına vardırma, duygunun veya düşüncenin en etkili ve kalıcı aktarımlarından birisidir. İletişim bakımından da sözü söyleyenin karşısındakine kendi konumunu üst olarak gösterdiği durumlarda muhatabın alıcılarını kapatması, bir tür savunma refleksi içinde söze kulak vermemesi, ikna olmaması durumu ortaya çıkar. Vahabzade şiirinin içinde muallimliğini de katarak bunu şöyle ifade eder:

Men vurgunam her kelmenin
çalarına.
Nida kimi dik dayanıb
hökm véren halına yox,
Sual kimi boyun büküb
düşünceye dalarına.
Düşüncenin min rengi var. (s.103)

2.6. Sözün derin yapısı, söylenmeden söylenenler:

N. Chomsky'e göre bir cümlenin "söylenen anlam"ından başka "söylenmeyen önvarsayımsal anlam"ları da vardır[1]. Cümledeki dilsel formlardan hareketle bu iki kavramın ilkini "doğrudan söylenen anlam", ikincisini ise "dolaylı söylenen anlam" olarak da nitelendirmek mümkündür. Bu iki kavram da şekil bilgisinden hareketle ifade edilenlerdir. Bu anlamların yanı sıra, bir de "sözce" terimiyle karşılanan ima ve hissettirme yoluyla birçok cümleyi zihnimizde canlandırabiliriz [2].

Sözün sunulan bilgi olarak doğrudan söylenemediği ortamlarda ve zamanlarda bu örtük yapı kullanma, sembollerle anlatma yoluna gidilir. Yukarıda N. Chomsky'den hareketle dilbilim çerçevesinde izaha çalıştığımız bu durumu Bahtiyar Vahabzade bir yerde şu şekilde ifade etmiştir:

> "O zamanlar ben kapalı yazmak zorundaydım. Fakat mahir Azerbaycan okuyucusu benim kapalı mısralarımın üstündeki kapağı kaldırabilmiş, onun arkasında gizlenen asıl mana ve amacı fark edebilmiş, kiraza (gilasa) bakıp içindeki çekirdeği görmüştür. Halkımın yaşadığı çileler, azaplar ve eziyetler ona bu çekirdeği görme imkanını veriyordu. Azad ve müreffeh bir millet, belki de benim kapalı dediğim mana ve amaçları tam açıklığıyla idrak edemezdi, ama ben bu milletin evladı olduğumdan, onun dertlerini yazıyordum. Allah hiçbir milleti başka bir milletin kölesi etmesin….Ben uzun yıllar Mirza Fethali Ahundzade'nin "Eğer mevcut düzeni açıkça tenkit edemiyorsan zamanı ve mekanı değiştir, içinden geleni yaz, anlayan anlayacak" tavsiyesi esasında yazıp totaliter sisteme bu yolla muhalefetimi gösterdim. Bu usulü destekleyen şöyle bir ata sözü de vardır: "Kızım sene deyirem, gelinim sen eşit""[3]

[1] Zeynel KIRAN, Ayşe KIRAN, Dilbilime Giriş (Dilbilgisinden Dilbilime), 3.bs., Seçkin Yayıncılık, Ankara 2010, s.167.
[2] Zeynel KIRAN, Ayşe KIRAN, age, s.168.
[3] Bahtiyar VAHABZADE, Ömürden Sayfalar, Ötüken Neşriyat, İstanbul 2000, s 82–83.

Ancak zaruretin olmadığı durumlarda, icat arayışının boşa sarf edilmiş bir emek olduğunu, iyi bir gözlemle ve geçmişten gelen birikimlerle bunların anlaşılabileceğini de belirtmektedir. Yeniliğe karşı olmayan şairin, bilinen şeylerin yeniymişçesine tekrar sunulmasını, icat olarak gösterilmesini tenkit etmektedir[1].

Bundan yüzyıl önce "Şiir, duyulmak için dilin kendisi için biçimlendirdiği dildir" diyen İngiliz şairi G. M. Hopkins'in sezgiyle çıkardığı sonucu, R. Jakobson'un dilbilim aracılığı ile ulaşması [2] Vahabzade'nin bu görüşünü destekler mahiyettedir.

Vahabzade, "Darıxma Ha" başlıklı şiirinde örneklendirmek suretiyle, "doğrudan söylenen anlam"ın veya "dolaylı yoldan söylenen anlam"ın ötesinde, "ima edilerek veya hissettirilerek söylenen anlam"a yönelik açıklamalarda bulunmuştur. Başka deyişle "söylenmeden söylenenleri" de şiir üslubu içinde aktarma yoluna gitmiştir:

Yazırsan ki: - Darıxma ha…
Burada sözün gesdi géniş,
Yuvası var,
Burada sözün cövherinden
Néçe néçe söz sıçrayar.
Sözden fikir,
Fikirsen de
Néçe néçe metleb çıxır.
"Darıxma"nın o tayında
Söz darıxır,
Söz garıxır.
Sen "yox"dakı o "var"a bax.
Sözün eksi - çalara bax.
Sen "darıxma" déyen zaman.
İsteyirsen ömrüm boyu
Men darıxım senin üçün
Rengine bax galıbından çıxan sözün! (s. 103–104)

Bu mısralarda örtük olarak söylenen söylemin tamamen tersi bir anlam ifade edecek şekilde hissettirildiğini, ima edildiğini söylemektedir. Mısralarda söylenen sözdeki fikrin başka olduğu ve aslında o fikirle başka bir şeyin talep edildiği şiirselleştirilmiştir. "sen darıxma" derken, aslında "men darıxım" isteyirsen, diye ima ettiğini belirtmiştir. Bu söylenmeden ifade edilen tezatı pekiştirmek için de

Sen "yox"dakı o "var"a bax. (s.103)

diyerek zıt anlamlı iki kelimeyi kullanmıştır. Gökteki ayın suda yansımasının farklı olduğu gibi kalıbından çıkan sözün de farklı olduğunu, söylenenle kastedilenin aynı olmadığını belirtmiştir:

Rengine bax galıbından çıxan sözün! (s.104)

2.7. Dil ve ileti imde üst-dil ili kisi i levi

Konuşucunun, kullandığı dil üstüne bilgi verdiği, onun bir öğesini açıkladığı durumlarda gerçekleşen bir işlevdir. Özellikle muhatabın, dinleyicinin anlayamayacağı düşünülen göstergelerin anlamını belirlemeye yöneliktir. Kısacası dilin dil ile açıklanmasıdır. Bu işlev daha çok bilimsel metinlerde öğretici amaçlı konuşmalarda kullanılır[3]

Şiirde geçen bazı ifadeler, dilbilim (ve dilbilgisi) alanı içine girebilecek tanımlamalarla ilgilidir. Bu ifadeler, devamında bazı benzetme unsurları ile daha da açıklanma yoluna gidilmiştir.

Kim déyir ki,

[1] Bahtiyar VAHABZADE, "Olağanda Olağanüstü", Ömürden Sayfalar, Ötüken Neşriyat, İstanbul 2000, s.76–80.
[2] Zeynel KIRAN, Ayşe KIRAN, age.,s.105.
[3] Zeynel KIRAN, Ayşe KIRAN, age.

Her kelmenin
Bir me'nası, bir yükü var? (s.102)

ifadesi "kelimeler genellikle çok anlamlıdır. Bir kelimenin birden çok anlamı vardır." Önermesine;

Men vurgunam her kelmenin
çalarına.
Nida kimi dik dayanıb
hökm véren halı

Füzulinin "*Heyrət, ey büt, surətin gördükdə lal eylər məni, Surəti-halım görən, surət xəyal eylər məni* " nidasına B.Vahabzadə " *Heyrət ey büt dedi, dünyaya qələm. Aləmi bir seyrim, yüz heyrətimdir. ...Göylər damar-damar, Yer lağım-lağım...Bu heyrət, bu sual dindirib məni. Hələ körpəlikdən bu heyranlığım, Sual köhlənina mindirib məni*" heyrəti ilə cavab verir.

Açar sözl r: dil, üslub, antonimlər, həmcinslik

Hər kəs-bütün bəşər övladı danışır. Öz ana dilində, düşündüyü, qəlbi ilə ünsiyyətdə olduğu dildə danışır. Çoxları bir neçə dil bilir. Ancaq bu sadəcə dil bilmək, dil öyrənmək və ünsiyyətdir. Dilin ruhunu isə hər kəs duymur. Dilin ruhunu duymaq onu bütün incəliklərinə qədər mənimsəmək, sevmək və necə istifadə etməyi bacarmaq deməkdi. Hansı fikri necə çatdırmaq, insanlarla səmimi, içdən danışmaq, könül dünyasına sahib olmaq deməkdir. XX əsr Azərbaycan şeirinin yaradıcı simalarından biri olan Bəxtiyar Vahabzadə belə sənətkarlardandır. Şairin əsərləri ədəbi dilimizin gözəl nümunələri olmaqla yanaşı, ruhun səsi və qəlbin nəğmələridir. İnsan, aləm və həyat çoxşaxəli tərəfləri ilə onun poeziya dünyasında xüsusi yer tutur, söz cildinə bürünüb hər kəslə ünsiyyətə girir. Hər kəlməsindən ana dilinə sönsuz sevgi duyulan şair doğma dilə varlığı qədər, aldığı nəfəs qədər dəyər verir, onunla fəxr edir, ən əsası isə bu dilin ruhunu duyur. Elə buna görə onun yaradıcılığında mövzu rəngarəngliyi və dil əlvanlığı bir ahəng yaradır. B.Vahabzadənin dili **ö**zünəməxsus ifadə tərzi, yüksək bədiiliyi, obrazlılığı, inandırıcılığı ilə seçilir. Bir keyfiyyət bütün yaradıcılığında ana xətt kimi diqqəti cəlb edir. Bu onun əsərlərinin və dilinin fəlsəfiliyidir.

Dil anlayışı sənətkarın yaradıcılığında iki istiqamətdə görünür. Biri şairin dilə münasibəti və ana dilinə sevgisidir. B.Vahabzadə « .. işlətdiyi dili şeir vasitəsi olmaqdan qabaq, birinci ana dili kimi sevir; özü onunla dil açıb, dünyanın ilk mükəmməl melodiyası—mahnısı olan laylanı onda eşidib, insanlığı onunla tanıyıb (İlk mahnımız laylanı anamız öz südüylə içirir ruhumuza bu dildə gilə-gilə); sonra ona görə sevir ki, o ulu babalarımızın yadigarıdır, əcdadımızdan qalan və bütün başqa mənəvi zənginlikləri də yaşadan ən böyük mənəvi sərvətidir …. nəhayət, onu bir də öz sənət cəbhəsinin silahı kimi sevir. …. Rəsam üçün rəng, bəstəkar üçün səs nədirsə, şair -yazıçı üçün də söz odur…; Fərhad üçün külüng, Koroğlu üçün Misri, Topçubaşov üçün bıçaq nədirsə, şair üçün ana dili odur»[1].

Dil millətin, xalqın milli-mənəvi dünyasının, düşüncəsinin ecaskar səsidir. Dil məxsus olduğu millətin həyat vəsiqəsidir. Dil millətin varlığıdır. Bütün bu fikirlər şairin sənt-poeziya dilində belə səslənir: *Bu dil –bizim ruhumuz, eşqimiz, canımızdır, Bu dil-bir-birimizlə əhdi-peymanımızdır. Bu dil tanıtmış bizə bu dünyada hər şeyi, Bu dil əcdadımızın bizə miras verdiyi Qiymətli xəzinədir…onu gözlərimiztək Qoruyub, nəsillərə biz də hədiyyə verək.*

İkinci istiqamət isə sənətkarın yaradıcılıq müstəvisində doğma dilin imkanlarından istifadə etmə tərzidir. Sənətkar dilin leksik və qrammatik resurslarından öz dil duyumuna görə istifadə edir**.**

B.Vahabzadənin poeziya dilinin məhsuldar leksik vahidləri sırasında semantik söz qruplarının özünəməxsus yeri var. «Semantik söz qrupları fikrin söz çeşidini artıran, əlvan rəng çalarları yaradan vahidlərdir. Məna yükünü dərinləşdirən, söz təkrarından yayındıran, sinonimlər; ziddiyyətli dünyanın söz cildi olan antonimlər, bir kökdən, bir qəlibdən şaxələnən bir neçə məna əks etdirən omonimlər bütün dövrlərdə ədəbi dilin bədiilik, emosianallıq yaradan fəal üslubi vahidləri olmuşdur. Ədəbi dilin hər bir mərhələsində ayrı-ayrı sənətkarların yaradıcılığında istifadə edilmiş, dövrdən dövrə, üslubdan üsluba, müəllifdən-müəllifə forma və işləkliyi ilə seçilmişdir»[2]. B.Vahabzadənin dilində poetizmi gücləndirən vahidər cərgəsində antonimlər fəal iştirak edir. Bu, bir tərəfdən dilin leksik imkanlarından istifadə etmək kimi yaradıcılıq işidirsə, digər tərəfdən fəlsəfi düşüncənin ifadəsi ilə bağlıdır. Antonimlər həyatın əksliklərinin söz cildidir. Təkamül isə əksliklərin vəhdətindədir. Sənətkar nədən yazırsa yazsın -hər şeyə

[1] T.Hacıyev. Şeirimiz, nəzrimiz, ədəbi dilimiz. Bakı 1990, s.106

[2] S.Sadıqova. Nəsiminin dilində semantik söz qrupları – Tədqiqlər 1, Bakı 2004,s.203

vəhdət müstəvisindən baxır, tamın tərəflərini görür. Ayrılıqda, birtərəfli yox, hər şeyi bütün cəhətləri ilə müsbəti və mənfisi, şirini və acısı-bir sözlə əksliklərı ilə təqdim edir: Həyat *sən nə şirinsən, kim səndən doydu getdi? Gedənlər öz qəlbini dünyada qoydu getdi. Səndən doymaq olarmı, çoxun, azın da şirin. Həyat qışın da şirin, həyat yazın da şirin.*[3] Sözlər təkcə antonimlik yaratmır. Semantik cəhətdən geniş mənalar ifadə edir. Bu əlamətlərin həyata aid edilməsi leksik vahidlərin antonimliyinə həyatın müxtəlif çox və az, acı və şirin keyfiyətlərini əlavə edərək bir ömür tarixçəsinin keyfiyyət- əlaməti kimi səslənir.

Və yaxud,

Səndə həm ***ayrılı ın****, həm* ***üsalın*** *əsli var, Səndə iki ürəyin əbədilik vəsli var*[4] misralarında da eyni üslubi fiqur yaranır. Əksliklikl̈ər-ayrılıq və vüsal birləşir, bütövləşir. Bu da kainatın təkamül qanunudur, bütün əksiklərin bir birləşmə müstəvisi var, biri-digərinin, hər ikisi isə bütövün xislətini müəyyənləşdirmək üçün meyardır.

Dilimizdə «Hər şeydə bir xeyir var» işlək bir məsəldir. Əslində burada bəlkə də «hər şərdə bir xeyir var» deyimi daha doğrudur. Çünki xeyir elə xeyirdi, şərdə xeyir olması həyatın fəlsəfəsindən doğur. Bu mənada xeyir və şər qütbləri ayrıldığı kimi, həm də bir-birinin tamamlayır. B.Vahabzadə bu tarazlığı belə ifadə edir: *Demə görəcəkli günlərim varmış Heyrət, xeyirdəki bu şərə heyrət! Heç demə ürəkdə qoşa yanarmış Zülm ilə ədalət, sevgiylə nifrət*[5] Əks mənalı vahidlər artdıqca fikrin məna sərhədləri də genişlənir: şər-zülm, nifrət; xeyir-ədalət, sevgi.

Sənətkar ayrı-ayrı şeirlərində bir iki misrada hissə-hissə əks leksika ilə dediyi fikrini ümumiləşdirir. Fəlsəfi ümumiləşdirmə aparır: *Durmuş, duracaq üz-üzə yer-göy. Ziddiylə çıxar meydana hər şey. Nurun gücü zülmətdə bilinmiş, Elminki cəhalətdə bilinmiş. Qəm olmasa şadlıq da bilinməz, Zəncirsiz azadlıq da bilinməz, Vəhdətdə birəm, hicrdə yüzdüm. Bir yolda min illik dağa döndüm. …Dünya özü əksiylə də vəhdətdədi, mən də. Nəşəm də doğur dərdi-qəmimdən. Ziddimdə tamam, bir bütövəm mən.*[1] *Yer-göy, nur-zülmət, elm-cəhalət, qəm-şadlıq, zəncir(məhkumluq)-azadlıq,vəhdət-hicr, bir-yüz, bir yol-min il, nəşə—dərd-qəm* və s. vahidlərin iştirak etdiyi bu dil. –dünyanın bütün əksiklərı, ziddiyyətlərindən yaranan təkamül və vəhdət konsepsiyasının XX əsr dili ilə ifadəsidir.

Azərbaycan ədəbi dilinin tarixində xəbərlik əlamətinin ixtisarı bütün dövrlərdə işlənmiş üslubi formadır. Əslində bu şəkilçinin işlənməməsi misrada qənaət, yığcamlıq yaradır, bu yığcamlıq isə fikrin hüdudlarını sanki genişləndirir konkretlikdən çıxarıb deyilən fikrin masştabını böyüdür. Diqqət daha çox söz,ifadələrə yönəlir. B.Vahabzadənin də yaradıcılığında Füzulinin *Dust bipərva, fələk birəhm, dövran bisükun, Dərd çox, həmdərd yox, düşmən qəvi, tale' zəbun*[2]. qəlibində şeirlər vardır: *Ömür yolum—içimdəki vuruşlarım. Mübarizəm—tale ilə yarışlarım. Qədərimin yazıları—alnımdakı qırışlarım. Kaş onları pozan ola! Təzəsini istəyimcə yazan ola!* [3]

B.Vahabzadə yaradıcılığında təsvir və canlandırmadan fəlsəfi yekunlaşdırmaya keçid xüsusi üslubi çalar kimi özünü göstərir. Nədən yazmasından asılı olmayaraq onun şeirləri düşündürür, bir müsahib kimi oxucu ilə ünsiyyətə girir, inandırır, ruhlandırır və təsəlli verir.

Çəmənlikdə gül-çiçəyin Sağ-solunda ələfi var. Dünyada hər bədbəxtliyin Həm zərəri, həm nəfi var . Maraqlı semantik ardıcıllıq qurulur: çəmən—gül-çiçək-ələf; dünya və bədbəxtlik; zərər-nəf. Burada, leksik vahidlərlə təsvir və canlandırmadan fəlsəfi fikir istiqamətində üslubi model təqdim edilir. Çəmən, gül-çiçək sözləri ilə ələf təzad yaradır.Bədbəxtlik fani dünyanın təyinidir. Zərər və nəf(xeyir) antonim sözləri isə bədbəxtliyin atributudur. Ələf və bədbəxtlik eyni semantik yük daşıyır. Əksiklər əvvəl təbiətin, sonra isə həyatın timsalında verilir. Obrazlılıq içərisində əyanidən müccərrədə doğru dərk asanlaşır.

---

[3] B.Vahabzadə. Seçilmiş əsərləri. I. cild Bakı,1974,s.129
[4] B.Vahabzadə. Seçilmiş əsərləri. I. cild Bakı,1974,s 161
[5] B.Vahabzadə. Seçilmiş əsərləri. I. cild Bakı,1974,s305
[1]B.Vahabzadə.Seçilmiş əsərləri.İkinci cild. Bakı,1984,s. *160*
[2] Füzuli . Əsərləri. Altı cilddə,I cild. Bakı,2005, s.243
[3] B.Vahabzadə.Seçilmiş əsərləri.İkinci cild. Bakı,1984,s.152

Vaxt hakimlər hakimidir Həyat varkən, yox kimidir. İnsan göydə ay kimidir Görünməyən tərəfi var. Bəşəri düşüncəni əks etdirən bu misraları oxuduqdan sonra qarşındakı müsahibinə «doğrudur» deyib söylənilənі təsdiqləmək istəyirsən. Buradakı bənzətmə də orjinaldır. Ay poetik dildə gözəllik rəmzidir. Şair isə onun yeni keyfiyyətini-görünməyən tərəfini bənzətmə atributu seçir. Dünya və insanın gizli, sirli bir aləm olması fikrini vurğulayır.

B.Vahabzadə yaradıcılığında dil vahidləri xüsusi ardıcıllıqla düzülür. Məzmunca müxtəlif olan vahidlərin hamısı bir ideyanın ətrafında birləşir. Təbiəttdən düşüncəyə, düşüncədən qəlbə, qəlbədən sevgiyə, sevgidən kainata bir pəncərə açılır.

Bir rəngi yox, göylərin min rəngini sevirəm, Bir gülü yox, güllərin çələngini sevirəm, Mən çıxmağa təpə yox, uca dağ istəyirəm, Həyatı, həyat kimi yaşamaq istəyirəm![4] *Rəng- min rəng; gül-çələng; təpə-dağ*-bunların hər biri həyatın-təbiətin müxtəlif tərəflərіdir. Gül və güllərin çələngi, rəng və min rəng, həyat və mükəmməl həyat kimi paralellərdə eyni leksik vahid təkrar olunur, ancaq söz və söz birləşmələri fərqli məna daşıyır. Bütövlükdə bütün müqayisə edilən vahidlərdən birinci tərəfi az, ikinci tərəfi isə çox məzmununu ifadə edir. İlk misralarda təqdim edilən təbii gözəllik, mənzərə-göylərin min rəngi, güllərin çələngi, uca dağ zirvəsi sonrakı misralarda mənəvi mükəmməliyin girişi olur. Sonra isə şəxsiyyətin cizgiləri tamamlanır: *Yaşamaq istəmirəm sürünüb dizin-dizin. İstəyirəm ən uca zirvələrə mən qonam. Xəfif sakitliyini neyləyirəm dənizin, Onun qasırğasına, dalğasına vurğunam!*[5]*…..*

Sənətkarın şeir dilində təsvirdən çox dərin düşüncə, təqdimdən çox, açıqlama-şərhlər və inkarolunmaz həqiqətlər, aksiomlar var.

Atəş öz-özündən Birdən-birə yanmır. Bir şey bu cahanda İzsiz və səbəbsiz Bihudə yaranmır. Vardırsa yaranmış, Mütləq yaradan var. Varsansa… özündən Əvvəlcə atan var… Dünya quru bir səs, Qəm çəkməyə dəyməz;Yüz-yüz itən olsun, Min-min də bitən var Şükr eyliyəlim ki, Bizlərdən həm əvvəl, Həm sonra Vətən var[1]. Bir cümlə iki misraya ayrılır. Fikrin ahəstə, düşünərək qavranmasına yardım edir. Cümlələrin bölünməsində poetik ritm yaranır. Səs və söz uyarı, ahəngdarlığı şeirin poetik gücünü artırır. Bu klassik ədəbiyyatdakı yaradılış fəlsəfəsinin XX əsrin dilində ifadəsidir.

Sənətkarın başqa bir şeirində yaradılış düşüncəsi Vətən sevgisi ilə yekunlaşır. Vətən real həyat faktı kimi bütövlüyün rəmzinə çevrilir.

Bir nəğmə qoşmadım hələ mən sənə, Dağlar bunu mənə kəsir sanmasın Mən dedim, vurğunam Azərbaycana. Deyirəm, heç zaman xırdalanmasın. Şeirin məna və ideyasına giriş *Azərbaycan* və *xırdalanmasın* kəlmələridir. *Şerimin mayası--bu qaynar nəfəs,-- Sənin öz çiçəyin, sənin öz barın, Şerimdə dil açıb danışmırmı bəs, Sənin bulaqların, göy çinarların? Mən həm bakılıyam, həm lənkəranlı Gəncəli, qubalı, həm naxçıvanlı. Şəkili, şirvanlı, qarabağlıyam Bütöv Vətənimə, bütöv bağlıyam.*[2] parçasında isə bütövlüyü təqdim etmək üçün həmcinslikdən istifadə olunur-xırdalananlar sadalanır. Bulaqllar, göy çinarlar dil açıb danışır, təbiət canlanır. Coğrafi tamlıq yaradılır. Siyasi və dünyəvi düşüncə birləşir. Hər şey bütövləşir.

Bəxtiyar Vahabzadənin hər bir şeiri bir həyat hekayəsi, həyatın fəlsəfəsidir. *Mənim sol əlimdə yanıq yeri var O, mənə töhfədir körpəliyimdən. Odun olduğundan xəbərsiz vaxtlar Əlimi manqalda yandırmışam mən. Körpəliyimdən, sol əl, yanıq yeri, manqalda yandırmaq* ifadələri uşaqlıq xatirələrini yada salır. İlk misraların xatirəsindən böyük həyata yol gedir: *Mən oddan qorxmadım yanana qədər, Mən qorxu bilmədim qanana qədər Elə ki, yandım, Odla oynamaqdan qorxdum, dayandım. Başlandı qorxu- Başlandı ehtiyat- Başlandı həyat*[3]*…*

Təqdim edilən misralarda əksmənalı sözlər yoxdur, ancaq *körpəlik-uşaqlıq və böyüklüy*ün, müxtəlif yaş hədlərinin dərketmə prosesləri qarşılaşdırılır, həyatın ziddiyyətləri önə çəkilir. *Oddan qorxmadım, qorxu bilmədim, odla oynamaqdan qorxdum, başlandı qorxu* birləşmələ-

[4] B.Vahabzadə. Seçilmiş əsərləri. I. cild Bakı,1974, s*43*
[5] B.Vahabzadə. Seçilmiş əsərləri. I. cild Bakı,1974, s.45
[1] B.Vahabzadə.Seçilmiş əsərləri.İkinci cild. Bakı,1984,s7
[2] B.Vahabzadə.Seçilmiş əsərləri.İkinci cild. Bakı,1984,s.22
[3] B.Vahabzadə.Seçilmiş əsərləri. I cild. Bakı,1974,s.202

rində iştirak edən *qorxu, qorxmaq* vahidləri və *od, başlandı* sözləri təkrarlansa da, yeknəsəklik yaratmır, düşüncəni itiləyir, fikri genişləndirir.

B.Vahabzadənin dil və üslub zənginliyinin əsas əlamətlərindən biri lokoniklikdir. Söz, ifadə seçimi, qrammatik qruluşun imkanları çərçivəsində görülən yaradıcılıq işi nəticəsində ən geniş fikir belə bir neçə sözə sığışdırılır. *Dağlar—əzəmətilə. Bağlar—naz-nemətilə, Sular—hərəkətilə Özüdür. Qoca—söz-söhbətilə, Cavan—şücaətilə, Qı*

Рассматривая разноплановую палитру поэтической кисти Бахтияра Вагабзаде, со свойственной ему чуткостью Расул Рза отмечает «мотив седеющих волос, печальных вестников надвигающейся старости» в творчестве поэта как одно из интересных явлений в современной азербайджанской литературе. В тот момент, когда Расул Рза обращал на это внимание, Бахтияру едва исполнилось 35 лет. И он писал:

Напрасно не думай, что мне на виски
От тайного горя легла седина.
Наоборот, говорит она,
Что жил я не зря,
И умру без тоски.
****
Подтачивает сердце
грусть и горесть,
от бурь
седеет рано голова...

А в сорок лет он парадоксально утверждает: «Да, я старше своего отца, старше деда!» («Я старше»).

В казахской поэзии аналогию можно найти в творчестве классика национальной литературы Абая Кунанбаева. Когда он писал следующие строки, тоже был чуть старше сорока лет:

Немало мы прожили лет.
Пожалуй, пора на тот свет.
****
Старость, тяжкие думы, стал чуток твой сон.
Яд и горечь – твой гнев, желчью ум поражен.
****
Уж старость в упор подступает,
И выхода нет никакого.
Строптивый про горе не знает,
Но проку ведь нет от такого! [3]

Естественно, совсем разные причины (отдаленность эпох, другая общественно-социальная среда, уникальная культура и т.д.) «заставили» обоих поэтов «состариться» раньше времени. Но *поэтические приемы* в своей семантике все равно схожи. В первую очередь поэты хотят, чтобы народные массы их услышали и поняли. А на Востоке всегда тонко прислушивались и с уважением относились к мудрым наставлениям седобородых аксакалов. Поэтому, будучи в роли «глубоких старцев», поэтам легче было задеть душевные струны, в основном, подрастающего поколения – основателя будущего и донести до них суть своего гнева, отчаяния и надежды.

«Не хочу покоя». Так называется один из знаменательных поэтических сборников Бахтияра Вагабзаде. Думается, это – отражение глубинных пластов духовного состояния поэта, который всю свою жизнь был в поисках вечной истины и смысла человеческой жизни, а также искренне переживал за судьбы отчего края («И на этой дороге в бессонном краю, Потерял и покой я и юность свою. Но зато приобрел драгоценное свойство: Беспокойство великое. Да, беспокойство!»).

Все исследователи единодушно отмечают, что стихи Вагабзаде полны противоречивых и противоборствующих контрастов. Например, И.Дж.Сулейменова в своей лингвистической статье «Антонимы в поэзии Бахтияра Вагабзаде» пишет: «Употреблённые Бахтияром Вагабзаде именные фразеологические сочетания «война правды», «престол правды», «смеющееся будущее», «зло родины», «добро родины», «дворец правды», а также глагольные сочетания «покрасить правду», «заплакала правда», «подавление добра и зла», глагольные сочетания, построенные на основе переносных значений, являются

новыми необычными выражениями... *В этих достаточно глубоко контрастных противоречиях наряду с художественным образным выражением находит своё отражение философия политико-общественных противоречий эпохи, тесная связь поэта с жизнью народа*» [4].

В стихотворении «Непокой» (1965 год) поэт подтвержает свою позицию в декларативной форме:

Для саза нашего искусства
Я стал – пусть скромною! – струной,
Но у меня такое чувство,
Что я в долгу перед страной.

Поэт – и пахарь, он и воин,
Высокой наделен судьбой...
Я только тем сейчас доволен,
Что недоволен я собой.

Подлинная простота его стихов, достигнутая напряженным духовно-нравственным трудом, дала возможность поэту расширить горизонты его поэтического пространства.

Казахский поэт Касыма Аманжолов, посетивший Баку в 1947 году, посвятил два стихотворения азербайджанской тематике [5]. В первом из них он пишет о Низами, называя его «султаном поэзии» и «одним из своих великих устадов», и еще от всей души приветствует Самеда Вургуна (учителя Бахтияра Вагабзаде). А лирический персонаж второго произведения – черноглазая девушка по имени Сана. Любуясь красотой азербайджанки, автор сравнивает ее , - (на казахском: «Тавриз-Баку аспанында күн Сана»), что вызывает определенные ассоциации, связанные с творчеством Вагабзаде. В чем это выражается?

Касым Аманжолов отлично знал историю азербайджанского народа и одной строкой сумел создать *целостное восприятие* образа Азербайджана, что несомненно показывает его гражданскую зрелость и словесное мастерство. А у Бахтияра Вагабзаде – страшно трагедийная тема: *разобщение народа, раздвоение души.* Кроме его диссидентской поэмы «Гюлистан», имеются еще другие стихи, в которых красной нитью проходят скорбно-страдальческие мотивы. Вот отрывок из его стихотворения «Между...», опубликованного в сборнике «Зори», в далеком 1974 году:

Я в горе один, как заблудший в лесу.
Я в крепости каменной службу несу.
В прихожей топчусь и никак не решу:
Здесь выход, там – вход в мою жизнь, а я между.

О, сколько в тебе, Бахтияр, твоих «я»,
Живут то печаля, а то веселя.
Колючею проволкой держит земля:
– , [6].

Удивительно, как тогдашняя московская цензура «прозевала» такие словосочетания как «каменная крепость», «колючая проволка», в контексте стиха откровенно намекавших на советский режим. У Вагабзаде поэтическая формула: «Баку и Тевриз – моя жизнь, а я между», на самом деле, обретает особое звучание, сокровенное очертание. В сердце поэта, говоря его словами, «стоящего на распутье», кроется сакральная мечта о воссоединении насильно разделенных земель.

В сборнике «Зори» у Вагабзаде есть еще одно стихотворение - «Нейтральная зона», изображающее «переходное положение» соседствующих территорий:

Полужива, полумертва.
Быть и не быть – ей все едино.
С одним глуха, с другим нема.

И ни лицо и ни личина.

Geçen asrın ikinci döneminde Bahtiyar Vahabzade`ni en çok rahatsız eden konu Azerbaycan dilinin korunması idi. Totalitar komünist rejiminde herkesten önce o hissetmiş ki, Sovyetler birliğinin rehberleri "ince politika" yürütmekle türk halklarının dilerini listeden çıkarmağa can atıyorlardı. Geçen asırlarda Nesimi`nin, Fuzuli`nin, Mirze Feteli`nin, Sabir`in diline kastedilmesine korkudan bütün Azerbaycan`lılar göz yumuyorlardı.

Bahtiyar Vahabzade ana dilinde yazıyordu, yalnız bu dilde kendi düşüncelerini duyğularını halka iletiyordu. Ana dili onun yaradıcılığının ülkü ve kaderidir. Şairin Sovyetler döneminde kazanmak istediyi en büyük başarı ana dilinin resmi devlet kurumlarında kullanılmasına nail olmaktır. B. Vahabzade`nin dil uğrunda mücadelesi evrensel yaratıcılığının önemli konularından biridir.

Şairin yaratıcılığında Vatan, halk, Ana dili yolunda yorulmadan mücadel eden, manevi saflığın zirvesine kalkmış müdrik insanın itirafları, çağırışları, öğütleri ve halkının ışıklı geleceyine sonsuz inamı kendisini açık şekilde göstermektedir.

Anahtar kelimeler: Bahtiyar Vahabzade, Ana dili, vatan

Görkəmli şair və ədəbiyyatşünas, ictimai xadim, akademik Bəxtiyar Vahabzadə (1925-2009) çağdaş Azərbaycan ədəbi-bədii, ictimai-siyasi həyatında tanınmış şəxsiyyətlərdən biri olub. Onun geniş və səmərəli bədii yaradıcılıq yolu, elmi, pedaqoji fəaliyyəti, fəal vətəndaşlıq mövqeyi müasir Azərbaycan ziyalılığının salnaməsinə ən qiymətli, ən yaddaqalan səhifələr yazmışdır.

Milli keçmişimizə, şərəfli tariximizə, doğma Vətən torpağına, dilimizə, mədəniyyətimizə, folklorumuza və yazılı ədəbiyyatımıza dərin köklərlə bağlı olmuş B.Vahabzadə həm də bütün bu sadaladığım sahələrdə insanlarda maraq oyadan, onları bu ruhda nəfəs almağa səsləyən şair, alim, pedaqoq və vətəndaş idi. Milli dil, mili qürur, milli təəssübkeşlik, milli dəyər, milli mənafe, milli düşüncə - bütün bunlar şairin nəfəs aldığı sahələr, amillər idi.

Bəxtiyar Vahabzadə şair kimi də, ictimai xadim kimi də, vətəndaş kimi də ana dilimizin həm təbliğatçısı, həm qoruyucusu, həm də yaradıcısı olaraq tanınırdı. Bəxtiyar Vahabzadənin sözün əsil mənasında müasir Azərbaycan ədəbi dilinin inkişafında xüsusi xidmətləri olub.

Ana dilimiz haqqında Bəxtiyar müəllimin yazdığı bu misralar çoxlarının dillər əzbəridir:

Bu dil-bizim ruhumuz, eşqimiz, canımızdır
Bu dil-bir-birimizə əhdi-peymanımızdır.
Bu dil-tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil-əcdadlarımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiztək
Qoruyub, nəsillərə biz də hədiyyə edək. [1]

Bəxtiyar Vahabzadə Azərbaycan poeziyasının görkəmli nümayəndəsi olmaqla yanaşı, həm də görkəmli ədəbiyyatşünas alim, akademikdir. O hələ gənc yaşlarından həm poeziya, həm də ədəbiyyatşünaslıq sahəsində öz qələmini sınamışdır.

Hər bir söz sənəti nümayəndəsi kimi, Bəxtiyar Vahabzadə də ədəbi-bədii dilin, ədəbi yaradıcılığın sirlərinə yiyələnməyə çalışmış, öz yaşıdları kimi, bəlkə də, onlardan daha yaxşı yazmağa, daha dərindən düşünməyə can atmışdır. Biz bu gün onun gənc yaşlarında yazdığı və onun barəsində yazılmış yazıları oxuyarkən sənətkarın ömür və yaradıcılıq yolunun heç də hamar və asan olmadığını görürük. Bu yol bitməz-tükənməz axtarışlar yoludur.

Bəxtiyar Vahabzadə nəzarət altında idi. Onun hər kəliməsi senzura tərəfindən saf-çürük edildikdən sonra işıq üzü görürdü. Düşüncələrini soydaşlarına çatdıra bilmək üçün yollar axtarırdı. Doğma vətənində vətənsizləşdirilən insanların gözünü açmasaydı, qara qüvvələr ulu bir xalqın dilini, tarixini, mədəniyyətini itirib batıracaqdı.

Sovet hakimiyyəti illərində rus siyasəti milli dillərin sıxışdırılıb aradan qaldırılmasına yönəlmişdi. Ana dili dövlət idarələrindən qovulmuş, rəsmi yazışmalar və yığıncaqlar ancaq rus dilində aparılırdı. Ruscanı mükəmməl bilməyənlərin üzünə dövlət idarələrində işləməyin qapısı bağlı idi. Bu səbəbdən valideynlər uşaqlarını rus məktəblərinə göndərirdilər. Bu isə Azərbaycan dilində tədris işi gedən məktəblərin sayının azalmasına gətirib çıxarırdı. Rus məktəblərinə gedənlər təkcə ana dilini mükəmməl bilməkdən məhrum olmurdular. Bu gənclər həmin

[1] Alməmmədova Səbinə, Bəxtiyar Vahabzadə Poeziyasının Dili, Bakı, "Elm", 2010, s 4.

məktəblərdən tam ruslaşmış halda çıxır, ana dillərini bilmədiklərindən milli ədəbiyyatı və milli musiqini də sevmir, xalqın tarixini bilmir, öz millətlərinə yuxarıdan aşağı baxırdılar.

Bəxtiyar Vahabzadə «Saray-daxma» şeirində göstərmişdir ki, xalqı saraylar yox, daxmalar yaşatmışdır. Şair belə hesab edir ki, bu gün də dili saxlayan yenə də həmin daxmalardır: "Baxın, bugünkü idarələr, nazirlər, yüksək rütbəli məmurlar yenə də öz övladlarını anadilli məktəbdə oxutmurlar və yenə də onlarla rus dilində danışırlar. Özü də onlar bundan xəcalət çəkmir və bunu özləri üçün fəxr sayırlar (mətndə: özlərinin üstünlüyü sayırlar). Demək, milləti, onun dilini saxlayan yenə də sadə insanlardır".

Şair bununla bağlı olan başqa bir ictimai bəlanı da yada salır. O, ürək ağrısı ilə qeyd edir ki, Sovet dövründə rus dilini mükəmməl bilməyənləri işə götürmürdülər, indi isə ingilis dilini bilməyənlər qapı arxasında qalır…

Bəxtiyar Vahabzadə əlavə edir ki, "mən heç də əcnəbi dilləri bilməyin əleyhinə deyiləm – əcnəbi dilləri bilmək vacibdir, amma bu, ana dilini bilməməyin hesabına olmamalıdır". [1]

Dil, ana dili məsələləri Bəxtiyar Vahabzadənin bədii və publisistik yazılarının daimi, sabit mövzularındandır. O, həmin mövzuya müxtəlif cəhətlərdən yanaşır, onun mənasını və əhəmiyyətini özünə və başqalarına açmağa çalışır.

Şair "ana dili" ifadəsinin meydana çıxmasını bu cür izah edir: "Biz dilimizə «ana dili» deyirik. Çünki bizə doğma dilimizi ilk dəfə öyrədən də ananın özüdür". O, nəsrlə dediyi kimi, nəzmlə də deyir:

Dil açanda ilk dəfə «ana» söyləyirik biz,
«Ana dili» adlanır bizim ilk dərsliyimiz,
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.

Ana dilini sonradan deyil, körpəlikdən ananın öz dilindən öyrənərlər. Sonradan öyrənilən dil yalnız özgə dil ola bilər. Sən xalqın dilini bilmirsənsə, demək millətin ruhuna, mənəviyyatına, tarixinə yadsan. Bu millətə övlad deyilsən.

Anasının dilində
dil açmayan kəs
Millətin dərdini
anlaya bilməz.

Başqa bir yerdə şair dili insanın anasından öyrəndiyi ən qiymətli sərvət, vətənə və millətə məhəbbətinin başlanğıcı kimi səciyyələndirir.

Şair "Mənim anam" şeirində göstərir ki, o, dili öz savadsız anasından öyrənmişdir. Anası oğluna təkcə dil öyrətməyib, ancaq onun öyrətdikləri şeylər, mətləblər içərisində ən vacibi, ən lazımlısı budur. Şair ona dil və həyatda gərəkli olan bir çox şeylər öyrədən anasından minnətdarlıq hissi ilə danışır. Bəşəriyyətin yaratdığı bütün xariqələr, öz gücünü, mayasını, ilk sıçrayış nöqtəsini istinadgahını, ana quçağından götürür. Hər şeyin əvvəli anadan başlayır. Əlifbadakı ilk hərfin də "a" ilə başlaması təsadüfi deyil. Biz dilimizidə "ana dili" adlandırırıq. Çünki bizə ilk dəfə doğma dilimizi də öyrədən ananın özüdür.

Savadsızdır mənim anam,
Amma mənə il öyrədib, ay öyrədib,
Ən əsası dil öyrədib mənim anam.
Mən bu dildə hiss etmişəm,
Həm sevinci, həm də qəmi.
Bu dil ilə yaratmışam,
Həm şeirimi, həm nəğməmi.
Yox, mən heçəm
Mən yalanam,
Kitab-kitab sözlərimin
Müəllifi – mənim anam. [1]

[1] Alməmmədova Səbinə, Bəxtiyar Vahabzadə Poeziyasının Dili, Bakı, "Elm", 2010, s 10.

Ana da müəllimdir; o, dilsiz körpəyə dil öyrədir. Ancaq dili, ağzı olan adamlara dil öyrədənlər də vardır. Bunlar öz uşaqlarından çox özgə uşaqlarına dil öyrədən, dil vasitəsilə öyrədən müəllimlərdir. Şair "Əlifba kitabı" şeirində həmin şəxsləri nəzərdə tutaraq yazır:

Müəllim! Qayğınla böyüyür insan,
Sən əqlə, kamala qanad verirsən.
Ana dilimizin gur bulağından
Körpə balalara su içirirsən.

Müqayisə üçün deyək ki, həm "Ana dili", həm də "Əlifba kitabı" şeirlərində şair eyni bir obraza müraciət edir: "içirmək" (laylanı südlə qarışdırıb, ruha içirmək, ana dilinin gur bulağından körpə balalara su içirmək). Sonuncu halda "su" sözü məcazi mənada işlənmişdir.

Vahabzadə rəhbərlik etiraz etməsin deyə əsərlərini müxtəlif metodlar vasitəsilə qələm almışdır. Gəzdiyi ölkələrdə gördüklərini "Latın dili" şeirində dilə gətirən şair əslində öz ölkəsini izah etməyə çalışırdı. Guya şair hansısa xarici ölkənin yerli əhalisinin halına acıdığını və təəcübləndiyini etiraf edirmiş. Şair ölkəsindəki məkrli dil siyasətinə qarşı zərgər dəqiqliyi ilə ölçüb-biçdiyi fikirlərini qoyur və inanır ki, oxucular onun nəyə işarə etdiyini anlayacaqlar[2].

Sən dərdə bax,
Vətən də var,
Millət də var.
Ancaq onun dili yoxdur.
İndi söylə,
Hansı dilə ölü deyək:
Vətən varkən,
Millət varkən,
Kiçik yoxsul komalarda
Dustaq olan bir diləmi?
Yoxsa, uzun əsrlərdən
Keçib gələn,
Xalqı ölən
Özü qalan bir diləmi?[3]

B.Vahabzadə, millətinin sabahının işıqlı olacağına əmindir. Böyük Füzuliləri, Sabirləri və Üzeyir bəyləri yaradan Azərbaycan türklərinin gələcəyinə də, onun dilinə, mədəniyyətinə də inamı hədsizdir. Üzünü müəyyən insanlara turur və deyir: "Siz hələ ən adi bir həqiqəti bilmirsiz ki, Ana dili vaxta görə seçilməməli, Ana dili olduğuna görə bütün dillərdən seçilməli və sevilməlidir. Vətəni də gözəl və səfalı olduğuna görə sevmirlər. Yalnız vətən olduğuna görə sevirlər".

Şairin bu barədə qənaəti belədir: "Ana dili! Bu dildə yaranan sənət əsərləri, elmi əsərlər hər kəs üçün hər şeydən əzizdir. Şair bu dillə böyüyür, bu dildə danışır, bu dil vasitəsilə yazıb-yaradır, bu dillə də öz xalqının arzu və əməllərini ifadə edir".

Bəxtiyar Vahabzadə kitab dili ilə canlı danışıq dilini qarşılaşdırmaqla yazır: "Otuz ildən artıqdır ki, yazıb-yaradıram. İndi də elimizdə, obamızda dili kitab dili ilə korlanmamış qocaların söhbətində elə gözəl, elə dolu və çoxrəngli sözlərə rast gəlirik ki, ana dilimizin qüdrətinə heyran qalıb, hislərimin ifadəsindəki acizliyimdə dilimizi yox, özümü günahkar bilirəm". Şair bu əqidədədir ki, dili bilmək azdır. Onu yaradan ayrı-ayrı sözlərin məzmununu incəliklərinə qədər hiss etmək, duymaq, onlarla yaşamaq lazımdır.

Bəxtiyar Vahabzadə söz sənətkarlarını xalqla daim təmasda olmağa, xalqın canlı danışıq dilindən öyrənməyə çağırır, ana dilinin dərin qatlarında yatan, hər kəsin görə bilmədiyi, duymadığı məna çalarlarını arayıb üzə çıxarmağa səsləyir. Şair xalqı öz dili ilə dindirməyi, danışdırmağı ən doğru yol hesab edir. Yazıçıların bədii dildə ortaya qoyduqları yeni deyim tərzi

[1] Bəxtiyar Vahabzadə Əsərləri. On iki cilddə. XI cild, Bakı, "Elm", 2009, s 151.
[2] Karaman Erdal, Size Selam Getirmişem, İstanbul, "Kesit", 2011, s173.
[3] Karaman Erdal, Türk Dünyasının Sesi Bahtiyar Vahabzade, Bakı, "Nurlar", 2009, s 62-63.

xalq dilində formalaşmış sözlər, söz formaları və şəkilçilərin təqdim etdiyi sonsuz imkanlara söykənir [1].

"Ana dili" şeirində şairin milləti millət edən bir çox xüsusiyyətlərin dildə öz əksini tapmasına diqqət yetirdiyini görürük:

Səndə mənim xalqımın
Qəhrəmanlıqla dolu
Tarixi varaqlanır.
Səndə neçə min illik
Mənim mədəniyyətim,
Şan-şöhrətim saxlanır.
Mənim adım-sanımsan,
Namusum, vicdanımsan!

Bu kiçik parçada şair ana dilinə və ümumiyyətlə, hər bir milli dilə xas olan xüsusiyyətləri sadalayır: "Dildə xalqın tarixi öz əksini tapır, xalqın milli mədəniyyəti onun dilində özünü qoruyub saxlayır". Ona görə də dilin daşıyıcısı üçün dil ad-san, şan-şöhrət və namus, vicdan kimi yaxın, əziz və müqəddəsdir.

Ana dilini xalqın ruhu, mənəvi dünyası sayan Vahabzadəyə görə, insan ən dərin, ən incə hisslərini yalnız anasından öyrəndiyi, orta məktəbdə möhkəmləndirdiyi dil vasitəsi ilə ifadə edə bilər. Bəxtiyar Vahabzadə ana dilində yazırdı, ona görə ki, yalnız bu dildə öz fikir və duyğularını ifadə edə bilirdi. Bu mənada bu dil onun yaradıcılıq taleyi idi. Sovet dönəmində qazanmaq istədiyi ən böyük uğur ana dilinin rəsmi dövlət idarələrində işlənməsinə nail olmaq idi. Bu mənada şair yazırıdı: "Dəftərxana üzü görməyən, rəsmi idarələrdə işlənməyən dil gec-tez ölümə məhkumdur".

Lakin müstəqillik elə ilk ilindəcə vəziyyət tamamilə dəyişdi. Rus dilini müdafiə edənlər kəkələyə-kəkələyə Ana dilində danışmağa başlayır, övladlarını rusdilli məktəblərdən çıxarıb Ana dilli məktəblərə qoyurlar. Sən demə, B.Vahabzadənin on illər boyu min bir əziyyətlə qaldırdığı problemin həlli belə asan imiş.

B.Vahabzadənin dil uğrunda mübarizəsi həyatının əsas amalı, hər tərəfli yaradıcılığının mühüm mövzularından biridir. Özünü, kökünü yad təsirlərin yardımı ilə unutmasını xalqımızın ən böyük bəlası hesab edərək bunu dəfələrlə vurğulamışdır. "Bizim dilimizin türk dili olması, millətimizin də "türk" adlanması aksiomdur. Yəni bunun sübuta ehtiyacı yoxdur".

QAYNAQLAR

1. Bəxtiyar Vahabzadə Əsərləri. On iki cilddə. III cild, Bakı, "Elm", 2009.
2. Bəxtiyar Vahabzadə Əsərləri. On iki cilddə. XI cild, Bakı, "Elm", 2009.
3. Karaman Erdal, Türk Dünyasının Sesi Bahtiyar Vahabzade, Bakı, "Nurlar", 2009.
4. Almməmədova Səbinə, Bəxtiyar Vahabzadə Poeziyasının Dili, Bakı, "Elm", 2010.
Karaman Erdal, Size Selam Getirmişem, İstanbul, "Kesit", 2011

[1] Bəxtiyar Vahabzadə Əsərləri. On iki cilddə. XI cild, Bakı, "Elm", 2009, s 11-12.

I BEYNƏLXALQ BƏXTİYAR VAHABZADƏ SİMPOZİUMU

VAHABZADƏ VƏ MİLLİ MÜBARİZƏ

Qafqaz Universiteti, 13-15 dekabr 2012-ci il

M LL V CDANIMIZIN T R NNÜMÇÜSÜ

Fidan Nizam ddin qızı Abdur hmanova

AMEA – nın Nizami adına Ədəbiyyat
İnistutunun elmi işçisi.
Azərbaycan Yazıçılar birliyinin üzvü.

Rezöme

Pogtiçeskaə samozahita v liriçeskoy pogzii. Sovremennaə azerbaydjanskaə pogziə priobrela pogtiçeskuö formu v 60-e qodı XX veka. V literature, osobenno v pogzii dramatiçeskiy konflikt mejdu serdüem i razumom stal istoçnikom psixoloqizma, nravstvennım sterjnem. V pogzii sformulirovalosğ dva qlavnıx teçeniə: filosofsko – intellektualğnaə i liriko – romantiçeskaə pogziə.

Summary

In Azerbaian poetry psichologizm is more connected uith the human character in the lyrical character. In poetry the reflection of psichologizm is connected vith human bany and human character.

Literary criticism as a constituent part of literary proses takes its methods from is philosophy and teoritical – aesthetic criterions from its literary fiction heritaqe.

Müasir Azərbaycan poeziyası bir mərhələ olaraq XX əsrin 60-cı illər ədəbiyyatının dalğaları üzərində poetik formaya malik oldu. 50-ci illərin ortalarından başlayaraq 60-cı illərin sonlarına qədər ədəbiyyatın bütün növ və janrlarında həm poetik, həm ideya-estetik baxımdan yeniləşmə baş verdi. Bu ilk növbədə dünya tarixində, xüsusilə Azərbaycanın da daxil olduğu ümumsovet tarixində baş verən ictimai-mənəvi proseslərlə bağlı idi. Səbəblər çox, başlıca nəticə isə bundan ibarət idi ki, sovet dövrünün yazıçıları məhz bu dövrdə yaradıcılıq azadlığı əldə etdilər. Nəticədə nəsr geniş panoram təsvirlərdən bədii konfliktliyə endi. Nəsrdə və dramaturgiyada lirik-psixoloji üslub formalaşdı. Bütövlükdə ədəbiyyat şablon, trafaret şüarçılıqdan, sosioloji patetikadan konkret insanın daxili aləminə tərəf yön aldı. Adi insanın, sıravi müasirlərin mənəvi aləmi, onun daxilində baş verən psixoloji təbəddülatlar bədii ədəbiyyatın maraq dairəsinə daxil oldu, tədqiqat predmetinə çevrildi.

Ümumən ədəbiyyatda, xüsusilə poeziyada qəlblə zəka arasındakı dramatik mübarizə psixologizmin mənbəyinə, mənəvi zəmininə çevrildi. Bu zaman poeziyada iki başlıca təmayül formalaşdı: 1. Fəlsəfi-intellektual poeziya. 2. Lirik-romantik poeziya.

Birinci təmayül daha çox dahi qəlb şairi M.Füzulidən, ikinci təmayül isə aşıq poeziyasından və M.P.Vaqifdən qaynaqlanırdı. XX əsrin ortalarında fəlsəfi intellektual poeziyaya R.Rza, lirik-romantik şeirə isə S.Vurğun başçılıq edirdi. Ədəbi-tənqidin qənaətlərinə və poeziyamızın yaradıcılıq axtarışlarına (və təcrübələrinə!) istinadən belə hesab etmək olar ki, fəlsəfi-intellektual poeziya əsasən B.Vahabzadə, Ə.Kərim, M.Araz, F.Qoca, V.Səmədoğlu, F.Sadıq, Ə.Salahzadə, R.Rövşən, Ç.Əlioğlu, V.Bəhmənli, P.Qəlbinur, R.Behrudi, Salam, A.Həsənli…, lirik-romantik təmayül isə əsasən N.Xəzri, N.Həsənzadə, Qabil,, X.Rza, M.Yaqub, C.Novruz, S.Rüstəmxanlı kimi şairlərin yaradıcılığı sayəsində formalaşıb. Bu şairlər həm mənəvi aləmlərinin, şair «mən»inə həm psixoloji özünüifadə tərzlərinə, həm də lirik qəhrəmanın ifadə etdiyi estetik idealın xarakterinə görə fərqlənirlər.

Təkcə yaşlarının sayına görə yox, həm də ədəbi-tarixi prosesdəki poetik sanballarına görə B.Vahabzadə, M.Araz, Ə.Kərim, N.Xəzri, X.Rza, Qabil müasir şeirimizin klassikləri hesab oluna bilərlər. Onlar müasir poeziyanın poetik-fəlsəfi ənənələrini yaratdılar. Təəssüf ki, «müasir» anlayışının nə tarixi, nə də estetik sərhədləri elmi-nəzəri fikirdə dəqiq müəyyənləşməyib. Ona görə də müasir poeziya dedikdə biz ənənələri sovet dönəmində 60-80-ci illərdə formalaşıb daşlaşmış son 25 ilin (1985-2010) yenidənqurmaya müstəqillik dövrünün poeziyasını nəzərə tuturuq. Çünki təkcə bədii (poetik) baxımdan yox, tarixi-ictimi baxımdan da bu yeni ədəbi epoxa – istiqlal məfkurəsinə azərbaycançılıq ideologiyasına dayaqlanan elmi-nəzəri, bədii-fəlsəfi axtarışlar dövrüdür.

Şair lirik şeirlərində özünü estetik idealının süzgəcindən keçirərək təcəssüm edir… Lirik qəhrəman iki böyük üzvi tərkibdən ibarətdir: biri şairin özü, digəri isə onun, eləcə də yaşadığı

cəmiyyətin mütərəqqi idealı». Bu baxımdan (və bu əsas baxış bucağıdır – F.A.) yanaşdıqda 60-70-ci illər poeziyasında şair «mən»i və onun estetik idealının – lirik qəhrəmanın təcəssümündə, daha doğrusu onun bədii kimliyində iki qabarıq cəhət diqqəti cəlb edir: 1) fəlsəfi intellektual qəhrəman; 2) lirik-romantik qəhrəman. Onlar həm də (artıq qeyd etdiyimiz kimi!) poeziyamızda ənənələri XX əsrin 90-cı illərinə qədər davam etmiş iki təmayülü müəyyən edirlər.

Tədqiqatçıların qeyd etdikləri kimi bu obrazlı təfəkkür tərzinə keçid mərhələsi idi, «ritorik, zahiri pafosun daxili poetik əlamətləri, konkret ifadə üsulu ilə, sözçülüyün, təsvirçiliyin məna dəyərləri ilə əvəz edilməsi» baş verirdi. Bu baxımdan yeni obrazlı təfəkkür tərzinə keçid mərhələsinin əsasını qoymuş R.Rzanın «Mən torpağam», «İnsan şəkli», «Soruş», B.Vahabzadənin «Rəqəmlər», «Mənim yolum», «Şeir və mən», «Qara saçlar, ağ saçlar», F.Qocanın «Qaragül dərili quzu», «Risk», M.Arazın «Məndən ötdü, qardaşıma dəydi», «Azərbaycan, dünyam mənim», «İnsan qayalar», F.Sadıqın «Qızıl lalələr», «Gül ləçəkləri» silsiləsi bu dövrün psixologizmlə yüklənmiş maraqlı poetik nümunələridir. 60-cı illərdə assosiativ bədii təfəkkürün sistemli lirik psixoloji nümunələrini – «Rənglər» şeirlər silsiləsini R.Rza yaratdı. Bu ənənəni, daha doğrusu poeziyada fəlsəfi-intellektual təmayülü Ə.Kərim, B.Vahabzadə, M.Araz, F.Qoca, F.Sadıqla bərabər sonralar V.Səmədoğlu, Ə.Salahzadə, İ.İsmayılzadə, R.Rövşən və V.Cəbrailzadə yeni bir vüsətlə davam etdirdilər.

Emosional mühakimə bu poeziyanın lirik qəhrəmanını psixoloji cəhətdən fərqləndirən başlıca əlamətlərdən idi. B.Vahabzadənin «Ömür» şeirində lirik qəhrəmanın psixoloji özünüifadəsi belədir:

Yaşamaq – yanmaqdır. Yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır, demək
Onun da həyatı yanmağındadır.

Ömrü az olsa da qartal enmədi,
Dedi, səmalarda öz oylağım var.
Ömrün azlığından gileylənmədi
Ömrü insan kimi başa vuranlar.

Bu elə bir dövr idi ki, poeziyada fikirlə hissin, intelektlə duyğunun poetik vəhdəti uğrunda mübarizə gedirdi. Elə bu misraların müəllifi poeziya mübahisələrində yazırdı ki, «Əsas bəlanı vəzn məhdudluğunda deyil, fikir məhdudluğunda və xüsusən şeirimizdə fikrin poetik ifadəsinin, obrazlı təfəkkürün, bədii ümumiləşdirmələrin zəifliyində axtarmaq lazımdır». Poeziyanın fikri dolğunluğu bu zaman onu şüarçılıqdan xilas edən başlıca imkan kimi irəli sürülürdü. Lakin burada başlıca bir cəhət də önəmli idi: eyni zamanda şeirin poetik hüsnünü yaratmaq, onun emosional təsir gücünü artırmaq. Dünya ETİ nailiyyətlərindən fəxrlə danışdığı, SSRİ-də təbiət üzərində qələbə tərifləndiyi bir dövrdə – 1968-ci ildə filosof şair B.Vahabzadə «Baş» şeirini yazdı. Şeir ədəbi-ictimai mühitdə sensasiya doğurdu. O, insanın bədən üzvlərinin, xüsusən də başın transplantasiyası əleyhinə yazılmışdı:

Böyrəyi, ürəyi dəyişmək asan
Bəs başı?
Bu yerdə bir qədər dayan!
İnsanın adına, şərəf-şanına
Deyirəm, gəlməzmi bundan bir ləkə?
Bir nadan güvənib öz imkanına
Dahinin başına göz dikdi bəlkə?
Ey həkim gücünə inansan da sən
Bu yükü boynuna heç götürmə, gəl
Ayırıb insanı öz aləmindən
Ana təbiətlə bəhsə girmə gəl![1]

Şair həkimi təbiətin ahəngini pozmamağa çağırır, dahini yaşatmaq üçün cahilin başının onun bədəninə köçürülməsini xoşbəxtlik yox, amansız bir faciə hesab edir. Deməli baş dəyişilirsə fikir də dəyişilir. Əgər ölən başda dahinin fikri, əqidəsi, məsləki də ölübsə, onda nadan başı ilə yaşayan adama necə dahi demək olar?! «Yaşamaq xətrinə fikri dəyişmək // Məsləki dəyişmək yaşamaqmıdır?» Şair şeirini cavabı özündə olan belə bir fəlsəfi sualla tamamlayır.

Ümumən, B.Vahabzadənin poeziyası, xüsusilə də lirikası ZAMAN-la barışmaz dialoqa girən filosof İNSAN-ın bəşəriyyətin taleyi üçün narahatlıq duyğularından yaranır. Bu lirikanın mərkəzində, onun cövhərində şair «mən»ini hər şeydən uca tutan bir ürək, qəlb dayanır və oxucu ilə səmimi olmağa çalışır.

Şeirdə fəlsəfi fikrin daşıyıcısı olan poetik forma gözəlliyi əsas şərtlərdəndir. Bu fikir təzə deyil, poetikada həmişə müasir olmuşdur. Hələ böyük dramaturq və mütəfəkkir M.F.Axundov yazırdı: «Şeir gərək laməhalə ziyadə ləzzətə və hüsndə və fərəhdə ziyadə təsirə bais olsa, əgər olmasa, sadə nəzmdir». Nəhayət deyə bilərik ki, fəlsəfi-intellektual şeirin lirik qəhrəmanı da fəlsəfi düşünən, öz intellektual psixoloji aləminə güvənən, zəmanəsinin, yaşadığı həyatın problemlərini qəlbindən daha ziyadə zehnindən keçirib dərk edən insandır.

Bütün bədii janrlar kimi lirik növün ən zərif, ən füsunkar, ən yığcam janrı olan lirika da hər şeydən öncə yazıçı müşahidəsindən doğulur. Şairin mənəvi aləmi, müəllif başlanğıcı lirik şeirin həm psixoloji təməlini, həm də bədii formasını müəyyən edir. 60-cı illər lirikasından bəhs edərkən qeyd etdik ki, bu zaman hər şeydən öncə lirikada fərdi emosiyaların yeni qaydada təşəkkülü baş verir və bu özünəməxsus üslub tələb edir. Çünki lirikada müəllif başlanğıcı ilk növbədə lirik təhkiyə, müəllifin emosional mühakiməsinin bədii təzahürü ilə bağlıdır.

D B YYAT S YAHISI

1. Quliyeva S. Müşfiqin sənət aləmi. B., «Yazıçı», 1988, s.102-103.
2. Allahverdiyev V. Müasir Azərbaycan poeziyasının inkişaf meylləri (1945- 1965) NDA. B., 2009, s.8.
3. Vahabzadə B. Çinar. BAkı, 1956, s.18.
4. Vahabzadə B. Şeirimiz haqqında bəzi mülahizələr. «Ədəbiyyat və incəsənət» qəz., 23 oktyabr 1955.
5. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. I c. Bakı, «Öndər nəşriyyatı», 2004, s.177-178.
6. Axundov M.F. Seçilmiş əsərləri, III c., s.14.

BAHT YAR VAHAPZADE'N N "ANA D L " ALGISI

Hasan BA CI

Yrd. Doç. Dr., Mehmet Akif Ersoy Üniversitesi
Eğitim Fakültesi Türkçe Eğitimi Bölümü
Burdur/TÜRKİYE
hbagci@mehmetakif.edu.tr

ÖZET

XX. yüzyıl Azerbaycan Türk Edebiyatı'nın en önemli temsilcilerinden biri olan Vahapzâde'nin şiirlerinde ısrarla ele aldığı değerlerin başında *"ana"* ve *"ana dili"* gelmektedir. Vatan sevgisini gelecek nesillere aşılamayı amaçlayan Vahapzade, verdiği eserlerle *"ana"* kavramını *"ana vatan, ana dili ve ana (anne)*" üçlemesiyle ön plana çıkarmış ve bu değerleri adeta bayraklaştırmıştır. Onun *"Ana Dili"* ve *"Benim Anam"* adlı şiirleri Azerbaycan Türkçesinin en sade ve anlaşılır örneklerini oluşturmaktadır. Şiirlerinde millî, ahlakî ve insanî duyguları kazanmış ana diline hâkim olan bir insan profilini öne çıkaran şair, ana dilini bilmeyenlere ve yaşadığı dönemde ana dilini evlatlarına öğretmeyenlere çok üzülür hatta onları kınar. Ana dilini bilmeden milli düşünce ve vatanseverlikten bahsedilemeyeceğini ifade eden şair, bu düşüncesini *"Ana dilim bilmeyen bireyler milletin ruhuna, maneviyatına ve tarih şuuruna biganedir ve o milletin evladı değildir."* sözleriyle ortaya koyar. Bu çalışmamızda yaşadığı dönemde sıkıntı çekeceğini bile bile ana dili ile eserler veren korkusuz vatan şairinin şiirlerinde ana dilinin kullanımına verdiği önemi incelemeye çalışacağız.

Anahtar kelimeler: Bahtiyar Vahapzade, Ana Dili, Benim Ana Dilim.

G R

Azerbaycan edebiyatının son yüzyılına damgasını vurmuş, vatan şairi bilinen Bahtiyar Vahapzade bütün yaşamı boyunca Azerbaycan halkının istiklali için hem edebi hem de siyasi alanda bıkmadan ve usanmadan önüne çıkarılan bütün zorluklara göğüs germiş bir abidevi şahsiyettir.

Verdiği eserlerde bir milletin uyanış meşalesini ateşlemiş Azerbaycan Türklerinin sözcüsü olan Vahapzade için Anar: *"Toprağımıza hürriyet, bağımsızlık baharının gelmesini ilk duyan, bu baharın gelmesi için yıllar boyu mücadele veren ve bu baharı ilk selamlayan, müjdeleyen şairlerimizden biri de Bahtiyar Vahapzade'dir."* [1]demektedir.

Ömrünün uzun bir süresini Sovyet döneminde korku ve sıkıntılar içinde geçiren Vahapzade'nin şiirlerinde terennüm ettiği her şey millidir. Halkının içinde bulunduğu sıkıntılı durumlardan çıkış yolu olarak bütün eserlerinde başta vatan, millet ve ana dil olmak üzere milli değerlere bağlı kalmayı işaret etmektedir.

Stalin döneminde şiddetle reddedilen millî değerler, korku sebebiyle bastırılan fikirler, yirminci yüzyılın ikinci yarısından itibaren bazen açık bazen de metaforik üslûp içersinde işlenmiştir.

Bu yeni dönemle birlikte milli değerlere sahip çıkılmış ve bunlar açıkça dile getirilmiştir. Vahapzade'nin 1954 yılında yazdığı "Ana Dili" adlı şiiri, korku ve şiddet politikası uygulayan Sovyet yönetimi altında dili ve kültüründen başka tutunacak varlığı kalmayan bir şairin feryadıdır. Şair, bu şiiriyle, inkâr edilen kimliğini haykırmaktadır. İşgal altındaki vatanını ve vatanın temsil ettiği millî değerleri, kendi ana dilinde bulmaktadır.

Vahapzade'nin bir ömür boyu vermiş olduğu mücadelede, azatlıkla eşdeğer tuttuğu ana dil büyük önem arz etmektedir. Yazmış olduğu makalelerde ve şiirlerde bu hususta ki hassasiyetini görmek mümkündür. Ona göre ana dilini bilmeyen bir insanın o millete ait olduğunu iddia etmeye hakkı yoktur. Dilini bilmeyen, milli düşünceden yoksun vatanperverlik bakımından ise onursuz olur. Onlar için vatan mefhumu şahsi ev, millet düşüncesi de yakın akraba anlamına gelmektedir. Ana dili bilmeyen bireyler milletin ruhuna, maneviyatına ve tarih şuuruna bigânedir ve o milletin evladı değildir.

Bahtiyar Vahapzade'nin millet ve vatan sevgisi ile birlikte onun için en değerli unsurlardan biri de şüphesiz ana dilidir. Dilini ve kültürünü bilmeyenleri 'manevi muhacir' olarak tanımlar.

"Riyakar' şiirinde çocuğunu Rus dilinde eğitim öğretim faaliyetlerini yürüten okula kaydettiren bir öğretmene şöyle seslenir:

Beni evladıma ana dilinde
Ders veren muallime bak
Vatan diyen öz evladını,
Ecnebi dilinde okutur ancak.
Özgeye dilim öğren diyorsun.
Özünse bu dili beğenmiyorsun.

Diyerek düşüncelerini belirten Vahapzade Ana dilini korumayı ve ona sahip çıkmayı adeta bir yaşam felsefesi haline gelmiştir. *"Vatanda yaşayıp da onun manevi özelliklerine bigâne olan, adını taşıdığı halkın dilini, tarihini ve kültürünü bilmeyen insan, vatanın içinde vatandaş değil, manevi muhacirdir."*[2] (Vahapzade 1999: 19) Sözüyle de ana diline verilmesi gereken önemi işaret etmektedir.

Ona göre bir milletin varlığı ve bekası dille mümkündür. Dil yoksa millet de yoktur. Şair, Sovyetler döneminde ana dilinin durumunu "Merziye" şiirinde şu mısralarla dile getirir:

Ey bu günü dilim dilim
Parçalanan Ana dilim
Sinesinde od kalanan ana dilim
Kapıların arkasında

[1] RIZAYEV, Anar (2005), Azerbaycan Türkçesinin Söz Varlığı, Çev.: Arif Acaoğlu, Akçağ Yayınları, Ankara.
[2] VAHAPZADE, Bahtiyar (1999), Vatan, Millet Ana Dili, Atatürk Kültür Merkezi Başkanlığı Yayınları, Ankara.

Boynu bükük kalan dilim.
Var iken yok olan dilim
Ayaklarda kilim dilim
Savaşlarda bir kahraman,
Barışlarda halim dilim.

Vahapzade ana diline verdiği önemi yazdığı bir şiire bu adı vererek göstermektedir. 2004 yılında yayınlanan *Seçilmiş Şiirler I-II* adlı eserine bu şiiri ilk sıraya koymasıyla dile verdiği önemi göstermiştir. Ana Dili şiirinde bir çocuğun söylediği ilk anlamlı kelimenin "ana" olmasından dolayı bir milletin dilinin ana kadar kutsal ve ana sütü kadar temiz olduğunu işaret etmektedir. Vahapzade, bir çocuk için ana dilde söylenen ninniler ve türkülerin anne sütü kadar gerekli olduğunu Ana Dili şiirinin ilk dörtlüğünde şu şekilde dile getirmiştir:

Ana Dili
Dil açanda ilk defe ana söyleyerik biz,
"Ana Dili" adlanır bizim ilk dersliyimiz.
İlk mahnımız laylanı anamız öz südüyle
İçirir ruhumuza bu dilde gile gile

Şiirin ikinci bölümünde ise, şairin ifadesiyle "Ana Dili" candır. Onun ölmesi, yok olması bir milletin yok olması demektir. Bu yüzden ana dil, bir milletin vazgeçemeyeceği aşkıdır. Ana dil, atalarımızın bize bıraktığı miras, bizim de gelecek nesillere bırakacağımız paha biçilmez bir hediyedir. Vahapzade, bunun ne kadar değerli bir hediye olduğunu şöyle dile getirir:

Bu dil, - bizim ruhumuz, eşgimiz, canımızdır,
Bu dil,- bir-birimizle ehdi-peymanımızdır.
Bu dil, - tanıtmış bize dünyada her şeyi.
Bu dil,- ecdadımızın bize goyub getdiyi
En gıymetli mirasdır, onu gözlerimiz tek
Goruyub, nesillere biz de hediye verek.

Bir milletin adının dünya üzerindeki devamının da ancak o milletin dili ile devam edebileceği görüşünde olan Vahapzade, milletin şanının ve namusunun korunması, dilin korunması ve yüceltilmesi ile mümkün olduğunu ifade eder. Halkın akıl ve düşüncesinin ana dil ile en güzel şekilde ifade edilebileceğine dikkat çeken Vahapzade, yazılan birçok Leyla ve Mecnun Hikâyeleri arasında kendi öz diliyle yazılan bu aşk hikâyesinin bu dil sayesinde dünyada meşhur olduğunu ana dilinin güzelliklerine dayandırarak şöyle ifade etmektedir:

Ana dilim, sendedir halkın aklı, hikmeti,
Arap oğlu Mecnun'un derdini sende söylenmiş.
Yüreklere yol açan Fuzuli'nin sanatı,
Ey dilim, kudretinle dünyalara yol açmış.
Sende benim halkımın kahramanlıkla dolu
Tarihi varaklanır,

Dili bir namus, bir vicdan olarak niteleyen Vahapzade, dili yozlaştıranların, ihmal edenlerin neleri yozlaştırdığı, neleri ihmal ettiklerini açıkça dile getirmektedir:

Sende nice bin yıllık benim medeniyetim,
Şan-şöhretim saklanır.
Benim adım, sanımsın,
Namusum, vicdanımsın.
Milletlere, halklara halkımızın adından
Aşk destanları yaratıldı bu dilde.
Moskova'da Puşkin'e heykel dikildiği zaman,
Ona abide koydu bu dilde Şirvani de.

Çocuklarına Rusça eğitim aldıran ve Azeri Türkçesini küçümseyerek bunu yapan eğitimli bir Azeri Türküne şairin verdiği bu cevabın "Ana Dili" şiirine yansıması ise şöyledir:

Ey kendi doğduğu dilinde konuşmayı ayıp bilen,
Bunu iftihar bilen
Modalı edepsizler
Kalbinizi okşamıyor koşmalar, telli sazlar.
Koy bunlar benim olsun.
Ancak Vatan ekmeği,
Bir de ana yüreği
Sizlere varlığım olsun.

Ana dilin üzerine büyük bir titizlikle eğilen Bahtiyar Vahapzade, milli şuurun en büyük dayanağı olan dili gerileteceği sebebiyle "yabancı dille eğitime" de karşı çıkar. Yabancı bir dilde yapılan eğitim insanların cemiyetten göbek bağını kesmelerine sebep olur. İnsanın içinde kendini bulduğu toplum ile en kuvvetli bağları önce dil sonra din ile oluşur. Yabancı dilde eğitim bu bağı keser. Milletin sinesinden çıkan aydınlık dimağlar yerine, başkaların tedrisinden geçmiş insan müsveddeleri yaratarak ferdi, mensubu olduğu kitleye karşı yabancılaştırır. Vatanına, milletine, faydalı olacak nesillerin yabancı dilde eğitim yapmakta olan okullardan çıkmasını beklemek, en hafif tabiriyle safdilliktir. Yabancı dilde eğitim millet içerisindeki birlik ve beraberlik ruhunu zedeler, kendisini almış olduğu eğitimden dolayı " aydın" olarak gören kitle ile halk arasında telafisi mümkün olmayan uçurumlar yaratır. Emperyalizmin bir ülkeyi ele geçirme metotlarından işte bir tanesi de bu yabancı dilde eğitimdir ki; bu milli şuurun şekillenmesine ket vurur. Bunun bilincinde olan ve dili uğruna bir ömür buyu destansı mücadeleler veren, büyük şairimiz Vahapzade, Azerbaycan topraklarının Sovyet işgali sırasında olduğu yıllarda Rusça ile yapılan eğitimin Bakü'ye (genel olarak da Azerbaycan'a) medeniyet getirmediği gibi, buna mukabil birçok yara açtığını netice itibariyle de bu gün "Ruslaşmış yerli mankurtlarla" baş başa kalındığını 07.09.1997 yılında Yeni Müsavat gazetesinde yazmış olduğu bir yazısında belirtmektedir.

Bahtiyar Vahapzade'nin de izah ettiği üzere oldukça sinsi ve tehlikeli olan yabancı dilde eğitim; ata ocağına, ailesine düşman kesilen, milli düşünüş ve hissiyattan nasibini almamış ve de milletinin öz kültürüne bigane kalarak hor bakan fertler yetiştirmektedir.

Bahtiyar Vahapzade'nin biraz önce zikretmiş olduğumuz yazısında yer alan ve aşağıya almış olduğumuz paragraf şairimizin mezkûr konuya ilişkin görüşlerini daha bariz izah etmesi bakımından dikkate şayan olduğu için aynen alıyoruz:

"Sovyet yönetimi yıllarında Rusçayı Rus gibi bilmeyenlere iş verilmediği için ebeveynler evlatlarını Rus okullarına veriyorlar, ana dilde eğitim yapan okullarımızın sayısı her yıl biraz daha azalıyordu. Rusça eğitim veren okullarda ise milli şuurundan mahrum, kendini başkalarından hakir gören mankurtlar yetişiyordu. Bu mankurtlar bu gün geçmişin nostaljisiyle yaşayarak kendilerini **Bakinets** (Bakülüler) olarak adlandırıyor, Bakü'den Rusların Ermenilerin, Yahudilerin taşınmasına, onların yerine Karabağ'dan Ermenistan'dan taşınan Azerilerin artmasına üzülüyorlar, geçmişteki beynelmilel Bakü'yü yitirdikleri için feryat koparıyorlar. Soy kökünden uzaklaşan, dilinden ve dininden ayrı düşünenler, bağımsızlığı kabul etmiyor yine gözlerini Moskova'ya çeviriyorlar, çok milletli kozmopolit ve simasız Bakü'yü istiyorlardı"[1]

Almış olduğumuz bu satırlar, usta şair ve mütefekkir Vahapzade'nin bir ıstırabını gösteriyor ki oda Sovyet zihniyetini alarak kendi vatanına yabancılaşmış insan tipidir. Hatta bu zevat işi öyle bir gaflet derecesine götürmüştür ki azat olmuş Azerbaycan'ı tanımayarak, milletin iradesine prangaların vurulmuş olduğu esaret yıllarına hasret çekmektedirler. Vahapzade tarafından açıkça anlatıldığı üzere Rus eğitiminden geçmiş bu " yerli yabancılar" cenahı milli bir davada dahi cemiyetini yalnız bırakmakta ve milletine karşı sırtını dönmekten imtina etmemektedirler. Hayretle okuduğumuz bu misalin işin vahametini göstermesi bakımından yeterli bir örnek olduğu kanaatindeyiz.

Rusça eğitim yapan okullara çocuklarını verenler için Vahapzade ana dilinin milletin namusu olduğunu, bu namusun havaya ve mevsime göre değiştirilebilecek bir elbise gibi

[1] VAHAPZADE, Bahtiyar (1999), Vatan, Millet Ana Dili, Atatürk Kültür Merkezi Başkanlığı Yayınları, Ankara.

olmadığını ifade ederek düşüncelerini şu sözleriyle desteklemektedir : " anadili zamana göre değişmemeli, anadili olduğu için bütün dillerden ayrılmalı ve sevilmelidir. Vatanı da, güzel olduğu için sevmiyorlar. Yalnız vatan olduğu için sevmiyorlar mı, ey vatanımın kör evladı ?" [1]

Dil ve dilin etrafında şekillenen her bahse az ve ya çok değinmiş olan Bahtiyar Vahapzade; dilin estetik bir biçimde kullanımı olan edebiyat ile millet arasındaki münasebetleri de oldukça önemsemektedir. Hiç şüphesiz bir halkı dünya üzerinden silmenin en kuvvetli yollarlından biri de onun kültürel müktesebatını bir başka ifade ile edebi birikimini yok etmekten geçer. Dilden dile, gönülden gönüle akan maniler, türküler, ninniler masallar, destanlar ve somut olmayan kültür öğeleri kabalıklara müşterek bir duyuş, düşünüş ve aynı gayeye iman etme gücü verir. Kitleleri bir araya getiren, safları sıklaştırarak, âdete bir nevi harç vazifesi görüp cemiyeti sağlamlaştıran sözlü ve yazı edebiyatın güzide ürünleridir. Bu ürünler mazi ile ati arasında adeta bir köprü vazifesi görerek milli hafızayı oluşturur. Dünya tarihini incelediğimizde, istiklalini kaybetmesine rağmen dilini ve edebiyatını muhafaza ederek direnen, akabinde yeniden bağımsızlığına kavuşan birçok milletin serencamını görebiliriz. Azerbaycan'da ki soydaşlarımızda bunun bir örneğidir. Bu hususta Bahtiyar Vahapzade de şunları söylemektedir:

"180 yıl Rus boyunduruğunda, başka bir halkın boyunduruğu altında yaşadığımız halde, biz milli varlığımızı ana dili ve ana edebiyatımızı koruyup yaşatarak, bir millet gibi yaşayıp asimile olmadık. Esarette olduğumuz zamanlar Dede Korkut ve Köroğlu gibi destanlarımız, bayatı ve masallarımız, atasözlerimiz, Fuzuli, Nesimi, Vakıf, Sabir gibi şairlerimiz hangi milletin evladı olduğumuzu kulaklarımıza fısıldayıp, bizi bir millet gibi koruyup yaşattılar. Evet, bugün bir millet olarak biz varsak bu varlığımızı edebiyatımıza ve bu edebiyatın gereği olan dilimize borçluyuz. Bu hiçbir ispata ihtiyacı olmayan açık bir gerçektir.

… Çünkü milli karakter, milli edebiyat ve anadili etrafından şekillenir. (Türk Edebiyatı Dergisi, 1977)

Bağımsızlık öncesi dönemde, devlet kurumlarında görev alan Azeri kökenli yöneticilerin Anayasada devlet dili olarak kabul edilen Azeri Türkçesini kullanmamalarına ve ana dillerine ilgisiz kalmalarına tahammül edemeyen Vahapzade, bulunduğu her ortamda bu durumu eleştirmiştir. Böylelerini "vatansız" olarak nitelendirip bu vatansızların dil, cemiyette bir mevkie sahip olma ve o mevkii koruma ihtiraslarının onlarda bin yıllık kültürü koruyan ana dillerine karşı duyarsızlık meydana getirdiğini vurgulamıştır.

Yazılarında bu konuya dikkat çeken ve bununla ilgili de resmi mercilere birçok defa başvuru yapan Vahapzade bu tür ikballeri için milletini ve anadilini ikinci plana iten insanları ihanet içinde bulmaktadır.

Vahapzade'ye göre Azerbaycan Cumhuriyeti sınırları içerisinde, Azeri kökenli vatandaşların dışında yaşayan diğer halkların Azeri Türkçesini bilmemesi Azerbaycan dilene ve halkına saygısızlık olarak gördüğünü onun şu cümlelerden anlamaktayız : " Azerbaycan çok milletli bir cumhuriyettir. Muhtelif halkların temsilcileri cumhuriyetimizde omuz omuza çalışır, bir aile gibi huzurlu yaşarlar. Pekiyi, onlar yaşadıkları cumhuriyetteki halkın dilini, kültürünü, tarihini, adet ve ananesini bilmiyorlar mı? Hiç olmazsa öğrenmeye çaba sarf etmiyorlar mı? Bu sorulara müspet cevap vermekte zorluk çekiyoruz."

Şairimizin tahayyül ettiği Azerbaycan'ın her sokağında her köşesinde ve bucağında Türkçe konuşulur. Devlet müesseslerinde, okullarda ve hastanelerde kısacası her kurumda vatandaşlar meramını Türkçe anlatır; devlet yetkilileri de vatandaşa ana dillerinde karşılık verirler. Azeri Türkçesi içtimai hayatta ki yegâne anlaşma vasıtasını teşkil ederek, millet ve devlet arasında ki ikililiği ortadan kaldırır. İnsanlar anadillerini her ortamda rahatça konuşabilirler ve gündelik işlerini bu dille görebilirler. Bu konuda Vahapzade şu sözleri beyan etmektedir;

"Özellikle hizmet sahalarında çalışanların mutlaka yerli dili bilmesi gerekiyor. Neden dükkânda çalışan satıcıya bir kilogram şeker almak için müracaat eden ihtiyar kadın, kendine tercüman aramak zorunda kalsın? Üzüntü vericidir; yerli dili bilmeyen insanlar sadece hizmet

[1] VAHAPZADE, Bahtiyar (1999), Vatan, Millet Ana Dili, Atatürk Kültür Merkezi Başkanlığı Yayınları, Ankara.

sahalarında değil, hatta mühim devlet kurumlarında da rehber vazifelerde serbestçe çalışır, kendisine gelip derdini ana dilinde söylemek isteyenlere ise kinaye ile " Ben bilmez" derler."

Bu duruma çok üzülen Vahapzade "Ne *Ondansın Ne Bundansın"* adlı şiirinde anadili bilincini kazanmamış Azerbaycan Türklerine sitemini şu mısralarla dile getirmektedir:[1]

"Yâd dilde mektup yazıp kardeş, öz kardeşine.
Bu mektubu okuyan ne kül döksün başına.
Hükmüne bak hasretin,
Hükmüne bek zilletin.
Ya annesi yok imiş bu zavallı milletin
Bir emcekten süt emen ikiz evlatlarına
Öz dilini öğrete.
(…)
Bizden olup,
Ey bizliğinden dönen,
Seni ben affedirim, afferder mi ya vatan?
Bilmiyorsan dilini, sen vatanın yüzüne istemeden ağ oldun.
Sen kendine bir üvey, özgeye yamağ oldun.
Bu halinle
Sünbeye
Ne tokmak,
Ne de gardaş,
Tüfeğe çekmek oldun.
Sen çıkmak istersen de özgenin efsurundan,
Ne ondansın, ne bundan.
Bilsen de yad dilini, tam yadın özu gibi,
Seni doğma bildi mi?
Bilmeyip, bilmeyecek!
Ona "can kurban" desen,
O, hakkını yiyecek
Yürek kızdırmayacak sana, "özgesin" diye,
Senin öz milletin de satılmış bilecektir
Kardeşini özgeye.
(…)
Dilinizi yadsıyıp
Kendinizi dandınız.
Fakat bu alçaklığı siz yücelik sandınız.
Ey kökünden ayrılıp kendisinden kacaklar.

Ana dil ve milli kimlik arasında sıkı bağlar bulunmaktadır. Milli kimliğin oluşmasında, ana dili kültürün taşıyıcısı ve nesilden nesile aktarıcısı olarak gören Vahapzade "Benim Ana Dilim" adlı şiirinde vatanının dilini sevmeyenleri alçaklıkla ve bu dili kullanmayanlar için de, vatan ekmeğinin haram olduğunu dile getirmektedir.[2]

BEN M ANA D L M
Benim ana dilim, benim kimliğim
Pasportum, kendime öz hâkimliğim.
Benim benliğimin füsunkârlığı
Konuşan kemali aklıdır dilim.
Milletin varlığı, yurdun varlığı,
Senin varlığına bağlıdır, dilim
Beni hem dedemle, hem de nevemle

[1] KARAMAN, Erdal (2009), Türk Dünyasının Sesi Bahtiyar Vahapzade, Qafqaz Üniversitesi, Bakü.
[2] KARAMAN, Erdal (2009), Türk Dünyasının Sesi Bahtiyar Vahapzade, Qafqaz Üniversitesi, Bakü.

Bağlayıp uzanan tarih bağımsın
Dünüm, geleceğim, üstelik hele
Benim söz hünerim, ses bayrağımsın
Sensiz adım haram, vatanım haram
Ana sütü gibi helâlim-dilim
Sen nerede varsan orda ben varım
Ey benim yıldızım, hilâlim dilim.
Taşlardan süzüldün sen zaman zaman
Güzeldir suların taştan geçmesi
Yarandı dupduru damlalarından
Bayatı çeşmesi, destan çeşmesi
Sözü öz yerine koymak tehrini
Üstatlar öğretti bize bir be bir
Senin kudretini, senin sihrini
Gösterdi dünyaya Fuzuli, Sabir.
Benim ana dilim, mucizem, sihrim
Duvarlar dağıtır, kapılar kırar
Bazen birce kelime, en derin fikrin
Üstüne nur salıp cilalandırar.
Farkını bilmeyip akla karanın
Adam var bu dili yâd sayar bugün
Dedesi bu dilde cephe yaranın
Kendi başka dilde konuşar bugün
Hangini söyleyim, mis mi, demir mi?
Yalnız öz sesinde çınlamıyor mu?
Mis sesi benzemez altın sesine
Onların dilidir onların sesi.
Benzemez bülbülün şakımasına
Karga garıltısı, keklik nağmesi
Ne yaprak, ne rüzgâr, ne metal, ne kuş
Seslenmir, ötmüyor özge dilinde
Peki, bilmiyorum sana ne olmuş
Yâd dilde ötürsen öz menzilinde
Namustan habersiz, vicdandan uzak
Vazife kürsüsü meramdır sana.
Vatanın dilini sevmeyen alçak

Vahapzade maddi servetin kaybolmasını anadilin kaybolmasının yanında bir hiç hükmünde olduğuna şu sözleriyle dikkat çeker:

"Servet gitse gam değil,
Servet gelir gene de,
Bu gamdır ki, bu halkın
Diline, aşkına da
Kast ederler… Ay aman!
Emellerin dertlerin
Hepsinden bu yaman."

Sonuç olarak Vahapzade için ana dili, hem bireyin hem de bir milletin varlığının belirtisi geleceğinin en önemli teminatıdır. Ona sahip çıkmak için elimizden gelen gayretin gösterilmesi vatanımıza ve milletimize olan üzerimizdeki borçtur.

KAYNAKÇA

1. RIZAYEV, Anar (2005), Azerbaycan Türkçesinin Söz Varlığı, Çev.: Arif Acaoğlu, Akçağ Yayınları, Ankara.
2. VAHAPZADE, Bahtiyar (1999), Vatan, Millet Ana Dili, Atatürk Kültür Merkezi Başkanlığı Yayınları, Ankara.
3. KARAMAN, Erdal (2009), Türk Dünyasının Sesi Bahtiyar Vahapzade, Qafqaz Üniversitesi, Bakü.

VAHABZAD N N YARADICILI INDA ANA D L PROBLEM

Aqil C f rov

AMEA Nəsimi adına Dilçilik İnstitutunun elmi işçisi,
filologiya üzrə fəlsəfə doktoru
ceferov-aqil@mail.ru

XÜLAS

B.Vahabzadəyə görə, ana dili insanı vətənə bağlayan ən başlıca amillərdəndir. Ana dili xalqın varlığının mənəvi pasportudur. 1954-cü ildə yazdığı «Ana dili» şeirində dilimizdə danışmağı özünə ar bilənlərə «Vətən çörəyi sizlərə qənim olsun», - deməklə özünün ana dilinə olan sonsuz məhəbbətini əyani olaraq sübut edir. Sovetlər dönəmində müttəfiq respublikaların dillərinə münasibət eyni deyildi. Əsas sahələrdə rus dilinə üstünlük verilirdi. İranda isə Azərbaycan dilinin vəziyyəti çox acınacaqlı və dözülməz idi. Orada Azərbaycan dilində təhsilin olmaması və kitab çapına qadağa qoyulması şairi əsəbləşdirirdi. O, qəzəbini «Gülüstan» poemasında da ifadə etmişdir.

Ana dilinin sıxışdırılması haqqında o zaman hər hansı söz danışmaq, açıq yazmaq qadağan olunsa da, B.Vahabzadə repressiyalardan qorxmadan bu mövzuda «Latın dili» şeirini yazmışdır. Məlum olduğu kimi, Latın dili süqut edən Roma İmperiyasının dili olmuşdur. Şair əslində bu şeirlə özü yaşayan, lakin dili ölən xalqın vəziyyətini bir daha diqqətə çatdırırdı.

Beləliklə, B.Vahabzadə yaradıcılığına nəzər salanda bir daha aydın olur ki, ana dili məsələsi onu daima düşündürmüş və şair çox gözəl bilirdi ki, millətin bir millət kimi məhvinə yalnız bir yolla nail olmaq mümkündür – onun dilini əlinə almaqla!

Açar sözl r: Ana dili, Vətən, Latın dili, vətəndaş şair

Ana dili xalqın ruhudur,
m n vi dünyasıdır…
B.Vahabzad

Dilin açarı əlifba və sözdür. Ana dilinə qarşı laqeyd, biganə münasibət bütün xalqların ziyalılarını narahat etmiş və onlar bunu edənlərə qarşı barışmaz olublar. Türkün dilini isə dəfələrlə əlindən almaq üçün cəhdlər olunmuş, zaman-zaman əlifbası dəyişdirilmişdir. Türk dünyasının II minillikdə yetirdiyi dahi şəxsiyyətlərdən biri olan, Azərbaycan ədəbiyyatının, bütövlükdə XX əsr poetik fikrinin görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadə çoxşaxəli fəaliyyəti ilə nəinki respublikamızda, hətta ölkəmizin hüdudlarından kənarda da tanınır. Hər şeydən öncə mütəfəkkir şair, lirik, dramaturq, hər zaman xalqının sözünü deyən bir mübariz, qeyrətli vətəndaş olan Türk dünyasının böyük oğlu B.Vahabzadə sanki dilimizi qorumaq üçün dünyaya gəlmişdi. Onun 12 cildlik külliyatının tərtibçisi və redaktoru R.Qafarlı yazır ki, «bir yas mərasimində ziyalılardan biri danışırdı ki, Sovet hökumətini düzgün olmayan milli siyasət yıxdı. Mən Bakı Dövlət Universitetində çalışırdım. Təhsil ocaqlarında tədrisin ancaq rus dilində aparılması haqqında yuxarıdan tapşırıq alınmışdı. Bu ağrılı məsələyə görə hamı susanda Bəxtiyar Vahabzadə heç nəyin fərqinə varmadan özünü qabağa verdi, xalqımızın dilinə qarşı edilən qəsdin qarşısını aldı...»[1] R.Qafarlının Bəxtiyar Vahabzadəylə bağlı Təhsil nazirimiz M.Mərdanovla müsahibəsində çox maraqlı bir fakt diqqətimi çəkdi. Hörmətli nazirimiz söhbətində qeyd edir ki, «dəfələrlə Türkiyə Cümhuriyyətinə rəsmi səfərlər etmiş və bir şeyin şahidi olmuşam: türklər ən çox iki şəxsdən qürur hissi ilə söz açırdılar – Atatürk və Bəxtiyar Vahabzadədən...»[2]

Görkəmli dilçimiz professor N.Cəfərov «Bəxtiyar Vahabzadə» monoqrafiyasının «Ana dilim – varlıq möhürüm» adlı fəslində yazır ki, «B.Vahabzadəni millət xadimi kimi həmişə narahat edən ən vacib məsələlərdən biri, bəlkə də birincisi ana dilinə münasibət olmuşdur; onun çoxcəhətli fəaliyyətinin təkcə bu qeyd edilən tərəfi, əslində kifayət idi ki, adı Azərbaycan tarixində əbədi olaraq qalsın».[3]

[1] Vahabzadə B. Əsərləri. On iki cilddə. III cild (1960-1969). Bakı, «Elm» nəşriyyatı, 2008, s.7
[2] Vahabzadə B. Əsərləri. On iki cilddə. III cild (1960-1969). Bakı, «Elm» nəşriyyatı, 2008, s. 12-13
[3] Cəfərov N. Bəxtiyar Vahabzadə. Bakı, «Azərbaycan» nəşriyyatı, 1996, s.68

Keçən əsrin II yarısında digər həmkarlarına nisbətən Bəxtiyar Vahabzadəni daha çox düşündürən, narahat edən, narazı salan məsələ Azərbaycan dilinin saflığının qorunub saxlanması idi. Şairin yaşadığı Sovetlər dönəmində müttəfiq respublikaların dillərinə münasibət eyni deyildi. Sovetlər İttifaqının rəhbərləri hər kəsin duya bilmədiyi elə incə siyasət yürütməklə türk xalqlarının, xüsusilə azərbaycanlıların dillərini sıradan çıxarmağa çalışırdılar. Əsas sahələrdə rus dilinə üstünlük verilirdi. İranda isə Azərbaycan dilinin vəziyyəti çox acınacaqlı və dözülməz idi. Orada Azərbaycan dilində təhsilin olmaması və kitab çapına qadağa qoyulması şairə möhkəm toxunurdu. Öz daxili yanğısını «Gülüstan» poemasında ifadə edərək:

Ağalar bilmədi birdir bu torpaq;
Təbriz də, Bakı da – Azərbaycandır,
Bir elin ruhunu, dilini ancaq
Kağızlar üstündə bölmək asandır.[1]

– deyən şairi susdurmaq, sözünə yasaq qoymaq mümkün olmadı. Hətta bu poemaya görə onu 1962-ci ildə «millətçi» damğası ilə çalışdığı indiki Bakı Dövlət Universitetindəki işindən azad etdilər, yalnız 2 ildən sonra iş yerinə qaytarıldı. Bütün bunlar onun iradəsini qıra bilmədi və o əqidəsindən dönmədi.

O, «Ana dili» şeirində dilimizdə danışmağı özünə ar bilənlərə «Vətən çörəyi sizlərə qənim olsun», - deyir:

Ey öz doğma dilində danışmağı ar bilən
Bunu iftixar bilən
Modalı ədəbazlar,
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Qoy bunlar mənim olsun,
Ancaq vətən çörəyi,
Bir də ana ürəyi
Sizlərə qənim olsun. [2]

Cənubi Azərbaycanda xalqın milli ruhunu qırmaq üçün, xalqımızın milli varlığını danan, xalqımızı farsdan dönmə hesab edən, dilimizi yad kökə bağlamaq istəyən milliyətcə azərbaycanlı alim Yəhya Zəkaya «Cavab» adlı şeirində öldürücü cavab verir.

Ey sözündən əmin, özündən razı,
Yalanı söylədin kimin adından?
Ananın laylası, atanın sazı,
Babanın ocağı çıxdı yadından?[3]

Ana dilinin sıxışdırılması haqqında o zaman hər hansı söz danışmaq, açıq yazmaq qadağan olunsa da, sözlə Sovet imperiyasına vurduğu zərbəyə görə hər zaman nəzarət altında olan B.Vahabzadə repressiyalardan qorxmadan doğma vətənində vətənsizləşdirilən insanların gözünü açmaq, qara qüvvələrin qədim bir xalqın dilini, tarixini və mədəniyyətini məhv etməyinə imkan verməmək üçün bu mövzuda «Latın dili» şeirini də yazmışdır. O, bu şeirində ölü və diri dil məsələsini önə çəkərək problemin obyektini şərti olaraq dəyişərək, əslində latın dilindən dilimizə güzgü tutmaqla o zamankı rəhbərliyin Azərbaycan dilinə olan laqeyd münasibəti böyük ustalıqla göstərə bildi. O, bədii suallarla insanlarımızı düşündürməyə məcbur etdi: sözləri bir çox elmlərdə terminləşsə də, vətəni, milləti olmayan latın dilinə ölü demək olarmı? Məkrli siyasətlə başqa dillə əvəzlənən xalqın dili diridirmi?

Şair «Alimlərin çiçəklərin, böcəklərin, küləklərin, fələklərin adlarını belə bütün dünya tərəfindən ölü dil sayılan latın dilində yazmasıyla» əslində şeirini tamamlamalıydı. Lakin o, özgə dildə «Mən azadam, mən xoşbəxtəm», - deyən bir natiqi meydana ataraq onu günahlandırmaqla əsl niyyətinə nail olur:

[1] Vahabzadə B. Əsərləri. On iki cilddə. I cild (1949-1959). Bakı, «Elm» nəşriyyatı, 2008, s.603
[2] Yenə orada, s.102
[3] Vahabzadə B. Əsərləri. İki cilddə. I cild. Bakı, «Öndər» nəşriyyatı, 2004, s. 206

Söylə natiq,
İndi nəyə inanaq biz –
Qulağamı,
Ya gözəmi?
Əmələmi,
Ya sözəmi?
«Mən azadam, müstəqiləm» sözlərini
Öz dilində deməyə də
İxtiyarın yoxsa əgər,
De, kim sənə azad deyər?.. [1]

Beləliklə, SSRİ rəhbərlərinin və ideoloqlarının riyakar, ikiüzlü əməlləri, ermənipərəst mövqeləri, hətta marksizm-leninizmə səmimi qəlbdən bağlı olan bəzi ziyalılarımızda belə əks reaksiya doğurmuşdur. Belə ki, bu vaxta qədər Sovet ideoloqlarının təşviqi ilə Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, dilinə və tarixinə marksizm-leninizm ideologiyasından yanaşanlar, artıq milli ideyaya (milli azərbaycançılığa) üz tuturdular. Çünki Azərbaycan xalqındakı milli şüuru sovet ideologiyası tamamilə aradan qaldıra bilməmişdi. Bununla da, 1950-1960-cı illərdə milli dil, milli mədəniyyət, milli tarix və milli ədəbiyyat uğrunda uğraşan ziyalılar, o cümlədən tarixçilər, dilçilər, ədəbiyyatçılar, yazıçlar və başqa aydınlar arasında (Ə.M.Dəmirçizadə, M. İbrahimov, Z.Bünyadov, X.Məmmədov, S.Əliyarov, B.Vahabzadə, R.Rza, M.Hüseyn, S. Rüstəm və b.) Azərbaycan milli ideyasının tərəfdarları xeyli dərəcə də çoxaldı.

Fikrimizcə, 1950-ci illərdən başlayaraq milli mədəniyyət, milli dil, milli ədəbiyyat yolunda çalışan, bir sözlə Azərbaycan millli ideyasını müdafiə edən mütəfəkkirlərimizdən biri də Bəxtiyar Vahabzadə olmuşdur. Sovetlər Birliyi dövründə B.Vahabzadənin yaradıcılığında Azərbaycan milli ideyasına münasibət isə, iki istiqamətdə: 1) Azərbaycanın ikiyə bölünməsi və işğalı; 2) milli dil ilə bağlı öz əksini tapmışdır.

İlk olaraq Azərbaycanın bütövlüyü məsələsi adı altında milli istiqlal ideyasının ədəbiyyatda yaşadan Vahbazadə «Gülüstan» roeamasında Vətənin iki yerə parçalanmasının siyasi-ideoloji səbəblərini göstərmişdir. O, bu əsərini qələmə almaqla. Şimali Azərbaycanın Rusiyaya birləşməsini bayram kimi qeyd edənlərə tutarlı cavab vermişdir. O demək istəmişdir ki, əslində o zaman olduğu kimi, indi də hər iki Azərbaycan işğal altındadır. Bununla da, artıq bu poemasında filosof şair Sovet Rusiyasının əsarətinə qarşı ciddi etirazını ifadə etmişdir. Çünki o vaxt da, indi də Azərbaycanı iki yerə bölunməsində farslar və ruslar mühüm rol oynamışlardır. Vahabzadə yazır:

Bir xalqı yarıya böldü qılınctək.
Öz sivri ucuyla bu lələk qələm,
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı,
Ancaq dəmbədəm
Kəsdilər səsini Azərbaycanın[1].

Bəs Azərbaycanın taleyi ilə bağlı hökm verənlər kimlər idilər? Cavab aydındır: ruslar və farslar. Şair yazır ki, bunu Azərbaycan xalqı bilməli və öz sözünü yenidən deməlidir:

Tərəflər kim idi? Hər ikisi yad.
Yadlarmı edəcək bu xalqa imdad?!
Qoy qalxsın ayağa ruhu Tomrisin.
Babəkin qılıncı parlasın yenə.
Onlar bu şərtlərə sözünü desin[2].

Vahabzadə məsələni açıq şəkildə qoyaraq sual edirdi ki, bu yadları Vətənə kim çağırmışdır? Əgər onlar çağırılmamış «qonaq»lardırsa Azərbaycanın taleyini də həll edə bilməzlər. Azərbaycanın taleyini yalnız onun öz oğulları, Oğuz xaqanın nəsli həll etməlidir. O Oğuz xaqanın nəsli ki, indi onu əsarət altında saxlayanlardan biri-fars onu «xər», digəri-rus isə «baran» adlandırır[3]. Bizə elə gəlir ki, artıq bu poemasında Vahabzadə yalnız çar Rusiyasına deyil, Sovet Rusiyasının ağalığına da qarşı çıxmışdır.

Qeyd edək ki, Vahabzadəki bu milli ruh, Vətənin bütövlüyü rəmzi altında Azərbaycanda milli ideyasının yaşadılması digər poema və şeirlərində də özünü büruzə vermişdi. Bu baxımdan Vahabzadənin Azərbaycan-türk mütəfəkkiri Cəlil Məmmədquluzadənin «Anamın kitabı» əsərinə həsr etdiyi eyni adlı şeiri də ibrətamizdir. Bu şerində də o göstərir ki, bir vaxtlar Azərbaycanı ərəblər işğal edib hansı vəziyyətə salmışdılarsa, indi də Azərbaycanın durumu ondan fərqli deyildir. Vahabzadə yazır:

[1] Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). Bakı, 2004, səh.76
[2] Yenə orada. Səh.77
[3] Yenə orada. Səh.79

Tapdandı anamın şərəfi, şanı,
Bizdən sərvət alıb söz gətirdilər.
Bu boyda ölkəni - Azərbaycanı
Bir ərəb qızına cehiz verdilər[1].

Doğrudan da, ruslar-bolşeviklər Azərbaycanın şərəfini, şanını tapdalayaraq onun sərəvətini Moskvaya daşıdılar, bütün bunların əvəzində isə quru söz-şüar - «Bütün ölkələrin proletariatları birləşin!» gətirdilər. Bu şüara görə, guya bütün millətlər eyni hüquqa və azadlıqlara malik idilər. Ancaq keçmiş SSRİ dövründə şimali Azərbaycanın sərvəti Rusiyaya və başqa sovet respublikalarına, Cənubi Azərbaycanın sərvəti isə Tehrana daşındığı halda, bunun müqabilində hər iki Azərbaycanın əldə etdiyi quru «kommunizm» və «şah demokratiyası» utopiyaları omuşdur. Üstəlik, sovet və pəhləvi rejiminin apardığı assimilyasiya siyasəti nəticəsində cənubdakı azərbaycanlılar qardaşına «bəradər», anasına «madər», şimaldakı azərbaycanlılar isə uyğun olaraq «brat» və «mama» demişlər. Çox təəssüflər olsun ki, bunun izləri bu gün də qalmaqdadır. Bu mənada Vahabazadə ilə tam şəkildə razılaşırıq ki, bütün bunlar nağıl deyil, tarxdir:

Bunlar nağıl deyil, tarixdir, ancaq
Tarixin hökmünə, könül yaxşı bax!
Gəl bilək, insanmı, zamanmı haqsız
Gah ona, gah buna biz yamaq olduq.
Kiçik komamızı qoyub çıraqsız,
Özgənin qəsrində biz çıraq olduq[2].

Qeyd edək ki, millililiyə həsr olunmuş əsərlərində Vahabzadə yalnız Azərbaycanı işğal altında saxlayan Mərkəzi və onun ideoloqlarını deyil, Sovet Rusiyasının Azərbaycandakı əlaltılarını da tənqid hədəfi kimi götürür və onları «ölü canlar» adlındırırdı. Çünki bu «ölü canlar» Azərbaycanın milli maraqlarını müdafiə etməkdənsə Mərkəzə yaltaqlıq edir, üstəlik millətin mənafeyini, qeyrətini və namusunu müdafiə edənləri satırdılar. Vahabzadə yazır:

Mən düşmənəm, düşmənəm belə «ölü canlara»,
Gündən qaçıb həmişə kölgə axtaranlara…
Onlar ortada yeyib, qıraqdasa gəzdilər,
Namusu xərcləməkdən onlar çəkinməzdilər[3].

Vahabzadə hesab edirdi ki, bu cür «ölü canlar» diri ikən, sağ ikən ölüdürlər. Çünki bələlərinin heç bir məsələdə mövqeyi bəlli deyildir. Çox güman ki, Vahabzadəni bu cür yazmağa sövq edən 1950-1960-cı illərdə Azərbaycanda ana dilinin dövlət dili olması, eləcə də əlifbanın və məktəblərin millilləşdirilməsi, ilə bağlı gedən müzakirələr idi. Həmin müzakirələr zamanı isə, bəzi Azərbaycan rəhəbərləri və ziyalıları ikiüzlü mövqe nümayiş etdirərək Vahabzadənin təbrincə desək, «orta yol tutub nə «hə», nə də «yox» dedilər». Milli maraqların müdafiəsinin zəruri olduğu bir vaxtda Vahabzadə üzünü «ölü canlar»a tutaraq deyirdi ki, sakitcə bir otaqda lal kimi durmaqdansa, qayaların başında düşmənlə qartal kimi döyüşmək lazımdır. Çünki hər hansı bir millət öz haqları uğrunda mübarizə aparmırsa, artıq bu yaşamaq deyil, sürünmək deməkdir. Görünür, bunu nəzərə alaraq Vahabzadə yazırdı:

Bir rəngi yox, göylərin min rəngini sevirəm.
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm;
Həyatı həyat kimi yaşamaq istəyirəm,
Yaşamaq istəyirəm[4].

Bu həyatı həyat kimi yaşamaq istəyən yalnız Vahabzadənin deyil, bir millətin Azərbaycan türklərinin arzusu və ümidi idi. Çünki Azərbaycanı işğal etdikdən sonra sox keçmədi ki, Sovet Rusiyası yalnız Azərbaycanın var-dövlətinə, sərvətinə deyil, milli-mənəvi dəyərlərinə də əl

[1] Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, «Öndər nəşriyyat», 2004, səh.48
[2] Yenə orada. Səh. 48
[3] Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, «Öndər nəşriyyat», 2004, səh.11
[4] Yenə orada. Səh.13

uzatdı. Böyük bir tarixi və mədəniyyəti olan milləti assimilyasiya etmək üçün bütün vasitələrdən istifadə etdi. Belə ki, proletar mədəniyyəti adı altında Dədə Qorquddan, kommunizm adı ilə islam dinindən, siniflərin tarixi adı ilə milli tarixdən, sovet milləti adı ilə türk mənsubiyyətindən," Leninin dilində danışmalıyıq"- deyə türk dilindən məhrum etməyə çalışdı. Bizə elə gəlir ki, Vahabzadənin bütün bunlara etiraz olaraq qələmə aldığı şeirlərindən biri də «Azərbaycan oğluyam»dır. Adından da göründüyü kimi, şair bu şeirində milli özünəməzxsusluqları - milli tarixi, milli mənsubiyyəti, milli mədəniyyəti, milli adət-ənənələri və s. irəli çəkmişdi. O, xüsusilə milli tarixə işarə edərək yazırdı:

Azərbaycan oğluyam,
Min ildir öz adımın
Keşiyində durmuşam…

Hünər göstərməyincə
Adsız yaşamışam mən.
Dədəm Qorqud ad verdi
Mənə öz hünərindən[1].

Vahabzadə «Hörümçək tor bağladı» şeirində də milli tarixin danılmasına qarşı çıxaraq, Azərbaycan-türk millətinin uydurma tarixini yazanlara və burada milli kimliyimizi saxtalaşdıranlara etiraz etmişdi. Çünki həmin dövrdə üç cildlik «Azərbaycan tarixi»ni qələm alanlar iddia edirdilər ki, azərbaycanlılar milliyyətcə türk deyil, yalnız türklərin-səlcuqların 11-12-ci əsrlərdə Azərbaycana yürüşlərindən sonra türk dilində danışan irandilli, yaxud da qafqazdilil bir xalqdır. Vahabzadə isə milli tarixin bu cür yazılmasına və azərbaycanlıların türk kimliyinə danılmasına cavab olaraq yazırdı:

Uydurma tarix bizi anamızdan ayrıb
Yad anadan alınmış bələkdə qundaqladı,
Təməlimiz laxladı.
Bu xalqın tarixini düz bildirən, düz yazan
Tarix kitablarında hörümçək tor bağladı[2].

Qeyd edək ki, Azərbaycan milli ideyası kontekstində Vahabzadənin sovet ideoloqlarının və müəliflərinin ən kəskin tənqidi etdiyi dövrdə belə, müdafiə etdiyi ideyalardan biri də islam olmuşdu. Hər halda, şair-mütəfəkkirin şeirlərində namazdan, Allahın ucalığından söz açması təsadüfi ola bilməzdi. Vahabzadə «Ana hədiyyəsi» şeirində yazırdı:

Anam namaz üstə əl açıb göyə
Allaha yalvarır «ya Rəbbim! -deyə,
- Sənsən xəlq eyləyən göyləri, yeri,
Candan şirin olur bala, ay Allah.
Sən mənim ömrümdən kəsib illəri,
Balamın ömrünə cala, ay Allah![3].

Başqa bir şeirində isə Vahabzadə dini inancdan irəli gələrək Adəm peyğəmbəri «ilk atamız qoca Adəm»[4] kimi qələm almışdır. Doğrudur, dövrün tələblərindən irəli gələrək bəzən Vahabzadə də bəzən bu dini tənqid etmiş, artıq «Allahu-əkbər» dövrünün vaxtının çoxdan keçdiynin və «insanü-əkbər»[5] zamanı olduğunu da yazmışdır. Ancaq bütün hallarda Vahabzadənin dinə, o cümlədən islama münasibəti müsbət mənada, bir çox çağdaşlarından xeyli dərəcə də fərqlənmişdir.

Milli dil məsələsinə gəlincə, Vahabzadənin bu dvördə qələmə aldığı «Latın dili» poeması, «Ana dili» şeiri və başqa əsərləri Azərbaycan-türk dilinin qorunması və yaşadılması yolunda atılmış çox mühüm addımlar olmuşdur. Xüsusilə, SSRİ rəhbərləri və ideoloqlarının türk dilini

[1] Yenə orada. Səh.33
[2] Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, «Öndər nəşriyyat», 2004, səh. 234
[3] Yenə orada. Səh.16
[4] Yenə orada. Səh.24
[5] Yenə orada. Səh.188

Azərbaycan dili ilə əvəz etdikdən sonra, daha çox onun statusunu aşağı salmaları, bunun əvəzində rus dilini az qala dövlət dili elan etməyə çalışmaları Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrində əks-sədasız ötüşməmişdir. O, bu cür əsərlər yazmaqla SSRİ rəhbərlərinin və ideoloqlarının nəzərinə çatdırırdı ki, hər hansı millətin ana dilinə qarşı assimilyasiya yürütmək, onu məhv etmək deməkdir. Bu mənada Azərbaycan xalqı üçün ana dilinin varlığı hər şeydən önəmlidir. Vahabzadə «Ana dili» şeirində yazırdı:

Bu dil, - bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil, - bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil, - tanıtmış bizə bu dünyada hər şeyi.
Bu dil, - əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə edək[1].

Maraqlıdır ki, Vahabzadə bu şeirində «Azərbaycan dili» sözündən istifadə etməmişdir. Fikrimizcə, bununla da şair-mütəfəkir «Ana dili» dedikdə, dolayısıyla Azərbaycan türk dilinin nəzərdə tutmuşdur. Çünki bu dilin adı 1937-ci ildə dəyişdirilib «Azərbaycan dili» adlanıdırılsa da, əslində onun ruhu, mahiyyəti, məzmunu və mənası türk dili olaraq qalırdı. Bunu, Vahabzadənin aşağıdakı sətirləri də ifadə edir:

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
Tarixi varaqlanır
Səndə neçə minillik mənim mədəniyyətim,
Şan-şöhrətim saxlanır.
Mənim adım, sanımsan,
Namusum, vicdanımsan[2].

Vahabzadə «Ana dili»nin əhəmiyyətini göstərmək üçün onu da qeyd edirdi ki, milləti bir millət kimi ifadə edən, onu digər millətlər içərisində tanıtdıran onun dilidir. Əgər bir millətin «ana dili» yoxdursa, o millət də deməli yoxdur. Bu baxımdan hesab edirik ki, Vahabzadə bu şeirini Ana Qanunda dövlət dili statusunda olmasına baxmayaraq, rus dilindən sonra ikinci dərəcəli dil kimi işlədilməsinə etiraz olaraq yazmışdı:

Ey öz doğma dilində danışmağı ar bilən,
Bunu iftixar bilən
Modalı ədabazlar
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Qoy bunlar mənim olsun.
Ancaq Vətən çörəyi, bir də ana ürəyi,
Sizlərə qənim olsun[3].

Vahabzadə bu gün olduğu kimi, o vaxtlar ana dilinə yuxarıdan aşağı baxan, bu mənada 5-6 dil bildiyi halda doğma dilini doğru-dürüst bilməyənləri tənqid atəşinə tutmuşdu. Bizə elə gəlir ki, bu zaman Vahabzadə yalnız «ana dili»nə xor baxanlara deyil, eyni zamanda onu ikinci dərəcəli dil olaraq görmək istəyən Sovet rəhbərliyini və onun ideoloqlarını da hədəf almışdı. Əslində sovet rəhbərlərini və ideoloqlarına cavab vermək üçün, «ana dili»nə xor baxanları tənqid hədəfi seçilməsi bir vasitə idi. Atalar sözündə olduğu kimi: «Qızım sənə deyirəm, gəlinim sən eşit». Xüsusilə, burada şair Leninin dili adı altında rus dilinin önə çəkilməsinə etiraz edirdi. Bu mənada Vahabzadənin «Riyakar» adlı şeiri də diqqətə layiqdir:

[1] Yenə orada. Səh.8
[2] Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, «Öndər nəşriyyat», 2004, səh. сящ.9
[3] Yenə orada. Səh. 9

«Əvvəl evin içi» demişlər nədən?
Sən çölü bilməzsən, içi bilmədən.
Yaxşı bilmək üçün özgə bir dili (rus dilini - F.Ə.)
Əvvəl öz dilini yaxşı bilməli[1].

Bütün hallarda, etiraf etməliyik ki, Vahabzadə və başqa mütəfəkkirlərimizin bütün bu milli əməllərinə baxmayaraq. SSRİ imperiyası Azərbaycan, Türkmənistan, Qazaxıstan və başqa türk ölklərində digər ideoloji sahələrdə olduğu kimi, «milli dil və yeni əlifba» siyasətini də, məyyən qədər öz mənafeyinə uyğun şəkildə həll etməyi bacarmışdır. Bununla da, SSRİ dövründə bir neçə qrafikadan istifadə edən, sonda rus əlifbasına və müəyyən qədər ruslaşdırılmış-avropalaşdırılmış «Azərbaycan dili»nə keçməyə məcbur olan Azərbaycan-türk millətinin şüurunda istər-istəməz müəyyən dəyişikliklər yaranmış, keçmişlə varislik xeyli dərəcədə itirilmişdir. Sözün açığı, bu günümüzdən baxdıqda da xeyli ölçüdə sovet ideoloqlarının və onların Bakıdakı təmsilçilərinin qısa deyil, uzun bir zaman üçün, müəyyən dərəcədə istəklərinə nail olması göz qabağındadır. Başqa sözlə, həmin dövrdə SSRİ rəhbərliyinin və onun ideoloqlarının millətimizin dilinin, əlifbasının, ümumilikdə milli mənəvi dəyərlərinin başına açdıqları faciəli oyunlar, müstəqilliyimizin bərpası ilə qismən aradan qalxsa da, ancaq imperiyanın izləri həyatımızda bu gün də qalmaqdadır.

Şübhəsiz, bütün bunların əsil tarixi-fəlsəfi mahiyyətini dərk etmək üçün milli şüurumuza yeridilən və indinin özündə də bu və ya digər formada yaşadılan saxtalaşdırılmış tarixlərdən, ədəbiyyatdan, qeyri-milli ideyalardan deyil, vahid bir millətin min illiklər boyu qoruyub saxladığı və yaşatdığı milli tarixdən, milli fəlsəfi fikirdən, ədəbiyyatdan, milli ideyalardan çıxış etməliyik. Yəni, Azərbaycan-türk fəlsəfəsini, Azərbaycan-türk tarixini, Azərbaycan-türk dini-fəlsəfi düşüncə sistemini, Azərbaycan-türk ədəbiyyatını və s. mənimsəmədən, onun tarixi-fəlsəfi mahiyyətinə varmadan heç vaxt Azərbaycan türkçülüyün-milli azərbaycançılığın Azərbaycan xalqı üçün hansı əhəmiyyət kəsb etməsini də, dərk edə bilmərik. Bu baxımdan çağımızda Bəxtiyar Vahabzadə kimi şair-mütəfəkkirlərin milli-fəlsəfi fikir irsinin öyrənilməsinə də ciddi ehtiyac vardır.

ST FAD OLUNMU D B YYAT

1. Bünyadov Ziya. Qırmızı terror. Bakı, Azərnəşr, 1993, 331 səh.
2. Hüseynov Heydər. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı, «Şərq-Qərb», 2007, 400 s.
3. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). - Bakı: Elm, 2008.-608 səh.
4. Həsənli Cəmil. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959). Bakı, «Adiloğlu», 2008, 544 səh.
5. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). Bakı, «Öndər nəşriyyat», 2004, 320 səh.
6. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, «Öndər nəşriyyat», 2004, 328 səh.

[1] Yenə orada. Səh.46

VILHELM FON HUMBOLTUN XALQ RUHUNDAN B XT YAR VAHABZAD N N ANA D L N D K

Gült kin Hacıb yli
Dr., Qafqaz Universiteti
gultekinyh@yahoo.com

XÜLAS

Azərbaycan türkçüluk məfkürəsinin, vətənçilik ideologiyasının ən böyük daşıyıcılarından və sözün həqiqi mənasında, yaradıcılarında biri, Azərbaycan ədəbiyyatında Hüseyn Caviddən sonra ikincisi belə zirvə sayıla biləcək düha, heç şübhəsiz ki, görkəmli Azərbaycan şairi və mütəfəkkiri Bəxtiyar Vahabzadədir.

Bəxtiyar Vahabzadə böyük şair olmaqla yanaşı böyük vətəndaş və böyük filosofdur. Öz yaradıcılığında vətəndaş və cəmiyyət həyatının bir çox mühüm ictimai-siyai, fəlsəfi, etik-estetik, mənəvi-psixoloji yönlərinə toxunmuş, onları özünəməxsus filosof, alim, şair, vətəndaş duyumu ilə dəyərləndirmiş Bəxtiyar Vahibzadənin ana dili haqqında söylədikləri və əslində, tam bir fəlsəfi konsepsiya oluşduran görüşləri, zənnimizcə, xüsusilə qiymətlidir.

Bu görüşlər müasir dilçiliyin atası sayıla biləcək böyük alman dilçisi, mütəfəkkiri və filosofu Vilhelm fon Humboltun xalq ruhu konsepsiyasi ilə, eləcə də dahi Humboltdan sonra onun bu ideyasını dərinləşdirərək müstəqil bir dilçilik cərəyanına- Xalqlar psixologiyası adlanan psixoloji dilçilik təliminədək inkişaf etdirmiş görkəmli alman dil nəzəriyyəçisi və filosofu Heyman Şteyntalın və Moris Latsarusun dilçilik görüşəri ilə heyrətamiz şəkildə səsləşir.

V.fon Humbolt xalqın dili və ruhu haqqında yazırdı: "Dil xalq ruhunun sanki xarici təzahürüdür; xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir-bundan daha güclü olan eynilik təsəvvür etmək çətindir".

Bəxtiyar Vahabzadə ana dili haqqında yazır:
"İlk mahnımız laylanı anamız öz südüylə
Bu dildə ruhumuza içirir gilə-gilə.
Bu dil - bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil bir-birimizlə əhdi-peymanımızdır".

Açar sözl r: Vahabzadə, ana dili, xalq ruhu, psixoloji dilçilik, psixolinqvistika, Humbolt, Şteyntal, Latsarus, Alpatov, Karaman, etnolinqvistika.

FROM THE SPIRIT OF A NATION BY WILHELM FON HUMBOLT TO THE MOTHER TONGUE BY BAKHTIYAR VAHABZADE

SUMMARY

The great Azerbaijani poet and thinker Bakhtiyar Vahabzade, undoubtedly, is one of most outstanding bearers and in the true meaning of this word, creators of the pro-turkish ideology and the patriotic worldview in the Azerbaijani literature and social view of the XX century. In this meaning, he might be considered as the second summit following the Great Huseyn Javid.

Being a great poet, Bakhtiyar Vahabzade is a great Citizen and a great Philosopher as well. In his creative activity Bakhtiyar Vahabzade touches upon the very vital social, political, philosophic, ethical, esthetical, spiritual and psychological issues of the life of a society and individuals. Bakhtiyar Vahabzades assessment of these issues is based on profoundness and deepness of his specific approaches as a poet, philosopher, scientist and as a citizen. From this point of view, his views about a mother tongue, with embody a wide philosophic conception deserve particular appreciation.

These views by Bakhtiyar Vahabzade astonishingly coincide with the conception of the spirit of a nation by one of the founder-fathers of the contemporary linguistics, a prominent German philosopher, thinker, diplomat and linguist Wilhelm fon Humbolt, as well as with the linguistic outlook of famous German philosopher and language theorists Heyman Steinthal and Morits Lazarus, who developed ideas of Humbolt by deepening and enriching them into a separate linguistic study- Psychological linguistics.

Wilhelm fon Humbolt writes about a language and spirit of a nation:

"The language apparently is an external embodiment of a spirit of a nation. A language of a nation represents its spirit and a spirit of a nation represents its language. It is hardly possible to find a resemblance (identity), stronger than it.

For Bakhtiyar Vahabzade, the mother tongue is our spirit, love and flesh. Our mother breastfeeds our spirit drop by drop by our first song layla in this tongue. And we are sipping our mother tongue together with our mothers milk.

Azərbaycan türkçüluk məfkürəsinin, vətənçilik ideologiyasının ən böyük daşıyıcılarından və sözün həqiqi mənasında, yaradıcılarından biri, Azərbaycan ədəbiyyatında Hüseyn Caviddən sonra ikincisi belə zirvə sayıla biləcək düha, heç şübhəsiz ki, görkəmli Azərbaycan şairi və mütəfəkkiri Bəxtiyar Vahabzadədir.

Bəxtiyar Vahabzadə yaradıcılığı çoxşaxəlidir. Bu yaradıcılığın çoxsəsliliyi, çoxçalarlılığı-poetik polifoniyası insanı heyrətləndirməyə bilməz. O, dərin psixologizmi, kəskin ictimai məzmunu ilə seçilən, ən ağrılı sosial problemlərin böyük bir vətəndaş cəsarəti ilə qələmə alındığı dram əsərlərinin müəllifidir. Eyni zamanda artıq neçə oniliklərdir gənclərin sevə-sevə oxuduqları, əzbərlədikləri və sevgi etiraflarına çevirdikləri, insan qəlbinin sarı simini oynadan, insan ruhunu riqqətə gətirən məhəbbət lirikasının ən seçilən ünvanlarından biri də Bəxtiyar Vahabzadədir.

Bəxtiyar Vahabzadə böyük şair olmaqla yanaşı böyük vətəndaş və böyük filosofdur. Bəxtiyar Vahabzadə irsinin Türkiyədən olan tədqiqatçısı Erdal Karaman onun böyüklüyünü, bütün türk dünyasında sevilməsini şairin xalq hislərinin tərcümanı olması ilə izah edir:

"Vahabzadənin əsərlərinin özündə insan vardır, Azərbaycan xalqı vardır. Şeirlərində, teatr tamaşalarında, hekayələrində və pyeslərində qələmə alınan mözvular xalqın hislərinin tərcümanıdır. Bundan dolayıda əsərləri Sovetlər Birliyi dönəmindən bəri əldən düşmürlər" (5;14).

Öz yaradıcılığında vətəndaş və cəmiyyət həyatının bir çox mühüm ictimai-siyai, fəlsəfi, etik-estetik, mənəvi-psixoloji yönlərinə toxunmuş, onları özünəməxsus filosof, alim, şair, vətəndaş duyumu ilə dəyərləndirmiş Bəxtiyar Vahibzadənin ana dili haqqında söylədikləri və əslində, tam bir fəlsəfi konsepsiya oluşduran görüşləri, zənnimizcə, xüsusilə qiymətlidir.

Sovet istilası dövründə bütün imperiya ərazisində milli dillər sıxışdırılırdı. Bu dilərin işlənmə sferası, yayılma arealı məqsədli şəkildə məhdudlaşdırılırdı. Xüsusilə də, elmi, rəsmi və kargüzarlıq sahələrinin, ictimai-siyasi sektorun ümumişlək dili rus dili idi. Türk dillərinə qarşı isə xüsusi bir qısqanclıq vardı. Övladlarının yaxşı karyera imkanları əldə etməsini arzulayan valideynlər onları rus məktəblərinə göndərmək məcburiyyətində qalırdılar. Çünki, rus dilinə mükəmməl şəkildə yiyələnməyən insanın karyera yüksəlişi imkanları yox dərəcəsində idi. Ancaq sovet dövrünün özündə də Azərbaycanda milli dilin tətbiqi vəziyyəti, məsələn, Orta Asiya respublikaları ilə müqayisədə daha yaxşı idi. Bakı şəhərindən fərqli olaraq, kənd rayonlarımızdakı məktəblərin əksəriyyəti milli məktəblər idi. Bu sahədə də biz, Orta Asiya türk cumhuriyyətlərindəki qardaşlarımızdan xeyli irəli idik. Çünki, onlardan fərqli olaraq bizim yaxın tarixdə qısamüddətli olsa da, müstəqil dövlətçilik təcrübəmiz var idi. Bu tarixi təcrübənin təsiri altında ölkəmizdə şərəfli bir ziyalı nəsli yetişmişdi və dilimizin qeyrətini çəkən bu şərəfli ziyalılar nəslindən danışdıqda göz önünə gələn ilk sima, heç şübhəsiz ki, yenə də və yenə də Bəxtiyar Vahabzadə olacaq! Bəxtiyar Vahabzadənin kim olduğunu, hansı amalın və məsləkin sahibi olduğunu, ruhunu, daxili dünyasını, şəxsiyyətinin miqyasını və Türk dünyasındakı yerini dəyərləndirmək üçün, zənnimizcə, onun 1961-ci ildə Türkiyəyə, İstanbula ilk gəlişində təkcə qələmi ilə deyil, bəlkə də ürəyinin qanı ilə yazdığı "Vətəndaşlıq vəsiqəm" adlı kiçik poemanı oxumaq yetər. Sovet rejiminin anti-türk siyasətinin bütün şiddəti ilə vüsət aldığı, Azərbaycan türkcəsinin və bu dildə danışanların aşağılandığı, bütün dövlər rəsmiyyətinin rus dilində aparıldığı bir zamanda öz ana dilinə haradasa həsrət qalan şair sovetlərin yabançı ölkə kimi tanıtdığı Türkiyəyə qədəm basan kimi anasının doğma kəlmələrini eşidir, görür və bu gerçək onu sözün həqiqi mənasında sarsıdır:

"Dönə-dönə oxudum
Əlimdəki qəbzi mən:
"Dənizçilik bankası"
"Mərkəzi müdirliyi"
"Banka pulu on quruş".
Anamın dilindədir
Əlimdəki bu cansız,
Bu adicə sənəd də
"Əcnəbi məmləkətdə".

Mühürdəki yazı da
Mənim öz dilimdədir.

Avtobusa minmişəm,
Bu cansız, quru kağız
Yenə də əlimdədir.
Adi kağız parçası
Alışan bir ürəyi
Sərinlədə bilərmiş.
Demə, mənim dilim də
Bu dünyada nəyisə
Təsdiq edə bilərmiş,
İnkar edə bilərmiş...
..Vallah, qürbət adlanan
Bu yurd, bu vətən mənim.
Əlimdəki qəbz də
Vətəndaşlıq vəsiqəm
oldu bu gündən mənim.
Öləndə də bu kağız
qəbrim üstə qoyulsun,
Bu adi bank kağızı
məndən balalarıma
ən gözəl miras olsun!
Aman Allah! Nə ddim?!
Arzuya bax, sözə bax!
Mənim balalarım da
Doğma ana dilinə
Məgər həsrət qalacaq?

Dil namusdur. Dil qeyrətdir. Dilin qeyrətini çəkmək vətəninin daşı olmağı arzulayan hər bir individin həyat amalı olmalıdır. Dilin qeyrətini çəkmək, elə vətənin qeyrətini çəkmək, onu qorumaq deməkdir. Şair belə düşünüb və büün şüurlu həyatını bu müqəddəs mərama xidmət edərək şərəflə sürdürüb. Bəxtiyar Vahabzadə 2000-ci ildə qələmə aldığı " Dil-Vətən" şerində öz vətəndaşlıq kredosunu belə bəyan edir:

Demirəm bu millətin
Mən də öz haqq səsiyəm.
Amma mən öz yurdumun,
Bir də ana dilimin
Dəli-divanəsiyəm.
Vətən dildir, dil vətən.
Ayırmaq mümkünmüdür
Onları bir-birindən?
Deyirəm, ən adicə
Bir vətənpərvərəm mən.
Dilimin namusunu
Qoruyan əsgərəm mən.
Vətənimin, dilimin
Gələcəyi ən böyük
Dərdi-sərimdir mənim.
Xalqımın düşmənləri
Düşmənlərimdir mənim.

Bu görüşlər ümumi dilçilyin banisi, ümumiyyətlə dünya dilçilik elminin, mübaliğəsiz olaraq, ən görkəmli nümayəndəsi böyük alman dilçisi, mütəfəkkiri və filosofu Vilhelm fon Humboltun xalq ruhu konsepsiyasi ilə, eləcə də dahi Humboltdan sonra onun bu ideyasını dərinləşdirərək müstəqil bir dilçilik cərəyanına- Xalqlar psixologiyası adlanan psixoloji dilçilik təlimi-

nədək inkişaf etdirmiş görkəmli alman dil nəzəriyyəçisi və filosofları- Heyman Şteyntal və Moris Latsarusun dilçilik görüşəri ilə heyrətamiz şəkildə səsləşir.

Vilhelm fon Humbolt yazırdı: " Dil... öz köklərinin bütün incə telləri ilə milli ruhun gücünə bağlanıb və ruhun dilə təsiri nə qədər güclüdürsə, sonuncunun inkişafı bir o qədər qanunauyğun və zəngin olur. Özünün bütün ciddi bağları ilə o, (dil- G.H.) millətin dil təfəkkürünün məhsuludur və məhz buna görə də dilin mənbələri və daxili həyatı haqqında əsas suallara mənəvi güc və milli özünəməxsusluq nöqteyi-nəzərindən yaxınlaşmadan, ümumiyyətlə, lazımi səviyyədə cavab vermək mümkün deyil". Vilhelm fon Humbolta görə xalqın ruhu ilə dili bir-birindən ayrılmaz vəhdətdə mövcuddurlar: "Xalqın ruhi özünəməxsusluğu və dil quruluşu bir-biri ilə elə bir vəhdətdə mövcuddurlar ki, onlardan birinin varlığı, öz-özlüyündə digərinin varlığını ehtiva edir". V.fon Humbolt daha sonra xalqın dili və ruhu haqqında yazırdı: "Dil xalq ruhunun sanki xarici təzahürüdür; xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir-bundan daha güclü olan eynilik təsəvvür etmək çətindir". Bu vəhdətdə xalqın ruhu daha ilkin mahiyyətə malikdir: "Biz xalq ruhunun gücündə dilləri fərqləndirmək üçün gerçək təyinedici prinsipi və əsil təyinedici əsası görməliyik; belə ki, yalnız xalq ruhunun gücü ən canlı və müstəqil başlanğıcdır və dil ondan asılıdır". Eyni zamanda xalqın ruhu müşahidə edilə bilməz və onun haqqında biz yalnız müxtəlif təzahür formalarına görə və ilk öncə, dilə əsaslanaraq fikir yürüdə bilərik: " Xalqın ruhunu və xarakterini təcəssüm etdirən bütün təzahür formaları arasında yalnız dil xalqın ruhunun və xarakterinin ən özünəməxsus və incə cəhətlərini ifadə edə və onların ən mübhəm sirlərinə nüfuz edə bilir". (6;68).

Xalqlar psixologiyası adlı dilçilik təliminin yaradıcıları olan Heyman Şteyntal və Moris Latsarusun dil və xalqın və fərdin mənəvi fəaliyyəti məsələsinə münasibəti Bəxtiyar Vahibzadənin ana dili konsepsiyası ilə üzvi surətdə bağlıdır. Əslində, istər Humboltun, istərsə də Xalqlar psixologiyası dilçili təliminin yaradıcılarının zəngin elmi-fəlsəfi irsini Bəxtiyar Vahabzadənin ana dili haqqında görüşlərinin metodoloji bazası da adlandırmaq olar. Məsələn, Şteyntal və Latsarus yazırdı: "Dillə mənəvi fəaliyyət arasında ikili asılılıq mövcuddur. Birincisi, dil xalq ruhunun məhsuludur və deməli, dili insanın mənəvi məhsulunun bütün zənginliklərinə nüfuz edərək öyrənmək lazımdır və vacibdir. İkincisi, dil xalq ruhunun ifadəsidir və deməli, bütün dil formalarının öyrənilməsi xalq ruhunu dərk etmək imkanı verər. Dil bütöv bir xalqın şüurunun və dünyagörüşünün ifadəsidir" (4; 275).

Bəxtiyar Vahabzadə də dili milli kimliyin, milli ruhun ən mühüm ifadə vasitəsi, milli identifikasiyanın vazkeçilməz, ən zəruri şərti hesab edir:

"Mənim ana dilim-mənim kimliyim,
Pasportum, özümə öz hakimliyim.

Mənim mənliyimin füsunkarlığı,
Danışan kamalı, ağlıdır dilim.
Millətin varlığı, yurdun varlığı
Sənin varlığına bağlıdır, dilim.

Çox sayda xarici dil bilmək, şübhəsiz ki, hər bir insanın intellektual və mədəni-psixoloji üstünlüyü, ziyalılığının göstəricisidir. İnsan nə qədər çox dil bilirsə, bir o qədər ruhən zəngin olur, çünki, danışdığı dillər vasitəsilə digər xalqların mədəniyyətinə, mənəviyyatına, milli ruhuna körpü salıb zənginləşmək imkanı əldə edir. Lakin rus, ingilis və ya hər hansı bir xarici dilin azərbaycan türkünün "ana dili"- birinci dili olması gerçəyi ilə heç vaxt barışmaq olmaz. Hər bir azərbaycanlı öz dilinin mühitində böyüməli, bu dilin aurasında yaşamalı, bu dildə düşünməli və dünyanı bu dil vasitəsilə qavramalıdır. Əks halda, bu insan, sözün tam anlamında azərbaycanlı ola bilmir, ən yaxşı halda, yarımazərbaycanlı olur. Çünki, dil bu dilin daşıyıcısı olan xalqın ruhudur, mənəviyyatıdır, varlığının ən bariz təzahür formasıdır. Milli təfəkkürün, milli düşüncənin formalaşmasında milli dilin xidmətləri əvəzsizdir. Dilini, bu dil vasitəsilə ədəbiyyatını, folklorunu, mədəniyyət tarixini, milli musiqisini bilməyən və qəlbinin dərinlikləri ilə duymayan, yaşamayan insan Azərbaycanı ürəkdən sevə bilməz! Bəxtiyar Vahabzadə də məhz belə düşünür:

"İlk mahnımız laylanı anamız öz südüylə
Bu dildə ruhumuza içirir gilə-gilə.
Bu dil - bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil bir-birimizlə əhdi-peymanımızdır".

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.

Hər bir dil bu dildə danışan xalqın tarixinin ən canlı, təhriflərə yol verməyən, süni təsirlərə, təhdidlərə boyun əyməyən salnaməsidir. Dil ləkə götürməyən gerçək tarixdir. Şairin elmi düşüncəsi poetik duyumu ilə birləşərək, dilin tarixi missiyasına dəqiq və qərəzsiz qiymətini verir:

Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
Tarixi varaqlanır,
Səndə neçə min illik mənim mədəniyyətim,
Şan-şöhrətim saxlanır.
Mənim adım, sanımsan,
Namusum, vicdanımsan.

Şairin bu fikirlərini Vilhelm fon Humboltum dil və xalqın mədəniyyət tarixi haqqında mülahizələri ilə müqyisə etsək, onların bir-binin davamı olduğu, bir-birini üzvi şəkildə tamamlaması bəlli olacaqdır. Məsələn, Humbolta görə, "dil insan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olmaqla, onun ən mühüm komponentini təşkil edir"(7). Humbolt yazırdı: " Dil bəşəriyyətin mənəvi inkişafı ilə sıx şəkildə bağlıdır və özündə mədəniyyətin hər bir mərhələsini əks etdirməklə bəşəriyyətin mənəvi inkişafının hər bir məhəlli tərəqqi və ya tənəzzül mərhələsində onu müşayiət edir"(6;48).

Dil keçmişlə gələcək arasında ən etibarlı körpüdür, gələcək nəsillərə ötürülməli olan ən qiymətli mirasdır. Bu körpü varsa, bu əmanət miras ötürülürsə xalq yaşayırş. Bu körpünün qırılması xalqın tarix səhnəsini tərk etməsi deməkdir.

Bu dil, - tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil, - əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub nəsillərə biz də hədiyyə verək.
Və yaxud,
Məni həm babamla, həm də nəvəmlə
Bağlayıb uzanan tarix bağımsan.
Dünənim, sabahım, üstəlik hələ
Mənim söz hünərim, səs bayrağımsan.

Şairin təbirincə desək, babalarımızın bizə qoyub getdiyi ən qiymətli miras olan ana dilimizə laqeyd münasibət bəsləyənlər, bu mirasın dəyərini bilməyənlər, onu göz bəbəyi kimi qorumayanlar Bəxtiyar Vahabzadənin ən böyük şəxsi düşmənləridir. Təssüf hissi ilə qeyd etməliyik ki, bu gün bələləri az deyil. Bu gün də Azərbaycanda rəsmi dövlət tədbirlərinin qeyri-rəsmi ünsiyyət dili rus dili olaraq qalmaqdadır! 20 il öncə müstəqiliyə qovuşmağımıza baxmayaraq hələ də öz doğma dilində- gözəl türkcəmizdə deyil, işğalçının dilində danışmağı tərcih edənlər, övladlarını bu dildə dindirən və onlara yad dildə təhsil verən həmvətənlrimiz var və onların sayı az deyil. Ölkəmizin rus işğalı 20 il öncə bitib, ancaq soyadlarımız üzərində rus istilası hələ də davam edir. Təbii ki, ilk öncə, öz etinasızlığımızın, biganəliyimizin nəticəsi kimi. Şairin belə etinasızlara münasibəti çox sərt və barışmazdır:

Ey öz doğma dilində danışmağı ar bilən,
Bunu iftixar bilən
Modalı ədəbazlar

Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Qoy bunlar mənim olsun.
Ancaq Vətən çörəyi,
Sizlərə qənim olsun!

Şair öz doğma dilində danılşmağı ar bilməyi, bacarmamağı, istəməməyi insanın ən böyük qüsuru saymaqla yanaşı, bu problemin dərinlərinə, kökünə də nüfuz edir, onun səbəbləri sırasında ictimai-siyasi amillərlə yanaşı, haqlı olaraq, ana dilini övladlarına sevdirməli olan anaların bu dilə olan etinasızlığını, biganəliyini vurğulayır. Bəxtiyar Vahabzadə "Nə ondansan, nə bundan" şeirində öz dilini bilməyən, fars dilində danışmağı üstün tutan, ancaq bununla belə, heç vaxt fars ola bilməyəcək yarımçıqlara xitabən deyir:

"Anan bunu etmədi,
O sənə öyrətmədi
Anasının dilini.
Anan sənə öyrətdi ağasının dilini.
Öz doğma övladına doğma ana dilini
Öyrətməyən analar
Bəs ana adlanmağa sizin haqınızmı var?

Bəxtiyar Bahabzadə yaradıcılığı çoxşaxəlidir, çoxrənglidir, çoxsəslidir. Burada incə lirikadan sərt realizmədək bütün poetik çalarları tapmaq mümkündür. Lakin, heç şübhəsiz ki, Vahabzadə yaradıcılığının, Vahabzadə dünyagörüşünün fikir və düşüncə polifoniyasının ana xəttini şairin heç vaxt sarsılmayan, təzyiqlərə baş əyməyən, təqiblər qarşısında geri çəkilməyən VƏTƏNDAŞLIQ MÖVQEYİ təşkil edir. Bu mövqeyin ən bariz nümunəsi milli kimliyimizin ən gerçək təzahürü, milli mədəniyyətimizin ən etibarlı daşıyıcısı və qoruyucusu, milli ruhumuzun ən mükəmməl tərcümanı oan ana dilimizə, dünyanın ən gözəl, ən axıcı, ən melodik dili olan doğma türkcəmizə heç vaxt bitib-tükənməyəcək, sərhəd və sədd tanımayan sonsuz sevgidir. Dilini sevmək bu dilin ruhunu yaşatdığı xalqını, millətini sevmək deməkdir. Millətini sevmək özünü sevmək, milli ləyaqət, milli qürur düşüncəsinə sahiblənmək deməkdir. Əsl vətəndaşlıq mövqeyi də elə, milli qürur düşüncəsi, milli ləyaqət platformu üzərində cücərir, kök salır və qol-budaq verir. Bu anlamda, böyük ustad Bəxtiyar Vahabzadənin Azərbaycan xalqı, biz azərbaycan türkləri qarşısında ən böyük xidməti onun biri-birindən gözəl, axıcı, qəlbimizi və ruhumuzu oxşayan şeirlərin müəllifi olması deyil. Bəxtiyar Vahabzadənin Azərbaycan türkləri qarşısında ən böyük xidməti bizə əsl vətəndaş olmağı öyrətməsi, bizlərə milli təəssüb, milli ləyaqət hislərini aşılamasıdır. Ən gözəl şeirlər də nə vaxtsa unudula bilər, ancaq bu şeirlər vasitəsilə şairin gilə-gilə, damla-damla ruhumuza, qanımıza, varlığımıza hopdurduğu bu duyğular biz torpağa çevrilənədək bizi heç vaxt tərk etməyəcəklər.

QAYNAQLAR:

1. Bəxtiyar Vahabzadə. Əsərləri. VII cild. Bakı, Elm. 2008
2. Bəxtiyar Vahabzadə. Əsərləri. VIII cild. Bakı, Elm. 2008
3. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. Azərbaycan ədəbiyyatı. Bakı, Çaşıoğlu. 2005
4. Əbülfəz Rəcəbli. Dilçilik tarixi. I kitab. Bakı, Nurlan. 2007
5. Erdal Karaman. Türk dünyasının sesi Bahtiyar Vahabzade. Bakü, Qafqaz Araştırmaları Enstitüsü. 2009.
5. Вилüгелüм фон Гумболüдт. Иçбранные труды по яçыкоçнанию. Москва, Прогресс. 1984.
7. Алпатов В.М. История лингвистических учений. Вилüгелüм фон Гумболüдт. http://project.phil.spbu.ru/lib/data/ru/alpatov/humboldt.html

TÜRK EDEB YATINDA BAHT YAR VAHABZADE

Erdal KARAMAN

Dr., Qafqaz Üniversitesi,
Türk Dili ve Edebiyatı Bölümü, Öğretim Üyesi
erdalkaraman@yahoo.com

ÖZET

Bahtiyar Vahabzade, Azerbaycan edebiyatına 21. yüzyılda ismini altın harflerle yazdıran bir şairdir. Eserleri özellikle Sovyetler Birliği döneminde elden ele dolaşır, Sovyetler Birliği sınırlarını aşmıştır Kitapları dünyanın birçok diline çevrilir. Bu dönemde Türkiye ve Azerbaycan arasında sınırlar kapalı olmasına rağmen şairin ismi Türk edebiyatında anılmaya başlar. Bahsedilen dönemde Türkiye'de kısmen de olsa tanınır, eserleri edebi çevreler tarafından takip edilir. Sovyet sonrasında Vahabzade'nin eserleri ve hayatı Türk edebiyatında saha sık görülmeye başlar. Bu çalışmada, Sovyet döneminde ve sonrasında Türk edebiyatında Vahabzade'nin yeri ele alındı.

Anahtar Kelimeler: Azerbaycan, Bahtiyar Vahabzade, Türk Edebiyatı

ABSTRACT

Bakhtiyar Vahabzade, a well-known poet of Azerbaijan carved his name in the literature of the 21st century. His poems were widely recognized in the Soviet Union. His works were translated into many languages passing the bounds of Azerbaijan. Then he was recognized in Turkish literature despite the closed borders between Azerbaijan and Turkey. After the Soviet Union his articles and poems were often appeared in Turkish literature. This paper deals with Bakhtiyar Vahabzade's position in Turkish literature in soviet and post-soviet period.

Key Words: Azerbaijan, Bakhtiyar Vahabzade, Turkish literature

Bahtiyar Vahabzade Azerbaycan'ın yetiştirdiği önemli şahsiyetlerden birisidir. Azerbaycan'ın taşra bölgesi diyeceğimiz Şeki'de dünyaya gözlerini açan Vahabzade'nin çocukluk dönemi Sovyetler Birliğinin Azerbaycan'da kendi düzenini kurmak için mücadele verdiği, Azerbaycan'ı Sovyet sistemine dahil etmek için halka baskı yaptığı dönemde geçer. Bu dönemde gerçekleşen hadiseler küçük Bahtiyar'ın hayatında önemli rol oynar. Zira körpe dimağına kazınan hadiseler, şairin ileride dünya görüşünün şekillenmesinde, dünyaya bakış açısını belirlenmesinde başat rol oynayacaktır. Özellikle Şeki'de Sovyet sistemine karşı halkın karşı çıkıp yıllarca mücadelesini dağlarda sürdürmesi ve daha sonra gelişen olaylar şairi derinden etkilemiştir. Vahabzade, bahsedilen dönemde bir taraftan halkın verdiği mücadeleyi yakından görür, diğer taraftan Türkiye ilişkilerin en aza indirildiği, Türk isminin yasaklandığı dönemi de idrak eder. Bu dönemde yasaklılar listesinde olan Türkiye ve Türkler onun gözünde efsanevi hale gelir. İlkokul öğretmeni ve ailesinin Türkiye hakkında anlattığı hikayeler küçük Bahtiyar çok etkilenir. Türkiye onun gözünde her geçen daha da büyür. Çocukluk yıllarında başlayan bu sevgi ve özlem gençlik yıllarında gitmek, görmek için can attığı bir ülkedir. O ilk defa bu fırsatı 1961 yılında yakalar. Bu unutulmaz ziyareti kendi ağzından dinleyelim:

"**Dedemin, babamın ve amcalarımın a zından Türkiye hiç dü mezdi. Ben imdi soyumdan gelen arzuların hayallerin ülkesi olan Türkiye'ye gidiyorum. Sabah erkenden kalkıp tıra oldum. Otuz be yıldır hasretini çekti im, ismini zaman zaman andı ımda bütün bedenimi titreten, koluma kuvvet, aya ıma takat, gözlerime ı ık veren bir ehre, stanbul'a, gidiyorum. Ümitgahım, önünde boyun e di im, zorla elimden alınan adımın sahibi, namusumun, izzet ve erefimin koruyucusu, gören gözüm, vuran kolum, dü ünen beynim, yardımcım, dayana ım, bayra ım, kaybetti im tarihim, geçmi im, ana dilim, erefim hepsi sendedir.**

Kamaranın penceresinden bakıyorum uzakta fener yanıp sönüyor. Allahım! lk defa Türk ı ı ı görüyorum. O ı ıkta benim arzularım yanıyor. Ey fener, sen sana tarih boyu dü man olan bir milletin gemisine yol gösteriyorsun. O geminin içinde sana can vermeye hazır birisi var."

Türkiye'ye, kimlik kontrolünden sonra ayak basan Vahabzade'nin heyecanı devam eder. Türkiye Cumhuriyeti yazılı mühür şairi duygulandırır: **"Ben sana kurban olayım. Ey benim**

cumhuriyetim! Ey benim benden uzak vatanım! Benim için yanan ve bana elini uzatamayan vatanım! zin belgesinin üzerindeki mührü döne döne öpüyorum. Otuz be yıldır vesikalarımın üzerinde Rus dilinde yazılı ifadeler vardı, ilk defa imdi kendi dilimde yazılı bir ibare var kimli imde. Ömründe sadece on saat benim kim oldu umu gösteren vesika ise ilk defa kendi dilimdeydi. Ben ancak imdi ben oldum."[1]

Şair Türkiye'ye olan hissiyatını bu etkileyici ve samimi sözlerle ifade ederken Türk aydınlar da onun ve sanatının farkına varırlar. Sovyetler Birliği döneminde şair hakkında Türk edebiyatında çalışmalar yayımlanmaya, onun eserleri, hayatı ve fikirleri Türk okuyucusuna sunulmaya başlanır. Böylece şair tüm yasaklara rağmen Türk aydınlarının dikkatini çekmeye başlar. Vahabzade'nin Türk edebiyatındaki yerini Sovyetler dönemi ve sonrası olmak üzere iki ana başlık atında ele almak mümkündür.

1. Sovyetler Birli i Döneminde Türk Edebiyatında Vahabzade:

Sovyet Birliği döneminde demir perde Türkiye ve Azerbaycan arasına aşılmaz set çeker. Bu dönemde Türkiye ve Azerbaycan arasındaki kültürel ilişkiler yok denecek kadar azdır. Buna rağmen, kısmen de olsa, Azerbaycan ve Türkiye arasında kültürel bağlar vardır.

Bu dönemde şair ilk defa Türk edebiyatında Saadet Çağatay'ın Türk Lehçelerinden Örnekler II kitabında yer alır. Şairin bahsedilen eserde ''Ana Dili'', ''Kağızlar'' ve ''Bize Öyle Gelir Ki…'' adlı şiirlerine yer verilir. Buna müteakip Vahabzade'nin eserlerini Türk Edebiyatında görülmeye başlar. Türk Edebiyatındaki şiirleri Ahmet Şmid'in yorumlarıyla yayımlanır. Böylece şairin eserleri daha geniş kitlelere ulaşmaya başlar. Şair bu şekilde birçok Türk okuyucusu tarafından tanınır. Ercilasun, Vahabzade'nin eserlerini ele aldığı çalışmasında onun eserlerinin Türk edebiyatı için yeni bir ses olduğunu dile getirir. Bu eserlerle Azerbaycan Türkçesi ve musikili şiirlerinin Türkiye'ye açıldığını, Türk okuyucusuna sunulduğunu dile getiren yazar, şiirin esrarengiz güzelliğini kaybetmek üzereyken Vahabzade'nin sır dolu, efsunlu dizelerinin imdadımıza yetiştiğini belirtir. [2]

Bahsedilen ilişkilere Bahtiyar Vahabzade'nin 1972 yılında Varlık dergisinde yayımlanan ''Yel Kayadan Ne Aparır'' başlıklı makalesi en güzel örnektir. Şair, bu dönemde Türkiye'deki divan edebiyatı ile ilgili tartışmalara katılır. Bu hadiseyi kendisinden dinleyelim: Almanya'da idim. Orada Ahmet Şmide adında Müslüman olmuş Alman bir dostum vardı. Türkçeyi çok güzel biliyordu. Ona Türkiye'den dergiler geliyordu. O dönemde ''Varlık'' dergisinde "Ölü Edebiyat" adlı Divan edebiyatını kötüleyen bir makale okudum. Makalede çağdaş Türk gençliğine Fuzuli'yi öğretmenin gereksizliği savunulur. Aynı dergide ilgili yazıya bir cevap niteliğinde "Yel Kayadan Ne Aparır" başlıklı bir yazı gönderdim. O makalemde, " Ben bu makalemi yazarken kulaklarıma bir kahkaha sesi geldi. Baktım ki büyük bir kayanın üstünde Fuzuli, Nâbi, Y. Kemal, Bâki oturmuşlar bana gülüyorlar. Onlara: -"Niçin gülüyorsunuz" diye sordum.

Onlar da:

''-Bizim gibi büyük dâhilerin A. Zeki Eyüboğlu'ndan korkumuz yok. Senin gibi küçük şairlerin de müdafaasına muhtaç değiliz.'' dediler. Şeklinde düşüncelerimi dile getirmiştim.[3]

Bahtiyar Vahabzade'nin eserlerini Türkiye'de ele alan diğer bir aydın da Yavuz Akpınar'dır. O da şairi, eserlerini analiz etmek suretiyle Türk okuyucusuna tanıtır. Bir çalışmasında, Vahabzade'nin sanatını ve eserlerini şu ifadelerle değerlendirir: ''Onun şiirlerinde derin bir fikir ve düşünce ile karşılaşırız. Şair, hayatta şahit olduklarını duygu ve düşüncelerini şiirin esrarengiz diliyle dile getirmede mahirdir. Başkaları için şiir mevzusu olmayan konular, mevzular görüş ve fikirler onun nefesinde şiire çevrilir. Kısaca o şiirle düşünen sanatkârdır. Onun şiirleri insanın içinde için için yanan bir ateşe benzer. Ona göre asrın nabzı şiirde vurmalıdır. Şair, okuyucuyu derin derin düşündürmeli, vatan ve millet aşkıyla dolup taşmalı,

[1] Vahabzade, Bahtiyar, Ömürden Sayfalar, Ötüken Yayınları, İstanbul 2000, s. 263-265.
[2] Ahmet Bican Ercilasun, Milli Eğitim ve Kültür Dergisi, No: 2, Mart 1979.
[3] Erdal Karaman, Bahtiyar Vahabzade ile Dil Kültür ve Tarih Üzerine Söyleşi, Jurnal Of Caucasian Studies, Number 1 Fall 2004, s. 11.

yumruğa dönüp vatanını, milletini ve milli benliğini inkar eden, yabancı düşünce ve hayat tarzını taklit eden mukallitlerin ve kendini bilmezlerin başını ezmelidir.[1]

Vahabzade ile ilgili önemli değerlendirmelerde bulunan diğer bir aydın da Mehmet Kaplandır. Mehmet Kaplan Türk Edebiyatı dergisinin 123. sayısında şairin ‘‘Mugam’‘ şiirini ‘‘Birillant Gibi Bir Şair’‘ başlıklı makalesinde değerlendirir. Bu makalesinde şair Vahabzade’nin sözü edilen şiirini şekil özellikleri yönüyle değerlendirdikten sonra Vahabzade Türk Edebiyatındaki bazı şairlerle karşılaştırır. Mugam şiirindeki ‘‘men’‘ redifini kullandığına dikkat çeker ve şiirde insanın benliğini ve iç dünyasını ifade etme gayretinde olduğunu dile getirir. Bu yönüyle Eski Türk edebiyatında özellikle de Tasavvuf edebiyatında ‘‘ben’‘ gücünü Allah’tan alan bir insan hatta onunla birleşen bir varlık olarak görülür, diyen Kaplan bu şiiri Şeyh Galip’in;

Hoşça bak zatına ki zübde-yi alemsin sen,
Merdum-ı dide-yi ekvan olan ademsin sen

Şiirindeki gibi soysal ve mana yönünden ağırlık taşıdığına dikkat çeker.

Diğer taraftan Kaplan ‘‘Ben ben değilem, bir ulu fikrin özüyem’‘ mısrasını Yunus Emre’nin;

Beni bende deme, bende değilim,
Bir ben var bende, benden içeri.

Dizelerinde yer işlenen derin mana ile paralellik gösterdiğine dikkat çeker. Aynı makalede Kaplan, okuyuculara şöyle seslenir: Azerbaycan’da Bahtiyar Vahabzade adında bir şair yaşıyor, onu Türkiye’de kaç kişi tanıyor ve eselerini okuyor, diye sorar. Makalesinin sonunda Azerbaycan ve Türk halkının kardeş olduğuna dikkat çeken yazar, Fuzuli’nin hem Azerbaycan hem de Türkiye’nin şairi olduğunu belirtir. Türk aydınlarının yönünü Batıya çevrimesindne yakınır ve aynı zamanda yönümüzü kardeş edebiyata döndremeliyiz der.[2]

Mehmet Dursun Milli Kültür dergisinde ‘‘Payız Düşünceleri’‘nde büyük arzular başlıklı yazısında şairin ‘‘Payız Düşünceleri’‘ kitabı hakkındaki düşüncelerini dile getirir. Dursun sarraf dakikliği işe ele aldığı mısralarda öz kimliğinin ve ebediyet sırlarını aradığını dile getirir. Vahabzadenin sesine her zaman ses verildiğini dile getirdiği çalışmada onun birkaç neslin yetişmesinde önemli katkıları olduğunu vurgular. Ebedibi gelenekteki büyük halk muallimlerinin vazifesini Vahabzade’nin devam ettirdiğini, halkın milli duyguyu hissetmesinde önemli görev üstlendiğini dile getirir. Şairin dertsiz ve gamsız bir şair olduğune inanan halkın bu hissinde yanıldığını dile getirir. Kendisini yakından tanımayanlara sorduğu ‘‘Sen nereden bilirsin ben ne çekerim” şeklinde okuyucuya sorduğu soruyla şairin gamlı ve kederli olduğuna dikkat çeker.[3]

Vahabzaden’in bahsedilen makalesi Türkiye’de yankı doğurur. Birçok Türk aydını Vahabzade’nin fikirlerini bu makaleyle öğrenme fırsatı elde eder.

2. Sovyet Sonrasında Bahtiyar Türk Edebiyatında Vahabzade:

Sovyet öncesinde Türk edebiyatında bazı aydınlar tarafından eserleri ele alınan şiirleri kritik edilen şair Sovyetler Birliği dağıldıktan sonra sınırların açılmasıyla birlikte Türkiye’de ismi daha çok duyulmaya başlar. Kendisi de Tükiye’yi sıkça ziyaret eden Vahabzade aynı zamanda birçok Türk aydını tarafından hakkında çeşitli çalışmalar yapılırken birçok şiiri çeşitli dergilerde Türkiye Türkçesine aktarılmış şekilde Türk okuyucusuna sunulur. Bu süreçte şair Türkiye’de eserleri birçok okuyucu tarafından olunan, fikileri öğrenilen şairlerden birisi olur.

Vahabzade hakkında çeşitli çalışmalar kaleme alan Türk aydınlardan birisi de Yavuz Bülent Bakilerdir. Bakiler Sovyettler Briliği döneminde 1980 yılında Vahabzade ile Bakü’de görüşürler. 1982 yılında ikinci defa kendisiyle görüşen Bakiler kendisine olan hayranlığını ömür boyu unutamayacağını dile getirir. İki şair Hazar sahilinde baş başa görüşür. Halkın Vahabzadeye olan saygı ve hürmetine şahit olan Bakiler, şaire gençlerin sen bizim gururumuzsun, sen bizim şerefimizsin sözlerini unutamaz. Bakiler, farklı dönemlerde Vahabzade ile ilgili çalışmalar kaleme alır. Eserleri şerh eder. Bakiler şairi değerlendirirken Türk Edebiyatında Mehmet Akif

[1] Bahtiyar Vahabzade, Eserleri, cilt 12, Bakı 2009, s. 740.
[2] Mehmet Kaplan, Türk Edebiyatı, sayı 123, yıl 1984.
[3] Bahtiyar Vahabzade, Eserleri, cilt 12, Bakı 2009, s. 744.

Ersoy, Yahya Kemal Beyatlı ve Necip Fazıl Kısa Kürek ne ise Azerbaycan Edebiyatında da Bahtiyar Vahabzade odur, şeklinde şair hakkında duygu ve düşüncelerini dile getirir.[1]

Sovyetler Birliğinin dağılmasıyla birlikte şairin kitapları Türk okuyucusuna sunulmaya başlar. Daha önceki dönemlerde şiirleri üzerinde durulan şairin bu dönemde kitaplarının süratli bir şekilde belli dönemlerde Türkiye Türkçesine aktarıldığı görülür. Bu eserlerden birisi de 1993 yılında Kültür Bakanlığı yayınları arasında çıkan ‘‘Sonbahar Düşünceleri”isimli kitaptır. Şiirlerinden seçilen eser dönemin kültür bakanı Fikri Sağlar'ın takdimi ile yayımlanır. Farklı dönemlerde ele aldığı şiirlerden bazıları şunlardır: ‘‘Vatandaş”, ‘‘Güz Düşünceleri”, ‘‘Ne Ondan Ne Bundan”, ‘‘İstanbul‘‘ gibi şiirler yer alır. İstanbu şiirinde bu güzel şehre karşı hissiyatını şu satılarla dile getirir:

Bosfor körfezi…
İki kıta
Dayanmış birbirine
Ortasında bu yolun
Bir tarafı Avrupa'dadır.
Bir tarafı Asya
İstanbul'un…
Türk oğlu durup ortasında
Seyreder sağını,
Solunu.
Bir şehirde birleşir
İki kıtada.
Birinin başlangıcıdır,
Birinin sonu…[2]

Qeyd etməliyik ki, milli ideyanın maarifçilik hərəkatına daxil olması və təməlinin qoyulması Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Ü.Hacıbəyov, M.Ə. Rəsulzadə, Ə.Ağaoğlu, Ə.Hüseynzadə və b.ilə başlanır və böyük bir yol keçib gəlir. Xalqın maddi-mənəvi rifahına, maariflənməsinə, ən başlıcası milli istiqlala nail olmasına xidmət edən bu mübarizə məktəbinin "dərsliyi"ndə XX əsrin ikinci yarısında yeni səhifələr yazan vətənpərvər mütəfəkkirlərdən biri də Bəxtiyar Vahabzadədir.

Bəxtiyar Vahabzadənin əsərlərində milli ideyanın öyrənilməsi ətraflı və geniş araşdırmalar tələb edir.Amma bu ideya ədibin əsas konsepsiyası kimi fəaliyyətinin bütün sahəsini əhatə edir və ona görə də istənilən bir əsəri bu ideyanı müasir elmi prinsiplər səviyyəsində dəyərləndirməyə imkan verir.

"Şairin bədii təfəkkürü həmişə fəlsəfi ümumiləşdirmələrə meyl edir. O, bir çox əsərlərində bütün bəşəriyyəti düşündürmüş və düşündürən böyük fəlsəfi məsələlərin poetik ifadəsini yaratmışdır. Məlumdur ki, insan tarixinin böhranlı dövrlərində bir sıra ölkələrdə dini fanatizm güclənir. İndi bunu biz həm xristianlığın, həm islamın, həm də başqa dinlərin hakim olduğu ölkələrdə müşahidə edirik… " [1].

"Bəxtiyar Vahabzadənin, haqlı olaraq, "xalqının mənəvi ehtiyacları, taleyi, gələcəyi barədə açıq söhbət" (İlyas Tapdıq) kimi səciy-yələndirilən publisistikasında yaradıcılığının əsas qayəsi

[1] İbrahimov M. "Azərbaycanın Bəxtiyarı" səh. 14

olan vətən məhəbbəti, vətəndaş narahatlığı, milli təəssübkeşlik daha qabarıq və dolğun şəkildə əks olunmuşdur" [1].

"Bəxtiyar Vahabzadənin iki tarixi şəxsiyyətə-Babəkə və Nəsimiyə həsr etdiyi iki tarixi əsərinin-"Dar ağacı" və "Fəryad" əsərlərinin ikisində də əsas qəhrəmanın özü iştirak etmir. "Dar ağacı"nda Babəki, "Fəryad"da Nəsimini görmürük. "Doğrudur, "Dar ağacı"nda bütün hadisələrə və talelərə Babəkin səsi və qəhqəhəsi ilə yekun vurulur, amma süjetin real gedişi prosesində Babəkin özü yox, kabusu, teyfi iştirak edir. Eləcə də "Fəryad" pyesində Nəsiminin öz obrazı yoxdur. Əvəzində Nəsimi nəsli var, Nəsimi xalqı və milləti var" [2].

N.Cəfərovun da yazdığı kimi, "həm vətəndaş şair, həm də ictimai xadim kimi "milləti millət edən məsələlər üzərində professional səviyyədə düşünən" və əsərlərində bu mühüm məsələlərin tarixi köklərini, məntiqi həlli yollarını böyük məharətlə, peşəkarcasına göstərməyi bacaran şairin publisistikasını tədqiq etməklə, eyni zamanda, ötən əsrin son onilliklərindən bu günədək Azərbaycanın ictimai-siyasi, sosial-mədəni həyatındakı hadisələrdən, eləcə də milli istiqlal yolunda mücadilə tarixinin qanla yazılmış şanlı səhifələrindən xəbərdar olmaq mümkündür. Millətinin faciəsini, doğma Azərbaycanın dərdini, acısını dərindən duyan, bütün varlığı ilə ana yurduna bağlı olan şair vətəninin ən ağır günlərində, ən qaynar nöqtələrdə -meydan və mitinqlərdə- ən uca kürsülərdən, Ali Sovetin sessiyalarından, eləcə də televiziya ekranlarından, radio efirindən səsini ucaltmış, xalqı bir yumruq kimi birləşməyə, "Vətən naminə eyni hədəfə vurmağa" (Bəxtiyar Vahabzadə) çağırmışdır. Azərbaycanın azadlığı, bütövlüyü uğrunda hələ ötən əsrin əllinci illərindən başlayaraq qələmi ilə, sözü ilə mücadilə aparan Bəxtiyar Vahabzadə öz xalqı üçün ideoloji məktəb rolu oynayan, düşündürən poeziyası və dramaturgiyası, yol göstərən, istiqamətləndirən, eyni zamanda, yol üstündəki çeşidli maneələrlə döyüşən publisistikası ilə təkcə ədəbiyyat və publisistika tarixində deyil, milli istiqlal tarixində müstəsna xidmətləri ilə seçilən şəxsiyyətlərdəndir [2].

Bütün varlığı ilə xalqına və millətinə bağlı olan "Bəxtiyar Vahabzadəni həyatı boyunca düşündürən çoxsaylı milli, ictimai problemlərin birincisi, heç şübhəsiz, öz xalqının müstəqilliyi, milli istiqlal məsələsi olmuşdur. Mənsub olduğu xalqın ideallarını, dərdini, kədərini, duyğu və düşüncələrini dərindən duyan sənətkarın milli azadlıq uğrunda bir vətəndaş şair kimi illər boyu davam edən mübarizəsi əsərlərində əks olunmuşdur [2].

Bəxtiyar Vahabzadə əsərlərinin mövzuları da bu və ya başqa şəkildə milli ideyanın təbliğinə xidmət edir.Burada əsas milli kateqoriyalar "vətən, millət və ana dilidir.. "Vətən sevgisi" (1976) adlı məqaləsində bu böyük sevgidən söz açan B.Vahabzadə Vətən sevgisini insan duyğularının ən alisi, ən yüksəyi və ən müqəddəsi olaraq görmüşdür. Qəlbindəki vətən sevgisindən güc alan, qoluna qüvvət, gözlərinə işıq gələn bu vətəndaş şairin poeziyası ilə bərabər, publisistikası da müqəddəs bir amala vətənin, millətin səadətinə xidmət edir [4].

Mənsub olduğu xalqın tarixin müxtəlif mərhələlərindəki ovqatını dərindən duyan B. Vahabzadənin milli azadlıq uğrunda bir vətəndaş şair, ictimai-xadim kimi illər boyunca davam edən mübarizəsi poeziyasında olduğu kimi, publisistikasında da, özü də daha açıq-aydın və geniş şəkildə öz əksini tapmışdır. Ümumiyyətlə, bu publisistikada Azərbaycanın milli istiqlal yolunda mücadilə tarixinin son illərindən bəhs edən salnaməsini görmək olar.

Millətinin səadətini vətəninin müstəqilliyində görən B.Vahabzadə, illər boyu arzusunda olduğu və nəhayət, reallaşan müstəqilliyi şəxsi mənafeyindən uca tutmağa, onu qoruyub dəyərləndirməyə çağırır.

Soykökünə qırılmaz tellərlə bağlanan şairin yaratdığı əsərlərin hər birində onların leytmotivi olan Vətən sevgisini insanın mənəvi ucalığı, milli-mənəvi dəyərlərə hörmət, ana dilinə, mədəniyyət abidələrinə qayğı, vicdani borc və s. məsələlərlə bərabər, vəhdətdə görürük.

İnsanı insan edən, onu ülvi bir məqsədə, əqidəyə xidmət etməyə sövq edən ən başlıca keyfiyyəti onun mənəvi təmizliyində görən böyük sənətkarın poeziyasında, dramaturgiyasında olduğu kimi, publisistikasında da bu mühüm keyfiyyətlə bağlı olduğu duyğu və düşüncələr

[1] Gündoğdu B.Bəxtiyar Vahabzadənin publisistikasl.Avtoreferat.Bakı, 2010

[2] Qarayev Y. Azərbaycan ədəbiyyatı:XIX və XX yüzillər. Bakı, "Elm", 2002. 740 s

daha geniş şəkildə öz əksini tapmışdır. Bu mənada "Mənəvi təmizlik"(1982), "Ləyaqət"(1989), "Vicdan, namus, ləyaqət"(1991) və b. məqalələrində Bəxtiyar Vahabzadənin, oxucusuna mənəviyyat haqqında söylədiyi fikirlər xüsusi dəyərə malikdir

Şairin mənəviyyat, vicdan borcu, ləyaqət kimi insani keyfiyyətlərdən bəhs edən publisistik məqalələri içərisində 1989-cu ildə qələmə aldığı "Ləyaqət"(1989) adlı məqaləsinin xüsusi yeri var. Böyük sənətkarın mənəvi təmizliyin üç əsas amilindən biri kimi dəyərləndirdiyi ləyaqət hissi haqqında söylədiyi fikirlər məqalədə real hadisələrin, aktual problemlərin fonunda verilərək, konkret faktlara, dəlillərə söykəndiyi üçün daha böyük təsir gücünə malikdir. Publisist şair həyatın, insan fəaliyyətinin hər sahəsində baş verən hadisələrə, ictimai münasibətlərin gedişinə və s. məhz ləyaqət ölçüsü ilə yanaşır.

Ana məhəbbəti, anaya hörmət isə böyük sənətkarın bütün yaradıcılığının ruhuna, qanına, canına hopmuşdur, desək, səhv etmərik. "Ana"(1971) adlı məqaləsində B.Vahabzadə bu müqəddəs varlıq haqqında danışır. Şair "Kitabi-Dədə Qorqud" dastanlarında anaya böyük dəyər verən, ana haqqını hər şeydən uca tutan mərd oğulları, oğuz igidlərini hörmətlə yada salır: "Dədə Qorqud" qəhrəmanlarından Uruz ana haqqını, "tanrı haqqı" adlandırır.

Nəsillər arasındakı əlaqənin möhkəmləndirilməsində insanlar arasındakı qarşılıqlı hörmət və sevgi hisslərinin rolunu yüksək dəyərləndirən Bəxtiyar Vahabzadə "Müqəddəs hisslər"(1978) adlı məqaləsində də insanın ən ali, ən müqəddəs hissi sevgi hissi haqqında düşüncələrini qələmə almışdır.

Yaradıcılığının bütün sahələrində, ömrü boyu sevgidən, məhəbbətdən söz açan şairin əsərlərinin özü də bu müqəddəs hissdən qaynaqlanır. Anaya, Vətənə, sevgiliyə məhəbbət hissindən başqa, bütün sevgilərin fövqündə dayanan ilahi bir sevgi bu dünyanın, kainatın yaradıcısı uca Allaha məhəbbət duyğusu da Bəxtiyar Vahabzadə publisistikasında özünəməxsus şəkildə ifadə olunmuşdur.

B.Vahabzadənin gənc nəslin tərbiyəsinə də diqqətlə yanaşmış və onu da öz milli konsepsiyasının əsas prinsiplərindən saymışdır.O, müşahidə etdiyi problemləri öyrənmiş və onlara qarşı mübarizə aparmışdır. Vətəninə, xalqına böyük məhəbbətlə bağlanan Bəxtiyar Vahabzadə üçün elm, təhsil, peşə,sənət, əldə edilən dünyəvi biliklər yalnız və yalnız böyük bir amala xalqın, vətənin səadətinə xidmət edərkən qiymətli"(4) sayılmışdır.

Bəxtiyar Vahabzadənin bu mühüm məsələ ilə əlaqədar dəyərli mülahizələri ilə "Elmimiz nə üçün geri qalır?"(1989), "Kökümüzə gedən yolu tikanlardan təmizləyək"(2000), "Şəxsi fikir , ictimai duyğu"(1989), "Vətəni sevməyən insan olmaz"(1973), "Bir kənd məktəbində"(1970), "Bir neçə mühüm problem"(1991), "Son zəng"(1977), "Yeniyetmə və zaman barədə düşüncələr"(1989) və s. sərlövhəli publisistik məqalələrində tanış oluruq.

"Şəxsi fikir ictimai duyğu" adlı məqaləsində bu mühüm problemdən söz açır. 1978-ci ildə Respublika Müəllimlərinin VI qurultayındakı çıxışı da bu görkəmli sənətkarın müəllim əməyini yüksək qiymətləndirdiyindən soraq verir. "Məndən olsaydı, əlifbadakı sıra qanunlarını pozub "müəllim" sözünü bütün dillərin lüğətində ilk söz kimi yazardım" deyir.

Gənc nəslin təlim-tərbiyəsindən söhbət gedərkən, onlarda şəxsi fikrin, düşüncənin formalaşması məsələsinə də böyük əhəmiyyət verən Bəxtiyar Vahabzadə bildirir ki, şəxsi fikir müstəqil düşüncədən doğur, bu vərdişi isə uşaqlıqdan başlamaq lazımdır. Elmin, təhsilin cəmiyyətin inkişafındakı əvəzsiz rolundan, əhəmiyyətindən bəhs edərkən, B.Vahabzadəni narahat edən bir mühüm məsələ də var. Onun fikrincə, elmin hər hansı bir sahəsində kəşf ediləndə, hər şeydən öncə, onun tətbiqinin əxlaqi nəticələri barədə fikirləşmək lazımdır. Onun narahatlığının səbəbi ediləcək kəşflərin ictimai nəticələrinin insanlığın mənafeyinə təsiri məsələsidir. Başqa sözlə, şairə görə, gərək elm əxlaqa xidmət etsin, əxlaq isə öz növbəsində elmi tamamlasın [2].

D B YYAT

1. Qarayev Y. Azərbaycan ədəbiyyatı:XIX və XX yüzillər. Bakı, "Elm", 2002. 740 s.
2. Qarayev Y. Tarix:yaxından və uzaqdan.Bakı, "Sabah", 1995, 712 s.
3. İbrahimov M. "Azərbaycanın Bəxtiyarı" səh. 14
4. Gündoğdu B.Bəxtiyar Vahabzadənin publisistikasl.Avtoreferat.Bakı, 2010.
5. Vahabzadə B.Sandıqdan səslə

I BEYNƏLXALQ BƏXTİYAR VAHABZADƏ SİMPOZİUMU

VAHABZADƏNİN DRAMATURGİYASI

Qafqaz Universiteti, 13-15 dekabr 2012-ci il

YEN TEATR DÜ ÜNC S V B XT YAR VAHABZAD DRAMATURG YASININ POET KASI

A ayeva N rmin K rim qızı

Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun
"Teatr, kino və televiziya" şöbəsinin aparıcı elmi işçisi
nermine2014@mail.ru

XÜLASƏ

Quruluşçu rejissor Bəhram Osmanov "Hara gedir bu dünya?" üçün tapdığı forma və üslubu əvvəldən axıra qoruyub-saxlayaraq tamaşada bütövlüyə nail ola bilir, həm bədii tərtibatı, həm musiqisini, həm də aktyor ifasını bir tonda köklәyərək, hadisələrin ritmik və dinamik inkişafını, ahəngdarlığını təmin edirdi.

Nə ilə, nədən, haraya gedir bu dünya? Nə verir insanlara? Nəyi alır onlardan? Bu gedişlə sonda nə gözləyir bizi? Bütün bu suallar B.Vahabzadənin "Hara gedir bu dünya?" əsərinin tamaşasında adamları dərindən düşündürür, ayrı-ayrı məqamlarda gah qorxu, gah nifrət, gah ümid dolur qəlblərə. Axı dünya nədir? Dünya sənsən, dünya mənəm, dünya odur, dünya bizik. Dünyanı dəyişən, onu gözəllik aləminə çevirən də insandır, eybəcərlik yuvasına çevirən də. Mənəvi cəhətdən yoxsul, eybəcər, təbiəti etibarilə riyakar, qorxaq, həm də yırtıcı olan üzdəniraq insanların dünyası heç kəsə xoşbəxtlik gətirə, aydın bir sabaha istiqamət götürə bilməz. Dünyanın istiqaməti cəmiyyətin ictimai, iqtisadi, siyasi problemləri ilə bağlıdır. Mənəvi-əxlaqi cəhətdən yıpranmış, "dağıt, məhv et, parçala" prinsipi ilə yaşayan, "mən tox olum cümlə-cahan batsa da batsın" deyən, hamını özündən asılı etmək istəyən, istedadlara quyu qazan, yaxşını məhv edən yırtıcı təbiətli adamcıqlar dünyanı xoş günə apara bilməz.

Bütün bu fikirlər aydın bir süjet boyunca cərəyan edən hadisələrin təbii axarında, xarakterlərin iş və hərəkətlərində, danışıq və rəftarında özünü biruzə verirdi. Vahid ideya ətrafında, böyük şövq və həvəslə çalışaraq kollektiv təsirli və ibrətamiz bir tamaşa ortaya qoymuşdu. Tərəf-müqabil olan bütün personajlar arasında anlaşıqlıq, güclü duyum tamaşanı bütöv qavramağa sövq edirdi.

Professor İnqilab Kərimov "Hara gedir bu dünya?" tamaşası barədə "Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri" kitabında yazır: Quruluşçu rejissor Bəhram Osmanov, rəssam Arif Əbdürrəhmanov, bəstəkar Adil Bəbirov və əsas rollarda çıxış edən Ramiz Novruzov (Laçın), Zenfira Əliyeva (Nərgiz), Yaşar Nuri (Şahbaz), Kamal Xudaverdiyev (Ulu əcdad), Hacı İsmayılov (katib-robort), Əsgər Məmmədoğlu (Vəlizadə) müəllif fikrinin tamaşaçıya dəqiq, aydın şəkildə çatması üçün ciddi yaradıcılıq işi aparmış və qarşıya qoyduqları məqsədə nail olmuşdurlar" [1].

B.Vahabzadə yaradıcılığı üçün xarakterik olan ikinci səs məqamı bu pyesdə özünəməxsus şəkildə üzə çıxırdı. Burda vicdanın səsi rolunda Ulu əcdad (Kamal Xudaverdiyev) çıxış edirdi. Laçın (Ramiz Novruzov) kəşf etdiyi "Qorxu formulu"ndan imtina etmək istədiyi an onu heç kim başa düşmür. Bu an Ulu əcdad köməyə gələrək, bəşəriyyət üçün qorxulu olan bu kəşfin saxlandığı qovluğu yandırmağı ona məsləhət görür: "Sənin susmağın hardasa razılıq əlamətidir. Nə qədər susub cavab verməyəcəksən? Olmazmı ki, birdəfəlik məsələni kəsəsən? Açıq-aydın, mərdi-mərdanə kəşfindən imtina etdiyini bildirəsən? Əgər mənə verdiyin sözdən qaçsan, atomu kəşf edənlər kimi sonradan peşiman olacaqsan". Respublikanın əməkdar artisti Kamal Xudaverdiyev müəllifin və rejissorun fikrini tamaşaçıya çatdırmaq üçün gərgin yaradıcılıq işi aparmışdı.

Akademik Milli Dram Teatrında təmir işləri başa çatdıqdan sonra "Hara gedir bu dünya?" tamaşası yenidən teatrsevərlərin ixtiyarına verilmiş, 1997-ci il noyabrın 7-də göstərilən tamaşaya mərhum prezidentimiz Heydər Əlirza oğlu Əliyev də baxmış və tamaşa haqqında öz təəssüratlarını söyləmişdir: "Mən bu tamaşanı çox böyük maraqla, həvəslə izlədim. Əsərin daxili mənası, məzmunu, şübhəsiz ki, çox əhəmiyyətlidir. Məndə belə bir təsəvvür yarandı ki, bu fəlsəfi, psixoloji bir əsərdir, eyni zamanda elmi əsərdir. Bu əsərdən doğan məna ondan ibarətdir ki, gərək hər bir insan nə olur olsun, paklıq, mənəvi saflıq, mənəvi təmizlik uğrunda mübarizə aparsın. İnsana xas olan mənfi keyfiyyətlərdən insanları xilas etməyə çalışsın. Şübhəsiz ki, bizim həyatımızda indi çox müsbət cəhətlər var. Bizim müstəqil dövlətimiz var. Biz həyatımızı yenidən qururuq, dövlət quruculuğunun yeni prosesi gedir. İqtisadiyyatımız yenidən qurulur. Bunlar hamısı həyatın müsbət cəhətləridir. Amma bununla yanaşı, bu əsərin ana xətti olan Xeyirlə Şər yan-yanadır, bu həyatı zibilləyən mənfi cəhətlər var və təəssüf ki, onlar azalmayıb, əksinə artıb və artmaqdadır. Çox gözəl bir əsər yaratmısınız. Bu vacibdir. Bu mövzu bu gün də on il bundan sonra da aktual olacaqdır".

[1] İnqilab Kərimov. Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri. Bakı, Maarif, 2002, s.57.

Bəhram Osmanovun hazırladığı B.Vahabzadənin "Hara gedir bu dünya?" pyesinin ilk tamaşasından sonra dəfələrlə səhnədə göstərilməsi onun uğurlu alındığını göstərirdi. Yetkin dramaturqun zəmanəmiz haqqında, həyat və insanlıq barədə düşüncələrinin, bəşəri narahatlığının səhnə təcəssümü aktual olub, teatrın repertuarında öz layiqli yerini tutdu.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra, milli vətəndaşlıq mövqeyi ilə həmişə seçilmiş B.Vahabzadə yaradıcılığında yeni mövzular geniş yer aldı. Milli tarixin əvvəllər qadağa qoyulmuş səhifələrinə baş vuran şair-dramaturq Azərbaycan varlığınının dərin qatlarına nüfuz etdi. Məhz bu yaradıcılıq axtarışlarının bəhrəsi olan "Özümüzü kəsən qılınc" ("Göytürklər") tarixi pyesi meydana gəldi və ilk tamaşası 1998-ci il aprelin 10-da rejissor Ağakişi Kazımovun quruluşunda Akademik Milli Dram Teatrında göstərildi. Azərbaycan Demokratik Cümhuriyyətinin 80 illiyinə həsr olunan bu pyesdəki hadisələr 1450 (1368) il bundan əvvəl ulu əcdadlarımız Birinci Göytürk dövlətinin istiqlal uğrunda Çinə qarşı apardığı mübarizədən bəhs edir.

Azərbaycan tarixinin yeni səhifələrinin yazıldığı bir zamanda yaradıcılığında daha çox monumentallığa üstünlük verən quruluşçu rejissor Ağakişi Kazımovun bu əsəri də klassik üslubda səhnəyə gətirməsi qanunauyğun idi. Material da buna tam cavab verirdi. Tarixi sənədlər əsasında yazılan, 2 hissədən və 12 şəkildən ibarət olan pyesdə tarixi şəxsiyyət olan Gur Şadın Birinci Göytürk dövlətinin istiqlalı uğrunda mübarizəsindən söz açılırdı. "Özümüzü kəsən qılınc" ("Göytürklər") faciəsində Bumin Xaqanla onun qardaşı İstemi Xaqanın hakimiyyətlərindən sonra zəifləmiş, dağılmaq təhlükəsi qarşısında qalmış Göytürklər dövlətinin ikinci dəfə yüksəlişi diqqət hədəfindədir.

Tamaşa barəsində təəssüratlarını qələmə almış xalq yazıçısı Hüseyn Abbaszadə göstərir ki, "Faciənin mötərizədə yazılan ikinci adı "Göytürklər"dir. Çoxları bilmir ki, nə üçün əcdadlarımıza Göytürklər deyirdilər. Mən bunu dəqiqləşdirməkdən ötrü bir mötəbər tarixçi alim dostumla söhbət elədim. O, dedi ki, qədim türklər İslam dinini qəbul etməmişdən öncə Günəşə sitayiş edərdilər. Onlar hər gün dan söküləndə yığışıb əllərini göyə qaldırıb Günəşin doğmasını ibadət eləyə-eləyə qarşılıyır, axşamüstü Günəş batanda onu eyni mərasimlə yola salırdılar. Buna görə də onlara Göytürklər deyirdilər" [1].

Göytürk dövləti təhlükə qarşısındadır. Köhnə düşmənləri çinlilər qohumluq əlaqəsindən istifadə edərək, Çulu xaqanın çinli zövcəsinin əli ilə Göytürk dövlətini içindən parçalayıb dağıtmaq üçün min hiyləyə əl atırlar. Əfsus ki, bu ağır, dövlətin müqəddəratı həll olunan bir zamanda göytürklər yumruq kimi bir olub, vətəni, dövləti qorumaq əvəzinə, saray adamları arasında parçalanma baş verir, ölkənin müstəqilliyi, türkün şərəfi, ləyaqəti, ulu əcdadın qoyduğu qanunlar unudulur. Təbiətən böyük olan türk özündən uzaqlaşdıqca cılızlaşır, kiçilir və asanlıqla düşmən tərəfindən məğlubiyyətə uğradılır. Pyesdə və tamaşada gərgin dramatik hadisələr bu tarixi məqamı qeydə alır, o böyük həqiqəti bir daha təsdiqləyir ki, türk özünə qayıdanda böyük və qüdrətli olur və dövlət müstəqilliyini bərpa eləyir.

Göründüyü kimi, müəllif tarixə müraciət etməklə, eyni zamanda bu günümüzlə səsləşən məqamlara, müstəqillik uğrunda çarpışmalara əngəl olan yaxın tarixin hadisələrinə də ayna tutur, yaltaqlıq, tax-tac viruslarının genetik kodlarını açmağa çalışır. Doğma qardaşı Çulu Xaqanın meyidi üstündə hakimiyyətə gələn Qara Xaqan xalqa arxalanmayan bir hakimiyyətin zəif, gücsüz olmasının fərqində deyil. Məğlubiyyətlərə son qoyan Gur Şad isə Bumin və İstemi xaqanların qurduqları səltənətin yolunda sıravi döyüşçü kimi vuruşmağı xaqanlıqdan üstün tutur. Əsərin əsas ideyası da elə özümüzü kəsən gözəgörünməz qılıncların kimlərin əlində olduğunu üzə çıxarmaqdır. Göytürk dövlətini dağıtmaq üçün Çin imperiyasının əl atdığı üsullar qılıncdan daha təhlükəli və kəsərlidir. Bunun məhz fitnəkarlıq, hiylə, riyakarlıq, xəyanət, siyasətdən ibarət olması pyesdən də, yaxın tariximizin hadisələrindən də bizə yaxşı bəllidir. Millətin qanını, dinini, dilini, əlifbasını dəyişməklə, düşüncəsini, mədəniyyətini dəyişmək, onu özünə yadlaşdırmaq bu günümüzlə çox səsləşir.

[1] Hüseyn Abbaszadə. Türk özünə qayıdanda. "Ədəbiyyat" qəzeti, 24 aprel 1998.

"Özümüzü kəsən qılınc" pyesinin ilk tamaşasında iştirak edən Heydər Əliyev əsərə və tamaşaya yüksək qiymət vermişdi: "Tariximizi araşdırıb bu gün üçün əhəmiyyətli, dəyərli olan səhifələrini indiki və gələcək nəsillərə çatdırmağın özü xalq, millət, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir. Bu xidmətə görə mən Bəxtiyar Vahabzadəyə xüsusi təşəkkür edirəm və hesab edirəm ki, millətimiz, xalqımız, cəmiyyətimiz də bu təşəkkür sözlərimə qoşulacaqlar və daim ona minnətdar olacaqlar" [1].

Tamaşa əsarətə, yadelli işğalçılara qarşı mübarizə aparan xalqın istək və arzularının təcəssümü idi. Əqidə bütövlüyü, vətənpərvərlik, mənəvi yenilməzlik tamaşada olduqca aktual və müasir səslənirdi. Tamaşaçının gözü qarşısında cərəyan edən hadisələr, səslənən fikirlər, obrazların hərəkət və əməlləri səhnədə gördüyü ilə 1988-ci ildən bəri yaşadığı neçə-neçə fəlakət və faciələri üzləşdirməyə, xalqımıza, torpağımıza edilən erməni təcavüzünü göz önünə gətirməyə imkan verirdi.

Pərdə açılan kimi səhnənin ümumi tərtibatı Göytürk çadırlarının içini xatırladırdı. Çadırların arxa tərəfi qalxdıqda meydan, meşəlik və qayalıq mənzərəsi görünürdü. İki çadırın ucları arasında iri bir ekran var idi. Ekranda slayd vasitəsilə Göytürklərin Juan-juanları qovması təsvir olunurdu. Qələbəni əks etdirən musiqi sədaları altında tamaşa başlayırdı.

Tamaşanın quruluşçu rejissoru, əməkdar incəsənət xadimi Ağakişi Kazımovun işi yalnız rejissorluq qabiliyyətinə, nikbin əhval-ruhiyyəli, monumental, tarixi qəhrəmanlıq tamaşası yaratmaq bacarığına görə deyil, həm də məhz xeyrin şərə nisbətən çox güclü olduğunu göstərmək iqtidarına görə müsbət qiymətləndirildi. Ümumi ictimai rəyə görə, o, tamaşa yaradıcıları ilə əlbir yaradıcılıq səyi nəticəsində müəllif fikrini tamaşaçıya dəqiq və aydın çatdırmağa nail oldu. Tamaşanın quruluşçu rəssamı İsmayıl Əsədoğlu və bəstəkar Cavanşir Quliyev tarixi-ictimai faciənin sənət dili ilə açılması üçün bütün imkan və istedadlarından yetərincə istifadə etmişdilər.

Rejissor quruluşunda təqdirəlayiq cəhətlərdən biri də tamaşanın klassik üslubda qurulması idi. Ağac öz kökləri üstə dayanıb, qol-budağı isə ətrafa şaxələnmişdi. Yəni əsərdəki hadisələr tarixi qatda saxlanılır, VI-VII əsrlərdəki Göytürk özülü üzərində baş verənlər bu gün də müasirlik ruhunu qoruyub-saxlayırdı.

İnqilab Kərimov "Panorama" qəzetində dərc olunan məqaləsində yazırdı: "Rejissor tamaşanın bu günlə daha yaxşı səsləşməsi üçün əsərin konfliktini, kompozisiyasını və ana xəttini əsas hadisələr xətti ilə bağlı şəkildə açmaqla, obrazların bir-birinə olan münasibətlərini müəyyən edən məqamları aydın göstərməyə çalışmışdır. Quruluşçu rejissor bədii tərtibatdan da, musiqidən də yerli-yerində istifadə etmişdir"[2].Tənqidçi öz məqaləsində tamaşanın pozitiv cəhətlərini göstərməklə yanaşı, öz iradlarını da qeyd etmişdi: "Əvvəla tamaşanın ümumi səhnə mədəniyyətinə irad tutmaq olar. (Hətta bir də görürsən ki, Qara Xaqanın hüzurunda duran sərkərdə əlini belinə vurub). İfaçıların danışıq və tələffüzündə tamaşaçını razı salmayan hallar nəzərə çarpır. Bəzi aktyorlar öz xarici görkəminə, müəyyən səhnə təcrübəsinə arxayın olub, yersiz ədalara, məşrut hərəkətlərə, patetikaya uyur". Fəridə Səfiyeva isə tamaşadan razı qaldığını bildirirdi: "Haradan gəlib, haraya getdiyini bilməyən, yaddaşını itirən, dünənini unudan bir xalqın sabahı yoxdur. Və nə yaxşı ki, müəllifin bu qənaəti tamaşanı hazırlayanların və ifa edənlərin ümumi qənaətinə, vahid ideyasına çevrilə bilmişdir. Səhnədəki bütün aktyorların oyunu bu fikri çatdırmağa, bu qənaəti möhkəmlətməyə xidmət edir".

Əsərin əsas qəhrəmanlarından olan Qara Xaqan rolunu Əlabbas Qədirov oynayırdı. Uzun illərin səhnə təcrübəsi aktyora bu ağır və təzadlı obrazı dolğun yaratmağa kömək edirdi. Qara Xaqan qardaşı Çulo Xaqanın səhvini təkrarlayır. Öz ərini zəhərləyən məkrli İçgen Xatunu özünə arvad etməklə bütün məğlubiyyətlərin və bədbəxtliklərin əsasını qoyur. Qara Xaqan obrazı bütün hadisələrin, vəziyyətlərin keçid nöqtəsində dayanır, bütün obrazlar arasında gedən konfliktdə iştirak edirdi. Xaqan olduqdan sonra o, nəinki ölkənin vəziyyəti, xalqın güzəranı ilə maraqlanmır, əksinə, xaqanlığa vəliəhd olan iki qardaş arasında intriqa yaratmağa və bu yolla

[1] "Xalq" qəzeti, 15 fevral 2009

[2] Göytürk xaqanlığının İstiqlal mübarizəsi. "Panorama" qəzeti, 9 iyun 1998.

onları aradan götürməyə çalışır. Xaqan taxtını əlində saxlamaqdan ötrü, hətta doğma qızının ölümünə, onun ailəsinin dağılmasına, öz körpə nəvəsinin yetim qalmasına bais olur. Qardaşı Çulu Xaqanın vaxtilə əliəyrilik, dələduzluq üstündə işdən qovduğu Salur xanı yenidən ölkənin xəzinədarı təyin edir. Qaynı Yan Çunqu əzizləyərək, orduda yüksək rütbəyə çatdırmağa çalışır. Ə.Qədirov obrazı müstəqim şəkildə oynayır, bədii materiala əsaslanaraq təsvirə üstünlük verirdi. Hətta daxilində xeyirlə şərin timsalı kimi göstərilən Mələk və Şeytanla görüşdüyü anlarda da Ə.Qədirov obrazın müstəqilliyini saxlayırdı. Qardaşı oğlu, həm də kürəkəni Gur Şadla ilk söhbətlərində, qızı Selcanın onu ittiham etdiyi anlarda, Mubi Tərxanın onunla razılaşmadığı məqamlarda belə Ə.Qədirov Qara Xaqana hər vəchlə haqq qazandırmağa çalışırdı. Hadisələrə İçgen Xatunun gözü ilə baxan Qara Xaqan - Ə.Qədirov tamaşanın sonunda özünün səhv yolda olduğunu anlayır. O, başa düşür ki, bu günün tələsik və düşünülməmiş hərəkətləri üçün gələcək nəsillər qarşısında cavab verməli olacaq. Qara Xaqanın özünü qılıncla öldürməsi səhnəsi tamaşanın ideyasının açılmasına xidmət göstərirdi. Bu faciənin labüdlüyü məntiqi bir sualın cavabını düşünməyə vadar edirdi: "Qılıncımız nə vaxtacan özümüzü kəsəcək???".

Xalq artisti Ramiz Məlik Dulu Xaqanı bütün əqli və mənəvi ziddiyyətləri ilə tamaşaçıya təqdim edirdi. Dulu Xaqan ilk səhnədə atasının intiqamını almaq istədiyini söyləsə də, əslində bu intriqa hər şeydən əvvəl vəliəhdlik haqqına çatmaq, taxt-taca yiyələnmək üçün bir vasitə idi. Dulu Xaqan - R.Məlik vətənə xəyanət edir, İçgen Xatuna satılaraq doğma qardaşına dönük çıxır. Öz şəxsi mənafeyi üçün xalqına xain çıxan Dulu Xaqandan arvadı Banu Çiçək də üz döndərir. Ögey anası və ögey dayısının təhrikinə uyub çinlilərin tərəfinə keçərək, öz soydaşlarına qarşı vuruşur. Düşmənlər vətəni işğal etdikdən sonra bu satqınlığın əvəzində onu Göytürk xaqanlığının taxtında əyləşdirirlər. Şəxsi mənafeyi, hakimiyyətə yiyələnmək naminə dədə-baba torpaqlarını, millətini düşmənin tapdağına atan Dulu Xaqanın gec də olsa vicdanı oyanır.

"Özümüzü kəsən qılınc" tamaşasında Göytürk dövlətinin istiqlalı uğrunda mübarizədə əsl qəhrəmanlıq nümunəsi göstərən obraz Gur Şaddır. Bu qeyrətli türk oğlu, pak insan qəsdən böhtana salınır, təmiz adı ləkələnir, sevimli arvadı intihar edir, özü nahaqdan zindana düşür. Milliyyətcə çin olan ögey anasının və qardaşının xəyanəti nəticəsində məğlub olan Göytürk xaqanlığı qonşu Çin xaqanlığına qatılır. Lakin Gur Şad əsirlikdə belə əsarətə dözməyib, üsyan qaldırır, soydaşlarını düşmən əsarətindən azad edərək ana yurduna qayıdır və işğalçılarla ölüm-dirim mübarizəsinə başlayır. Nurəddin Mehdixanlının oynadığı Gur Şad obrazı sinəsində xalqına məhəbbət dolu bir ürək gəzdirən, vətəninin xoş sabahı, azadlığı üçün canını belə əsirgəməyən, təmiz ürəkli, mərd, cəsarətli, mənəvi-əxlaqi keyfiyyətlərə malik bir gəncdir. Gur Şadı nə taxt-tac, nə var-dövlət, nə də atasını8eRP

Qadın rollarını ifa edən aktrisalar obrazlarının daxili və xarici görüntülərini ustalıqla yaradırdılar. Əməkdar artist Zemfira Nərimanova Banu Çiçək obrazını gözəl ana, ləyaqətli qadın, qeyrətli vətəndaş, həm də cəsur döyüşçü kimi tamaşaçılara təqdim edirdi. Gur Şadın daxili bütövlüyünü, əxlaqi təmizliyini, qəhramanlığını sevən bir qadın qəlbinin hərarəti ilə qiymətləndirən Selcan rolunda aktrisa Məleykə Əsədova duya-duya çıxış edirdi. Əri Gur Şadın qəhrəmanlığını, şücaət və cəsurluğunu, Vətənin istiqlalı yolunda döyüşlərdə fədakarlıq nümunəsi göstərdiyini görən və bunu yüksək qiymətləndirən Selcan - M.Əsədova gözəl, ismətli, həm də şər qüvvələrə qarşı cəsarətlə çıxış edən gənc bir qadın obrazını tamaşaçılara sevdirirdi.

Laləzar Mustafabəyli tamaşada İçgen Xatun obrazını istedadının bütün qüvvəsi ilə yaradırdı. İçgen Xatun faciədəki ən mürəkkəb, ən çətin qadın obrazıdır və tamaşada mühüm yer tuturdu. Qara Xaqan Göytürk dövlətinin başında dursa da, əslində İçgen Xatun hər işi əlinə alıb dövləti istədiyi kimi idarə eləyir. Onun fitnəkar əməlləri məharətlə qurduğu tələlər nəticəsində Göytürk xaqanlığının müsibətli günləri başlayır. L.Mustafabəyli düşünülmüş oyunu ilə Selcanın ona dediyi "Cəsusluqla Xatunluğu məharətlə birləşdirirsən" sözlərini tam təsdiqə yetirir və obrazın iç üzünü açırdı. L.Mustafabəylinin İçgen Xatun obrazının yerişində bir böyüklük, hökmdarlıq iddiası, özünün gözəlliyini nümayiş etdirmək, həm də cəsuslara məxsus bir astagəllik vardı. Onun qədim çin zadəgan qadınlarına məxsus narın-narın yerişi, naz-qəmzəli, həm də bir az təkəbbürlü baxışları, özünə arxayın danışıq tərzi obrazın məkrli aləmini, hiyləgər xislətini açmağa xidmət edirdi. Aktrisanın müvəffəqiyətinin əsası onda idi ki, öz qəhrəmanını vətən təəssübkeşi kimi verməyə nail olmuşdu. Obrazın daxili hisslərini, arzularını öz ifasına hopduran L.Mustafabəyli - İçgen Xatun öz vətəninin - Çinin rifahı üçün cinayətə belə əl atır. "Laləzar xanım İçgen Xatunun həm xarici əlamətlərini - geyimini, yerişini, baxışını, mimikasını, həm də daxili aləmini - xarakter xüsusiyyətlərini, xasiyyətini, niyyətini, düşüncə tərzini düzgün müəyyənləşdirmiş və səhnə şərhini vermişdir" .

Tamaşanın sonunda çinlilərlə müharibədə neçə-neçə qurban verib öz dövlət müstəqilliyini bərpa edən Göytürklər sual qarşısında qalırdılar. Xaqanlığa kimin başçılıq etməsi məsələsi ortaya çıxırdı. Buna hüququ çatan iki qardaş - Gur Şad və Dulu Xaqan hakimiyyətdən imtina edirdi. Bundan sonra hamının istəyi və qərarı ilə Gur Şadın beş yaşlı oğlu İltəriş vəliəhd elan olunurdu. Göytürk xaqanlığının rəmzi olan qılıncı vəliəhdə təqdim etmək isə Dulu Xaqana həvalə olunurdu.

Tamaşada ilk baxışdan adi görünən İltəriş epizodu böyük məna daşıyırdı. İltəriş rolunu ifa edən balaca Rəsul Həsənzadənin oyunu xoş əhval doğururdu. Əmisi Dulu Xaqan qılıncı İltərişə təqdim edəndə Rəsul döyüşlərdə bərkimiş əsgər kimi qamətini şax tutub əllərini irəli uzadaraq qılıncı alanda, tamaşaçı inanırdı ki, Göytürk xaqanlığının qılıncı etibarlı əllərdədir, qatı düşmən türk oğlunu diz çökdürə bilməz. Səhnənin dərinliyindən gələn səslər - Ey Türk! Silkələn, özünə qayıt! Sən özünə qayıdanda böyük olursan - sözləri ilə tamaşa başa çatırdı.

Ustad dramaturqumuz B.Vahabzadə "Özümüzü kəsən qılınc" dramında bir daha sübut etdi ki, nə qədər öz qılıncımız düşməni deyil, özümüzü kəsəcək, türk böyük ola bilməyəcək. Türkün gücü, türkün böyüklüyü onun birliyindədir.

Pyesin ilk tamaşasından on bir il keçməsinə baxmayaraq, bu tamaşaya hələ də tamaşaçı marağı azalmayıb. Azərbaycan prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türk dövlət və cəmiyyətlərinin Bakıda keçirilən XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının iştirakçıları 17 noyabr 2007-ci ildə "Özümüzü kəsən qılınc" tamaşasına baxmışlar. Tamaşa qurultay iştirakçılarının böyük marağına səbəb olmuş və yüksək qiymətləndirilmişdi.

"Özümüzü kəsən qılınc" tarixi pyesini xalqımızın tarixi taleyi haqqında səhnədən səslənən cəsarətli monoloq da adlandırmaq olar. Bu pyesdə tarixin özü müasirliyin təhlili üçün bədii materiala çevrilərək, fəlsəfi-analitik ümumiləşdirməyə səbəb olur, müasir teatr təfəkküründün işığında reallıq kəsb edir.

Göründüyü kimi Bəxtiyar Vahabzadə dramaturgiyası Azərbaycan milli teatrının inkişafında mühüm rol oynamış və yeni teatr düşüncəsinin formalaşmasına təkan vermişdir.

B XT YAR VAHABZAD YARADICILI INDA TAR X DRAM JANRI

Z min Axundova

f.d., Qafqaz Universiteti,Mədəniyyət şöbəsi,
Bakı /AZƏRBAYCAN
zaxundova@qu.edu.az

XÜLAS

Dramaturgiyanın tarixə müraciəti adi tarixi ekskursiya deyil, xalqın tarixinə qayıdışdır, onun həm dünəninə, həm sabahına səyahətdir. Tarixi mövzuya müraciət edən dramaturq dövrün tələbini, inkişafın əsas meylini nəzərə alır və onu həyəcanlandıran məsələləri qaldırır.

Bəxtiyar Vahabzadənin tarixi dramlarında biz tarixin konkret hadisələrini, tarixi şəxsiyyətləri, həm də əsrin fikirlərini, ehtiraslar mübarizəsini görürük. Dramaturqun "Dar ağacı", "Fəryad" "Özümüzü kəsən qılınc" tarixi dramları mövzusu, tarixi hadisələri konkret məzmunlarda əks etdirmək baxımından və həm də bədii xüsusiyyətləri, sənətkarlıq məsələlərinə görə ədəbiyyatımızın uğurlu ədəbi nümunələridir. Bu dramlarda tarixi həqiqət bədii həqiqətə çevirilmiş, real faktlara söykənərək yazıçı təxəyyülünün məhsulu kimi təqdim edilmişdi. Tarixi dramaturgiyaya gətirmək istəyi dramaturqun tarixi həqiqətləri duymaq, bilmək və əks etmək kimi yüksək məqsədindən doğurdu. Məhz bu baxımdan dramaturqun tarixi dramlarının özünəxas bədii ifadəsi, sənətkarlıq prinsipləri vardır.

C.Cabbarlının xatirəsinə ithaf etdiyi "Dar ağacı" pyesi Bəxtiyar Vahabzadənin qələmə aldığı ilk tarixi dramıdır. Xalqın tarixi taleyi, bu taleyi özlərində, mübarizələrində əks etdirən insanların xarakteri və qayələri, nəcib insani xüsusiyyətləri Vahabzadə dramaturgiyasının əsas fəlsəfi-estetik düşüncələridir.

Ədəbi şəxsiyyətlərə bədii-tarixi münasibət dramaturgiyamızda ən qüvvətli ənənələrdəndir. Bəxtiyar Vahabzadə "Fəryad" tarixi faciəsi ilə dramaturgiyamıza ədəbi-bədii şəxsiyyətlərə ənənəvi münasibətlə yanaşı müasir forma da gətirdi. Göytürk dövlətinin 1450, Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş "Özümüzü kəsən qılınc" tarixi faciəsində tarixin özü müasirliyin təhlili üçün bədii materiala çevrilmiş, B.Vahabzadə tərəfindən tarixin fəlsəfi-analitik tədqiqatı dramaturgiyaya keçid almışdır.

Açar sözl r: Bəxtiyar Vahabzadə, dramaturgiya, tarixi dram əsərləri, pyeslər.

Tarixi həqiqət və tarixi realizm insanların həyat və mübarizəsi ilə bağlı olduğu üçün onu yalnız həyatın içində, cəmiyyətin gündəlik mübarizəsində dərk etmək mümükndür. Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, Bəxtiyar Vahabzadə 60-cı illərdən başlayan milli azadlıq hərəkatının öncüllərindən biri idi. "Yarım o tayda, yarım bu tayda qaldı" deyə Araz dərdindən, ikiyə bölünmüş Azərbaycanımızın ərşə dayanan fəryadından, dilimizin qollarına qandal vurulmasından yana-yana danışan şairin Azərbaycanın birliyi və istiqlaliyyəti uğrunda çarpışan Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin əziz xatirəsinə ithafən 1959-cu ildə yazdığı "Gülüstan" poeması ədəbiyyatımızın qeyrət rəmzi oldu. Bu əsərlə onun taleyinə qara bir nöqtə də qoyula bilərdi. Ancaq "Gülüstan" öz müəllifinin adını o taylı-bu taylı Azərbaycanımızın ürəyinə əbədi olaraq həkk etdi. O, Sovet rejimində milli varlığı tapdanan, hər cür məhrumiyyətlərə məruz qalan millətin dərdlərini rəmzlər və müxtəlif ədəbi üsullarla ifadə etmiş, iri həcmli poemaları və pyeslərində hadisələri ya tarixə, ya da başqa ölkələrə keçirərək öz millətinin dərdlərini dilə gətirmişdi. Birbaşa Sovet diktaturasını ifşa edən əsərlərini isə şair, sovet ittifaqı dağılandan sonra "Sandıqdan səslər" başlığı altında nəşr etdirmişdir.

Vahabzadənin tarixi dramlarında biz tarixin konkret hadisələrini, tarixi şəxsiyyətləri, həm də əsrin fikirlərini, ehtiraslar mübarizəsini görürük. Dramaturq dövrün tələbini, inkişafın əsas meylinin nəzərə alır və onu həyəcanlandıran məsələləri qaldırır. O öz qəhrəmanlarını daima inkişafda, çətin mübarizə şəraitində verir, bu mübarizədə mətinləşən, dünyagörüşü inkişaf edən, mənəvi cəhətdən zənginləşən qəhrəman tarixin yaradıcısına çevrilir.

Dramaturgiyanın tarixə müraciəti adi tarixi ekskursiya deyil, xalqın tarixinə qayıdışdır, onun həm dünəninə, həm sabahına səyahətdir. B. Vahabzadənin tarixi dramları mövzusu, tarixi hadisələri konkret məzmunlarda əks etdirmək baxımından və həm də bədii xüsusiyyətləri, sənətkarlıq məsələlərinə görə ədəbiyyatımızın uğurlu ədəbi nümunələridir. Bu dramlarda tarixi həqiqət bədii həqiqətə çevirilmiş, real faktlara söykənərək dramaturq təxəyyülünün məhsulu kimi təqdim edilmişdi. Tarixi dramaturgiyaya gətirmək istəyi onun tarixi həqiqətləri duymaq,

bilmək və əks etmək kimi yüksək məqsədindən doğurdu. Məhz bu baxımdan dramaturqun tarixi dramlarının özünəxas bədii ifadəsi, sənətkarlıq prinsipləri vardır.

Tarixi dramlarda dövr, zaman ayrıca bir tərəfdir. Obrazlar öz dövrü ilə bağlıdır. Bu dram əsərlərində başlıca amil insandır. Digər janrlardan fərqli olaraq burada, dialoqlar vasitəsi ilə yaranan dramatik və psixoloji vəziyyətlər, insanın daxili aləminin üzə çıxması (mənfi və ya müsbət), dialoqlararası ziddiyyətlər daha qabarıq əks olunur. Çünki, burada əsərin qəhrəmanı yaşadığı dövrün, zamanın tarixi ədəbi şəxsiyyətidir.

Hadisələrin və münasibətlərin təbii məzmununun ifadəsi tarixi dramlara xas olan əsas sənətkarlıq xüsusiyyətlərindəndir. Şərtiliklə tarixlik arasında qarşılıqlı münasibətlərin məhz "Fəryad"da büllurlaşan məzmunu və nisbəti öz ifadəsini hələ "Dar ağacı"nda tapmışdı. Müəllifi tarixi mövzuya gətirib çıxaran bədii niyyətin orijinallığı da ilk dəfə burada özünü göstərmişdi. Belə ki, bu pyesdə Babək xatırlanır, talelərə və əməllərə onun ruhu və qəh-qəhələri ilə yekun vurulur, lakin süjetin əyani gedişi prosesində onun özü yox, teyfi iştirak edirdi.

Bəxtiyar Vahabzadənin C.Cabbarlının xatirəsinə ithaf etdiyi “Dar ağacı” pyesi “Od gəlini”-nin bir növ davamıdır. C. Cabbarlı “Od gəlini” əsərində milli tariximizin böyük və mürəkkəb bir dövrünü əks etdirmişdi. Lakin bu əsər 1920-ci illərin – Cabbarlı dövrünün məhsulu olduğu üçün onun əsas ideyası, tarixilik əhəmiyyəti tam düzgün işıqlandırılmamışdı. Bununla belə, əsərlərində tarixi yaşadan dramaturqun səpdiyi toxum əsrin sonlarında cücərə bildi. C. Cabbarlı ideyalarının davamı olaraq B. Vahavzadənin “Dar ağacı” tarixi dramında Babəkin edamından sonrakı dövr əks olunub. Bu tarixi əsərin məzmununda bir həqiqət durur. Bu həqiqətə görə millətdən ayrı düşən, onun taleyinə biganə olanları sonda dar ağacı gözləyir.

B.Vahabzadə dramaturgiyasında tarixi məsuliyyət hissi çox güclüdür. Hökmdar və xalq… Hakimiyyət və idarə…Kütlə və fərd… «Dar ağacı»nın leytmotivini təşkil edir. Əslində müəllifin müraciət etdiyi tarix, dövr, mərhələ heç də keçmiş deyil, bu gün, hətta sabahdır. Bu günün suallarına tarixin fonunda cavab almaq üçün «Od gəlini»nin epiloqunun bitdiyi yerdə proloqu başlayan «Dar ağacı» xalqdan uzaqlaşanlara qarşı bir ittihamdır, ibrət dərsidir.

Xalq qəhrəmanı, yadelli işğalçılara qarşı 20 illik mübarizə aparan Babəkin edam edilməsindən sonra Azərbaycanda cərəyan edən azadlıq mübarizəsi əsərin ana xəttini təşkil edir. "Dar ağacı"nda baş verən əsas konflikt iki qardaş arasında davam etdirilir. Bir xətt üzrə hadisələrin cərəyanı zahirən Azərbaycanla xilafətin, yadellilərin mübarizəsində öz əksini tapır. Pyes Babək dara çəkiləndən sonra ərəb valisi tituli ilə Vətənə-Azərbaycana qayıdan Aqşinin hakimiyyətə qədəm qoyması mərasimi ilə başlayır və onun hakimiyyətdən salınıb qətlə yetirilməsi ilə sona çatır.

Oxucu üçün Aqşin xəyanətkar, həm də xəyanətlərə görə özünə dar ağacını layiq bilən insan, övladını atan, onun taleyi ilə maraqlanmayan rəzil bir ata, həm də ürəyində övlad məhəbbəti alovlanan, övlad təəssübü çəkən bir insan, doğma anasının arzularına xilaf çıxan bir sərkərdə, həm də «ana haqqı tanrı haqqıdır» deyən təzadlı obrazdır. Hələ gənc ikən qadın şərəfini ləkələmiş, artıq öz elinə xilaf çıxmış Aqşin el tənəsindən uzaqlaşmaq üçün islam ordusuna pənah gətirmişdi. İslamın yaşıl bayrağı altında çıxış edən Aqşini doğma vətənin taleyi düşündürmür, onu yalnız ərəb xilafətinin göstərişləri, verdiyi əmrlər maraqlandırır. 816-cı ildən 836-cı ilə qədər ərəb xilafətinə qarşı döyüşən Elxan isə qardaşı Aqşinin əksidir. Onun Azərbaycanın azadlığı uğrunda yadelli işğalçılara qarşı apardığı mübarizə bütün əsər boyu davam edir. İki qardaş arasında baş verən hadisələr yalnız iki nəfərə aid deyil, iki ideya, məfkurə arasında gedən mübarizədir.

Aqşinin vətənə dönüşündə həm də bu xalqdan qisas almaq istəyi var idi. Cöründüyü kimi, Aqşin obrazı heç də C.Cabbarlının «Od gəlini» pyesindəki eyniadlı personajın təkrarı deyil. Onların arasında böyük fərq var. Əgər «Od gəlini»ndə Elxanı Aqşindən əqidə və məzhəb yönümü ayırırdısa, «Dar ağacı»ndakı Aqşini xalqdan daha dəhşətli keyfiyyətlər ayırır. O, həm oğul, həm ailə başçısı, həm də hökmdar kimi satqındır. Aqşin yaddellinin təşəkkürünü qazanmaq üçün öz xalqına düşmən kəsilən bir bədbəxtdən «ruhən dirilib, cismən ölən» bir insana doğru dəyişir. Aqşin yalnız bir rəngdə-xəyanətkar və qaniçən zalım kimi təqdim edilmir, onun faciəsi adi aldanışın insanı düçar etdiyi şəxsi faciə deyildi, bu faciənin kökü xalqın taleyindən

keçirdi. Aqşin ilk günlərdən anlayır ki, ocağa xəyanətin haqqı kimi ona verilən valilik titulu onu kölə bir hökmdara çevirib.

Əsərdə vətənini, elini, obasını qiymətləndirməyən, onun qədrini bilməyən, yadelli işğalçı qəsbkarın bir "sağ ol"una görə vətəninə, elinə, ana yurduna, xalqına xor baxan Aqşinin taleyi faciə ilə qurtarır. Y.Qarayev bununla əlaqədar yazırdı: "Aqşinin müsibəti adi aldanışın, yaxud nəfisin insanı (sərkərdəni, hökmdarı) qəflətən düçar etdiyi şəxsi müsibət deyildir. Aqşinin müsibətinin ictimai kökü sosial əsəbi xalqın taleyindən gəlib keçir, Vətənin, torpağın taleyində əks olunur. Yurdun təkcə torpağı, sərvəti yox, namusu da talanır: Karvan-karvan el malı, dəstə-dəstə qız-gəlin Bağdada xilafət səltənətinə ruhani ataya kəniz göndərilir"[1].

Faciəvi təzadı artıran ən sarsıntılı an Ananın ittihamıdır. Bu ana öz ölən oğlunun intiqamını öldürən oğlundan istəyir. Şah anası ilə Babək anası üz-üzə durur. Bu obraz zamandan, eləcə də analıq hisslərindən yüksəkdə dayanırdı. Ana qeyrətli, namuslu, zəhmətkeş, xalqın təəssübünü çəkən, elin adət və ənənələrinə hörmətlə yanaşan mərd Azərbaycan qadınıdır. O, müqəddəs ocağın qırağında süd verib, layla çaldığı oğlu Aqşini xalqa xəyanət etdiyinə görə bağışlamır. Əsərin sonunda Ananın «Ərəblər Babək balamı onlara düşmən olduğu üçün asdılar, Aqşin balamı isə yenə ərəblər, onlara qulluq göstərdiyinə görə asmaq istəyirlər»[2] sözləri dramaturqun bu obraz vasitəsilə müasir siyasi Azərbaycan gerçəkliyinə münasibətidir.

Aqşinin vəziri Ibn Tahir- tülkü Taybuğa da onun özü kimi satqındır. Gündə bir din, Vətən dəyişən Ibn Tahir obrazı əqidəsiz bir insandı. Əvvəl atəşpərəst, sonra xaçpərəst, musəvi, daha sonra müsəlman olan bu fərarinin xarici görkəmi dəyişdikcə daxilindəki eybəcərliklər daha aydın görünürdü.

Sabutay Babəkin oğludur. Böyüdüyü mühit, aldığı tərbiyə Sabutayın dünyagörüşünə öz təsirini göstərmişdi. Obrazın qəflətən, sürətlə böyüyən psixologiya və əhvali-ruhiyyəsi inandırıcı təsir bağışlayır. Aqşinin ciddi-səylərinə baxmayaraq o,öz atasının əqidəsini «insanı qəhrəmanlıq səviyyəsinə ucaldan əqidə» adlandırır. O,əmindir ki, atası Babək «əsl qəhrəman kimi savaşmış, qəhrəman kimi də ölmüşdür».

Çılğın obrazının xarakteri sanki bu surətin adında öz təcəssümünü tapır. Çılğın pak, təmiz, ruhuna düzlük, halallıq, ucalıq, əyilməzlik hopmuş, xalq içindən çıxmış bir qızdır. Onun özünəməxsus aydın dünyagörüşü, düşüncə tərzi vardır. Çılgın «Biz nə bədbəxt nəslin övladlarıyıq, iki qardaş bir-birinə düşmən, biri satqın, biri sadiq, sadiq qardaşdan olan övlad satqın, satqın qardaşdan olan övlad sadiq, məhbus…»[3] deyərək oxucunu dərindən düşündürür, onun gözləri qarşısında sanki iki aləm açırdı.

Müəllifin əsas qayəsi də bu sözlərlə işıqlanırdı. Iki dünya, iki övlad, iki gənc və iki dünyagörüşü arasında olan fərq diqqətdən yayınmır. Öz əməlindən qürur duyan bu gəncin həyat haqqındakı fikirləri adamın qəlbini riqqətə gətirir. Onun gözətçinin: «Bəs nə zaman həyat həyat olur?» sualına verdiyi: «Öz həyatından keçməyə hazır olduğun zaman»[4] cavabı oxucuya həyat fəlsəfəsini öyrədir. Oxucuda Çılğının itkisi çox dərin izlər buraxsa da, obraza məxsus mübariz bir keyfiyyət, nikbin ruh qəlblərdə yaşayır.

Babəkin hiçqırtıları ilə bitən pyes bir daha sübut etdi ki, tarix xəyanəti bağışlamır. Azadlıq yanğısını öz qılıncı ilə söndürən Babək əsərin taleyindən kənarda qalmamışdı. Bu obrazın hadisələrin fonunda pyesə müdaxiləsi əsərin ideya və məzmununun düzgün qavranılmasına kömək edirdi. «Azad bəşəriyyət» yanğısı ilə hayqıran, car çəkən Babək qəhrəman, yenilməz, el oğludu.

C.Cəfərov «Od gəlini» tamaşası haqqında belə yazırdı: «Burada sənədlərə əsaslanan bir tarix və tarixi şəxslər yoxdur. Bununla belə, əsər ruh etibarilə tarixidir…»[5]. «Dar ağacı» pyesində isə tarix, tarixi şəxsiyyət olan Babəkin teyfi ilə Aqşinin «mən»i arasındadır. Eyni bir

[1] Qarayev Y. Meyar-şəxsiyyətdir. Bakı:Yazıçı, 1988,451 s
[2] Vahabzadə B. M. Hara gedir bu dünya? : Pyeslər/ Bakı : Azərbaycan , 2001, 384 s.
[3] Vahabzadə B. M. Hara gedir bu dünya? : Pyeslər/ Bakı : Azərbaycan , 2001, 384 s.
[4] Yenə orada
[5] Cəfərov C.H. Azərbaycan Dram Teatrı (1873-1941). Bakı: Azərnəşr, 1959,416s

insanlığa cəllad olan Zahid öz əshabələri ilə işıqlı ideyalara, haqq səslərə qənim kəsilmişdi. Ruhən nəsimiçilərə doğmalıq göstərib, onlara qoşulmuş oğlu Dəyanətin barəsində Zahidin hakim Əmirdən özünə əhv, övladına ölüm dilədiyi epizod əsərin ən təsirli səhnələrindəndir.

Əmir kütbeyin və şüursuz bir obrazdır. Bütün saray adamlarının ona tabe olmasına baxmayaraq, o zamankı saray xadimlərinə xas olan qeyri-müstəqillik, adamı dəhşətə gətirən nadanlıq bu obrazın əsas xüsusiyyətləridir. Hürufiliyin kökünü kəsmək üçün mükafatlar təsis edən Əmir obrazı sonda nəsimiləşmiş sarayın müti hökmdarı kimi təqdim edilir. Öz doğma oğlunun əqidə dönüklüyü onun fəryadına gətirib çıxarır. Əmir "dünya beş gündür, ye, iç, kef elə" fəlsəfəsi ilə yaşayan, məhz (ucalmaq) üçün alçalan, yalana gerçək deyən bir obrazdır.

Oxucu Zahid və Əmir obrazlarının çürüklüyünü Loğman obrazı ilə müqayisədə daha aydın görür. Loğman surəti saxtaya qarşı həqiqət, heçliyə qarşı haqqdır. Oxucuya arif, bilici kimi təqdim edilən Loğman insanın əxlaq və mənəviyyatının dərinliklərindən xəbər verir.

"Fəryad" insanlığı alçaldan fəlsəfə ilə yaşayanların üzərində nəsimiliyin qələbəsi ilə bitir. Poetik –monumental kompozisiyalı dramda tarixi həqiqətlər dünyəvi problemlər zirvəsindən təsvir edilirdi. Pyes oxucunu mübarizliyə, haqqa, ədalətə səsləyirdi.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra vətən tarixini öyrənməyin vacibliyini və ona olan marağın daha da artdığını görən B. Vahabzadə vətəndaş qeyrətini susdura bilmədi. Bu dəfə tarixin daha dərin qatlarına işiq salaraq Azərbaycan adlı varlığın köklərini araşdırmağı qarşısına məqsəd qoydu.

Göytürk dövlətinin 1450, Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş "Özümüzü kəsən qılınc" tarixi faciəsi eramızın 630-cu ilində Çinin dağıtdığı Birinci Göytürk dövlətinin istiqlal uğrunda apardığı mübarizədən bəhs edir. Tarixi sənədlər əsasında yazılmış, 2 hissədən və 12 şəkildən ibarət olan bu tamaşanın ana xəttini tarixi şəxsiyyət olan Gur Şadın Birinci Göytürk dövlətinin istiqlalı uğrunda apardığı mübarizəsi təşkil edir. Gur Şadı nə taxt-tac, nə var-dövlət, nə də atasının vəsiyyəti maraqlandırmır. Onun ən yüksək amalı Göytürk dövlətini azad və müstəqil görməkdir. «Mən həmişə demişəm,yenə deyirəm. Bu taxtda kimin oturmasının mənim üçün heç bir fərqi yoxdur. Mənim üçün vacib olan Vətənimin müstəqilliyidir» [1] deyən «Gur Şadın hakimiyyət məfhumuna dəyişməz münasibəti yeni kontekstdə xarakterin bütövlüyünə dramaturji heykəl qoyur»[2]. Vəzifə hərislərinə bir vətəndaş kimi sübut edir ki, dövlətin mənafeyi şəxsi mənafedən qat-qat yüksəkdədir. Əsərin sonunda Birinci Göytürk dövləti süqut etsə də onun gözlərində ümid işığı sönmür. Göytürk xaqanlığının qılıncının onun oğlu Iltərişə ötürülməsi gələcək yüksəlişdən xəbər verir. Bu epizod tarixi dramlarda artıq ənənə halına keçmiş qəhrəmanlıq, mübarizlik estafetinin davamı kimi diqqəti cəlb edir.

Pyesdə əsas qəhrəmanlardan olan Qara Xaqan təzadlı bir obrazdır. Qara Xaqan qardaşı Çulo Xaqanın səhvini təkrarlayır. Öz ərini zəhərləyən məkrli Içken Xatunu özünə arvad etməklə bütün məğlubiyyətlərin və bədbəxtliklərin əsasını qoyur. Hadisələrə Içken Xatunun gözü ilə baxan Qara Xaqan pyesin sonunda özünün səhv yolda olduğunu anlayır. O, başa düşür ki, bu günün tələsik və düşünülməmiş hərəkətləri üçün gələcək nəsillər qarşısında cavab verməli olacaq. Qara Xaqanın özünü qılıncla öldürməsi səhnəsi əsərin ideyasının açılmasına xidmət edir. Bu faciənin labüdlüyü məntiqi bir sualın cavabını düşünməyə vadar edir: «Qılıncımız nə vaxtadək özümüzü kəsəcək???»

Əsərdə mərkəzi obrazlardan biri də Dulu Xaqandır. Dulu Xaqan vətənə xəyanət edir, Içken Xatuna satılaraq doğma qardaşına dönük çıxır. Xəyanətkar Dulu Xaqan təkcə cəmiyyət tərəfindən deyil, öz ailəsi tərəfindən də rədd edilir. Öz şəxsi mənafeyi üçün xalqına xain çıxan Dulu Xaqandan arvadı Banuçiçək də üz döndərir. Dulu Xaqan çox gec, yadlar onun öz hakimiyyətinə qənim kəsiləndə yanıldığını anlayır. Dulu Xaqanın bir obraz kimi inkişafı prosesi oxucunun gözləri qarşısında baş verir. O, şəkildən-şəkilə düşür, dəyişir, təzadlar içində çırpınaraq, təkmilləşir.

[1] Vahabzadə B.Y. Özümüzü kəsən qılınc // Azərbaycan, 1988,№7, səh74-105

[2] Dadaşov A.Ə.Müstəqillik dövrünün dramaturgiyası. Bakı: «Nağıl evi", 2005, 216 s

«Özümüzü kəsən qılınc» tarixi pyesini cəsarətlə söylənən, xalqın tarixi və taleyi haqqında monoloq adlandırmaq olar. Bu pyesdə tarixin özü müasirliyin təhlili üçün bədii materiala çevrilmiş, B.Vahabzadə tərəfindən tarixin fəlsəfi-analitik tədqiqatı dramaturgiyaya keçid almışdır. Müəllif son dərəcə təzadlı konfliktlərin bədii və obrazlı həlli vasitəsi ilə böyük bir tarixi dövrün ibrətamiz inikasını yaratmışdı. Burada təsvir olunan hadisələr tamaşaçını əsərin sonuna qədər dərin bir həyəcan içərisində saxlayır, onu düşünməyə, bu mürəkkəb münaqişələrin çözülməsi üçün yollar aramağa çağırır.

Tənqidçi Nizami Cəfərov "Bir tamaşa haqqında bir neçə söz" məqaləsində yazır: “Göytürklər"in premyerasından sonrakı geniş müzakirədə mən belə bir arzumu bildirdim ki, bu tamaşa mümkün qədər bütün türk dünyasına çatdırılmalıdır. Çünki müstəqil dövlət quruculuğu yolunda olan müasir türk xalqlarının, demək olar ki, hamısı, haqqında söhbət gedən problemlərlə qarşılaşırlar. Yəni, yalnız biz deyil, iş elə gətirib ki, türkmənlər də, özbəklər də, qazaxlar da, tatarlar da, altaylar da qədim tarixlərindən ayrı düşmüş ortaq etnokulturoloji maraqlarını çox hallarda qeyb etmişlər...”[1]

Ümummilli lider H. Əliyev də bu tarixi əsəri yüksək qiymətləndirmişdi: “Belə bir əsər qədim tariximizin, o cümlədən millətimizin qədim köklərinin tarixinin böyük bir səhifəsini açıb ictimaiyyətə göstərir. Bu mövzunun indiki dövr üçün əhəmiyyətli cəhəti bir də ondan ibarətdir ki, biz köklərimizin türk millətinə qədim türk tarixinə bağlı olduğunu da XX əsrdə ya deməmişik, ya da bunu deməyə cəsarət tapmamışıq. Burada da yenə heç kəsin günahı yoxdur. Sadəcə olaraq tarixi təhrif edənlər insanları bu tarixi köklərdən məhrum ediblər. Nəticə etibarilə deyə bilərəm ki, Bəxtiyar Vahabzadə ümumən türk xalqları səhnəsinə möhtəşəm bir əsər vermişdir - həmin əsər öz böyük missiyasını gərəyincə yerinə yetirir, bundan sonra da yetirəcəkdir".

Beləliklə, nəzərdən keçirilən pyeslərə əsaslanaraq belə bir nəticəyə gələ bilərik ki, B. Vahabzadə bütün poeziyasında olduğu kimi, tarixi pyeslərində də böyük və ciddi həyat məsələləri üzərində düşünən sənətkar olmuşdur. Xalqın tarixi taleyi, bu taleyi özlərində, mübarizələrində əks etdirən insanların xarakteri və qayələri, nəcib insani xüsusiyyətləri görkəmli şairin dramaturgiyasının əsas fəlsəfi-estetik düşüncələridir. B.Vahabzadə dramaturgiyası mövzu cəhətdən tarixi və müasir həyatla bağlı olan pyeslər silsiləsinə şamil edilə bilər. Burada tarixilik və müasirlik vəhdət halında çıxış edir. Bu da böyük şairimizin milli dramaturgiyanın zəngin ənənələrini yaşatmaq əzmini göstərir.

D B YYAT S YAHISI

1. Cəfərov C.H. Azərbaycan Dram Teatrı (1873_1941). Bakı: Azərnəşr, 1959, 416 s
2. Dadaşov A.Ə. Müstəqillik dövrünün dramaturgiyası. Bakı: “Nağıl evi”, 2005,216s
3. Əlizadə M.Ə. Əsrlərin arxasından eşidilən “Fəryad”. “Bakı” qəz., Bakı, 1984, 23 aprel
4. Hacıyev B.C. Dramaturq və tarix. Bakı: Yazıçı, 1985, 178s
5. Hacıyev D.H. Tarixi qəhrəmanlıq dramları. Kirovabad: 1969, 34s
6. Hacıyev D.H.Azərbaycan ədəbiyyatındatarixi dram. Bakı: Yazıçı,1983,159s
7. QarayevY.V. Azərbaycan ədəbiyyatında faciə janrı. Bakı:AEA,1965, 192s.
8. Səfərov Ş.T. Fəryad. “Ədəbiyyat və incəsənət” qəz.,Bakı, 1984,11 may
9. Vahabzadə B.M. Sadəlikdə böyüklük. Bakı: Yazıçı, 1978,338s.
10. Vahabzadə B.M. Özümüzü kəsən qılınc// Azərbaycan, 1988, №7, səh74-105.
11. Qarayev Y. V. Meyar_ şəxsiyyətdir. Bakı: Yazıçı,1988,451s
12. Dəmirli M. O həm də görkəmli dramaturq idi. “Azərbaycan”qəz., Bakı, 2010, 13 fevral
13. Vahabzadə B. M. Hara gedir bu dünya? : Pyeslər/ Bakı : Azərbaycan , 2001, 384 s.
14. Nizami Cəfərov “Seçilmiş əsərləri". Beş cilddə. III cild. Elmi irsimiz seriyası N 05 (96 - 2012).

[1] Nizami Cəfərov “Seçilmiş əsərləri". Beş cilddə. III cild. Elmi irsimiz seriyası N 05 (96 - 2012).

B XT YAR VAHABZAD N N TAR X PYESL R N N M LL TEATR H R KATINDA ROLU

vtixar F hrat o lu Piriyev

C. Cabbarlı adına İrəvan Dövlət
Azərbaycan Dram Teatrının direktoru,
əməkdar mədəniyyət işçisi
iftihar-piriyev@mail.ru

XÜLAS

Məqalədə Azərbaycan mədəniyyəti və ədəbiyyatının görkəmli nümayəndəsi, xalq şairi, dramaturq Bəxtiyar Vahabzadə yaradıcılığının mühüm bir hissəsini təşkil edən dramaturgiya barədə söhbət açılır.

1960-cı illər Azərbaycan teatrının tarixinə müasirlik axtarışları dövri kimi daxil olmuşdur. Bu dövrdə teatr sənətində lirik-psixoloji təmayül üstünük təşkil edirdi. B.Vahabzadənin yüksək mənəvi - əxlaqi problemlər qaldıran dramaturgiyası səhnə sənətimizin inkişafında, yeni teatr düşüncəsinin təşəkkülündə müstəsna əhəmiyyət daşımışdır. Təhlilə çəkilən "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Hara gedir bu dünya?", "Cəzasız günah", "Rəqabət" kimi lirik - psixoloji dramları, "Fəryad", "Özümüzü kəsən qılınc", "Dar ağacı" kimi tarixi pyeslərinin səhnə həlli milli teatrımıza yeni mübarizə ruhu ilə dolu tamaşalar bəxş etmişdir və bu əsərlər mükəmməl rejissor və aktyor sənətinin, səhnə qrafiyanın, ümumən milli mədəniyyətin inkişafına mühüm təkan olmuşdur.

Açar sözlər: teatr, tamaşa, dramaturq,

THE ROLE OF HISTORICAL DRAMAS OF BAKHTIYAR VAHABZADEH IN THE MOVEMENT OF STAGE

ABSTRACT

In this scientific work has talked about the dramaturgy that arranged one of the important parts of well–known member of culture and literature of Azerbaijan, People's Poet and dramatist of Bakhtiyar Vahabzadeh's creative activity.

1960 years were entered to the history of Azerbaijan theatre as the period of contemporaneity investigation. In this period the lyric and psychological tendency were in superiority. The dramaturgy raising the highest moral and ethical problems of B.Vahabzadeh conveyed exceptional importance in formalization of sense of new theatre and in the development of our stage art. The stage settlement of lyric and psychological dramas as "The second voice", "After the rain", "Coming upon the tracks on the ways", "Where does go this world?", "Fault without punishment", "Competition" and historical plays as "Scream", "Cutting sword of ourselves", "Gallows" endowed such spectacles with full of new struggle sprits to our national theatre and also it gave an important push to the development of producer and actor's art, stagegraphics and in generally, to the national culture.

Key words: theatre, spectacles, dramaturgy.

Bəxtiyar Vahabzadə tarixi mövzuda yazılmış "Fəryad", "Özümüzü kəsən qılınc" və "Dar ağacı" pyeslərinin müəllifidir. Müxtəlif tarixi zamanların əks olunduğu bu dramlar müasir səhnəmizdə milli keçmişimizin əzəmətli, bədii nümunəsi kimi teatr tariximizdə parlaq səhifədir.

Şair-dramaturq Bəxtiyar Vahabzadənin iki tarixi şəxsiyyətə - Babəkə "Dar ağacı", Nəsimiyə "Fəryad" həsr etdiyi tarixi əsərlərinin heç birində Babəkin və Nəsiminin obrazları olmasa belə, hadisələr bu qəhrəmanların ideyaları, amalları, mübarizələri çevrəsində baş verir. Şair özü Nəsimi dühasına müraciətinin səbəbini belə izah edir: "Cordano Brunonun yandırılnasına, Bayronun Cəlayi – Vətənliyinə, Puşkinin sürgün edilməsinə, Nəsiminin dərisinin soyulmasına səbəb nə imiş? Bu böyük şəxsiyyətlərin həyat və fəaliyyətini dərindən öyrənəndən sonra mənim üçün əsl elmin və sənətin mahiyyəti və məqsədi aydın oldu. Mənə aydın oldu ki, istər elm və istərsə də sənət – zülmün, əsarətin törətdiyi məhrumiyyətlərdən qorxmayıb yalnız həqiqəti dediyi zaman böyüyür, ucalır və o yalnız bir xalqın deyil, bütün bəşəriyyətin ürəyinə yol tapır, rəğbətini qazanır..." [1]

"Fəryad" pyesinin mövzusu XIV əsrin sonu XV əsrin əvvəllərində yaşamış Nəsimi dövründən, hürufilikdənbəhs edir. 1984-cü ildə Milli Dram Teatrında oynanılmış əsərin quruluşçu

[1] B. Vahabzadə. Fəryad. Bakı. Azərnəşr, 1995, s. 6.

rejissoru Hüseynağa Atakişiyev müəllif ideyasını düzgün şərh etmiş, "Zülmətdən işığa, məhkumluqdan azadlığa doğru mübarizə aparan insanların haqq səsini" [1], fəryadının eşidilməsini tamaşanın ali məqsədinə çevirmişdir. Bəxtiyar Vahabzadə qüdrətli şair Nəsiminin fikir və idealları fonunda özünün arzu və amallarını tamaşaçıya çatdırmağa çalışır; insanı sərbəst, azad, mübariz görmək istəyir.

Tamaşanın ideyası şəxsiyyət və fikir azadlığı üzərində qurulduğundan fəryad anlamı burada çoxmənalı, dərin, fəlsəfi məna daşıyır. Ədalətsizliyə, haqsızlığa məruz qalan insanların fəryadı keçmişin qaranlıq zindanlarından eşidildiyi kimi müasir dövrün insanlarının da hüquqları, haqqları tapdandıqca onların da fəryadı ərşə qalxır; Əsərin müasirliyi və aktuallığıda bundan ibarətdir. Pyes dünyanın əşrəfi olan insanın qüdrətinə tamaşaçıda dərin inam oyadır, eyni zamanda Nəsiminin "ənəlhəqq" söyləyərək insanı və insanlığı şər qüvvələrə qarşı üsyana səsləyir. "Dramaturq və rejissor Nəsimi kimi bir dühanın fikrinin üsyankar ruhunu... əsərin özünün fəryadına çevirirlər" [2].

Dramaturq "Fəryad" pyesində klassik ədəbiyyatımızın böyük şəxsiyyəti olan Nəsimini birbaşa səhnəyə gətirməmiş, Nəsimi ruhunu yaşadan, "mənəm allah" deyib özünü bu yolda qurban verən nəsimiçiləri hədəf seçmişdir. İnsan şüurunun, insan düşüncəsinin alverə qoyulmasına, əldən getməsinə qarşı üsyan edən gənclər qəddar və ağılsız Hələb əmiri, onun yaltaq ətrafı kimi düşünmək istəmirlər. Onlar mütərəqqi ideayaların işığına, yer üzünü xilas edəcəyinə inanırlar. Tamaşada I Nəsimi (Həllac Musa) və II Nəsimi (Tural) əsrin məngənəsində çırpınan və zülmət içərisində nur yayan həqiqət aşiqləri kimi təqdim olunmuşlar. Aktyorlar Kamal Xudaverdiyyev (I Nəsimi) və Hamlet Xanızadə (II Nəsimi) Nəsimi ideyalarını - insana məhəbbəti müxtəlif vəziyyətlərdə - zindanda, Vəliəhdlə görüşdə, Loğmanla söhbətlərdə və xüsusiən də finalda parlaq şəkildə göstərə bilirdilər. Əmiri qorxudan da məhz nəsimiçiliyin getdikcə güclənib xalq hərakatına çevrilməsidir. Hər iki aktyor inandırıcılıqla göstərirdi ki, insan düşünə-düşünə həqiqəti dərk edir və heç bir zaman şər qüvvələr onun düşündüklərinin qarşısına sədd çəkə bilməzlər.

K.Xudaverdiyevin və H.Xanızadənin söylədikləri hikmətlər tamaşada yalnız söz olaraq qalmırdı. Bu düşüncələr XIV-XV əsrlərdə və ümumən də zülm görən xalqın faciəsinə varmağa xidmət edirdi. İki simada təcəssüm tapan Nəsimi obrazının yozumunda hər iki aktyorun yaşadığı zamana və müasir zamana münasibəti öz əksini tapırdı. İstər K.Xudaverdiyev, istərsə də H.Xanızadə Nəsiminin özünü dərk edən insanın qüdrətli varlığa çevrilməsi ideyasına səhnədə nail olmağa çalışırdılar. H.Xanızadə - II Nəsimi söyləyəndə ki, insan öz zəkası və aliliyi ilə allahdan geri qalmır, dərin daxili təbəddülatlar içərisində olan Vəliəhdin etiraz etməyə gücü çatmırdı. Hər iki aktyor nəsimiliyin ruhunu, fikir və həqiqət çırpıntılarını böyük ustalıqla tamaşaçıya çatdırırdılar. I Nəsimi (Həllaci Musa) - K.Xudaverdiyev allaha qovuşmağın hikmətini insan əqidəsi və idrakında görürdü. II Nəsimi (Tural) - H.Xanızadə tanrını hər şeydən əvvəl ülviliyində duyur, axtarırdı. Onların fəryadı mənalandıqca, mübarizə bayrağına çevrilirdi. Tənqidçilər də hər iki aktyorun oyunlarından razı qaldıqlarını bildirərək yazırdılar: "Birinci və İkinci Nəsimi (artistlər K.Xudaverdiyev və H.Xanızadə) öz rollarında təbii və realdırlar. Onların monoloqları da, dialoqları da, hərəkətlərində sağlam zəkanın qələbəsindən inandırıcı şəkildə xəbər verir". "Nəsiminin ikiləşmiş obrazı olan I Nəsimi və II Nəsimidə %

dıran, ölüm "yarışına" girən insanlarla tanış olan Vəliəhdin daxili dünyasında əsl tələtüm baş verir. Bu, təbiətən idraka və axtarıcılığa meylli olan Vəliəhddə insan zəkasının qüdrətinə sonsuz heyrət oyadır, həqiqətin saraylarda yox, məhz xalq arasında olduğuna onu inandırır.

Aktyor Fuad Poladov Vəliəhdi ziddiyyətlər içərisində çırpınan, atasının bir çox zülmlərinin, haqsızlıqlarının canlı şahidi olan, xeyirxah, işıqlı adamların təsiri ilə nəhayət haqqın yolunu tapan, bəzən məsum, bəzən qapalı, bəzən ciddi, nifrətini, qəzəbini, məhəbbətini, rəğbətini boğan, gizlədən, tamaşanın finalında isə hürufi məsləkini qəbul edən, "Niyə sizin kimi düşünməliyəm, düşünmək istərəm mən özüm kimi" deyib, hər cür ehkamın əleyhinə çıxan bir obraz kimi təqdim edirdi.

Tamaşadakı bütün obrazlar ümumi ideyanın və nəticənin əldə olunmasına yönəldirlərək mükəmməl, yetgin, bütöv komponentləri ilə möhtəşəm sənət uğuruna çevrilmişdi. Rejissor təvsiri, musiqi tərtibatı, rəssam işi, uğurlu seçilmiş aktyor ifası ilə vəhdətdə bitkin ansambl yaradaraq, uzaq keçmişimizi bu gününmüzlə bağlayan gözəl bir tamaşanın yaranmasına rəvac vermişdi. Fikrimizi akademik Firudin Köçərlinin "Fəryad" tamaşasına həsr etdiyi məqaləsindəki məqamlarla diqqətinizə çatdıraq: "Tamaşaçılar tərəfindən böyük maraqla qarşılanan dərin fəlsəfi məzmunlu pyes fikrimizcə yalnız Bəxtiyar Vahabzadənin yaradıcılığında deyil, ümumiyyətlə teatrımızın həyatında diqqətəlayiq hadisədir" [1].

Dram əsəri üçün vacib olan hərəkət və xarakter vəhdəti prinsiplərinə sadiq qalan B.Vahabzadənin "Fəryad" fəlsəfi dramının tamaşaçı marağı qazanmasında mühüm cəhət, şübhəsiz ki, əsərin ideya-bədii mükəmməlliyi ilə yanaşı eyni zamanda qoyulan problemin tamaşaçıların qəlbinə yaxınlıgı ilə xarakterizə olunan aktuallıq kəsb etməsində izah etmək doğru olardı. Tamaşaçıları haqq, ədalət yolunda vicdanın səsinə qulaq asaraq mübarizəyə səsləyən əsərin uğurlu səhnə həlli həm dramaturqun, həm də milli teatrımızın müvəffəqiyyətli işi kimi teatr tariximizdə layiqli iz qoymuşdur.

Bəxtiyar Vahabzadə yaradıcılığının maraqlı bir səhifəsini "Dar ağacı" tarixi faciəsi təşkil edir. Azərbaycanın görkəmli dramaturqu Cəfər Cabbarlıya ithaf olunmuş, "Od gəlini" faciəsinin davamı kimi təqdim olunan "Dar ağacı" pyesi Babək mövzusunun daha dərin təsviri, xüsusilə Aqşinlə bağlı sujetin geniş açılması ilə diqqət çəkirdi.

Tamaşanın quruluşçu rejissoru Ağakişi Kazımov "Dar ağacı"nda müəllif fikrinə dəstək olaraq, konkret tarixi şəraitdə insan xarakterlərinin gücü, həqiqəti, ehtiraslı çarpışmalarını yaradıcılığına məxsus monumentallıqla səhnəyə gətirə bilmişdi. A.Kazımovun B.Vahabzadə ilə növbəti əməkdaşlığı da uğurlu alınmışdı. A.Kazımovun təqdim etdiyi mizanlar, seçdiyi aktyor ansamblı, müəllifin əsas məqsəd və qayəsinin açılmasına yardımçı idi. Hələ 70-ci illərdən mətbuat səhifəlrində "Azərbaycan səhnəsinə böyük miqyaslı, coşqun ehtiraslarla zəngin monumental əsərlər lazımdır" fikrini irəli sürən A.Kazımova müvəffəqiyyətli və yaddaqalan belə bir səhnə əsəri yaratmaq nəsib olmuşdu. "Dar ağacı" əsəri əsasında yaratdığı tamaşa A.Kazımovun arzularının təntənəsi oldu.

Rejissor səhnənin dərinliyində qurulmuş dar ağacı və onun altında əzəmətlə dayanmış Babəklə, tamaşanın sonunda səhnənin önündə qurulmuş dar ağacı və onun altında xəcalətlə dayanmış Aqşin arasındakı tarixi həqiqətləri canlı səhnələr və xarakterlər vasitəsilə göstərməyə nail olmuşdu. Hər zaman aktual olan bu mövzunun ədibin görümündə özünəməxsus çalarlarla ərsəyə gəldiyini vurğulayan rejissor A.Kazımov tamaşa haqqında öz təəssüratını belə bölüşür: "Xəyanətin sonu heçdir. Aqşin öz mənliyini sübut etmək üçün millətinə, torpağına xəyanət elədi. Onların yadelli işğalçıların tapdağına çevrilməsinə razı oldu. Sonunu gördünüz. Aqşini elə satıldığı ərəblər dar ağacından asdı. Ərəblər sözü, əslində burada şərtidir. Ona görə də əsərin əksər hissəsində bu sözü yadelli ilə əvəz etmişik"

Bəxtiyar Vahabzadə dramaturgiyası üçün ənənəvi olan "ikinci səs" rolunda "Dar ağacı" pyesində Babəkin teyfi çıxış edirdi. Azərbaycanın azadlığı naminə rəşadət və şücaətlə çarpışan Babək dünyasını dəyişsə də, qeyb olmur. O, Aqşini hər addımda təqib edir, onun hərəkətlərinin ittihamçısına çevrilirdi. Babəkin teyfi Aqşinin yatmış vicdanını oyatmaqla, həm əqidə, həm də məntiqlə onu məğlub edirdi.

[1] F.Köcərli. İnsan qüdrətinə inam. "Azərbaycan gəncləri" qəzeti 12 may 1984.

Onun ruhu ölkə üzərində gəzir, xüsusən xəyanətkar padşahın - Aqşinin azğınlıqlarını acı qəhqəhələrlə, nifrətlə müşayiət edirdi. O, Aqşini öz əqidəsindən dönməyə, xalqın hörmətini qazanmaq üçün yalanlardan əl çəkməyə çağırırdı: "Babək: - Sən öz işini görüb qutardın. Artıq o qol Xəlifəyə lazım deyil, indi ona ayrı qol lazımdır. Dünənki qəhrəman Aqşin bu gün İbn Zeyd kimi əqidəsiz pulgir ilə alverə girir. Amma belə alverlərin ömrü çox gödək olur. Sən burada da uduzmusan. Sən qızını eşit. Yalanlardan əl çək. Ya yalanlar üzərində qurulan bu taxt-tac, ya da həqiqət". Əli Nurun ifasında Babək qəhrəman, yenilməz, vətəni üçün ölümə gedən mübariz bir el oğlu, əqidə fədaisi idi.

Babəkin hıçqırtıları ilə bitən tamaşadan alınan qənaət bu idi ki, tarix xəyanətlərlə müşaiyət olunsa da, bu, heç zaman bağışlanmır. Hadisələrin fonunda Babəkin teyfinin tamaşaya müdaxiləsi əsərin ideya və məzmununun düzgün qavranılmasına hesablanmışdı. Eyni bir vətənin azadlığına və müqəddəratına münasibətdə iki qan qardaşının taleyi eyni bir finalda - dar ağacına gətirib çıxarırdı. Xalqın, müqəddəs ocağın naminə canından keçib, ölümü üstün tutan, tutduğu yoldan dönməyən Babək ölməzdir. Onun ölümü mənəvi ölüm deyil, fiziki ölümdür, onun ideallarını yaşadan bir ölümdür. Babək ruhu xalqın qoluna qüvvət, azadlıq mübarizəsinə təpər verir. Əli Nurun təqdimatında tamaşaçının tarix və ədəbiyyat kitablarından tanıdığı Babək səhnədə möhtəşəmliyi ilə canlanırdı. Aktyorun məğrur duruşu, səs tembri, baxışları Azərbaycanın qəhrəman oğluna sahnədə əsl abidə idi.

Azərbaycan tarixinin geniş mənzərəsini əks etdirən "Dar ağacı" tamaşası illərin sınağından çıxan bir həqiqəti tamaşaçıya çatdırdı. Həmin həqiqətə görə millətdən ayrı düşən, onun taleyinə biganə olanları sonda dar ağacı gözləyir. Bu tarixi tamaşanın müasirliyi həm də yaşadığımız dövrdə respublikada xalq və hakimiyyət probleminin aktuallaşması ilə əlaqəlidir. AMEA-nın müxbir üzvü, professor İnqilab Kərimovun göstərdiyi kimi: "baş verən böyük hadisələr fonunda milli teatr sənətimiz də öz mövqeyini müəyyənləşdirmək və təsir qüvvəsini artırmaq qeydinə qal"araq, belə bir aktual tamaşa yaratmışdı.

"Dar ağacı" tamaşasının qayəsi Bəxtiyar Vahabzadə yaradıcılığının həmişə həqiqətə, mənəvi saflığa çağıran ümum-ideya platformasından ayrı olmayıb, ədibin yeni sənət axtarışlarını səciyyələndirirdi. Heç təsadüfi deyil ki, tamaşa B.Vahabzadənin lentə yazılan sözləri ilə başlayır, hadisələr cərəyan etdikcə bu qayə, məqsəd, ideya daha da dolğunlaşır, Aqşinin edamı səhnəsində apogeyinə çatırdı: Yer üzərində ədalətə, yaxşılığa, insana xidmət etməyən nə varsa, cəzasına çatmalıdır. Tamaşa xalqa arxa çevirənlərin son məqamda məhşər ayağına, "dar ağacı" altına gələcəyinə tam əminlik yaradırdı.

"Dar ağacı" tamaşası tarixi ehtiva etməklə, müasirliyə xidmət edən monumental bir əsər olaraq milli Azərbaycan səhnəsində layiqli yerini tutmuşdur.

Bəxtiyar Vahabzadənin tarixi mövzulu pyeslərinin səhnə həlli teatrımıza yeni, qəhrəmanlıq və mübarizə ruhu ilə nəfəs alan tamaşalar bəxş etmiş, milli rejissor və aktyorluq məktəbinin əsaslı ənənələr üzərində inkişafına təkan vermişdir.

BAHT YAR VAHAPZADE'N N T YATROLARINDA ARKET PSEL BENL K KURGULAMALARININ ESTET K DE ER

Mümtaz SARIÇ ÇEK

Doç. Dr., Erciyes Üniversitesi, Edebiyat Fakültesi
Türk Dili ve Edebiyatı Bölümü
mumtazs@erciyes.edu.tr

ÖZET

Türk dünyasının büyük sanatkârı, Bahtiyar Vahabzade'nin Türkiye Türkçesine aktarılmış üç tiyatro eseri bulunmaktadır. *Nereye Gidiyor Bu Dünya*, *İkinci Ses* ve *Feryad* başlıklı bu metinlerden ilk ikisi nesir, Feryad ise nazımdır. Bu metinlerin psikanalitik inceleme yönteminin verilerinden hareketle çözümlenmesi bu bildirinin konusunu oluşturmaktadır. Konu, eserlerdeki karakterlerin arketipsel benlik yönünden değerlendirilmesi ile sınırlandırılmıştır. Çözümleme, karakter yorumlamanın ötesinde estetik değer araştırması yönünde derinleştirilmiştir.

Edebi metin okumalarında farklı imkânlar sunan psikanalitik inceleme yönteminin konularından biri de arketipsel figürlerin çözümlenmesidir. *Persona* (maske), *gölge*, *anima*, *animus*, *yaşlı bilge*, *büyük anne* gibi arketipsel figürler edebî metinle okuyucusu arasında bilinç ve bilinçdışı düzeyde bağ kurarak estetik beğeninin "özdeşlik kurma" ve "yabancılaşma" ilkelerinin gerçekleşmesine yardım eder. Ritim, heyecan, korku, merak, şaşkınlık gibi estetik beğeninin diğer ilkeleri de bu figürlerin kurgulanma biçimleri ile ilişkilendirilebilir.

Vahabzade'nin bu eserlerinde en heyecan verici çatışmaları *persona-gölge* mücadelesi yaratır. Laçın ve Reşat gibi karakterlerin benliklerinde bu çatışmaları gözlemleriz. *Gölge* arketipinin yansımalarından biri olan *hilebaz* figürü de bu metinlerde korkutucu bir öge olarak kullanılmıştır. Şahbaz ve Zeynep *gölge* figürünü temsil eden karakterlerdendir. *Yaşlı bilge* arketipinin tipik bir yansıması olan *Ulu Ecdad* ile *Deyanet* de bu metinlerin en heyecan verici karakterleri arasındadır. Eserlerde diğer arketipsel figürlerle ilişkilendirilebilecek kişilik kurgulamalarına da yer verilmiştir.

Edebî metin incelemesi, günümüzde anlama ilişkin yorumlamaların ötesinde bir estetik değer araştırması düzeyine erişmiştir. Bu çalışmada, adı geçen eserlerden, bu düzeyde bulgular elde edilmiştir.

Anahtar Sözcükler: Bahtiyar Vahabzade, tiyatro, arketip, psikanalitik inceleme.

THE AESTHETIC VALUE OF FICTIONS OF ARCHETYPAL PERSONALITY IN BAHTIYAR VAHAPZADE'S DRAMAS

ABSRACT

The great artist of Turkish world, Bahtiyar Vahabzade has three dramas which transferred to Turkish Turkey. First two of this works with the title *Nereye Gidiyor Bu Dünya, and İkinci Ses* are prose and Feryad is verse. The analysis of data which based on the method of psychoanalytic investigation of these texts constitutes the subject of this paper. The theme got limited by evaluating of archetypal personality of characters in the works. The analysis is deepened, beyond the interpretation of characters, in the direction of aesthetic value study.

One of the themes of Psychoanalytic method which offers various opportunities to literary studies is archetypal figures analysis. Archetypal figures such as *Persona, Shadow, Anima, Animus, Wise Old Man, Great Mother* help realization of aesthetic appreciation priciples "identification" and " alienation" by establishing a conscious and unconscious level of connection between text and its reader. The other principles of aesthetic appreciation like rhythm, excitement, fear, worry, confusion can be associated with construction styles of these figures.

In these works of Vahabzade, *Persona- Shadow* struggle creates the most exicitng conflicts. We observe this conflicts on identity of characters such as Laçin and Reşat. Also, one of the reflection of *Shadow* archetype, *cheater* figure is used as a frightening factor in this texts. Şahbaz and Zeynep are the other characters which represents *Shadow* figure . Ulu Ecdad and Deyanet, being a typical reflection of *Wise Old Man, Great Mother* archetype, are also among the most exciting characters of this texts. In the works, it is given place to constructions of identity which can be associated with other archetypal figures as well.

Literary text analysis, beyond the interpretations of meaning, has reached the level of aesthetic value research now. In this study, at this level of indications are obtained from mentioned works.

Key Words: Bahtiyar Vahabzade, Drama, Archetype, Psychoanalytic Analysis

1. Giri :

Edebiyat ile psikoloji ilişkisi başlangıçtan beri iki koldan gelişmiştir: 1. Edebi metinden hareket ederek psikolojiye malzeme sağlama çalışmaları. Özellikle modern psikolojinin kurucuları Sigmund Freud, Alfred Adler, Carl Gustav Jung gibi psikanalistlerin başlattığı bu çalış-

malar, edebi metinden gerçek insana ulaşmayı öngörmektedir. Buna binaen, bu tür çalışmalar, psikoloji biliminin sınırları içinde kalır. 2. Metin tahlilinde psikolojinin verilerinden yararlanmak. Psikanalitik edebiyat kuramı ve bu kuramın önermelerinden biri olan arketipsel inceleme bu çerçevede düşünülmesi gereken faaliyetlerdir.

Edebi metin, estetik bir yaratıdır ve her tahlil bu estetik yaratının bileşenlerini ortaya koyma çabasını yansıtmalıdır. Tahlilci, derleyiciden fazla olarak edebi metinden topladığı malzemeyi estetik düzlemde yorumlar. Bu tıpkı tabiat bilimci ile bitki koleksiyoncusu arasındaki fark gibidir. Her ikisi de tabiattan bitki toplar ama onu incelemek ve yorumlamak tabiat bilimcinin işidir. Bu bağlamda, arketipsel inceleme de, edebi metinde hangi arketiplerin kullanıldığını tespit etmekle yetinmez; o metnin estetik dokusunun oluşumunda arketiplerin oynadığı rolü de anlamaya çalışır.

Arketip, kolektif bilinçdışında yaşayan ve kuşaktan kuşağa aktarılan bir takım yapı taşları; davranış kalıplarıdır. İnsan ruhunun en dip ve karanlık bölgesi olan kolektif bilinçdışı, türe ait kodların gizlendiği bir çekirdek gibidir[1]. Doğumdan itibaren haricî âlemden aldığı etkilerle benlik bilinci geliştiren insan, arketiplerini de özünde taşımaya devam eder. Ancak, nasıl ki bir çiçeğin görüntüsü, özünü taşıdığı tohuma benzemezse, benlik bilinciyle görünür olan insan da çoğu zaman arketiplerini gizler. Bununla birlikte, çiçeğin tohumunu yeniden üretmesi gibi arketipler de insan etkinliklerinde zaman zaman ortaya çıkar. Mitolojik metinler, sanat eserleri, rüyalar, fanteziler bu asılların yani arketiplerin en çok dışa vurulduğu hallerdendir[2].

Kurgusal edebi türlerden biri olan tiyatronun ana öğesi kişiler kadrosudur. Bir yazar, bu figürleri kurgularken kaçınılmaz biçimde kendi benliğinden hareket edecek; farklı kurgusal figürlerde benliğin farklı yönleri tezahür edecektir. Bu figürler üzerinde yapılacak tahlilî çalışmalar, edebi metindeki estetik hazzın kaynağını anlamamıza yardım edecektir. Kişilerin bağımsız olarak kurgulanma biçimleri, diğer kişilerle ilişkileri, vaka gelişiminde üstlendikleri fonksiyonlar, diğer teknik ve içerik öğeleri bakımından konumları, bir tahlil çalışması dâhilinde incelenebilecek hususlardır. Bu çalışmalar yapılırken açıklama-yorumlama gibi geleneksel tutumdan ziyade, estetik hazzın kaynağı olan ritim, heyecan, merak, şaşkınlık, özdeşlik kurma, yabancılaştırma, aşma gibi duygu hallerine sebep olan ilişkiler ağını çözümleyerek estetik değer yargısına ulaşma amaçlanmalıdır.

Azerbaycanlı şair, yazar, mütefekkir Bahtiyar Vahapzade, hem bilim adamı hem de sanatçı kimliği ile temayüz etmiş, onlarca şiir kitabı, yüzlerce makale, çok sayıda bilim ve kültür eseri kaleme almış, bu eserlerinin bir kısmı Türkçenin diğer lehçelerinin yanında bazı Doğu ve Batı dillerine de çevrilmiştir.

2. Vahapzade'nin Tiyatro Eserleri[3]:

Türk dünyasının şöhretli kalemi Bahtiyar Vahapzade'nin Türkiye Türkçesine aktarılmış üç tiyatro eseri bulunmaktadır: *Nereye Gidiyor Bu Dünya, İkinci Ses, Feryad*. Türk dünyasının bir başka şöhretli kalemi Yavuz Bülent Bâkiler'in aktardığı eserlerden ilk ikisi mensur, üçüncüsü de manzum metinlerdir.

Nereye Gidiyor Bu Dünya, bilim-vicdan çatışmasının ana tem olarak işlendiği yedi perdelik bir dramdır. Yedinci Perde hariç her perdenin başına prolog/epigraf niteliğinde; metnin sonuna da epilog niteliğinde manzum parçalar konmuştur. Bahtiyar Vahapzade'ye ait olan bu şiirlerin perdeler açılmadan ve son perde kapanmadan önce "yazar" tarafından okunması tasarlanmıştır.

İkinci Ses, üç perdelik bir aile dramıdır. Bu metnin düzenlenişi de öncekine çok benzer; Birinci ve Üçüncü perdelerin başlarında ve tüm perdelerin sonlarında manzum parçalara yer verilmiştir. Ancak bu kez şiirleri okuyan "yazar" değil kurgusal figürlerdir ve şiirler metnin ayrılmaz birer parçasıdır.

---

[1] Carl Gustav Jung, ***Analitik Psikolojinin Temel İlkeleri***, Cem Yayınevi, İstanbul 1992, s. 50 vd.
[2] Erich Fromm, ***Rüyalar-Masallar-Mitoslar***, Arıtan Yayınevi, İstanbul 1995.
[3] Bahtiyar Vahabzade, ***Nereye Gidiyor Bu Dünya, İkinci Ses, Feryad,*** Kültür Bakanlığı Yayınları, Ankara 1991. (Aktaran: Yavuz Bülent Bâkiler)

Feryad'ın metin tertibi bu iki eserden farklıdır. Metin "perde"lere değil, "sahne"lere ayrılmıştır. Baştaki herhangi bir adlandırma yapılmayan giriş niteliğindeki kısa bir bölümden sonra altı sahnelik bir düzenleme yapılmıştır. *Feryad*, XIV. Asırda, Halep Emiri'nin sarayı çevresinde yaşanan bir vakadan hareketle şeriat-tarikat çatışmasını konu alan manzum bir eserdir. Klasik Yunan tragedyasının bazı özelliklerini taşıyan eserin sonlarında "koro"ya da yer verilmiştir.

3. Vahapzade'nin Tiyatrolarında Arketipsel Benlikler:

3.1. Gölge: Gölge arketipi, ruhsal benliğin bilinçdışına hapsedilmiş kötücül yönüdür. Bireyin yaşantısında ikinci bir kişilik, bir iç ben gibi rol oynayan gölge, bizim kültürümüzdeki "nefs" olgusuna benzer. Jung'un iddiasına göre, tüm arketipler içinde en tehlikeli olan ve ömür boyu varlığını hissettiren bu figür düşman, yırtıcı hayvan, yabancı algısından kaynaklanır. Keza, yapılan araştırmalar görme ve işitme özürlü doğmuş bebeklerin dahi "yabancı"yı sadece kokusundan bile ayırt edebildiğini ve ondan huzursuzluk duyduğunu göstermiştir. Bu yabancı, aslında tanışmaya, yüzleşmeye korktuğumuz içimizdeki yabancı, yani gölgemizdir. Bu korku yüzünden, kişisel bilinçdışında bastırılan gölge bilinç ötesi bir yolla başkalarına yansıtılır; böylece içimizdeki kötülük yadsınarak sorumluluk başkalarına yüklenir ve kendi benliğimizi korumaya alırız[1].

Benliğin gölgeyi dengeleyici unsuru olan bilinçli toplumsal kişilik persona/maske ile gölge arasında daima bir savaş vardır; her ikisi de benliğin merkezini ele geçirmek ister. Böylesi durumlar kişilik bölünmesine yol açarak şizofreni gibi muhtelif ruhsal rahatsızlıklara sebep olur. Ancak, toplumsal yaşantı gereği çoğunlukla persona baskın çıkarsa da, gölge de zaman zaman aşırı etkinlik göstererek benliğin bütününe hâkim olur. Bu durum muhtelif felaketlere yol açabilir. Büyük kan dökücü tarihsel kişilikler, gölgelerinin esiri olmuş insanlardır.

Bütün arketipler gibi gölge figürünün de kendini en çok açığa vurduğu faaliyetler arasında rüyalar, mitler ve sanat eserleri vardır. Gölge figürü, mitolojik/fantastik metinlerde sık sık şeytan, ejderha, yılan, kurt adam, vampir, hayalet gibi sembollerle temsil edilir. Modern zamanların gerçekçi kurgulamalarında ise gölgenin anarşist ruhlu kişileştirmelerle yansıtıldığını görüyoruz. Kanlı diktatörler, seri katiller, acımasız teröristler, işkenceciler, siyasi düzenbazlar, çıkarcı hilebazlar bu tür figürlerden bazılarıdır. Arketip kuramını ilk ortaya atan Jung, gölge arketipini hilebaz figürü ile özdeş görür ve bu figürle ilgili şu tespitlerde bulunur:

"Burada hilebaz bilinçdışındaki karşı eğilimlerle, münferit vakalarda çocuksu, düşük karakter olan bir tür ikinci kişilikle temsil edilir; (…) Sanırım hiçbir yerde eksik olmayan bu kişilik unsurunu *gölge* diye nitelendirmekte haklıyım. Bu kişilik unsuru bizim kültür düzeyimizde kişisel bir gaf ("gaffe", "slip") olarak görülür ve bilinçli kişilikte bir bozukluk olarak yaftalanır."[2]

"Hilebaz fantazması muzip anlatılarda, karnaval coşkusunda, şifa ve büyü ritlerinde, dinsel korku ve aydınlanmalarda, kimi zaman açık seçik, kimi zaman da muğlak biçimlerde, tüm zaman ve mekânların mitolojisinde dolanır durur, belli ki bir "psikologem", yani çok eski bir arketipik psişik yapıdır."[3]

Ancak, bu açıklamadan hilebaz figürünün sadece mitolojide ve tarihte kaldığı zannı uyanmamalıdır. O, birçok kültürde görülen ve içinden hâlâ su akan eski bir nehir yatağı olup uygar insanda da aynı naiflik ve özgünlükle yansımaktadır.[4]

Hilebaz, kurtarıcının bir öncüsüdür ve tıpkı onun gibi, Tanrı, insan ve hayvandır. Hem insanın altındadır hem de üstünde, en belirgin ve önemli özelliği bilinçsizliğidir. Birçok bakımlardan hayvanlardan daha aptaldır ve bir gülünç beceriksizlikten diğerine düşer. Aslında kötücül olmamasına rağmen, bilinçsizliği ve alakasızlığı yüzünden çok fena şeyler yapar. Hayvansı bir bilinçsizliğin içine hapsolmuştur.[5]

---

[1] Anthony Stevens, ***Jung***, Kaknüs Yayınları, İstanbul 1999, s. 65 vd. (Çeviren: Ayda Çayır)
[2] Jung, Dört Arketip, s. 128.
[3] Jung, Dört Arketip, s. 126.
[4] Jung, Dört Arketip, s. 128.
[5] Jung, Dört Arketip, s. 129.

(*Çantasından mektubu çıkarır.)* Al işte, kocasına göster, karısının ne mal olduğunu bir bilsin."[1]

Zeynep, vaka kuruluşunda sınırlı bir rol üstlenmiş olsa da bir hilebazın güçlülük (tanrısallık), çıkarları için her şeyi mubah sayan hayvanilik ve kendini bilme konusundaki bilinçsizlik özellikleriyle öne çıkar.

Feryad'da hilebaz figürünü temsil eden kişi *Zahit*'tir. Halep Emirliğinin din adamı olan *Zahit* cezalandırılmasını istediği Hurufilerin önderi olan Şirvanlı Nesimi'yi bulabilmek için sağır-dilsiz zannedilen bir casus kullanır. Keza, benzer bir davranışı da, idam edilen kişinin Hallaci Musa olup olmadığını anlamak için cenazeyi Musa'nın annesine göstermek olur. *Zahit*'in hayat algısı metnin girişinde kendi sözleriyle sezdirilir:

"Bazen en doğru söz hakikat olmaz
Hakikat her yerde zaruret olmaz.
Hayat karşı gelir, bizi kahreder.
Uymasak dünyanın şu gidişine"[2]

Bu sözler, hakkı hakikati her şartta haykırması gereken vicdan sahibi lider bir kişinin değil şartlar hâsıl olduğunda hileyi mubah gören; dünyayı değiştirmeye talip olmak yerine dünya nimetlerine talip olan politik bir bakış açısını yansıtır.

Zahit, dini otoriteyi temsil eden söz sahibi bir insan olması bakımından tanrısal gücün sahibi; insan-Tanrı ilişkilerine sadece bir "zahid" penceresinden baktığı için bilinçsiz; *Musa*'yı öldürterek oğlunun intikamını almanın sevincini yaşamasıyla hayvani bir varlıktır.

Bu üç metindeki üç gölge/hilebaz figürü olay örgüsünün işleyişinde muayyen bir rol oynayarak aksiyonun doğmasına katkı sağlarlar. *Şahbaz*, olay örgüsünün ana eksenindeki çatışmanın müsebbibidir; ilk dramatik hamle de ondan kaynaklanır. Hâlbuki o, müdahalede bulunmasa entrika başka türlü gelişecek daha düşük yoğunluklu bir aksiyon gerçekleşecekti. O yedi perdelik oyunun sadece dördüncü perdesinde sahnede yoktur. Böylece en uzun süre sahnede kalan, diğer kişilerle kurulan tüm iletişim ağının merkezindeki kurgusal figür o olur.

Zeynep ve *Zahit* ise entrikanın merkezinde yer almaz; *Şahbaz*'a göre, aksiyonun daha düşük düzeyde bir katılımcısı olurlar. Bununla birlikte onların katılımı yeni bir çatışma unsuru olur ve entrikayı biraz daha karmaşık hâle getirir. Karmaşıklık edebi metinlerde kavranabilir düzeyde kaldığı sürece okuyucunun merak ve şaşkınlık duygularını tahrik edici bir unsur olduğundan estetik haz yaratma vesilelerinden biridir. Yazar bunu bildiği için asıl vakanın akışını ve yönünü değiştirmese de bu karakterlerin katılımını sağlamayı tercih eder.

Gölge arketipi ve onun bu metinlerdeki görüngüsü olan hilebaz figürü evrensel bir motiftir. Bu gerçek eserleri de evrensel bir boyuta taşıyarak, her kültür düzeyindeki okuyucuya/seyirciye hitap etme; onlara kendi gölgesiyle yüzleşme, hem onu yadsıma hem de onunla özdeşleşme imkânı da verir. Gölge figürü aynı zamanda korku uyandırarak arınma duygusu da yaratır.

3.2. Ya lı Bilge Adam: Mitolojik ve edebi metinlerde en sık karşılaşılan arketiplerden biri de yaşlı bilge adamdır. Halk edebiyatı ürünlerinden âşık menkıbelerinde rüyada dolu/bâde sunan pîr/usta, masal kahramanlarının başı sıkıştığında ortaya çıkan Hızır veya yaşlı adam, Dede Korkut hikâyelerinde Dedem Korkut, yaşlı bilge adam arketipinin bizim kültürümüzdeki sembolleridir. Jung, bu arketipi şöyle anlatır:

"Yaşlı bilge adam düşlerde büyücü, hekim, rahip, öğretmen, profesör, büyükbaba ya da otorite sahibi herhangi bir kişi olarak görünür. İnsan, gulyabani ya da hayvan görünümündeki ruh arketipi, insanın idrak, anlayış, iyi bir tavsiye, karar, plan gibi şeylere ihtiyaç duyduğu, ama kendi imkânlarıyla bunlara ulaşamadığı durumlarda ortaya çıkar. Arketip bu ruhsal yetersizliği, boşluğu dolduran içeriklerle telafi eder."[3]

"Kahraman dışsal ya da içsel nedenlerden ötürü gerekeni yapamadığı için, gerekli bilgi, kişileştirilmiş bir düşünce, yani öğüt verip yardım eden yaşlı adam kılığında ortaya çıkar."[4]

[1] Vahabzade, age, s.169.
[2] Vahabzade, age, s. 207.
[3] Jung, Dört Arketip, s. 86.
[4] Jung, Dört Arketip, s. 87.

"Evet, yaşlı adam, bilinçli bir düşünce henüz ya da artık mümkün olmadığında, bilinçdışı psişik alanda kendiliğinden gerçekleşen maksatlı düşüncelerin ve ahlaki ve fiziksel güçlerin yoğunlaşmasının ta kendisidir."[1]

İncelememize konu olan eserlerde bu arketipin en bariz temsilcisi *Nereye Gidiyor Bu Dünya'*da *Ulu Ecdad* olarak kurgulanmış hayalî kişidir. Oyunda ilk kez dördüncü perdede *Laçın'*ın karşısına çıkar ama *Laçın* onu daha önce de rüyasında görmüştür. Bu durum mitolojiyle de büyük bir uyum gösterir. Genetik bilimci *Laçın* onu görünceye kadar hafıza nakil yöntemi ile ilgili bütün çalışmalarını yapmış ve başarmıştır. Ancak, buluşunu anlatacağı sempozyumun öncesindeki gece rüyasına gelen *Ulu Ecdad* "huzurunu elinden almış; onu ayrı yola salıp sıcak aşına su katmıştır."[2] *Ulu Ecdad*, ona yaptığı keşfin kötü insanların eline geçmesi halinde bir gaddarlık silahına dönüşeceğini söyleyerek, ondan buluşun dosyasını yakmasını ister. Onu, tabiatın akışına müdahale etmekle suçlayıp şu uyarıyı yapar:

"İnsan! Bilsin! Görsün! İşitsin! Ama kendinden, kendi tabiatinden, alışkanlığından, insanî niteliklerinden el çekmesin, inkâr etmesin kendini. İnsan olduğunu unutmasın… Siz anneniz tabiat ile yüz yüze oturup konuşmak yerine, büyük iştihanızla, dibi görünmeyen nefsinizle, sonsuz tamahınızla konuşuyor, onlara boyun eğiyor, hep onları doyurmağa çaba harcıyorsunuz."[3]

Laçın, *Ulu Ecdad*'ın bu uyarılarındaki haklılığı bilse de gerekli iradeyi gösteremez ve dosyayı *Şahbaz*, *Ayla* ve *Nergis*'e teslim ettikten sonra kalp krizi geçirerek ölür. *Ulu Ecdad* bu kez *Ayla'*ya görünür, onu uyararak istediğini elde eder; sonunda dosya yakılır ve "Hayır zafer çaldı şer üzerinde."[4] dizesi oyunun ile biter. Vakanın işleyişinde yönlendirici fonksiyonu yüklenen *Ulu Ecdad* vakanın sonucunu belirleyen figür olur.

İkinci Ses'te yaşlı bilge adam arketipinin fonksiyonunu *Reşat*'ın ve *Arzu*'nun ikinci benliği üstlenir. Evli bir insan olan *Reşat* ve *Arzu* ile yasak bir ilişki sürdürmektedir. Üç perdelik oyunun birinci ve üçüncü perdesinde *II. Reşat* olarak kurgulanan figür ile ikinci perdesinde *II. Arzu* olarak kurgulanan figür ortaya çıkarak onları sağduyuya ve vicdanlarının sesini dinlemeye davet eder. Bu durum *II. Reşat* tarafından *Reşat'*a şöyle ifade edilir:

"Ben senin aklın, vicdanın, ikinci sesinim, işte. Benden korkma hiç. (…) Beni işte senin duyduğun utanç çağırdı… Ben de geldim. Ben senin, seni dıştan gören gözlerinim. (…) İnsan bir işe başladığında iyice düşünüp taşınmalı, vicdanının sesini dinlemeli."[5]

II. Arzu da benzer bir çağrıyı *Arzu*'ya yaparak, ona vicdanının sesini dinlemesini, başkasının mutluluğuna göz dikmenin doğru olmadığını, bu ilişkide kurban vermesi gerekenin kendisi olduğunu, başka bir seçeneğinin olmadığını söyler.[6]

Yaşlı bilge adam "sık sık kim, neden, nereden, nereye sorularını sorarak insanın kendisi üzerinde düşünmesini ve ahlaki güçlerin toplanmasını sağlar, sık sık da bunun için gereken büyülü tılsımı, yani iyi ile kötünün birleştiği kişiliğin bir özelliğini temsil eden beklenmedik ve ihtimal dışı bir başarıya ulaşma gücü verir."[7] *Reşat* onunla konuşurken "ben burada güçsüzüm"[8] diyerek ondan adeta yardım isteyecek, o da "En büyük güreşçi kendisini yenmesini bilendir."[9] diyerek onu teşvik edecektir.

Yaşlı bilge, bu eserde iki farklı kimlikle karşımıza çıksa da aslında aynı işlevi görmeleri bakımından tek bir figürdür. Olay örgüsünün işleyişinde yönlendirici rolünü üstlenen bu arketip baştan sona mutlaka her perdede sahneye çıkıp olayların akış yönünü değiştirmek ister ve sonuç itibariyle başarılı olur. Bu durum okuyucuda/seyircide fantastik duyguların uyanmasına da imkân vererek ruhsal zenginlik yaratır.

---

[1] Jung, Dört Arketip, s. 88.
[2] Vahabzade, age, s. 35.
[3] Vahabzade, age, s. 37.
[4] Vahabzade, age, s. 106.
[5] Vahabzade, age, s. 124-126.
[6] Vahabzade, age, s. 163-165.
[7] Jung, Dört Arketip, s. 89-90.
[8] Vahabzade, age, s. 146
[9] Vahabzade, age, s. 147.

Feryad'da yaşlı bilge adam arketipini saray âlimi *Lokman* temsil eder. Olay örgüsünün işleyişinde zaman zaman yardımcı, bazen de yönlendirici fonksiyonu yüklenmiş olan *Lokman* sahnede en çok kalan kişilerden biri olur. Sık sık *Emir*'le ve *Zahit*'le tartışmaya giren *Lokman*, onları hakikat, adalet, merhamet konusunda uyarır. Konuştuğu kişilere, yalandan, riyadan uzak durmanın zorunluluğunu hatırlatan *Lokman* hayat felsefesini de şöyle anlatır:

"Ben ne hurûfîyim ne de dindarım
Nerde gerçek varsa, orda ben varım
Yalandır, riyadır… büyük düşmanım
Yalnız hakikattir Allahım benim
İnsan idrakiyle yüce ve asil
Sen idrake yaslan, duyguya değil."[1]

Bu bakış açısı yukarıda özelliklerini saydığımız yaşlı bilge adamla *Lokman*'ı özdeş kılar. Jung'un şu açıklamaları bu durumu daha da belirginleştirir: "Demek ki yaşlı adam bir yandan bilgi, idrak, düşünce, bilgelik, akıllılık ve sezgi, diğer yandan da iyi niyet ve yardımseverlik gibi ahlaki özellikleri temsil eder, ki bunlar onun "ruhsal" karakterini yeterince ortaya koyar."[2]

Metinlerdeki yaşlı bilge adam kurgulamaları ilk iki oyunda hayalî kişiler, son oyunda ise gerçek bir kişi hüviyetiyle karşımıza çıkmaktadır. Yazar, hayalî kişilerle okuyucunun/seyircinin heyecanını diri tutacak esrarlı bir iklim yaratmıştır. Bu tutum metni daha dinamik kılmış ve okuyucu/seyircinin oyuna katılma duygusunu tahrik etmiştir. Onlar, yanlışı gördükçe kendi iç dünyalarında itiraz eden okuyucunun/seyircinin de sözcüsü olmuştur. Bu figürlerin entrikayı zenginleştirici bir işlevlerinin olduğu da görülür; hepsi olay örgüsü zincirine yeni halkların eklenmesini sağlamış ve olayların akış yönüne tesir etmiştir. Keza, bu figürler muayyen bir ritim duygusu yaratma bakımından da kısmî bir rol oynamaktadır. *II. Reşat* ile *II. Arzu* figürleri, sırasıyla sahneye çıkarak seyircide/okuyucuda bir iç ritim yaratmıştır.

3.3. Anima ve Animus: Bugün biyoloji biliminin de tespit ettiği gibi her insan çift cinsiyetlidir. Bununla birlikte, yine biyolojik olarak iki cinsin farklılığı da bir gerçektir. Mitolojide kadın ve erkeğin tek bir varlığın bölünmesinden ortaya çıktığına dair bazı imgeler bulunduğu gibi, çift cinsiyetli varlıklara da rastlanır. İslam kültüründe Havva'nın, Adem'in kürek kemiğinden yaratıldığına ilişkin bir algının varlığı bilinmektedir.

Jung'a göre, her iki cins de, diğerine ait arketipik bir imgeyi saklar. Bu bağlamda, anima erkeğin içindeki kadın arketipini, animus ise kadının içindeki erkek arketipini temsil eder. Anima ve animus her iki cinsin bilinçdışında erkeğin kadınlığa ait yönünü ve kadının erkekliğe ait yönünü temsilen zıt eşler (syzygy) olarak faaliyet gösterir. Bu kadın ve erkeğin birbiriyle ilişkisini derinden etkiler. Anima ve animus arketipi benlikle bilinçdışı arasında arabulucu rolü üstlenerek kişinin iç ve dış dünyaya uyumunu sağlama işlevi üstlenir. Onlar bilinçdışında ne denli yer tutarsa dışa yansıtılma ihtimalleri de o derece yüksektir. Dolayısıyla karşı cinse ait imgelerin uyanması ile aşk arasında sıkı bir ilişki vardır. Eğer, bu arketip gölge ile özdeşleşirse yadsınma öne çıkar[3].

İncelememize konu olan eserler içinde bu arketiplerin bariz bir biçimde görüldüğü metin *İkinci Ses*'tir. Eserde, *Reşat* ve *Arzu* üzerinden bu yönde bir çözümleme yapıldığında her ikisinin de bu arketiplerinin güçlü etkisinde oldukları gözlemlenmektedir. *Reşat* ile *Arzu* arasında yukarıda da değinildiği gibi bir yasak aşk ilişkisi vardır. Bu aşkın sebebi nedir diye sorduğumuzda *Reşat*'ın, *Arzu*'ya söylediği şu sözler problemin çözümüne ışık tutmaktadır: "Seni çok daha önceleri henüz dünyaya gelmeden tanıyormuşum gibi geliyor bana."[4] Bu durumu Jung şöyle açıklar:

"Her erkek içinde salt bu veya şu kadına ait olmayan, ebedi bir kadın tasviri, belirli bir kadınlık imgesi taşır. Bu tasvir temelde bilinçdışıdır ve başlangıçtan beri var olan kaynağın kalıtsal bir faktördür."[5]

[1] Vahabzade, age, s. 269.
[2] Jung, Dört Arketip, s. 91.
[3] Stevens, age, s. 72.
[4] Vahabzade, age, s. 120.
[5] Stevens, age, s. 72.

Demek ki, *Reşat*, *Arzu*'yu animası ile özdeşleştirmekte, onunla birleşmeyi kendi bütünlüğünü sağlamak olarak görmektedir. Bu birlikteliğin kendini tamamlamak olduğu hissi *Arzu* tarafından da "Evet, biz zaten aynı insanlarız."[1] cümlesiyle dile getirilir ki bu da *Arzu*'nun *Reşat*'ı animusuyla özdeşleştirdiğinin delilidir. Arzu, "Tarın telleri de çifte. Bu teller aynı ses üzerinde köklenmezse beste yapılamaz, zaten."[2] cümleleriyle bu fikrini pekiştirir. *Arzu* da, *Reşat*'ı ilk gördüğü anda *Reşat*'ın kapıldığı hislerin bir benzerine kapılır. *Arzu*'ya daha önceden birileri *Reşat*'tan bahsetmiştir ve *Arzu* bu önbilgiden yola çıkarak *Reşat*'ı hayalinde canlandırmış, görür görmez hemen tanımış ve "hayalim, aşkım, heyecanım" duygusuna kapılmıştır.

Reşat, *Arzu*'ya olan aşkını dile getirirken coşku içinde kendinden geçer ve "Ben tırmanmaya tepe değil, yüksek dağ istiyorum."[3] der. Buradaki dağ imgesi ile ilgili Jung ilginç bir tespitte bulunur. Ona göre, "Dağın büyüklüğü ve yüksekliği yetişkin kişiliği imler."[4]; "Dağ, yolculuğun ve tırmanışın hedefini temsil eder, bu nedenle psikolojide genellikle Kendilik anlamına gelir."[5] Kendilik, kişiliğin bütününü temsil eder; kendiliğin gerçekleşmesi bilinçdışı ile benliğin tanışması; birleşmesi demektir. *Reşat*, *Arzu*'da yansımasını bulan animası ile bütünleşmeyi dağ imgesiyle ifade etmiş olur. Reşat'ın Arzu'yu, "tan yıldızımsın benim"[6] diyerek "ışık" imgesi ile anması da dikkat çekicidir. Çünkü ışık, tüm arketiplerin kökeni olan Tanrı arketipidir.

Anima ve animus kurgulamaları seyircide/okuyucuda kendi iç benliklerine yolculuk yapma; böylece kendilerini tanıma duygusu uyandıracağı için kişilerle özdeşlik kurma yoluna gideceklerler ve bu estetik haz yaratıcı bir durumu ortaya çıkaracaktır. Keza, bir edebi metinde kurgulanan karakterlerin düz, kolay kavranabilir olmasındansa daha karmaşık, derinlikli ve çok yönlü bir yapıda bulunmaları okuyucuyu bir bulmaca zorluğu ile karşılaştıracağı için estetik haz yaratıcı bir diğer öğedir. Diğer iki eserde anima-animus arketipini bariz bir biçimde temsil eden bir kurgulama yapılmamıştır.

Sonuç: Vahapzade'nin Türkiye Türkçesine aktarılmış tiyatro eserlerinin şahıslar kadrosu arketipsel eleştiri kuramı bağlamında tahlil edilmiştir. Ancak, çalışmanın sınırları gereği bütün kurgusal figürler değil, üç önemli arketipsel figür; gölge/hilebaz, yaşlı bilge adam ve anima-animus esas alınmış ve şu sonuçlar elde edilmiştir

1. İlk bakışta hayatın akışı içinde her gün karşımıza çıkan sıradan bireyler izlenimi veren kişilerin aslında bir mitik kahraman kadar özgün yönlerinin olduğu ortaya çıkmıştır. Özgünlük, sanat eserinde daima aranan bir özelliktir.
2. Arketipler sadece mitolojik/fantastik tarihsel metinlerde değil çağdaş metinlerde de işlenmektedir. Kültür ve medeniyet hangi düzeyde gelişirse gelişsin insan türüne ait bir takım özelliklerin korunmaya ve sanat eserlerine yansımaya devam ettiği gözlemlenmektedir. Bu türsel oluş, bireyselden evrensele uzanan bir genişlik yaratarak her okuyucunun/seyircinin eserle özdeşlik kurmasını sağlamaktadır. Özdeşlik kurma sanat eserinin muhatabında estetik haz yaratıcı bir unsurdur.
3. Arketipsel figürlerin dönüşümlü olarak sahneye çıkmaları seyircide/okuyucuda ritim duygusu yaratmıştır. Ritim, insan ruhunun en hoşlandığı hallerdendir.
4. Arketipsel figürler üzerinden yapılan *Ulu Ecdad*, *Zahit*, *Lokman*, *Arzu*, *Reşat* gibi isim sembolizasyonları yarattığı çağrışımlarla seyircide/okuyucuda ruhsal zenginlik yaratmıştır.
5. Arketipsel figürlerle yaratılan gizemli iklim seyircileri/okuyucuları ürpermeye sevk etmiştir; bu da bir estetik haz vesilesidir.
6. Eserlerin tematik zenginliğinde bu arketipsel figürlerin muayyen bir rolü vardır.

[1] Vahabzade, age, s. 120.
[2] Vahabzade, age, s. 120.
[3] Vahabzade, age, s. 122.
[4] Jung, Dört Arketip, s. 89.
[5] Jung, Dört Arketip, s. 89. (Dipnot)
[6] Vahabzade, age, s. 123.

N S M N N ÜSYANKAR S S B XT YAR VAHABZAD N N "F RYAD"INDA

S ad t ıxıyeva

filologiya üzrə fəlsəfə doktoru,
AMEA akad. Z. Bünyadov adına Şərqşünaslıq İnstitutu

XÜLAS

Böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin "Fəryad" mənzum pyesi həm ədəbi ənənələrin davamı olması və sinkretizmi, həm də fərdi özəllikləri ilə seçilir. Nəsiminin böyük nüfuz sahibi şair şəxsiyyətinə fərqli bucaqdan işıq salan Bəxtiyar Vahabzadənin təqdimatında Nəsimi cismani deyil, ruhi varlığı ilə əsərin şərti bir qəhrəmanıdır. Əsər tarixi olmaqdan çox, fəlsəfi, ictimai və psixoloji xarakterlidir. Bu pyes poetik dəyərləri ilə türk dünyasında Nəsimi haqqında qələmə alınmış nəsr, nəzm və dram əsərləri silsiləsində xüsusi bir mövqeyə malikdir.

Açar sözl r: Nəsimi, Bəxtiyar Vahabzadə, mənzum pyes, ənənə, fərdiyyət.

SUMMARY

The verse play of the great Azerbaijani poet Bakhtiyar Vahabzadeh named "Faryad" has unique poetic features and definite continuation of medieval traditions in poetry. In this work, a conventional hero Nesimi is not real (a body image); he is spiritual (ideas and soul). Mostly this play is not a historical work. It has philosophical, social and psychological character. By its poetic features, this work has a special place in the Turkic world of prose, poetry and drama devoted to Nesimi.

Key words: Nasimi, Bakhtiyar Vahabzade, verse plays, tradition, individuality

Giri

Seyyid İmadəddin Nəsimi şəxsiyyətinin iki başlıca cəhəti – şairlik qüdrəti və şəhidlik zirvəsi həmişə söz ustalarının diqqət mərkəzində olmuşdur. Orta çağdan etibarən barəsində mənzum və mənsur mənqəbələr qələmə alınan Nəsimi həm anonim müəlliflər, həm də konkret şairlər tərəfindən tərənnüm olunmuşdur. Ölümündən az müddət sonra haqqında haqq aşiqi, övliya və şəhid kimi bəhs edən müəlliflər öz əsərlərində, miniatür sənətində olduğu kimi, onun parlaq, stilizə və idealizə olunmuş obrazını yaratmışlar.

1. "F ryad" s rinin fikri- d bi z minin t kil ed n poetik n n nin tarixin qısa bir ekskurs

XV yüzillikdən başlayaraq, şairlərin çeşidli janrlarda yazdığı əsərlərdə ən yüksək epitetlərlə öyülən Nəsimi ali insani keyfiyyətlərin, mərdanəlik və fədakarlığın timsalına çevrilmişdir. Ondan ilk olaraq söz acan şairlərdən biri çığatay ədəbiyyatının görkəmli nümayəndəsi Əlişir Nəvaidir. O, *"Nəsayimül-məhəbbə"* adlı övliya təzkirəsində Nəsimi haqqındakı mənqəbəvi rəvayətlərdən birini qələmə almışdır:

"Meşhur mundaktur kim, tirisin soyar hükm boluptur. Ol haletde bu şirni dipdür ki

Kıbledür yüzüng nigara kaşlarung mihrablar
Suretüng mushaf veli hal u hattung irablar

Ve bu şi'ring tahallusu uşbu müdde'aga dal durur kim:

Ay Nesimi çün müyesser boldı ikbal u visal
Koy tiringni soysa soysun bu pelid kassablar".

Sonralar Nəsimidən bəhs edən böyük (məsnəvi) və ya kiçik həcmli (şərti olaraq "həbsiyyə" adlanan şeirlər qrupuna daxil edilən qəzəllər) əsərlərdə şairin edam zamanı söylədiyi şeirlərin mətni dəyişdirilə-dəyişdirilə günümüzədək gəlib çıxdı və bu ənənə tarixi gerçəklik kimi qəbul olunaraq araşdırmalara da yol tapdı. Edam zamanı Nəsiminin şeir söyləməsi rəvayətində şairin *"Sığmazam"* rədifli qəzəlinin, ona aid edilən *"Ağrımaz"* rədifli və s. kimi şeirlərin, *"Ənəlhəq"* deyiminin istifadəsini xatırlatmaqla kifayətlənirik.

Nəsiminin vəli və şair olaraq xatırlanmasına XV yüzillikdən etibarən bir çox divan şairlərinin əsərlərində rast gəlirik. Mütəfəkkirin şəhidlik zirvəsinə yüksəlmiş "haqq aşiqi" kimi öyüldüyü, onun bu faciəsinə acımanın ifadə edildiyi, yaxud sadəcə xatırlatma xarakterli işarə-beyt və misralar bir çox şairin yaradıcılığında yer alır. Xüsusilə ələvi-bəktaşı çevrələrində yaranan poetik örnəklərdə şairə bu məhəbbətin bariz ifadələrinə rast gəlinir. Bu şairlərin əksəriyyəti

daha çox Nəsiminin faciəvi aqibətindən, edam səhnəsində haqq aşiqi kimi mətanətindən, ölümündən sonrakı ruhi halları və kəramətlərindən bəhs edirlər. Buna örnək olaraq, Muhyiddin Abdal (XVI), Şah İsmayıl Xətai (XVI), Pir Sultan Abdal (XVI), Sarı Aşıq (XVII), Koyunoğlu (XVII), Qul Nəsimi (XVII), Əndəlib (1660-1740), Məxtumqulu (XVII), Şeydayi (XVIII), Şəmi (XIX), Məhəmməd Sübhi (XIX) və başqa şairlərin adlarını qeyd edə bilərik.

Göründüyü kimi, Nəsimidən haqq aşiqi və şəhid kimi söz açan şairlərin sırasına Azərbaycan, Türkiyə, İran, Türkmənistan, Özbəkistan kimi ölkələrin şairləri daxildir. Onun faciəsi və mənqəbəvi şəxsiyyəti divan, məsnəvi və xalq şeri tərzində yazılmış şeirlərin mövzularından birinə çevrilmiş, şəxsiyyəti şairlərin heyranlıq obyekti olmuşdur. Nəsimi orta əsrlərdə divan və xalq şeri tərzində yazan şairlər tərəfindən təkcə haqq aşiqi kimi öyülməmişdir, o, çeşidli şairnamələrdə həm də şair olaraq təqdirlə anılmışdır.

Nəsimidən bəhs edən ilk irihəcmli mənzum əsər (“Risaleyi-Nəsimi”) Nurmühəmməd Əndəlibə məxsusdur. XX yüzillikdə həmin ənənə Sergey İvanovun “İmadəddin Nəsimi” (rusca, 1943), Qabilin “Nəsimi” (1964-1973), Rəsul Rzanın “Son gecə” (1973-1974), Nəbi Xəzrinin “Mənim babam baxan dağlar” (1976) poemaları və Bəxtiyar Vahabzadənin “Fəryad” (1981-1984) mənzum pyesi ilə davam etdirilmişdir. Qabilin əsəri Nəsimiyə həsr olunmuş poemalar içərisində daha böyük həcmli olması və tarixi poema anlayışının tələblərinə cavab verməsi ilə digərlərindən seçilir. XX yüzillikdə Azərbaycan, Türkiyə, İran, İraq, Türkmənistan və Özbəkistan ədəbiyyatında Nəsiminin istər şəxsiyyətinə, istərsə də şerinə çoxsaylı müraciətlər vardır. Çeşidi və çoxsaylılığı ilə seçilən bu xatırlatma və iqtibaslar xüsusi araşdırmaya möhtacdır. Burada mövzudan kənara çıxmamaq məqsədi ilə Nəsimidən bəhs edən irihəcmli nəsr əsərlərindən Seygey Borodinin “Səmərqənd ulduzları” (II kitab, 1958) və İsa Hüseynovun “Məhşər” (1973-1975) romanlarının adlarını xatırlatmaqla bu bəhsə yekun vururuq.

2. “F ryad” s rinin q hr man v motivl ri: arxetipl rl müqayis li t hlil

Qeyd etməliyik ki, böyük Azərbaycan şairi B.Vahabzadənin “Fəryad” mənzum pyesində türkmən şairi Nurmühəmməd Əndəlibin “Risaleyi-Nəsimi” məsnəvisindən, İsa Hüseynovun “Məhşər”% ro0 TD0.0003 Tc-0.0003 TrT4 Tc0 Tw(ðΓj/TT4 1 Tf0.28 0 TD(n)Tj/TT9 1 Tf0.5 0 TD(ðΓj/

iki əsər (“Fəryad” və “Son gecə”) arasında inkarolunmaz ədəbi əlaqə bağı qurur. Buna görə də, B.Vahabzadənin “Fəryad” əsərində ədəbi ənənədən alınmaları və fərdi interpretasiyaları dəyərləndirmək niyyəti ilə R.Rzanın “Son gecə” poeması ilə müqayisəli təqdim etməyi məqsədəuyğun bildik. Hər iki şair əsərlərində başlıca vurğunu, Nəsimi haqqındakı mənqəbəvi rəvayətlərin çoxunda olduğu kimi, hürufi şairin ömrünün son günlərinə vururlar. Rəsul Rzanın əsərində onun həbsxanada keçən son gecəsi nisbətən daha realist xarakterli cizgi və təsvirlərlə gözlərimiz önündə canlandırılır. Bəxtiyar Vahabzadənin pyesində isə şairin şəxsiyyətinə daha mücərrəd bir biçim verilməklə ömrünün son günləri onu sevənlərin və sevməyənlərin mübarizəsi fonunda təsvir edilir.

Hər iki şair təkcə Nəsiminin həbsxana həyatını deyil, o dövrdə zindanda ola biləcək digər insanların həyatını, onların qəlb ağrıları və yaşantılarını da qələmə alırlar. R.Rzanın ümumi şəkildə bəhs etdiyi bu motivi B.Vahabzadə inkişaf etdirərək, əsərində yardımçı süjet xəttinə çevirir. Rəsul Rzanın təqdimində sanki *“can gözü”* (Nəsimi) ilə son gecəsini yaşayan Nəsiminin ruhi-psixoloji durumu təsvir edilir:

Burda keçir son gecəsi
İmadəddinin.
Bir küncdə
diz üstündə oturub:
nə görkəmində məyusluq,
nə gözlərində kin.
Sakitdir.
Təlatümü susmuş
dərya kimi
Ömrü varaqlanır gözündə
qarışıq, dumanlı röya kimi.

Maraqlıdır ki, istər R.Rzanın, istərsə B.Vahabzadənin bu mənzum əsərlərində şəxs adları şərtidir. Bu isə hürufilik tarixi ilə yaxından səsləşir. Hürufiliyi ilkin qaynaqlar əsasında tədqiq edən və bu təlim barədə dəyərli tədqiqat müəllifi H. Ritter Fəzlullahın övladlarının adından bəhs edərkən bunların müstəqim deyil, rəmzi və şərti adlar olduğunu bildirir. Bənzər durumla Rəzul Rza və Bəxtiyar Vahabzadənin ikinci dərəcəli qəhrəmanlarının ad seçimində də qarşılaşırıq. Nəsimi və hürufilikdən bəhs edən əsərlərinin qəhrəmanlarına rəmzi xarakterli ad seçərkən şairlərin bu təlimdə rəmziliyin ön planda olmasını nəzərə almaları və bunu uğurla tətbiqi diqqətimizi cəlb etdi. R.Rzanın poemasında zindandakı gözətçinin adının Nicat olaraq verilməsini təsadüfi hesab etmirik. Belə ki, bu zindan gözətçisini xatırlatmadan öncəki misralarda R. Rza dustaqlıqda olan Nəsiminin gözü ilə ölümü *“qurtuluş qapısı”* adlandırır:

Ölümdən betər ömür günləri
Qurtuluş qapısı - ölüm.

Bənzər vəziyyət Bəxtiyar Vahabzadənin əsərində də özünü göstərir: əsərdə real varlıqları ilə iştirak edən qəhrəmanların adı simvolik, yalnız adı ilə əsərin qəhrəmanı olan Nəsiminin isə əsərdəki iştirakı şərtidir. Əsərdəki surətlərin adına diqqət etdikdə bu surətlərin bəzisinin cəmiyyətdəki mövqeyi, bəzisinin isə ruhi durumu və yaxud əqidəsinə görə adlar almasının şahidi oluruq. Əmir, Vəliəhd, Zahid, Vəzir, Loğman, Qoca şair, Gənc şair, Gözətçi adları onların sosial statusunu göstərir. Çalpapaq qiyafənin və etnoqrafik xarakterli özəlliyin göstəricisidir. Şəkkak ruhi-psixoloji durumu ifadə edir. Lal adlı surət aldığı adın tam əksinə olaraq, Zahidin xəbərçisidir. Dəyanət, Rəhman, Sübhan, Kəramət əqidə ilə bağlı bu qəhrəmanlara verilmiş adlardandır.

Hər iki şairin Nəsiminin *“Sığmazam”* rədifli şerinin ilk misrasından (*“Məndə sığar iki cahan, mən bu cahana sığmazam”)* təsirlənməsi verdikləri örnəklərdən bəlli olur. Rəsul Rza:

Məndə iki cahan sığdı,
sığa bilmədim bu cahana.

Nəsiminin bu şah beyti Bəxtiyar Vahabzadənin də diqqətini çəkir. O, Zahidin dilindən II Nəsimiyə deyir:

Bu dünyanın dərdləri necə sığır sinənə.

Maraqlıdır ki, XX yüzillikdə Nəsimiyə poema həsr etmiş Azərbaycan şairlərindən hər biri bu beytə müraciət etmişlər.

Qeyd etməliyik ki, Bəxtiyar Vahabzadənin əsərində, Əndəlib, Qabil və R.Rzadan fərqli olaraq, Nəsiminin heç bir beyt və ya tam şerinin iqtibas biçimində istifadəsinə rast gəlinmir. Onun Nəsimi şerinə müraciətində sadəcə bəzi məşhur şeirlərin ideya, ifadə və məzmunundan yararlanma nəzərə çarpır. Halbuki Qabilin sərbəst vəzndə yazılmış əsərində Nəsiminin qəzəl və tuyuqlarına vəzni qorumaqla çoxsaylı müraciətlər edilmişdir. Eləcə də Əndəlib Nəsiminin bir neçə (bunların içində müəllifi mübahisəli olanlar da vardır), R.Rza isə bir qəzəlindən istifadə etmişlər. Örnək olaraq, R.Rzanın "Son gecə" poemasından müvafiq parçanı qeyd edirik:

Cana, səndən hər nə kim gəlsə,
cigərlər ağrımaz.
Həq bilir, bir nuş üçün
yüz niş vurarlar, ağrımaz
Yarı sevməkdənmidir,
ya aşinalıqdanmıdır,
Cismimi sərpa-qədəm
min kəz yararlar, ağrımaz
Zahidin əfsanəsindən
soydular nahaq məni,
Həq bilur, səndən, şəha,
açuq bəsirlər ağrımaz.
Zahidin bir barmağın kəssən,
dönər həqdən qaçar,
Gör, bu gerçək aşiqi
sərpa soyarlar, ağrımaz.

Göründüyü kimi, *"Ağrımaz"* rədifli qəzəlin beytləri qafiyə sistemi və strukturu sərbəst şerin quruluşuna uyğunlaşdırılmaqla verilmişdir. Qeyd etməliyik ki, Azərbaycan ədəbiyyatşünaslıqda uzun illər boyu "həbsiyyə şeirləri" adı altında Nəsimiyə aid edilən, dil-üslub xüsusiyyətləri və təhkiyə üsulu ilə hürufi şairə yad olan bu qəzəl onu sevənlər tərəfindən adına yazılan şeirlərdən ən məşhurudur.

Hər iki əsərdə bəzi motivlərin eyniyyəti diqqətimizi cəlb etdi. Rəsul Rzanın əsərində zindançının böyük rəğbət bəslədiyi şairin yerinə ölümə getmək istəyi təbii və canlı təsvirini tapır. Lakin məğrur şair bu istəyi məntiqli cavabı ilə nəzakətlə rədd edir. Bu motiv sonralar Bəxtiyar Vahabzadənin "Fəryad"ında inkişaf etdirilir. Nəsiminin yerinə ölümə getmək istəyən və onun adını daşıyan iki Nəsimi, onların mübahisəsi və s. əsərdə geniş təsvir olunur.

"Fəryad" əsərində bir sıra təsəvvüfi ideyaların ifadəsi böyük şairin bu fəlsəfənin əsaslarını araşdırıb öyrəndiyini göstərir. Örnəklərə nəzər salaq. Şair I Nəsiminin dilindən deyir:

Gizldir hər zərrədə vəhdət,
Bir zərrə ikən küllə qovuşmaq ulu niyyət!
Gördüklərimiz zahiridir, bətnə nüfuz et!
Batindəki cövhərdə, fitrətdədir Allah.

Başqa bir şerində isə şair II Nəsiminin dilindən Vəliəhdə deyir:

Dünyəvi sultanlığı mənəvi sultanlığa
Dəyişmək istəyənlər
"Haqqa qulam" - deyənlər,
Bil ki, sözündən əvvəl özünü dəyişməli,
İztirablar odunda yana-yana bişməli!
Sənsə oddan keçməmiş bişdiyini deyirsən,
Təriqəti bilməmiş müdriklik istəyirsən?

Bu misralarda təsəvvüfi düşüncədəki "şah" anlayışının, məna və surət ziddiyyətinin, eləcə Mövlananın mənəvi təkamülü ifadə edən kəlamının açıq təsiri görülməkdədir. Mövlananın adı

ilə bağlı həmin dillər əzbəri olan kəlamda deyilir: *"Xam bedəm, poxte şodəm, suxtəm"* ("Çiy idim, bişdim, yandım").

B.Vahabzadənin əsərinin sonluğunda C.Cabbarlının "Od gəlini"nin son səhnəsinin də dolayısı ilə təsirini görmək mümkündür. "Fəryad" pyesinin sonunda əsərdə bəzən həllaci, bəzən isə hürufi kimi təqdim olunan müsbət qəhrəmanların əqidə düşmənləri ilə müxalifəti və stereotip düşüncə ilə yeni fikirliliyin açıq ziddiyyəti təfərrüatlı ifadəsini tapmışdır. Əsərin finalında ikinci qrupa daxil olanların birincilərin qəlibləşmiş zehniyyətinə təsir etmək cəhdi qrup xarakterliliyi ilə seçilsə də, mahiyyət etibarilə "Od gəlini"nin son səhnəsini xatırladır. Əqidəsi uğrunda ölümə gedən, mətanəti və iradəsi ilə əqidə düşmənini sarsıdaraq, görüşlərində bir tərəddüd yaradan Elxanla Aqşin arasındakı məşhur dialoqun bu son səhnənin qurulmasında fikri təkan rolu oynadığı qənaətindəyik.

Şair-dramaturqun pyesində Nəsimi haqqında yazılmış nəsr əsərlərinin də bəzi qəhrəman və süjetlərindən bəhrələnmə görülməkdədir. Bu əxzetmələrdən biri dini əqidə pərdəsi altında riyakarlıq edən Zahid obrazı ilə bağlı səhnələrdə üzə çıxır. Zahid karyerası naminə hürufilik əqidəsini qəbul etmiş övladını (Dəyanət) qurban vermək istəyi ilə İsa Hüseynovun "Məhşər" əsərindəki Şeyx Əzəmi xatırlatmaqdadır. Əslində bu tərzdə ziddiyyətin, hürufiliklə bağlı atalar-oğullar qarşıdurmasının da tarixi zəmini vardır. Bunun bir örnəyi olaraq, Teymurilərdən Şahruxla oğlu Uluğ bəyin hürufilərə münasibətini göstərmək olar. Fəzlullahın nəvəsi Əmir Nurullahı və hürufiliyin tanınmış xəlifələrindən Əliyyül-Əlanın bacısı oğlu Əmir Qiyasəddini sui-qəsd ittihamı ilə həbs etdirən və edamlarını tələb edən Şahrux hürufilərlə ünsiyyətdə olub onlara rəğbət bəsləyən Uluğ bəyin ciddi müqaviməti ilə qarşılaşır.

3. XX yüzillikd Az rbaycan airl rinin üsyankar ruhunun t rcümanı N simi

Üsyankar şairin şəxsiyyəti onun haqqında yazanların mövcud ictimai qayda-qanunlara, sosial ədalətsizliyə qarşı etirazını ifadə etmək üçün geniş imkanlar açırdı. Elə buna görə də, XX yüzilliyin şairlərinin əsərlərində Nəsimini daha çox onların ruh halının tərcümanı və ideyalarının carçısı, onlara öz həqiqətlərini söyləmə imkanı verən bir qəhrəman olaraq görürük.

Sovet dövründə yazıldığından üzərinə dövrün ideologiyasının möhürü vurulan "Son gecə" və "Fəryad" əsərlərindən Nəsiminin tarixi şəxsiyyətinin əslinə uyğun təsvirini gözləmək doğru olmaz. Əslində o dövrün elmi ədəbiyyatında həmin ideologiyanın güclü təsiri altında böyük mütəfəkkir, mütəsəvvif, öz ifadəsi ilə "hafiz" olan Nəsiminin şəxsiyyəti, əqidəsi və həyat yolu təhrif olunmuş şəklidə təqdim edilirdi və bu yanaşmalar bədii ədəbiyyatda da öz izini qoymuşdu. Bununla belə, bəzi istisnalara da diqqəti cəlb etmək istərdik. R.Rzanın son şairin gecəsinin xəyali təsvirində onun namaz qılmasına işarə edən aşağıdakı misraları diqqətimizi çəkdi:

Susur Qala.
Susur Hələb.
Susur bir küncdə tozlu canamaz.
Susur naxışlı su camı.

Əsərin məlum ideologiyanın hakim olduğu və Nəsiminin görüşlərinin ciddi təhrifə uğradılaraq, dini-fikri zəminindən ayrıldığı bir dövrdə yazıldığını nəzərə alsaq, R.Rzanın bu təsvirində tarixi gerçəkliyə daha artıq sadiq qaldığı söylənilə bilir və bu epizodun təsvirini mövcud təsəvvürlərə etiraz səsi kimi qiymətləndirmək olar. Burada haşiyə çıxaraq, hürufilik tarixində bir sıra hürufilərin namaz qılınmasına ehtiyac qalmadığı iddiasını irəli sürdüyünü, Fəzlullahın nüfuzlu xəlifəsi Əliyyül-Əlanın hürufi mürşidinin həyat tərzi və söylədiklərinə istinadən namazın hürufilər üçün vacibliyini əsaslandırdığını xatırlatmaq istərdik.

R.Rzanın Nəsimi ilə bir vəhdət təşkil edən üsyankar səsi din adıyla dəllallıq edənlərə, ölümdən sonra gələcək səadət vədi ilə insanları istismar edənlərə qarşı yönəlib. Onun etirazı həqiqi və səmimi dini etiqada qarşı deyildir. Bu ehtimalımızı şairin aşağıdakı misraları da təsdiqləyir:

Hər kəsin qəlbində
Qadağasız etiqad, iman.
Könlü xoş,
vahiməsiz yaşayacaq

xilqətin əşrəfi,
dünyanın böyük memarı,
Allahın yer üzündə
təcəssümü - "İnsan!"

Bəxtiyar Vahabzadənin "Fəryad" mənzum pyesində də eyni mövqedən dini ikiüzlülük və siyasi ədalətsizliklərə qarşı üsyankarlıq və inkarçılığın ifadəsini görürük. Bəzən hətta pyesinin müəllifinin səsi Nəsimini görünməz və eşilməz edəcək qədər qüvvətlənir. Bunu əsərin müsbət qəhrəmanlarının nisbətən uzun nitqlərində, onların dini və siyasi istismara qarşı ucalan səsində daha güclü hiss edirik. Bununla belə, Bəxtiyar Vahabzadənin bir müəllif kimi mövzunun alındığı məkan və zamana nisbi bağlılığı əsər boyu qorunur. Yalnız əsəri sonluğunda mövzunun alındığı keçmiş zamanla xəyali və məntiqi əlaqənin qırıldığının, şairin artıq qəhrəmanın dili ilə öz zəmanəsinə fikri qayıdışının şahidi oluruq.

Artıq qeyd etdiyimiz kimi, "Fəryad" əsərində Nəsiminin böyük nüfuz sahibi şair şəxsiyyətinə fərqli bucaqdan işıq salan Bəxtiyar Vahabzadənin təqdimatında Nəsimi cismani deyil, ruhi varlığı ilə əsərin şərti bir qəhrəmanıdır. Cismani şəkil almadığından da zindan və dar ağacının – məhdudiyyəti və ölümün fövqündədir. Bütün əsər boyu onun üçün nəzərdə tutulan cəza və edam niyyətləri də bu səbəbdən nəticəsiz qalır. Çünki əsərdə iştirak edən şairin cismani varlığı deyil, adı, sözü, ideyaları və ən sonda deyildiyi kimi, səsidir:

Mərdliyə çağırır bu gün hər kəsi
Dərisi soyulan şairin səsi,
Uzaq əsrlərdən gəlir nəfəsi
Diri dünyamıza ölü dünyanın.

İstər qəhrəmanlarının adı, istər ölüb-dirilmələr, istər məkan, zaman və cismani varlıq anlayışının fövqünə qalxma və s. əsərin şərtiliklər üzərində qurulmasından irəli gəlir. Bu mənada Bəxtiyar Vahabzadəyə əsərin kompozisiyası ilə uyuşmayan yuxarıdakı sonluğu irad tutmaq olmur. Şair-dramaturq artıq qeyd etdiyimiz kimi, Nəsimini real və tarixi bir şəxsiyyət kimi əsərə gətirmir. O, Nəsimilərdən birinin edamını təsvir etdiyi halda, digərinin taleyini məchul saxlayaraq, onun aqibətini açıqlamadan əsərə yekun vurur. Bununla ulu sənətkarın həyatının davam etdiyinə işarə edən şairin əsərin ümumi məzmunu ilə zaman etibarilə uyuşmayan yuxarıdakı sonluğu çaşqınlıq yaradır və təzad kimi görünür. Belə ki, yuxarıdakı misralardan da göründüyü kimi, II Nəsiminin (Tural) dili ilə şair bunun çox əsrlər öncə baş verməsini və hürufi şairin dərisinin soyulmasını dilə gətirir. Zənnimizcə, burada müəllifin emosionallığı, şərtilik və mücərrədliyə meylliliyi bədii məntiqinə qalib gəlmiş və sonda elə bu emosiyalar axarında B. Vahabzadə şəxsiyyəti ikinci Nəsimi ilə eyniləşmişdir.

4."F ryad"a prototiplik ed n m nq b v r vay tl r

Əsər boyu yeri gəldikcə şair-dramaturqun Nəsimi haqqındakı məşhur mənqəbə və rəvayətlərdən yaradıcı bəhrələnmələrinin də şahidi oluruq. Nəsiminin *"Siğmazam"* rədifli qəzəlinin ifadələrini (*"gövhəri-laməkan mənəm"*), Həllac Mənsurdan əxz etdiyi və sevimli kəlmələrindən olan *"ənəlhəq"*ini, onun ölüm səhnəsini təsvir edən məşhur rəvayəti sintez edən B.Vahabzadə Nəsiminin əqidə düşməni Zahidin dilindən deyir:

Allah idin sən əvvəl,
Laməkandın, ruh idin,
Nəfəs idin, səs idin,
Gözəgörünməz idin. (185)

Qeyd etməliyik ki, Nəsiminin şeirlərinin, şərti olaraq I Nəsimi və II Nəsimi kimi adlandırılan heyranlarının dilindən deyil, əsasən, əqidə düşmənlərindən olan Zahidin dilindən səsləndirilməsi B. Vahabzadənin söz sənətkarlığından xəbər verir və şairin şeirlərinin hüdud bilmədən dillər əzbəri olması ideyasını ifadəyə xidmət edir. Qeyd etməliyik ki, orta əsrlərdə Nəsiminin əqidəsinə müxtəlif mövqelərdən yanaşmalar olsa da, qüdrətli şair və nüfuz edici söz-fikir sahibi olması hürufilik təliminə düşmən mövqedə duranlar tərəfindən də dolayısı ilə təsdiq edilmişdir. Örnək olaraq, Nəsimidən bəhs edən orta çağ ərəb tarixçilərini və türk təzkirəçilərindən Aşıq Çələbini xatırlada bilərik.

Əsərdə yuxarıdakı misraların ardınca Zahidin dediyi: *"Sən günəş batacaqsan, o günəş doğulanda!"* deyimi də Nəsimi haqqındakı məşhur rəvayətdən təsirlənmədir. İlk olaraq, Əmir Kəmaləddin Hüseyn Gazurqahinin "Məcalisül-üşşaq" kimi övliya təzkirəsində Nəsimi ilə əlaqədar rast gəldiyimiz rəvayət müəyyən dəyişikliklə bir çox əsərlərə nəql olunmuşdur. Rəvayətin nəsimişünaslıqda sıxlıqla istifadə olunan variantı bu şəkildədir: "Dərisi soyularkən qan itirən şairin saraldığını görən ruhanilər istehza ilə soruşurlar:

– Sən ki həqsən, bəs niyə rəngin sarıdır?

Nəsimi:

– Mən əbədiyyət üfüqlərində doğan eşq günəşiyəm. Günəş batanda saralar, – deyə cavab verir".

Əslində Nəsimini günəşə bənzətmə ilk öncə onun öz əsərlərdəki bəzi deyimlərdən ("*zərrə mənəm, günəş mənəm"*) qaynaqlanır. Bununla belə, qeyd etməliyik ki, tarix kitabları və mənqəbələrdə bu rəvayət azacıq dəyişikliklərlə təkcə Nəsiminin deyil, Babəkin və Şeyx Bədrəddinin də adına yazılır.

Əsərdə digər tanınmış şəxslərlə bağlı rəvayətlərdən də istifadə olunub:

Rəhman

Şeir oğrusunu çox eşitmişik,
Şair oğrusunu gördüm gözümlə

Bu ifadə XII əsrin məşhur şairi Ənvəri ilə bağlı rəvayətdən iqtibasdır və B.Vahabzadə dolayısı ilə Nəsimi haqqındakı digər bir rəvayətin qaynağına işarə edir. Burada təsəvvür aydınlığı yaratmaq üçün hər iki rəvayəti təqdim edirik. Ənvəri ilə bağlı rəvayətdə deyilir:

"Bir gün alim və şair-filosof Ənvəri Bəlx bazarından keçirdi. Orada bir hadisə ilə rastlaşıb irəli addımladı və gördü ki, bir kişi meydanda dayanıb onun şeirlərini öz şeirləri ünvanı altında oxuyur, camaat isə onu alqışlayır. Ənvəri o kişiyə yaxınlaşıb soruşdu:

– Sənin oxuduğun bu şeirlər hansı şairindir?

Kişi istehzalı təbəssümlə cavab verir:

– Ənvərinin şeirləridir.

Ənvəri yenə o kişidən soruşur:

– Sən Ənvərini görmüsən? Onu tanıyırsan?

Kişi cavab verir:

– Siz nə danışırsınız? Mən özüm Ənvəriyəm.

Ənvərinin bu kişinin cavabına gülməyi tutur və o, üzünü camaata doğru çevirib deyir:

– Ay camaat! Mən şeir oğrusu eşitmişdim, amma şair oğrusu nə eşitmişdim, nə də görmüşdüm?!"

Nəsimi haqqındakı rəvayətdə isə Nəsiminin adı ilə şeir oxuyan nəinki qınaq obyekti deyil, hətta onun bu hərəkəti ustadına heyranlığın təzahürü və fədakarlıq örnəyi kimi dəyərləndirilir. Bu rəvayətin də Nəsimi ilə bağlı daha qədim variantına Əmir Kəmaləddin Hüseyn Gazurqahinin "Məcalisül-üşşaq"ında rast gəlinir. Bir sıra dəyişmələrə uğrayan rəvayətin nəsimişünaslıqda nəql olunan şəkli belədir: "Bir gün Hələb şəhərində gənc bir hürufi Nəsiminin bir şerini uca səslə oxuyurmuş. Gənci həbsə alırlar. O, şeri özünün yazdığını söyləyir. Ruhanilərin fitvası ilə onu dar ağacından asılmağa məhkum edirlər. Hadisədən xəbər tutan Nəsimi özünü cəza meydanına yetirib, şerin müəllifi olduğunu bildirir. Ruhanilər onun hürufi mürşidi olduğunu öyrənib, diri-diri soyulmasına fitva verirlər".

Başqalarının Nəsiminin yerinə ölümə getmək istəyi, Nəsimi olaraq görünmə cəhdi kimi motiv B.Vahabzadənin əsərində də ön plandadır. Şairin I Nəsimi və II Nəsimi olaraq əsərinə qəhrəman seçdiyi şəxsləri təqdimində həm də yuxarıdakı rəvayətin təsiri vardır. Bununla belə, şairin Ənvəriyə aid rəvayəti xatırlatması onun Nəsimi haqqındakı sonuncu rəvayətin arxetipi haqqında da məlumatlılığını göstərir.

"Fəryad" əsərində Nəsimi haqqında söylənən daha bir rəvayətə təlmih yolu ilə işarə edilir. II
Nə %

Bu misralar Nəsimi haqqında söylənən bir rəvayətin xülasəsi xarakterlidir. Rəvayətdə deyilir: “Şairin ölümünə fitva verən ruhani deyir:

– Bu o qədər məlundur ki, onun qanından hara düşsə, kəsib atmaq lazımdır.

Təsadüfən şairin qanından bir damcı həmin ruhaninin barmağına sıçrayır.

Camaat ondan barmağının kəsilməsini tələb edir. O isə:

– Mən sözgəlişi demişəm, – cavabını verir. Bu zaman al qan içində olan şair:

Zahidin bir barmağın kəssən dönüb həqdən qaçar,
Gör bu gerçək aşiqi sərpa soyarlar ağrımaz,

- deyir”.

Göründüyü kimi, Nəsimi haqqında geniş yayılmış, onun şəxsiyyətini yarıəfsanəvi və realist cizgilərlə təsvir edən rəvayət və mənqəbələr də “Fəryad” əsərinə qaynaqlıq etməkdədir.

N tic

Araşdırmam

sonra" (1971) kimi dövrün və zamanın nəbzini tutan, cəmiyyətin ictimai və mənəvi problemlərini sənətin faktına çevirən və onun nikbin bədii-estetik həllini verən əsərləri xüsusi yer tutur. Bütün yaradıcılığında olduğu kimi dram əsərlərində də şair, dramaturq cəmiyyəti narahat edən problemləri mövzu olaraq seçir və onları sənətdə və sənətin yardımı ilə yenidən təqdim edir. Bu dram cəmiyyətin, xalqın və millətin, onun sosial və mənəvi problemlərinin, ailə-məişət və əxlaq məsələlərinin dramı olur.

Bəxtiyarın dramaturgiyası müasir ədəbiyyatşünaslıqda belə xarakterizə olunur: "Poetik Cavid və Vurğun teatrı üçün romantik vüsət və epik möhtəşəmlik nə qədər xasdırsa, dramaturq Bəxtiyar üçün lirik özünütəhlil bir o qədər səciyyəvidir"(1,656).

Çünki Bəxtiyar hər şeydən öncə yüksək lirik vüsətli şairdir və yaradıcılığının bütün janr arsenalında bu xüsusiyyət aparıcı mövqedə olur. Onun dramaturgiyasının konfliktoloji nüvəsində cəmiyyətdən və bəşəriyyətdən öncə fərd durur. Burada "zaman və epoxalar üz üzə gəlmir, əvəzində "mən" parçalanır və parçalanan təzadlar, qütblər üzbəüz ön plana keçir"(1,657).

Ədibin dramaturgiyasının zirvə məqamını təşkil edən "Fəryad" adlı əsərdə də yazıçı özünəməxsus fərdi ədəbi üslubu, mövzu, problem seçimi, ideya-məzmun yaradıcılığı, cəmiyyətin estetik dünyasına daxil etdiyi fikir, düşüncə və bədii sənətini daha da dərinləşən, genişlənən bir dinamika ilə davam etdirmiş və belə bir məqama gəlib çata bilmişdir. Bu dramaturq Bəxtiyar Vahabzadənin içində dünyaya, bəşəriyyətə ah məzmunu da ifadə edən şah əsəridir. Amma bu ah nə Füzulidəki kimi təsəvvüf anlamlı "sərvi-xuraman" üçün, nə də sabirdəki satirik semantikalı "küftə badımcan" üçündür. Bu ah Nəsimi poeziyasının pafosunu təşkil edən əsas emosional duyğu kompleksinin tərkib hissələrindən biri, "ölmədən ölən" və əbədi diri qalan şairin nidasıdır. Hələ cəhalət girdabında olan cəmiyyətə "haqqı izhar etməyə" çalışan şairin bu xoş niyyətinin mənasızlığı "şişəni daşa çalmaq" kimi bir ahın ifadəsidir.

Bəxtiyar Vahabzadə bu dramatik məqamı dəqiq müəyyənləşdirmiş və haq söyləyən və dərisi soyulan Nəsimin harayını və ahını əsərin həm başlığı, həm də baş ideyası kimi mənalandırmışdır.

Orta əsrlərin müsəlman mövhumatının əsarətindən xilas olmağa cəsarət edən təkkə və təriqət mənsublarının insanı haqqa doğru aparan mənəvi təkamül ideyasının, fəlsəfəsinin və təcrübəsinin tənəzzülü, süqutu və faciəsi Nəsimi taleyində, onun "Fəryad"dakı yenidən mənalandırılmış ifadəsində təcəssüm olunur.

Bəxtiyar Vahabzadənin iki tarixi şəxsiyyətə-Babəkə və Nəsimiyə həsr etdiyi iki tarixi əsərinin-"Dar ağacı" və "Fəryad" əsərlərinin ikisində də əsas qəhrəmanın özü iştirak etmir. "Dar ağacı"nda Babəki, "Fəryad"da Nəsimini görmürük. "Doğrudur, "Dar ağacı"nda bütün hadisələrə və talelərə Babəkin səsi və qəhqəhəsi ilə yekun vurulur, amma süjetin real gedişi prosesində Babəkin özü yox, kabusu, teyfi iştirak edir. Eləcə də "Fəryad" pyesində Nəsiminin öz obrazı yoxdur. Əvəzində Nəsimi nəsli var, Nəsimi xalqı və milləti var"(1,657).

Əsərin əsas mənasını daşıyan, semantik vahidin (fəryadın) mərkəzi seqmentini təşkil edən ideyanın bir səs, bir nida olaraq seçilməsinin özündə bir orjinallıq və ya postmodernist bir yanaşma müşahidə olunur. Əsərin mövzusu və ideyası müsəlman şərqinin mənəvi reallığını əks etdirməklə yanaşı bəşəri bir məzmunu da özündə ehtiva edir. Bu mənada, "Fəryad"da fərdin, xalqın və insanlığın fəryadı bir-birinə qarışmış, qovuşmuş və qlobal bir mahiyyət qazanmışdır.

Fəryadın bir səs, haray olaraq özü Bəxtiyar yaradıcılığında bir obrazdır, bəzən də ad və ya sərlövhədir. Pyeslərində bir sıra obrazların yalnız səsi eşidilir, özü görünmür("İkinci səs", "Dar ağacı", "Yağışdan sonra", "Fəryad"). Ümumiyyətlə, şairin poeziyası Şəkidə ucqar kənd məktəblərindən birində salınan məktəb zəngi ilə başlayır, kitablarından birinin üzərinə yazılan "Fəryad" sözündəki harayla öz zirvə və yekun məqamına gəlib çatır. Artıq bir kənddə çalınan məktəb zəngi kimi yox, planetə səs salan həyəcan zəngi kimi, Bethovenin və Qalileyin, Nəsimin və Babəkin, Buhenvald harayının, Xatının, Xocalının, Şuşanın fəryadının ağrısı, yaddaş zəngi kimi səslənməyə başlayır. Və onda artıq təkcə məktəb və uşaqlar üçün yox, dünya və bəşər üçün qayğıların miqyası və vüsəti görünür"(1,660).

"Şairin bədii təfəkkürü həmişə fəlsəfi ümumiləşdirmələrə meyl edir. O, bir çox əsərlərində bütün bəşəriyyəti düşündürmüş və düşündürən böyük fəlsəfi məsələlərin poetik ifadəsini

yaratmişdır. Məlumdur ki, insan tarixinin böhranlı dövrlərində bir sıra ölkələrdə dini fanatizm güclənir. Indi bunu biz həm xristianlığın, həm islamın, həm də başqa dinlərin hakim olduğu ölkələrdə müşahidə edirik… " (3,14). B.Vahabzadənin "Fəryad" pyesi də dini fanatizmin hökm sürdüyü bir vaxtda, insanın alçaldıldığı bir dövrdə onun gücünə olan inamdan doğan bir təriqətdən bəhs edir. Lakin pyesin mövzusunu "təriqət" ifadəsiylə məhdudlaşdırsaq haqsızlıq etmiş olarıq. Bu, şeirlə yazılmış dərin fəlsəfəsi olan bir əsərdir. İlk baxışda əsərin adı təmamilə fərqli düşünməyə vadar edir. "Fəryad" dedikdə ilk əvvəl faciəvi hadisələr, qırğınlar və məhz bu qırğınların törətdiyi "fəryadlar" fikrimizdə canlanır. Lakin əsəri oxuduqda görürük ki, bu heç də belə deyil. Pyesdəki hadisələr bir faciənin verə biləcəyindən daha dərin, daha fəlsəfi məna kəsb edir.

Pyesdə hadisələr Hələb şəhərində baş verir. Şəhərə başçılığı buranın valisi Əmir edir. Hələb və ətraf ərazilər hürufilik təriqətinin tərafdarları ilə doludur. Nəimi Şirvanda asılıb, onun yolunu Nəsimi davam etdirir. Pyes hürufiliyin Nəsimi dövründən bəhs edir. Öz ideyası ilə insanlara həqiqəti göstərən, onları doğru yola çağıran Nəimidən qorxanlar ondan qurtuluşu edamında gördülər. Lakin bununla da təlim olduğundan daha çox gücləndi. Daha da genişləndi. Təlimin yayıldığı yerlərdən biri də Hələb şəhəri idi və burada insanlar Nəiminin, Nəsiminin şeirlərini, fəlsəfi fikirlərini əzbərdən deyirdilər. Bundan narahat olan saray Nəsimini tapana yüksək miqdarda pul ayırır, axtarış elan edir, lakin onun tapılması yolunda atılan hər addım boşa çıxırdı. Hər dəfəsində Nəsimi adı ilə onun müridlərindən biri özünü ustadı yolunda qurban verirdi. Bu adi bir şair uğrunda qurban getmək demək deyildi, Nəsimi adında ideya, böyük gələcəyi olan əqidə, insanlığın kamillik səviyyəsi var idi. Bu səbəbdəndir ki, XV əsrdə yaşamasına baxmayaraq uğrunda Nəsimilər qurban gedən Nəsimi və onun fikirləri, ideyeları hələ də yaşayır. Əsrlərlə haqqında yazılmasına, oxunmasına, tədqiq olunmasına baxmayaraq açılmamış sirlərlə doludur, fəlsəfəsilə XXI əsrin beyinlərini heyrətə gətirir.

Əsərdə adı çəkilməsinə baxmayaraq, Nəsiminin bir şair kimi obrazına rast gəlmirik, o, pyesdə personaj kimi birbaşa iştirak etməsə də onun ruhu, məsləki hadisələrin gözə görünməyən iştirakçısına və qəhrəmanına çevrilir. Bunu da oxucunun fikrini yazıçının məqsədinə yönəldən amillərdən biri kimi hesab etmək olar.

"Fəryad" pyesində Bəxtiyar Vahabzadə klassik ədəbiyyatımızın böyük şəxsiyyəti olan Nəsimini səhnəyə gətirməmiş, Nəsimi ruhunu, Nəsimi idealını yaşadan, "mənəm Allah" deyib özünü bu yolda qurban verən nəsimiçiləri tərənnüm etmişdir. Nə qədər ki, Nəsimi yolunda, onun tapındığı inam yolunda qurban gedənlər var, o qədər də nəsimiyə ölüm yoxdur. Əsərin qayəsini məhz bu fikir təşkil edir. Əgər Nəsimi "ənəlhəqq" – "Mənəm Allah" deyirsə, onun davamçıları artıq "Mənəm Allah" yox, "Mənəm Nəsimi" deyərək əqidə və amal uğrunda könüllü ölümə gedirlər. … "(4,119)

Hürufilik insana özünü tanıdırdı. Çarəsiz, haqsızlar əlində qula dönmüş bir insana yol göstərir, ona nəyə qadir olduğunu anlatmağa çalışırdı. O dövrdə əsl "Allahı dananlar"ın dinə düşmən hesab etdikləri hürufilik heç də göründüyü, təqdim olunduğu kimi olmamış, tam yanlış anlaşılmışdı. Xurafatın hökm sürdüyü bir dövrdə "Allahı insanda axtarmaq" ağlasığmaz şəkildə "dəhşətli" idi, "dini danmaq", bununla da bütün ölkəni, onun rəhbərliyini danmaq demək idi. Bu təriqət insana öz gücünü göstərməklə, ona öz haqlarını tanıtmağa çalışırdı. Əsərdə bu məsələyə münasibət belə ifadə olunur:

…Fikir də, arzular da ürəkdə dustaq ikən,
Düşünməyin özü də insana yasaq ikən
Bizim ləyaqətimiz, eşqimiz tapdanırkən
Yalanlar da qudurub həqiqəti danırkən,
Allah necə götürür yaratdığı insanın
Bir qula dönməsini.
İnsan alçaldılanda ona ucalığını
Xatırlatmaq gərəkdir… .

Bəxtiyar Vahabzadənin bu əsərdə insan, onun kamilliyi, "insan" anlayışı, allah haqqında düşüncələri öz əksini tapır.

Əsərin ən təsirli məqamlarından biri I Nəsimi (Həllaci Musa) ilə II Nəsiminin (Tural) deyişməsidir. Nəsimi adı ilə zindana atılan bu insanlar hər ikisi böyük mütəfəkkirin vurğunudur. Onu yaşatmaq üçün canlarından keçməyə hazırdılar. Müəllif insan, Allah haqqında yüksək fikirlərini, məhz bu insanların dili ilə vermişdir. Pyes haqqında fikir bildirən Mirzə İbrahimov Nəsimilərin bu dialoqunu Nəsiminin daxili monoloqu adlandırmışdır. (3, 14) Çünki bu monoloq Nəsimi fəlsəfəsi üzərində qurulmuş, onun ideyalarını təmamilə özündə cəmləşdirir:

Allah! Bilirik, cism deyil, bəs nədir Allah?
Ən yüksək olan haqda, həqiqətdədir Allah!
Dondunsa təkamül və gözəllik qabağında,
Dərk et, bu təəccübdə, bu heyrətdədir Allah!
İnsan nə imiş? Gizlidir insandakı qüdrət,
Hər kəs onu fəhm etməsə, acizdir o, əlbət.
İnsanın əzəl borcudur insanlığa hörmət,
İnsanlığa hörmətdə, ləyaqətdədir Allah!

Əsərdə Vahabzadə "dindar" allahsızlarla "allahsız" dindarları qarşı-qarşıya qoyur. Onların "mən"ləri, həyata baxışları, düşüncə tərzləri olduqca müxtəlifdir. Birincilər yaşamağı sevir, ölümdən qorxurlar. İkincilər isə ölümü sevir, Bəxtiyar Vahabzadənin yaşadığı zamanda az idimi bir sözə görə güllələnən, sürgün edilən, evi, ailəsi viran qoyulanlar. Müşfiqləri, Cavidləri saymaqla bitməz. Bu pyesdə müəllif Sovet dövründəki represiyalara toxunur. Gənc Şairi Əmirə, onun hakimiyyətinə kinayə etdiyi üçün zindana salırlar. Sənətkar bu obrazın dilindən öz fikirlərini ifadə edərək yazır:

Bir kəlmə həqiqətdirsə, qorxar yalan ondan
Çox güclüdür bir kəlmə həqiqət
Yüz kəlmə yalandan.
Bir kəlməni susdurmağın ancaq
Zalimlər üçün bir yolu vardır, o da zindan.

Müəllifin Ayparanın dilindən verdiyi fikirlərində də əsərin digər hissələrində olduğu kimi Hüseyn Cavid fikirləri görürük:

İnsanın qüdrəti öz içindədir,
Yaxşı dabizdədir, yaman da bizdə,
Gerçək də bizdədir, yalan da bizdə.

Bənzər motivləri Nəsimilərin dialoqunda "insan nədir?" sualına verilən cavabda da görmək mümkündür. Öz qəlbinə dalmayan, ruhuna yox, cisminə qulluq edən insan, insan deyil, şeytandır. Eyni fikrə H. Cavidin "İblis"ində də rast gəlirik. İnsan və onun qəlbi ön plana çəkilir.

Əsərdə dərin məna kəsb edən, bu günümüzlə səsləşən məsələlər həddən artıq çoxdur. Əsərin sonunda Loğmanın dediyi bir fikir diqqəti cəlb edir:

Yalanla gerçəyin çarpışmasından
Əsrlər yaşadı ili dünyanın.
Həqiqət incələr, amma qırılmaz,
Fəryadla açıldı dili dünyanın.

Ümumiliyyətlə əsərin məzmununu götürsək, müəllif bu fikri bir neçə dəfə təkrar edir. "Fəryad" azdlığa, müstəqilliyə gedən yoldur. Əzab - əziyyət olmadan insan həyatda heç nə qazana bilməz. İnsanı insan səviyyəsinə qaldıran da elə onun bu yolda çəkdiyi zəhmətdir:

Dərdiylə güləşdikcə fəzilətdədir insan,
Ziddiylə də, əksiylə də vəhdətdədir insan.
Qorxduqsa ölümdən və əcəldən,
İnsanlığı verdik demək əldən.

Əsərdən də göründüyü kimi Nəsiminin yaşadığı, təsvir etdiyi və amansızcasına qamçıladığı dövr keçmişdə qalmışdır. Əslində onun şeirlərinin heç birində ictimai problemin qoyuluşu, zəmanənin tənqidi maddi xarakter daşımır. Nəsimi daha çox ağıl, qəlb, vicdan, mənlik, bir sözlə, insanın daxili aləmi, yaşadığı dövrdə onun problemlərini təsvir edirdi. Çünki daxili aləm, mənəviyyat yeri gələrsə, insanı kamil səviyyəyə qaldıra, əks halda onu ən rəzil vəziyyətə endirə

bilər. Şair zəmanəsində, ətrfında kamil insanlar görmək istəyir, insanları özlərini, haqlarını tanımağa səsləyirdi, bundan uzaq olanları, onunla razılaşmayıb öz bildiklərini insanların beyninə yeridən "xurafat vurğunlarını" isə tənqid edirdi, qorxaq, dinsiz adlandırırdı.Dini həqiqətən bilən, Allahını tanıyan bir kəs kamilliyə gedən yoldadır və o heç vaxt ölümdən qorxmur.

Nəsimi öldürüldüsə də, onun tərənnüm etdiyi, uğrunda həyatını faciəli surətdə qurban verdiyi ideallar yaşayır. Bu ideallar ölməzdir. Nə qədər ki, yalan var, deməli həqiqət də var. Həqiqət olmayan bir yerdə yalanın olması mümkün olmadığı kimi, insan olmayan yerdə də həqiqətin olması qeyri-mümkündür. Söhbət əsl, kamil insandan gedir – Nəsiminin qəhrəmanı kimi. Və bəşəriyyət yaşayır və ən insani idealların bütün yer üzündə təntənəsinə doğru inamla addımlayır. İnsan, onun gücünə inam Nəsimi tərəfdarlarının şüarına çevrilmişdir. Elə "Fəryad"-da da pisliklər bu cür mütərəqqi insanların dili ilə tənqid olunur. Bu insanların fəlsəfəsi həqiqət, sosial ədalət fəlsəfəsidir. Loğman, I Nəsimi, II Nəsimi, Gənc şair, Rəhman, Dəyanət kimi obrazlar yaşadıqları cəmiyyətin, "bilənə bilməyənin dərs verdiyi", əyriliyi, rüşvəti insanın özü üçün yaşamaq yolu seçdiyi cəmiyyəti, haqqa nahaq deyən, ağılların ağlına gözətçi kəsilən zəmanəni qeyri-insani hesab edir, məhvedici poetik bir dillə ifşa edirlər. Həm də bu fikirlər dərin mənalı ifadələrdə əks olunur

Yaşamaq xətrinə haqqı dananlar,
Qazana-qazana uduzur yenə…
İnsanı ucaldan ulu bir eşq, dəyanət,
Alçaldan isə, … qorxu, xəyanət.

Ölü hesab etdiyimiz dünya, onun sakinləri diri dünyamıza səslənir, bizə ibrət dərsi verməyə çalışırlar. Nəsimi bizi özü kimi olmağa, həqiqəti görməyə, onun uğrunda şəhid olmağa çağırır. "Fəryad" pyesi insanın keçən zamanın, əsrlərin, illərin arxasından, tarixi keçmişimizdən bizə səslənən harayıdır, fəryadıdır.

D B YYAT

1. Qarayev Y. Azərbaycan ədəbiyyatı:XIX və XX yüzillər. Bakı, "Elm", 2002. 740 s.
2. Qarayev Y. Tarix:yaxından və uzaqdan.Bakı, "Sabah", 1995, 712 s.
3. İbrahimov M. "Azərbaycanın Bəxtiyarı" səh. 14
4. Səfiyeva F. "Bəxtiyar Vahabzadənin drammaturgiyası" səh. 119
5. Vahabzadə B. Əsərləri.

I BEYNƏLXALQ BƏXTİYAR VAHABZADƏ SİMPOZİUMU

VAHABZADƏ VƏ TÜRK DÜNYASI

Qafqaz Universiteti, 13-15 dekabr 2012-ci il

B XT YAR VAHABZAD N N S S
“TÜRKÜN QOPUZUNDAN QOPAN VARLI IN S S D R”

Abbasova Elmira

Dr., Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutu
Qloballaşma və İnformasiya Cəmiyyətinin Fəlsəfi Problemləri şöbəsi
abbaselmira@mail.ru

XÜLAS

Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri də B.Vahabzadədir. Onun yaradıcılıq rolu tarixin enişli-yoxuşlu sınaqlarından üzüağ çıxmış, buna görə də xalqın rəğbətini qazana bilmişdir. B.Vahabzadə Azərbaycan xalqı üçün təkcə şair olmamış, o bu xalqın çətin məqamlarında onun tutarlı sözü olmuş, yeri gəldikdə millətin hüquq və etirazların ifadəçisi kimi çıxış etmişdir. Heç də təsadüfi deyil ki, sovet rejiminin tüğyan etdiyi bir zamanda B.Vahabzadə türk şairlərinin əsərlərini Q.Tukayın (tatar), Renat Xarisin (tatar), Camal Kamal Özbək (özbək), Dmitri Zlatev (bolqar) Azərbaycan dilinə tərcümə etmişdir. Bununla öz soykökünə sadiqliyini təsdiqləməyə nail olmuşdur. Onun hər bir yaradıcı axtarışlarının dayaq nöqtəsində türk olması, bu ulusla fəxri, bu kökə sadiqliyini özünü göstərməkdədir.

B.Vahabzadə böyük şair olmaqla yanaşı, həm də gözəl publisist məqalələr müəllifi kimi tədqiqatçıların araşdırmalarında yer alır. Bu məqalələr toplusunda müəllif türk xalqına olan sevgisini Yunus Əmrəyə sevgisində əks etdirmiş, bu böyük mütəsəvvüf şair haqqında yayılan rəvayətlərə yarımhəqiqət donu geydirərək oxuculara təqdim etməsi onun publisistik istedadından xəbər verir. Məqalədə şair Yunus Əmrə yaradıcılığını müxtəlif yönlərdən araşdıraraq onların dəqiq təhlilini verir, yeri gəldikcə müəlliflə sanki polemikaya girərək şairin ilahilərini tədqiqat obyektinə çevirir. Yunusun 700 illik bir məsafədən müasir türk insanına göndərdiyi salamını onun uzaqgörənlik, öncədən xəbərvermə, övliya olması ilə əlaqələndirir. “Biz dünyadan gedər olduq, qalanlara salam olsun” deyən Yunusu sanki öz olduğunu deməklə, ona olan sevgisini bildirir. Məqalənin sonunda B.Vahabzadə Yunus Əmrəyə məhəbbətini şairə həsr etdiyi “bir yerdə ölüb bəs niyə min yerdə doğuldu?” deyən şair özü-özünə sual etməklə məqaləni Yunus Əmrəyə həsr etdiyi şeirlə tamamlayır[1].

Açar Sözl r: B.Vahabzadə, Yunus Əmrə, Q.Tukay,türkçülük

Türkçülük ideyalarının çırağında daim pərvanə tək fəryad edən şairin Yunus Əmrəyə həsr etdiyi məqaləsində bu dahi türk ozanına dərin sevgisi, Yunus Əmrə şeirinin fəlsəfi-idrakı hikmətlərini hər cümlədə qabarıq tərzdə öz oxucusuna çox səlis və rəvan bir şəkildə çatdırır. B.Vahabzadəyə görə Yunus ona görə bütün nəsillərin müasiri və türk xalqının sevimlisidir ki, çünki o, daim haqq aşiqi olmuş, insanlığa gedən yolun belə haqdan-həqiqətdən keçdiyini öz ilahilərində dönə-dönə israr etmişdir.

“Haqqı necə taparsan haqqa qul olmayınca” deyən Yunusa istinadən şair haqqı hər bir kəsin özündə axtarmağı tövsiyə edir. B.Vahabzadə Yunus Əmrəni varlığında yox, yoxluğunda daha çox var olan şair adlandırır, çünki o, bütün dünyaya səpələnən türk xalqını öz sehrli cazibəsilə birləşdirəcək bir qüvvəyə malikdir, ona görə ki, Yunus doğma xalqın dilində yazmaqla bərabər, həm də xalqın ruhun da düşünür və özünəməxsus duyun tərzi ilə səciyyələnir. Bu mənada məqalədə ədib Yunus Əmrəni özünün müasiri olan dahi türk şairi və mütəfəkkiri Mövlana Cəlaləddin Rumi ilə qarşı-qarşıya qoyaraq Yunusun Mövlananin fars dilində yazıb-yaratmasına etirazını bir növ öz daxilindən gələn milli ruhdan uzaqlaşmaya qarşı olan etiraz səsi kimi qələmə almışdır. Milli ruh və türkçülük məzmunlu yaradıcılığa heyrətamiz münasibət B.Vahabzadə şeir üslubunun əsas qayəsidir və onun ilham qaynağının ən incə meyarıdır. Türkçülüyə qarşı ən kəskin ideoloji qadağalarla silahlanmış sovet şovinizm siyasətinə rəğmən türkün haqq səsini, türk dünyasının böyüklüyünü xalqa çatdırmaq, özünün məzmunlu və fəlsəfi axtarışlarla qayələnmiş publisistik məqalələrilə gələcək nəsillərə örnək olacaq yazılarla çıxış etmək. B.Vahabzadənin səsinin elə sözün əsl mənasında türkün qopuzundan qopan haqq səsi olduğuna əyani sübutdur.

— Əfsanəmi, gerçəkmi? Bu insan necə insan?

— Varlıq səsidir, qopmuş. O türkün qopuzundan.[2]

[1] Hümmətova X. Yunus Əmrə (məqalələr toplusu). Bakı: “Elm və təhsil”, 2012, 240s.

[2] Vahabzadə B. 4. Vahabzadə B. Axı dünya fırlanır... Bakı, 1987, 208 s.

İlahilərindəki insan sevgisinə həqiqət və mərifət nəğməkarı olan Yunus Əmrəyə ithaf olunan şeirdə olan bu misraları bir növ müasir çağdaş dünyamızda elə B.Vahabzadəyə şamil etməklə onun türkçülüyünü bir daha əyani şəkildə vurğulamaq zənnimizcə çox həqiqətə yaxın bir fikir olardı.

Şairin türk dünyasına olan rəğbət dolu baxışları təkcə Yunus Əmrəyə müraciətlə kifayətlənmir. Məqalənin əvvəlində adları şəkilən bir sıra türk ədibləri sırasında Qabdulla Tukayın da Vahabzadə yaradıcılığında və publisistikasında özünəməxsus mövqeyi vardır.

B.Vahabzadə Qabdulla Tukaya təkcə tatar xalqının deyil, bütün bəşəriyyətin dühası kimi baxır. Yaşadıqları dövr yaradıcılıqlarının ideya istiqaməti, eyni zamanda talelərində çox böyük yaxınlıq və eynilik olduğundan B.Vahabzadə Qabdulla Tukayı tanınmış satirik-şair Mirzə Ələkbər Sabirlə yanaşı qoyaraq bu iki insanı əməl və fikir qardaşı hesab edir. Çünki hər iki şairin həyatda heç bir şəxsi mənafeyi, istək və arzusu olmamışdır. Onların amalı yalnız Vətən sevgisi və xalqın tərəqqisi olmuşdur.Rus imperializmindən azd olmaq bu iki şairin həyat amalı olmuşdur. Q.Tukay yaradıcılığından danışan X.Hümmətova yazır:Şair hakimiyyətdə olan rus burjuaziyasının tatar xalqının "yeraltı dünyasına"da haqqında oxucusuna məlumat verir.[3]

Dünyanı işıqlatmaq üçün, qəlbini yaxtın,
Şimşək kimi çaxdın
Qəlbin alovundan axan amal işığında
Sən əsrinə baxdın
Çəkdin min ömürlük yükü, sən azca ömründə,
"Xalqım, deyə xalq ömrünə ulduz kimi axdın..."[4]

Hələ gənclik çağlarından Q.Tukayın Bakıda yaşayan yaxın qohumu Həvva xanımın köməyi ilə şairin şeirlərinin izahından tələffüzün başqa olmasına baxmayaraq kəlmələrin eyni kökə, eyni mənaya malik olduğunu duyduğundan türkçülük hissinin təsiri altında Tukay sevgisi Bəxtiyar Vahabzadənin qəlbində ilıq bir məhəbbət çırağına qərq oldu. Bir türk oğlu kimi Qabdulla Tukayı öz xalqının ululuları cərgəsində olanlar səviyyəsində görən Bəxtiyar Vahabzadə şairi bir şəxsiyyət olaraq tatar xalqının rəmzi kimi bütün türk dünyasının doğma və əziz şairi adlandırırdı.

Xalqın özü oğluyla bərabər yenə təkrar
Dünyaya gələrmiş.
Bir xalqın öz idrakını bir övlad hünərlə,
Vallah, təzələrmiş[5]

- deyərək ədib şairə olan sonsuz sevgisini çox böyük cəsarətlə vurğulamışdır.

Unutmaq olmaz ki, B.Vahabzadə yaradıcılığı məhz totalitar sovet rejimi illərinə təsadüf edir. Lakin buna baxmayaraq poeziyasında olduğu kimi publisistikasında da amiranəlik üslubundan kənarlaşaraq öz millətçi baxışlarını özünəməxsus incə cizgilərlə vurğulamağa müyəssər olan xalq şairimiz sözün əsl mənasında xalq ruhunda yazıb yaratmışdır. Bütün varlığı ilə ruhuna hopmuş "əslini, kökünü" aramaq duyğuları məqsədilə yazılmış Mirzə Cəlilə həsr oluna məqalədə onun "Anamın kitabı" pyesində Mirzə Cəlilin "Ana yaradıcıdır, ana kökdür, əsasdır, bünövrədir" sözünə istinadən "insan öz kökünü, öz əslini inkar edəndə yaşaya bilər, lakin özünü yaşamaz, özgəni yaşayar, bir sözlə öz sifəti, öz varlığı olmaz..."

Öz amalına sadiq qalan B.Vahabzadə qeyd edir ki... Anamın kitabı, kitablar kitabıdır. Bu kitab vaxtilə parça-parça doğranmış mənəviyyatımızın, ruhumuzun, dilimizin, varlığımızın, özlüyümüzün acı fəryadı, Dədə Qorqudlu keçmişimizin parçalanmış dünənimizə, istehzalı gülüşləridir və nəhayət bu kitab bizi birliyə, əslimizə, kökümüzə, sədaqətə səsləyən bir kitabdır. Göründüyü kimi şair özünün "Əslimiz kökümüz" məqaləsində də türkçülüyə hayqıran bir səslə dərin mətləbləri çox incə cizgilərlə tədqiq edərək özünün araşdırıcılıq qabiliyyətinin üzə çıxarılmasına müvəffəq olmuşdur.

---

3. Tukay Q. Samanbazarı, yaxud Yeni Kəsikbaş poeması. (Ön sözün müəllifi və tərtib edəni X.Hümmətova). Bakı: Elm və təhsil, 2011,150 s.
4. Vahabzadə.B. Seçilmiş əsərləri. Ic. Bakı.1974.

Kelebekler kimi qarlar düşüyor
Sanki bir nur eniyor hər fidana. [4]

- deyən şairin qəlbinin bir fidana türk dünyasına olan böyük sevgisi diqqəti cəlb edir.

"Dəyişməzdir əqidəm, çox da dünya fırlanır", deyən şairin öz mövqeyində inadla bərqərar olması digər əsərlərdə də yəni "Ədəbi şəxsiyyət və dil" kitabının müəllifinə açıq məktub yazısında Elməddin Əlibəyzadəyə xitabən Azərbaycan xalqının tarix yaddaşı, könül sirdaşı, ruhunun əbədi qidası olan söz-şeir, eyni zamanda mahnı və musiqiyə istinadən kökümüzün, rişəmizin, özülümüz olan ənənələrin araşdırılmasını çox yüksək qiymətləndirir və bu əsərin Ana dilli poeziyamızın güclü kökə malik olan bir zəmin üzərində ucalmasını ədəbi aləmə tanıtdıran əsər kimi uğurlu nəşr olaraq dəyərləndirir.

Daha sonra "Dərin qatlara işıq "məqaləsində publisist şair ana dilimizin kökünü araşdırıb öyrənməyin zəruriliyini vurğulayaraq bir sıra dəyərli faktlarla qədim xalq dili xəzinəmizin kökündə soyumuzdan xəbər verən saysız-hesabsız sözlərin, kəlmələrin zənginliyini qeyd edir.

Şairin "Yanar ürək" adlı məqaləsində Ömər Faiq Nemanzadəyə həsr etdiyi yazıda Ömər Faiqin vətən sevgisini sevginin şair hüdudu adlandıraraq bu sevginin qayəsində zəmanəsinin hadisələr burulğanına xalq məhəbbətinin gözü ilə baxdığına görə onun mərd türk övladı kimi bütün varlığı ilə xalqa bağlılığını dönə-dönə vurğulamışdır. Bütün bunlarla yanaşı türk dünyasının görkəmli ədiblərindən biri olan Hüseyn Cavid irsi də B.Vahabzadənin baxışlarında özünəməxsus dəyərli mövqeyə malikdir. Müəyyən mənada dövrün tələblərinə uyğun olaraq yazılan yazılarda şair özünəməxsus çalarlarla Hüseyn Cavid yaradıcılığının təhlilini apararkən türkçülük hayqırtısının səsini boğmaq əvəzinə bütün təzyiqlərə və iradlara rəğmən həqiqət carçısı olaraq öz mövqeyindən və məsləyindən geri çəkilməyi belə düşünmür və öz "Haqq səsini" ucaldaraq onu daha da yüksəklərə qaldırır.

Sonda şairin öz sözlərilə ifadə etsək "...Ömrünü xalqın həyatın qarışdıran, öz həyatını deyil xalqın həyatını yaşayan böyük şəxsiyyətlərin ömrü xalqın ömrü qədərdir..."[1]

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənasını yalnız ondadır
Şam əgər yanmırsa, yaşamır demək,
Onun da həyatı yanmağındadır.[2]

Unudulmaz şairimiz bir ziyalı olaraq elmə və elmi araşdırıcılara qarşı da obyektiv nəzərlərlə yanaşaraq elm fədailərini diqqətdən kənarda qoymamışdır. Akademiyanı xalqımızın müasir beyni kimi təsvir edən şair Nizami adına Ədəbiyyat İnstitutunu bu beynin əsrlərdən bəri yaratdığı mənəvi sərvəti üzə çıxarmaq üçün tarixin yaddaşını oyadan işıq mərkəzi adlandırmışdır. Onun fikrincə bu institutda söz sənəti zərgərlərinin yaratdığı incilər söz sərraflarının əli ilə nizamlanır, hər incinin öz yeri, öz dəyəri müəyyənləşdirir.

D B YYAT

1. Hümmətova X. Yunus Əmrə (məqalələr toplusu). Bakı: "Elm və təhsil", 2012, 240s.
2. Sarıköylü. Yunus Emre, T.C Eskişehir valiligi, 2010, 32 s.
3. Tukay Q. Samanbazarı, yaxud Yeni Kəsikbaş poeması. (Ön sözün müəllifi və tərtib edəni X.Hümmətova). Bakı: Elm və təhsil, 2011,150 s.
4. Vahabzadə B. Axı dünya fırlanır... Bakı, 1987, 208 s.
5. Vahabzadə B. Dərin qablara işıq. Bakı, 1986, 320 s.

[1] Vahabzadə B. Vahabzadə B. Axı dünya fırlanır... Bakı, 1987, 208 s.
[2] Vahabzadə B. Dərin qablara işıq. Bakı, 1986, 320 s.

BAHT YAR VAHABZADE VE ORTAK TÜRKÇE MESELELER

Minara AL YEVA

Yrd. Doç. Dr., Uludağ Üniversitesi Eğitim Fakültesi
Türkçe Eğitimi Bölümü Öğretim Üyesi
BURSA/TÜRKİYE
esenminara@gmail.com

ÖZET

Azerbaycan edebiyatı; kendi milli geleneklerine bağlı ve asırlar boyunca tarihin bütün safhalarında yerini almış ve dünyanın kültür hazinesinde söz sahibi olmuş zengin bir edebiyattır. Bu edebiyatı temsil eden Nizamî, Füzulî, Nesimî, M. F. Ahundov, C. Memmedguluzâde, M. A. Sabir, C. Cabbarlı, Ü. Hacıbeyov, B. Vahabzade ve bunlar gibi daha pek çok yazar ve şair dünya edebiyatını hayli zenginleştirmiştir. Bu isimlerin arasında son dönemlerde yetişmiş olan en büyük şair ve yazarlardan biri de Bahtiyar Vahabzade'dir.

Bahtiyar Vahabzade XX. Yüzyıl Azerbaycan şiirinin en başta gelen üstatlarındandır. Onun eserlerinde modern çağın meseleleri lirik-felsefi boyutuyla ele alınmıştır. O, 60'lı yıllardan başlayarak ulusal özgürlük hareketinin öncülerinden biri olmuştur. Bunun yanı sıra büyük bir mütefekkir şair olan Bahtiyar Vahabzade, sadece Azerbaycan'ın değil, bütün Türk Dünyasının çağdaş edebiyatının büyük temsilcilerinden biridir.

B. Vahabzade eserlerinin çoğunda ortak dil ve kültüre ait unsurlardan bahsetmiştir. Dil veya diller, milletlerin varlıklarını sürdürmelerinde en güçlü yapıştırıcı ortaklık görevini üstlenmektedir. B. Vahabzade'ye göre de Türk milletinin varlığının sürdürülebilmesi için, Türk Dünyasında ortak iletişim diline büyük ihtiyaç duyulmaktadır. Ona göre Türk Dünyasının dirlik ve birliği için en önemli şartlardan birisi, belki de en başta geleni Ortak Türkçenin oluşmasıdır. Onun pek çok makale ve konuşmalarında da ortak Türkçenin işlevi ve gerçekliği üzerine son derece önemli mesajları yer almaktadır.

Bize göre Bahtiyar Vahabzade'nin, kuramsal düşünceleriyle beraber, eserleri de büyük önem taşımaktadır. Hem pratiğiyle hem de kuramsal bakışıyla Bahtiyar Vahabzade büyük bir şair, büyük bir fikir adamıdır.

Anahtar Kelimeler: Ortak Türkçe, Bahtiyar Vahabzade, dil meselesi,

BAHTIYAR VAHABZADE AND MATTER OF COMMON TURKISH

ABSTRACT

Azerbaijani literature is a rich literature committed to its own national traditions, taken its place in all the historical periods for ages and having a word in the world's cultural treasure. Representing this literature, many authors and poets such as Nizamî, Füzulî, Nesimî, M. F. Ahundov, C. Memmedguluzâde, M. A. Sabir, C. Cabbarlı, U. Hacıbeyov, B. Vahabzade and the like has enriched the world literature a lot. Among these names is Bahtiyar Vahabzade, one of the greatest poets and authors having come through in recent periods.

Bahtiyar Vahabzade is one of the leading masters of the 20th century Azerbaijani poetry. In his works, matters of modern age were discussed from lyric-philosophical perspective. He has become one of the pioneers of national freedom movement starting from the 60's. Besides this, a great thinker and poet, Bahtiyar Vahabzade is one of the great representatives of not only Azerbaijan but also the contemporary literature of the whole Turkish world.

In most of his works, B. Vahabzade wrote about elements related to common language and culture. Language or languages undertake the duty of the most powerful binding partnership in nations' maintaining their existence. According to B. Vahabzade, too, there is great need for a common communication language in the Turkish world in order for the Turkish people to maintain its existence. According to him, one of the most important, perhaps the primary conditions for the unity and amity of the Turkish world is the formation of Common Turkish. In many of his articles and speeches, to, there are extremely important messages about the function and reality of common Turkish.

In our opinion, Bahtiyar Vahabzade's works together with his theoretical thoughts are very important. Both with his practice and theoretical point of view, Bahtiyar Vahabzade is a great poet and thinker.

Key Words: Common Turkish, Bahtiyar Vahabzade, matter of language, Turkish world

Giri :

"İnsanların kültürel davranışlarının en önemli parçasını oluşturan dil, insanların manevî hayatına, kültürüne ait bir varlıktır. Toplumun bütün kültür unsurları bir sosyal ilişkiler örgüsü olan dil üzerinde kurulur. Toplumsal bir kurum olarak sosyal hayatın zeminini ve temelini oluşturan dil, aynı zamanda coğrafî şartların da etkisi altındadır" (Tavkul 2005: 47).

Bugün Balkanlar'dan Çin'e kadar uzanan coğrafyada yaşayan Türkler, farklı devletler içinde, farklı konuşma biçimlerini geliştirmiş olsalar bile hepsi de Türkçe konuşurlar. Bu

bölgede yaşayan Türklerin bir kısmı, bağımsız cumhuriyet, bir kısmı özerk cumhuriyet şeklinde hayatlarını sürdürürken bir kısmı diğer devletlerin egemenliği altında hayat mücadelesi vermektedirler.

"Dünyanın en eski ve en çok konuşulan dillerinden birisi olan Türkçe, ne yazık ki, bugüne kadar diğer diller arasında hak ettiği gerçek yeri alamamıştır. Hemen her dönemde bir başka yabancı dilin tesiri altında kalmış, kendi gerçek gücünü yeterince gösterememiştir. Bugün ise, yepyeni ve taptaze bir imkânlar dünyasıyla karşı karşıya kalınmıştır. Ancak, nadiren karşımıza çıkabilecek böylesi bir fırsatı çok iyi değerlendirmek mecburiyeti vardır. Ortaya çıkan yeni şartlar, âdeta Dünya Türklüğünü "dilde, fikirde, işte" ve daha pek çok sahada birlik olmaya zorlamaktadır. Bu birliğin temel şartı ise, birbirinizi her yönüyle anlayabilmektedir. O sebeple bütün Türklerin aynı dille anlaşabilmeleri (elbette ki Türkçeyle) şarttır. Bu düşünceden hareketle "Ortak Türkçe" bir zaruret sonucunda bu düşünceyi gerçekleştirmeye zorlamaktadır." (Yaman 2008: 49-50).

Ortak Türkçenin zaruretini daha iyi anlayan, bunun gereksinimini bilen, bu işe daha çok eğilim gösterenler, Türk Dünyasında çalışan iş adamları ve lisans, yüksek lisans ve doktora öğrencileridir. Çünkü ortak bir alfabe ve ortak Türkçe ders kitapları, makale ve monografilerin yazılması daha çok bu kurumlarla bağlantılıdır. Aynı problemi TRT'nin Türk Dünyası için oluşturduğu ortak yayını TRT AVAZ, Azerbaycan İçtimai TV ve diğer Türk Cumhuriyetlerindeki televizyonlar bunu yakından hissetmektedir. Bugünlerde Asya, Afrika, Amerika'daki vs. Türk olmayan fakat Türkçeye çok büyük ilgi duyan milyonlarca insanın ortak Türkçeye ihtiyacı durmadan artmaktadır ve bu durum günün sosyolojik lengüistik meselesine dönüşmektedir.

Ortak Türkçe meselesini, özellikle ortak iletişim dili ve Bahtiyar Vahabzade'nin bu problemle ilgili rolünü araştırırken değerli hocam Prof. Dr. Kamil Veli Nerimanoğu'nun yayım aşamasındaki Ortak Türkçe kitabından ve onun Bahtiyar Vahabzade üzerine yazılmış çok sayıda makalesinden istifade ettim (kendilerine minnettarlığımı belirtmeyi bir borç bilirim). Aynı zamanda Nazif Kahramanlı'nın *"Köhne-Yeni Elifba"* [Eski-Yeni Alfabe], Abeniz Hanım Kengerli'nin *"Turanın Bir Eli Var ve Yalnız Bir Dili Var"* adlı kitaplarından, Rasim Mirza'nın *"Türkçülüğün Babası"* kitabından, aynı zamanda Türkiye'nin önde gelen Türkologlardan Prof. Dr. Ahmet B. Ercilasun'un, Prof. Dr. Ertuğrul Yaman'ın, Prof. Dr. Mustafa Öner'in, Prof. Dr. Mustafa Argunşah'ın, Prof. Dr. Şükrü Haluk Akalın'ın, Bubiyna Ö. Oruzbayeva'nın, Zinnur Uraksin'in, Mirfatih Zekiyev'in yazılarından faydalandım.

Şüphesiz ki ortak Türkçenin oluşması sadece dilcilerin, edebiyat araştırmacılarının gayretleriyle halledilebilecek işler değildir. Burada en büyük görev ünlü yazarların, şairlerin ve sanat adamlarının omuzlarındadır.

Ben bir Türkolog olarak çağdaş Türkiye Türkçesinde kusursuz konuşan, İstanbul ağzında şakır şakır öten Türk gençliğini gördüğüm zaman, yakın stratejik hedefimiz olan 1923 yılında kurulan Cumhuriyetimizin yüzüncü yılında ortak Türkçe meselesinin büyük oranda çözüleceğine inananlardanım.

Bu sözleri dile getirirken ister istemez bu yolun başında olan büyüklerimizi hatırlatmamak imkânsızdır. Burada ben, doğumunun 200. yılını kutlamaya hazırlandığımız Mirza Feth Ali Ahundzâde'ye, doğuda ilk gazetenin yayıncısı olan büyük eğitimci Hasan Bey Zerdabî'ye, bütün Avrasya'da okunan ve sevilen *"Molla Nasreddin"* mizah dergisinin çıkmasında öncülük eden Celil Memmedguluzâde'ye (Allah onlara rahmet eylesin), aynı zamanda bütün doğuda okunan entelektüel *"Hayat"* gazetesi ve *"Füyûzat"* dergisini çıkartan Ali Bey Hüseyinzâde'ye (Allah Ali Bey Hüseyinzâde'ye rahmet eylesin), Türkiye Türkçesiyle mükemmel tiyatro eserleri yaratan Hüseyin Cavid'e, halk şairleri Samet Vurgun'a ve Resul Rza'ya ve elbette ki Türk Dünyasının büyük milliyetçi şairi Bahtiyar Vahabzade'ye (Allah Bahtiyar Vahabzâde'ye de rahmet eylesin) kendilerine minnettarlığımı bildirmek isterim.

Bahtiyar Vahabzade, Azeri Türklerinin en aksakalı ve en ziyalı insanıdır. O, sadece Azerbaycan edebiyatının değil, tüm Türk edebiyatının sesi olmuştur. Azerbaycan ve dünya Türklüğüne yazdığı eserlerle çok büyük katkısı vardır. Büyük bir milliyetçi olan bu şairimizin eserlerinde, tarihimiz, coğrafyamız, imanımız, sanatımız, insanımız kısacası Türklüğümüz dile gel-

miştir. Türk dünyasında yazmış olduğu özgürlük şiirleriyle yürekleri coşturmuş önemli şairlerimizin başında hiç şüphesiz, Bahtiyar Vahapzade gelir.

Şiirlerinde ülkesi Azerbaycan başta olmak üzere bütün Türk dünyasının her alanda özgürlüğüne vurgu yaparak, bunu Türk milletinin varlığını ve karakterini koruyarak yaşaması için vazgeçilmez görmekteydi. Bahtiyar Vahapzade'nin yazılarında ve konuşmalarında sürekli değindiği en önemli hayallerinin başında Türk kültür birliğinin yeniden canlandırılması geliyordu.

Türk dünyasının ünlü şairi Bahtiyar Vahabzade'nin ömrünün sonuna kadar bir isteği vardı. Onun en büyük hayali tüm Türk halklarının Ortak bir Türkçeyle konuşabilmesi ve anlaşabilmesiydi. Ama bir şeyi de belirtelim ki, Bahtiyar Vahabzade konuşma dili ve yazı dili ayrımı yapmıyor ve "Ortak dilimiz Türkiye Türkçesi olmalıdır." diyordu.

Büyük şair ve tefekkür insanı, görkemli söz üstadı, Azerbaycan'ın halk şairi Vahapzade, bütün Türk dünyasında ortak bir terminoloji, ortak bir dil oluşturulması için büyük bir çaba harcamıştı. Bunun için Anadolu-Türkiye Türkçesinin ortak dil olması gerektiğini ve bunun için bütün Türk dünyasının Türkiye Türkçesini iyi öğrenmesini ve aralarında Türkiye Türkçesi ile konuşmaları gerektiğini ifade etmekteydi. Bu nedenle, Türkçenin ve Türkçe eğitiminin önemini vurgularken dünyanın dört bir yanındaki "Türk Okulları"nın eğitim faaliyetlerini gördükçe Türk dünyası adına mutlu oluyordu. Vahapzade'nin en büyük umutlarından biri Türk okulları idi; çünkü şair, bu okulların Türkçeyi bir dünya dili haline getireceğine inanıyordu.

Vahapzade için dünyada her şeyi onunla tanıdığımız Türkçe, ecdadımızın en aziz yadigârıdır. O, gözümüz gibi korunacak ve gelecek nesillere de öyle bırakılacak en birinci emanetimizdir.

Bahtiyar Vahabzade bir konuşmasında şöyle demektedir: "Biz Sovyetler döneminde Özbeklerle, Kazaklarla bütün diğer Türklerle karşılaştığımızda ortak dil olarak Rusça konuşurduk. Allah bize bir daha o günleri göstermesin. Allah bize gün göstersin ki ben, Kırgız'la, Özbek'le, Kazak'la Türkçe konuşabileyim."

Bahtiyar Vahabzade ortak Türkçeyi savunurken Mahmut Kaşgarlı'nın "Erdemin başı dildir." konseptine dayanmaktadır. Ortak Türkçeyi de Türk dillerinin, o cümleden Azerbaycan Türkçesinin alternatifi olarak görmüyor. O, "Ana Dili" şiirini de tesadüfen kaleme almamıştır.

Ana Dili

Dil açanda ilk defa "ana" söylerik biz
"Ana dili" adlanır bizim ilk dersliyimiz
İlk mahnımız laylanı anamız öz südüyle
İçirir ruhumuza bu dilde gile-gile.

Bu dil - bizim ruhumuz, eşgimiz, canımızdır,
Bu dil - birbirimizle ehdi-peymanımızdır.
Bu dil - tanıtmış bize bu dünyada her şeyi
Bu dil - ecdadımızın bize goyup getdiyi
En gıymetli mirasdır, onu gözlerimiz tek
Goruyub, nesillere biz de hediyye verek.

Bizim uca dağların sonsuz ezemetinden,
Yatağına sığmayan çayların hiddetinden,
Bu torpağdan, bu yerden,
Elin bağrından gopan yanığlı neğmelerden,
Güllerin renglerinden, çiçeklerin iyinden,
Mil düzünün, Muğanın sonsuz genişliyinden,
Ağ saçlı babaların aglından, kâmalından,
Düşmen üstüne cuman o gıratın nalından
Gopan sesden yarandın.
Sen halgımın aldığı ilk nefesden yarandın.

Ana dilim, sendedir halgın aglı, hikmeti,
Ereb oğlu Mecnunun derdi sende dil açmış.
Üreklere yol açan Füzulinin sen'eti,
Ey dilim, gudretinle dünyalara yol açmış.
Sende menim halgımın gahramanlığla dolu
Tarihi verağlanır.

Sende neçe min illik menim medeniyyetim
Şan-şöhretim sahlanır.
Menim adım, sanımsan,
Namusum, vicdanımsan!
Milletlere halglara halgımızın adından
Mehebbet destanları yaradıldı bu dilde.

Bu dil - tanıtmış bize bu dünyada her şeyi
Bu dil - ecdadımızın bize goyup getdiyi
En gıymetli mirasdır, onu gözlerimiz tek
Goruyub, nesillere biz de hediyye verek.

Buradaki ana dil sevgisi asla ortak Türkçeye engel değildir ve rahmetli Bahtiyar Muallimimizin Türkçenin Tür dillerini değil, İngilizceyi veya Rusçayı alternatif dil olarak almaktadır. Çünkü Azerbaycan Türkçesinin asimile tehlikesi bu iki kaynağa bağlıdır.

Çocuklarına Rusça eğitim verilmesine ve ana dilini bilmeyenlere karşı amansız olan Vahtiyar Vahabzade, Türkçenin güzelliği, bilgeliği, zenginliği derken Yunus Emre'yi, Karacaoğlan'ı, Mahtumkulu'yu, Bâbür'ü, Nevayi'yi, Tevfik Fikret'i, Yahya Kemal'i, Nazım Hikmet'i, Necip Fazıl Kısakürek'i, Cengiz Aytmatov'u, Olcas Süleymanov'u örnek almaktadır. Hiç tesadüf değildir ki, Türk dünyasının çağdaş şair ve yazarları, başta dünyaca ünlü Kırgız yazarı Cengiz Aytmatov, ünlü Kazak şairi Olcas Süleymanov olmak üzere ana dili mücadelesinde ve ortak Türkçenin oluşması sürecinde Bahtiyar Vahabzade'yi örnek almışlardır. Bu karşılıklı temas ve değerlendirmeler, omuz omuza gerçekleştirilen mücadelede birlik ve beraberlik, Türk dünyasındaki fikir, bilim ve sanat adamları için oldukça önemlidir.

Bahtiyar Muallim, Sovyetler Birliği dağıldıktan ve Azerbaycan'ın bağımsızlığına kavuşmasından sonra devlet dili olarak "Azerbaycan dili" teriminin değil, "Türkçe" veya "Azerbaycan Türkçesi" teriminin kullanılması için mücadele etmiştir.

Bahtiyar Muallimin ortak Türkçenin önemini zikreden şiirleri ve makaleleri yalnız Azerbaycan için değil, tüm Türk dünyası için, o cümleden Ahıskalı Türkler için de, Ahıskalı Türklerin durumunda olan Irak Türkleri için de, resmi dil hüviyeti olmayan Güney Azerbaycan için de, Çin'de yaşayan Uygur Türkleri için ve diğerleri için de büyük önem taşımaktadır.

Biz ortak Türkçe mücadelesini duygu, his, hamaset olarak görmüyoruz. Biz bunu bir fikir ve küreselleşen dünyanın kaderi ile bağlı ciddi bir sosyo-politik ve sosyo-kültürel konsept olarak görmekteyiz. Bu konseptin ilkelerini dile getirenlerden, kaleme alanlardan birinin Bahtiyar Vahabzade olması gurur vericidir.

Her yıl İstanbul'da gerçekleştirilen Türkçe Olimpiyatları, Bahtiyar Vahabzade'nin ideallerinin gerçekleşmesidir. Ayrıca yukarıda da bahsettiğimiz gibi dünyanın dört bir yanında açılan "Türk Okulları"nın eğitim faaliyetleri bunun bir diğer ispatıdır. Vahapzade'nin en büyük umutlarından biri Türk okulları idi; çünkü şair, bu okulların Türkçeyi bir dünya dili haline getireceğine inanıyordu.

Bizce yeni gençliğin ve yeni genç neslin hocaları olan bizler, Bahtiyar Vahabzade'nin ana dili mücadelesinden, ortak Türkçe mücadelesinden çok şeyler öğrenmeliyiz ve yeni nesillere çok şeyler öğretmeliyiz.

Bahtiyar Muallim Namık Kemal'e (Zeybek) yazmış olduğu mektubunda Rus eğitimci K. D. Uşinski'nin "Ana Dili" adlı kitabından bahsetmekte ve büyük eğitimcinin şu satırlarını dile getirmektedir: *"Ana dilinde bütün millet, onun varlığı, manevi dünyası zuhur ediyor. Vatanın*

seması, iklimi, havası, çölleri, dağ ve bozkırları, orman ve çayları, fırtına ve kasırgaları, halk ruhunun yaratıcılık kudreti ile ana dilinde fikirlere, şekillere ve seslere dönüşüyor. Halkın elinden her şeyini alırsanız o, onların hepsini geri getirebilir. Fakat onun elinden ana dilini alırsanız, hiçbir zaman onu bir daha oluşturamaz. Halk kendine yeni bir vatan da yapabilir. Ama ana dili yoksa millet de yoktur; vatan da…" Bu örnek de gösteriyor ki Bahtiyar Vahabzade bir milletin varlığı için ana dilinin ne kadar büyük bir öneme sahip olduğuna bir kez daha inanmıştı. (http://www.bilgicik.com)

Bahtiyar Vahapzade, Türk dünyasının en büyük şairlerindendi. Bir röportajında "*Bir ülkeyi ayağa kaldırma gücüne sahip insanlar ancak şairlerdir. Onların dile getirdikleri, kitlelere siyasi şuur verir.*" demiştir. Kendisi de ömrü boyunca Azerbaycan halkının hürriyeti, bağımsızlığı için mücadele vermiştir. Kitlelere siyasi şuur aşılamıştır. Şairliğinin yanı sıra, bilim adamlığı ile de tanınan Vahapzade, yaşamı boyunca edindiği izlenimleri benliğinde yoğurarak, Türk dünyasının ortak duygularını, özlemlerini, serzenişlerini dile getirmiştir. Onun anadili uğruna verdiği mücadele, Türkiye sevgisi herkes tarafından bilinmekteydi. O yazdığı eserlerle Türk dünyasının gençlerine, ışık oldu, öncülük ederek yol gösterdi.

Büyük şair ve filozof Bahtiyar Vahabzade, eserleri ve Türk diline hizmetleriyle sonsuza kadar kalbimizde yaşayacaktır. Ruhu şad olsun…

Bahtiyar Vahabzade'nin yolunda yürüyen vatansever ve milletseverlere, dinini, örf-adetlerini yaşatanlara hak işlerinde başarılar diliyoruz.

Teşekkür ederiz.

KAYNAKÇA:

1. Aybeniz Kengerli, *Turanın Bir Eli Var ve Yalnız Bir Dili Var!*, Bakü, 2006.
2. Ertuğrul Yaman, "Türk Dünyasının Güncel Konusu: Ortak Türkçe" (Hasan Celal Güzel, Tarihte Türkler, Cilt 19 s. 62-67), Ankara.
3. Ertuğrul Yaman, "Ortak Türkçenin Temel İlkeleri", Türk Dünyasında Ortak Dil Türkçe, 25 Eylül 2002, TDK Yay., Ankara 2008, s. 49-58.
4. Mustafa Öner, "Ortak Türkçe Söz Varlığı Denemesi", Türk Dünyasında Ortak Dil Türkçe Bilgi Şöleni, 25 Eylül 2002, TDK Yayınları Ankara 2008, s. 43-46.
5. Nazif Gahramanlı, *Köhne-yeni elifba*, Bakü,
6. Rasim Mirza, *Türkçülüğün Babası* (Ali Bey Hüseyinzâde'nin fikir dünyası), Bakû, 2000.
7. http://www.bilgicik.com

B XT YAR VAHABZAD V TÜRK Y D B LAQ L R

frat L YEVA

Prof. Dr., Bakı Dövlət Universiteti

XÜLAS

Xalq şairi, professor B.Vahabzadənin Türkiyə ədəbi əlaqələri böyük türk şairi N. Hikmətlə dostluq əlaqələrindən başlayır. Bu əlaqələrin kuliminasiya nöqtəsi xalqımızın ikinci dəfə müstəqilliyə qovuşmasından sonraya təsadüf edir. Bu əlaqələr ümummilli liderimiz H.Əliyevin "Bir millət, iki dövlət" tezisi daha güclü təkan vermişdir. Azərbaycandan müxtəlif nümayəndə heyətləri Türkiyəyə dəvət olunur və burada mədəniyyətə, elmə, ədəbiyyata həsr olunan konfrans və sempozyumlarda iştirak edirdilər. Bu nümayəndə heyətinin tərkibində xalqımızın böyük oğlu Azərbaycan-Türk birliyinin carçısı Bəxtiyar Vahabzadə daha çox fərqlənirdi.

Şairin altı kitabı Türkiyədə çap olunmuş, əllidən artıq məqaləsi Türkiyənin ən tanınmış mətbu orqanlarında işıq üzü görmüşdür. Bundan başqa B. Vahabzadının "Özümüzü kəsən qılınc", "Hara gedir bu dünya" pyesləri "Ankara, İstanbul, İzmir, Antalya kimi böyük şəhərlərin teatr səhnələrində yetmiş dəfədən artıq oynanılmışdır. Ona görə də qeyd etmək yerinə düşər ki, Türkiyənin məşhur "Samanyolu" televiziyası B.Vahabzadənin həyat fəaliyyətindən bəhs edən doxsan dəqiqəlik "Bəxtiyar ömrü"adlı sənədli filmi çəkərək bütün dünyaya nümayiş etdirmişdir.

B. Vahabzadə və Türkiyə ədəbi əlaqələri yalnız ədəbiyyat kontekstində məhdudlaşmır. Məlum olduğu kimi B. Vahabzadə həm də siyasi xadim kimi Türkiyə ilə bağlıdır. Onun dəfələrlə S. Dəmirəl, H.Çətin və digər türk liderləri ilə görüşləri dediklərimizə canlı sübutdur.

XX əsrdə Azərbaycan xalqı üçün müstəsna əhəmiyyət kəsb edən bir sıra tarixi hadisələr baş verdi ki, bu hadisələrdən xalqımız xeyli ziyan çəkdi. İlk növbədə xalqımızın milli müstəqillik əldə etməsi və müstəqilliyi rus imperiyasının müdaxiləsi nəticəsində itirməsi xalqımıza ciddi zərbə vurdu. Bundan başqa 1946-cı ildə cənubda Pişəvəri hakimiyyətinin fars şovnizmi tərəfindən darmadağın edilməsi şimallı-cənublu Azərbaycanın birləşmək arzusunu qan gölməçəsində boğdu. Bütün bu hadisələr Azərbaycan ədəbiyyatından da yan keçmədi. Şimalda şüurlu surətdə xalqımızın milli özünüdərkini boğmaq siyasəti yeridilirdi. Bu siyasətin əsas mahiyyəti xalqı öz türk kimliyindən uzaqlaşdırmaqdan ibarət idi. Alman yazıçısı Köllerin belə bir fikri var: "İnsana nəyi qadağan etsək, ona daha çox can atar" (1, s 194).

Azərbaycan xalqına da öz türk kimliyini dərk etməyi qadağan etdilər. Amansız repressiyalar, məhkəməsiz güllələnmələr xalqımıza böyük itkilər bahasına başa gəlsə də onun türk mənliyini sındırmaq mümkün olmadı.

Şübhəsiz ki, bütün bu tarixi təbəddülatlar Azərbaycan-Türkiyə ədəbi əlaqələrini zəiflətdi. Bir faktı da qeyd etmək yerinə düşər ki, sovet Dövlət Təhlükəsizlik Komitəsi S. Rüstəm, B. Vahabzadə, B. Azəroğlunu, Söhrab Tahiri dəfələrlə cənub şairləri ilə həmçinin Türkiyədə fəaliyyət göstərən yazıçılarla məktublaşdıqlarına görə cəzalandırmışdır. B.Vahabzadə öz çıxışlarının birində belə deyirdi: "Evimizdə köhnə bir radio var idi. Mən hər gün çətinliklə olsa da Türkiyəni tutar, Zəki Mürənə, Müşərrəf Akaya qulaq asmaqdan doymazdım. Hamımızın başında bir İstanbul sevdası var idi".

Xalq şairi professor B. Vahabzadənin Türkiyə ədəbi əlaqələri böyük türk şairi N. Hikmətlə dostluq əlaqələrindən başlayır. Lakin bu əlaqələrin kuliminasiya nöqtəsi xalqımızın ikinci dəfə müstəqilliyə qovuşmasından sonraya təsadüf edir. Bu əlaqələr ümummilli liderimiz H.Əliyevin "Bir millət, iki dövlət" tezisi daha güclü təkan vermişdir. Azərbaycandan müxtəlif nümayəndə heyətləri Türkiyəyə dəvət olunur və burada mədəniyyətə, elmə, ədəbiyyata həsr olunan konfrans və sempozyumlarda iştirak edirdilər. Bu nümayəndə heyətinin tərkibində xalqımızın böyük oğlu Azərbaycan-Türk birliyinin carçısı Bəxtiyar Vahabzadə daha çox fərqlənirdi.

Hörmətli xanımlar, bəylər!

Bu gün bu çadırın altında dünyanın beş qitəsindən gəlmiş, dünyanın üç dininə mənsub bütün türk qardaşlarımı salamlamaqla özümü həqiqətən bəxtiyar hesab edirəm. Biz bu gün Türkiyəmizə - bu dədə yurduna, bu ata ocağına xoş gəlmişik.

Bu gün bizim bu qurultayımızın məhz Türkiyədə keçirilməsi təsadüfi deyil. Çünki əksər dünya türklərinin əsir olduğu zamanlar Türkiyə yeganə müstəqil türk dövləti olaraq öz bayrağında ay-ulduzumuzu qoruyub saxlamış və başqa türklərin də istiqlal haqqını dünya ictimaiyyətinə çatdıran təkcə Dövlət idi. Istiqlal uğrunda mübarizə aparan dünya türklərinin böyük liderini bolşeviklərin əli ilə öz ölkələrindən didərgin düşəndə Türkiyə onlara ana qucağını açmış, onların mühacir Dövlətini və bayramını qoruyub saxlamışdır. Biz bunu heç zaman unutmarıq. Buna görə də bu gün qurultayımızı keçirdiyimiz ana Türkiyəmizi dünya türklüyünün mərkəzi bilir, paytaxtı sanırıq.

Öz qurultayını həmişə çadırda keçirən əcdadlarımızın ruhu indi yəqin ki, bizim bu çadırın ətrafına dolanır və bu gün bizim bu yerimizə şad olur.

Sovet imperiyası illərində biz bugünkü birliyi yalnız röyalarımızda görə bilərdik. Şükür Allaha,bu gün bizim röyalarımız həqiqətə çevrilmişdir.

Keçən əsrin sonlarında böyük Krım türkü İsmayıl Qaspıralı "Dildə birlik, fikirdə birlik, işdə birlik" - deyə dünya türklərinin birliyə çevirilmiş və hələ o zaman bugünkü və sabahkı birliyimizin bünövrə daşını qoymuşdu.

Bu böyük işdə mən iki adamın xidmətlərini xüsusi vurğu ilə qeyd etmək istəyirəm.

Bir zaman Sovet imperiyasının darmadağın olunacağını və onun xarabaları üzərində türk dövlətləri yaranacağını deyəndə çoxları Alparslan Türketə gülür və bu fikrin boş bir xəyal və ya röya olduğunu iddia edirdilər. Amma zaman göstərdi ki, o öz uzaqgörənliyi ilə vaxtı qabaqlamışdı. Ona görə də bu gün türk xalqlarının toplaşdığı bu çadırda mən ilk növbədə A. Türket bəyi təbrik edir və deyirəm: "Bugünkü bu qələbə sənin qələbəndir".

Türk birliyinin həyata keçirilməsində çox böyük xidmətləri olan ikinci adam professor Turan bəy Yazqandır. O, müstəqil türk dövlətləri yaranan kimi, canı, qanı və bütün imkanları

bahasına keçmiş Sovet Respublikalarında müxtəlif ixtisaslar üzrə kurslar, məktəblər açdı və bu ideyanın reallaşması yolunda əlindən gələni əsirgəmədi.

Mən bu yüksək kürsüdən bütün türk xalqlarının nəzərini qədim türk torpağı olan Qarabağın arxalı köpək timsalı erməni işğalına yönəltmək istəyirəm. Bu gün ermənilər dünyanın iki super dövləti olan Rusiya və Fransa ilə hərbi ittifaqa girmiş, bizi təkləmişlər.

Indi təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində türk qanı axıdılır. Bu qanın qarşısının isə yalnız bizim birliyimiz ala bilər.

Sözümün sonunda türk xalqlarının bu qurultayının bu səviyyədə təşkil edən ev sahiblərinə - yəni baba ocağının sahiblərinə bütün nümayəndələr adından təşəkkürümü bildirirəm (2, s 51-52).

Bu nitq təkcə Azərbaycan-türk birliyini ehtiva etmir. Bizim fikrimizcə bütün türk dünyasına bir mesaj göndərir.

B. Vahabzadənin Türkiyə ədəbi mühiti ilə əlaqələrini onun Namiq Kamala yazdığı bu məktubdan aydın görmək olar:

"Fikir və əməl qardaşım Namiq Kamal bəy, "Türk olmaq" kitabınızı həvəslə, təqdir edə-edə oxudum. Sizin bu kitabınız mənim Azərbaycanda apardığım 30 illik mücadilənin eynidir. Fikirlərimizin, qayğı və dərdlərimizin nə qədər yaxın olduğuna həm heyrətləndim, həm də yox.

Ona görə heyrətləndim ki, mən sizi çox tanıyır, eyni dərdlərlə yaşadığımızı bilirdim. Heyrətlənməyimin səbəbi isə Sizin kitabınızın 69-cu səhifəsində mənim adımı çəkmədən "azərbaycanlı bir dəyərli şair" – deyə mənim heyrətimin səbəbini yazmısınız: "Azərbaycanlı bir dəyərli şair bana şöylə demişdir: "Bizi ruslar zorladı, dilimizə rusca sözlər doldurdular. Pəki, sizi kim zorladı? Biz sizi örnək almaq istiyorduk. Siz nədən kəndinizə örnək olmuyorsunuz? Dilimizi, bayrağımızı yüksəklərə qaldırmaq sizin görəviniz deyilmidir?"

Bəli, dostum bir neçə il bundan əvvəl mən sizə bu sualı vermişdim. Biz iki yüz il rus boyunduruğunda yaşadıq. Buna görə də, ana dilimiz özümüz kimi əsarətdə oldu. Bu illər ərzində biz ana dilimizin təbii haqqını qorumağa çalışdıq. Mən hələ 1954-cü ildə yazdığım "Ana dili" şeirimdə demişdim:

Ey öz doğma dilində danışmağa ar bilən
Fasonlu ədəbazlar
Könlünüzü oxşamaz qoşmalar, telli sözlər
Ancaq, Vətən çörəyi sizlərə qənim olsun

Əlbəttə, o zamanlar bu şeir yuxarı dairələrin xoşuna gəlmədi və bunun üstündə başım çox bəlalar çəkdi. Mən başıma gələn bu bəlaları çox təbii sayırdım. Çünki mən rusun köləsi idim. Amma Allaha min dəfə şükürlər olsun ki, Anadolu türkləri tarixin heç bir dönəmində heç bir xalqın köləsi olmamışdı. Əgər bu həqiqətdirsə, bəs nə üçün böyük imperatorluqlar qurmuş Anadolu türkləri bugün özləri öz milli varlıqlarına düşmən kəsilib, bülbül cəhcəhəsinə bənzər türk dilinin bərəkətini pozur, onu zorlayır? Türk dilində cahanşümul-əsərlər yaradan Nəsimi, Nəvai, Yunus, Füzuli, Məxtimqulu, Sabir, M.Akifə bu dili yaradı, indi bizə yaramır? Axı hər bir dilin müəllifi tək-tək adamlar deyil, millətdir.

Müstəqil türk cümhuriyyəti yaranandan sonra, biz bir tərəfdən tədricən vahid ortaq dilə getmək barədə düşünürük, o biri tərəfdən siz Türkiyə türkləri hamımız üçün ortaq olan çox-çox sözləri dilimizdən qovur, uydurma sözlər yaradır, aramıza uçurum salırsınız. Bunu biz necə anlayaq? Bax mənim heyrətimin səbəbi budur. Siz yazdığınız kimi, mən Ankaranın, İstanbulun küçələrindən keçdiyim zaman bu şəhərlərin Londonmu, Nyu Yorkmu, ya İstanbulmu olduğunu anlaya bilmirəm. Reklamlar, dükanların və bəzi idarələrin adları hətta təyyarələrin üstündə "Türk hava yolları", "Turkish Airlines" yazılır. Türk hava yollarının dərgisinin də adı "Skylife"dır. Bax, mən buna həyrət edirəm.

Burdan çıxaraq, Türkiyədə təhsilin ingilisləşməsi məni ağrıdır. Sizin istinad etdiyiniz böyük alim Oqtay Sinanoğlunun Türkiyədə ingilis təhsilinə qarşı yazdığı bir neçə məqalə ilə tanışam. 1996-cı ilin aralıq ayında mən Türkiyədə tədavi olduğum zaman "Aydınlıq" qəzetinin 8 aralık, 1996-cı il sayında O.Sinanoğlunun "Bir ölkəni kölələşdirmək istəsəniz təhsilini yalançılaşdırın" məqaləsini və bu il "Türk ədəbiyyatı" dərgisinin 293-cü sayında "Eğitimmi, eritimmi? məqalə-

lərini oxuyub bu böyük şəxsiyyətin qəlbən mənə, mənim fikirlərimə nə qədər yaxın olduğuna heyrətləndim.

O.Sinanoğlu əcnəbi dildə təhsilin türk milləti üçün nə qədər böyük faciə olduğunu çox gözəl anlamış və bizi ayıltmaq üçün sözün həqiqi mənasında, həyəcan təbili çalmışdır.

Siz kitabınızda türk olmanın nə böyük şərəf olduğunu şeir qədər hiss – həyəcanla dolu cümlələrinizdə çox gözəl açıqlayırsınız: "Türk demək Hunlar, Göytürklər, Sakalar, Avarlar, Qarahanlılar, Səlcuklular, Osmanlılar, Timuzlular, Baburlular deməkdir. Nəhayət, Türkiyə Cümhuriyyəti deməkdir. Azərbaycan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan cümhuriyyəti deməkdir.

"Türk" demək minlərcə ildən bəri dalğalanan bayraq deməkdir. "Türk demək on milyon kilometr torpağa yayılmış rəngarəng dil deməkdir".

"... Türk demək insanlığın, dilin və ədəbiyyatın tarixinə Kitadqu Biliki, Divani lüğət-it-türkü, Divani Hikməti, İbn Sinayi, Fərabiyi, Biruniyi, Əl-Xarəzmi, Uluq bəyi, Əli Kuşquyu ... Oktay Sinanoğluyu, Çingiz Aytmatovu, Çingiz Dalqıcı hədiyyə etmiş bir böyük dünya deməkdir".

Nəhayət sonda bu nəticəyə gəlirsiniz ki, "Bizi türk yaratdığı üçün Allaha şükürlər olsun"... Nə mutlu türküm deyənə".

Bütün bunları bizim yadımıza salmaqda, böyük şəxsiyyətlərimizi bizə tanıtmaqda Sizin ali məqsədiniz ikinci Göytürk səltənətinin yaradıcısı böyük atamız Bilgə xaqanın dediyi məşhur sözlərlə bizi özünüz haqqında düşünməyə çağırırsınız. Hələ 1400 il bundan öncə Bilgə xaqan demişdi: Ey türk bəyləri, millət, eşidin. Yuxarıda mavi göy çökmədikcə, aşağıda qara torpaq yazılmadıqca sənin elini, sənin töreni kim poza bilər? Ey türk milləti, titrə və özünə dön. Sən özünə dönəndə böyük olursan".

Demək, özündən qaçma, özünü bəyənmək, başqasını böyük, özünü kiçik görmək bəlası hələ o zaman da varmış. Demək Mete, Bumin, Bilgə, İsteti, İlteriş xaqanlar, Böyük Osmanlı imperatorları və yuxarıda adlarını saydığımız böyük bilim adamlarımız olmasaydı, biz tarixin olaylarında çoxdan itib batmışdıq.

Sözümün sonunda üzümü böyük Türkiyəyə tutub deyirəm: Ey canlı tarixə malik olan böyük qocaman Türkiyə! Unutma ki, biz səni özümüz üçün örnək bilirik. Buna görə də sınırlarından kənarda yaşayan böyük türk dünyasını pərişan etməyə, sənə tikilən gözləri qapatmağa, sənə bəslənən ümidləri puç etməyə sənin haqqın yoxdur (3, s 82-90).

Qeyd etmək lazımdır ki, belə məktublar yaşanmış tariximizin ayrı-ayrı səhifələrini əks etdirən sənəd səciyyəsi daşıyır. B. Vahabzadə bu məktubu ilə Türkiyənin daxili və xarici siyasətini düzgün istiqamətə yönəldən tövsiyyələr vermişdir.

Məhz buna görə də B.Vahabzadə təkcə Azərbaycanın deyil, bütün türk dünyasının şairidir.

B. Vahabzadə və Türkiyə ədəbi əlaqələri təkcə bu dediklərimizlə məhdudlaşmır. Şairin altı kitabı Türkiyədə çap olunmuş, əllidən artıq məqaləsi Türkiyənin ən tanınmış mətbu orqanlarında işıq üzü görmüşdür. Bundan başqa B. Vahabzadının "Özümüzü kəsən qılınc", "Hara gedir bu dünya" pyesləri "Ankara, İstanbul, İzmir, Antalya kimi böyük şəhərlərin teatr səhnələrində yetmiş dəfədən artıq oynanılmışdır. Ona görə də qeyd etmək yerinə düşər ki, Türkiyənin məşhur "Samanyolu" televiziyası B.Vahabzadənin həyat fəaliyyətindən bəhs edən doxsan dəqiqəlik "Bəxtiyar ömrü"adlı sənədli filmi çəkərək bütün dünyaya nümayiş etdirmişdir.

B. Vahabzadə və Türkiyə ədəbi əlaqələri yalnız ədəbiyyat kontekstində məhdudlaşmır. Məlum olduğu kimi B. Vahabzadə həm də siyasi xadim kimi Türkiyə ilə bağlıdır. Onun dəfələrlə S. Dəmirəl, H.Çətin və digər türk liderləri ilə görüşləri dediklərimizə canlı sübutdur. Bunları bir məqalə çərçivəsində tədqiq etmək mümkün deyildir.

Fikrimizi bütün türk dünyasının himni kimi səslənən B.Vahabzadənin bir şeir parçası ilə yekunlaşdırmaq istəyirik:

Bir millətik, iki dövlət
Eyni arzu, eyni niyyət
Hər ikisi cümhuriyyət
Azərbaycan, Türkiyə (4, s 76)

QAYNAQLAR:

1. Köller.H. Şəhərin qəribə adamları. Moskva, 1950.
2. Vahabzadə.B. Əsəsrləri. XI cild. Bakı, 2005.
3. Vahabzadə.B. Əsərləri, XI cild, Bakı, 2005.
4. Vahabzadə B. Əsərləri. II cild, Bakı, 2003.

H SR T KÖRPÜSÜ B XT YAR VAHABZAD V GÜNEY A RL R *"M rziy ", "Heyd rbabaya salam", "S h ndiyy " poemaları v lirik eirl r sasında*

Esmira Fuad (ükürova)

Filologiya üzrə Fəlsəfə doktoru, AMEA Nizami adına
Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi

Vətəni sevirəm deyən çox olar,
Deməyə nə var ki, dil yorulmasa?
Vətən də bizimtək ölər, yox olar
Vətənin yolunda ölən olmasa!

Vətəninin yolunda hər an ölməyə hazır olan, şəxsən tanıdığıma görə qətiyyətlə deyə bilərəm ki, bu yolda hər gün ölüb-dirilən Azərbaycan sevdalı böyük Bəxtiyar Vahabzadə ilə Güney şairləri arasında əlahəzrət Sözün yaratdığı ünsiyyət, məhəbbət və həsrət körpüsü vardı... Böyük şairinn yanğınlarla müşayiət olunan bu sevda yolu yaşadığı şərəfli ömrü boyunca heç vəchlə qırılmadı və ta əbədiyyətədək uzandı... Əbədiyyətədək uzanan yolda könül həmdəmi, yol yoldaşı bütöv Vətən, əslində Turan, böyük türk milləti, Ana dili sevgisi oldu və o qutsal məlhəm bütün könül dünyasını, ürəyini, ruhunu qapsadı, varlığını süslədi. Həyat amalı, idealı onu yurddaş edən yurdun ağrı-acılarını və taleyini yaşamaq, ona olan dibsiz sevgisini dünyaya hayqırmaq, xalqının üzünün güldüyünü, türk-islam ellərinin birliyini, Turanın bir bütöv kimi varlığı-nı görmək oldu. Müsahibələrinin birində Bəxtiyar Vahabzadə bu bütövlüyün ülgüsünü açıqlayaraq deyib: "Mənim üç mövzum var: insan və zaman, "rəngbərəng güllər" sıra-sından müxtəlif növ şeirlər və kədər haqda mahnılar. Lakin ürəyimdə ən gizli arzum "Gülüstan" poemasını yazdığım vaxtlardan var. Əsas mövzulardan biri mənim üçün Cənubi Azərbaycandır. Mən vətənimi tapdalanmış görmək istəmirəm. İranda olanda Təbrizə getdim. Ürəyim ağrıdı. Mağazalara baxdım, Şəkidəki kimi idilər. Lakin orada soydaşlarımın əlləri-qolları bağlıdır, başları aşağıdır. Mənim üçün bu, böyük dərddir. İnşaallah Təbrizi, Qarabağı Azərbaycanla bir yerdə görərik! Qoy o gün gəlsin ki, siz mənimlə Şuşada söhbət edəsiniz…" (1.125). Əslində onun bu dərddaşlığının, milli düşüncə-lərinin rüşeymləri qəlbində lap uşaqlıq çağlarından, XX əsrin "30-cu illərində Şəkidə kolxoz quruluşu əleyhinə çıxan 10 min nəfər əhalidən salamat qalanlarının dağlara çəkilərək bu ədalətsizliyə qarşı ölüm-dirim mübarizəsinə qalxdığı dönəmlərdən cücərməyə başlayıb. Milli məfkurə, milli təfəkkür toxumlarını isə 6 yaşlı körpənin qəlbinə qaçaqlara ərzaqla müntəzəm kömək edən, ellərə sülh, azadlıq bəxş edən humanist bir rejim kimi təbliğ olunan Sovet hökumətinə nifrət edən" (2.6) və Şərqin ilk demokratik cümhuriyyətinin - Azərbaycan Demokratik Respublikasının qurulmasını və Sovet ordusu tərəfindən məğlubiyyətə uğradıldığını, əslində işğal edildiyini görən Zəkəriyyə babasının müdrik fikirləri, ölümündən əvvəl son kərə söylədiyi "biz türkük" kəlmələri səpmişdi... Hadisələrin baş verdiyi dönəmdə olanları uşaq fəhmilə müşahidə etdi, zaman keçdikcə bütün gördükləri, eşitdikləri bir kino lenti kimi daim gözləri qarşısında canlan-dı, qulaqlarında möhkəm əqidə sahibi babasının sözləri çınladı və həyatının bütün dönəmlərində bu genetik koda sadiq qaldı Bəxtiyar Vahabzadə... Turan elinin Ata türkü Mustafa Kamal Paşanın "Nə mutlu "türkəm!" deyənə..." kəlamının ehsasiyyətini yaşadı ömrü boyunca... İllər keçəndən sonra,

Sovet quruluşuna qarşı çıxan qaçaqlara, onlara yardım edə%% õ

Başı kəsiləndə bu məğrur elin,
Könül fəryadını hiss etdinizmi?
Qoca Füzulinin, igid Babəkin
Etiraz səsini eşitdinizmi? (3.532-533).

Heyhat!.. Bu suallara indi cavab almaq müşküldür... Dərdin böyüklüyündən ağzında dili yanan şair məsələyə bu dərəcədə aqressiv yanaşmasında haqlıdır. Axı, onun xalqının dünyanın heç bir xalqı, ya milləti ilə ədavəti, heç bir dövlətə qarşı torpaq, ərazi iddiası yoxdur. Bəs elə isə bu yadlar, işğalçı, soyğunçu imperiyaları Vətənə kim çağırıb və onlar nəyə görə başqasının yurdunu, dədə-baba torpaqlarını öz aralarında pay-pürüş edib bölüşməlidirlər? Bəs nə üçün sərvətini talayanlar, elinə, dilinə sahib çıxanlar, onu əsarət altında saxlayanlar, bu azmış kimi, hələ təhqir etməli, fars «xər», rus isə «baran» deyib alçaltmalıdır:

Min ləkə vurdular şərəfimizə,
Verdik, sahibimiz yenə "Ver!" dedi...
Lap yaxşı eləyib üstəlik, bizə
Biri "baran" dedi, biri " xər" dedi.
Bizi həm yedilər, həm də mindilər,
Sonra arxamızca gileyləndilər (3.536).

Lakin elə «Gülüstan» poemasında şair qəti hökmünü verir: Tikanlı məftillər, dəmir-beton dirəklər, silahlı qoşunlar torpağı ikiyə bölsə də, bir elin ruhunu, dilini ayırmaq olmaz, axı, ruh bədəndən ayrılmazdır! Hətta güllərin, çiçəklərin belə bu ayrılıq aktını imzalayanları qarğayaraq: "Bu işə qol qoyan qollar sınaydı" (3.539) deməsini də unut-mayan şair "Ağalar bilmədi birdir bu torpaq, Təbriz də, Bakı da Azərbaycandır, bir elin ruhunu, dilini ancaq kağızlar üstündə bölmək asandır!" istehzası daş qəlbləri də kövrəl-dir. Vətənin taleyini öz taleyində yaşadığına görə Bəxtiyar Vahabzadə istismara, ağalığa, işğalçılığa nifrət edirdi, özünün timsalında o taylı-bu taylı xalqının səbr və dözümünə, əsarətə boyun əyib itaətkarlıq göstərməsinə, zülm qarşısında susqunluğa, mütiliyə, kölə-liyə üsyan edirdi. Mütiliyi hər məqamda "azadlığın düşməni, millətləri diri-diri dəfn edən" kabus sanan vətəndaş şair "atam kölə olduğunu heç bilmədi, yaşayırdı, düşünmür-dü, "Ağa" kimi ömür sürdü, mənsə kölə olduğumu bilə-bilə, qana-qana, öz-özümü dana-dana, ölə-ölə yaşayıram, - deyirdi, hökmü böyük düşmənin taxtının çürük olduğunu xoşbəxtlik, səbrinin isə düşmənin qüdrətindən daha böyük olmasını bədbəxtlik" (4.62) sayırdı. 1946-cı ildə Güneydə Milli Hökumət məğlub edildikdən sonra Vətənin Quzeyi-nə üz tutan şair Balaş Azəroğluna xitabən yazdığı şeirdə də "qol-qanadını qıran" həsrətin ömrünün yaman uzun olduğundan şikayətlənir, ancaq iki qardaşı birləşdirəcək, milli azadlığa-xoşbəxtliyə qovuşduracaq günün gələcəyinə də inamını sərgiləyir. Bu yönlü qutsal diləklərini ədalətlə cilalanan, həqiqətdən qüvvət alan və dodaqlarda çiçək açan qadir sözün qüdrətilə Alp Ər Tonqanın ruhuna tapınaraq uzaq altaylardan düz Anadolu-yadək hayqırdı şair... Hayqırışı Türkiyədən, Güney Azərbaycandan, Təbrizdən, ustad Şəhriyarın Məqsudiyyədəki ocağından, şair Kərim Məşrutəçi Sönməzin, Əli Daşqının, Səhəndin evindən də eşidildi. Türkçü şair Təbrizdəki qardaşına-adında da oxşarlığı və yar-dost-arxadaş-sirdaş olmaq mənasını daşıyan Şəhriyara səsləndi, ustada telefon açdı. İkiyə bölünmüş böyük bir xalqın acı qədərini, həsrət və özləmini şair övladlarının da yaşamasından doğan üzüntülərini telefon xəttindən qan qardaşına söylədi, qəmli-qəmli dedi: - Səsimiz görüşdü, qəlbimiz dindi, illərlə eyni ağrılar, eyni arzularla yaşayr, eyni dərdi daşıyırıq...

Dərdimin yaşıdır mənim öz yaşım,
Biz bir arzudayıq, bir tələşdayıq.
Sənin göz yaşındır mənim göz yaşım,
Dərdimiz birdirsə, eyni yaşdayıq.
Bizim bir kimsəyə qərəzimiz yox
Biz iki qardaşıq, bir anamız var.
Bir böyük torpağın iki oğluyuq,
Orda Şəhriyaram, burda Bəxtiyar (3.38).

Ustad Şəhriyar da bütün ömrü boyu əsən yellərdən soraq aldığı, "Səmədin sözündən, Bəxtiarın üzündən öp" deyə ağ göyərçinlərdən öpüşlər göndərdiyi Quzey Azərbaycanı, Bakını görmək, soydaşları ilə görüşmək arzusu ilə qovrulur, iki qardaş arasına ayrılıq salanları lənətləirdi. Bu yanğı odlu ürəyindən, nəfəsindən, qələmindən əsərlərinə hopurdu. Şair «Heydərbabaya salam» poemasında qan qardaşlarına bir-birindən muğayat olmağı, bir daha ayrılmamağı tövsiyə edir, yaman günlərin tezliklə ötüb keçməsi, Vətən səmasının qara dumandan, buludlardan təmizlənməsi üçün məhz milli birliyə nail olmağın gərəkliyini vurğulayır. Bu fakt maraqlı və doğaldır ki, Bəxtiyar Vahabzadə «Gülüstan» poemasında ilk dəfə ədəbi müstəviyə gətirdiyi "Ayırmaq gəlməsin kimsəyə asan, Bir xalqın bir olan dərdi-sərini, O taydan bu yana Mustafa Payan, Oxuyur Vahidin qəzəllərini, Vurğunun həsrətli nəğmələrinə, Şəhriyar səs verdi Təbriz elindən" fikirlərini əsərin sonunda «Hey-dərbabaya salam» poemasından milli birliyə çağırış ruhlu iki bəndi verməklə bir daha təsdiqləyir və fərdi düşüncələrini əyaniləşdirir:

Bir uçaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən,
Bir görəydim ayrılığı kim saldı,
Ölkəmizdə kim qırıldı, kim qaldı?

Heydərbaba, göylər bütün dumandı,
Günlərimiz bir-birindən yamandı,
Bir-birizdən ayrılmayın, amandı,
Yaxşılığı əlimizdən alıblar,
Yaxşı bizi yaman günə salıblar (4.24).

Bu məqamda paralellər aparmaq istəyirəm. Vətən və xalqın varlığı yolunda ömrünü şam tək əridən hər iki şair uzun illər, əsrlər boyu ayrılığa, məhkumluğa dözən millətin səbrinə, itaətarlığına üsyan edir və bu duruma qarşı üsyankarlığını kinayəli şəkildə biri "Lap yaxşı eləyib üstəlik, bizə, Biri "baran" dedi, biri xər" dedi, digəri isə "Yaxşılığı əlimizdən alıblar, Yaxşı bizi yaman günə salıblar" kimi ifadə edirlər... Ümumiyyətlə, Şəhriyarın ayrılıq, həsrət mövzusuna dönə-dönə qayıtması millətinin çəkdiyi acıları bilavasitə yaşaması ilə bağlıdır. «Heydərbabaya salam», «El bülbülü», «Dövünmə və sövünmə», «Can, Rüstəm», «Qardaşım Süleyman Rüstə-ə ithaf», «Süleyman Rüstəmə», «Aman ayrılıq», «Səhəndiyyə», «Məmməd Rahim həzrətlərinə cavab», «Məmməd Rahimə» və s. poema və şeirlərində o taylı-bu taylı Azərbaycanın ağrı-acılarını, mənəvi əzablarla müşayiət olunan yaşantılarını təsvir edir. "Səhəndiyyə" poemasında yazılmış qanunların hökmündən, qərarların amansızlığından hiddətlənən ağlargözlü şairin birbirinə həsrət xalqın Araz kənarında xəyali görüşünün təsviri ürəkləri riqqətləndirir, qışın soyuq günündə insanı sanki buzlu suya salıb çıxarır, qanını, iliyini dondurur:

Dağlı Heydərbabanın arxası hər yerdə dağ oldu,
Dağa dağlar dayaq oldu,
Arazım ayna çıraq qoymada aydın şəfəq oldu,
O tayın nərəsi qovzandı, ürəklər qulaq oldu.
Yenə "Qardaş" deyərək qaçmada başlar ayaq oldu,
Qaçdıq üzləşdik Arazda, yenə gözlər bulaq oldu,
Yenə qəmlər qalaq oldu…
Gözdə yaşlar çıraq oldu,
Lalə bitdi, yanaq oldu,
Qonça güldü, dodaq oldu,
Nə sol oldu, nə sağ oldu... (4.113).

Təsadüfi deyil ki, «Heydərbaba»dan, Şəhriyar şeirindən təsirlənərək ona nəzirələr, zaman-zaman ithaf, təxmis və xatirə şeirləri yazan xalq şairi Süleyman Rüstəm, Məm-məd Rahim, Nəbi Xəzri, Əli Tudə, Söhrab Tahir, Hökumə Bülluri, Məmməd Araz, Xəlil Rza, Mirvarid Dilbazi, Nazim Rizvan, Məmmədəli Müsəddiq, Tariyel Ümid, Qasım Türkan, Rasim Kərimli, Ələkbər Şahid, Seyidağa, Ənvər, Qasım Cahani, Qərib Aşkari, Şahin Fazil, Gülhüseyn

Hüseynoğlu, Rəfiq Zəka, Teyyub Qurban, Kəmalə Ağayeva, Məşədi Əbülfəzl Haşimoğlu, Xaliq Rəhimli, Nazim Qail, Oktay Zəngilanlı, Zahid Əkbər və b. qələmdaşlarının sırasında Bəxtiyar Vahabzadənin də şərəfli adı vardır...

"Mərziyə" poemasını ziyalı şair 1960-cı illərdə Güney Azərbaycanda milli mübarizə yolunda S.Behrəngi, Səhənd, Oxtay, Q.Saedi, H.Sahir, Sönməz, H.Nütqi, Savalan, Məhzun və digər fikir adamları ilə bir sırada "21 Azər hərəkatının çox da uzaqda olma-yan tarixi ənənəsinə söyənərək yeni cığırlar açan"(5) elin mərd qızı, Güneyin Üskü qəsəbəsindəki orta məktəbdə balaca fidanlara Ana dili və ədəbiyyatını öyrədən Mərziyə xanım Əhmədi Üskuyiyə həsr etmişdir. O Mərziyə xanım Üskuyiyə ki, "Dalğa" təxəllüsü ilə bir-birindən mənalı şeirlər yazırdı və Məhəmmədrza şah hakimiyyətinə qarşı açıq mübarizəyə qoşulmuş, küçə döyüşlərinin birində şah qoşunları ilə üzbəüz vuruşmada ürəyini düşmən gülləsinə sipər edərək ömrünün bahar çağında - 27 yaşında həlak olmuşdu. Əsərlərini "Mən yazıyla yaşamaq istəmirəm, yaşamımla yazmaq istəyirəm..."(6) prinsipi ilə qələmə alan Mərziyə xanım 1960-cı illərdə Güney Azərbayan milli varlığına hörmət olunması, milli kimlik, milli dil məsələlərində dirənişləri ictimai şüura çevirən və kənd-kənd, oba-oba gəzərək bu prosesi inkişaf etdirən milli ziyalılardan biri idi. 1978-79-cu illər inqilabında məhz bu amilin mühüm təsiri olmuşdu. Bəxtiyar Vahabzadə "Mərziyə" poemasında Vətənə məhəbbətini özünün yaratdığı dinə çevirən, öz xalqını kölə, qul deyil, azad görmək istəyən qəhrəmanının ömür kitabını vərəqləyir, Sipahi daneşgahında oxuyarkən alovlu nitq və çıxışlarından vüsət tapan tələbə tətillərindən başlanan və müəllimliklə-uşaqlara "Zəbani madər"i deyil, Savakın hədələrinə, yasaqlarına rəğmən "Ana dili"ni öyrədən, milli şüur, milli düşüncə aşılamaqla davam edən şanlı inqilabi mübarizə yoluna işıq salır. Poemadan öyrənirik ki, "bu çəlimsiz, zəif, üzdən fağır, qeyrəti çəkisindən yüz qat ağır qızcığaz" uşaqlara qeyrət dərsi keçir. Öyrədir ki, qorxu adlı iblis kölə balalayar, kölələrsə mütilik doğarlar. Bir xalq üçün səfalət, aclıq, ya fəlakət zillət deyil, səfalət onu məhv etməz, keçər gedər. Amma bir millət aciz bir qul, ayaqlara çul olarsa, fikircə yoxsul olub düşünə bilməsə, o hələ millət deyil. Millətin millətliyi ləyaqətində, eşqində, qeyrətində, şərəfində, adında, bir də dilində və azadlığında yaşayar." Xalq azadlığı bir ehtiyac, zərurət kimi dərk etməli, milli sərvətlərinin, Ana dilinin sahibi olmalıdır" Çünki:

Ən adicə haqqıdır azadlıq hər millətin,
Birinci övladıdır ləyaqət hüriyyətin.
Əsir xalqın dünyada nə yeri var, nə səsi.
Əsir xalqın yerinə qanan da özgəsidir,
Görən də özgəsidir, danışan da özgəsi!
Hər ulusun ən qiymətli sərvətidir ana dili,
Övladları yer üzünə səpələnsə...
Pərən-pərən düşənlərin vəhdətidir ana dili!
Qürbəti də Vətən edən Ana dilim! (7.410).

Ana dilini ruhu, canı, eşqi, vicdanı və namusu sayan şairin bu əsərdə də əqidəyə, milli ideala sadiqliyi, milli təəssübkeşliyi özünü çılpaq şəkildə təzahür etdirir. Sevdiyinin evində gərdəyə girmək əvəzinə qaranlıq zindanı gedən, öpüş görməyən dodaqlarında Azərbaycanın dərdi dilə gələn, gözünün sürməsi barıt qarası, üzünün kir-şanı səngərlərin toz-torpağı, al qanı dırnaqlarının manikürü olan, körpə əvəzinə şümşüad qolları üstünə silah-tüfəng götürən Mərziyənin igidliyindən qürur duyan B.Vahabzadə bu polad iradəli qızın biləklərinə qolbağ, bilərzik əvəzinə qandal taxılmasından, döşündəki medalyonun, mərcanın yerinə güllələrin-zülmün qəhqəhəsinin düzülməsindan üzülür, sarsılır. Ancaq igid Şahsevən qızı Səriyyənin ölümqabağı Şah cəlladlarının düz gözünün içinə söylədiyi "Azadlıq ağacı şəhid qanı ilə suvarıldlqca daha çox bar verəcəkdir" fikrinə yəqin ki, haqq verən Bəxtiyar müəllim şüurlara, qalın qafalara yeridir ki, zaman-zaman qırılsaq da, yenə artıb çoxaldıq, qibləsi Vətən olanlar alçaqda, yerdə itsələr də, min uca yerdən bitəcək, Tanrı dərgahına yüksələcək, könüllərdə heykəlləşə-cəklər. Tökülən qanların qızartısı Vətənin dan yerini qızardacaq, azadlıq günəşini doğuracaqdır. Azərbaycan türkcəmiz öz mövqelərindən sıxışdırılıb qapılar arxasında qoyulduğu bir vaxtda Ana dilimizi,

onun köklü yaşarı keyfiyyətlərini qorumağa çağıran şeir və məqalələrilə həyəcan təbili çalan vətəndaş şair ana dilində danışması, təhsil alması yasaqlanmış Güneyli bacı və qardaşlarının halına daim yanmış, ürəkdən kədərlənmişdir. O taylı - bu taylı xalqın dərdini öz dərdi bildiyini Güneyli ana dili həsrətlisindən aldığı məktubun təsirilə yazdığı "Nə ondansan, nə bundan" şeirinin sətirlərindən duymaq o qədər də çətin deyil... Şeirdəki mətləb çox ağrılı, eyni zamanda düşündürücüdür. Şair məktub yazaraq ana dilini öyrənmək üçün ondan dərslik göndərməsini xahiş edən soydaşının halına acıyır, fars dilini-yad dili yadın özü kimi öyrənsə, ona min yol "can qurban" desə də, "yadın onu heç vaxt doğma bilib ürək qızdırmayacağına, həmişə haqqını yeyəcəyinə, kökündən ayrılıb öz-özündən qaçanların, "sünbəyə toxmaq, tüfəngə çaxmaq" olmayanların, özünə ögey, özgəyə yamaq" olanların bədbəxtliyinə vaysınır. Bu nadanlıqda onun anasını qınayır. anasının doğma dilini balasına öyrətməyən anaların "ana" adını daşımağa layiq olmadığını deyir:

Yad dildə məktub yazıb qardaş öz qardaşına,
Bu məktubu oxuyan nə kül töksün başına?
Hökmünə bax həsrətin, hökmünə bax zillətin!
Bəs anası yox imiş bu zavallı millətin?
Bir əmcəkdən süd əmən əkiz övladlarına
Öz dilini öyrədə?
Bir yuvadan uçurub, bu uçuşu seyr edə? (7.39).

Bəxtiyar Vahabzadə Güney Azərbaycan şairlərinin əsərlərini daim mütaliə edən, onlara ürəkaçıqlığı ilə yaradıcılıq uğurları diləyən, poeziyanın enişli-yoxuşlu yollarında yaşıl işıq yandıran geniş qəlbli ədəbiyyat adamı, vətəndaş şair idi. Güneyin istedadlı şairlərindən olan Əli Daşqın və Kərim Məşrutəçi Sönməz ondan xeyir-dua aldıqlarından bu gün də qürur hissi duyur, həmin xeyir-duanı ömrün ərməğanı kimi unutmurlar: "Əli Daşqın, ömrümüz boyu həsrətində olduğumuz Güneydən ürək açan söhbətləri ilə bizi sevindirdi. Özümü öz içimdə və xəyalən ana Təbrizdə hiss etdim. Qan, can və din qardaşlarımla qucaqlaşdım. Əli Daşqının söhbətlərindən onun vətənsevərliyini, xalqına vurulduğunu, ən ümdəsi ziyalılığını, ətrafında cərəyan edən hadisələrə belə fəal, həm də içdən münasibətini duydum və hər şeydən öncə, onun geniş şeir dünyasını gördüm. O, şairdir."(8.143). Əli Daşqının ortaq türkcədə yazdığına diqqət yetirən Bəxtiyar müəllim şairin şeirlərində milli məqamları, böyük tarixə malik bir millətin talesizliyini obrazlı şəkildə ifadə etmək səriştəini nəzərdən qaçırmır və şairin bu misralarına istinad edir:

Biz nə yapdıq ki,
Ağzı göyçək dünyada? Bizi
Kölgələr də kölgəsinə almadı?!
Hər kəsə yeyildik, udulduq yumşaq...
Tək dünyanın boğazına ilişdik.
Dünyanı kölgəsinə alan
Yalnız bizmişik...

Bəxtiyar müəllimin xeyir-duası ədəbi aləmdə keçərli idi... "Qaranquş yazı gözlər" kitabındakı "Xalq və şair" başlıqlı ön sözdə onun K.M. Sönməzin ünvanına yazdığı uğurlama təsirli və kəsərlidir: "Sönməz şeirin, sənətin kökünü, mayasını xalq həyatından ayırmır. Xalqın dərdindən, istək və arzusundan cücərməyən şeiri məqbul saymır. "Alla-hu-əkbər" deyə-deyə xalqı soyanlara lənət nəğmələri oxuyur." (9.3) O, rəy yazmaq üçün Sönməzin şeirlərini oxuyarkən odlu misralarıyla qəlblərdə Azərbaycana məhəbbət, sevgi ocağı çatan böyük vətənpərvər şair Səhəndi də xatırlayır: "Cənubi Azərbaycanın görkəmli şairi Sönməzin kitabını vərəqlədikcə gözlərim önündə Vətənin dərdləri ilə sinəsi şan-şan olmuş Səhənd canlanır. Şairliyi bir yana, o, hissini, həyəcanını gizlətməyi bacarmayan, sözü özünü ifadə edən səmimi bir insan idi. Bakıya hər gəlişində görüşlərimiz toy qarışıq yasa bənzərdi. Qucaqlaşardıq, içimizdəki hönkürtü yaşa dönüb gözlərimizdən axıb qurtarmayınca ayrılmazdıq. Həmin iç hönkürtüsünü mən indi Sönməzin şeirlərindən eşidirəm və Səhəndlə görüşlərimiz elə bil təkrar olunur" (9.3).

Göründüyü kimi, Bəxtiyar Vahabzadə Güney Azərbaycan şairlərinin şeirlərinə adi şeir-lər kimi deyil, öz haqqı, milli hüquqları uğrunda ayağa qalxmış doğma xalqının könül nəğmələri,

dərdlərinin sızıltılı izharı kimi baxırdı və bu məqamı şairin xalqla birləşməsi, vəhdətdə olması, xalqının düşünən beyninə, danışan dilinə çevrilməsidi... O, o taylı-bu taylı xalqının könül nəğmələrini qələmə aldıqca söz-söz, kəlmə-kəlmə zəmanəsinin ay-nasını yaratdı. Bu aynanın hissəcikləri bir sevgilidən başlayaraq Vətənlə, millətlə, Ana dili ilə, nəhayət, Azərbaycan və bütün Türk-İslam dünyasına olan böyük sevgisi ilə bütünləşən ilahi məhəbbətdən yoğruldu. Və həmin aynada səmimi, cana yaxın, təbii bir Bəxtiyar dünyası da yansıdı... Bu dünyanın sakinləri Bəxtiyar Vahabzadə sözünün heyranları, həmçinin bugünkü konfransın da iştirakçılarıdır…

Çox sevdiyimiz, Türkiyədə Azərbaycanımızın səsi və çarpan qəlbi Yavuz Büləndi Bakilər sevimli şairimizi belə dəyərləndirib: “Bəxtiyar Vahabzadə bütün türk dünyasının ortaq səsi, sevən ürəyi, aydın üzü və gözəllik cizgisi, rəmzidir”(2.8). Bu sevən ürək, ortaq səs bu gün bütöv Azərbaycanın oğul və qızlarına üz tutaraq hayqırır və “Gülüstan” poemasını yazdığı ürəyinin ən gizli arzusunu gerçəkləşdirməyə çağırır:

Hanı bu ellərin mərd oğulları,
Açın bərələri, açın yolları
Qoy qalxsın ayağa ruhu Tomrisin.
Babəkin qılıncı parlasın yenə (7.533).

ST FAD OLUNMU D B YYAT

1. N

PATRIOTISM of BAHTIYAR VAHAPZADE and TURKEY

ABSTRACT

Bahtiyar Vahapzade is an intellectual with a heart full of love for his homeland and people. It would be unfair to call him only as a writer or a poet. Our homeland is the first land we see, we breathe, we drink and we step on. Afterwards, we may step on thousand lands, drink waters or breathe the air of them and be temporary inhabitants of many a country. However, neither of them can offer what our own land can give us and thus, they can never be our homeland. These are the thoughts of Vahapzade who describes homeland as the place which we are attached according to its moral characteristics. As in every age, his age also hosted hundreds of people who lived in homeland but were unaware of its characteristics. He pledged himself to warn these people whom he called spiritual immigrants. He considered patriotism as an unrequited love; one must love without expecting any payoff. Therefore, he managed to develop a distinctive apprehension of homeland without giving in neither the Markist not the capitalist ideas of his age. Turkey had a disparate place for this great philosopher whose heart was beating for his country. He said "*I am now going to the hometown of my desires and dreams descending from my progeny*" when he first set off for Turkey in 1961. He described Istanbul, which he called as the Mekke of Turkish realm, as "*My hope, my secdegah, owner of my bereaved name, protector of my honor and dignity, my seeing eye, my hitting arm, my thinking brain, my support, my history and my flag*". How many people could describe İstanbul with such a powerful and genuine language? Vahapzade is one of the exceptional thinkers of XX. century whose heart used to beat for his homeland, Turkish realm and Turkey.

G R

Bahtiyar Vahapzade kimdir sorusuna en güzel cevabı kendisi veriyor: "*Ben bugüne ait sözü, ona en uygun biçimde söylemekle yükümlüyüm.*"[1]. Türkiye'de nasıl tanındığına dair cevap ise bir dipnotta saklı. Eski Sovyetler Birliği'nin dağılmaya başlamasıyla sadece bölgeye ilgi duyanlar değil, Türk kamuoyu da büyük yazarı tanımaya başladı. Haziran 1988'de Vahapzade'nin Bakü televizyonunda yaptığı konuşmayı satırlarına taşıyan *Türk Dünyası Tarih Dergisi* onu tanıtırken şu cümlelere yer vermiştir[2]:

> "*Bahtiyar Vahapzâde 1925 Şeki (Nuha) doğumludur. Çağımızda Türkün yüz akı, Yahya Kemal, Faruk Nafiz, Orhan Seyfi gibi otoritelerin devamcısıdır. Ülkemizde büyük bir şaire özlem duyduğumuz şu sıralarda bu boşluğu fazlasıyla doldurmakla kalmayıp varlığı ile her ferdimizin kalbini fethetmiştir. İçli mütefekkir ve güçlü kalemdir. SSCB. Büyük devlet madalyasını hak eden şairimiz, Bakü üniversitesi profesörüdür.*"

[1] Bahtiyar Vahabzade, **Gurub Dü ünceleri**, aktaran: Beşaret İsmail, Türk Edebiyatı Vakfı Yayınları, İstanbul 1995, s. 33
[2] Vatan Millet Anadili, s. 188
[3] Vatan Millet Anadili, s. 72

örnek olabileceği kanaatindedir. Bu meyanda 'Şahsi Fikir İçtimaî Duygu' adlı yazısında şunları ifade eder:

"*Kimdir Vatandaş? Vatandaş dediğimiz, herkesi kendisine değil, kendisini herkese borçlu bilen, hakkından çok borcunu düşünen, vatan için kendini çıra gibi yakan ve 'ben'ini 'biz' içinde eritmeyi başaran insandır! Bunun için ilkokuldan başlayarak eğitimin başlıca gayesini bilgi ile beraber içtimaî duyguların öğretilmesine yöneltmeli, bilhassa hakiki vatandaş eğitmeliyiz. Âlimlerden biri güzel söylemiş: 'Öğrencinin beyni boş depo değil ki oraya bilgi doldurmaya çalışılsın. Öğretmenin görevi, öğrencinin kalbinde arzu ve ülkü meşalesi yakmaktır*."

d. Aydınlardan Kaynaklanan Sorunlar: Aydın halka rehber olan kişi anlamına da geldiği için sanatçı ve din adamlarını da bu grupta incelemekte fayda var. Vahabzade'ye göre halka rehber olabilecek kişilerde kendisinden önce halk sevgisi bulunması gereklidir. Aksi takdirde o rehber halkı bir faciaya götürür. Azerbaycan bağımsızlık yolunda kötü rehberlerin eline düşmemiştir. Bu onun büyük şansıdır. Asıl mesele bağımsızlığın ardından çıkan sen ben kavgasıdır. Bu kavgaya bütün halk okumuşu yazmışı, sanatçısı edibiyle katılmıştır. Halkın arasında her şeye bir kulp takma sevdası görülmeye başlanmıştır. Sanatçı da bundan payını aldığı gibi dahası kendini öne çıkarmak adına, bu bühtanlara dâhil olmuştur. Bu kargaşada herkes kötü olarak adlanmış, kime gidilse bir eksiği dile getirilmiştir:

"*Babek soy köküyle bizden değilmiş*
Hataî İslam'ı ikiye bölmüş
Fetali Allahsız, Vagif baz idi
Falansa azıcık kumarbaz idi
Geceli gündüzlü Vagif dem idi
O ayyaş bu fersiz, o bîgam idi
Biri garazkârdı, biri hasisti
Bu ondan iyiydi, o bundan pisti
Nâtavan böyleydi, Hacer şöyleydi
Büyükler önünde o bir köleydi
Rahmet demiyoruz ama bir kere
Milleti yücelten rahmetlilere
Bir soran yok mu sen nesin
Söyle, bu millete ne getirmişsin?"[1]

Sanatçıların arasında birbirine bühtan atma belası kadar bir diğer önemli problem de bilgisiz din mollalarıdır. Türk milletinin en önemli mayası olan din, bu insanların şahsi çıkarları uğruna uydurdukları yalanlarla büyük yaralar almaktadır. Oysa insanları nizama çekecek, kendine çeki düzen verdirecek en büyük güç dindir. Bilgisiz mollalar milleti böyle bir dayanaktan yoksun bırakmaktadırlar. 'İbadet' şiirinde Rusya zamanında dine hıyanet ederek makam mevki sahibi olanların azatlık vakitlerinde mollalığa sarılmalarının garipliği dile getirilir:

"*Dünyanın garibe oyunları var*
Evvel aldatanlar aldanır bugün
Senden el çekip rütbe alanlar
Seni tebliğ eden molladır bugün."[2]

'Dini Bilgisiz Mollalardan Koruyalım' başlıklı yazıda da yukarıdakilere paralel olarak liyakatsiz din adamlarının, hakikatte karınlarını doyurma adına, millet önüne geçmesinden yakınma vardır. Oysa "din her şeyden önce ahlak temizliği ve manevî yücelik olmalıdır."[3]

2. Türkiye'nin çinde Bulundu u Sorunlar:

Yukarıda Azerbaycan'ın ait olarak gösterilen sorunlarının Türkiye'yi kapsamadığını söylemek güç. Bununla birlikte hareket noktamız Bahtiyar Vahabzade'nin eserleri olduğu için o sınırdan devam edeceğiz.

[1] Soru İşareti, s. 128, 129
[2] Bahtiyar Vahabzade, **Yücelikte Tenhalık**, aktaran: Fatih Ordu vd, Ötüken Neşriyat, İstanbul 1998, s. 83
[3] Vatan Millet Anadili, s. 90

Türkiye'nin konu edildiği meselelerde, ülkedeki Batı hayranlığı, bu hayranlığa paralel olarak Doğu'ya bîganelik, iş yapmak yerine kavram kavgaları yapmak, ecdadı tanımama yahut onu küçük görme ve gösterme göze çarpar. Bu sorunları kısaca özetleyip örneklemeye çalışalım:

a. Batı hayranlığı: Bahtiyar Vahabzade Türkiye'de hemen her işin başının Batı hayranlığı olduğunu söyler. Türkiye'nin Batı'ya hayran olduğu pek çok konuda kendilerinde daha iyi örnekleri olduğunu görememesini eleştirir. Azerbaycan'ın başına musallat olan yabancı okul belasının Türkiye'de de olmasından üzüntülüdür. Azerbaycan'da okullarda Rusça okutulmasına karşın Türkiye'de de İngilizce okutulması bir diğer musibet olarak sunulur. Azerbaycan'da Rusça okutulmasının esaretle bir parça anlaşılabilir olduğunu söyleyen Vahabzade, hiç esarete düşmemiş Türk halkının İngilizce sevdasına anlam veremez. Bunun yanı başında Türkiye'de yabancı dilin hakkıyla öğretilememesinde gerçekçi bir yaklaşımdan ziyade romantik ve anlamsız bir etkilenme yattığını düşünür. Özellikle Ahmet Kabaklı ve Yavuz Bülent Bakiler gibi dostlarıyla mektuplaşmalarında temel mesele olarak bu İngilizce iptilasını sorgular. Oktay Sinanoğlu'nun bu konudaki çabalarını desteklediğini söylediği Kabaklı'ya bir mektubunda şunları da ilave eder:

"*Ben bir türlü anlamıyorum, tarih boyu büyük imparatorluklar kurmuş ve tarihin hiçbir döneminde müstemleke olmamış Türkiye Türkleri, bugün niçin kendi diline geleneğine ve tarihine bu kadar bîgânedir. (…) Türk kardeşlerimiz bizim faciamızdan ders almalı ve Türkiye'de İngilizce eğitimin hangi maksatları güttüğünü anlamalıdırlar*."[1]

Vahabzade Batıya bu kadar hayran olan Türkiye'nin Doğu'yu anlamasını beklemez. Oysa Türkiye'nin esas görmesi gerektiği yer Doğu'dur. Türkiye haritada bile Doğu'nun başı iken Batı'nın ancak kuyruğu olabildiğini ifade eder. Sanatçılar için de durum değişmez Türk sanatkârı Batıdan sayısız oyun, sinema çevirisi yaparken Doğu'ya bir defa olsun bakmayı akıl etmez.

b. Boş Kavram Kavgaları: Vahabzade'nin Türkiye'de gördüğü bir diğer sorunun içi boş kavram kavgalarıdır. Medeniyet, muasırlık, çağdaşlık, laiklik bu kavramların başında gelir. Vahabzade bu kavramların hiç birinin karşısında değildir; ama Türkiye'de gece gündüz bunların tartışılmasına da bir anlam veremez:

"*Türkiye yine de diyor ki: batı, Batı, batı… Bu Batı sözü vallahi bizi batıracak, Artık kifayet edilmeli. Ben şahsen bu şablonlardan usandım (…) Türkiye'de meselelerle yeterince uğraşılmıyor. Peki, neyle uğraşılıyor, başörtüsüyle (…) Bir taraftan demokrasi deniliyor, bir taraftan lâiklik deniliyor(Allah'ım bu sözü ne kadar çok işitiyoruz!) Önüne gelen biz lâik devletiz, diyor. Güzel, kardeşim ol lâik devlet.*"[2]

c. Ecdadı Tanımama Yahut Küçük Gösterme: Vahabzade'ye göre Türkiye aydının mühim göstergesi ecdada saygısızlıktır. Hiçbir millet Türk aydını kadar ecdadına rahat şekilde sövemez. Sövse dahi diğer sanatkârların arasında karşılık bulamaz. Bahtiyar Vahabzade'nin Türkiye'de ilk olarak tanınması da yine böyle bir çıkışı ile olmuştur. Varlık dergisinde İsmet Zeki Eyüboğlu'nun divan şiirini aşağılamasına yine aynı dergide yayınlanan ve 'Yel Kayadan Ne Aparır' adlı mektubuyla cevap vermiştir. Bu mektupta ecdadı küçümsemenin yersizliğine değinen Vahabzade, en son kendi yazısını da anlamsız bularak şunları söyler:

"*Bu satırları yazarken bana öyle geldi ki, Nesimî ve Fuzulî yüce bir kayanın zirvesinde durmuş, Eyüboğlu'nun saldırısına, benim de savunmama gülüyorlar. Onun için ki, bu şahsiyetlerin Eyüpoğlu gibilerin saldırısından korkusu, benim gibilerin de savunmasına ihtiyacı yoktur… O, aşağıdan yukarıya, kayanın zirvesine olanlara saldırıda bulunuyor. Bu konuda halk güzel söylemiş: 'Yel kayadan ne aparır*?"[3]

Oysa aydın ecdadını anlamalı ve onu halkına anlatmak için yollar aramalıdır. Türk aydını ataların yol göstericiliğine sığınmak yerine kendini onlara yol göstermeye kalkmaktadır. Ataların ata sayılmayıp onlara taş atılmasın Vahabzade şöyle dile getirir:

---

[1] Vatan Millet Anadili, s. 193
[2] Vatan Millet Anadili, s. 66
[3] Vatan Millet Anadili, s. 201

"Hakkı ayaklarız biz hak adına
Dil uzun, el kısa, fiki derbeder
Yâ Rab! Bu dünyada öz ecdadına
Çirkef atan var mı bu millet kadar?"[1]

3. Kökü Dı arıda Olan Sorunlar:

Yukarıda ele alınan Azerbaycan ve Türkiye'nin sorunlarında elbette dışa dönük sorunlar da göze çarpıyordu. Bu sorunları ayrıştırıp ilaveleriyle maddelemeye çalışalım:

a. Yabancı Okullar: Okullar sorunu, yabancı sorunların başında ele alınabilir. Yabancı okulları, Vahabzade'nin bir milletin başına ne kadar büyük bir sorun olarak gördüğü yukarıda anlatılmıştı. Okulların yanı başında televizyon ve sanat yoluyla gelen dış etki de bunlara ilave edilmeli.

Hakikatte Vahabzade dışarıya tamamen kapalı, her şeyiyle kendi içinde var olan bir toplum hayali de kurmaz. O etkileşimin kaçınılmazlığını hatta yerine göre faydalarının da her aydın gibi farkındadır. Bununla birlikte bir millet öz kökü üstünde büyümelidir. Dış etkiler ancak onu serpilip güzelleştirdiği takdirde kıymet ifade eder. Başkasının gölgesinde olanın öz gölgesi, olmaz.

b. Misyonerler: Ülkede gezinen yabancı din adamları da Vahabzade'ye göre masum kişiler değillerdir. Herkes inancını anlatabilir; ama Azerbaycan'da din anlatmanın yanında milletin zor durumundan istifade edip para ile yeni bir dine davet etme söz konusudur. Vahabzade özellikle Azerbaycan'da ve o dönem içinde oldukça yayılmış olan Krişna cemiyetinin çalışmalarından rahatsızdır. Din değiştirenlerin yazılarının yer aldığı 7 Gün gazetesine 'Dini Değiştirmek Beş Yaşındaki Çocuğu Aldatmağa Benziyor'[2] başlıklı cevabî yazısı bu konuda manidardır. Bu yazıda Krişnacılara verdiği cevapların yanında son bir ay içinde evine iki defa İncil gönderildiğini, İncil'e kutsal bir kitap olarak hürmet gösterdiğini hatta okuduğunu ilave ettikten sonra bu İncil'lerin nerelerden gönderildiği sorusunun meçhul kalmasının düşündürücü olduğunu söyler.

c. Liyakatsiz İnsanlara Dışarıdan Verilen Destek: Gerek devlet işlerinde gerekse de dinî mevzularda makam mansıp sahibi liyakatsiz insanların, daha çok dışarıdan destekle ayakta durduğuna kânidir. Özellikle liyakat bahsinde de belirttiğimiz gibi, bu tarz insanlar zaten ellerinde bir beceri bulunmadığı gibi makamlarını koruma adına her türlü cürüme de açıktırlar. Son dönemlerde bu tarz kişilerin fazlaca türediğinden şikâyetçi olan Vahabzade, bu insanların tutunduğu dış kaynakların düşman niyetliler olduğunun altını çizer. Liyakatsiz kişilerin ülkede emelleri olan yabancılara birer kapı konumunda olduğunu anlatır. Halkın birbirine düşürülmesinde, siyasî sorunların büyümesinde hep bu kökü dışarıda olan liyakatsiz insanların payı vardır.

d. Düşmanın Kendini Şirin Göstermesi: Özellikle Karabağ hadiseleri sırasında Batı ve Rusya'nın Azerbaycan'a şirin görünmesinin tam bir oyun olduğunun farkındadır Vahabzade. Bu oyunun başında da özellikle Rusya ve Fransa vardır. Ermenilerle olan savaşta Azerbaycan'ı desteklediklerini yahut hiç değilse tarafsız kaldıklarını söyleyen ülkelerin el altından neler yaptıkları 'Tavşana Kaç Tazıya Tut', 'Dağlık Karabağ İddialar ve Hakikat'[3] adlı uzun makalelerde tek tek ele alır. Bu makalelerde halkın tek destekçisinin yine kendi olabileceğini, düştüğünde başkasından yardım beklemenin sakıncaları anlatılır.

B. TEKL FLER

Yukarıda sayılan her bir sorunun aslında aynı zamanda bir teklif de içerdiği açıktır. Bir sorunun fark edilmesini sağlamak cevabına yakın bir yol göstermektir. Bu kısımda yukarıda sorular bölümlerindeki sıralamaya göre bir teklif sıralaması yapmakı konuyu gereksiz yere uzatmak olabilir.

[1] Soru İşareti, s. 131
[2] Vatan Millet Anadili, s. 180 vd
[3] Vatan Millet Anadili, s. 103-159

Kaldı ki, Bahtiyar Vahabzade'nin tekliflerini tek bir maddede toplamak mümkündür. Bu madde, Türk halklarının birliğidir. Halklarının birliği ilk elden Azerbaycan ve Türkiye arasında olmalıdır. Vahabzade bu birlik fikrini tek bir devlet çatısı altında toplanma şeklinde düşünmez. Bahsini ettiği birlik, kültürel birlik olmalıdır. Elbette Türk devletleri birbirinin yardımında olacak, herhangi bir yerdeki ufacık bir sıkıntı tıpkı bir vücut gibi diğer halklarda da hissedilecektir. Ümidi budur.

'Türk Halklarının Birliği' adlı makalesinde Türk dünyasının içine düştüğü ayrılık belasından dem vurarak zamanı uyanma vakti olarak tanımlar. Bu uyanmanın ilkin Türkiye ve Azerbaycan arasında olmasını beklemektedir. Yüzyıllardır araya girmiş küslükler, yüz dönmüşlükler, ilgisizlikler unutulmalı ve yeni bir dönem inşa edilmelidir. Azerbaycan'ın özellikle Karabağ gibi meselelerde güvenebileceği makamlara ihtiyacı vardır. Bunun ilk kapısı hiç kuşkusuz Türkiye'dir. Devletler arenasında yeniden boy göstermeye çalışan Türkiye'nin de güvenebileceği ülkelere ihtiyacı vardır ve yine hiç kuşkusuz ilk ülke Azerbaycan olmalıdır. Kuyudan çıkan insan bir yere tutunarak dışarıya çıkar. Türkiye için bu güvenli alan Azerbaycan olmalıdır. Şimdi de Türk halklarının birliğine giden yolda Vahabzade'nin alt maddelere indirgeyebileceğimiz diğer tekliflerine bir bakalım:

a. Dil Üzerine Teklifler: Sorunların çözümünde ilk halledilmesi gereken dil meselesidir. Vahabzade, bugünkü Türk halklarının ortak bir dille konuşamamasından, çoğu yerde Rusça'yı ortak konuşma dili olarak tercih etmesinden rahatsızdır. Türk Halklarının Birliği Kurultayı'nda bu konuyu büyük bir felaket olarak dile getirerek, çözümü de "yavaş yavaş ortak bir dile doğru yürümek"[1] şeklinde gösterir.

Zaman gazetesine verdiği mülakatta bu fikri daha da açarak şunları söyler: "*Hiç olmazsa bu ilk adımı atlım, sonra da Ankara'da Türk dünyasının bir akademisi kurulsun. Bizim bir akademimiz var: Azerbaycan ilimler Akademisi. Bu konuda Kırgız'ın, Özbek'in eski Sovyetler Birliğinden kurtulan cumhuriyetlerin hepsinin akademisi var. Ben isterdim ki, ortak bir Türk Dünyası Akademisi kurulsun. Buraya bütün Türk dünyasından ilim adamları dâhil olsun.*"[2]

Dil mevzuunda halkın ve aydınların da yapacağı işler vardır. Eski kullanımı varken yeni kelimelere müracaat edilmemelidir. Yeni bir kelime aranacaksa eğer, önce Türk dünyasında bir örneği var mı ona bakılmalıdır. Bu tutum halkların kopması yerine bütünleşmesine büyük katkı sağlayacaktır.

b. Okullar Üzerine Teklifler: Yukarıda Türk ülkelerinde açılan yabancı okulların Vahabzade'yi en çok tedirgin eden hususlardan olduğunu söylemiştik. Bu okulların en büyük zararı dil üzerine verdikleri tahribattır. Elbette bu tahribat sadece dil boyutuyla kalmaz kültürü hatta dini inancı dahi etkiler. Madem durum böyledir, Türk halkları çocuklarını yerli okullarda okutmaya ihtimam göstermelidirler.

Burada, diğer Türk ülkelerinde Türkiye merkezli açılan okulların durumu ne olacak, sorusu sorulabilir. Bahtiyar Vahabzade bu okulların sonuna kadar destekçisidir. Çünkü bu okullar yukarıda çerçevesi çizilen bütünleşmeye katkı sağlamaktadırlar. Gerek Türk müteşebbislerin açtığı okullar, gerek Turan Yazgan'ın önderlik ettiği eğitim müesseseleri gerekse de Türkiye Milli Eğitim Bakanlığı'nca idare edilen okullar Bahtiyar Vahabzade'nin sonuna kadar ardında durduğu girişimlerdir. Türk müteşebbisler tarafından açılan okullar hakkında Zaman gazetesine verdiği mülakatta şunları söyler:

"*Benim Azerbaycanlı halkım bu insanlara minnettardır. Ben bu işi Türkiye'de hangi vakıflar destekliyor, kuruyorsa onlardan Allah razı olsun, diyorum. Onları tebrik ederim. Bu mektepler çok yüksek seviyededir. Hem ilim, tahsil sahasında, hem de terbiye ve ahlak gibi her sahada onlar güzel mekteplerdir. Ben isterdim ki, onlar Azerbaycan'da daha çok olsun.*"[3]

Okulların bir diğer vazifesi de gelecek nesillere sahip çıkma adına üstleneceği misyon olmalıdır. İstikbal geleceğe borcumuzdur. Dünün insanları, yani ecdad, bu vatanı, bu dili, bu

[1] Vatan Millet Anadili, s. 101
[2] Vatan Millet Anadili, s. 64,65
[3] Vatan Millet Anadili, s. 67

inancı nasıl bize bıraktı ise biz de gelecek nesillere ulaştırmada mesulüz. 'Maşın Silen Çocuklar' şiirinde çocukları araçlarının yanından kovan insanları, geleceklerini kovan insanlar olarak gösterir:

"*Biz kimiz? Arabada sağ sola şütüyenler*
Onlara göz bereldip, 'çekil burdan' diyenler
Kovduğumuz körpeler kimdir? – Geleceğimiz!
Bugünümüzden değil, meçhul sabahımızdan
Kovuruz o günahsız körpeleri bugün biz."[1]

c. Kültür Dünyasının Birliği İçin Teklifler: Milletler tarihlerini ve kültürlerini en güzel şekilde sanat eserlerinde saklarlar. Sanat eserine işlenmiş bir kültür ölümsüzleşir. Bu bakım-dan sanatçı, içinde yaşadığı toplumu yansıtan bir ayna olmalıdır. Bahtiyar Vahabzade bu tür sanatçılara Yunus Emre, Fuzuli ve Nesimi gibi şairleri örnek gösterir. Bu sanatçılar milletin solmaz aynalarıdır. Yunus Emre için şöyle seslenir:

"*-Efsane mi, gerçek mi, bu insan nece insan?*
- *Varlıg sesidir, gopmuş o Türk'ün gopuzundan*"[2]

Sanatçı kültürünü görüp gözeten olmalıdır Vahabzade'ye göre. Özellikle Türkiye'de Sinema ve tiyatrolarda tam bir Batı teslimiyeti göze çarpmaktadır. Buna karşın Vahabzade ortak eserler yazmanın ehemmiyetine vurgu yapar. Türkiye'deki eserler Azerbaycan'da oynasın. Azerbaycan'daki eserler Türkiye'de bilinsin. Bu sebeple 'Özümüzü Kesen Kılıç' tiyatrosunun Türkiye'de oynanmasını çok istemiş ve bu emeline de erişmiştir. Ne var ki bu çabaların çok yetersiz kaldığının da farkındadır. Halk da kendi sanatçısındaki değeri anlamak için çabalamalıdır. Onları değersizleştirecek düşünce ve davranışlardan kaçınmalıdır.

Sanat eserlerinde tarih ve ecdad karalanmamalıdır. Dede Korkut'u her zaman ilk örnek olarak gösteren Vahabzade, bu eserde Türk yaşayışının mükemmel işlenişinin anlaşılmasını ve aktarılmasını talep eder.

Ne var ki sanat eserleri ecdadı küçümseyen, onları değersizleştirmeye çalışan konularla doludur. Oysa Vahabzade'nin teklifi ecdadı daha iyi anlama ve o yoldan ilerleme şeklindedir. 'Nereye Gidiyor Bu Dünya' piyesinde 'Ulu Ecdad' manevî bir rehber olarak yol göstericiliğiyle karşımıza çıkar. Laçın bugünün dertleriyle ona seslenir: "*Vazgeç! Benden ne istiyorsun?*" Ulu Ecdad şöyle cevap verir: "*Kendini! Ben seni kendine döndürmek istiyorum*[3]."

d. Dini Koruma Üzerine Teklifler: Bahtiyar Vahabzade'nin son yıllarındaki televizyon konuşmalarında özellikle dinin üzerinde durduğu görülür. Türk milletinin hakiki kalkanı dindir. Dinsiz bir Türk milleti düşünülemeyeceği gibi Türk milletinden koparılmış bir İslam dini de düşünülemez. İslam, Türk milletini en güzel şekilde inşâ ederken Türk milleti de bu dine en güzel şekilde hizmet etmiştir. Bu birliktelik o kadar iç içe geçmiştir ki, dininden uzak bir insanın millî hasletleri taşıyabilmesi de mümkün değildir. Pek çok kanaatin tersine, Mehmet Akif'i millet şairi, Yahya Kemal'i de iman şairi olarak adlandırması bu bakımdan son derece dikkate değerdir.

Vahabzade'nin şiirlerinde duaya geniş yer verilir. O, aklı karıştığında, işler çıkmaza girdiğinde, karanlık aydınlığı boğduğunda hatta sevindiği en ufak hadisede duaya sığınır. Bu dualar, bir yardım talep etme olduğu kadar, sığınılacak ve şükredilecek, hayır ve şerri öğretecek bir kapıya işaret eder:

"*Göklerin nidası yücelip yerden*
Daim halas eder hayırı şerden.
Kudret-i Kamil'in minarelerden
Gelen nağmesidir Allahü Ekber"[4]

---

[1] Soru İşareti, s. 98

[2] Bahtiyar Vahabzade, **Ürektedir Sözün Kökü**, aktaran: Ahmet Schmiede, Türk Diyanet Vakfı Yayınları, Ankara 1993, s. 13

[3] Bahtiyar Vahabzade, **Nereye Gidiyor Bu Dünya**, aktaran: Yavuz Bülent Bakiler, Kültür Bakanlığı Yayınları, Ankara 1991, s. 37

[4] Bahtiyar Vahabzade, **Gün Var Bin Aya De er**, aktaran: Beşaret İsmail, Nil Yayınları, İzmir 2000 s. 7

e. Ümitleri Yitirmeme: Vahabzade'nin son dönemde yazdığı metinler, özellikle Türkiye Türkçesine aktarılanlar, yığınla problemi içinde barındıran metinlerdir. Öyle zaman olur ki Vahabzade, o günleri esaretten daha ağır daha zor günler olarak gösterir. Bağımsızlığını kazanmış milletin birbirine girmesi, yalanın, rüşvetin, irtikabın artması, asırların içinde şekillenmiş geleneklerin tarumar oluşu.. bu da yetmezmiş gibi her nefes almaya baş uzatıldığında dışarıda bekleyen kavi düşmanın hesap ve oyunları zaten kırılmış olan ümidi bir kat daha kıran şeyler gibi görünür.

Ne var ki Vahabzade bir ümitsizlik şairi değildir. Onun yarınlardan ümidi tamdır. Sıkıntı ne kadar çoksa da aydınlık o kadar yakındır:

"*Nedir bu dert bu gam*
Kâh bilirim kâh bilmezim
Her sevinçte bir dert, elem
Her dertte ümit gizlidir."[1]

Onun öfkesi, kavgası yarınların nesilleri önünde hesap veremeyecek olmanın ıstırabından kaynaklanır. Yoksa geleceğe dair ümidi tamdır ve nesillere de ümitli olmayı teklif eder:

"*Ben geleceğe büyük bir umutla bakıyorum. Çocuklarımız bizim işlediğimiz hatayı işlemeyeceklerdir. Benim korkum yeis yahut kaybolma değildir. O nesillerin karşısında yüzü kara olmaktan korkuyorum. Onlara iyi bir gelecek hazırlayamamaktan, devraldığımız mirası satıp savurmuş olmaktan korkuyorum. Aklın yolu birdir. Gelin aynı hataları tekrar işlemeyelim, diyorum.*"[2]

Sonuç

Azerbaycan'ın başlangıçta esaret daha sonra da yer yer esaretten daha ağır olan ilk bağımsızlık yıllarını yaşayan Vahabzade, o daima açık dikkati ile olayları en yakından görüp anlamaya çalışmış bir sanatkârdır.

Hiçbir zaman maddî sorunlara önem vermeyen Vahabzade, manevî değerlerin yaşama ve yaşatılmasını en hayati gaye olarak görmüştür. Bir kalabalığı halk yapan, halkı millet yapan değerler ona göre her zaman en ehemmiyetli meselelerdendir. Eğer millet çözülmüşse, dil çözülmüşse, din çözülmüşse o ülkenin maddî değerinin hiçbir ifadesi yoktur. Olmadığı gibi zaten iç değerleri çökmüş bir halkın madden de kalkınabilmişliği görülmüş şeylerden değildir.

Türk halkları üzerlerindeki ağır yorgunluğu atmalıdır. Onlara yol gösterecek olan tarihtir. Tarih birlik olmaktan bahseder. Birliğin olmadığı yerde hiçbir mesele çözülemez. Türk milleti üzerindeki bu ağır yükü elbet bir gün atacaktır. Çünkü buna tarih şahittir. Gelecek nesiller dünyaya hakiki yerlerinden bakmaya başladığında, bugünün insanlarını da sorgulayacaklardır. O sorguda yüzü ak, başı dik olmak için bugünün nesilleri yapıp ettiği işleri bir daha sorgulamalı ve ondan sonra karar vermelidir.

KAYNAKÇA

- VAHABZADE Bahtiyar, **Gurub Dü ünceleri**, aktaran: Beşaret İsmail, Türk Edebiyatı Vakfı Yayınları, İstanbul 1995.
- VAHABZADE Bahtiyar, **Gün Var Bin Aya De er**, aktaran: Beşaret İsmail, Nil Yayınları, İzmir 2000.
- VAHABZADE Bahtiyar, **Nereye Gidiyor Bu Dünya**, aktaran Yavuz Bülent Bakiler, Kültür Bakanlığı Yayınları, Ankara 1991.
- VAHABZADE Bahtiyar, **Özümüzü Kesen Kılıç**, aktaran: Yavuz Bülent Bakiler, Kültür Bakanlığı Yayınları, Ankara 1988.
- VAHABZADE Bahtiyar, **Soru areti**, aktaran: Seriye Gündoğdu vd., Kaynak Yayınları, İstanbul 2002.
- VAHABZADE Bahtiyar, **Ürektedir Sözün Kökü**, aktaran: Ahmet Schmiede, Türk Diyanet Vakfı Yayınları, Ankara 1993.
- VAHABZADE Bahtiyar, **Vatan Millet Anadili**, aktaran: Fatih Ordu vd, Atatürk Kültür Merkezi Başkanlığı Yayınları, Ankara 1999.
- VAHABZADE Bahtiyar, **Yücelikte Tenhalık**, aktaran: Fatih Ordu vd, Ötüken Neşriyat, İstanbul 1998.

[1] Soru İşareti, s. 18
[2] Vatan Millet Anadili, s.69

B XT YAR VAHABZAD V RAQ TÜRKMANLARI

Qaybalıyeva S kin

sakina051@rambler.ru

XÜLAS

Xalqımızın böyük, yurdsevər şairi Bəxtiyar Vahabzadə bütün dünyada yaşayan soydaşlarımızla birgə İraq Türkmanlarına, onların yaratdığı xalq yaradıcılığı və ədəbiyyatına həssas yanaşmış, bu mövzuda yazdığı çoxsaylı məqalələri ilə yaddaşlarda dərin iz buraxmışdır. Böyük şairin İraqda yaşayan soydaşlarımızla yaxın əlaqələri kəsilən yollar açıldıqdan sonra - 1959-cu ildə Azərbaycanın görkəmli şairləri Qasım Qasımzadə və Rəsul Rza ilə birlikdə Türk dünyasının möhtəşəm söz ustadı Məhəmməd Füzulinin 400 illik yubiley tədbirləri çərçivəsində Kərbəlada onun qəbrinin ziyarət olunması ilə əlaqədar ilk dəfə İraqa, oradan isə Kərkükə getməsi ilə başlayır.

Eyni zamanda İraq-türkman folklorunun böyük tədqiqatçısı professor Qəzənfər Paşayevin yaradıcılığı ilə bağlı yazdığı "Uzaq ellərin yaxın töhfələri" adlı məqaləsində də onun soydaşlarımıza olan vətənpərvərlik hisslərini, həssas dəyərləndirməsini, bu tədqiqatların əvəzsiz bir mövqeyə sahib olduğunu, nəhayət xalqımız üçün böyük bir mənəvi borcdan doğan ali xidmət olduğunu qeyd etmişdir.

1989-cu ildə İraqda da tanınmış şair, naşir, tədqiqatçı Əbdüllətif Bəndəroğlu B. Vahabzadənin bəzi əsərlərini əhatə edən kitabda böyük şairi türkman oxucusuna təqdim etmişdir.

Böyük şairimiz ölkəmizdə də İraq türkman şairlərinin əsərlərinin nəşrinə diqqət etmiş, bu münasibətlə yazdığı ön söz və müqəddimələrdə, geniş məzmunlu məqalələrində şairlərin min bir çətinliklərlə yaşatdıqları ana dili, yurd sevgisi, xalqın söz xəzinəsi və b. bu kimi mövzulara toxanaraq onların öz xalqı qarşısında yüksək xidmətlərindən söz açmışdır.

Açar sözl r: İraq türkmanları, folklor, xoyrat, ədəbiyyat, mani, ana dili.

Xalqına, doğma Vətəninə, dilinə, ümumiyyətlə, bütün milli-mənəvi dəyərlərinə dərin məhəbbətlə bağlı olan, milli məfkurə, milli oyanış, milli təəssübkeşliyin formalaşmasında fəal vətəndaşlıq mövqeyi ilə həm şair, həm alim, həm də milli şüuru oyadan ziyalı kimi xüsusi yeri olan Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı, mədəniyyətinin inkişafında, həmçinin ictimai-siyasi həyatında əvəzsiz xidmətləri ilə seçilərək təkcə ölkəmizdə deyil, bütöv Türk dünyasında qəbul edilib sevilən bir şəxsiyyətdir. Bütün zəngin elmi və ədəbi yaradıcılığı boyu insanlara yalnız milli qürur, milli dəyər, milli düşüncə aşılayan, onları milli ruhda yaşamağa, yaratmağa səsləyən böyük şair ömrünün sonunadək heç bir çətinlik qarşısında bu müqəddəs vəzifəsindən, şərəfli mübarizəsindən dönməmiş, yeni-yeni nəsillərin bu ruhda yetişməsində mühüm rol oynamışdır. Onun əsərlərinin əsas qaynağı doğma ana dili, xalqın çox qədim və şanlı tarixindən qidalanan zəngin xalq yaradıcılığı, Vətən eşqi, xalqın azadlıq uğrunda yorulmaz mücadiləsi, milli-mənəvi ideyalardır.

Yurdsevər şairimizin milli ruha köklənmiş yaradıcılığı, elmi-ədəbi görüşləri, milli-mənəvi zəmində əlaqələri yalnız ölkəmizlə məhdudlaşmır. XX əsrin 50-ci illərindən başlayaraq Bəxtiyar Vahabzadə onlarla xalqın ağır şərtlər altında milli-mənəvi məhrumiyyətlərə məruz qalaraq yaşadığı keçmiş Sovet Birliyinin öz "sülhsevər" mənafeyi naminə bir çox xarici ölkələrə təşkil etdiyi səfərlərdə digər şairlərlə birgə ədəbi görüşlərdə iştirak edirdi. Belə görüşlərdən biri 1959-cu ildə Türk dünyasının möhtəşəm söz ustadı Məhəmməd Füzulinin 400 illik yubiley tədbirləri çərçivəsində İraqa təşkil olunmuşdu. Bu zaman Bəxtiyar Vahabzadə Azərbaycanın digər görkəmli şairləri Qasım Qasımzadə, xalq şairi Rəsul Rza, akademik Əbdülkərim Əlizadə və başqalarından ibarət səkkiz nəfərlik bir qrupla birgə Böyük Füzulinin qəbrinin ziyarət olunması məqsədilə ilk dəfə İraqa – Kərkük, Mosul və digər şəhərlərə səfər etmişdi. Şairin özünün də qeyd etdiyi kimi, "...bu qədim ölkəyə gələnə qədər burada bizimlə eyni dildə danışan bir xalqın varlığından xəbərimiz yox idi"[1]. Şairin İraqda yaşayan və hazırda sayı 3 milyona yaxın olan İraq türkmanları ilə yaxın əlaqələri belə başlayır. O, yerli mətbuat səhifələrində bütün bu səfərlərdən aldığı zəngin təəssüratlar, rəssam dəqiqliyi ilə apardığı müşahidələrdən gəldiyi qənaətləri əhatə edən vacib bilgiləri öz oxucuları ilə bölüşmüşdür.

[1] Bəndəroğlu Ə.Qərənfil.Bakı, Gənclik, 1977, səh. 5

Şair zəngin tarixi olan qədim Bağdadı, dünya mədəniyyətinin beşiyi sayılan İraq torpağını gəzərkən hələ 800 il bundan əvvəl buradan keçmiş, Sasanilərin mərkəzi olan qədim Mədainin XII əsrdəki vəziyyətini acı sətirlərlə təsvir etmiş, dağılmış sarayın dili ilə:

Biz ədl sarayikən zülm ilə xərab olduq,
Zalimlər olan qəsrə gör neyləyəcək dövran.
Sarsıtdı kim əflakə qalxan belə eyvanı,
Göylərdəki qüvvətmi etdi ya fələk viran?
Sordum hara getmişlər indi o böyük şahlar?
Bir hamilədir torpaq, çox udmuş o şah, xaqan[1] –

deyən sələfi Xaqanini xatırlayır, 1180-ci ildə daş şəbəkələrdən hörülmüş, 1221-ci ildə xəlifə ən-Nasir tərəfindən bərpa edilmiş, bir neçə qapısı fil sümüyündən və gümüşdən hazırlanmış, Abbasi muzeyi kimi fəaliyyət göstərən Dualar qələsini ziyarət edərkən otaqlardan birinin divarında Azərbaycan türkcəsində yazılmış səkkiz misralı bir şeirin oxunan sətirlərini də nəzərə çatdırır:

Bu yadigaridən qərəzim bir nişanədir,
Bir məhliqadən olmadı xali zəmanə də.
Əskik deyil çırağı əcəb asitanədir.
...Fərhadın etdiyi buna nisbət zəbanədir,
Hadi, cahanda qeyri tamam bir bəhanədir.

B. Vahabzadə bir səyyah gözü ilə gördüyü yerləri son dərəcə təbii, aydın ifadələrlə elə dəqiq təsvir edir ki, oxucu sanki özünü o aləmdə hiss edir: "Min bir gecə nağıllı Bağdad gecələri, qoca Vidadinin həsrətlə yola saldığı durnaların qanad açdığı Bəsrə göyləri, babalarımızın zəvvar kimi keçdiyi Kərbəla, Nəcəful-Əşrəf yolları, neft səltənəti Kərkük şəhəri, gecənin qaranlığında göylərə məşəl tutan Baba gurgur ocaqları, dükanın qabağında bardaş qurub oturaraq qara sur təsbehi ilə fal açan baqqallar, Kərbəla məscidi qabağında "Ağa, nəzir!" deyə xarici səyyahları təqib edən dilənçilər, məscidin tağlı darvazası qarşısındakı "Dədə Füzuli türbəsi", Kərkük küçələrində Sabirin "Hop-hopnamə"sini satan kitabfüruşlar..."[2]

İraq türkmanlarının qədim və zəngin şifahi xalq ədəbiyyatına malik olması ədəbiyyatşünas alim kimi B. Vahabzadənin diqqətindən yayınmamışdır. Xalq yradıcılığının dərinliklərinə yaxından bələd olan B. Vahabzadə 1960-cı ildə yazdığı "Füzulini ziyarət edərkən" adlı məqaləsində İraq türkmanlarının ədəbiyyatında çox mühüm yeri olan xoyratlar haqqında ilk dəfə Azərbaycan oxucusuna məlumat vermişdir. Doğrudur, hələ 30-cu illərdə xoyratlarla bağlı ilk tədqiqatlar repressiya qurbanlarından olmuş araşdırmaçı Əmin Abid (Əhmədov Əmin Mütəllim oğlu (1898-1938)) tərəfindən aparılmışdı[3]. Amma məlum səbəblərdən dolayı Azərbaycan oxucusu xoyratlar haqqında B. Vahabzadənin bu məqaləsində ilkin əyani nümunələr görürdü: "Kərküklülər bayatıya "xoyrat" deyirlər. Bu bayatılar öz incəliyi və gözəlliyi ilə bizi heyran etdi. Həmin bayatıların bir qismi bizim ədəbiyyatımızda da vardır. Bu xoyratların bir qismi bizim bayatıların eyni, bir qismi oxşarı, bir qismi isə həmin ruhda, həmin ahəngdə və həmən dərinlikdə olan misilsiz sənət inciləridir:

Açıq qoy pəncərəni,
Gözüm görsün gələni.
Necə qəbrə qoyallar
Yar dərdinnən öləni?

Oxu tər,
Oxu tazə, oxu tər.
Atma mənə oxları
Qəm tünlükdür, ox itər.

[1] Vahabzadə B. Füzulini ziyarət edərkən. "Azərbaycan gəncləri"qəz., 1960, səh., 3.
[2] Bəndəroğlu Ə.Qərənfil.Bakı, Gənclik, 1977, səh. 5
[3] Abid Ə. "Azərbaycanı öyrənmə yolu" dərgisi, sayı 4-5, Bakı, 1930, səh.15.

Əzizim dərdə razı,
Ol təbib dərdə razı.
Mən bir dərdə dözməzdim,
Oldum min dərdə razı.

Məqalə müəllifi həmçinin qeyd edir ki, bu könül titrədən bayatılar bizə istər-istəməz Füzuli şerindəki incəliyi və dərin mənanı xatırladır, demək, bizim böyük Füzulimiz bu gözəl və incə bayatıların zəminində yetişmişdir.

B. Vahabzadə həmin məqalədə eyni zamanda Azərbaycanda Bayat kəndlərinin olduğu kimi, burada da bir neçə Bayat adlı kəndin olmasından bəhs etmişdir. Yeri gəlmişkən qeyd etmək istərdik ki, İraq əhalisini təşkil edən üç əsas xalqdan biri olan türkmanlar (sayca ərəb və kürdlərdən sonra) ölkənin şimal-qərbindəki böyük türkman bölgəsi olan Tələfərin qərbində və Sincar qəsəbəsinin cənubunda Sino, Təlləvi, Meydanqulı, Sıbatə, buradan daha çox kənddən başlayaraq Tələfər şəhəri, Əfkəni, Butəpə, Buxur, Qırmız, İrfi, Mıstah, Şəh İbrahim, Xəmrə, Tərmi, Qubuq, Təlazzə, Xarabcəmmaş, Cuma və Malvəran kimi yetmişi aşan bir çox böyük-kiçik kənddən sonra Mosul şəhərinin Ninəva, (Yunus Peyğəmbər) Feysəliyə Mansur səmtləri, Qaziyə, Rəşidiyə, Şirəxan, Qaraqoyunlu, Qarayatağ, Səlamiyə, Yarımca, Qızfəxrə, Tezxarab, Babnət kimi bir çox türkman kəndləri ilə birgə əllidən çox türk soylu, Bektaşi təriqətli Şəbək (Şahbək) deyə tanınan Arbçiyə, Gökçəli, Topraqziyarət, Xəznətəpə, Kibirli, Zəhraxatun, Tərcilə, Qaratəpə, Şəbək, Ortaxarab, Cinci, Faziliyə, Şaquli, Seyyidlər, Bahəmzə kimi şəbək türkman kəndlərindən sonra Ərbil şəhərini göstərmək lazımdır. Altunköprü, türkmanların kompakt yaşadığı tarixi Kərkük şəhəri, daha çox Kərkük-Bağdad yolu boyunca yerləşən Təzəxurmatu, Yaycı, Kümbətlər, Tirkalan, Çardağlu, Leylan, Bəşir, Yəhyəva, Tirkəşqan, Qızılyar, Ömərməndən, Bilava, İlincaq kimi kəndlər, Tavuğ bölgəsi və onun İmam Zeynalabidin kəndi, Tuzxurmatu eli, Əmirli, Yengicə, Bastamlı, Çardağlu, Kokus, Xasadarlı, Şahsevən, Elbuhəsən, Biravuçlu, Muratlu, Abbud, Zəngülü və beləcə bir-birinin ardınca Bayat köyləri, Kifri eli, Aştökən, Birəfəkirə, Tatran, Səndiç, Qaratəpə, Qoruq, Çincal, Əlisaray, Dəclə çayı üzərində Qaraxan (Cələvlə), Qızlarbat, Xanəgin eli, Zaviyə kəndi, Şəhrəban eli, Mansuriyə, Məndəli eli və onun Qazaniyə bucağı, Bədrə eli[1] boyunca şimal-qərbdən cənub-şərqə doğru uzanan geniş, münbit ərazilərdə yayılmışlar.

B. Vahabzadə bir xalqın kimliyini, mənliyini ortaya qoyan bu oxşarlığın, bu eyniliyin yeni tədqiqatlarda öz elmi təhlilini tapması zərurətini də qeyd edir və 60-cı illərdə İraqda işləyən, həmçinin İraq türkman folklorunun və dilinin araşdırılması sahəsində təkcə ölkəmizdə deyil, ölkədən kənarda da böyük nailiyyətləri, qiymətli tədqiqatları ilə tanınan hörmətli professorumuz Qəzənfər Paşayevin "Kərkük folkloru antologiyası" kimi çox dəyərli kitabı ilə bağlı yazdığı açıq məktubda həmin zərurətin layiqincə yerinə yetirildiyini xüsusilə qeyd edirdi: "Sən İraqda 6 il rəsmi vəzifədə işləyərkən, bu sahədə öz vəzifə borcunu yerinə yetirməklə də kifayətlənə bilərdin. Lakin içində qımıldanan vətəndaşlıq hissi səni daha başqa bir borca səslədi. Bu səs damarlarında axan qan yaddaşının səsi idi. Sənin damarlarında dillənən səs, kərküklü qardaşlarının əsrlərdən bəri qanlarında qoruyub saxladıqlan əcdadın - kökün səsi ilə həmahəng səsləndi və səni mənəvi borcunu ödəməyə çağırdı. Sən bu mənəvi vəzifəni şərəflə yerinə yetirdin"[2].

Bildiyimiz kimi, 1970-ci ildə məlum siyasi çevrilişdən sonra İraqda yaşayan başqa xalqlar kimi türkmanlara da bəzi mədəni haqlar verilmişdi. Həmin vaxt İraq İnformasiya Nazirliyi nəzdində İraq-türkman mədəniyyət müdirliyi təşkil olunmuş, aylıq "Yurd" qəzeti və "Birlik səsi" dərgisi nəşrə başlamış, həmçinin TV və radioda türkmanca proqramların müddəti artırılmış, ana dilində məktəblər açılmışdı. Çox təəssüf ki, 188 məktəbin fəaliyyət göstərməsi nəzərdə tutulduğu halda bir neçə ildən sonra artıq bu qərar qüvvədən düşmüş, məktəblər bağlanmışdır. Digər tərəfdən, məlum hadisələrdən sonra İraq dövlətinin keçmiş Sovet Birliyi ilə siyasi-

[1] Qaybalıyeva S. Əbdüllətif Bəndəroğlunun elmi-ədəbi fəaliyyəti. Filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. AMEA Şərqşünaslıq İnstitutu, 2012, səh. 9-10.

[2] Paşayev Q. Kərkük folklorunun janrları. Bakı, Elm, 2003, səh.7.

iqtisadi, həmçinin ictimai-ədəbi əlaqələrində müəyyən yaxınlaşma müşahidə olunurdu. Belə bir imkandan İraq-türkman ədəbiyyatçıları da müəyyən dərəcədə yararlanmaq fürsəti əldə etmişdilər.

Həmin dövrdə tanınmış İraq-türkman şairi Əbdüllətif Bəndəroğlunun Bakıda professor Abbas Zamanov, professor Qəzənfər Paşayev və başqa tanınmış ziyalılarımızın dəstəyilə görüşləri keçirilir, həmçinin kitabları çap olunurdu. Böyük şairimiz Bəxtiyar Vahabzadə də İraq türkman şairlərinin əsərlərinin nəşrinə diqqət etmiş, bu münasibətlə yazdığı ön söz və müqəddimələrdə, geniş məzmunlu məqalələrində şairlərin min bir çətinliklərlə yaşatdıqları ana dili, yurd sevgisi, xalqın söz xəzinəsi və b. bu kimi mövzulara toxanaraq onların öz xalqı qarşısında yüksək xidmətlərindən söz açmışdır.

Əbdüllətif Bəndəroğlunun 1977-ci ildə ilk dəfə Azərbaycanda çap olunmuş "Qərənfil" və 1992-ci ildə nəşr olunmuş "Göylər unutmuşdu yağacağını" adlı şeirlər kitabına B. Vahabzadə çox dəyərli ön söz yazmışdır. Məqalə müəllifi İraq torpağında yaşayan bu xalqın qədim və çox zəngin bir ədəbiyyatı olduğunu qeyd edir: "Yalnız bunu demək kifayətdir ki, Füzuli sənəti bu torpaqdan cücərmişdir. Qüvvətli kök və sağlam toxum olmayan yerdə qollu-budaqlı ağac cücərə bilmədiyi kimi, böyük ədəbiyyat da yarana bilməz. Bugünkü İraq türkmanlarının ədəbiyyatı, Füzuli şeiri, xoyrat (bayatı) nəğmələri üzərində boy atır, pöhrələnir" [1]. Şair Əbdüllətif Bəndəroğlunun bu zəngin ədəbiyyat kökü üstə boy atmış, müasir dünyanın iqlimində yetişmiş bir şair kimi Azərbaycan ilə İraq türkman ədəbiyyatı və mədəniyyəti arasında gözəl və davamlı bir körpü olduğunu qeyd edən B. Vahabzadə görkəmli ədəbiyyatşünas kimi İraq-türkman ədəbiyyatı və ədəbiyyatçıları ilə bağlı çox mühüm məqamlara toxunaraq yazırdı: "Xalqının dünənindən, bu günündən və sabahından ayrı nə şair var, nə də onun əsəri. Elə bir şair varsa o, şair deyil, elə bir əsər varsa, o, əsər deyil. Ona görə ki, şair vətənin və xalqın bağrından cücərən bir ağacdır. Onun kökləri torpaqda, yəni tarixdə, budaqları isə havada, yəni o torpaq üçün səslənən diləklər dünyasındadır".

İraq türkman şairlərinin yaradıcılığında ictimai dərdlərin əsas yer tutduğunu qeyd edən ədəbiyyatşünas alim B. Vahabzadə onların xalqın dərdlərini duyan şair kimi sosial fikir və duyğularının başında ana dili probleminin durduğunu göstərir. Bu problemin, bu dərdin ana dilinin unudulacağından təşvişə düşən bu şairlərin yaradıcılığından bir şah damar kimi keçdiyini vurğulayan B. Vahabzadə onların həmin mövqeyinə haqq qazandırır və yazır: " Şair tamamilə haqlıdır. Çünki yalnız dilimizin gül açdığı, yaşadığı yerdə milli varlığımız da mövcuddur. Əgər dilimiz yoxsa, biz də yoxuq"[2]. Doğma ana dilini bütün yaradıcılığının tacına çevirən:

Sən xalqımın aldığı ilk nəfəsdən yarandın,
Ana dilim, səndədir xalqın əqli, hikməti

deyən yurdsevər şairimiz Bəxtiyar Vahabzadə: "Hər xalqın dili o xalqın ruhudur, psixologiyasıdır, mənəviyyatıdır, tarixidir, tarix boyu keçib gəldiyi yollardır... Hər xalqın övladı o xalqın yaratdığı dillə düşünür və həmin dillə öz ürəyinin yanğısı, beyninin fikrini ifadə edir. Mənim torpağa "xak" deyil, məhz "torpaq" deməyim, suya "ab" deyil, məhz "su" deməyim mənim psixologiyam, mənim dünyabaxışım, mənim ruhumdur. Demək, eyni dildə danışan xalqları dillə bərabər eyni mənəviyyat və eyni psixologiya birləşdirir"[3].

İraq türkmanlarının məruz qaldıqları xarici təzyiqlər müqabilində əzmkar, inadkar mübarizəsinə toxunan B. Vahabzadə bir xalqın milli sərvətinə sahib olmağın, onu yalnız maddi sərvətindən deyil, öz varlığından, mənəviyyatından belə məhrum etmək, dünyada insanın ən böyük arzusunun onun maddi və mənəvi azadlığı olduğunu, bunun olmadığı təqdirdə isə insanın alçaldığını, insanlıq ləyaqətinin itirildiyini vurğulayır, soydaşlarının böyük faciəsinə laqeyd qalmır: "Maddi sərvətinin sümürüldüyünü ürək ağrısı ilə deyən şair bu faciədən doğan daha dərin mətləblərə əl atır, daha böyük arzular dalınca qanadlanır. O, xəyalən ana dilində açılan məktəbləri, ana dilində əlifba öyrənən, nəğmə oxuyan uşaqları görür, sevinir, Dədə Qorqud

[1] Bəndəroğlu Ə. Göylər unutmuşdu yağacağını. Bakı, 1992, səh. 4.
[2] Bəndəroğlu Ə.Qərənfil.Bakı, Gənclik, 1977, səh. 6.
[3] Ömrün əbədiləşən illəri. O qədər uzaq, bu qədər yaxın. Bakı, 2012, səh. 25-31.

dünyasına baş vurur, ana dilində yazıb yaradan şairlərlə, Baba Gurgur atəşindən keçib təmizlənən ürəklərlə söhbət edir. Ana dilinə həsrət qalan şairin arzusu belədir:

"Dədə Qorqud"u,
Nəsimini, Füzulini,
Baqini, Nəfini,
Tofiqi, Xətaini,
Vidadini, Vaqifi,
...Cavidi, Vurğunu
Oxuyacağam.
Dilimizin əzəlliyini
Onlardan sorub anlayacağam.

Bu, hər şeydən əvvəl öz varlığını vətənin və xalqın varlığında dərk edən, şəxsi səadətini xalqın səadətində görən, qələmini saz kimi xalqın ruhuna kökləyən bir vətənsevərin sözləridir. Bəndəroğlu şeirlərinin əsas üstün cəhəti ondakı nikbinlik, ümid və işıqdır"...

B. Vahabzadə həmçinin Bəndəroğlunun "Türkmanlar İraqda: tarixləri, dilləri, folklorları" (1973) adlı tədqiqatını sanballı elmi əsər kimi dəyərləndirərək araşdırmaçının burada İraq türkmanları ilə eyni soy-kökdən olduğumuz qənaətini dəstəkləyir: "Alim bizim bir parçamız olan İraq türkmanlarının dil və folklor xüsusiyyətlərinə əsaslanaraq onların tarixinə dair son dərəcə orijinal elmi fikirlər irəli sürür. O, inandırıcı surətdə sübut edir ki, İraq türkmanları İraqa Azərbaycandan köçmədir. O, bu fikri tarixi qaynaqlarla yanaşı, bu gün yaşayan canlı dil və folklor materiallarına əsaslandığından orijinaldır və çox maraqlıdır. Onu da deyək ki, dil və folklor müqayisəsindəki bənzərliklər və çox halda özünü göstərən eyniliklər Bəndəroğlunun şəxsi müşahidələri və öz tapıntılarıdır. Buna görə də bu kitab yalnız İraq türkmanlarının deyil, həm də bizim tariximizin öyrənilməsi işinə böyük xidmətdir"[1].

B. Vahabzadə İraq türkmanları ilə dil qohumluğundan əlavə, həm də xalqın milli sərvəti olan folklorla bağlı olduğumuzu faktlar və örnəklər əsasında "Bu, bizdə də belədir" əminliyi ilə daha geniş çapda elm aləminə təqdim edən, bütün ömrünü məhz bu sahənin tədqiqinə həsr edən professor Qəzənfər Paşayevin böyük, ölçüyəgəlməz xidmətini "türkdilli ölkələri öz xərci ilə qarış-qarış gəzib xalq ədəbiyyatı incilərini toplayan, onları təsnifləşdirib çap etdirən Salman Mümtaz" ilə müqayisə edir, bu tədqiqatın xalqını sevən hər bir kəs üçün çox qiymətli bir xəzinə olduğunu vurğulayaraq qəti qənaətini dilə gətirir: "Kitabı oxuduqca məsafəcə bizdən uzaq olduğu qədər mənəviyyatca yaxın olan kərküklülərin ürək döyüntüsünü öz nəbzimdə hiss elədim və "Bu, bizdə də belədir"dən o taya keçdim. "Onlar bizik" dedim"[2].

Böyük şairimizin yaradıcılığı İraqda, xüsusilə İraq türkmanları arasında həmişə diqqət mərkəzində olmuşdur. İraq türkmanları arasında şair, ədəbiyyatçı, naşir, tərcüməçi kimi çox tanınmış, eyni zamanda ölkəmizdə də tanınan Əbdüllətif Bəndəroğlu Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığını əhatə edən geniş həcmli məqalələrlə yanaşı, 1989-cu ildə şairin bəzi əsərlərini əhatə edən kitab da nəşr etdirmişdir. Onun "Seçilmiş şeirləri" adını verdiyi bu kitaba yazdığı ön söz daha çox diqqəti cəlb edir.

Bəxtiyar Vahabzadənin yaradıcılığına həsr etdiyi kitabda müəllif şairi türkman oxucusuna "Azərbaycan xalqının güvəndigi və qıvanc duyduğu" bir insan kimi təqdim edir: "Xalqın ürəgində yaşamayı qazanan Bəxtiyar Vahabzadə xalqının umudlarını nəğmələrə çevirmiş, istəgini ahəngli sözlərlə dilə gətirmişdir. O, bu işıqlı sözlərini xalqının gücüylə, yenə xalqının dilində və gönlündə yaşatmayı başarmışdır. Daha doğrusu Bəxtiyar içtənli sevgisiylə, ölməz yaratıcılığıyla xalqının sevgisini qazanmış və xalqının hər zaman yanında durmayı unutmamış-dır"[3]. Yeddi səhifəlik müqəddimədə müəllif şairi "Ulusal – milli duyğu və bilicin bir sembolu" kimi səciyyələndirərək onun şeirlərinin şərhinə də burada yer vermişdir. Ə. Bəndəroğlu böyük şairimizə şeir də həsr etmişdir:

[1] Bəndəroğlu Ə.Qərənfil.Bakı, Gənclik, 1977, səh. 5.
[2] Vahabzadə B. Gəlin açıq danışaq, Bakı, 1988, səh. 147-152.
[3] Vahabzadə B. Seçilmiş şeirləri. Tərtib edən: Ə. Bəndəroğlu. Bağdad: TKİY., 1989, səh., 5

Bəxtiyarım, yurd uğrunda
Bükülməz heç biləklərin.
Şeirlərin xalqın səsi.
İstəklərin, diləklərin
Unudulmaz bir bəstəsi.

Bəxtiyar Vahabzadə öz zəngin və çoxşaxəli, milli-mənəvi dəyərlər təlqin edən yaradıcılığı, yüksək amalları ilə təkcə yaşadığımız bu coğrafiyada yox, bütün Türk oymaqlarında, eyni zamanda etnik təfəkkürümüzün və mənliyimizin qorunub saxlandığı, qanı-qanımızdan, canı-canımızdan olan İraq türkmanları arasında da yaşayır.

B XT YAR VAHABZAD N N S RL R ND TÜRK Y

Güllü Yolo lu
tarix elmləri doktoru
yologlu2007@box.az

Araşdırmalar göstərir ki, Bəxtiyar Vahabzadə öz yaradıcılığında Türkiyə mövzusuna əsasən 60 yaşından sonra müraciət etmişdir. Bunun səbəbini şairin şeirlərindən də görürük. Bu baxımdan Bəxtiyar Vahabzadənin özünün Sovet dövrü yaradıcılığına münasibəti maraq doğurur...

Əski Soverlər Birliyi dövründə söz azadlığının olmaması bir çox şair və yazıçıların əlqolunu bağlasa da, digərlərini yeni ab-havaya uyğunlaşmağa məcbur etsə də, aralarında Bəxtiyar Vahabzadə kimi bütün bəlaları göz önünə alaraq sözünü çəkinmədən söyləyən şairlərimiz də vardı. Qadağan mövzulara toxunan, qaranlıq mətləblərər işıq salan Vətən şairi öz yaradıcılığında bütöv Azərbaycan məsələsinə geniş yer verir, "Vətəndən Vətənə" (1962) və digər bu kimi şeirlərilə yanaşı şah əsəri olan "Gülüstan" poemasını da yazır. Təbii ki, Bəxtiyar Vahabzadə də müəyyən mənada öz dövrünün, zəmanəsinin oğlu olmuş, özünün yazdığı kimi, "dövrün tələbilə günə dəm tutmuş", ömrünün son illərində özünün də xoşuna gəlməyən bəzi şeir və poemalar yazmışdır.

"Əsərləri"nin I cildində şair yazır: "2001-ci ildə ilk şer kitabçalarımda "Mənim dostlarım" (1949), "Bahar" (1950), "Əbədi heykəl" (1951), "Dostluq nəğməsi" (1953), "Çinar" (1956), "Sadə adamlar" (1956), "Ceyran" (1957) gedən şerlərimə yad gözü ilə baxdım. Etiraf edim ki, burada həm dövrün tələbi, həm də dil-üslub baxımından xeyli xəyalarla üzləşdim. Əlbəttə, bunlar gənc qələm sahibinin naşılığından doğan xətalardır. Buna görə də şerlərin və poemaların bir qismindən tamam imtina etdim (?!!! – G.Y.). Bir qismini isə dil baxımından bir qədər işlədim. Amma naşılıqdan və qələmin hələ bişməməsindən irəli gələn üsluba toxunmadım."1

Mixail Lermontov kimi məhsuldar və istedadlı şairin 27 yaşında vəfat etdiyini, Aleksandr Puşkinin 18 yaşında "Ruslan və Lyudmila" poemasını yazmağa başlamasını, Mikayıl Müşfiqin də ilk şeirini 18 yaşında yazdığını nəzərə alsaq, şairlikdə 25 yaş gənc sayılmır Həm də gənc Bəxtiyar 1945-ci ildə, yəni 20 yaşında artıq Azərbaycan Yazıçılar Birliyinin üzvü idi, hərçənd ki, ilk şeirini 1943-cü ildə, yəni 18 yaşında yazmışdır.

Ömrünün müdrik çağını yaşayan şairin öz yaradıcılığına günün prizmasından baxması, özü qeyd etdiyi kimi, "dövrün tələbi, həm də dil-üslub baxımından" xətalı hesab etdiyi şeirlərini iki cildlikdə görmək istəməməsi təbiidir. Hesab edirik ki, digər yaradıcı insanlarımız da Bəxtiyar Vahabzadədən örnək götürməlidirlər. Şairin "naşılıqdan və qələmin hələ bişməməsindən irəli gələn üsluba toxunmadım" deməsi göstərir ki, o, "dövrün tələbi baxımından xətalı" saydığı əsərlərindən "tamamilə imtina etmişdir". Onun imtina etdiyi əsərlər sırasında 1945-1960-cı illər ərzində yazdığı doqquz poemanın dördü – "Toxucu qız", "İftixar", "Dostluq" və "Aylı gecələr" də var. Ancaq onu da qeyd edək ki, bəlkə də məhz həmin əsərlər "Gülüstan" poemasını yazan Bəxtiyar Vahabzadənin "KQB"-nin ölüm, işgəncə makinasından sağ-salamat çıxmasına yardım etmişdir. Bəxtiyar müəllim məsələyə başqa cür yanaşır və yazır: "Gələcək tədqiqatçılarımdan böyük bir xahişim var: yuxarıda adlarını çəkdiyim kitablarımdan çıxartdığım şer və poemala-

rımdan müəllif olaraq mən imtina etdiyim kimi, onlar da imtina etsin və on ları tədqiqatlarına cəlb etməsinlər. Əks təqdirdə onlar mənim ruhumu incitmiş olarlar. Çünki vəsiyyət hər kəs üçün müqəddəs sayılmalıdır". Mən bu əsərlərin adlarını çəkirəm və düşünmürəm ki, Bəxtiyar müəllimin ruhunu incidirəm. Çünki onun "Əsərləri"nin I cildinin çapından sonra 2003-cü ildə bu barədə söhbətlərimiz olub: evlərində və daha sonra telefonla. Mənim tutarlı izahlarımdan sonra Bəxtiyar müəllim haqlı olduğumu etiraf etdi və mənim belə bir yazı ilə çıxış etməyimə icazə verdi və mən onları özünün sağlığında məqalə halında "Ədəbiyyat qəzeti"ndə çap etdirdim.[3]

Onu da qeyd edim ki, 2003-cü il dekabrın 12-də Ankarada Xoca Əhməd Yasəvi Vəqfi xüsusi mükafat hazırlayaraq Bəxtiyar Vahabzadə ilə bağlı konfrans təşkil etmişdir. Tədbirə səhhəti ilə əlaqədar gedə bilməyən Bəxtiyar müəllim nəvəsi Bəxtiyarı göndərmişdir. Lakin həmin gün ümummilli liderimizin dünyasını dəyişməsilə əlaqədar tədbir qeyri-müəyyən vaxta təxirə salınmışdır...

Qocaman Vətən şairimizin tədqiqatçılarına ünvanladığı bu vəsiyyəti nə demək idi?! Bəxtiyar Vahabzadə kimi bir nəhəngin buna ehtiyacı vardımı?! Məncə, "Əsərləri"nin I cildinə yazdığı iki səhifəlik müəllif sözünün yerinə şair ikicə misra yazsaydı, daha kəsərli, təsirli və inandırıcıolardı:

Başqa bir zamanda keçdi gəncliyim
Dövrün tələbilə günə dəm tutdum…"

Şairin zamanın baxış prizmasının süzgəcindən keçən kitabını oxuyan gələcək tədqiqatçıların şairin bütöv yaradıcılığına qeyri-obyektiv yanaşacağı və tərifl ər dolu kitablar, məqalələq yazacağı qənaətindəyik. Budurmu bizim tanıdığımız, yersiz tərifl ərdən təngə gələn, təvazökarlığı ilə seçilən Bəxtiyar Vahabzadənin istədiyi?!

Bəxtiyar Vahabzadə yazır ki, "bəzi şerlərimə çap olunandan sonra əlavələr edir, yaxud ifadə tərzini dəyişirəm... Odur ki, mənim yazılarımda həmişə ən son çapı məqbul saymağınızı xahiş edirəm" (!!!-G.Y.).

Biz hörmətli şairimizin ruhuna hörmətlə yanaşaraq, özü yazdığı kimi, "vəsiyyət"inə əməl edərək adlarını çəkib imtina etdiyi əsərlərini tədqiqatımıza cəlb etmirik, çünki mövzumuzla ciddi bir əlaqəsi yoxdur. Lakin Bəxtiyar Vahabzadənin yaradıcılığında Türkiyə mövzusuna gələn yolu araşdırarkən yolun başlanğıcını da nəzərdən keçirməli oluruq...

Bir də onu qeyd etməliyik ki, bizim bir çox şairlərimizin, başda da XX əsr Azərbaycan poeziyasının şahı hesab etdiyimiz və Bəxtiyar Vahabzadənin elmi yaradıcılığında əsas yer tutan dahi Səməd Vurğunun da yeni dövrü görmək, yaşamaq və bu gün düşmənlərinin, bədxahlarının onu gözdən salmaq məqsədilə ara-sıra mətbuata çıxartdıqları bir neçə şeirindən imtina etmək imkanı olmamışdır. Olsa belə, Səməd Vurğun bunu edərdimi?! Ədalət naminə demək lazımdır ki, yox, etməzdi!..

İstərdim ki, Bəxtiyar Vahabzadənin "vəsiyyət"ini doğru hesab edənlər bu "vəsiyyət"i o dövrdə yazıb yaratmış və bu günləri görmə imkanı olmayan bütün şair və yazıçılarımızın vəsiyyəti kimi qəbul etsin. Bu yerdə qaraqalpaq yazıçısı, məşhur "Qaraqalpaknamə"nin müəllifi Tülepberqen Kaipberqenovla 1997-ci ilin sentyabrında Nukusdakı (Nökis kalası) söhbətimi xatırlayım. Bəzi əsərlərində ruslara ifrat müsbət münasibət göstərdiyini, zaman keçdikdən sonra bu əsərlərdə dəyişiklik etmək istəyib-istəmədiyini soruşanda, o, "yazdıqlarıma peşiman deyiləm" deyə cavab vermişdir.[4]

Adını çəkmək istəmədiyim, sovet dönəmində elmi fəaliyyətini «böyük rus qardaşın» ədəbiyyatının az qala bütün dünya xalqlarının ədəbiyyatlarının yaranmasındakı rolundan qalaq-qalaq kitablar və dərsliklər yazan bir alimimizə həmin sualı 1990-cı illərin əvvəllərində vermişdim. Onun cavabı mənə daha məntiqli göründü. O, dedi: «Mənim qırx illik fəaliyyətimin üstündən xətt çəkməyim bu gün şan-şöhrət gətirən kitablarımdan, onlara görə aldığım qonorarlardan, mükafatlardan, həmin pullarla aldığım evlərdən, maşınlardan, cəmiyyətdə ailəmin və özümün mövqeyimdən, professor adından və s. imtina etmək deməkdir. İndi özünüz deyin, mən bütün ömrümdən xətt çəkmək istəyərəmmi?»

Bütün bunlara baxmayaraq Bəxtiyar Vahabzadə axına qoşulan bu kütlənin içərisindən qınından çıxan qılınc kimi sıyrılıb çıxa bildi. 1990-cı illərin əvvəllərində mən özüm Bəxtiyar Vahabzadənin içərisində olduğu maşını xalqın qolları üstünə aldığının şahidi olmuşam. Bu sevgini, məhəbbəti gördükdən sonra düşünürəm ki, Bəxtiyar Vahabzadəyə heç bir əsərindən imtina etmək lazım deyil. Axı onu qolları üstündə gəzdirən nəsil şairin yaradıcılığına, hətta bu gün imtina etdiyi əsərlərinə indiki gənclərdən daha çox bələd idi. Bəxtiyar Vahabzadə yaradıcılığında onu bu gün belə bir «vəsiyyət»i yazmağa vadar edən əsərlərin hamısı «Gülüstan» poemasının nuru ilə işıqlandı, paklandı. Onlar bu gün həqiqətən Türk Dünyasında səsi səslərə qarışan, bəlkə də daha uca çıxan Bəxtiyar Vahabzadə adlı başı göylərə dəyən alınmaz bir qalanın əyri-üyrü qoyulmuş, lakin üstü möhkəmcə betonlanmiş ilkin bünövrə daşları, şairin özü demişkən, «gənc qələm sahibinin… hələ bişməmiş qələminin» məhsullarıdır. Yaradıcılığının ilk illərində yazdıqlarından bu gün imtina edirsə, onda gənc nəsil şair Bəxtiyar Vahabzadənin gələcəkdə kövrək qələmi ilə yazdığı şerləri görməyəcək, onu örnək götürə bilməyəcək, onun çatdığı zirvəyə can atmayacaq. Çünki elə düşünəcək ki, Bəxtiyar Vahabzadə elə gəncliyinin ilk illərində də 2001-ci ildə düşündüyü kimi düşünüb, yazdığı kimi yazıb, birdən-birə bizim bu gün tanıdığımız, sevdiyimiz Bəxtiyar Vahabzadə olub… Beləliklə, gənclərdə ona bənzəmək istəyi sönəcək. Çünki Bəxtiyar Vahabzadə ideallaşacaq, əlçatmaz olacaq…

Bu yerdə məşhur bir kəlam yadıma düşür: «kim mənə bu gün dünənkindən yaxşı düşünməyi qadağan edə bilər?!» Hər günümüz irəliyə bir addımdır. Bəxtiyar Vahabzadənin türklük haqqındakı şeirləri isə Türk Dünyasının qazancı, Bəxtiyar Vahabzadə böyüklüyündə bir dünyanı qazanması, çəkisinin daha da artmasıdır. Artıq uzun illərdir Qazaxıstanın Türkistan şəhərindəki Xoca Əhməd Yasəvi Uluslararası Türkiyə-Qazaxıstan Universitetinin kollektivi onun «Özümüzü kəsən qılınc»ını tamaşaya qoyaraq uğurla Türk Dünyasının bir çox yerlərində oynayırlar…

Ümumiyyətlə, Bəxtiyar Vahabzadənin yaradıcılığında Türkiyə mövzusunu araşdırırıqsa, o zaman şairin yaradıcılığını şərti olaraq bu istiqamətdə üç ana mərhələyə bölə bilərik.

Birinci mərhələdə biz Bəxtiyar Vahabzadənin simasında, sözün əsl mənasında, VƏTƏN şairini, AZƏRBAYCAN şairini görürük. Onun yaradıcılığında daha çox bütöv Azərbaycan mövzusu, azərbaycançılıq, vətən torpağına məhəbbət mövzusu üstünlük təşkil edir. Mən təsadüfən Bəxtiyar Vahabzadənin türkçülük məsələlərindən danışmadım. Qeyd elədiyimiz kimi, şairin yaradıcılığında Güney Azərbaycan məsələsi, bütöv Azərbaycan ağrısı üstünlük təşkil edir. Bu da azərbaycançılıqdan, öz xalqına, Vətəninə olan sevgidən doğan hisslərin nəticəsidir. Türkçülüklə bağlı məsələlərin şairin yaradıcılığında o qədər də geniş yer almamasının əsas səbəblərindən biri əski Sovetlər Birliyində rusların tarixi düşmənləri olan türkə, kapitalist Türkiyəsinə olan mənfi münasibəti, digər xalqlarda da, xüsusilə də türk xalqları arasında pantürkizm damğasından uzaq olma meyli idi.

Sovet dönəmində Bəxtiyar Vahabzadə yaradıcılığında Türkiyə və, ümumiyyətlə, türklük mövzusunun, demək olar ki, yoxluğunun da əsas səbəbi şairin «dövrün tələbilə günə dəm tutması» olmuşdur. Bu dövrlər Bəxtiyar Vahabzadə Türkiyəyə ilə bağlı ayrı-ayrı hadisələrdən təsirlənmə nəticəsində bir neçə şeir yazır. Bunlardan biri şairin 1957-ci ildə yazdığı «İlk məktub» şeridir. Bildiyimiz kimi, Azərbaycan və, eləcə də, keçmiş Sovetlər Birliyindəki türk soyları kapitalist Türkiyəsi haqqında o dönəmlərdə sovetin yaratdığı mənfi münasibətə baxmayaraq Nazim Hikmətə qucaq açdılar. Nazim Hikmət 1926-cı ildə Bakıda «Günəşi içənlərin türküsü» kitabını çap etdirmişdir. Onun Azərbaycan şairlərilə dostluğu, Bakıya gəlişi çoxları tərəfindən maraqla qarşılanırdı. Türkiyəyə, türkə mənfi, soyuq, düşmən münasibət olan bir ölkədə Nazim Hikmət Türkiyəni və özünün şəxsi timsalında türkü tanıtdı, sevdirdi. Bir çox şairlər kimi gənc şair Bəxtiyar Vahabzadə də Nazim Hikmətin Bakıya gəlməsi münasibətilə özünün «İlk məktub» şeirini yazır. Şeir bədii cəhətdən çox zəif olsa da, tarixi faktın əksi baxımından maraq doğurur:

… Düz otuz il bundan əvvəl, sən heyran-heyran
Nəğmə dedin «şanın Bakı, gözün Bakıya».

Bir kitabla getmiş idin bizim Bakıdan,
Yüz kitabla qayıtmısan bu gün Bakıya…
(Bakı, oktyabr 1957)

Bəxtiyar Vahabzadə yaradıcılığının ikinci mərhələsi türklük və türkçülük mərhələsidir. Çünki türklüyü dərk etmədən nə Türkiyə, nə də Türk Dünyasındakı digər türk soylarına sevgi də yarana bilməzdi. Onu da qeyd edək ki, türkçülüklə Türkiyəpərəstlik ayrı-ayrı şeylərdir. Türklüyün dərki uzun və çətin proses idi. Hətta 1959-cu ildə İraqa gedən şair bu ölkənin ayrı-ayrı şəhərlərində şerlər yazır və onları «Səyahət dəftərindən» adı altında çap etdirir («Ələddinin çırağı» (Bağdad, dekabr 1959), «Özünə yalvarsana!» (Kərbəla, dekabr 1959), «Ehramların önündə» (Qahirə, dekabr 1959), «Dəclə sahilində» (Bağdad, dekabr 1959), «Öldü – yaşadı» (Füzuliyə) (Kərbəla, dekabr 1959), «Durnalar» (Bəsrə, dekabr 1959), «Təsbeh» (Nəcəf, dekabr 1959), «Aclardan toxlara» (Kərbəla, dekabr 1959), «Tağı-Kəsra» önündə» (Mədain, dekabr 1959), «Baba Gur-Gur» (Kərkük, 1959) və s.). Və heç «Baba Gur-Gur»da belə İraqdakı türkmanlar haqqında bir şey yazmır. Şairin diqqətini çəkən yanar od və onun Bakının Atəşgahı ilə oxşarlığıdır.

Türk Dünyasının birliyini, dilinin, əksər türk soylarında dininin də birliyini, Rusiyanın «parçala, hökm sür!» siyasətini dərk etdiyini Bəxtiyar Vahabzadənin 1968-ci ildə Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən Asiya və Avrika yazıçılarının müşavirəsindən aldığı təəssüratlar altında yazdığı «Neo» şerində qabarıq görürük:

«Parçalayıb sən hökm sür!» siyasəti
Yurdumuzda od qaladı.
Biz bir yana,
Eyni dili,
Eyni dini
neçə yerə parçaladı.

- deyən şair «gəl qoruyaq canavardan özümüzü!» çağırışı ilə parçalanmış xalqları zalıma qarşı birliyə çağırır:

Axı bizim
Dədəmiz də,
Babamız da
Qardaş olub.
Məgər indi
bu qardaşlıq
unudulub?..

Sovet dönəmində çoxlarının sevimli istirahət yeri idi Kırım. Bəlkə də o zamanlar çox az adam Kırımın gözəl təbiətinin qoynunda dincələrkən buranın əsl sakinlərinin, yiyələrinin acı taleyi, başına gətirilən fəlakət haqqında düşünərdi. Onlardan biri də Bəxtiyar Vahabzadə idi:

Krım, Yalta, Qızıldaş… Bir xalqın ata yurdu –
O, xalqa yad, ay Allah, gəlməyə Vətən oldu.
(Avqust 1961, Yalta)

Kırımın yerli sakinlərinin fəlakəti şairi rahat buraxmırdı. O, 1980-ci ildə Kırımda, «Aluştada Əmət Xan Sultanın heykəli önündə», daha sonra isə «Niyyət» şerini yazır:

Torpağın altında yatır yerlilər,
Üstündə gəlmələr kefdə, damaqda.
Yerlinin dərdini yersiz nə bilər?
Yerlinin haqqını o, tapdamaqda.
Gəlmə haqlı bilir özünü, haqlı!
Yerlinin yurduna yolları bağlı…
(5 may 1996, Kırım-Yalta)

Zaman keçdikcə Bəxtiyar Vahabzadə daha açıq və sərt şəkildə türklüyünü ortaya qoyur:

Oğuzdan törədim, türk oğlu türkəm,
Poladdan kövrəyəm, dəmirdən bərkəm.
Alçalda bilməzsən məni, a nadan,
Mən bu görkəmimlə dünyaya görkəm.
(Yanvar, 1989)

Şair bir tərəfdən köhnə təsəvvürləri qıraraq türklüyün dərki yolunda addımlayırdısa, digər tərəfdən də türkə, türklüyə qarşı çıxanlarla öz şerləri vasitəsilə mübarizə aparmalı olurdu. Elə onun yuxarıda nadana müraciətinin arxasında da konkret şəxsin, ünvanın durduğunu hiss etmək çətin deyil.

Məhz bu dövrdə «azəri-türk» məsələsi ortaya daha böyük həvəslə atıldı. Bir çoxlarında Azərbaycan türklərini fars ağzı ilə «azərilər» adlandırmaq həvəsi baş qaldırdı. Belələri Azərbaycanın qədim saiknlərinin türk deyil, azəri olduğu fikrini irəli ataraq onu hər cür əsassız iddialarla müdafiə etməyə başladılar. Onlardan biri olan arxeoloq Cəfərqulu Rüstəmov «Qobustan Azərbaycanın qədim yaşayış məskənidir» kitabında yazır ki, «kökümüzü türkə bağlayanlar, «Dədə Qorqud» bizimkidir deyənlər erməni Balayanlardan rüşvət alanlardır». Belələrinə cavab olaraq Bəxtiyar Vahabzadə «Azəri ilə türk arasında» (2000) şerində yazır:

Mən dedim, sən dedin, yenə mən dedim
Bir addım geriyə çəkiləmmədim.
Sən gördüyün fərqi görə bilmədim
Vallah, Azərilə Türk arasında.

Bu yerdə qeyd etmək istərdim ki, əgər «azər» («azəri» deyil məhz «azər») kəlməsi türklərin bir qolu kimi araşdırılırsa, işlədilirsə, bu başqa məsələ. Bununla biz də razıyıq. Unutmayaq ki, Şəms Təbrizi yazər tayfasından olduğunu qeyd edirdi. Şeirlərini isə qıpçaq ləhcəsində yazırdı. Təsadüfi deyil ki, Rumi onu «qıpçaq qələndərlərinin şahı» adlandırırdı. Deməli, Güney Azərbaycanda, özəlliklə də Təbriz tərəflərdə qıpçaq yazərlər yaşayırdı və Şəms Təbrizi də onların bir nümayəndəsi idi. Bu bir daha Azərbaycan türklərinin yalnız M.S. IX-XI əsrlərdə bu bölgələrə gəldikləri bilinən oğuz qolundan deyil, həm də daha qədim dövrlərdən Xəzər ətrafında məskuşlaşan qıpçaq türklərdən ibarət olduğunu təsdiqləyir. Deməli, Azərbaycan türkcəsi də yalnız oğuz ləhcəsindən deyil, oğuz-qıpçaq qarışığından yaranmışdır.

«Mən türkəm!» deyə hayqıraraq «onu» illərdən bəri aldadanlara qarşı üsyana qalxdığı gündən, özünü, türklüyünü dərk etdiyi andan Türkiyə, türkün tarixi, türklük duyğusu, türklük ruhu şairin yaradıcılığına hakim kəsilir:

Sən bizi aldatdın illərdən bəri,
Mən çərxi-fələkdən dərs götürmüşəm.
Özgə anasından süd əmənləri,
Özgə qulluğunda duran görmüşəm…

…Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilirsən,
Mən ilk qaynağımdan Türk oğlu Türkəm!
(15 noyabr 1995)

1990-cı illərdə türklüyünü dərk edən xalqın dilindən «Tanrı türkü qorusun!» təmənnası düşmürdü. Bu da bir çoxlarını qıcıqlandırır, açıqdan açığa mənfi emosiyalarının üzə çıxmasına, təpkilərinə səbəb olurdu. Bəxtiyar Vahabzadə onları da cavabsız qoymadı:

Tarixlə bir yaşdadır
Bizim tarix yaşımız.
Niyə səni qorxudur
“Tanrı Türkü Qorusun” –
Duamız, alqışımız?..

… «Tanrı Türkü Qorusun!»
Atılan daşmı sana?
Bizim bu alqışımız
Yoxsa qarğışmı sana?
(«Tanrı Türkü Qorusun!», 2001)

Gördüyümüz kimi, Bəxtiyar Vahabzadə yeni mübarizəyə qoşulur. Bu mübarizə türk düşmənlərinə, xalqımıza «azəri» deyib türk saymayanlara, «Tanrı Türkü Qorusun!» alqışından qorxanlara, türklüyünü dananlara, adımızı dəyişdirənlərə qarşıdır!

Elə bu vaxtdan da şairin yaradıcılığında üçüncü mərhələ başlayır və o, Türkiyə mövzusunda bir-birinin ardınca həm məzmun, həm məna, həm də bədii, siyasi yöndən gözəl şerlər yazır. Bəxtiyar Vahabzadə yaradıcılığındakı Türkiyə mövzulu «Atatürk» (1998), «Dəprəm» (1999), «Xəyalpərəst» (1999), «Azərbaycan-Türkiyə», «Yunus Emrəyə», «Doğru» (2001), «Tənha məzar» (1998), «İbadət» (1999), «Tasavvuf» (1999), «Gülüm» (1999), «Onun gücü xalqda, kəsəri haqda» (24 avqust 2000), «Ey dünənki körpələr (2000), «Allah, məni belə ağlat» (24 avqust 2001), «Türkiyə havası» (1996) və başqaları kimi şerlər tez bir zamanda dillər əzbəri olur, türküyə çevrilir. Şair sanki əldən çıxmış, uzaqlaşmış bir varlığa çatmaq istəyirmiş kimi qardaş Türkiyə ilə bağlı hər nə varsa, şerinə köçürür, türklüyü ilə qürur duyur:

Açıb qol-qanadımı
Ucaltdım Türk adımı.
Mən öz dilək atımı
Sürdüm Turana doğru.
(«Doğru», mart 2001)

1918-ci ildə Türk Ordusunun erməni işğalçıları ilə mübarizədə Azərbaycana yardıma gələn əsgərlərinin arasından biri Şamaxı yaxınlığında yaralanır və şəhid olur. Ətrafda yaşayan Azərbaycan türkləri yaralı əsgərin son arzusuna uyğun olaraq onu vurulduğu yerdəcə dəfn edirlər. Sovet dövründə «türk» adının müsbət anlamda çəkilməsinin məqbul sayılmadığı bir vaxtda belə yerli camaat bu tənha məzarı qorudu, saxladı. Bu gün artıq məzar diqqət mərkəzindədir, gələn-keçən yolçular ayaq saxlayaraq o məzara baş çəkirlər:

«O bir Türk əsgəri, qəhrəman, mətin!
O öz qardaşına yardıma gəldi.»
(«Tənha məzar», 1998)

Sovetlər Birliyi dağıldıqdan sonra xalqın ehtiyac hiss etdiyi amillərdən biri də din idi. «Başqa bir zamanda gəncliyi keçən, dövrün tələbilə günə dəm tutan» şair qibləsini tanısa da, ona səcdəni unutduğuna, namaz qılmağı öyrənə bilmədiyinə təəssüf etdiyini yazır. Bəxtiyar Vahabzadənin ibadəti də özünəməxsusluğu ilə seçilir. Gecələr əllərini göyə qaldıraraq, üzünü Tanrıya tutan şair dualarının qəbul olunmasını istəyir, milləti, xalqı birliyə çağırır, Türkün şanlı tarixinin həsrətini çəkir:

Bizi endirdilər göylərdən yerə
Döndər tariximin altın çağını,
İlahi, hökmünlə qaldır göylərə
İslam bayrağını, Türk bayrağını.
(«İbadət», 1999)

Gördüyümüz kimi, Bəxtiyar Vahabzadə «əziz və layiqli Türk oğlu Fatih Orduya ithaf» adlandırdığı «İbadət» şeirində İslam bayrağı ilə Türk bayrağının ucalmasını istəyir. Şairlə söhbətim zamanı onun İslama olan inamının sonsuzluğunu duydum. Onun «kim ki, İslamı qəbul etdi, yaşadı. İslamı qəbul etməyib digər dinləri qəbul edənlər məhv oldular» deməsi də bunu sübut edir. İslam dininin mühavizəkarlığını nəzərə alanda, şairin sözlərində bir həqiqət görürük. Qərbi Sibir türklərinin şərqi Sibir türklərinə nisbətən az assimilyasiyaya məruz qalması da buna sübutdur. Ancaq həyat göstərir ki, bu gün xristian qaqauzlar, saxa türkləri, çuvaşlar, lamaist tıva türkləri və başqaları var, yaşayırlar və öz milli-mənəvi dəyərlərini, adət-ənənələrini, çətinliklə də olsa, yaşadırlar. Əksinə, bir çox bölgələrdə, elə Bəxtiyar Vahabzadə yaradıcılığında geniş

yer tutan İranda yaşayan Güney Azərbaycan türklərinin durumu da onu göstərir ki, İslam dini hər yerdə türklərə münasibətdə müsbət mövqe tutmur. Lakin Bəxtiyar Vahabzadənin din anlayışı da əvvəllər fərqli olub.

Azərbaycan oğluyam
Odu Allah sanmışam.
Anam torpaq,
Atam od,
Mən oddan yaranmışam.
"Azərbaycan oğluyam" (1966)

Şairin "Anamın kitabı"nda oxuyuruq:

Bu böyük mətləbi bilmədik bəzən,
Bizi bölə-bölə çəkdilər dara.
Əl çəkib müqəddəs atəşimizdən
Yüzillər baş əydik yad kitablara…

"Dayan, insan!" (1970) şeiri də bu baxımdan maraqlıdır:

Yox! "Allahü-əkbər" vaxtı keçdi çoxdan.
De "İnsanü-əkbər" indi.

Diqqətimi çəkən başqa bir şeir «Tasavvuf» şeiridir. «Böyük Mövlanə Cəlaləddin Ruminin» ruhuna yazılmış bu şerdəki bir bənddə deyilir:

Haqqa ulaşmaq üçün
Özünü aşmaq üçün
Gərək öncə aşasan
Nəfis adlı dağları.
(«Tasavvuf», 1999)

Sanki bu misraların ünvanlandığı şəxs ittihim olunur: «Gərək öncə aşasan, nəfis adlı dağları», yəni sən hələ nəfsinlə mübarizə apara, o uca dağı aşa bilmədiyin halda özünü aşaraq haqqa necə ulaşa bilərsən? Məgər Rumi bilmirdimi ki, haqqa ulaşmaq üçün öncə nəfsi aşmaq lazımdır və aşırdı da. Bu bəndin anlamı Bəxtiyar Vahabzadə ilə Şəms Təbrizi və Mevlana ilə bağlı söhbətimizin məzmunundan mənə aydın oldu. O da aydın oldu ki, Bəxtiyar Vahabzadə də, bir çoxları kimi, konyalıların bu iki dahi şəxs haqqındakı dedi-qodularına inanmış, onların bir-birinə olan sevgilərini yanlış anlamışdır. Ümumiyyətlə, Bəxtiyar Vahabzadə şamanizmə, övliyaların kəramətlərinə və o cümlədən də Şəms Təbrizinin şaman qabiliyyətli, Mevlanə Cəlaləddin Rumi demişkən, «qıpçaq qələndərlərinin şahı» olduğuna inanmır, övliyaları sadəcə çox oxumuş, bilikli insanlar kimi qəbul edir.

Bildiyimiz kimi, 2001-ci ilin yayında Azərbaycan xalqı ağır bir tənhalıq, köməksizlik hissi yaşadı. İran dəfələrlə Azərbaycanın hava sərhədlərini pozan təyyarələri ilə gənc və kövrək, müstəqillik yollarında yeni-yeni kövrək addımlarını atan respublikamıza, sözün əsl mənasında, meydan oxumuşdur. Belə bir durumda Azərbaycan hökuməti və şəxsən prezident Heydər Əliyev yeganə doğru yolu seçdi və Türkiyənin "Ulduzları" Bakı səmalarında möhtəşəm göstəri yapdılar. Bu göstərini qürur və sevinc hissi ilə izləməyə çıxan minlərlə insan cəmi bir neçə gün əvvəl Azərbaycanın hava sərhədlərini pozan İran təyyərələrinə nə qədər nifrət yağdırır, etiraz səsini ucaldırdısa, «Türk Ulduzlarını» bir o qədər coşqu və sevgi ilə qarşıladı. Bu insan seli arasında gözlərindən sevinc və qürur yaşı tökən Bəxtiyar Vahabzadə də vardı:

Öz halal «Türk Ulduzlarım»
Uçdu mənim öz göyümdə
Aslan gücü, qaplan əzmi
Duydum o gün biləyimdə.
Mənə barmaq göstərənə
Öz yerini bəlli etdilər
Onlar Bakı səmasına
Ürək şəkli rəsm etdilər…

… Sevincimdən ağlayırdım.
Biz bir daha anlayırdıq
Nədir inam, nədir inad.
Mən ağladım sevincimdən
Allah, məni ağladanda belə ağlat.
(«Allah, məni belə ağlat»,
24 avqust 2001)

Şairin «Onun gücü xalqda, kəsəri haqda» şeiri Türkiyədə həyata əbədi əlvida deyən Azərbaycanda türklük ideologiyasının yorulmaz təbliğatçısı Əbülfəz Elçibəyə həsr olunmuşdur:

Qəlbi Azərbaycan, gözü Türkiyə,
Yaşadı «Türk» deyə, öldü «Türk» deyə.
Bağladı Turana O, imanını
Bu iman onunçün ömürdən baha.
Məgər təsadüfmü? O öz canını
Gedib Türkiyədə verdi Allaha.

Gördüyümüz kimi, şair öz şerlərində Türkiyə ilə sevinir, Türkiyə ilə kədərlənir, onun ağır günündə şerlərilə də olsa, yardım etməyə, mənəvi dayaq durmağa çalışır. Onun «Dəprəm» şeri məhz belə şerlərdəndir:

Eşidincə ata yurdda dəprəmi
Axdı yaşım, döndü başım, Türkiyəm.
Hər dərdimin, kədərimin ortağı,
Can qardaşım, qan qardaşım Türkiyəm.

…Sən çıxmısan tarixdə çox sınaqdan,
Dönməmisən nə gerçəkdən, nə haqdan.
Ey zamanın yollarda hər zaman
Mənim arxam, yol yoldaşım Türkiyəm…

Təbii ki, Türkiyəni böyük öndər Atatürksüz, Atatürkü isə canından artıq sevdiyi Türkiyəsindən ayrı təsəvvür etmək mümkün deyil. Bəlkə də elə buna görə, «Atatürkün sinəsi yurdun alınmaz qalasıdır» deyən Bəxtiyar Vahabzadə Türk Dünyasındakı ayrılıqları, parçalanmaları ürək ağrısı ilə seyr edir və Atatürkün qüdrətini dərk etdiyindən «Bizi birləşdirəcək bir Atatürküm yarana» deyir («Atatürk», 1998).

Türkiyə mövzusu deyəndə, biz mütləq buraya şairin ortaq tariximizlə bağlı pyeslərini, poemalarını da daxil edirik. Çünki qədim türklərdən bəhs edən əsərlər elə Türkiyənin də, Azərbaycanın da, yəni Türkiyə türklərinin də, Azərbaycan türklərinin də qədim və şanlı tarixindən bəhs etmək deməkdir. Bəxtiyar Vahabzadənin tərəfimizdən araşdırılan əsərlərinin başında isə, məncə, səmimiliyi ilə ürəklərə yol tapan «Türkiyə havası» şeri durur.

… Kökümü, soyumu tanıyan gündən
Amal qanadında mən ucalmışam.
Adım danılsa da ilk gəncliyimdən,
Türklük havasıyla nəfəs almışam.

Mən yumruq altında deyərdim, nə qəm,
Eşqim-əqidəmə sonsuz inamdır.
Azərbaycan-anm, Türkiyə qibləm,
Amalım-yönümdür, qiblənümamdır…

«Azərbaycan-Türkiyə» şerinin yazılması, türkiyəli bəstəçi Hikmət Şimşəkin ona musiqi bəstələməsi, Bəxtiyar Vahabzadənin Türkiyədə bir çox şeir və poemalarından ibarət kitablarının çıxması, onun Atatürk Kültür Mərkəzinin Fəxri üzvü seçilməsi və, nəhayət, Uluslararası Xoca Əhməd Yasəvi Ödülünün verilməsi Türkiyə ilə Bəxtiyar Vahabzadə arasındakı qarşılıqlı sevginin, hörmətin nəticəsi, qardaş Türkiyənin Bəxtiyar Vahabzadə yaradıcılığına verdiyi dəyər,

şairin özünün dediyi kimi, ata Türkiyənin ana Azərbaycana olan məhəbbətinin nəticəsidir. Tanrıdan gözəl şairimizə can sağlığı diləyir və inanırıq ki, Bəxtiyar Vahabzadə yaradıcılığı Türkiyə mövzulu hələ çox şeirə qucaq açacaq.

D B YYAT

1. Vahabzadə B. Əsərləri. I cild. – Bakı, Azərbaycan nəşriyyatı, 2001, 544 s.
2. Vahabzadə B. Seçilmiş əsərləri. 2 cilddə. I cild. – Bakı, Öndər nəşriyyatı, 2004, 328 s.
3. Yoloğlu Güllü. Bəxtiyar Vahabzadənin əsərlərində Türkiyə. – Bakı, "Ədəbiyyat qəzeti", 18 avqust 2006, s. 1-3.
4. Yoloğlu Güllü. «Yazdıqlarıma peşman deyiləm». – Bakı, «Ədəbiyyat qəzeti», 12 dekabr 1997.

BAHT YAR VAHAPZÂDE VE TÜRK D L

Necati DEM R
Prof. Dr., Gazi Üniversitesi Gazi Eğitim Fakültesi Öğretim Üyesi
necatidemir@gazi.edu.tr // www.necatidemir.net

Coğrafyayı vatan, insanları millet yapan unsurların en başında dil gelir. Ayrıca dil, coğrafyanın ve milletin en önemli bekçisidir. Hem siyasî hem de kültür sınırımızın bekçisi de Türkçedir. Dolayısıyla Türkçenin kullanılması ve Türkçe öğretiminin önemi kendiliğinden ortaya çıkmaktadır.

Türk Dünyası yaklaşık 300 milyonluk nüfusuyla; geniş bir coğrafyaya, köklü bir kültüre, önemli bir ekonomiye sahiptir. Ayrıca Türklerin çeşitli sebeplerle dünyanın çeşitli bölgelerine göçmesi ile Türkçe hemen hemen bütün dünya üzerine yayılmış durumdadır. Günümüzde kuzeydoğu Asya'dan Afrika'nın ortalarına, Çin Seddi'nden Avrupa'nın içlerine kadar Türk milletini birbirine bağlayan en önemli bağ, **Türkçedir.**

Aynı dili konuşan insanlar tarihin süzgecinden birlikte geçmişler, aynı kaderi paylaşıp varlığı ve yokluğu birlikte yaşamışlardır. Dolayısıyla dil, millet ve devlet olmanın temelini teşkil etmektedir. Bunu bilen Türk aydınları Türk dili konusuna özellikle önem vermişlerdir.

Türk dünyasında, şiirleriyle ve yazılarıyla Türkçeye hizmet edenlerin sayısı oldukça fazladır. Bunların içerisinde hizmetleri teşekkürle geçiştirilemeyecek şahsiyetlerin en önemlilerinden biri de *Bahtiyar Vahapzade'*dir.

Bahtiyar Vahapzade, Azerbaycan sahasında Türkçeye çok sayıda şiir, edebî, tenkit, inceleme, makale, tiyatro eseri kazandırmış olmakla, çağımızda Türk dünyası şâir ve nasirlerinin en önemlilerinin içinde yer almıştır. O, daha öğrencilik yıllarında Kuzey Azerbaycan basınında yayımladığı şiir ve makaleleriyle dikkatleri çekmiştir. Daha sonraki yıllarda yazılarıyla çeşitli ödüller kazanmış, şöhreti dünyaya yayılmış ve eserlerinin bazıları başta Türk şiveleri olmak üzere, Rusça, Almanca, Fransızca ve Farsçaya çevrilmiştir.

Vahapzade'nin ilk defa Türkiye'de tanıtılması Saadet Çağatay'a nasip olmuştur[1]. Daha sonraki yıllarda H. Ahmet Schmiede, Prof. Dr. Ahmet Bican Ercilasun ve Dr. Yavuz Akpınar tarafından Türkiye Türklerine çeşitli yönleriyle tanıtılmış olan şairimiz türlü vesilelerle Türkiye'ye defalarca gelmiş ve Türkiye Türkleriyle haşır neşir olmuştur.

Bahtiyar Vahapzade dil konusunda yazdığı şiirlerde, Türkçe hakkındaki düşüncelerini beyan etmiş ve dil meselesine çok ehemmiyet vermiştir. Ayrıca yazdığı şiir, makale, edebî tenkit ve diğer nev'ilerde sade Türkçeyi kullandığı gibi tenkidini yaptığı eserleri de özellikle bu açıdan değerlendirmiştir.

Aynı dili konuşan insanlar tarihin süzgecinden beraber geçmişler, aynı kaderi paylaşıp varlığı ve yokluğu beraber yaşamışlardır. Dil, o yüzden "millet" olmanın temelini teşkil eder.

[1] Prof. Dr. Saadet Çağatay, Türk Lehçeleri Örnekleri II, A. Ü. DTCF. yay. Ankara-1972, s. 9-12

Vahapzade, bu duygu ve düşünceyi "*Ana Dili*" şiiriyle en güzel şekilde ifade edenler arasındadır:

"Dil açanda ilk defa "ana" söylerik biz,
"Ana dili" adlandır bizim ilk dersliyimiz.
İlk mahnımız laylanı anamız öz südüyle
İçirir ruhumuza bu dilde gile-gile.

Bu dil- bizim ruhumuz, eşğimiz, canımızdır.
Bu dil- birbirimizle ehdi- peymanımızdır.
Bu dil – tanıtmış bize bu dünyadaki her şeyi.
Bu dil- ecdadımızın bize goyub getdiyi
En gıymetli mirasıdır, onu gözlerimiz tek
Ğoruyub, nesillere biz de hediyye verek.
Bizim uca dağların sonsuz ezemetinden,
Yatağına sığmayan çayların hiddetinden.
Bu torpagdan, bu yerden,
Elin bagrından gopan yanıglı negmelerden,
Güllerin renglerinden, çiçeklerin iyinden,
Mil düzünün, Muğanın sonsuz genişliğinden
Ağsaçlı babaların eglinden, kamalından
Düşmen üstüne cuman o Ğıratından nalından

Ğopan sesden yarandın.
Sen halgımın aldığı ilk nefesden yarandın.
Ana dilim, sendedir halgın egli, hikmeti,
Ereb oglu Mecnunun derdi sende dil açmış.
Üreklere yol açan Fuzûlînin seneti
Ey dilim, güdretinle dünyalara yol açmış
Sende menim halgımın gehremalıgla dolu
Tarihi varaglanır.
Sende neçe min illik menim medeniyyetim
Şan – şöhretim sahlanır.
Menim adım,sanımsan,
Namusum vicdanımsan!
Milletlere balglara halgımızın adından
Mehebbet dastanları yaradıldı bu dilde.
Bu dil – tanıtmış bize bu dünyada her şeyi.
Bu dil- ecdadımızın bize goyup getdiyi
En giymetli mirasdır, onu gözlerimiz tek
Goruyup, nesillere biz de hediyye verek!"

Bir dile verilen önem, ancak bu kadar içli ve samimi anlatılabilir. Şairimiz, şiirde, Türkçenin, Türk insanının ruhu, aşkı, ecdat yadigârı olduğunu ve bizim de daha sonraki nesillere onu sağlam ve temiz bırakmamız gerektiğini söylüyor. Bununla kalmayarak devam ediyor: Türkçenin, yüce dağların azametinden, yatağına sığmayan çayların hiddetinden, bu topraktan, nağmelerden, türkülerden, güllerin renginden, çiçeklerin kokusundan, yaşlı babaların aklından, kır atın nalının sesinden kısacası Türk'ün yaşayışından oluştuğunu ifade ediyor. Yine Türkçede, kahramanlıkla dolu Türk tarihinin, medeniyetinin, şan ve şöhretinin, saklı olduğunu en güzel şekilde dile getiriyor. Bu konudaki hassasiyetini daha da netleştirerek dili, Türk insanının en önemli manevî unsurlarından biri olan namusa benzetiyor. Onun bu konudaki hassasiyetini bir Türk dili profesörümüz şöyle ifade etmektedir: "*Pek çok şair belki de dil üzerine şiir yazmıştır. Şüphesiz ki pek çok gramerci de dil ile tarih arasında münasebet kurmuştur. Fakat dili namus kabul eden bir yükse heyecana ben bugüne kadar tesadüf etmemiştim*[1]."

[1] Ahmet Bican Ercilasun, "Bir Azerî Şâirî: Bahtiyar Vahapzade", *Millî Eğitim ve Kültür*, S. 2, Mart 1979, s. 33.

Çağımızda, yabancı dil merakı çok ileri safhalara vararak, yabancı kültürden yaralanma ölçüsünü aşmış, kalkınmakta olan milletlerin kendi dillerini ihmalini gündeme getirmiştir. Bunların altında yatan ekonomik, sosyal ve kültürel emperyalizm neticede yabancı dille eğitim yapan okulları normalden daha fazla önemli kılmıştır. Şâirimiz **"***Riyakâr***"** şiirinde bu konuda gaflet içinde olanları sert bir üslupla eleştirip, bir öğretmenin, çocuğunu yabancı dille eğitim yaptıran okulda okutmasının normal olmadığını belirtir. Çünkü dil şuuru bir öğretmende herkesten daha fazla olmalıdır:

"R YAKÂR

Menim övladıma ana dilinde
Ders deyen "agıllı" müellime bah.
"Veten", "veten" deyir,
Öz övladını
Ecnebi dilinde ohudur ancag.
Özgeye: "Dilini öğren!"deyirsen,
Özünse…
Bu dili beğenmeyirsen!....
Ne deyek bu miskin riyakârlığa?..
Yohsa öz gınını beğenmir bağa?..

Bir nedir, beş-altı dil bilsin gerek,
Bizim sabahımız; körpelerimiz.
Veten diline de dodag büzmeyek,
Burdan ayag açıp, yola çıhag biz.
Evde ayag acır evvelce herkes,
Sonra uzaglara düşür gademler.
İlkini bilmeyen sonunu bilmez,
Evden üz dönderen çölde veremler.
"Evvel evin içi" demişler neden?
Sen çölü bilmezsen, içi bilmeden.
Yahşı bilmek ücün özge bir dili
Evvel öz dilini yahşı bilmeli.
Niye özümüzü öğey sayag biz?
Niye atamızı tanımayag biz?
Özgeni sevirsen?
İnanmıram ben!
Özünü sevmeyen özgeni sevmez.
Vetenin diline gereksiz deyen
Vetenin özünü nece sevir bes?
Üzüne dursaydı yediğin çörek,
Rezil olduğunu özün ganardın.
Dilimi dansaydım men de senin tek
Sen kime deyip pul gazanırdın?
Veten gayretini çekmeyen oğul
Hem özüne yükdür, hem özgesine;
Bu dilde ders deyip gazandığın pul,
Yediğin çörek de haramdır sene!
Böyüt balanı da sen özün, teki
Denen, özün yaşa, alem yoh olsun.
Namus olmasa da keçiner, teki
Dilin uzun olsun, garnın toh olsun.
Seninçün dünyada değer,a nadan,
Bir anlıg öteri könül hoşluğun,

Min def'e kiçikdir atalığından
Senin insanlığın
Vetendaşlığın!

1928 yılından sonra talih Azerbaycan'a daha öne oynadığı oyunlardan çok daha acımasızını oynar. Bu tarihten sonra ikiye ayrılan Azerbaycan'ın güney kısmı İran'ın eline geçer. Burada yaşayan Türk nüfusuna Farsların yaptığı baskılardan biri de Türkçeyi kullanma yasağıdır. Güneyde yetişen nesil artık Türkçe konuşma ve yazma hakkına sahip değildir. Bu yüzden ana dillerini bilmeden yetişirler. Her şeye rağmen özündeki Türkçe alevi sönmeyen birinin, dilini öğrenmek için Vahapzade'den kitap istemesi üzerine, şairimiz kahrolur, dilini ihmal edenleri *"Ne Ondansan, Ne Bundan"* şiiriyle hicveder.

"NE ONDANSIN, NE BUNDAN

"Sizdenim, yani Azerbaycanlıyım.
Ama anne dilimi bilmiyorum.
Dilimi öğrenmek için bana derslik gönderin"
Güney (İran) Azerbaycan'dan gelen bir mektuptan.
Yad dilde mektup yazıp kardeş, öz kardeşine.
Bu mektubu okuyan kül döksün başına.
Hükmüne bak hasretin.
Hükmüne bak zilletin.
Ya annesi yok imiş bu zavallı milletin
Bir emcekten süt emen ikiz evlâtlarına
Öz dilini öğrete.
Bir yuvadan uçurup, bu uçuşu seyrede.
Mektubunu okudum, yazarsın ki "Sizdenim,
Fakat ben öz dilimi bilmiyorumsa,
Bilmem,
Nasıl desem ben, benim"
Çok güzel itiraftır
Sahvini anlayanı düz olmazdı dansamak.
Günahını azaltır, günahını anlamak.
Bu yaradır,
Bu yerde yarılanır bu yara.
Ne deyip, ne ad vererek
Dilini bilmemekle övünen cahillere?
Haklısın…
Bizden olup,
Ey bizliğinden dönen,
Seni ben affederim, affeder mi ya vatan?
Bilmiyorsan dilini, sen vatanın yüzüne
İstemeden ak oldun.
Sen kendine bir üvey, özgeye yama oldun.
Bu halinle
Sünbeye
Ne tokmak,
Ne de kardeş,
Tüfeğe çakmak oldun.
Sen çıkmak istersen de özgenin efsurundan,
Ne ondansın, ne bundan.
Bilsen de yad dilini, tam yadın özü gibi,
Seni doğma bildi mi?
Bilmeyip, bilmeyecek!

Ona "can kurban" desen,
O, hakkını yiyecek
Yürek kızdırmayacak sana, "özgesin" diye,
Senin öz milletin de satılmış bilecektir
Kardeşini özgeye.
Yazırsın: "Değişmişim,
Başka gözle bakarım şimdi bütün her şeye.
Bana derslik gönderin dilimi öğrenmeye".
Derslik?
İşte ne demek?
Kitaplardan ne semer?
Hani anne dilini anneden öğrenirler.
Annen bunu yapmadı,
O sana anlatmadı.
Annesinin dilini.
Annen sana öğretti ağasının dilini
Öz doğma evlâdına doğma anne dilini
Öğretmeyen anneler,
Ya anne adlanmağa sizin hakkınız mı var?
Dilinizi yadsıyıp
Kendinizi dandınız
Fakat bu alçaklığı siz yücelik sandınız.
Ey kökünden ayrılıp kendisinden kaçaklar
Emin olun, sizi de bir zaman danacaklar."

"*Menim Anam*" şiirinde ise okuma yazma bilmeyen annesinin, ona Türkçeyi öğretmekle her şeyi öğrettiğini, bu dille meydana getirdiği bütün eserleri de annesine borçlu olduğunu belirtir. Güney Azerbaycan'da çocuğuna ana dilini öğretmeyen anneye hicivler yağdıran şairimiz, ana dilini öğreten anneye haklı olarak, bu şiirle minnet borcunu ödemeye çalışır:

"MEN M ANAM

Savadsızdır,
Adını da yaza bilmir
Menim anam…
Ancag mene,
Say öğredip,
Ay öğredip,
İl öğredip;
En vacibi:
Dil öğredip
Menim anam…
Bu dil ile tanımışam
Hem sevinci,
Hem gami…
Bu dil ile yaratmışam
Her şi'rimi,
Her nağmemi.
Yoh men hecem,
Men yalanam,
Kitap – kitap sözlerimin
Müellifi: menim anam!..."

Bahtiyar Vahapzade, bir başka eseri "*Latin Dili*" adlı manzumesinde ise ölü bir dil olan Latin dili ile –muhtemelen- Azerbaycan Türkçesini karşılaştırmıştır. Konuşanı olmayan Latin dili, bütün dünyada bilim dallarında kullanılmaktadır. Fakat *Atlantika sahilinde* (Birleşmiş Milletlerde) kendi dilini konuşmayan ve dahi başka bir dille ben bağımsızım, ben mutluyum diyenlere asla bağımsız ve mutlu denilemeyeceğini; milleti yaşasa da ölü sayılacağını şu dizelerle vurgular:

"…
Atlantika sahilinde
Coşa coşa
Daşa daşa
-Men azadam, men hoş-bahtem,
Deyir nâtığ yad dilinde.
Söyle nâtığ
İndi neye inanag biz:
Galaga mı
Ya göze mi
Emele mi
Ya söze mi?
"Men azadami mustagilem" sözlerini
Öz dilinde demeye de
İhtiyarın yohsa eger
De kim sene azad deyer"
…

Bahtiyar Vahapzade şiirlerinde yalnız bu konuları işlemekle kalmıyor, aynı zamanda "*… vezin ve kafiyeyi çok usta bir şekilde kullanıyor. Onu okurken insan ses tonunun ahenginin değiştiğini hissediyor. Şiirin muhtevasına uygun yücelik duygusunu telkin eden bir söyleyiş bu. Dil Yahyâ Kemâl'in dili kadar Türkçe, açık ve sade…*[1]".

Bahtiyar Vahapzade'nin Türkçe ile ilgili daha ayrıntılı fikirlerini çeşitli edebî eserlerle ilgili yazdığı makale ve tenkit yazılarından öğreniyoruz. Bu tenkitlerini bir kısmını, "*Veten Ocağının İstisi*[2]**"** adıyla kitap haline getirmiş ve yayımlamıştır.

O, Dede Korkut hikâyeleri ve Fuzûlî Türkçesine hayrandır. Şiirlerin ve diğer eserlerin dilini değerlendirirken ölçüsü çoğunlukla Dede Korkut hikâyelerinin dilidir, Fuzûlî dilidir, halk dilinin, deyimlerin ve atasözlerinin bolca kullanılmasıdır.

Gürcistan'da yaşayan Azerî şâir ve yazarların ortaklaşa yayımladıkları "**Çe me**" adlı kitap hakkındaki düşüncelerini şöyle ifade eder: "*Birkaç gün önce Borçalı-Karayazı taraflarında memleketinden uzakta şairlerin Çeşme isimli şiir kitaplarını okudum. Gördüm ki şiirlerinin dili ve ruhu Dede Korkut kaynağından geliyor. Bu kaynaktan akan çeşmelerin suyu benim için çok değerli olduğundan duramadım. Şiirler hakkında bir makale yazdım* [3]". Çeşme adlı kitabın içinde yer alan Elihan'ın bir şiiri hakkında ise şöyle der: "Elihan dilimizin tarihine başvuruyor, onun ulu kaynaklarından, ilk kaynağın öz dili ile sohbet açıyor. Şair kasten Dede Korkut dili ile yazmaya çalışmıyor, hissolunuyor ki, bu onun öz ruhundan böyle süzülüyor."… "Şiir baştan başa Korkut deyiş tarzı ile yazılmakla dilimizin renklilik ve güzelliğini neredeyse unuttuğumuz bakireliğini, nameye benzer ehenkdarlığını, kulaklarımızda seslendirir, bizi kuru ve suni dilden canlı halk dilinin şekilliliğine çağırır[4] ".

Dede Korkut hikâyelerinin, Türkçemiz tarihi açısından sonsuz kıymeti vardır. Vahapzade, bu meseleyi ele alırken şunları söyler: " *…1400-1500 yıl evvel Dede Korkut Kitabı meydana gelmiş ve Türkçe konuşan insanlar arasında yayılmıştır. Bu estetik güzelliğinden, güzel bir*

---

1 Mehmet Kaplan, "Pırlanta gibi bir şiir", *Türk Edebiyatı*, S.123 Ocak 1984, s. 64
2 B. Vahapzade, *Veten Ocağının İstisi*, Bakü-1982.
3 B. Vahapzade; a.g.e. , s.88 ("Ezizim Mövlüd").
4 B.Vahapzade; a.g.e.s. 75-76("Borçalı-Balkaçit Dağlarında Gaynayan Çeşme")

sanat eseri olmasından başka, ana dilimizin bir zamanlar ne kadar yüksek seviyede olduğunu, onun geniş imkânlarını gösterir.

Beri gelgil, başım bahtı, evim tahtı
Ebden çıhıb yürüyende selvi boylum
Topuğunda sarmaşanda gara saçlım
Gurulu yaya benzer çatma gaşlım
Goşa badam sığmayan dar ağızlım
Küz almasına benzer al yanaglım
Gadınım, direyim, döleyim.

Bu estetik güzellikler, benzetmeler dilimizin zarifliğini, güzelliğini gösteren en kuvvetli sözlerdir[1] . ”

Fuzûlî’nin Türkçesine ve sanatına da hayrandır. Hayranlığını “Fuzûlî hakkında çok yazmışım, ama yazdıkça doyamıyorum[2] diyerek dile getirir. Onun meşhur:

Meni candan usandırdı cefadan yâr usanmaz mı
Felekler yandı ahımdan muradım şem’i yanmaz mı

matlalı gazeli hakkında; “Böyle sanat eseri ile biz bir daha dilimize, onun eskiliğine ve güzelliğine meftun oluruz ve deriz, böyle güzel dile malik olan halk ölmezdir, ebedidir[3] ”der.

Bütün bunların yanında, Vahapzade, halk edebiyatının dilini de bir hazine olarak görür. Bu konudaki fikirlerini beyan ederken: “*Dilimizi bize sevdiren, onun derinliğini bize gösteren sanat yollarından biri de âşık şiirleridir*”[4]. *Aynı zamanda anonim halk edebiyatı mahsullerinden olan manilerimiz için; “büyük bir romana mevzu olabilecek hadiseyi halk dört mısraya sıkıştırabilmiştir*[5]” demektedir.

Vahapzade, Türkçe deyim ve atasözlerini şiirlerinde bolca kullanmıştır: “*Kölgede yatanların, Öz kölgesi yoh olur*”(Besdir), “*Göz kabaga bakmasa, Dala galar ayaglar*” (Besdir), “*Yohsa öz gınını beğenmir baga*” (Riyakar), “*İlkini bilmeyen sonunu binmez*” (Riyakar), “*Özünü sevmeyen özgeni sevmez*” (Riyakar), “*Üzüne dursaydı yediğin çörek*” (Riyakar), ….

Vahapzade’ye göre edebiyatçılar verdiği eseri sade dille meydana getirmelidir. O eserleri, değerlendirirken bu ölçüye özellikle dikkat eder. Samet Vurgun’un “*Vağif*” şiirini değerlendirirken düşüncelerini şöyle beyan eder: “*Samet Vurgun’un ilk mabedi, şüphesiz Vağif şiiridir. … S. Vurgun’u okuyucusuna sevdiren mühim cihet onun şiirindeki sadelik ve bu sadelik içindeki büyüklüktür”*[6]. Bu sadelik de ancak halk dilini öğrenmekten geçer. Bu düşüncesini şöyle açıklar: *“ Manilerin her biri bir sanat incisidir, bir şiir cevheridir. Manilerdeki bu zariflik, bu derinlik ve büyüklük karşısında secde etmek yetmez, bunları gece gündüz öğrenmek lazımdır. Biz halkı öğrendikçe yüceliriz, büyürüz. Bizim en büyük sanatkârlarımız daima halk yaradıcılığından öğrenmiş, ona göre yücelmişlerdir. Fuzuli’nin de, Üzeyir Bey’in de Samet Vurgun’un da kudreti buradan kaynaklanmaktaydı”*[7].

Halkın Türkçesini öğrenen şair ve edipler dolayısıyla dilini sade ve güzel tutacaklardır. Çünkü: “ … *Edebiyatta dil güzelliği özellikle şarttır. Dili güzel olmayan bedii eserin hiçbir tesir gücü olmaz*[8].” “ *Riyakar*” şiirinde :

“Yahşi bilmek üçün özge bir dili
Evvel öz dilini yahşi bilmeli”

diyen şâirimiz bununla da kalmayarak Türkçeyi iyi bilmeyenlerin başka dillerden yanlış tercüme yapmalarına da sitem etmektedir: *“ …. H. Hemzetov’un Menim Dağistanım adlı eserini S. Azeri’nin tercümesinde okuduğum zaman tercümenin diline şaşakalmıştım. Çünkü bu dil*

[1] B.Vahapzade; a.g.e. , s.115 (“Dilimiz –Edebiyyatımız ”).
[2] B. Vahapzade; a.g.e. , s.6 (“Fuzûlî-Şekspir”).
[3] B. Vahapzade; a.g.e., , s.121 (Dilimiz-Edebiyyatmız”).
[4] B. Vahapzade; a.g.e. , s.121 (“Dilimiz –Edebiyyatımız”).
[5] B. Vahapzade; a.g.e. , s.116 (Dilimiz- Edebiyyatımız”).
[6] B. Vahapzade ; a.g.e. , s.42(“Vagıf”)
[7] B. Vahapzade; a.g.e. , s.117 (“ Dilimiz –Edebiyyatımız”).
[8] B. Vahapzade; a.g.e. , s. 75 (“ Borçalı –Başkeçit Dağlarında Gaynayan Çeşme “).

tercüme dili değildi. Tercüme dili ifadesinden dolayı okuyuculardan özür dilerim; aslında böyle bir dil yoktur. Onu biz ortaya çıkarmışız. Radyodan işitiyoruz. "Segah ifa eder filankes". Bu ifade dilimizde yoktur, sunidir, tercümeden gelmedir. "Segah okuyor filankes" öz dilimizdedir. Birinci sınıf kitabında Rus şâirlerinden birinin "Ağaçta Kuş" adlı şiirini okudum. Şiiri ismi bilinmeyen bir şâir tercüme etmiş. "Ptitsa sela" ifadesini "kuş oturdu" şeklinde çevirmiştir. Bak buna tercüme dili diyorlar. Tercüme eden belki de Rusçayı iyi biliyor, lakin ana dilini bilmiyor, desek yanlış söylememiş oluruz. Azerbaycan dilinde buna "kuş konar" denilir. Harfi tercüme, dilimizin ahengini ve tabiatını bozar"[1].

Sonuç:

Bahtiyar Vahapzade'nin Türkçeciliği hakkında söylenecek söz elbette bu kadar değildir. Ayrıca onun, Türkçe konusunda söylediği ve yazdığı daha önemli beyanları olduğu muhakkaktır. Biz, elimizden geldiğince bu konudaki düşüncelerinin temellerini oluşturan fikirlerini tespit etmeye çalıştık.

[1] B. Vahapzade; a.g.e. , s. 101 (İki Poest Haggında").

I BEYNƏLXALQ BƏXTİYAR VAHABZADƏ SİMPOZİUMU

VAHABZADƏ YARADICILIĞINDA MƏNƏVİYYAT-MAARİF MƏSƏLƏLƏRİ

Qafqaz Universiteti, 13-15 dekabr 2012-ci il

NSANCIL DÜNYAGÖRÜ Ü AÇISINDAN B XT YAR VAHABZAD

M tan t Abdullayeva

Bakı Dövlət Universiteti,Filologiya fakültəsi
Akademik Zahid Xəlilov 23
matanat.a@hotmail.com

XÜLAS

Bütün zamanlarda yüksək təfəkkürlü insanları bəşəriyyətin problemləri narahat edib, düşündürüb. Problemlərin mərkəzində həmişə insan faktoru durub. Bəşəriyyətin qlobal problemi müharibədir. Hansı coğrafi məkanda və hansı miqyasda baş verməsindən asılı olmayaraq, müharibə Yer planetinin, bütövlükdə kainatın faciəsidir. Humanist ideyaların daşıyıcıları, mütərəqqi düşüncəli sənətkarlar əsərlərində bu qorxunc kabusun insanların həyatında törətdiyi faciələri qələmə almaya bilmirlər. Azərbaycanın və bütövlükdə Türk dünyasının təəssüübkeş şairi Bəxtiyar Vahabzadənin yaradıcılığı insansevərlik fəlsəfəsini özündə əks etdirir. İnsansevərlik fəlsəfəsi hər cür milli-etnik xüsusiyyətlərdən, əlamətlərdən yüksəkdə düran ümumbəşəri dünyagörüşü ehtiva edir. Humanist şair əsərlərində insanı, yaşından, əqidəsindən, bu və digər sosial qrupa aid olmasından asılı olmayaraq, fundamental dəyər kimi mənalandırır. Milli heysiyyatı güclü olan, vətən, millət təəssübü çəkən şairi yalnız xalqın problemləri düşündürmür. Vyetnamda, Ərəbistanda gedən müharibələr həssas şairin büyün varlığını təlatümə gətirir. Həyata bir baxış bucağından, bir qütbdən baxmırdı böyük sənətkar. Geniş, əhatəli diapazondan baxmaq, həyatı bütün rənglərdə və rəng çalarlarında yaşamaq arzusu, dünyanın dolğun dərki, yəni əksliklərin vəhdətinin dərki Vahabzadə fəlsəfəsinin ana xəttini təşkil edir. Bütün humanist insanlara xas olan qlobal düşüncə və qlobal hissiyyatla aləmi və insanları duymaq istedadına malik olan şairin narahatçılığı, qəlb ağrıları da hüdudsuzdur. “Heç zaman ziyalı sayıla bilməz // Özgənin dərdini yaşamayan kəs” deyən şair üçün “mənim dərdim, sənin dərdin, onun dərdi” yoxdur, yalnız bir dərd var – İnsan dərdi!

Açar sözl r: humanizm fəlsəfəsi, şair-hakim, insan həyatının mahiyyəti, təfəkkür süzgəci, milli heysiyyat.

Müasir dövr Azərbaycan söz sənətinin yüksək plankasını təşkil edən B.Vahabzadə poeziyasını saf kristala bənzətmək olar. Kristalın hər hansı tərəfindən baxarkən orada günəş şüalarının insanı heyrətə gətirən qeyri-adi rəng çalarlarındakı təzahürü göz oxşadığı kimi, B.Vahabzadə poeziyasının da rəngarəngliyi, çoxcəhətliyi poeziya vurğunlarının qəlbini oxşayır, poetik zövqünü artırır. Kristala hansı bucağından baxsaq, eyni gözəllikdə fərqli rəng oyunları, rəng keçidləri görmək olar. Vahabzadə yaradıcılığı da o cürdür – bütün yönlərdən onun yüksəkliyi, kamilliyi görünür. Şairin söz sənətinin qüdrəti - dərin və geniş məna yükünün nəfis, gözəl bədii cildlə ahəngdarlığı, eyni zamanda, şeirlərinin səmimiliyi və insanlara, bəşəriyyətə olan böyük məhəbbəti və qayğısı qəlbləri və düşüncələri riqqətə gətirir. Məhəbbət, mərhəmət, qayğıkeşlik B.Vahabzadə poeziyasının ana xəttini təşkil edən motivlərdir. Deyirlər ki, ağlın dərinliyi ürəyin genişliyi ilə mütənasibdir. Ona görə də geniş ürəkli, humanist insanlar dərin zəka sahibidirlər. Bütün zamanlarda dərin zəka sahiblərini bəşəriyyətin .problemləri narahat edib, düşündürüb. Onlar üçün insan faktoru milli mənsubiyyət anlayışından kənara çıxaraq ümumbəşəri mahiyyət daşıyır. Böyük şəxsiyyətlər üçün coğrafi məkan hüdudları mövcud deyil, dünyanın hər hansı bir yerində baş verən fəlakət, insan faciəsi onların şəxsi faciəsidir. Milli heysiyyatı güclü olan, millətin təəssübünü çəkən, vətənini, dilini müqəddəs tutan B.Vahabzadəni yalnız vətənin və xalqının problemləri düşündürmür, həssas şair dünyanın işlərinə, problemlərinə biganə qala bilmir. “Dinclik, rahatlıq mənim düşmənim”dir deyərək özünü hər zaman qaynar nöqtələrdə, fəlakətlər baş verən bölgələrdə hiss edən şair yüksək daxili dinamikaya, üsyankar təbiətə malik idi. Ona görə də o, həyatını passiv müşahidəçi kimi yaşamadı, o, azadlıq, sülh, əmin-amanlıq carçısı oldu, dünyanın ən narahat guşələrində baş verən hadisələrin mərkəzində dayandı-onları vətəndaş vicdanı və şair qəlbinin süzgəcindən keçirtdi.

Dünyanın nahaq işləri onun varlığında, fikir dünyasında təlatümlü əks-səda doğuraraq qələmindən süzülürdü:”Dünyanın dərdləri mürəkkəb kimi // Axır qələmimdən, axır sübhəcən” deyirdi şair. O, Yer kürəsinin hər hansı bir hissəsində baş verən müsibətləri özünün dərdi kimi hiss edir, dünyanın ən uzaq nöqtəsində əzab çəkən insanların halını özünün əzabı bilir: Pasifist şairin “Miz arxasında” adlı şeiri insansevərliyin himni kimi səslənir: “ Masa arxasında könlum biqərar

// Yolum neçə kənddən, şəhərdən düşür.// Vyetnama yağan ağır bombalar // Elə bilirəm ki, evimə düşür".[1] Problemlərin qloballığı fonunda sənətkar təfəkkürünün hüdudsuzluğunun şahidi oluruq. Sakit bir gecədə evində oturub yaradıcılıqla məşğul olan, özünü "könül dünyasının barometri" adlandıran şairin bütün varlığı dünyanın narahat bölgələrində cövlan edir. Cismən öz sakit otağında mövcud olan şairin ruhu narahatlıq içindədir, o, uzaq ellərdə əzab çəkən insanların ağrılarını öz varlığında hiss edir. "Sinada yandırır gün göyü, yeri,// Yenə də ərəbin Vətəni darda.// "Su" deyib yananda ərəb əsgəri // Mənim dodağım çatlayır burda." [2]

B.Vahabzadə humanist insan psixologiyasının daşıyıcısı və bilicisi olaraq həyatı bütün çalarları ilə - ağı-qarası, bəmi-zili, şirini-acısı və s.ilə sevir. Həyatın mənasını yalnız xoşbəxtlik, sevinc, əyləncə yaşantılarında görən və maddi dünyanın həzzlərindən zövq almağı təbliğ edən epikürçü düşüncəli insanlardan, yaxud da həyatda yalnız qəmi, kədəri görən pessimist insanlardan fərqli olaraq, Bəxtiyar Vahabzadə "həyatın sevinci də, kədəri də gözəldir"-deyir. Həyatı, varlığı tam, dolğun qavramağı bacaran insanlar kimi, onun üçün də şadlıq da, qüssə də eyni qüvvəli olub insanın könül dünyasını – mənəviyyatını formalaşdıran güclü amillər kimi çıxış edir. İnsan həyatının dolğunluğu, zənginliyi hər iki qütbün birliyində, vəhdətində mümkündür. "Kədərdəki nəşəni, zövqü anlamayanlar // Həyatın nəşəsindən, fərəhindən nə anlar? // Hər kədəri səadət, hər sevinci qəm izlər. // Əsl könül həm qəmi, həm sevinci əzizlər. // Tələtümsüz ürəklər qovuq kimi boş olur. // Daim sevinc axtaran daim qəmə tuş olur."[3] Həyata bir baxış bucağından, bir qütbdən baxmırdı böyük sənətkar. Geniş, əhatəli diapazondan baxmaq, həyatı bütün rənglərdə və rəng çalarlarında yaşamaq arzusu, dünyanın dolğun dərki, yəni əksliklərin vəhdətinin dərki Vahabzadə fəlsəfəsinin ana xəttini təşkil edir.. Böyük sənətkara görə, həyatın hər cür təzadları, əslində, insanın öz mənəviyyatında yaranır. Şair - "Ən böyük, ən dərin söz içimdədir. // Haqq-nahaq, düz-əyri, qəm-sevinc, qış-yaz // Mənim öz içimdə, öz içimdədir"- deyir. Həyatı tam, dolğun, bütün keyfiyyətlərin və rəng çalarlarının vəhdətində yaşamaq istəyən şair özünə statik və durğun həyat arzulamır. Çünki belə həyat onun hüdudsuz, geniş mənəvi dünyası, coşğun sevgisi ilə uzlaşmir. "Tufansız ürəklər durğun göl kimi,// Suyu təzələnməz, dibi lillənər"- deyən şair üçün passiv həyat ətalət və tənəzzüllə aparan mövcudluqdan başqa bir şey deyil. Belə həyat tərzində nə yaradıcılıq, nə də mənəvi yüksəliş mümkün deyil.

Şairə görə hər cür şər xeyirin tam təzahürü üçün, bir növ, lakmus kağızıdır. Burada "xeyir" və "şər" sözlərini pozitiv və neqativ yaşantılar anlamına uyğun gələn rəmzi söz kimi işlədirik. Şair özünün pozitiv hiss və emosiyalarını neqativlərin mövcudluğu, yaşanılması fonunda (və şərtində) əldə edir. "Dibi görünməyən ümman göstərin // Baş vurum, kəşf edim dərinliyini.// Mənə əzab verin, iztirab verin,// Dadım səadətin şirinliyini".[4] Böyük şəxsiyyətlər həyata, və ümumən, varlığa qlobal müstəvidən baxmağı bacardıqları üçün həyatın problemlərinə fəlsəfi aspektdən yanaşaraq onları hikmət dərsi kimi dəyərləndirirlər. Onlar əzab və əziyyətlərin həqiqi mahiyyəti haqqında düşünür, onlara xüsusi önəm verirlər. Bunu həm Şərq, həm də Qərb düşüncəsində görürük. Görkəmli islam teoloqu və filosofu Əbu Həmid əl-Qəzali (1058-1111) yazır ki, sevinc sənin üçün ağrıya çevrilə bilər, ağrı isə dərmana.[5] "Qəmin damcısında közərən ağıl, // Közərməz şadlığın ümmanında da"- deyirdi Bəxtiyar Vahabzadə. "Əgər unsan nəyəsə çatmaq istəyirsə, o zaman çətinliklərdən qaçmamalı, əzab və əziyyətlərdən qorxmamalı, sınaqlardan ləyaqətlə keçməyi bacarmalıdır. Müdriklər deyirlər ki, maddi dünya insanı hər addımbaşı izləyən sınaqları, bütün dərdləri və bədbəxtlikləri, çətinlikləri və əziyyətləri yaradan səbəbdir".[6] Məşhur alman filosofu Qotfrid Vilhelm Leybnits (1646-1716) belə deyirdi: "İnasanlar "ən yaxşı aləm" anlayışını səhv olaraq yalnız xeyirdən, faydalı olandan və xoşbəxtlikdən ibarət olan dünya kimi başa düşürlər.Amma belə dünya yeknəsəq olardı, yeknəsəqlik, monotonluq isə müdrik Allaha layiq deyil. Həyatdan alacaqları fasiləsiz həzzlər insan varlıqlarını yorar və bezikdirər. İnsanlar

[1] Bəxtiyar Vahabzadə.Seçilmiş əsərləri.İki cilddə.I c.B.,2004.s.44
[2] Orada.s.44
[3] Orada.s.11
[4] Bəxtiyar. Vahabzadə Seçilmiş əsərləri.I c.,s.118
[5] Abu Xamid al-Qazali.İssledovaniye sokrovennıx tayn serdsa.M.,2006.s.119
[6] Mətanət Abdullayeva.Klassik poeziya : ezoterik xəzinə.B.,2009.s.265

uğursuzluqlar yaşadıqca sınaqlarda bərkişdikləri kimi, təbiət də xeyirlə şərin, fəaliyyətlə iztirabın, gözəlliklə eybəcərliyin gərgin mübarizəsində, yəni məhz bütövlükdə və rəngarənglikdə gözəl və məqsədəuyğun düzəndə təşəkkül tapır. Torpağa atılan toxum cücərməmişdən əvvəl əziyyət çəkir. Və yəqinliklə demək olar ki, ağrı-acılar müvəqqətidir, son nəticədə faydalıdır, belə ki, onlar kamilliyə aparan ən qısa yoldur".[1] Dərin zəka sahibləri insan həyatında ağrıların, əziyyətlərin olmamasını ən böyük əzab sayırlar. Hər kəs həyatda hansısa amalla yaşayır, idrakının mərtəbəsinə uyğun gələn amalla. Məqsədinə yetişib-yetişməməsindən asılı olaraq insan çox sınaqlarla üzləşir. Dahi Füzuli ilahi eşqə yetişmə yolunda çox əziyyətlətə tuş gəlir. O çəkdiyi bəlaları həyatının naxışı adlandırır: " Ömür hər ləhzə keçir, zövqdən olma məhrum, // Bil qənimət bu bəla ləzzətini sən hər dəm. // Könlümün qönçəsi xari-sitəm ilə açılır,// Bu məhəbbət bağının zinətidir cövri-sitəm".[2] Türk dünyasının görkəmli mütəfəkkiri Mövlana Rumi baş verən bəd hadisələrdən dərs götürməyi insanlara tövsiyə edir :"Kötü bir olay olsa, hisse al o kıssadan, // Yese düşme, tevil et, ibadettir hüsn-i zan". Problemlər, çətinliklər həyat təcrübəsinin ayrılmaz tərkib hissələridir, sakit və rahat həyatın verə bilmədiyi dərsi onlar verir.. Ona görə də deyirlər [3]ki, şər də, xeyir də insanın müəllimləridir. Nizami belə deyir: "Bu mülkdə yaxşı da, pis də sənin̂çün çalışır, Pis və yaxşı (işlərdə) sənə güzgü tutandırlar.[6] B.Vahabzadə üçün də problemlər həyat yükü deyil, həyati gözəllikdir: "Ölüncə bu yükdən həzər eyləmə!// Gileylənmə, gəl.// Çək onu ürəklə!// Həyat, sən demə,// Həyatın yükünü çəkərkən gözəl!". Şair "Şəbi-hicran" poemasında dərdləri həyatın yeganə dövləti hesab edən Füzulinin obrazını məhz belə prizmadan səciyyələndirir: "Üzündən, gözündən tökülür kədər,// Qəmlər dövlətidir, dərdlər varıdır.// Ağaran dan yeri, qızaran göylər,// Onunçün Leylanın yanaqlarıdır".[4] Görkəmli fransız yazıçısı və filosofu Volter özünün "Fəlsəfi povestlər"ində belə deyir: "Elə bir şər yoxdur ki, ondan xeyir törəməsin".[5] Həyatda çətinliklərdən, əziyyətlərdən ləyaqətlə keçə bilməyən, mənəviyyatı rəndələnməyən insan başqasının dərdinə yana bilməz, öz əzabında bişib yumşalmayan ürək özgə faciəsinə qayğı, mərhəmət məlhəmi olmağı bacarmaz. Bütün humanist insanlara xas olan qlobal düşüncə və qlobal hissiyyatla aləmi və insanları duymaq istedadına malik olan şairin narahatçılığı, qəlb ağrıları da hüdudsuzdur. "Heç zaman ziyalı sayıla bilməz // Özgənin dərdini yaşamayan kəs" deyən şair üçün "mənim dərdim, sənin dərdin, onun dərdi" yoxdur, yalnız bir dərd var – İnsan dərdi! Və bu dərd şairin qəlbini hədsiz incidir, nəhayətsiz fikir dünyasını əzir, çünki onların hamısı şairin öz dərdidir: " Döşəyimin istisi bəs niyə sancmır məni?// Yatıram şirin-şirin.// Mən ki bilirəm indi çadır körpələrinin // Soyuqdan əsdiyini." Şair, qəlbi olan insanların ağrılı yerinə – faciəvi taleli körpələr probleminə toxunaraq hamını bu dərdi bölüşməyə çağırır. Onun "Utanıram" adlı şeirində də eyni motivlər səslənir, şeir bütün millətin vicdanına ünvanlanır: "Şəhidlərin, qaçqınların // Üstümüzdə min ahı var. // Çatdığımız bu nöqtədə // Hamımızın günahı var." Şair "utanıram" deməklə hamını bu ağır hissiyyatı keçirməyə təhrik edir: "Babaların ucaltdığı // Bizim qalib qalalardan utanıram. // Çadırlarda // Donan körpə balalardan utanıram".[6]

Şairin ürəyi daim səksəkədədir, o, Haqqı tapdalanan, zəif və aciz insanların halını düşünür. Kimdir bu insanlar? – körpələr və qocalar. Bu problem B.Vahabzadə yaradıcılığında çox geniş diapazonda işıqlandırılır. Cəmiyyətin həyatında adiləşmiş, lakin həssas insanlar üçün adiləşə bilməyən, "Vətən üçün alışıb porşələnən kəslərin // Qat-qat könlünü dağla(r)"yan problemlər – "dilənən ixtiyarlar, şüşə silən uşaqlar" problemi şairin vicdanını əzir. Bu gün də həllini tapmayan və bütün bəşəriyyət üçün göz dağı olan uşaq əməyinin istismarı problemini təəssübkeş şair "Maşın silən uşaqlar" şeirində təqdim edir. "Bəs biz kimik? Maşında sağ-sola şütüyənlər // Onlara göz bərəldib, "çəkil burdan" deyənlər, // Qovduğumuz körpələr kimdir? – Gələcəyimiz! // Bu günümüzdən deyil, məchul sabahımızdan // Qovuruq o günahsız körpələri bu gün biz.".[7]

---

[1] İnternet saytı. filosof.historic.ru

[2] Azərbaycan klassik ədəbiyyatı. 10 cilddə.VII c. Füzuli.B.,1986.s.128

[6] Nizami Gəncəvi.Sirlər xəzinəsi.(Filoloji tərcümə)B.,1981.s.268

[4] Azərbaycan klassik ədəbiyyatı. 10 cilddə.VII c. Füzuli.B.,1986.s.15

[5] Volter. Filosofskiye povesti.Leninqrad,1998.s.47

[6] Bəxtiyar Vahabzadə.Seçilmiş əsərləri.İki cilddə.I c.B.,2004.s.139

[7] Bəxtiyar Vahabzadə.Əsərləri.10 cilddə.6-ci c.B.,2003.s.516

Böyük humanist şair cəmiyyətdə "sevgisizlik"dən ortaya çıxan "lazımsız insanlar" problemini "Atılmışlar" poemasında yüksək poetik formada qələmə alır, boyük məhəbbətlə təsvir etdiyi kimsəsizlərin psixoloji vəziyyətini insansevərlik müstəvisindən analiz edir. Bu əsəri daxili titrəyişsiz və göz yaşlarsız oxumaq mümkün deyil. Həyatlarının əvvəlində - körpələr evində, həyatlarının sonunda qocalar evində "atılmışlar"ın taleyinə acıyan şair belə deyir: "Tapar bir-birini sınıq ürəklər,// Tapar bir-birini iki atılmış.// Atılmış! Atılmış, həqiqətdir bu – // Birinin əvvəli, birinin sonu". Həyatlarının axırını qocalar evində keçirməyə məhkum olan qocaları sanki əzizləyən şair deyir: "Sındırmır özünü, axı, nə gərək?//. Sirrini içində saxlayır qoca.// Elə ki yatağa girir, sübhədək // Yorğanın altında ağlayır qoca".[1] Əsərdə insanpərvər şairin qocalara da, uşaqlara da məhəbbəti ağrılı, nisgilli məhəbbətdir. Uşaqları övladlığa götürməyə gələn olanda körpələr evində baş verənləri şair qəlb ağrısı ilə belə təsvir edir: "Çiçi paltarını geyinir o gün,// Hələ güzgüyə də baxır uşaqlar.// Bəzənir, düzənir... Bəyənilməkçün // Görün nə oyundan çıxır uşaqlar.// Yanaşır qadına...// Baxır üzünə.// Baxışda yalvarış, baxışda üsyan.// Baxır matdım-matdım, O, dönə-dönə,// Baxışlar qışqırır:"Mən sənin balan!"// Ağır...Bu mənzərə nə qədər ağır!// Ürəklər çırpınır...Gözlər intizar.// Burda özlərinə ana axtarır // Ana qucağına həsrət balalar".[2] Ata-ana sevgisindən məhrum, "hamıdan çəkinən", "sınıq ürəkli", gözləri qapıda qalan körpələrə dayə məhəbbəti yox, həqiqi məhəbbət arzulayan şairin urək sözləri bütün insanlara ünvanlanıb: "Ana sevgisinə körpə həsrəti // Kim deyir ən böyük bir həsrət deyil?! // Dayənin sığalı, adi hörməti//Vəzifə borcudur, məhəbbət deyil".[3] Poemada hadisələrin təsvirində şair passiv iştirakçı kimi çıxış etmir. Biz onu hadisəiərin inkişafında insanların acı qismətinə ürəyi yanan insan görməklə bərabər, həm də bu adamların müdafiəçisi və onların haqqını tələb edən hakim görürük. Humanist şair, eyni zamanda, əyilmiş vicdanları mühakimə edən hakimdir: "Məhkəmə qurulsun! Atılmışların // Uzaq, gözdənuzaq sığınacağında. // Vicdanlar əyləşsin o gün hakimin //Biri sol yanında, biri sağında. // Məhkəmə qurulsun, hökm verilsin,// Hər kəs haqqını yox, borcunu bilsin! // Balasını atan analar ilə //Anasını atan balalar gəlsin".[4] Vicdanları mühakimə edən şair–hakim müttəhimlərdən ancaq bir borcun ödənilməsini tələb edir - sevgiyə, qayğıya ehtiyacı olanlara ancaq sevgiylə haqqın qaytarılmasını! İnsanpərvərliyin, humanizmin devizi, bütün aləmin, kainatın və insan həyatının mahiyyəti olan sevgiylə!

Adiliklər içərisində qeyri-adiliyi görmək bacarığı var idi həssas qəlbli şairdə. O, gündəlik həyat axarında bəlkə də heç kəsin görə bilmədiyi incə məqamları tapırdı. Tapdığını fəlsəfi təfəkkür süzgəcindən keçirib bədii cildə salırdı. "Karusel" şeirində insanların ümumi şənliyi fonunda heç kəsin diqqət yetirmədiyi bir "ştrix" şairin diqqətini cəlb edir. Nə idi şairin diqqətini çəkən? Karuseldə fırlanan uşaqlar özlərini xoşbəxt hiss edirlər, valideyinlər də uşaqların sevuncinə qatılıblar. Karusel fırlandıqca sanki dünya da uşaqları əzizləyib tumarlayır, onların başına dolanır. "Hələlik cahanın başına siz yox, // Sizin başınıza dolanır cahan" – deməklə müəllif, böyüdükdə uşaqların həyatın sınaqlarına tuş gələcəklərini, dünyanın çək-çevirinə düşəcəklərini vurğulayır. Ümumi səs-küylü şənlik səhnəsinin içərisində tənha uşaq obrazı görünür. Kütləyə qoşulmayan fərdin fiziki tənhalığı ahəngdarlığı pozur. Belə ki o, meydançaya tək gəlib və yanında onu karuselə mindirəcək bir kəs yoxdur. Ata-anasının onun yanında olmaması və ona görə də karuselə minə bilməməsi faktı şeirə faciəvi çalar verir. "Bütün bu şənlikdən uzaqda ancaq // Barmağı ağzında durub bir uşaq".[5] Nə üçün uşaq tənhadır? Şair səbəbini göstərmir, bunu oxucunun öz öhdəsinə buraxır. Əslində, şairin məqsədi uşağın tək gəlməsini göstərmək deyil, hərçənd bu fakt da həssas şairin qəlbini incidir. Şeirdə əsas məqsəd uşaq psixologiyasını böyülklər üçün gözlənilməz yöndən açmaqdır, onun təbiiliyini və mühitlə ahəngdarlığının gözəlliyini göstərməkdir. B.Vahabzadə yaradıcılığında duyulan səmimiyyət bu şeirində apoqey nöqtəsinə çatır. Şeirdəki gözlənilməzlik nədən ibarətdir? İlk baxışda düşünülə bilər ki, uşaq karuselə minə bilmədiyi üçün ya ağlayacaq, ya da kefsiz dayanıb həsrətlə karuseldəki uşaqlara baxacaq. Ancaq

[1] Bəxtiyar Vahabzadə. Seçilmış əsərləri.II c. B.,2004.s.24
[2] Orada.s.249
[3] Orada.s.247
[4] Orada.s.252
[5] Bəxtiyar Vahabzadə.Seçilmiş əsərləri.İki cilddə.I c.B.,2004.s.26

əsla, yox! Heç bir paxıllıq, həsəd hissi olmayan saf uşaq qəlbi şənlənən uşaqların emosiyalarını özündə əks etdirir, saf aynada olduğu kimi. Uşağın psixoloji durumunda dinamiklik yaradan pozitiv emosiyalar həm də onun təxəyyülünü – fantaziyasını aktivləşdirir. Uşaq fiziki olaraq karuseldə fırlanmırsa da, təxəyyülündə uşaqlarala bərabər fırlanır, onlarla bərabər gülür, "o da xoşhallanır, həzz alir gendən, duyur fırlanmağın xoş olduğunu". Onun hisslər aləmində yaşantısı o qədər güclüdür ki, seyr etdikləri ilə psixoloji-emosional hala daxil olur. Və belə identiklik şeirdə təbii və inandırıcı görünür. Bu uşaq böyüklərin bacarmadığını edir - öz həmcinslərinin xoşbəxtliyinə qoşulur, onların emosional halını yaşayır və başqalarının sevincindən sevinc payı almağı bacarır! Uşaq qəlbinin, mənəviyyatının saflığı, təbiiliyi, bütövlükdə, insan fenomeninin gözəlliyi məhz belə identiklik halında özünü göstərir. "Ancaq o xoşbəxtdir...// O qəlbə mən də // Heyranam...// Ey könül, düşün, düşün sən. // O, həzz ala bilir özgəsinin də // Həzzindən, zövqündən, səadətindən!..."[1] Burada özgələrin səadətinə qoşula bilməyən böyüklərə qinayıcı müraciət, şairin özü də qarışıq, bütün insanlara bir örnək var. Paradoksal bir vəziyyət görünməkdədir – oxucu tənha uşağa acımalıdır sanki. Lakin bir psixoloq kimi çıxış edən şair başqa effekt yaratmağa nail olur - o, böyük ustalıqla əqrəblərin istiqamətini tərsinə çevirir. Oxucu öz qəlbinə baxaraq mənəviyyatının kasadlığına görə məhz özünə acıyır.

Bəxtiyar Vahabzadə fəlsəfəsi insansevərlik fəlsəfəsi, humanizm fəlsəfəsidir. İnsansevərlik nöqteyi-nəzərincə, həyatda insan faktoru ən dəyərli şeydir. Və bu dəyərə hər hansı bir formada, məişət səviyyəsindən qlobal planetar miqyasa qədər, təcavüz aktı, insansızlığın, mənəviyyatsızlığın təzahürüdür. Humanizm fərdlə çoxluq arasında, insanla bəşəriyyət (insanlar toplusu) arasında körpüdür. Belə körpu "mən" hüdudlarını "biz" hüdudlarına pərçimləyir, onları vahidə - bütövə çevirir. Həmin vahid Bahabzadə düşüncəsində Vətəndir.

Bir bütövdür bu Vətən
Bunu bilmir hər yetən.
Yaşamasa səndə mən,
Yaşayammaz səndə biz. [2]

Onun humanizminin zirvəsi Vətən sevgisində bərq vurur. Bir millətin övladları bir sevgi, bir ideya ətrafında birləşə bilməsələr, Vətənin bütövlüyü yaşanılmaz. Həqiqi vətənpərvərlik humanizm, insansevərlik müstəvisindən başlanğıc götürür. Vətəndaş-şairi qəzəbləndirən insanların düşüncəsinin darlığı, həqiqi vətənpərvərlikdən uzaqlığıdır. "İş gücümüz didişməkmi? // Leş üstündə didişərlər...Vətən leşmi? // Bölünməmiş nəyimiz var? O, vətəndir! // O, həm səndir, o, həm məndir. // Necə bölək məni, səni // Necə bölək bu Vətəni?"[3]Humanist şair insanı, yaşından, əqidəsindən, bu və digər sosial qrupa aid olmasından asılı olmayaraq, fundamental dəyər kimi mənalandırır. Məsələn, "Şəhidlər" poemasına nəzər salaq. Xalqımızın milli azadlıq hərəkatının qan selində boğulduğu 20 Yanvar faciəsinin təsvir edildiyi "Şəhidlər" poeması çox aspektdən təhlil edilə bilər və edilməlidir. Poemanın ən ağrılı səhnəsi belədir – bətnində övlad gəzdirən Fərizə ərinin ölüm xəbərini eşidib canına qəsd edir. Şair dərin qəlb ağrısı ilə ananın və hələ doğulmayan körpənin itgisinə acıyır. Doğulacaq insanın tələf olması humanist şairi çox yandırır. Hər bir insan varlığını bir fenomen kimi dəyərləndirən şair həmin körpənin daşıya biləcəyi potensial imkanlarını düşünür: "Sən, axı, ərinə sədaqətinlə // Körpənə xəyanət elədin, qızım. // Sınayır bəndəni Allah, çətində // Batdın bir günahda iki günaha. // Xəyanət işlədin sədaqətində // Körpəyə qıymaqla qıydın sabaha.//Bəlkə... açılmamış solan o gözlər // Ulu zirvələrə yol açacaqdı. // Bəlkə o gözlərdən doğacaq səhər, // Zülmət dünyamıza yol açacaqdı.".[4]

Azərbaycan mədəniyyəti tarixində Bəxtiyar Vahabzadə fenomeni müasir poetik düşüncənin ən yüksək plankasını təşkil edir. Onun yaradıcılığı insansevərlik, humanizm prinsiplərinə dayaqlanan fəlsəfi görüşləri ifadə etdiyi üçün nəinki öz vətənində, Azərbaycanın sərhədlərindən uzaqlarda - həqiqət nəfəsli, dərin düşüncə və səmimi duyğulu, yüksək poetik dəyərli sözə ehtiyac duyulan hər yerdə sevilir. Zaman dəyişəcək, dövrlər bir-birini əvəz edəcək, amma Vahabzadə poeziyası nə zaman, nə də məkan hüdudlarının çərçivələrinə sığmayacaq!

---

[1] Orada.s.28
[2] Bəxtiyar Vahabzadə.Əsərləri.10 cilddə.6-ci c.B.,2003.s.661
[3] Orada.s.319
[4] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri.II c. B.,2004.s.303

B XT YAR VAHABZAD N N U AQ V M KT B DÜNYASI

jd r A AYEV
Prof. Dr., Qafqaz Universiteti
Bakı / AZƏRBAYCAN
ajdar1937@box.az

XÜLAS

Türk dünyasının ünlü şairi Bəxtiyar Vahabzadənin yaradıcılığı həyatın, insanın, insan düşüncəsinin bədii sözün qüdrəti ilə qələmə alınmış əsrarəngiz təqdimatıdır.

Məqalədə şairin zəngin irsindən yalnız bir istiqamətə-onun uşaq və məktəb, müəllim və təhsil haqqında yazdığı şeirlərin təhlilinə yer verilmişdir. Şair yaradıcılığa başladığı ilk illərdən uşaqlar üçün maraqlı şeir nümunələrini meydana qoymuş, illər keçdikcə təhsil, müəllim, məktəb haqqında fikirlərini, onların cəmiyyətdə rolunu poetik tərənnümlə əks etdirmişdir.

Məqalədə şairin bəhs edilən mövzuda yazdığı "Körpə nəfəsi", "Analar, dayələr", "Günəş və Mən", "Məktəbli qız", "Yazı taxtası", "Birinci zəng", "İlk dərs", "Mənim parta yoldaşım", "Müəllim" və digər şeirlərindən nümunələr təhlil edilir, Bəxtiyar Vahabzadə yaradıcılığında uşaq, məktəb, müəllim mövzusunun sosial-pedaqoji və poetik-fəlsəfi mahiyyəti şərh olunur.

Açar Sözl r: Bəxtiyar Vahabzadə, uşaq və məktəb dünyası, müəllim, sənətkarlıq, bədii söz.

Творчество известного в тюркском мире поэта Бахтияра Вагабзаде является волшебным воспеванием жизни, человека, человеческой мысли, вышедшим из-под пера автора благодаря могуществу художественного слова.

Статья посвящена только одному направлению богатого творческого наследия поэта – анализу стихов, посвященных детям и школе, учителю и образованию. С первых дней своего творческой деятельности поэт создавал вызывающие живой интерес детей стихи, а с годами стал в поэтической форме излагать свои мысли об образовании, педагогах, школе и их роли в обществе.

В статье проведена разборка отрывков таких посвященных этой теме стихов поэта, как «Дыхание ребенка» («Körpə nəfəsi»), «Матери и няни» («Analar, dayələr»), «Солнце и я» («Günəş və mən»), «Школьница» («Məktəbli qız»), «Школьная доска» («Yazı taxtası»), «Первый звонок» («Birinci zəng»), «Первый урок» («İlk dərs»), «Мой школьный друг» («Mənim parta yoldaşım»), «Учитель» («Müəllim»), сделан анализ социально-педагогической и философско-поэтической сущности написанных на тему ребенок, школа, учитель стихов в творчестве Бахтияра Вагабзаде.

: Бахтияр Вагабзаде, ребенок и школьный мир, учитель, мастерство (виртуозность), художественное слово.

BAKHTIYAR VAHABZADE CHILD'S AND SCHOOL WORLD

SUMMARY

Creation of Bakhtiyar Vahabzade, famous Turk poet, is an unexampled presentation of life, human, human sense written by the power of artistic pen.

Analysis of only one direction – child and school, teacher and education-from the rich heritage of the poet has been emphasized in this article. At the first years of his creation the Poet wrote many interesting poems for children and praised education, teacher, school ideas and their role in the society.

Examples from "Kid's breath", "Mothers, nurses", "Sun and I", "Schoolgirl", "Blackboard", "First bell", "First lesson", "My classmate", "Teacher" and other poems he write being a prisoner were analyzed in this article. This article reflects socio-pedagogical and poetic-philosophical essence of child, school and a teacher theme at the creation of Bakhtiyar Vahabzade.

Key Words: Bakhtiyar Vahabzade, child and school world, teacher, mastery, graphic word.

Giri

Bəxtiyar Vahabzadə mövzu rəngarəngliyi, üslub gözəlliyi, sənətkarlıq məziyyətləri, yüksək ideya-mənəvi məsləki, fəlsəfi düşüncələri ilə seçilən, Türk dünyasında sevilə-sevilə oxunan qüdrətli söz ustadıdır. Onun yaradıcılığında uşaq və məktəb dünyası önəmli yer tutur. İstər uşaqlar üçün yazdığı şeirlərində, istərsə də ibrətamiz fikirlər, sosial mənzərələr, fəlsəfi baxışlar sərgiləyən əsərlərində, hətta, publisistik yazılarında uşaq, məktəb, müəllim mövzusu şairin mənəvi aləminin tələbatı kimi meydana çıxır.

Sənətkarın yaradıcılığına diqqət yetirdikdə öncə kiçik yaşlı, daha sonra yeniyetmə və ilk gənclik yaşını keçirən uşaqlar üçün yazdığı şeirlər diqqəti cəlb edir. Məktəb və müəllim mövzusu isə həm real, həm də müstəqim yanaşmada öz əksini tapır. Reallıq bundan ibarətdir ki, şair təhsil ocağının, orada oxuyan şagirdlərin, dərs deyən müəllimin məziyyətləri haqqında müşahidələrini təcəssüm etdirir. Müstəqim anlam isə şairin hikmət sahibi, həyat hadisələrini təşrih edən, insanları səciyyələndirən, yol göstərən, dəyər verən, tərbiyə edən, istiqlal və azadlıq ruhunu yayan mübariz müəllim missiyasında görünməsidir. Sənətkar kiçik yaşlı uşaqlar üçün yazdığı şeirlərində balacaların əhvalını, qəribəliklərini, təəccüblərini qələmə alır, eləcə də, onlara insanlar, insanlıq, ətraf aləm haqqında bilgi verir. Şair nəinki məktəbi, hətta, sinif otaqlarını tərənnüm edir.

Sənətkarın "Şəfəqin arzusu", "Sinif-həyat", "Birinci zəng", "Aynası bol, daşı az", "Qəbələ məktəbi", "Sevinc gətirmişəm", "Mən ki, qara deyiləm", "Körpə gülüşü" və digər onlarla şeirində uşaqların bənzərsiz, al-əlvan dünyası, uşaqları sinifdən-sinfə keçdikcə qucağına alan sinif otağı, müəllimin şəfqətli, əvəzsiz əməyi sənətkarlıqla tərənnüm olunur.

Bəxtiyar Vahabzadə yaradıcılığı uşaq dünyasını al-əlvan çiçəkləri ilə gözəlləşdirən gülüstandır. O, cəmiyyətdə, təbiətdə, fəaliyyətdə baş verən müşahidə etdiyi prosesləri sosiallaşdırır və bunu öyrənc mənbəyinə çevirir.

U aq v m kt b dünyasını ks etdir n poetik nümun l rin t hlili

Bəxtiyar Vahabzadənin şair – vətəndaş olaraq maraq dairəsində insanların dünyaya gəlişindən əbədilik dünyasına qovuşana qədər ömür yolu dayanır. Filosof şairin yaradıcılıq laboratoriyası bu zəngin həyatın müxtəlif anlarını, məzmun çalarlarını, insan münasibətlərini öyrənir, aldığı ictimai-fəlsəfi nəticələri poeziyanın ruhlandırıcı dili ilə bəyan edir.

Qüdrətli sənətkarın uşaq və məktəb dünyasında da əsas sima insandır, insan münasibətidir, insanın öyrənməsi və öyrətməsidir, insanın yüksəliş yolunun tərənnümüdür. Şairin "Körpə nəfəsi" adlı şeirində həzin, qəlbi riqqətə gətirən, təbiətən mövcud olan ana – körpə məhəbbəti dayanır. O, bu şeirində ananın körpənin beşiyi üstdə əyilməsi ilə ana önündə cahanın əyilməsi oxşarlığını təqdim edir. Şair "dünyada ən incə, ən pak nəğmədir körpə mışıltısı, körpə nəfəsi" deyərək, dünyaya gəlmiş yeni insanın paklığını, saflığını nəzərə çatdırır. Eyni zamanda, anaların uşaqları üçün yanan qəlblərini onların ömür yollarını işıqlandıran nura bənzədir:

Beşiklər üstündə bir çıraq təkin
Analar sübhəcən ürək yandırır.
Yanan ana qəlbi öz körpəsinin
Ömür yollarını işıqlandırır[1]

Bəxtiyar Vahabzadəyə görə, uşağın sağlam ruhlu, nikbin böyüməsində ana məhəbbətinin əvəzsiz rolu vardır.

""Analar, dayələr" şeirində şair müşahidəsinin dəqiqliyi, sənətkar sözünün həqiqiliyi analarımıza böyük bir həyat dərsliyindən xəbər verir. Şair yazır:

Ana sevgisinə varmı bir əvəz?
Böyüdür balanı o qaynar həyat.
Dayənin sığalı, nəvazişləri
Körpə ürəkləri isidə bilməz.

Ana sevgisinə körpə həsrəti,
Kim deyir ən böyük xəyanət deyil.
Dayənin sığalı, eşqi, hörməti,
Vəzifə borcudur, məhəbbət deyil.

Körpənin oyunu, nazı, şıltağı,
Dayənin gözündə qüsurdur, əlbət,
Ana məzəmməti, ata danlağı
Ancaq məhəbbətdir, ancaq məhəbbət" [2]

[1] Vahabzadə Bəxtiyar. Əsərləri. III cild. Bakı, 2005, s.84
[2] Ağayev Əjdər. Həyatın astanasında. Bakı, 1983, s.63

Göründüyü kimi, sənətkarın yanar qəlbi körpə-ana məhəbbətinin təbiiliyini, ana qayğısının əvəzsizliyini böyük bir hərarətlə duyur və milyonlara bəyan edir.

Şair boy atan, böyüyən uşağın dil açması, ətrafında gördüklərini öyrənməyə çalışması, təbiətin ona qəribə görünən sirlərini bilmək cəhdi və digər əxlaqi-mənəvi keyfiyyətləri haqqında yazdığı şeirlərdə uşaqların daxili aləminin, düşüncəsinin qəribəliklərini əks etdirir. "Günəş və Mən" şeirində uşağın özü ilə zaman baxımından Günəşi müqayisə etməsi uşaq təfəkküründün məntiqi ifadəsi kimi oxucunu təəccübləndirir. Uşaq deyir:

... Səhər-səhər göylər nura boyanır,
Günəş məndən tez oyanır...
Bircə şeyi unutmasın Günəşim –
Axı ondan gec yatıram mən hər gün[3].

Göründüyü kimi, şair uşağın boy atdıqca maraq dairəsi və təfəkküründün genişləndiyini göstərir.

Uşaq böyüyür, məktəb yaşına çatır, məktəb yolu ilə addımlayır, sinif otağına daxil olur, sinif yoldaşlarını tanıyır, müəllimdən dərs alır, sinifdən-sinfə keçdikcə, pillə-pillə yüksəlir, nəhayət, həyat yoluna düşür. Bütün bu proses Bəxtiyar Vahabzadənin uşaq və məktəb dünyasının həm mənzərəsini, həm də dinamikasını təşkil edir. Şair məktəb yollarını insanın getdiyi yolların ən şərəflisi sayır. Məktəb yollarını insanı xoşbəxtliyinə aparan yol kimi dəyərləndirilir. "İlk cığır" şeirində o, uşaqlara müraciət edərək:

Get, ey yavrum, qəlbini gələcəyə bağla sən.
Cocuqluq həyatının ən qayğısız çağıdır.
Açılmış cığırlarla bu gün dərsə gedirsən,
Sabah sən açacaqsan bu yollarda ilk cığır[4].

Şairin "Məktəbdən ayrılanda", "Yenidən məktəbə", "Məktəb yolları", "Məktəbli qız" və digər bu qəbilli şeirlərində uşaqların biliklərə yiyələndikləri təhsil ocaqlarına dərin məhəbbəti öz əksini tapır.

Sənətkarın məktəbli qıza müraciətlə yazdığı "Məktəbli qız" şeirində filosof-şair Hüseyn Cavidin "Qız məktəbində" adlı şeirinin ruhu duyulur. Hüseyn Cavidin ədəbi qəhrəmanı məktəbli qız altunlardan, brilyantlardan, ipək geyimlərdən sadə, təbii geyimi daha üstün tutur. O, Allahını, peyğəmbərləri, müəllimini, məktəbi sevir. Bir qızın bəzəyi sadəlikdir, - deyir.

Bəxtiyar Vahabzadənin şeirində isə belə bir mükalimə yoxdur. O, müşahidə etdiyi məktəbli qızın sadə geyimdə gözəl görünüşünü müşahidə edir və onun təhsil səylərini, dərs hazırlığını təqdir edərək, yüksək dəyərləndirir:

Sən məsələ həll edəndə
Tər üzündən axır dən-dən.
Bu danələr qiymətlidir
Min pay soyuq mirvaridən.

Sənə üzük nə gərəkdir
Hələ deyil onun yeri.
Barmağının üzüyüdür
O mürəkkəb ləkələri.

Bəxtiyar Vahabzadə sanki məktəb, elm, təhsil aşiqidir. Onun məktəb anlayışı sinif otaqlarını, yazı taxtasını, kitabxananı, kitabları, zəng səsini, ayrı-ayrı fənn dərslərini və nəhayət, bütün bunların fövqündə dayanan, bu prosesi quran və idarə edən müəllimi əhatə edir. Şair "Yazı taxtası" şeirində onu mənalandıraraq, şagirdin yiyələndiyi bilik və bacarıqlarının nümayişi vasitəsi kimi səciyyələndirir. Şairə görə, yazı taxtasında yazılan rəqəmlər, sözlər yenisini yazmaq üçün silinsə də, öz nəticəsini şagirdə verilən vəsiqədə əks etdirir və şairə görə bütün o rəqəmlər, bütün o sözlər ömür yolunu göstərir.

[3] Vahabzadə Bəxtiyar. Əsərləri. IV cild. Bakı, 2002, s.107
[4] Vahabzadə Bəxtiyar. Əsərləri. III cild. Bakı, 2005, s.17

Şairin uşaq və məktəb dünyasında məktəb zənglərinin səsi də eşidilir. O, "Birinci zəng" şeirində qızı balaca Şəfəqə müraciətlə deyir:

Birinci zəng səsi! Səni indidən
Aparır gələcək, gözəl günlərə.
O səni çağırır sonuncu zəngdən
Sonra başlanacaq toy-düyünlərə.

Şairin sinif otaqlarını poetik mənalandırması onun bir çox şeirində diqqəti cəlb edir. Şair bildirir ki, insan ömrünün ilk çağı sinif otağında keçir. Bu otaq ən böyük diləklərin başlanan yolunu müəyyənləşdirir və haqlı olaraq qeyd edir ki:

Bu yol sonsuzdur,
Ancaq zirvələrə ucalır.
Bu yol gözə görünmür
Beyinlərdə iz salır.

Böyük sənətkarın məktəb dünyasında ilk dərsin də böyük mənası vardır. O, "İlk dərs" şeirində yeni dərs ilinin başlanmasını və ilk dərsin insanı ucaldan, kamala çatdıran yüksəliş pilləsində ilk pillə olduğunu mənalandırır. Digər tərəfdən, şair birinci sinfin ilkinlik özəlliyini meyadana qoyaraq, ilk dərslərdən başlayaraq, Ana, Ana Vətən kəlmələrini öyrənmələrini ilkin vətəndaşlıq rəmzləri hesab edir.

Bəxtiyar Vahabzadənin uşaq və məktəb dünyasında kitabın əhəmiyyəti, kitabın öyrədici mahiyyəti, kitabın hər yeri "gəzə bilməsi", kitabın insana dost, yoldaş olması, öz şirin söhbətlərindən usanan, yorulan olmaması, hər bir şeydən xəbər verməsi, doğru yol göstərməsi poetik tərənnümlə təqdim edilsə də, ciddi pedaqoji mahiyyət daşıyır. Şair:

Kitab sənə müəllimdir,
Sinəsində min aləm var.
O, səni bir insan kimi
Gah güldürər, gah ağladar,

- deməklə, kitabın bəşəri mahiyyətini ortaya qoyur.

Şərqin böyük mütəfəkkir insanı Nəsirəddin Tusi yazırdı ki, məktəbdə dərs oxuyan şagirdin həmdərsi olmalıdır. Çünki dərs yoldaşı olan iki uşaq bir-biri ilə mükalimə, diskussiya apara bilir. Bununla da biliklərini möhkəmləndirirlər. Eyni zamanda, həmdərs – dərs yoldaşı məsləhətləşmələr, birlikdə fəaliyyət göstərmək, xoş xatirələri bölüşə bilmək, dostluq məziyyətlərinə yiyələnmək üçün də əhəmiyyətlidir. Bəxtiyar Vahabzadənin "Mənim parta yoldaşım" şeirini yazarkən N.Tusinin qeyd etdiyimiz fikirlərini nəzərə aldığını deyə bilmərik. Lakin bu həqiqətdir ki, hər iki filosof-alim, sənətkar, elm və söz ustadının "parta yoldaşı" ideyasını irəli sürdüklərini deyə bilərik.

Şair "Mənim parta yoldaşım" şeirində məktəb illərinə qayıdır, o günləri, parta yoldaşını xatırlayır:

Bir yerdə nahar etdik, şam elədik çox zaman
Hər arzumu bilərdin sən mənim baxışımdan.
Hər gün səhər küçədən sən məni səsləyərdin
"Sən mənə yoldaş deyil, bir qardaşsan" deyərdin.
Bizə görə dost idi, atalar, analar da
İllər ötdü, bəs indi sən hardasan, mən harda?!

Nəhayət, xatirələrini ümumiləşdirən şair yenə məktəb partasını yada salır:

Keçsə də gəncliyimiz
Ayrı-ayrı diyarda,
Qalmış uşaqlığımız
O taxta partalarda... – deyir[5].

[5] Vahabzadə Bəxtiyar. Əsərləri. III cild. Bakı, 2005, s.90-91

Bəxtiyar Vahabzadənin yaradıcılığında müəllim mövzusu önəmli yer tutur. O, ona dərs demiş, unudulmaz müəllimi Səidə İmanzadə haqqında böyük şəfqət və məhəbbətlə danışır. Müəllimindən dərs aldığı illərdən xeyli ötsə də, şair özü də bir müəllim olaraq çalışsa da, müəlliminin qarşısında özünü yenə də tələbə sanır. Müəllimi ilə rastlaşan şair:

Tutdu onun zəhmi yenə də məni,
Qızardım, bozardım yenə utandım.
Müəllim olsam da, onun önündə
Özümü yenə də tələbə sandım,

-deyə etirafını bildirir.

Görkəmli sənətkarın müəllim mövzusunda yazdığı şeirlər sayca çox olduğu kimi, məzmunca da geniş, müxtəlif çalarlıdır. Onun həyata, insanların gələcəyinə, inkişafa münasibəti müəllim əməyinin tərənnümündə əks olunur. O, məsləkdaşı Misir Mərdanova həsr etdiyi "Müəllim" şeirində müəllim əməyinin böyük ictimai dəyərini, müəllimlik peşəsinin insanın biliklərə yiyələnməsi, tərbiyə olunması və şəxsiyyətcə formalaşmasında əvəzsiz rol oynamasının bədii təqdimatını verir. Şair müəllimi "körpə könüllərdə məşəl yandıran", "hamar beyinləri cilalandıran", "tez durub, gec yatan", "sabahı bu gün yaradan", "düşüncə güllərini əqillə suvaran", "insanı göylərə qaldıran", "xəyala qol-qanad, gözə nur verən" ustad kimi səciyyələndirir. O, bu şeirdə, eyni zamanda, müəllimin fəaliyyət yeri olan məktəbin cəmiyyətin inkişafında əvəzsiz rola malik olduğunu bildirir. "Məktəbi hər şeydən üstün millətin, hər yerdə, hər işdə zəfəri haqdır" – yazır.

Şair bədii sözün imkanları daxilində müəllim obrazını yaratması ilə kifayətlənmir. O, müəllimin heykəlini yaratmaq üçün heykəltaraşa müraciət edir:

Gəl ey heykəltəraş! Bu mərmər, bu gil...
Düşün müəllimi, sonra alış, yan.
Onun heykəlini mərmərdən deyil,
Yarat özü kimi nurdan, işıqdan[6].

Fikrimcə, bu obrazlı misraları şairin özünə aid etmək yerinə düşər. Sənətkarın nurdan, işıqdan yaranmış əbədiyyət heykəli öz gözəllikləri, cazibəsi, düşüncəsi, sənətkarlıq qüdrəti, vətəndaşlıq qeyrəti ilə bütün Türk dünyasına nur yayır.

N tic

Bəxtiyar Vahabzadənin zəngin yaradıcılıq irsində uşaq və məktəb dünyası, müəllim obrazı geniş yer tutur. Bu mövzuda yazdığı bütün əsərlərdə təhsili inkişafın əsas vasitəsi hesab edir, məktəbi təhsil ocağı kimi yüksək dəyərləndirir, müəllimin şəxsiyyətlərin və bütövlükdə cəmiyyətin formalaşmasında əvəzsiz rola malik olduğunu göstərir. O, sadəcə müşahidə etdiyi sosial və pedaqoji prosesləri deyil, eyni zamanda, mənəvi dəyərlərin insanın kamillik yolunda mühüm əhəmiyyət daşıdığını qeyd edir. Filosof-şair fəlsəfi düşüncələrinin, həyatın fəlsəfi mənasının reallığını – praktik həllini pedaqoji prosesdə görür.

Bəxtiyar Vahabzadənin uşaq və məktəb dünyası insan dünyasını işıqlandıran həyati örnəkdir.

D B YYAT

1. Vahabzadə Bəxtiyar. Əsərləri. III cild. Bakı, 2005
2. Vahabzadə Bəxtiyar. Əsərləri. IV cild. Bakı, 2002
3. Vahabzadə Bəxtiyar. Əsərləri. VI cild. Bakı, 2003
4. Ağayev Əjdər. Həyatın astanasında. Bakı, 1983
5. http://www.muallim.edu.az/arxiv/2007/n38/ardi1.html

[6] http://www.muallim.edu.az/arxiv/2007/n38/ardi1.html

BAHT YAR VAHAPZADE'N N DÜNYA GÖRÜ Ü I I INDA ÇOCUK E T M

ahnaz ARAS

ÖZET

İnsan, bu dünyada en büyük savaşı kendi ile verir. Nasıl bir şahsiyet olacağını bilmeden var olma savaşı içindedir. Yetkinlikleri, ortamı, yaşadıkları, şahit oldukları, öğrendikleri ve gözlemledikleri ona yön bulmada ışık olur. Her insan bu ışıktan iradesi dahilinde faydalanır. Kimi bir günlük isteği, kimi bir sürelik isteği, kimi arzuları, kimi ömürlük isteği, kimi ise tarihe mal olacak idealleri uğruna bu ışığı kullanır.

Toplumlar da bu savaşı veren insanlardan oluşur. Bir toplumun selahiyeti içindeki savaşta galip gelen bireylerin çok olmasından gelir.

Toplumlara da insanlar gibi yön veren etkenler vardır. Bu etkenlerin en önemlisi de toplumun içinde yer alan, kendi savaşını yenmiş insanlardır. Bu nedenle de toplumu oluşturan bireylerin çocukluktan itibaren aldıkları eğitimin yeri bir anlamda toplum için var olma mücadelesinin merkezidir.

Bu noktada, bulunduğu topluma yön verme görevini hakkı ile yerine getiren Bahtiyar Vahapzade, önce Vatan-Bağımsızlık ardından ise Adalet-İnsanlık, olgusunda bu ışığını kullanıp büyük bir aşkla tüm Türk toplumlarına haykıran güçlü bir ses olmuştur.

Bu nedenle de Bahtiyar Vahapzade gibi acılarla yoğrulup erdemi seçebilenlerin büyük şahsiyetler olduğunu kimse inkar edemez. Onları tarih her zaman saygıyla anar. Her büyük şahsiyet gibi Bahtiyar Vahapzade'nin de, zamanında yaşamanın yanı sıra zamanının çok ötesinde de yaşadığını şu mısralarında görüyoruz:

Koy zaman ölçüsü zamanın olsun, bu ölçü ters düşer isteğimize.
Gün var ki yıldan da uzundur, uzun, yıl var ki günden de kısadır bize.

Anahtar kelimeler: Çocuk, adalet, vicdan, insanlık, eğitim.

Büyük Şair bize hayatını anlatırken onu çocukluğunda çok fazla üzen, derinden yaralayan olayları da aktarıyor. Evet, o büyük şair, büyük şahsiyet, Bahtiyar Vahapzade'de bir zamanlar çocuktu. Küçücük bir çocuk! Tıpkı elimdeki şu tohum gibi… Elimdeki tohum o kadar minik ki…

Bu bir tohum, bir çam ağacı tohumu! Bilirsiniz, çam ağaçları 4 mevsim yeşil olmaları ile bilinirler. İğne biçimindeki yaprakları, kış mevsiminde dökülmez.

Müsadenizle, bilinen birkaç özelliğine daha değineceğim: Güzel kokusu pek çok parfüm esansında kullanılır. Çam ağacının tıbbi olarak da pek çok faydası vardır. Özellikle kronik öksürük için mucizevi bir etki sağlar. Astım tedavisinde, balgam ve idrar sökmede çam ağacından yararlanılmaktadır.

Dünya"da 115 kadar çam türü bulunur.

Gövdesi yenilebilen çam ağaçları A - C gibi yüksek vitaminler içerir. Dünya'nın en büyük ağacı olan California'daki dev kızılçam ağacı, 100 metre boya ve 1 metre kalınlığında bir gövdeye sahiptir. Bu ağaçlardan sadece birisinin toplam ağırlığı 200 ton'un üzerindedir.

Bu yaşlı ağaçların yaprakları ve dalları çok azdır ve çoğunlukla da yaralıdır.

Bahtiyar Vahapzade'den bahsedecek iken ben neden çam ağaçlarından bahseder oldum? Derseniz, açıklayayım;

Dünyada insanlar dışında yaşayan birçok canlı vardır. Bu canlıların biz insanlar için önemi tartışılmaz elbette. Dünyadaki Ekolojik dengenin devamı için her birinin kendine özel apayrı bir yeri vardır.

Ben acizane bu insanı, Bahtiyar Beyi, Çam Ağacı ile misallendirmek istiyorum. İnsanın hayata merhaba demesi ve çam ağacının hayata merhaba demesi şu elimdeki minicik bir tohumla başlar…

Ancaaaaakkk…

İnsanı diğer canlılardan ayıran özelliği, insanın yaşadıklarının, öğrendiklerinin etkisi ile aldığı şekli değiştirebilmesidir.

İnsan, bu dünyada geleceği ve varacağı son noktayı bilmez. Sahip olduğu irade ile tüm yaşamı boyunca kendine yön verir ve kendi gerçeğini bulma savaşı içindedir.

Bahtiyar Vahapzade gibi yüksek şahsiyetlerin biz sıradan insanlardan farkı, kendilerinin ulaşacağı en güzel son noktayı bulmuş olmalarından gelir. Diğer taraftan bu şahsiyetlerin çam ağacı ile ortak noktaları görülmeye, hayranlıkla izlenmeye değerdir.

Çam ağaçları kar kış demez yeşilliklerini korurlar…

Yüksek şahsiyetler de acı- sevinç bilmez insanlıklarını korurlar. Erdemleri ile kendilerine hayran bırakırlar. Acılar onları çirkinleştirmez. Acılardan ders çıkarır. Acılarla büyürler. Bu arada da acıların oluş nedenlerini görür, o nedenleri yok etme mücadelesi verirler. Çirkinlikleri unutmaz, her daim hatırlarlar belki, ancak o çirkinliklerin onları yönlendirmesine izin vermezler. Çirkinlerin oluş nedenlerini yok etme mücadelesi vererek tekrarını engelleme savaşı vermeyi yeğlerler.

Tıpkı çam ağacının, tipide de boranda da, güneşte de ayazda da dimdik durarak kendine sığınanlara duvar olması gibi… Varlığıyla hayat vermesi, ölümüyle de şifa dağıtması gibi… Ortam verildiğinde ise dünyanın en büyük ağacı olacak kadar büyüyebilmesi gibi…

Hepimiz biliyoruz ki, Bahtiyar Vahapzade, çam ağacı kadar şanslı olamadı. Beş yaşında şahit olduğu acı manzaralar, vahşetler oldu. Hayatında, hiç unutamadığı bizim bir filmde dahi görünce tüylerimizin ürpereceği olaylara bizzat şahit oldu. Bizlerin bugün haberlerde duyduğumuz olaylardan bile daha iğrenç sahneleri çocuk gözü ile yaşadı. Buna rağmen ise erdeminden ödün vermediği gibi korkup sinmedi de. Yeri geldiğinde tankların karşısına dikilecek kadar cesur da oldu. Peki, şairimiz hiçbir şeyden korkmadı mı derseniz gelin kendi dilinden dinleyelim.

Vicdan

İki yolun ayrımında ben durup
Gah o yandan, gah bu yandan korkarım
Devden değil, sinek kadar gücüyle
Ben kendini dev sayandan korkarım
Hakk evinde hak divanı kurulmuş
Her kazancın öz kiymeti sorulmuş
İddiası boynumuza yük olmuş
Bağışlanan şeref şandan korkarım

Bu dünyadan umacağım mizandır
Korktuğum kes bu mizanı bozandır
Tok herifin kudurması, yamandır
Acandan yok, ben doyandan korkarım

Uyarsak biz nefs adlanan elçiye
Tükürürüz vicdan kesen ölçüye
Odur veren düz, kıymeti her şeye
Vicdanından korkmayandan korkarım

Evet, o da korktu. Ama bizim korkularımız gibi değildi onun korkuları. Çünkü o Ataerkil dönemde yetişti. Çünkü Ataerkil dönem, bizim kafamızda şekillendirdiğimiz gibi bir dönem değildi. Ataerkil dönem vicdan adaletinin her şeyden önde olduğu bir dönemdi. Bu dönemde yetişen çocuklar da her şeyden önce vicdanlı olurlardı. Her ne olurlarsa olsunlar vicdanlarını dinlemeyi bilirlerdi. Haklı olduklarında tankların karşısına dikilir, haksız olduklarında başları önde hatalarının neticesine katlanırlardı.

Nitekim Büyük Usta'ya baktığımızda yaşadığı sürece derdinden dert eksilmediğini, şiirlerinde hep gamı işlediğini görüyoruz. Cemiyeti kemiren, iki yüzlülük, yaltaklık nihayetinde ahlaki değerlerden yozlaşma durumlarını eleştirdiği "Liyakat" başlıklı yazısında sözü edilen hususları şu şekilde aktarıyor:

"Halkımızın dahi şahsiyetleri her zaman yoksul bir hayat sürmüş, daima layık oldukları değerlere uygun olarak hareket etmişler. Şahlar, Hanlar karşısında eğilmemişler. Nizami, bu konuda düşüncelerini ne güzel dile getirmiş: "Şair kapısında padişah, büyüklerin büyüğü, Padişah kapısında Şair ise gedaların gedasıdır.""

Kısacası, Büyük Usta bir çocuğa verilecek en güzel eğitimin güzel ahlak olduğunu her fırsatta dile getirmiştir. Güzel ahlağın da en dikkat çekici yönü hak ve adalet terazisinin dosdoğru oluşudur. Bunu şöyle bir dille açıklamak isterim:

Tabiat kuralı gereği, her canlı gibi insan da minicik bir canlı iken büyür, gelişir. Ancak evrendeki tüm canlılardan insanı ayıran bir özellik vardır: Bu, insanın iradesi ile yapabileceklerinin ona kazandıracağı, ya da kaybettirecekleri gerçeğidir. Bir çam ağacı tohumundan bilinir çam ağacı olacağı ve ne fayda vereceği. Bir zehirli sarmaşık da bilinir. Ama insanın büyüyünce evren'e neler katacağı ya da kaybettirebileceği bilinmez. Bu bilinmezlik nedeni ile eğitim adı altında biz büyükler, küçükleri sürekli kontrol altında tutma ihtiyacı hissederiz. Bu kontrol farklı boyutlarda yaşanır, yaşanmalıdır da. Ancak eğitim, bizden sonrakileri kendimize benzetme çabasına dönüyorsa orada durmalı ve çok iyi düşünülmelidir.

Bahtiyar Vahapzade bize özeleştiri konusunda ne kadar titiz olduğunu ve kendinden memnun olmadığını, her yaptığını düşündüğünü ve irdelediğini, en nihayetinde de gerçekte kendini hiç beğenmediğini şu mısralarla ifade etmektedir.

Başkasının gözünü takaydım öz gözüme, Başkasının gözüyle bakaydım öz özüme,

Onda ayıplarıma özüm düşman olardım, onda ben, ben olardım.

Bu pencereden baktığımızda, gelecek nesillerimiz olan çocuklarımızın davranışlarının bize benzemeleri bizi sevindirmemeli gibi bir sonuca geliyoruz…

Bizim çocukluğumuzda yapamadıklarımızı çocuklarımızın yapabilmelerinin, bizim sustuğumuz yerde onların cesurca konuşuyor olmalarının, biz korkularımız nedeni ile yalan söylerken onların hatalarını hiç utanmadan yüzümüze karşı söylemelerinin… vb. bize hissettirdiği duygunun ne olduğu üzerinde çok iyi düşünmeliyiz.

Kendi iç dünyamızda bir yolculuğa çıkmalı ve bu durumlarda dört önemli duygudan hangisini yaşadığımızı net olarak isimlendirebilmeliyiz.

1- Kızgınlık – Öfke;

Eğer hissedilen duygu öfke ise şunları bilmeliyiz: Bir zamanlar biz de çocuktuk. Bize çocuk iken duygularımızı dürüstçe aktaracağımız ortam verilmedi. Biz de duygularımızı bastırdık. Bastırmanın neticesi olarak da hayatımızda nice zikzaklar çizdik. Hatta herkese hep göstermediğimiz bir yüzümüz oldu ise de içerde başka bir yüzümüz daha oldu. Bazen öyle ki kendimizden iğrendik. Çünkü dışarıda, insanların gördüğü yüzümüz ise bambaşka idi. Ne insanların gördüğü yüz olabildik ne de gerçek yüzümüzü itiraf edecek cesarete sahip olabildik. Neticede biz aslında en büyük savaşı hep kendimizle, kendi gerçeğimizi gizlemekle uğraşarak verdik. Şimdi artık "Tam hayatımızı rayına koyduk" derken çocuğumuz bizim içimizdeki sesi dillendiren bir canlı olarak karşımıza dikildi. İyi de o halde ona da içimizdeki sese yaptığımız gibi öfke ile davranıp susturalım, istiyoruz. Öyle mi? Ya da şunu düşünüyoruz; içimdeki sese öfke ile davranarak yıllarca susturamadım. Şimdi karşımda başka bir bedende dillendi. Öyle ise gittiğim yol doğru bir yol değildi. Peki, o halde ben ne yapmalıyım? Düşüncesi ile bu duyguyu yaşayan insan yaşlanır. Türk dünyasında eski sözlerimizden biri olan "Kocalma" sözü buradan gelir. Bu insan kendine kıza kıza kocalır. Evet, içindeki sese öfke ile bakanın en büyük eksiği bilgidir. Öte yandan bilgiyi herkesten almayı da reddedendir. Hal böyle olunca biraz dönme dolap misali aynı olayları yaşamaya devam etmektedir. Bu nedenle bu duygu içinde olanlar büyük arayışlara yönelirler. Şairimiz gibi. Çok güzel bir söz vardır bu durumu anlatan. "Aramakla bulunmasa da, bulanlar, yine arayanlardır." İşte şairimiz bu duygular içinde hem arayışını sürdürürken hem de bize yol gösterici olmuştur. Bu duyguyu yaşayan insanlar genelde çok yalın bir dille konuşurlar. Tıpkı şairimizin yalın bir dille bize bıraktığı muhteşem eserleri gibi…

Ne güzel söylüyor Bahtiyar Vahapzade;

"İnsan gökte ay gibidir, görünmeyen tarafı vardır."

2- a kınlık-Hayranlık;

Eğer hissedilen duygu şaşkınlık ise o zaman şunları iyi bilmeliyiz: Genellikle, hayatın tadını çıkarmayı seven, dış görüntüsünü fazlası ile önemseyen ve önemsenen bir görünüşe de sahip olan insanların yaşadığı duygu budur. Sıradan diyebileceğimiz insanların yaşadığı bir duygudur. İnsanlar bilmedikleri ve beklemedikleri durumlar karşısında şaşkınlık duygusunu hissederler. Siz çocuk iken bu duyguyu yaşamamış olabilirsiniz. Ya da yaşadığınızı fark dahi edecek zamanınız olmamış olabilir. Unutmayın ki çocuklar genetik olarak da bazı özellikler taşırlar. Öncelikle eşinizle bu konuyu dürüstçe paylaşmalısınız. Aile içi doğru ve yerinde gerçek iletişim ile

bu duygunun kaynağına ulaşmak mümkündür. Bahtiyar Vahapzade'nin yukarıdaki mısrası bize ışık olmaktadır. Nasıl mı? Ayın görünen tarafı aydınlık ve seyre doyum olmayan tarafıdır. Görünmeyen tarafı ise karanlıktır. Karanlığı ve aydınlığı mecazi manada düşünür isek büyük düşünürün bize bir mısra ile verdiği şu mesajı görürüz: İnsanlar, güzelliklerini herkese gösterir, karanlık yönlerini ise gizlerler. Ebeveynler, aile içi özeleştiri ile çocuklarının sergilediği ve onları şaşkınlık içinde bırakan davranışın kaynağını bulabilirler. Bazen bu bizim ve ya eşimizin kendine dahi itiraf etmediği bir yönümüz olabildiği gibi, çocuğumuzun girdiği ortamlardan taklit yolu ile gördüğünü uygulama da olabilmektedir. Günümüzde çocuğumuzun ne kadar farklı ortama ve bilgiye maruz kaldığını göz önünde bulundurursak sanıyorum, üzerinde düşünmemiz gereken bir husus olduğunu daha iyi fark edebiliriz.

3- Sevinç - Mutluluk

Eğer hissedilen duygu sevinç ise o zaman şunları iyi bilmeliyiz: Genellikle duygularını bastırarak büyüyen ancak başına buyruk bir yapıya sahip olan ebeveynler bu duyguyu hissederler. Öte yandan bu duygunun da yanlış olduğunu bilip örtmek için çok çaba sarf ederler. En basitinden sevindiklerini kendilerine dahi itiraf etmedikleri için çoğunlukla ilk etapta sevindiklerini anlamaları dahi mümkün olmayabiliyor. Bunun tersinin ispatı olarak da aşırıya gider ve çocuklarına bu tür durumlarda şiddet dahi uygularlar. Tüm bu yapılan kaba, sert, kötü eylemlerin asıl nedeni, içinde hissettiği gerçek duyguyu örtme isteğidir. Nitekim bu insanlar, çok rahat yalan konuşurlar. Öte yandan doğruluğu dürüstlüğü ise gerçekten çok severler. Çocuklarının doğru konuşmasını da her şeyden çok isterler. Ancak kendileri sürekli iç dünyaları ile bir olmadıkları ve kendilerinin bu gerçeğini hisseden çocuklarından da gerçeği gizleyemedikleri için çocuklarına yalanı farkında dahi olmadan öğretmiş olurlar. Kısacası, kendilerine itiraf edemedikleri yönlerini, çocuklarına miras bırakırlar da haberleri bile olmaz.

Burada şu açıklamaya yer vermemiz gerekiyor. Genellikle 0-6 yaş grubu çocukları (engelli olup 0-6 yaş bilişsel düzeyinde olan tüm çocuklar da bu gruba dahildir.) çok kuvvetli hislere sahiptirler. Hisleri, depremi önceden hisseden köpeklerin hislerinden bile kuvvetlidir. Çocuklarımız bu hislerini de çoğunlukla en yakınlarındaki ebeveynlerini, ya da en değer verdiklerini anlama yönünde kullanmayı tercih ederler. Bu tercihleri neticesinde de kendilerine dahi yalan söyleyip içindeki duygunun tersini ispat için uğraşan ebeveyninin yalan söylediğini çok iyi anlarlar. Ebeveyn, çocuğunun yanlış davranışı karşısında içinde hissettiği mutluluk duygusunu örtmek için çocuğuna şiddet uygularken, çocuk ebeveyninin ikiyüzlülüğüne ve yalanına şahit olmaktadır. Dolayısı ile de ebeveyn, hiç istemediği-sevmediği kötü yönünü, yine farkında olmadan çocuğuna öğretir, haberi bile olmaz. Ancak burada çok daha acı olan bir gerçek vardır. O da minik çocuğun öğrendiği durumun yanlış olduğunu dahi bilmediğidir. Çocuk, en çok sevdiği, değer verdiği, ebeveynini veya yakınındaki her kim ise sadece onu örnek alır. Taklit eder. Sonucunu ve ne getireceğini bilmeden…

4- Utanma – Rahatsız olma-Sıkılma

Eğer hissedilen duygu utanma ise şunu çok iyi bilmeliyiz: Bu duygu çoğunlukla bayanlar tarafından görülse de erkek ebeveynler tarafından da görülmektedir. Utanma duygusunu hissedebilmek, o duyguya neden olan olayın kötü yüzünü her yönü ile bilmekten geçer. Bu duygu, insana erdem kazandıran bir duygudur. Bu nedenle de ciddi bir zeka ve akıl ister. Bu duyguyu hissedebilenler genelde kendileri ile barışık olarak tarif edebileceğimiz ve toplumda az bulunan kesimi oluşturmaktadır. Bu insanların korkuya kapılması aslında anlamsızdır. Bunların tek eksiği kendilerine güvenleridir. Aslında ne yapacaklarını da en iyi yine onlar bilirler. Sadece kendilerine güvenmekten de utandıkları için biraz pasif davranırlar. Kendilerinin o anda ne yapacağını bilmelerinin doğru olduğuna inanıp adım atabilmeleri onlar için ve çocuklarının eğitimi için yeterlidir. Çünkü en nihayetinde çocukları da onların hissettiği bu duyguyu hissedip yanlış yaptıklarını anlamış olurlar. Geriye sadece çocuğa doğru davranışı doğru biçimde öğretmek kalmış olur. Bu nokta da yanlarında kendine güvenen ve "Öfke" duygusuna sahip bir eşin varlığı, her şeyi süt liman yapmaya yeterli olur.

İşte burada Bahtiyar Vahapzade'nin yetiştiği çocukluk dönemini bizlere aktarmasındaki mesajları çok daha net anlayabiliriz. O bize, Dedesini, Birçek Hanım dediği ninesini anlatırken bir

araya gelen bu dengeli duygu birleşimini aktarıyor. Dedesi Öfkeyi temsil ederken Ninesi Utanma duygusunu temsil ediyor. Bir araya gelip kurulan yuvada eksi artının birleşimi gibi bir çekim kuvveti ve saygı ölçüsünde dengeli bir aile ortamı kurulmuş oluyor. O ortamda yetişen çocuklar da bu paralel de eğitim alarak yetişebiliyor.

Bizler, Türk dünyasının bu aile yapısının sıcak ve soğuk savaş dönemlerinde uğradığı yıkımların neticesinde özünün gitmiş kabuğunun kalmış olduğunu göremedik. Nitekim yıllarca Bahtiyar Vahapzade'nin ve o dönemin yaşantısını genelde şu şekilde algıladık:

"O dönemdeki yaşam, bugünün ifadesi ile maskeli dönem idi. Ailelerde "kol kırılır, yen içinde kalır" hükmü kanun gibi idi. Eve gelen misafir, misafir için ayrılan ve ev halkının hiç kullanmadığı misafir odasında ağırlanırdı. Evin gerçek hali hiçbir şekilde gelene belli edilmezdi. Bu belli etmezlik iç içe geçmiş halkalar gibi idi. Çevreden içeriye, en yakın merkeze doğru herkes bir şeyleri birbirinden gizleyerek ve hiçbir şey olmamış gibi gülümseme maskesi takarak davranmayı erdem bilirdi. Duygular kolay kolay kimse ile paylaşılmazdı. Hele erkekler asla ağlamazdı. Her zaman güçlü ve sert durmalıydılar. Bayanlar şikayet etmeyen, hallerinden memnun görünüşlü maskesi takmış hizmetçi durumundaydılar. Çocuklar ise her denileni yapan, sesleri çıkmayan bir yapıda idiler. Ataerkil dönem, otoriter bir dönem idi. Ata duygularını Ana ile paylaşmaz. Ana evde çocukların yaptığı hataları Atadan gizler. Çocuklar Ata'dan korkar… vs. "

Peki, bunlar gerçek miydi? Bunlar bizim dışarıdan gördüğümüz görüntü idi. Bir anlamda biz, özü bilmeden kabuğuna bakarak o dönemdeki yaşam tarzına anlamlar yükledik. Bu bilinci zaman içinde benimsedik. Hatta bir süre önce Türkiye'de "En son babalar duyar" isimli bir dizi televizyonlarda uzun süre oynadı. Yıllarca bu şekilde bir bilgi ile bizler, o dönemdeki yaşam tarzına değişik ve olumsuz baktık. Yıllarca bizler utanan insanların cahil olduğu, cehaletleri nedeni ile utangaç olduklarına inandık. Kısacası bizler, utanmaktan utanan, öfkeli otoriter babaları istememeyi de gerçek doğru bilerek yetiştirildik, bunu kabullendik.

İşte bu nedenle Bahtiyar Vahapzade şu mısralarında çok net ifade ettiği gibi bizim yanlışta olduğumuzu çok önceden görüyor ve uyarıyordu.

"Geçmişine taş atanın geleceğine gülle atarlar." Diğer taraftan yine bir mısrasında;

"Kökü var ağacın da taşın da, İnsansa kökünü gezdirir başında…"

Aslında Ataerkil dönem diye bildiğimiz dönemde de, şimdi de yukarıda bahsini ettiğimiz dört duyguyu yaşayan ebeveynler oldu ve olmaya da devam edecek. Ataerkil dönem ile günümüzde dört duygunun toplum içindeki dağılımı şu şekildedir:

Ataerkil dönemde, Ata genellikle "Öfke-Kızgınlık" duygusunu yaşayan

Ana genellikle "Utanma-Rahatsız olma-Sıkılma" duygusunu yaşayan

Çocuklar ise yer geldiğinde "Sevinç-Mutluluk, Şaşkınlık-Hayranlık" Duygularını yaşayan konumda idiler. Bu nedenle de hataları hoş görülür eğitilmeleri, olgunlaşmaları gerekirdi. O dönemde ebeveynler birer insan sarrafı gibi idi. Ebeveynler, çocuklarının evliliklerine de yukarıdaki duygu dengesini göz önünde bulundurarak bazen müdahale ederlerdi. Çocuklarının eğitimlerini de, olgunlaşma evrelerini de duygu düzeyinde dürüstçe takip ederlerdi.

Lakin maalesef bizler şairi ve onun engin düşüncesini anlayamadık. Ataerkil dönemdeki duygu dengesini günümüz aileleri içinde kuramadık. Onun başımızın tacı etmemizi istediği olguları ayaklar altına almaktan çekinmedik. Peki, bunu nasıl mı yaptık? Bu konuyu her yönü ile açıklayabilmek için bir makale yeterli olmayacağı için tek bir yönünü ifade ile burada bu konuyu nihayetlemek durumundayım. Bir tek yönüne ise şöyle bir yazı ile değinmek isterim:

Eski ve Yeni

Eski dost düşman olmaz! … Eski toprak! … Eski adamlar bunlar! …

Sözleri; sadakati, vefayı, güveni… Kısacası insanlığı hatırlatır bize değil mi?

İnsanın, insan olabilmek için taşıması gereken, olmazsa olmaz değerleri…

Tüm dünyada bir tüketim çılgınlığı aldı başını gidiyor…

Sürekli yeni bir şeyler alınıyor.

Peki ya eskiler, eskilerin tamiri?

Yenilerin fiyatı tamirden daha uygun, diyerek sürekli bir alım… Aldı başını gidiyor!

Eski elbise, palto kavramı adeta kalktı.

Eski çanta, eski ayakkabı tamiri neredeyse kalmadı.

Geçenlerde bir arkadaşım, şaşkınlık ve hayranlıkla Televizyonda izlediği bir programı benimle paylaştı: programda; Siirt'te unutulmaya yüz tutmuş halı tamiri yapan birini göstermişler. Ortası delik deşik olmuş eski bir halıyı yenisinden farksız onaran halıcıyı izleyen arkadaşım, bana şöyle diyordu: "Günümüzde bu güzellikler artık bitiyor. Ne acı değil mi?"

Gerçekten acı aslında. Hem de öyle bir acı ki

Bu durumun bizden neler alıp götürdüğünü anlatabilecek miyim, bilmiyorum…

Kelimelerin kifayetsiz kalmamasını dileyerek acizane deneyeceğim:

Eski halının yeni gibi onarılması, yeniden kullanılması

Bu işi yaparak ev geçindirebilenlerin olması ya da olmaması neye bağlıdır?

Elbette ki arz talep meselesi! Diyeceksiniz.

Artık eskiyi onarmak yerine, yenisi daha uygun fiyata alınabiliyor. İnsan da eskidense yeniyi almayı tercih ediyor. Ne kadar doğal ve sıradan bir durum gibi, değil mi?

Oysa bu durum, ne sıradandır ne de doğal

Bu durum, insanın doğasını, insanlığını, davranışını… Kısacası hayatını etkileyebilecek bir durumdur.

Nasıl mı?

Her ne olursa olsun; eşya-ev-araba-telefon-arkadaş-eş-şehir

Sık değiştirmek, sürekli değişiklik demektir.

Sürekli değişiklik, sürekli yeniyi tanıma-keşfetmek için geçen süre demektir.

Giden bu süre hayatımızdan ömrümüzden gitmektedir.

İnsanın ömrünü; kendini, davranışlarını, neyi niçin yaptığını düşünmek üzere geçirememesi demektir.

Geçen zamanın insanı, insanlık anlamında olgunlaştıramaması,

Hatalarından ders çıkarmaya, ders çıkarmak için düşünmeye bile vakit bulamaması demektir.

Zaman denen ömrü, sürekli yeni teknoloji ile tanışmak için harcamak!

Yeni yerler görmek, akşam yemeğini bilmem nerenin manzarasında yemek için saatlerce yol gitmek…

Bunun adına, çağa ayak uydurmak, deniyor.

Çağa ayak uydurmak demek, kendini, aileni, çocuğunu tanımamak demekse orada duralım… LÜTFEN!

Neden mi?

Hayat, bize bir defa yaşamak için verilmiştir,

Bu dünyada yaşam, sadece nefes aldığımız sürecedir,

Yaşamı bir ömür yalnız geçirmek aslında bir işkencedir,

Sevmek ve sevilmek insanın en büyük ve gerçek sermayesidir,

Saygı, kazanılmayan, sadece korunabilen bir hazinedir,

Öyle ise Hayat;

Elimizdekileri, çevremizdekileri, kendimizi, dinlememizi gerektirmektedir.

Yeni teknolojiden önce, kendimizi keşfetmemizi gerektirmektedir…

Çünkü

Kendini keşfeden, tanıyan, bilen insan, sevdiğini de, seveceğini de, sermayesini de bilendir.

Öte yandan;

Yeni eşyaların bizi meşgul etmesine izin verdiğimiz her dakika,

Kendimizi tanımak için kaybettiğimiz süre demektir.

Bu da

Yeni tabletimizi, yeni son model telefonumuzu, yeni bilgisayarımızı, yeni arabamızı

Gurur ve mutlulukla kullanmak için keşfederek harcadığımız her dakikanın

Bize bir gün;

Çocuğumuzun başarısının bize tattıracağı gururdan,

Acımızı da mutluluğumuz gibi, bizimle, yüksünmeden paylaşabilecek seven(ler)imizden

Eski bir koltuğun bile taşıdığı hatıralarla, bize yalnızlığımızı unutturabileceği gerçeğinden
Yoksunluk, olarak dönebileceğidir.
Bırakın çocuklarınız imkanları dahilinde olabildiğince sık telefon değiştirsinler
Alabiliyorsanız bilgisayarlarını da her yıl değiştirsinler,
Tarihimizi öğrenmek için erken yaşta gezebildikleri kadar gezsinler…
İnanın üç beş yıl sonra hevesleri geçecek. Tek bir telefonla yılları geçirebilecekler.
İnsanın bağımsız olarak hayatta en yoğun yaşadığı keşif dönemi; 10-20 yaş aralığıdır.
Bu dönemi; hayatı, çevreyi, insanları, tarihi, kısacası kendini ve dünyasını keşfederek geçirmelidir.
Ancak, Keşif dönemini layıkı ile yapabilenler, geleceğe sağlam adımlarla ilerleyebilirler.
Eğer biz büyükler, çocuklarımızı gezdirmek adı altında kendi heveslerimizi eritiyorsak
Bilmeliyiz ki biz çocuklarımızı değil, içimizde hiç büyümeyen ve büyümeyecek olanı gezdirmekteyiz.
Bunun da ne çocuğumuza ne de bize bir faydası olmayacaktır…
Sakın unutmayalım!
Oyun çağında hevesi kursağında kalan, keşif dönemlerini tamamlayamayan
Bir ömür eşya ve ortam değiştirmekle geçirir…
Ne kendini ne de evladını-sevdiğini tanımadan…

Size, çocuklarımızdan hoş olmayan davranışlar görüldüğünde ebeveynleri olarak hissettiğimiz dört duygudan bahsettik. Bu dört duygu, insanların çeşitliliği nedeni ile her daim oldu ve olmaya da devam edecek.

Yaklaşık bir asır önceki zamana eski, şimdi yaşadığımız zamana ise yeni diyerek ayırdığımız zaman dilimlerinde bariz bir şekilde görülebilen çok büyük bir fark oldu;

Yaklaşık bir asır önce, Bahtiyar Vahapzade'nin çocukluğunun geçtiği, bizim Eski diye tabir ettiğimiz zaman diliminde bu dört duygunun içinde yetişkin insanların en yoğun hissettiği duygu "Utanma ve Öfke" idi. Bu iki duyguya sahip olan yetişkinlerin oluşturduğu topluluk ise birbirlerini dengeleyebiliyordu. Bunun neticesi olarak da dışarıdan bize az önce çizdiğimiz gibi bir görüntü arz ediyor.

Peki, Yeni diye tasvir ettiğimiz şimdiki zamanda toplumdaki yetişkinlerin çoğunluğunda hissedilen duygu ne? Diye soracak olursanız. Şimdi ise en yoğun hissedilen duygu, maalesef "Sevinç ve Şaşkınlık" tır. Bugün aile içi şiddet aldı başını gidiyor. Boşanmalar hiçbir dönemde olmadığı kadar çoğaldı. Cinnet geçirip çocuklarını, eşlerini hiç düşünmeden öldüren ebeveynler, hatta ebeveynlerini öldüren çocuk haberleri, her an duyduğumuz sıradan haberlerden oldu.

Kendini, hayat görüşünü, hakkı ile anlamadığımız ve nereye gittiğimizi dahi bilmeyip son hız geldiğimiz bu noktayı çok önceden gören şair, aşağıdaki mısralarla bakın bize neler söylüyor? Bize bir anlamda geleceğimiz noktayı haber veriyor.

Neylemeli
Kuş okudu, ferahlandık
Taş okusa neylemeli?
Örümcekse tor(1) dokudu
Kol(2) dokusa neylemeli?

Dedim, dünya bir temaşa
Her arzumuz geldi başa
Dediklerin baştan başa
Boş uykuysa(3) neylemeli?

Sesimiz yok, küyümüz(4) var
Okumuz yok, yayımız var
Deme gelmiş çayımız var
Şeker yoksa neylemeli?

Yalanlardan cana doyduk
Ona uyduk, buna uyduk

Et kokuştu, tuza koyduk
Tuz kokarsa neylemeli?

Büyük Şair, Bahtiyar Vahapzade'nin mısralarından sonra söyleyecek söz kalmıyor. Neredeyse her gün cinnet haberleri duyduğumuz ailelerin çoğu üniversite mezunu aileler, değil mi?

Kısacası, "Tuz kokarsa neylemeli?" demekten başka söz kalmıyor.

Diğer taraftan, Şairler milletlerin zor günlerinin adamıdırlar. Milletin zor zamanlarında imanını, güvenini tazelemek, moralini yükseltmek en başta şairlerin vazifesidir. Buna Mehmet Akifin Kurtuluş savaşındaki hizmetini örnek verebiliriz. Mehmet Akif devletin başındakilerin bile yeise, ümitsizliğe kapıldıkları bir anda umudunu hiç bir zaman kaybetmemiş, imanını sonuna kadar sürdürmüştür. Gelin hep beraber şairin görevini bir de büyük ustadan dinleyelim:

Şair-fikirlerin çırpınan seli
Şair-hakikatin mugannisidir.
Şair-tabiatın konuşan dili,
Şair-cemiyetin isyan sesidir.
Şair-zamanenin, asrın vicdanı,
Şair-tarihlerin şerefi, şanı.
Şair-bu dünyaya zamanın sözü,
Şair-hakikatin, hakkın aynası.

Onun hayatı hiç kolay olmadı. Hiç normal olaylar yaşamadı. Ancak o hiçbir zaman bu olayları bize şikayet amaçlı anlatmadı. Bu olaylar tekrarlanmasın diye anlattı. Bu olayları yapanlar gibi insanlar dünyada yetişmesin, bizim neslimiz de öyle olmasın diye anlattı. Öyle ya yaşayan oydu. Acı duyan oydu. Ağlayan oydu. Ancak o korkak mıydı ki onlar gibi çirkinleşmiyordu. Hayır! O korkak da değildi. Peki, o hiçbir şeyden korkmuyor muydu? Elbette hayır. O da her insan gibi korkular taşıyordu. Taşıdığı korkuların ne olduğunu da yine bize mısralarında bildiriyordu.

Kısacası Büyük Usta, vicdanı olan bir nesil yetişsin istiyor, bunun için de kalemini, yüreğini her fırsatta çok açık ve net bir dille bizlere, bizden sonraki daha nice nesillere aktarıyordu. Yaşananların bittiği dönemde de artık yaşananlardan ders çıkarılmasını, toplumun bekası için doğru bir çocuk eğitiminin olmasını arzu ediyordu.

Bizler, o Büyük insanı hakkıyla anlayamadık. Dileriz, bizden sonraki nesiller hakkı ile anlasın. Ruhu şad olsun.

KAYNAKLAR

1- Dr. Erdal Karaman : "Bahtiyar Vahabzade'nin Türkiye Sevdası"- Qafqaz Üniversitesi
2- Dr.Erdal Karaman, Qarabağım(Qarabağ Şeirleri Antalogiyası), Qafqaz Araştırmaları Enstitüsü, Bakü, 2008
3- Dr. Erdal Karaman, Türk Dünyasının Ortak Sesi Bahtiyar Vahapzâde, Dr. Erdal Karaman, Qafqaz Araştırmaları Enstitüsü, Bakü, 2009
4- Bahtiyar Vahabzade'nin Şenbe Gecesine Giden Yol (Bakü 1991, 259-273. s.)
5- Dr. Erdal Karaman, "Türk Dünyasının Sesi- Bahtiyar Vahapzade".

B XT YAR VAHABZAD YARADICILI INDA V T NP RV RL K T RB Y S M S L L R

Kamal H s n o lu Camalov
Naxçıvan Dövlət Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikasının əməkdar müəllimi
kamal.camalov@gmail.com

XÜLAS

Məqalədə görkəmli şair və pedaqoq Bəxtiyar Vahabzadə yaradıcılığında vətənpərvərlik tərbiyəsi ideyaları məsələlərinə toxunulur. Qeyd olunur ki, B.Vahabzadə bütün şüurlu həyatını milli varlığımızın formalaşmasına həsr etmiş, doğma vətənin sevinc və kədərinə şərik olmuş, bu yolu tutmuş, bu yola tapınmışdır. B.Vahabzadə öyrədir

ki, sənətindən asılı olmayaraq hər kəs öz sahəsində Vətənə övladlıq borcunu verməli, Vətənin qüdrəti üçün səyini əsirgəməməlidir. Başlıcası odur ki, böyüyən nəsil də bu ruhda tərbiyə olunmalıdır. «Vətəni daşına, torpağına, iqliminə, suyuna görə sevmirlər. Vətəni vətən olduğuna görə sevirlər. Ona görə də, hər kəsə elə gəlir ki, onun vətəni məmləkətlərin ən gözəlidir. Mən də belə düşünürəmsə, bunu mənə nöqsan saymayın» - deyən Bəxtiyar Vahabzadənin aktual fikirləri tədqiqat obyektinə çevrilmişdir.

Açar sözlər: vətənpərvərlik, ana vətən, tərbiyə, övladlar, sənətkar

PROBLEMS OF PATRIOTIC UP-BRINGING IN THE CREATIVITY OF BAKHTIYAR VAHABZADE

ABSTRACT

This article deals with the problems of patriotism upbringing ideas in poet and pedagogue Bakhtiyar Vahabzade's creativity. It is noted that B.Vahabzade devoted all his conscious life to the formation of our national existence, shared joy and sore of our Motherland, took this way and bowed to this way. B.Vahabzade teaches us that not depending of their trade and profession everyone has to give his patriotic duties to their motherland and has to do their best for the power of the Motherland. The main fact is that the growing generation must be brought up in this spirit. "The motherland is not loved for its stones, sand, climate and water. The Motherland is loved for its being Motherland. Because of this everybody considers that their Motherland is the most beautiful one of the countries. And If I think like this, do not consider this as the fault for me" says Bakhtiyar Vahabzade and thus his ideas are attracted to research objective.

Key words: patriotism, motherland, upbringing, children, artist.

Bəxtiyar Vahabzadə gənc nəslin tərbiyəsinin mühüm komponentlərindən olan vətənpərvərlik tərbiyəsinin mahiyyəti və məzmunu, mühüm əlamət və keyfiyyətləri, aşılanma yol və vasitələri haqqında mükəmməl, elmi-bədii şərhlər verən yazıçı-şair-pedaqoqdur. Bu anlamda sairin vətənpərvərlik tərbiyəsi ilə bağlı fikirləri bütöv yaradıcılığının fonunda təsəvvür edilməli və öyrənilməsi zəruri olan başlıca keyfiyyət kimi qiymətləndirilməlidir. Belə ki, B.Vahabzadənin «Vətən», «xalq» ifadələrini işlətmədiyi əsərləri də vətənlə, xalqla, vətəndaşlıq ləyaqəti ilə bağlıdır deyən tədqiqatçıların fikirlərinə haqq qazandırmaq lazımdır.

Şairin bütün yaradıcılığı boyu tələqin etmək istədiyi əsas fikir budur ki, Vətənə məhəbbət hissinin insana xas olan ən qədim hiss kimi tələqin edir. Hər bir kəsin vətəni onu dunyaya gətirən valideyn kimidir - seçilmir. Adam valideynləri kimi, vətənini də özü seçmir. Deməli, insanın ataya-anaya sevgisi, məhəbbəti nə qədər uca və ülvi bir hissdirsə, Vətənə olan məhəbbəti də bir o qədər müqəddəs olmalıdır. Ona görə də «Dünyada hər şeyi zövqlə, imkana görə dəyişmək olar, bircə Vətəndən və anadan savayı. Onları seçmirlər. Vətən də tale töhfəsidir, ana da. Yer üzünün xalqları «Vətən» sözünə müqəddəs epitet axtaranda «Ana» kəlməsinin üstündə dayanıblar. Onlar qoynunda yaşadıqları torpağa, «Ana vətən» deyəndə, elə bil bir yerdə düşünübdanışıblar. Müxtəlif əqidəli millətlərin eyni cür düşünmələri, sözün əsl mənasında, dil hadisəsi, təfəkkür möcüzəsidir. Başqa cür ola da bilməz. Axı, Vətən bəşər övladının şan-şərəfi, qeyrəti və namusudur. Bütün sevgilərimizin əvvəli də ona bağlıdır, axırı da...».[1]

B.Bahabzadəyə görə, insan üçün ən ali, müqəddəs duyğu Vətən sevgisidir. Vətəni sevmək insana fitrətən verilir, o, insanın elə bir ali duyğusu, hissidir ki, bunsuz bəşər övladını təsəvvür etmək olmaz. İnsanın həyatı, yaşayış tərzinin necəliyi də onun Vətənə məhəbbətinə bağlıdır. Vətəninə həqiqi bir sevgi insanı ucaldır, onun düşüncə və amalının zənginləşməsinə, təkmilləşməsinə əsaslı dərəcədə təsir göstərir. Vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq, xeyirxahlıq kimi əxlaqi keyfiyyətlərin mənbəyidir. Dahiləri dahi edən, onlara möhtəşəmlik, əzəmət gətirən də vətənpərvərlik duyğularıdır. Alimlərin, sənətkarların gözəl əməlləri, uca fikirləri məhz Vətənə məhəbbət hissindən yaranmışdır. Cəmiyyəti irəliyə doğru aparan böyük kəşflər də Vətənə xidmət naminə edilmişdir.

B.Vahabzadə vətənpərvərlik nədir?, kimdir vətəndaş? suallarına cavab axtarışlarında həqiqi etik-pedaqoji qənaətləri ilə də diqqəti cəlb edir. Onun fikrincə, vətənpərvərlik vətənə məhəbbət və sədaqətdən, bütün fəaliyyəti ilə onun mənafeyinə xidmət etməkdən ibarətdir. Vətənpərvərlik əxlaqi hiss, ictimai borcdur. Vətənpərvərlik doğma torpağa, təbiətə, xalqa, dilinə və adət-ənənələrinə bağlılıqdır. Vətənpərvərlik milli qeyrətdir ki, bu hamıda olmalıdır. O, yazır:

«Bəzən gənclərdən soruşuruq:

[1] Bəxtiyar Vahabzadə. Gəlin açıq danışaq (Məqalələr toplusu). İkinci nəşr, Bakı: «Azərnəşr», 1989, səh.104

- Nədir vətənpərvərlik?

Cavab verirlər:

- Vətəni sevmək!
- Vətən qarşısındakı borcları ödəmək!
- Lazım gələrsə Vətənin yolunda ölümə getmək!
- Vətənin tapşırıqlarını sözsüz yerinə yetirmək! və s.

Bu cavabların hamısı ayrılıqda doğrudur. Lakin bunu dərindən hiss etmək, başa düşmək və doğrudan da lazım gələrsə, vətən uğrunda ölümə hazır olmaq üçün gənclərimizdə ictimai hissin tərbiyəsinə çalışmalıyıq».[1]

Şair göstərir ki, vətənpərvərlik hissi konkret hiss olduğundan bu hissi ümumi şəkildə deyil, konkret amillərlə gənclərimizə aşılamalıyıq. İnsan öz varlığını ümumi varlığın (Vətənin, xalqın) bir hissəsi hesab etdiyi andan fərdiyyətçilik meyillərindən azad olur, şəxsiyyət səviyyəsinə yüksəlir.

Şair vətəndaşlıq anlayışının mahiyyətini açırib, mənasını incəliyərək yazır: «İnsanı vətəndaşlıq qədər böyüdən ikinci bir qüvvə ola bilməz. İnsan mənsub olduğu xalqın səviyyəsində düşünəndə, onun istəkləri və arzusu ilə yaşayanda, öz taleyini Vətənin taleyi ilə bağlayanda xalq qədər böyüyür, Vətən qədər genişlənir. Öz ailəsi çərçivəsində düşünənlərin, taleyini ailəsinin taleyinə bağlayanların arzuları, idealları evinin divarlarından kənara çıxmır və bələləri gündən-günə böyümək əvəzinə daha da kiçilirlər. İstər sənətkarların - şairin, bəstəkarların, rəssamın, istər alimlərin və istərsə də dövlət xadimlərinin gücü və qüdrəti mənsub olduğu xalqındadır. O, xalqın həyatına, tarixinə nüfuz etdikcə, qayğısına qaldıqca başı bir o qədər yüksəklərə qalxar».[2] Həmin vətəndaşlıq duyğusu və əqidəsi olan adam hamını özünə deyil, özünü hamıya borclu biləndir. Vətəndaş öz haqqından çox borcunu düşünən, Vətən üçün, xalq üçün özünü çıraq kimi yandıra bilən adamdır. Bir sözlə, həqiqi vətəndaş «mən»i, «biz»im içində əritməyi bacaran adamdır.[3]

B.Vahabzadə bütün şüurlu həyatını milli varlığımızın formalaşmasına həsr etmiş, doğma vətənin sevinc və kədərinə şərik olmuş, bu yolu tutmuş, bu yola tapınmışdır. Şairə görə bu ali və ülvi amaldan, hissdən başqa digər bir hiss, əqidə yoxdur və ola da bilməz:

Vətən torpağından yaranmışam mən,
Şeirimdir - Vətənin gül-çiçəkləri.
Məsləkim - rəngini dəyişdirməyən
Vətən torpağıdır əzəldən bəri.

Vətən sevgisi, vətənə məhəbbət və sədaqət vətənpərvərlik hissinin və tərbiyəsinin birinci əsas əlamətidir. «Mənim insanlara, ətrafdakılara münasibət ölçüm, yəni sevgi və nifrət ölçüm vətəndir»,[1] - deyən görkəmli sənətkar Vətənə sədaqət, məhəbbət hissini yüksək qiymətləndirir və gənc nəslin bu ruhda tərbiyə olunmasına xüsusi diqqət verməyi təkidlə tələb edir. B.Vahabzadənin fikrincə, insanlığın birinci şərti onun vətəndaş yetkinliyindədir. Kim ki, öz Vətənini, xalqını sevmirsə, o başqa xalqları və ölkəni də sevə bilməz. Əgər bütün dünyanın dəyərli adamı olmaq istəyirsənsə, ilk növbədə öz Vətəninin vətəndaşı olmaq gərəkdir.

Bütün insanlar seçdiyi fəaliyyət növündən, ixtisas və sənətindən asılı olmayaraq, Vətənə sədaqət nümayiş etdirməli, onun çiçəklənməsinə və xoşbəxtliyi yolunda çalışmalıdır:

Vətəndaş!
Nə gözəl səslənir bu söz!
Yəni - bir iqlimdə böyümüşük biz.
Səni də,
Məni də böyüdən Vətən,
Sənə də anadır, mənə də ana,
Sən də cavabdehsən
Mən də hər zaman
Vahid anamızın
Xoşbaxtlığına.[2]

[1] Bəxtiyar Vahabzadə. Gəlin açıq danışaq (Məqalələr toplusu). İkinci nəşr, Bakı: «Azərnəşr», 1989, səh.21
[2] Bəxtiyar Vahabzadə. Sadəlikdə böyüklük. Məqalələr, Bakı: «Yazıçı», 1978, səh.160-161

Şairin fikrincə, vətənpərvərlik qan yaddaşıdır. İnsan məhz Vətən torpağında özünü ən qüdrətli, ən güclü adam hesab edir. Belə bir gücü, qüdrəti qürbət yerlərdə hiss etmək təbii ki, mümkün deyil. Çünki «kimyəvi tərkibi bir olsa da, bu torpaq, bu yurd bizə məlum olmayan qan yaddaşı və fəhm hissi ilə bağlayır bizi özünə. Vətənimin görmədiyim, ömrümdə bir dəfə də olsa keçmədiyim bir obasından keçəndə hər qaya, hər daş, hər döngə mənə tanış gəlir, elə bil, bu yeri havaxtsa görmüşəm. Əslində mən görməmişəm, ulu əcdadım görüb, mənim qanımda dilə gəlir. Mənə bu yerləri tanış göstərən damarlarımdakı qanın yaddaşıdır».[1]

Qeyd edək ki, B.Vahabzadənin vətənpərvərlik haqqında bu kimi fikirləri nə qədər maraq doğurursa, tədqiqatçı T.Xəlilovun şairin vətənpərvərlik duyğularının qaynaqları ilə bağlı fikiri də bir o qədər maraq doğurur. T.Xəlilov, ümumiyyətlə, vətənpərvərlik duyğularını öz mənşə-yinə görə iki yerə bölür və yazır: «Bunlardan biri valideynlərin, məktəbin və mühitin tərbiyəsi ilə yaranıb formalaşır. Başqa və əsas növü isə fitridir, insanın bəzən əzaları, sir-sifəti, qidalanmaq, nəfəs almaq qabiliyyəti kimi anadangəlmədir. Belə vətənpərvərlik insanın canına, ruhuna, ürəyinə qanla, südlə daxil olub əbədi hopur. İkinci növdən olan vətənpərvərlik birincidən qat-qat təsirli və daimidir. O, az-az adamların qismətinə çıxır. Xoşbəxtlikdən Bəxtiyar müəllimə (B.Vahabzadə-K.C.) ikinci növ vətənpərvərlik nəsib olub. Həm də onun qanı və əqidəsi uzun illər boyu heç bir yad məsləklə reaksiyaya girməyib, indiyədək təmiz qalıb, qətiyyən cılızlaşmayıb».[2]

Şairin vətəndaşlıq şüuru haqqında fikirləri də maraqlıdır. Vətən vətən övladlarınındır. Vətən ümuminin, hamımızındır. Ona görə Vətənin hər guşəsində gördüyümüz gözəl bir cəhət hamımıza fərəh gətirir, hamımızı eyni dərəcədə sevindirir. Vətən məhəbbəti elə bir məhəbbətdir ki, onu sənin qədər sevən ikinci bir şəxsi görüncə sən onu sevdiyinə qısqanmırsan, əksinə onun özünü də Vətən qədər sevməyə başlayırsan. Bütün bunlara görə də hər bir kəs ana Vətənin, üstündə yaşadığı torpağın qədir-qiymətini bilməlidir. Torpağa sadəcə torpaq kimi baxmaq olmaz. Onun nə üçün «Ana torpaq» adlandırıldığının fərqinə varmaq lazımdır. Onun uğrunda ölümə getməyin zəruriliyini dərk etmək lazımdır. Torpağın üstünə alın təri tökməli, zəhmət çəkməli, onun sirlərindən xəbərdar olmalıyıq. Üstündə gəzdiyimiz torpağın hər daşının tarixini bilməli, onun qarşısında diz çökməyi bacarmalıyıq və s. B.Vahabzadənin yetişən nəsildə görmək istədiyi vətəndaşlıq şüuru məhz belədir.

Sairin Vətən haqqında kitabını (mən onun yaradıcılığını məhz belə qiymətləndirərdim) vərəqlədikcə Vətən sevgisi, vətəndaşlıq tərbiyəsinin yeni-yeni əlamət və xüsusiyyətləri ilə qarşılaşırıq. Aydın olur ki, həqiqi vətəndaş öz Vətəninin hər daşını, hər binasını, hər küçəsini öz qəlbinin odu ilə isidib onları başqalarına, özgə xalqlara əsl möcüzə şəklində çatdırmağı bacarmalıdır. Bu hiss, bizə görə, vətənpərvərliyin ən yüksək əlaməti və keyfiyyəti sayılmalıdır. Vətənə əsl sevgi, vurğunluq başqalarının heyranlığına gətirib çıxarmalıdır. Vətənə həqiqi və böyük sevgi, obrazlı desək, vətən sözün yaxşı mənasında dəlilik, məcnunluqdur.

Görkəmli sənətkar bir cəhəti də xüsusən diqqətə çatdırır ki,Vətənin mənafeyi, şərəf və namusu qarşısında onun övladlarının hamısı eyni dərəcədə məsuliyyət, cavabdehlik daşıyır. Lakin unutmamalıyıq ki, Vətən həm də müxtəlif fikirli və müxtəlif əqidəli insanları birləşdirən bir ocaqdır. Onun taleyi təkcə məndən, səndən asılı deyil, bütün vətəndaşların hamısından asılıdır. Xalqın Vətənə layiqli övladları olduğu kimi, Vətənin oduna qızınan, tüstüsündən qaçanları da vardır. İnsanlar var ki, Vətənin çörəyini, suyunu içir, havasını udur, borc naminə özünü qurban verməyə hazır olduğunu bildirir, lakin məqam gələndə dəhşətlə geri çəkilir. Şair demişkən, insanlar var ki, evinə bir saat su gəlməyəndə Vətənini də söyür, xalqını da. İnsanlar var ki, Vətən sevgisi şəxsi mənafelərdə qurtarır. «Belə ölkədə yaşamaqdansa, ölmək yaxşıdır», - deyə öz qüsurlarını Vətənin ayağına yazanlar da az deyil. İnsanlar var ki, Vətənin nemətlərinə ortaq, dərdinə biganə olur. İnsanlar var ki, «mənə nə var» fəlsəfəsi ilə yaşayır, amma yeri gələndə ağız dolusu Vətənin, xalqın adından danışır, özünü xalqın gözünə soxmaq, guya onun layiqli övladı olduğu haqqında fikir formalaşdırmaq üçün dəridən-qabıqdan çıxır.

B.Vahabzadəyə görə, insanın şəxsi istəkləri də öz başlanğıcını Vətən sevgisindən almalıdır. Vətən dəlilәri, millət məcnunlarının şəxsi istəklərinin formulası məhz belədir. Belə vətəndaşla-

[1] Bəxtiyar Vahabzadə. Sadəlikdə böyüklük. Məqalələr, Bakı: «Yazıçı», 1978, səh.206
[2] Bəxtiyar Vahabzadə. Şənbə gecəsinə gedən yol. Bakı: «Azərnəşr», 1991, səh.87

rın şəxsi istəyi və arzusu milyonların, istək və arzusuna çevrilir. Babək, Janna d'Ark kimi xalq qəhrəmanları bir insan kimi özləri vətənləşib amala çevrilir, Vətən timsalına dönürlər. Onlar adilikdən çıxıb, qeyri-adi şəxsiyyət olurlar:

Bir böyük amala vurulan zaman
Özünü yenidən yaradır insan.
O böyük amalın çağırış səsində
Qayğılar əriyir, məqsəd yoğrulur.
Özünü yaratma mərtəbəsində
İnsan kamilləşir, şəxsiyyət olur.

B.Vahabzadənin vətənpərvərlik haqqında fikirlərində bütövlük, tamlıq bir də ondadır ki, Vətənin, ana torpağın niyə insan üçün bu qədər doğma və əziz olduğunu aydınlaşdırmağa çalışmasıdır. «Dünyanın cənnət kimi bir guşəsində bütün arzularını, istəklərini yerinə yetirsələr belə yenə gözün Vətəni axtaracaq, qəlbin Vətən həsrətilə döyünəcək, dodaqların «vətən», «vətən» deyəcək. Bunun səbəbini bilmək üçün ana torpağın bir parçası olan insanı, onun təbiətini araşdırmalıyıq»,[1] - deyən şairin doğru bir nəticəyə gəldiyi şəksizdir. Vətən insanı özünə ona görə çəkir ki, Vətən insana ona görə doğma və əzizdir ki, bu zaman insanın qəlbində qan yaddaşı, dədə-babanın ruhu yaşayır. Vətən təkcə öz təbiətinin bizə verdiyi nemətlərlə yox, xalqın tarix boyu yaratdığı və özü qazandığı mənəvi sərvətləri ilə daha çox doğma və əzizdir. Xalqın özünəməxsus ruhu, psixologiyası, adət-ənənəsi, dili, musiqisi, ən mühümü də qüvvətli və zəif cəhətləridir insanı özünə çəkən. Vətənin və xalqın mənəvi dünyasına biz uşaqlıqdan yiyələnirik. Vətən həm də ana südü ilə eşitdiyimiz laylalar, mahnılar, bayatılar, nağıllarla bizim ruhumuza süzülüb gəlir, ruhumuzda məskunlaşır ki, bu qədər doğma və əziz olur.

Bütövlükdə xalq şairi Bəxtiyar Vahabzadənin vətəndaşlıq amalı belədir: «Vətəni daşına, torpağına, iqliminə, suyuna görə sevmirlər. Vətəni vətən olduğuna görə sevirlər. Ona görə də, hər kəsə elə gəlir ki, onun vətəni, məmləkətlərin ən gözəlidir. Mən də belə düşünürəmsə, bunu mənə nöqsan saymayın. Mənim vətənim doğrudan da gözəldir. Ona görə ki, mən bu vətənin vurğunuyam. Əgər vurğun olmasaydım, vətənimin naminə nəğmələr qoşa bilməzdim. İnsan anadan doğulanda hələ doğulmur. İnsan vurulanda doğulur. Çünki insan sevəndə dünyaya yeni gözlə baxır, onu dərk edir. Mən də vətənimə vurulub dünyanı dərk etdim».[2]

Şairin həyat, vətənpərvərlik və vətəndaşlıq məramnaməsini görkəmli ədəbiyyatşünas alim, mərhum professor Y.Qarayev yuksək qiymətləndirir.

O, yazırdı: «Hətta Vətən də şair üçün hər şeydən əvvəl zamanı təmsil edən obraz və simvol,

ədəbi-əxlaqi yaddaş və mənəvi - tarixi bir vicdandır. Şair üçün müqəddəs olan hər şey məhz «Ana Azərbaycanın yaddaşında əbədiləşir və görünür. Çünki bu yaddaş keçici və ötəri deyil, həqiqi və milli olan bədii ruhu, mənəvi fərdiliyi və müstəqilliyi yaşadır. Odur ki, şair gələcəyi də, keçmişi də məhz xalqın «hafizəsində» oxuyur, yoxlayıb, sınayıb qiymətləndirir. Elə buna görədir ki, B.Vahabzadə üçün ayrıca bir tarixilik anlayışı yoxdur, ayrıca bir ənənəvi «Milli xarakter», ayrıca bir müasir «intelektual qəhrəman» yoxdur. Onun üçün yalnız eyni vahid, yekparə varlıq, müqəddəs, əbədi Azərbaycan vardır. Azərbaycan burada məhz tarix və proses kimi, həm mənşə, həm də gələcək kimi, beşik, ocaq, yuva və ana kimi tərənnüm olunur. Belə bir Vətən rəmzi xalqın mənəvi tamlığını və böyüklüyünü daha dərindən duymaqda, dünyaya tanıtmaqda şairə kömək edir».[2]

Beləliklə, B.Vahabzadə öyrədir ki, sənətindən asılı olmayaraq hər kəs öz sahəsində Vətənə övladlıq borcunu verməli, Vətənin qüdrəti üçün səyini əsirgəməməlidir. Başlıcası odur ki, böyüyən nəsil də bu ruhda tərbiyə olunmalıdır. Bizim gəncliyimiz dünyanı Azərbaycan adlı məmləkətin vətəndaşının gözü ilə görməyi, vətəndaşlıq düşüncələri və hissləri, vətəndaşlıq narahatlıqları ilə yaşamağı bacarmalıdırlar. Yazıçılar, müəllimlər, valideynlər, bütün ictimaiyyət ümumi qüvvə ilə ona nail olmalıdırlar ki, gənc nəsil qabaqcıl ideallara, insanpərvərliyə, ata-babalarımızın vətənpərvərlik ənənələrinə hədsiz sədaqət ruhunda böyüsün. Şair və yazıçının kitabı, müəlli-

[1] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri, 2 cilddə, II c. Bakı: «Yazıçı», 1984, səh.8
[2] Bəxtiyar Vahabzadə. Sadəlikdə böyüklük. Məqalələr, Bakı: «Yazıçı», 1978, səh.301-302

min canlı sözü uşaq və yeniyetmələrin qəlbində yüksək vətənpərvərlik hissləri oyatmağa yönəlməlidir. Gənclərimiz dərk etməlidirlər ki, onlar hər şeydən əvvəl, vətəndaşdırlar, öz Vətəninin övladlarıdırlar. Vətənin şərəfi hər kəsin şəxsi şərəfidir, insanın ən ulu, müqəddəs borcu Vətən borcudur:[1]

Dünya quru bir səs,
Qəm çəkməyə dəyməz
Yüz-yüz itən olsun
Min-min də bitən var.
Şükr eyləyəlim ki,
Bizlərdən həm öncə
Həm sonra Vətən var.[2]

Bəs uşaqlarımızın tərbiyəsinə nədən və necə başlamaq lazımdır? B.Vahabzadənin bu məsələyə də münasibəti maraqlıdır. O, öz fikirlərinə sahibliyinin təsdiqi üçün məşhur rüs pedaqoqu K.D.Uşinskiyə də istinad edir və yazır: «...Uşinski rus xanımlarına-analarına müraciətən yazmışdı ki, uşaqlara tərbiyə vətən məhəbbətindən başlamalıdır. Mənsub olduğu Vətəni, xalqı, onun dilini sevdirmək tərbiyənin başlancığıdır. Bu çox böyük fikirdir. Ona görə ki, əgər biz uşaqlarımızı vətənimizin və xalqımızın adına layiq bir vətəndaş görmək istəyiriksə, birinci növbədə ona doğma vətənimizi sevdirməliyik».[3]

B.Vahabzadəyə görə, insanın insanlığını təsdiq edən birinci amil onun vətənpərvərliyidir. Çünki mənsub olduğu xalqını və vətənini sevməyən, onunla fəxr etməyən adamdan insanlıq ummaq özü cəhalətdir. O, bu sualında haqlıdır ki, heç elə bir adam tapılarmı ki, vətən və xalq hissindən məhrum ola, amma ona yaxşı adam deyələr? Ümumiyyətlə, sevgi hissindən məhrum olan adamlar yaxşı adam ola bilməz. Vətən sevgisi hissindən məhrum olanlar nə öz ailəsini sevə bilər, nə də başqalarını.

Bu mənada biz uşaqlarımızı hər şeydən əvvəl yaxşı insan görmək istəyiriksə, insanlığın əsas şərtləri olan iki cəhətə diqqət yetirməliyik: birincisi, vətən sevgisi, vətənpərvərlik tərbiyəsi, ikincisi, zəmanəsinin tələbləri səviyyəsində elmlərə sahib olmaq.[4]

Müəllifin fikrincə, ikinci şərt də birinci şərtlə bağlıdır. Ona görə ki, müasir elmlərə yiyələnməyin başlıca amili, əsas şərti də vətən sevgisi ilə bağlıdır. Vətən sevgisi olmazsa, məktəbli və ya tələbə elmlərə yiyələnməyin vacibliyini dərk edə bilməz. Onun oxuyub öyrənmək məqsədləri aydınlıq, müəyyənlik kəsb etməz.[5]

Əgər məktəbli, tələbə nə üçün, nəyin naminə oxuyub öyrənməyi özü üçün aydınlaşdıra bilməzsə, ondan layiqli vətəndaş ola bilməz, olsa-olsa xırda gün-güzəran, dolanmaq, yaşamaq həvəsində olan adi bir icraçıdan, bir idarə qulluqçusundan, məmurdan o yana gedə bilməz. «Təyyarənin uçması üçün ona enerji lazım olduğu kimi, insanın uçması üçün də ona od lazımdır, ürək odu! Bu od isə yalnız sevgidir, Vətən sevgisi!».[6]

Yekun olaraq qeyd edək ki, həqiqi vətəndaş duyğuları ilə yaşayıb yaradan görkəmli Azərbaycan şairi, ictimai xadim Bəxtiyar Vahabzadənin yaradıcılığında vətənpərvərlik tərbiyəsi, onun məzmunu, aşılanma yol və vasitələri haqqında düşüncələri çağdaş pedaqoji fikir tariximizə əvəzsiz töhfədir. Və yüksək məzmun keyfiyyətləri ilə zəngin olan bu əvəzsiz töhfə gəncliyin tərbiyəsi işində fayda verər.[7]

---

[1] Bəxtiyar Vahabzadə. Gəlin açıq danışaq (Məqalələr toplusu). İkinci nəşr, Bakı: «Azərnəşr», 1989, səh.74
[2] Yaşar Qarayev., Şamil Salmanov. Poeziyanın kamilliyi. Bakı: «Yazıçı», 1995, səh.123
[3] Bəxtiyar Vahabzadə. Gəlin açıq danışaq (Məqalələr toplusu). İkinci nəşr, Bakı: «Azərnəşr», 1989, səh.76
[4] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri, 2 cilddə, II c. Bakı: «Yazıçı», 1984, səh.7
[5] Yenə orada, səh.307
[6] Bəxtiyar Vahabzadə. Şənbə gecəsinə gedən yol. Bakı: «Azərnəşr», 1991, səh.305
[7] Bəxtiyar Vahabzadə. Sadəlikdə böyüklük. Məqalələr, Bakı: «Yazıçı», 1978, səh.306

B XT YAR VAHABZAD V MÜS RL R N N YARADICILI INDA V T NP RV RL K DEYASININ B D FAD FORMALARI

R na Cavadova
Bakı Dövlət Universiteti

ÖZ T

Məqalədə görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadənin əsərlərində vətənpərvərlik ideyası araşdırılmışdır. Bu ideyanın konkret dövrlə bağlı səciyyəvi xüsusiyyətlərinin müəyyənləşdirilməsi üçün şairin yaradıcılığı müasirləri ilə müqyisəli şəkildə təhlilə cəlb edilmişdir.

Açar sözl r: Azərbaycan şairi, Bəxtiyar Vahabzadə, vətənpərvərlik, müasir, ideya.

THE ART EXPRESSION FORMS OF THE IDEA OF PATRIOTISM IN THE CREATION BAKHTIYAR VAHABZADA'S AND THIS CONTEMPORARIES

ABSTRACT

In the article is researched the idea of patriotism in the works of the famous poet of Azerbaijan B.Vahabzadeh. The creation of the poet was analysed in the form comparison with his contempoaries, to determine the spesifical charaters of this idea which conected concrete time.

Keywords: The Azerbaijan poet, B.Vahabzadeh, patrootism,contemporary, idea.

Sovet dövrü poeziyamızın yaxın keçmişinə ümumi bir nəzər salsaq görəririk ki, vətənpərvərlik ideyası poeziyamızda XX əsrin əvvəllərindən özünü göstərir.Belə şeirlərə 20-ci illərin axırlarından başlayaraq S.Vurğunun M.Müşviqin, R.Rzanin, Ə.Cavadın yaradıcılığında rast gəlirik. Azərbaycan şeiri XX əsrin ortalarına doğru yaxınlaşdıqca daha çox "Azərbaycan" tipli şeirlər doğurur.Şeirin məzmununda məkan münasibətləri, cografiya və təbiət geniş yer tutmağa başlayır.

Yu. M. Lotman yazır: Şeir təkcə ritmik-intonasiya vahidi deyil, o eyni zamanda məna vahididir.İşarənin xüsusi ikonik təbiətinin gücü ilə sənətdə struktur elementlərin məkan münasibətləri mənalı olur, o birbaşa məzmunla əlaqələnir(2,228).

Sovet dövrünün vətənpərvərlik poeziyası özündə azadlıq ideyasının rüşeymlərini yetişdirir və özündən sonrakı dövrə keyfiyyətcə dəyişərək keçir.Bundan sonrakı dövrün " vətənpərvərlik poeziyasında istiqlal və azadlıq ideallarının təcəssümünə geniş yer verilmişdir. Bu da ümumilikdə xalqın qan yaddaşında yer almış istiqlal və azadlıq arzusundan, ideallarından qaynaqlanır. Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin, Xəlil Rza Ulutürkün, Cabir Novruzun, Məmməd Arazın, Qabilin, Fikrət Sadığın, Fikrət Qocanın, Məmməd İsmayılın, Məmməd Aslanın, Abbas Abdullanın və başqa şairlərin yaratdığı poetik örnəklərdə istiqlal və azadlıq mövzusu xüsusi yer tutur"(3).

Yaxın keçmişimizin ədəbiyyatına nəzər saldıqda görürük ki, "poezyada partiyalılıq, vətəndaşlıq, vətənpərvərlik, humanizim, beynəlmiləlçilik ənənələri sovet dövründə nəinki zəfləmiş, hətta dərinləşmiş, daha təsirli, daha mündərəcəli olmuşdur".(1, 33).Poeziyamız sovet dövründə ideoloji çərçivə içərisində olsa da vətənpərvərlik ideyasını inkişaf etdirmişdir.Şeirimizdə vətənpərvərlik bir tərəfdən böyük vətəni-Sovet İttifaqını, digər tərəfdən isə o zaman onun bir hissəsi olan Azərbaycan Respublikasını əhatə edirdi.Xüsusilə, müharibə illərində vətən böüyük mənada böyük vətən kimi tərənnüm olunur.Müharibə dövründə şairlərimiz qələmlərini süngüyə çevrilmiş və vətənin müdafiəsinə çoxlu şeirlər həsr etmişlər.Bu şeirlərdəki vətənpərvərlik Sovet dövrünün reallıqlarına uyğun bir şəkildə ifadə olunur.Bu dövrün vətənpərvərlik ideyasının ən nikbin nümunələri Səməd Vurğunun, Süleyman Rüstəmin, Rəsul Rzanın, Bəxtiyar Vahabzadənin və b.yaradıcılığında öz əksini tapır.Bəxtiyar özündən əvvəlki dövrün vətən ideyasının nikbin ənnələrini davam etdirir və ona yeni bir məzmun qazandırır.Onun 1960-cı illərdə yazdığı "Gülüstan" poeması bu yeniliyin ən bariz nümunəsidir.Bəxtiyarla sovet dövrü şeirimizə milli azadlıq ideyası daxil olur.Həm də bu ideya əvvəlki tərənnüm tərzindən etiraz üslubuna keçir. Azadlıq ideyası tədricən ölkə xaricindən ölkə içərisinə gəlməyə başlayır. Səməd Vurğunun "Zəncinin arzuları" kimi əsərlər artıq milli çərmivədə cərəyan etməyə başlayır.Bu tendensiyanın öncülü Bəxtiyar Vahabzadə olur. Onun şeirlərində vətən, millət, dil, azadlıq kimi anlayışlar əsas mənalı vahidlərə çevrilirlər.Müstəqillik dövründə də Bəxtiyar Vahabzadə milli-istiqlal ideyasının ən qabaqcıl nümayəndəsi kimi seçilir və poeziyada istiqlal düşüncəsinin bayraqdarı olur.

Müstəqilliyin ilk illərində Bəxtiyarla yanaşı onun qələm dostları bu ideyanı yeni-yeni formalrla zənginləşdirilər.Xəlil Rza Ulutürkün 1992-ci ildə çap olunmuş "Davam edir 37..." kitabı da sübut edir ki, 1990-cı illər 1937-nin dəyişik bir şəkildə davamıdır.Dövr dövrün davamı olduğu kimi ədəbiyyat da ədəbiyyatın davamı kimi çıxış edir.1937-də qırılmış milli ideya istiqlal ideyasına sovet poeziyasının çox ehtiyatlı vətənpərvərlik mövzulu əsərlərinin kövrək sapları ilə bağlanır.Bu ideya ağır rejimdən, sərt ideologiyadan keçir, nazilir, amma, üzülmür.Vətən sevgisinin içində yaşayan millət sevgisi, azadlıq düşüncəsi yenidən sağ qalan toxumdan cücərməyə başlayır və milli ideyanı qidalandıran qaynaq rolunda çıxış edir.Bundan sonra poeziya özünü səfərbər edir və milli ideyanı ön mövqeyə çıxarır. "Yalnız pasportunda", "Milli satqın", "Sumqayıt dastanı" və başqa poetik nümunələr azadlıq ruhunun tərənnümünə, bu ideala qarşı duranların ifşasına həsr olunur"(3).Ədəbi prosesi diqqətlə izləyən görkəmli ədəbiyyatşünas alim Yaşar Qarayev "Tarix: yaxından və uzaqdan" adlı tədqiqatında yazır: "...Radikal inqilabi stixiya ədəbi prosesin, onun xəritəsinin relyefini dəyişir. Bu dəyişən relyefdə öz yerini vaxtında və dəqiq tapmaqda çoxları çətinlik çəkir. Belə bir böhrandan şairlərin yalnız bir qismi tamam yan keçə bilir: həm siyasətin, həm də poeziyanın nəbzini eyni vaxtda tutanlar və problemlərini eyni vaxtda həll edənlər, hər iki sahənin ikisinin də ön xəttində durmurlar..."(8).Poeziya müstəqillik ab-havasını duyunca nəinki sovet dövrünün mətnaltı mənalarında gizlənən milli ideyanı mənimsəyir, hətta orta əsrlərin də nikbin ənənələrinə qədər gedib çıxır.Məmməd Araz "Xətainin qılıncını suvararaq" "karandaşını göyərdir".Keçmiş irsdən güc alandan sonra "ayağa qalxır" və müstəqillik dövrünün ən poetik manifestini söyləyir."Məmməd Arazın "Ayağa dur, Azərbaycan!" şeiri doxsanıncı illərdə yaranmış vətənpərvərlik və vətəndaşlıq poeziyasının ən kamil nümunələrindən biri kimi diqqəti çəkməkdədir"(3).

Oyat bizi, ey Yaradan, sənинləyəm!
Ya bilmərrə yatırt bizi,
Ya bilmərrə oyat bizi,
Ya yenidən yarat bizi!
Ey Yaradan sənинləyəm!
Sənинləyəm, yatmış vulkan,
Sənинləyəm!
Ayağa dur, Azərbaycan,
Sənинləyəm!..

Bu şeirlə ədəbiyyat yenidən və yeni dəyərələrlə canlanır və özündən əvvəlki dəyərlərə sahib çıxmaq üçün ayağa qalxır."Əmirxan Xəlilov "Ayağa dur, Azərbaycan!" şeirini səciyyələndirərkən yazır ki, burada "vətən sevgisi, torpaq qeyrəti və məhəbbəti müstəsna yer tutur. Vətənə müraciətlə deyilən: "Səndən qeyri biz hər şeyi bölə billik, Səndən qeyri biz hamımız ölə billik", "Gözünü sil, Vətən oğlu, ayağa qalx!" – kimi alovlu misralar oxucunun qəlbini təlatümə gətirir, onu mehvərindən, öz oxundan tərpədir, silkələyib ayağa qaldırır, nəzərlərini sabaha yönəldir, səfərbər olmağa hazırlayır" (5, 16).

Yeni dövrün azadlıq, müstəqillik fikri daha ağır şəraitdə poeziyaya gəlir.Bir tərəfdən işğalçı qüvvələrin vətən torpaqlarını işğal etməsi, bunun nəticəsində qaçqın, köçgün və didərginlərin öz vətənlərində çəkdiyi əziyyətlər, təcavüz və soyqırım dəhşətləri, digər tərəfdən də ölkədəki xaos poezianın pafosuna ağır kədər notları gətirir. Amma ədəbiyyat yenə də milli ruhun nikbinliyini qorumaq üçün səfərbər olur və yenə də yaxın keçmişin müharibə illərinin və ondan sonrakı dövrün ədəbi ənənələrinə müraciət edir."Şamil Salmanovun "Bilsin ana torpaq... (Müharibə və müasir ədəbi-bədii fikir) adlı məqaləsində doğru qeyd etdiyi kimi: "Bizim günlərdə... Səməd Vurğunun bu poetik andının yalnız ədəbi-tarixi mənası üzərində düşünməməli, hər şeydən əvvəl, onun bu gün üçün də vacibliyini qeyd etməliyik. İndi ədəbiyyatımızın ən təxirəsalınmaz vəzifəsi hər bir vətəndaşa səfərbərlik hissi və şüuru tərbiyə etməkdən ibarətdir" (6, 176).

Şairin yaradıcılığında mövzu müxtəlifliyi əsas nəzərə çarpan xüsusiyyətlərdən biridir. Sənətkarın vətənə, azadlığa, anaya, məhəbbətə, tariximizə, böyük şəxsiyyətlərimizə həsr olunmuş əsərləri vardır. Lakin əsas üstünlüyü vətən, azadlıq, istiqlal mövzuları təşkil edir. Nahaq deyil ki, Bəxtiyar Vahabzadəni milli poeziyamızda istiqlal, azadlıq idealarını yenidən bərpa edən şair kimi qiymətləndirirlər.

Ədəbiyyatımızda daha çox şair kimi tanınan B. Vahabzadənin şeirlərində ilk baxışda bir al - əlvanlıq, rəngarənglik nəzərə çarpır, mövzu, problematika baxımından dərin məzmuna malik şeirləri oxuduqca təsirlənməmək qeyri-mümkündür. Şeirlərindən birində ("Ana dili") şair dilimiz haqqında deyir:

Dil açanda ilk dəfə ana söyləyərik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə - gilə…

Bu misralarda milli mənlik, vətən sevgisi, millət qayğısı, öz kökünə bağlılıq var. Bu misralarda böyük bir sevgilə çırpınan qəlbin səsi var.

Şairin lirik - romantik səpkidə yazdığı şeirlərə "Sevə bilməzsən", "Həsrət", "Mən ürək ogrusu", "Sən oluram mən" və digərlərini göstərmək olar. Bunları saymaqla bitməz. Bu şeirlərdə bir sevgi kök salıb yaşayır. Lakin Vahabzadənin lirik qəhrəmanı çılğın ehtiraslardan uzaqdır, onun sevgisi incədir, romantikdir, səmimidir.

B.Vahabzadənin mənsub olduğu ədəbi nəsil müharibə dövrünün insanlarıdır.Onlar ikinci dünya müharibəsinin bütün dəhşətlərini görmüş, məhrumiyyətlərini yaşamışdılar.Ona görə də yeni dövr bu ədəbi nəslin təcrübəsindən istifadə edə bilir.Çünki bu real, həqiqi və həyati bir ədəbiyyat idi.İndi o ənənələri müstəqillik dövründə də yaşatmaq lazım idi."Elçin Mehrəliyev "Müharibə və ədəbiyyat" adlı monoqrafiyasında yazır: "Dövrün xüsusiyyətlərindən irəli gələrək 90-cı illər poeziyasında səfərbərlik, döyüşkənlik əhval-ruhiyyəsinin təşəkkülü öz xarakterik cəhətləri ilə diqqəti cəlb edir. Ümumiyyətlə, 90-cı illərin Azərbaycan poeziyasında müharibə mövzusu xalqın həyatında baş verən çox mühüm hadisələrə uyğun ardıcıllıqla işlənmiş, bununla belə həyat həqiqətlərinin inikasında poetik fikir və təsvir rəngarəngliyi müxtəlif meyllər və ənənələr doğurmuşdur" (7, 39;3).Dövrün reallı1arı "təkcə coğrafi mənada deyil, həmçinin millimənəvi kontekstdə dəyərləndirən tədqiqatçının elmi baxışları dövrün poetik örnəklərindən qaynaqlanan ideyalarla həmahəng səslənir. Belə ki, B.Vahabzadənin, N.Xəzrinin, Qabilin, M.Arazın, F.Sadığın, M.İsmayılın, M.Aslanın və digər şairlərin şeirlərində eyni ovqatı müşahidə etmək mümkündür"(3). Elçin Mehrəliyevin doğru qeyd etdiyi kimi: "Müharibə və ədəbiyyat prob--leminin son dərəcə geniş, əhatəli bir problem olmasını da mütləq nəzərə almaq lazımdır. Yalnız müharibə mövzusunda yazılan əsərlər yox, müharibə dövrünün əhval-ruhiyyəsini əks edən əsərlər də bilavasitə bu mövzu ilə bağlıdır" (7, 183).Yaşar Qarayevin qeyd etdiyi kimi, "Qarabağ amili təkcə bizim milli tarixin və milli təbiətin yox, müasir mənəvi **ekologiyanın** da əsas amili olaraq qalır. İqtisadi, hüquqi, mənəvi-ideoloji fəaliyyətin elə bir sahəsi yoxdur ki, bu ağırlıq, bu yük dəyirman daşı kimi başımızın üstündə fırlanmasın" (4, 540-541). Sovet dövrü ilə müstəqillik dövrünün ədəbiyyatını müharibə kontekstində təhlil edən "Alxan Bayramoğlu "Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım əməlləri bədii ədəbiyyatda" adlı məqaləsində yazır: "Ermənilərin bizə tətbiq etdiyi soyqırımda məruz qaldığımız məhrumiyyətlərin, zülm, işgəncə və itkilərimizin miqyası erməni qəddarlığından əlavə, həm də milli unutqanlığımız və hədsiz ürəyiyumşaqlığımızla əlaqədardır. Digər tərəfdən də yetmiş illik sovet təbliğatı və siyasəti türk xalqlarının başı altına beynəlmiləlçilik yastığı qoyduğu və onları hər cür repressiya alovunda yandırdığı halda, şair Əli Nəzmi demişkən "ermənіyə imperiyada darğalıq" vermişdi. Odur ki, zaman-zaman bir tərəfdən ərazilərimiz qəsb olunur, digər tərəfdən də nəfərlərimiz, düşünən beynimiz repressiyaya məruz qalırdı" (9, 82). 90-cı illər Azərbaycan poeziyasında Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Cabir Novruz, Nəbi Xəzri, Qabil, Fikrət Sadıq, Fikrət Qoca, Məmməd İsmayıl, Məmməd Aslan, Ramiz Rövşən, Vaqif Səmədoğlu, Vaqif Bayatlı, Zəlimxan Yaqub, Rüstəm Behrudi və başqalarının yazmış olduğu poetik örnəklər vətənpərvərlik və vətəndaşlıq ideyalarının zənginliyi ilə diqqəti çəkir. Lakin əsrin son onilliyinin poetik mənzərəsi bu imzalarla məhdudlaşmır. Bu sıraya gənc ədəbi qüvvələrin vətənpərvərlik poeziyasını da əlavə etməyə ehtiyac duyulur.

"Azərbaycan poeziyasının vətənpərvərlik və vətəndaşlıq motivlərinin səciyyələndirilməsi Güney Azərbaycan problemindən kənarda mümkün deyildir(1). Qeyd edək ki, doxsanıncı illər poeziyasında Güney Azərbaycan mövzusu bir neçə aspekti ilə diqqəti cəlb edir. Belə ki, şeirlə-

rin bir qismi Vətənimizin Güneyində cərəyan edən tarixi hadisələrin bədii əksinə həsr olunmuşdur. Bu şeirlərdə Səttar xan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri və başqa tarixi şəxsiyyətlərin başçılığı ilə Güneydə gedən milli-azadlıq mübarizəsi öz bədii tərənnümünü tapmışdır. Şeirlərin başqa bir qismində Güneydə yaşayan xalqımızın hüquqsuzluğu mövzu obyektinə çevrilmişdir. Güney mövzusunda yazılan şeirlərin digər qismi isə ayrılığın gətirdiyi dərd, faciə və iztirablara həsr edilmiş, Araz çayı simvolunda millətin vüsal dərdi, həsrət ağrıları, birlik və bütövlük idealları ifadə olunmuşdur. Doxsanıncı illərdə Güney mövzusunda yazılan şeirlərdə İran-fars rejiminin əsarətində yaşayan xalqımızın istiqlal arzuları daha çox özünə yer tapmaqdadır"(3).Vaxtilə S.Vurğun Afrikadan, B.Vahabzadə Əlcəzairdən, Q.Qasımzadə İran rejimindən əziyyət çəkən insanlardan, onların azadlıq arzularından bəhs edirdi.Bu ideyalar artıq müstəqillik dövründə sərbəst şəkildə poeziyanın mövzusu olmağa başladı.Hazırkı dövrün poeziyasında 1990-cı illərdə yazılmış zəngin şəhid şeirləri, Qarabağ mövzulu şeirlər geniş yer tutur.Vətən uğrunda (20 yanvar şəhidləri), vətənin istiqlalı uğrunda (Qarabağ müharibəsinin şəhidləri) şəhid olan insanlara həsr olunmuş şeirlər poeziyanın böyük bir hissəsini əhatə edir.Eyni zamanda müasir poeziya klassik tipli vətənpərvərlik ideyasını da öz nümunələrində yaşatmağa davam edir, vətən məhəbbətindən, təbiət və insan gözəlliklklərindən, şanlı tarixdən, qəhrəmanlıq ənənələrindən və zəngin milli-mənəvi dəyərlərdən yeni dövrün vətənpərvərlik konseptini formalaşdırır.

D B YYAT

1. Əliyev R.Poeziyanın təbiiliyi.Bakı.1982
2. Lotman Yu. M. Struktura xudojesvennoqo teksta, Moskva, "İskusstvo", 1970, 384 s.
3. Məmmədova Ş.Azərbaycan poeziyasında vətənpərvərlik və vətəndaşlıq ideyalarının bədii təcəssümü(1990-cı illər),Namizədlik dissertasiyası, Bakı, 2003.
4. Qarayev Yaşar. Tarix: yaxından və uzqdan. Bakı: Sabah, 1996, 712 s.
5. Xəlilov Əmirxan. Məmməd Araz dühası. Bakı: BDU nəşri, 2002, 256 s.
6. Salmanov Şamil. Bilsin ana torpaq... (Müharibə və müasir fikir), "Azəraycan", 1995, №1-3.
7. Mehrəliyev Elçin. Müharibə poeziyada. "Azərbaycan", 1999, №10, s.176-183.
8. Nəcəfova Mərziyyə. B.Vahabzadə publisistikasında Qarabağ problemi. "Tədqiqlər", I c., Bakı: Elm, 2002, s. 209-214.
9. Bayramoğlu Alxan. Ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırım əməlləri bədii ədəbiyyatda. "Ulduz", 2001, №10, s.78-82.
10. Əliqızı Almaz. Güney Azərbaycan ədəbiyyatı: mərhələlər, təmayüllər, etüdlər. Bakı: BDU nəşri, 1998, 321 s.
11. Yusifli Vaqif. Məmməd Araz dünyası. Bakı: Şur, 1994.
12. Zaurlu B. Poeziyanın inkişaf yolları. Bakı: Ozan, 1997.

B XTIYAR VAHABZAD S RL RINDE ISLAM DININ V MILLI - XLAQI D Y RL R MÜNASIB T

Bayram GÜNDOGDU

Dr., Qafqaz Universiteti

Mehmet ÇINAR

Bakı Slavyan Universiteti Doktorantı

ÖZET

İnsan,cəmiyyət uzunmüddətli tarixi inkişafın məhsuludur.İnsanın ilk olaraq formalaşması ailede başlayır və sonrada tərbiyəsinə təsir edən amillərlə davam edir.Bir insanın mənəvi keyfiyyətlərə yiyələnməsi onun dünyagörüşü ve həyatı üçün çox önəmli yer tutur.

Əxlaq, mənəviyyat və davranış normların formalaşmasında sözsüz ki ailənin,muhitin,məktəbin elbette cəmiyyətin ziyalıları və şairlərin tesiri çox böyükdür.Bunlardan biride xəyli vaxt müəllim kimi işləyən Azərbaycanın xalq şairi,görkemli pedaqoq,mütəfəkkir Bəxtiyar Vahabzadədir.Yaradıcılığının bütün sahələrində, ömrü boyu sevgidən, məhəbbətdən söz açan şairin əsərlərinin özü də bu müqəddəs hissdən qaynaqlanır. Anaya, Vətənə, sevgiliyə məhəbbət hissindən başqa, bütün sevgilərin fövqündə dayanan ilahi bir sevgi – bu dünyanın, kainatın yaradıcısı uca Allaha məhəbbət duyğusu da Bəxtiyar Vahabzadə publisistikasında özünəməxsus şəkildə ifadə olunmuşdur.

Nəticə olaraq görkemli pedaqoq insanların yəni nəsillerin yetişmesənde herkese böyük vəzifələrin düştüğünü, xalqın her üzvünün milli-mənəvi dəyərlərini qoruması həyatı boyunca dini əqidəyə, milli adət və ənənələrə həmişə sadiq qalması gerektiğini tövsiye eyleyir.

Açar sözl r: Azərbaycan, Bəxtiyar Vahabzadə, milli-mənəvi dəyərlər, Əxlaq və mənəviyyat.

İnsan,cəmiyyət uzunmüddətli tarixi inkişafın məhsuludur.İnsanın ilk olaraq formalaşması ailede başlayır və sonrada tərbiyəsinə təsir edən amillərlə davam edir.Bir insanın mənəvi keyfiyyətlərə yiyələnməsi onun dünyagörüşü ve həyatı üçün çox önəmli yer tutur.

İnsan cəmiyyəti inkişaf etdikçə əxlaq,mənəviyyat,davranış normları zənginleşir, mürəkkəbləşir.Bu proses içində insan ümumbəşəri ünsürlərə yiyələnir ve formalaşır.Misal üçün başqasının dərdinə şərik olmaq,nəzakət,fəzil və s. və yaxudda yalancılıq,aldatma,daşqəlblilik,satqınlık kimi əxlaqi vəziyyətlər insanlarda olabilər.

Əxlaq,mənəviyyat və davranış normların formalaşmasında sözsüz ki ailənin,muhitin, məktəbin elbette cəmiyyətin ziyalıları və şairlərin tesiri çox böyükdür.Bunlardan biride xəyli vaxt müəllim kimi işləyən Azərbaycanın xalq şairi,görkemli pedaqoq,mütəfəkkir Bəxtiyar Vahabzadədir.

Onun "Əxlaq və mənəviyyat" (2000), "Dəyərli kitab" (1996) adlı rəylərində, "Şəhriyar" və "Sabah-Nyus" qəzetlərində verdiyi müsahibələrində, "Əxlaq normaları" (2000) və "Dini dəyişmək nə deməkdir" (1996) adlı açıq məktublarında, eləcə də "Dini savadsız mollalardan qorumalı" (1996) adlı məqaləsində bu böyük sənətkarın İslam dini, İslam mədəniyyəti ilə bağlı dəyərli fikirləri, mülahizələri ilə tanış oluruq. Zamanın, dövrün ictimai-siyasi gerçəkliklərindən asılı olaraq, millətin İslami qayda-qanunlardan, dindən, imandan uzaqlaşdırılması, milli adət-ənənələrə, dini bayramlara qoyulan qadağalar şairi daim narahat etmişdir. Yüzilliklərin süzgəcindən keçib gələn milli ənənələrə biganəliyin nəticəsində bir sıra gözəl adət və ənənələrimizin itirilməyə başlamasını ürək ağrısı ilə qələmə alan sənətkara görə, bu gözəl ənənələri unutmaqla insani hisslərimizi və duyğularımızı, bir sözlə, özümüzü unutduğumuzu bilməliyik. Bir zamanlar, durğunluq illərində, yas və toy mərasimləri barədə qadağalar qoyulduğunu xatırladan müəllif bu gözəl adətlərə qəsdi, haqlı olaraq, əslində, xalqa, onun mənəvi dünyasına qəsd adlandırırdı.

Yaradıcılığının bütün sahələrində, ömrü boyu sevgidən, məhəbbətdən söz açan şairin əsərlərinin özü də bu müqəddəs hissdən qaynaqlanır. Anaya, Vətənə, sevgiliyə məhəbbət hissindən başqa, bütün sevgilərin fövqündə dayanan ilahi bir sevgi – bu dünyanın, kainatın yaradıcısı uca Allaha məhəbbət duyğusu da Bəxtiyar Vahabzadə publisistikasında özünəməxsus şəkildə ifadə olunmuşdur.

"Elin hər hansı adət və ənənəsi haqqında fikir yürüdəndə ehtiyatlı olmağ"ın gerçəkliyini də xüsusi vurğulayan Bəxtiyar Vahabzadə bunun səbəbini belə açıqlayır: "Çünki bu adəti xalq elə-belə yaratmayıb. Bu adət min illər boyu yaşayıbsa, demək, onun yaşamağa haqqı var. Demək, o forma deyil, məzmundur" [1]

Əhməd Aydın Bolakın türk gəncliyinə ilahi duyğular aşılayan "Söhbətlər" adlı kitabında toplanan "Kayb etdikdə dəyərini anladığımız", "Gələnəklərimiz və görənəklərimiz", "Ramazan sofraları", "Ramazan adətləri" və s. məqalələri ilə əlaqədar qələmə aldığı "Əxlaq və mənəviyyat" (2000) adlı rəyində Bəxtiyar Vahabzadə bu barədə çox yazdığını, radio və televiziyadakı çıxışlarında xalqını gözəl adət və ənənələrimizi unutmamağa çağırdığını bildirir.

"Dini savadsız mollalardan qorumalı" (1996) adlı məqaləsində cəmiyyətin tərəqqisində, həyatın sosial-iqtisadi yüksəlişində dinin əvəzedilməz rolundan söz açan publisisti, mənəvi təmizliyin təbliği missiyasını öhdəsinə götürən ruhanilərimizin, din xadimlərinin bilik səviyyəsi xüsusi ilə maraqlandırır. Oxucunun diqqətini bu mühüm məsələyə cəlb edən müəllif yazır: "Din, hər şeydən əvvəl, əxlaq təmizliyi, mənəviyyat ucalığıdır. Cəmiyyətdə mənəvi təmizliyi və ruhaniliyi təbliğ etmək missiyasını boynuna götürən ruhanilərimiz bu vəzifəni necə yerinə yetirirlər? Axı, təmizliyi, ruhaniliyi təbliğ etmək istəyən adamın özü, ilk növbədə, özü ruhani aləmə qulluq etməli, özü mənən təmiz olmalıdır"[2] Məqaləsində, son zamanlar xarici missionerlərin ölkə-

[1] Vahabzadə B. əsərləri. 11 cilddə, X c., Bakı: Azərbaycan nəşriyyatı, 2002, s 82

[2] Vahabzadə B. Dini savadsız mollalardan qorumalı. "Yeni Azərbaycan» qəz. Bakı:1996, 20 iyul s.2

dəki fəaliyyəti nəticəsində dinini dəyişib, xristianlığı qəbul edən gənclərin say artımından da narahat olan publisist, bu məsələdə din xadimi Hacı Sabir Həsənlinin fikirlərinə haqq qazandırır: "Hacı Sabir Həsənli bir məqaləsində, haqlı olaraq, yazır ki, gənclərin xaçpərəstliyə meyl etməsi bir çox ruhanilərimizin zəifliyi və savadsızlığından irəli gəlir"[1] Din xadimlərinin savadlılığının, onun söylədiyi moizələrin təsir gücünün cəmiyyətdə dinə məhəbbət və inamın artmasında əhəmiyyətli rolu olduğunu düşünən Bəxtiyar Vahabzadə, fikrini əsaslandırmaq üçün vaxtilə Şəkidə çox maraqlı bir moizəsini dinlədiyi axund Fərəculla Pişnamazzadəni nümunə göstərərək yazır: "Şəkidə axund Fərəculla Pişnamazzadə adlı son dərəcə savadlı bir din xadimi vardı. Türkiyədə, İranda mükəmməl dini təhsil almışdı. Xeyirxahlığı, müdrikliyi hamıya bəlli idi. Onun bir moizəsinə qulaq asmaq, cild-cild maraqlı, məzmunlu kitab oxumağa bərabər idi"[2] "Dini dəyişmək nə deməkdir?" (1996) adlı məqaləsində də missionerlərin Azərbaycandakı fəaliyyəti nəticəsinə öz dədə-baba dinini – İslam dinini dəyişən, xristianlığa, krişnaçılığa üz tutanlardan bəhs edən publisist sənətkarın haqlı etirazı ilə qarşılaşırıq: "Din dəyişmək hadisəsinə tarixin müxtəlif dönəmlərində rast gəlmişik. Lakin mənim müşahidəmə görə, son zamanlar rastlaşdığım bu hadisə savadsızlıqdan və əqidəsizlikdən qaynaqlanır. Din dəyişən adamdan hər iki dini müqayisə edib, sonra nəticəyə gəlmək üçün dərin bilik tələb olunur. O, vaxtilə olduğu və sonra qəbul etmək istədiyi dinlərin bütün incəliklərini, mahiyyətini və fəlsəfəsini bilməlidir. Buna görə də mən dinini dəyişənlərdən soruşmaq istəyirəm: sən qəbul etdiyin dinin hansı üstün cəhətini və inkar etdiyin dinin hansı cəhətinin səni qane etmədiyini bilirsənmi?"[3]

Həyatı boyunca dini əqidəyə, milli adət və ənənələrə həmişə sadiq qalan, hər hansı bir məsələdə əsas mahiyyətə varmadan, kor-koranə başqalarının təsirinə düşməyi, özgələri yamsılamağı heç cür qəbul edə bilməyən Bəxtiyar Vahabzadə "Özümüzə qayıdış" adlı publisistik məqaləsində bu böyük həqiqəti belə ifadə edir: "Başqasını yamsılamaq milləti yamsıladığı millətin ruhuna qovuşdurmaz, əksinə, onu özündən, öz mənliyindən ayırar və bu da onu kiçildər.

"Ömürdən səhifələr" adlı iri həcmli bir yazısında uşaqlığında gördüyü, amma sonralar unudulan gözəl adət və ənənələrimizi itirdiyimizə görə təəssüfünü bildirdiyini qeyd edir. 200 il müstəmləkə şəraitində yaşayan dinsiz-imansız bolşevik ideologiyası ilə tərbiyələndirilməyə çalışılan bir millətin öz xüsusiyyətlərini, milli-mənəvi dəyərlərini qorumasının çətinliyindən bəhs edir. Buna baxmayaraq, bu xalqın sovet imperiyasının istədiyi qədər öz milli kökündən qopmadığını, dini və milli adətləri gizli şəkildə müəyyən qədər qoruyub saxladığını bildirir.

Nəticə

Görkemli pedaqoq yəni nəsillerin yetişməsində herkese böyük vəzifələrin düştüğünü, xalqın her üzvünün milli-mənəvi dəyərlərini qoruması həyatı boyunca dini əqidəyə, milli adət və ənənələrə həmişə sadiq qalması gerektiğini tövsiye eyleyir.

Ele burada deyib: "Ayaqqabılarımı geyə bilərsən, amma yerişimi yeriyə bilməzsən". Beləliklə də, hər millət özü olanda, özlüyündə qalanda böyükdür, güclüdür və başqa millətlər üçün də maraqlıdır. Çox təəssüf ki, biz uzun illər bu həqiqəti bilməmiş, böyüklüyümüzü başqa millətləri yamsılamaqda axtarmışıq"[4] Bu məqamda, Bəxtiyar Vahabzadə həmişə olduğu kimi, yenə də bizlərə qədim söz abidəmizdəki müdrik kəlamları, xüsusilə, ulu babamız Bilgə Xaqanın vəsiyyətini xatırladır: "Ey Türk, özünə qayıt, sən özün olanda böyüksən".

ƏDƏBİYYAT

1. Vahabzadə B. əsərləri. 11 cilddə, X c., Bakı: Azərbaycan nəşriyyatı, 2002, s 82
2. Vahabzadə B. Dini savadsız mollalardan qorumalı. "Yeni Azərbaycan» qəz. Bakı:1996, 20 iyul s.2
3. Vahabzadə B. əsərləri. 12 cilddə, X c., Bakı: ELM Nəşriyyatı, 2008, s 519
4. Vahabzadə B. Din dəyişmək nə deməkdir? "7 Gün" qəz. Bakı, 1996, 16 aprel s.4
5. Vahabzadə B. Özümüzə qayıdış. "Səhər" qəz. Bakı, 1992, 2 oktyabr

[1] Vahabzadə B. əsərləri. 12 cilddə, X c., Bakı: ELM Nəşriyyatı, 2008, s 519
[2] Vahabzadə B. Dini savadsız mollalardan qorumalı. "Yeni Azərbaycan» qəz. Bakı:1996, 20 iyul s.2
[3] Vahabzadə B. Din dəyişmək nə deməkdir? "7 Gün" qəz. Bakı, 1996, 16 aprel s.4
4 Vahabzadə B. Özümüzə qayıdış. "Səhər" qəz. Bakı, 1992, 2 oktyabr

DEALLARIN M N Y N NSANLARIN XLAQ V M N V YYATINDA AXTARAN A R

Sakib l sg rova

filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Bakı / AZƏRBAYCAN

ÖZƏT

Məqalədə Bəxtiyar Vahabzadənin bədii yaradıcılığından milli-mənəvi dəyərlər kontekstində bəhs edilir, o vətəndaş şair, böyük fikir və mətləb sahibi kimi anılır. Eyni zamanda, şairin poeziyası, publisitikası və Azərbaycan ictimai fikrinin inkişafında rolu diqqətlə təhlil edilir.

B.Vahabzadə həm poeziyası, həm publisistikası, həm də Azərbaycan ictimai fikrinin, ədəbi düşüncə tərzinin inkişafında rolu olan möhtəşəm sənətkar, böyük insan olması ilə çox sevildi və sevilir. B.Vahabzadə yaradıcılığında vətən, xalq problemi aparıcı bir qoldur. Eyni zamanda bəşəriyyətin arzularını, hisslərini ürəkdən hiss edərək qələmə aldığı üçün Vətənində sevildiyi qədər, türkdilli xalqlar və dünyanın bir çox xalqları tərəfindən də oxunur və poetik duyğuları məhəbbətlə qarşılanır. Hər bir yazıçı üçün dünyagörüş, düşüncə tərzi yaradıcılığı istiqamətləndirir. Xalqımızın mənəvi dünyasını, milli xüsusiyyətlərini dəyərləndirən Bəxtiyar Vahabzadə vətəndaş şair, böyük fikir və mətləb sahibidir. Vətənpərvər şairin yaradıcılığı öz orijinallığı ilə fərqlənir. Müasir Azərbaycan poeziyasında azadlıq, milli istiqlal ideyalarının təntənəsini öz ecazkar qələmi ilə vəsf edən B.Vahabzadə ədəbiyyatımızın müdrikliyini, fəlsəfi dərinliyini XX əsrdə yenidən canlandırdı, onu müasir tələb, arzu və istəklərlə üzvü şəkildə birləşdirdi.

Açar sözl r: yaradıcılıq, vicdan, mənəviyyat, poeziya.

THE POET WHO LOOKING FOR ORIGIN OF IDEALS IN THE HUMAN'S MORAL AND SPIRIT

SUMMARY

In the article is narrated about the artistic work of Bakhtiyar Vahabzadeh to in the national-moraly context, it resembles as poet-citizen, great thinker. Including especially attentively is analyzed poetry, publisistic of poet and his roll in the development of the Azerbaijan sosiality thought.

Bakhtiyar Vahabzadeh is loved by his poetry, publicism and being great person. The native land and problem of nation is main line in Bakhtiyar Vahabzadeh's creativity. Poet were writing by feeling the dreams and wishes of mankind heartily. And that's why he is loving and reading by Turkish languages nations and some people of the world as much as in his native land. And his poetical senses are greeted lovingly. For every poet his world-view and manner of thought direct his creativity. Bakhtiyar Vahabzadeh who appraised the moral world, the national peculiarities of our people is poet-citizen,the holder of grat thoughts. The creativity of patriot poet distinguishs by orijinality. Bakhtiyar Vahabzadeh who glorifying freedom, national independence ideas in modern Azerbaijan poetry by his pen revived wisdom and philosophical depth of our literature in the XX century again, and joined it with modern demand , wishes and desires.

Key words: art, conscience, moral, poetry.

Zəngin və çoxcəhətli yaradıcılığa malik olan B.Vahabzadə həm poeziyası, həm publisistikası, həm də Azərbaycan ictimai fikrinin, ədəbi düşüncə tərzinin inkişafında rolu olan möhtəşəm sənətkar, böyük insan olması ilə çox sevildi və sevilir. B.Vahabzadə yaradıcılığında vətən, xalq problemi aparıcı bir qoldur. Eyni zamanda bəşəriyyətin arzularını, hisslərini ürəkdən hiss edərək qələmə aldığı üçün Vətənində sevildiyi qədər, türkdilli xalqlar və dünyanın bir çox xalqları tərəfindən də oxunur və poetik duyğuları məhəbbətlə qarşılanır. Hər bir yazıçı üçün dünyagörüş, düşüncə tərzi yaradıcılığı istiqamətləndirir. Həm vətənimizdə, həm də dünyada baş verən ictimai-siyasi və sosial prosesləri vəsf edərək oxucu kütləsinin diqqətinə çatdıran şair müasirliyi təqib etsə də Azərbaycan ədəbiyyatının klassik nümunə və nümayəndələrinə çox hörmətlə yanaşmış, böyük tarixi inkişaf yolu keçmiş Azərbaycan ədəbiyyatının mütəfəkkir ziyalılarını daima hörmətlə anmışdır. Ədəbi tənqid hər zaman B.Vahabzadə yaradıcılığını diqqət mərkəzində saxlayıb. Bəxtiyarın publisistikası və dram yaradıcılığında insanın mənəvi aləminə dərin müdaxilə etməsi onun insan övladına məhəbbətindən və xalqın ziyalıları kimi sadə adamlarının da mənən təkmilləşməsi, zənginləşməsi istəyi ilə bağlıdır. Lirik-psixoloji üslub, bədii-psixoloji kəşflər zaman-zaman Azərbaycan ədəbiyyatının böyük yazarlarının yaradıcılığını istiqamətləndirib. Tarix sübut edib ki, insan psixologiyasına xitab edə bilməyənlər nə siyasət sahəsində, nə də həyatımızın digər sahələrində müvəffəqiyyət əldə edə bilməyib. Yazıçının oxucu üçün yaratdığı bədii nümunələrdə qəhrəmanın psixoloji yaşamı olduğu kimi verilirsə, onu oxu-

yan şəxs öz həyat reallığını görə bilirsə, demək yazıçı məramına nail ola bilib. Bəxtiyar Vahabzadə yazır:

İnsanın qüdrəti öz içindədir,
Yaxşı da bizdədir, yaman da bizdə,
Gerçək də bizdədir, yalan da bizdə.[1]

Azərbaycan ədəbiyyatında həyatda vicdanı, ədaləti yüksəkdə tutan, tutmaq istəyən çox bədii obrazlarımız var. C.Cabbbarlının, H.Cavidin, İ.Əfəndiyevin və b. yaradıcılığında əsas məsələ kimi insan və onun taleyi məsələsi izlənilib. İnsan psixologiyasını dərindən bilən yazıçılarımızın Azərbaycan dramaturgiya tariximizin formalaşmasında, teatrlarımızın inkişafında böyük rolu vardır. Mehdi Məmmədov "Azəri dramaturgiyasının estetik problemləri" əsərində yazır: "Pyesin ləyaqəti bir də real, dolğun və bitkin insan xarakterinin varlığı ilə təyin edilir. Dram əsərlərində vəziyyətin, şəraitin, hadisələrin və süjetin təfsilatı eposda olduğu qədər vacib deyil".

B.Vahabzadənin ilk qələm təcrübəsi olan "Vicdan" pyesi haqqında ədəbi tənqiddə ikili yanaşma var. Bəzi alimlərimiz onu şairin ilk qələm təcrübəsi olduğu, həm də qarşısına qoyduğu ideyanı açа bilmədiyi üçün mükəmməl hesab etmirlər. Ancaq o da qeyd olunur ki, şair özü bunu hiss etdiyinə görə həmin ideyanı "İkinci səs" adlı digər pyesində açmağa çalışır. Şəxsiyyət üçün çox mühüm olan sosial-əxlaqi problemlərin, bədii həlli "İkinci səs"də öz əksini tapır. Bir-birini sevən və başa düşən qəhrəmanların xoşbəxt olması mümkün deyil. Milli mentalitet, adət-ənənələrimizin yazılmamış qanunları buna mane olur. Ailə-məişət fonunda dərin mənəvi məsələlərin problem olaraq qoyulması və həllinə çalışılması müəllifin öz dünyagörüşünə uyğun davranışı kimi qiymətləndirilməlidir. Fəlsəfi mətləblərin açılmasına xidmət göstərən müəllif fikirləri əsas ideyanın açılmasına kömək edir: "Paklıq və mənəvi özünüdərk, kamilliyə ucalmağın yolu" budur. B.Vahabzadənin verdiyi və götürdüyü mənəvi imtahan ürəyin və ağlın, məhəbbətin, vicdanın və məntiqin mübarizəsində haqqın tapdanmaması üçün verilən mücadilənin istiqaməti "vicdanın səsi"nə yönəlikdir. İnsan digər varlıqlardan təfəkkürü, düşüncəsi və düşüncə tərzi, psixoloji halları ilə seçilir. Daxili düşüncə, insanın özü ilə mübahisəsi çox vaxt vicdanın qələbəsi ilə yekunlaşır. Cəmiyyətdə ziddiyyətin olması labüddür, onsuz inkişaf yoxdur və bu əkslik həyatın hər sahəsinə müdaxilə edir. Həyatın bir tərəfində xoş arzular, xəyallar, xoşbəxt gələcək uğrunda mübarizə aparmaq, digər tərəfində boğulan arzu və istəklər, saxta həyat, adiliyin ən aşağı mərtəbəsi var. Bu kimi zidd qütblərin qarşılaşması, mübarizəsi şairin öz qəlbindən keçənlərin bədii təntənəsidir. B.Vahabzadə qəhrəmanları vicdanlarının səsini dinləyir, xoşbəxt olmasa da, mənən sakitləşir, ancaq kədər onların həyatının yol yoldaşıdır. Azərbaycan xalqının çox məntiqli atalar sözləri, zərb-məsəlləri var. Xalq lazım olmayan bir fikri aforizmləşdirmək səviyyəsinə qaldırmaz. "Yuva yıxanın yuvası olmaz", "ağ alın, ağ üz", təmizlik, ülvilik kimi anlayışlara hörmət eləmək fikirlərini təlqin etməyə çalışan B.Vahabzadə məntiqinin təntənəsi ilə üzləşirsən. Təbiəti yaxşılıqlar üzərində formalaşan xalq şairi xalqının vətəndaşıdır, ona ancaq yaxşı keyfiyyətləri aşılamaq qüdrətindədir və buna məhkumdur. Mənəvi-psixoloji əsərlərində vicdanla məhəbbət, hisslə məntiq qarşılaşır, əksər hallarda insanlıq laqeydliyə qalib gəlir. B.Vahabzadə yaratdığı Məlahət obrazının dili ilə oxucusuna bu fikri çatdırır: "Yaxşı adamlar yaxşılığı bir məqsəd üçün eləmirlər, onların təbiəti belədir"[2]. Bəxtiyar qəhrəmanlarının başına gələnləri şəxsi baxımdan qiymətləndirmək düzgün fikir deyil. Onun yaratdığı obrazlar siyasi, iqtisadi və ictimai həyatla bağlıdırlar. Onların mənəvi aləmində həllini tapan məsələlər həm də bəşəri problemlərdir. Bəxtiyar əsərlərini oxuyanda "Kim haqlıdır?", "Həyat, yaşamaq nədir?" kimi suallar insanı düşündürür, iki yol ayrıcında seçim axtaran qəhrəmanların həyatına girməli olursan, ancaq kömək etmək iqtidarında deyilsən. Bu kimi düşüncələr insanı öz həyatına, ətrafa baxmağa sövq edir. Eynəyi gözündə, gülümsər, düşüncəli şairin kölgəsi səni təqib edir. İnsanı bərkdən-boşdan çıxaran həyatın axını ilə getməkmi, yoxsa onu öz ideallarına uyğun şəkildə dəyişə bilmək mücadiləsi verməkmi kimi düşüncələr insanı ağuşuna alır. Bəxtiyar fəlsəfəsinin, psixoloji iqtidarlığının böyüklüyü, təsir dairəsi onun yaradıcılığını dərindən anlayan, əsərlərindəki mənəvi-psixo-

[1] Vahabzadə B.. Fəryad. Bakı, 1995, səh.24.
[2] Vahabzadə B.. Pyeslər. Bakı, 1980, səh.82.

loji kontrastları qiymətləndirməyi bacara bilən hər kəsə daxili aləmin ideya aydınlığını tənzimləyə bilmək bacarığı aşılayır. Bəxtiyar yaradıcılığını oxuyan və onun mənəvi süzgəcindən keçənlərin dəyərləri müsbət yöndə dəyişmək məcburiyyətindədir. Bəxtiyar ikili davranan insanlara qarşı barışmazdır. Qəhrəmanı Fikrət şairlə eyni fikirdədir: başqasına verilən məsləhətə özün əməl edə bilmirsənsə, özünün həyatında təzad var. Məsələni öz xeyrinə həll etmək xudbinliyi obyektivlikdən uzaq xüsusiyyətdir. Şair çox vaxt mənfi və müsbət qəhrəmanlarını özü-özü ilə mübarizə şəraitində təsvir edir. Daxildəki müsbət insanı üzə çıxara bilməyi ruhu və varlığı təmizləmək kimi qiymətləndirir. Daxili konflikt məsələsi çox ədəbi nümunələrdə var. Tətbiqi yolları yazarın dünyagörüşünə görə dəyişir. Laqeydliyə qarşı mübarizə Bəxtiyar yaradıcılığında bir xətt olaraq keçir. Özünü düşünən, cəmiyyətə laqeyd yanaşan insanlar ənənəvi olaraq şairin yaradıcılığında mənfi obraz kimi dəyərləndirilir. Fəlsəfi dərinlik, ziddiyyətin mənəvi tərəfini müəyyənləşdirmək və insanın daxili aləminə müdaxilə edə bilmək bacarığı şəxsiyyət, şair, dramaturq müvəffəqiyyəti kimi Bəxtiyarın adını yaşamı boyu izlədi və izləyəcəkdir.

Müasir Azərbaycan poeziyasında azadlıq, milli istiqlal ideyalarının təntənəsini öz ecazkar qələmi ilə vəsf edən B.Vahabzadə ədəbiyyatımızın müdrikliyini, fəlsəfi dərinliyini XX əsrdə yenidən canlandırdı, onu müasir tələb, arzu və istəklərlə üzvü şəkildə birləşdirdi. Vətənpərvər şairin yaradıcılığı öz orijinallığı ilə fərqlənir. “Muğam”,“Gülüstan”, “Ağlar-güləyən”,“Şəbi-hicran” kimi güclü əsərləri ilə klassik poeziyanın kədər motivlərini müasir oxucusu ilə tanış etdi. Sovet dövrünün “kəsə-kəs” zamanında belə poemalarında müstəqim fikirlərlə bərabər rəmzi mənalara da diqqət çəkən şair milli ruhlu əsərləri ilə bütün insanlara, xüsusən gəncliyə vətən və vətəndaşlıq anlayışlarını təlqin etdi. “Atılmışlar”, “İstiqlal”, “Təzadlar”, “Şəhidlər” kimi əsərləri Azərbaycan xalqının milli taleyi barədə məsaj verən güclü poemalardır. Şəhid məzarlarını Vətənin köksündə vüqarla duran düşmən qənimi hesab edən şair özünü və özü fikirdə olanları mənəvi cəhətdən borclu sayır. Bu borc şəhid qanını yerdə qoymamağa səsləyən əsgər andı kimidir. Şəhidlərimizin tarixi hünəri şairimizi qürurlandırır. Ancaq şair bizi düşündürür ən məqamlara da toxunur. Düşmənə qalib gələrək yaşamaq varkən həlak olmaq bizim qismətimizmidir? Sonra həm özünə, həm də oxucusuna təskinlik verir:

Yüz-yüz itən olsun,
Min-min də bitən var.

Vətən uğrunda ölmək şərəfdir və Vətənimiz əbədidir. Vətənə, onun bütövlüyünə, ana dilinə sədaqətlə xidmət edən B.Vahabzadə xalqımızın varlığının mənəvi daşıyıcılarındandır. Vətəni ikiyə bölən sərhəd şairin gözündə qiymətsizdir. “Bütöv Vətənimə bütöv bağlıyam” deyən şair Azərbaycanı bölgələrlə çağırmağın tərəfində deyil. Vətən və bütöv Azərbaycan milli birlik missiyasının simvoludur. Dilimizə, vətənimizə, onun birliyinə, bütövlüyünə sədaqət göstərməyənlərə vətən çörəyini halal etmir. Bir elin dilini, ruhunu, torpağını kağız üstə bölənlərə “Təbriz də, Bakı da Azərbaycandır,” – deyə qəzəblə cavab verir. Sovet dövründə Gülüstanda bağlanan və xalqımızı ikiyə bölən müqaviləyə etiraz olaraq “Gülüstan” poemasını yazması, Səttarxan, Xiyabani və Pişəvəri kimi inqilab mücahidlərini vəsf etməsi qorxmaz şairin xalqının adından güclü etiraz səsi idi. Bu müqaviləni bağlayan yad ağalara “Axı bu ölkənin öz sahibi var!” deyə müraciət edən şair doğru zamanında onlara “durun!” deyilmədiyi üçün dəhşət püskürür:

Siz nə yaz Siz n % %

Դ Ե Դ Զ

İki-üç dəfə qarşılaşıb söhbət əsnasında sadəliyinə də inandığım şair öz böyüklüyü haqqında bəlkə də heç düşünmədi. Oxucu ilə sələflərini ona hiss etdirmədən qarşılaşdıran, əxlaq və mənəviyyat dərsi verən, Nizami kimi hökmdar və xalq probleminə toxunan, əqidə və fikir sahibi olmasını sübut edə bilən mütəfəkkir şairimiz bənzərsiz və təkrarolunmaz yaradıcılığı ilə dünya durduqca yaşayacaqdır. Ən böyük insanlıq da, həqiqət də, ülvilik də, mənəviyyat da elə insanın özünə hörmət edib ona xidmət etməkdir. Xalqına xidmət edən şairə xalqı qəlbində taxt qurdu. Bu taxtda otura bilmək qüdrəti qazanan Bəxtiyar Vahabzadə yüzilliklər boyu öz yaradıcılığı ilə bəşər övladını kamilliyə səsləyəcək. Xalqımızın mənəvi dünyasını, milli xüsusiyyətlərini dəyərləndirən Bəxtiyar Vahabzadə vətəndaş şair, böyük fikir və mətləb sahibidir. Onun fiziki susmağını da danışmaq kimi qiymətləndirməliyik. Bəxtiyar adı ağsaqqal nüfuzudur.

D B YYAT

1. Vahabzadə B.. Seçilmiş əsərləri. Bakı, 1974.
2. Vahabzadə B.. Sadəlikdə böyüklük. Bakı, 1978.
3. Vahabzadə B.. Fəryad. Bakı, 1995.
4. Vahabzadə B.. Pyeslər. Bakı, 1980.
5. Qarayev Y.. İkinci səslə söhbət. Kommunist, 1969, 29 iyun.
6. Əlizadə M.. Lirik-psixoloji dramda qəhrəman problemi. Bakı, 1983.
7. Məmmədov A.. Vicdan səsi. Kommunist, 1982, 27 yanvar.
8. Xəlilov T.. Əqidə və inam poeziyası. Ulduz, 1985, №1.

B XT YAR VAHABZAD E RL R M KT BL L R N T RB Y VAS T S K M

Piralı L YEV

Prof., Dr., Təhsil Problemləri İnstitutu
Tərbiyə Problemləri Şöbəsi
Bakı/ AZƏRBAYCAN
piralibexbud56@ mail.ru

XÜLAS

Azərbaycan Respublikasının ümumi təhsil məktəblərinin bütün(ibtidai, ümumi orta və tam orta təhsil) pillələrində xalq şairi Bəxtiyar Vahabzadənin əsərlərindən nümunələr tədris olunur. Xüsusilə V-XI siniflərin ədəbiyyat dərslərində şairin əsərləri sistemli şəkildə məktəblilər tərəfindən öyrənilir. Belə ki, V sinifdə "Şəhidlər" poemasından bir parça, VI sinifdə "Bayraq", VII sinifdə "Azərbaycan", IX sinifdə "Latın dili" şeirləri, XI sinifdə isə şairin həyatı, yaradıcılığı və "Gülüstan" poeması monoqrafik şəkildə tədris olunur. Bunlarla yanaşı, məktəblilər ədəbiyyat proqramının tələbinə uyğun olaraq B.Vahabzadənin əsərlərini sinifdənxaric oxuyurlar. Məktəblərdə təşkil edilən ədəbi-bədii tədbirlərdə də ən çox müraciət olunan şeir nümunələri B.Vahabzadənin əsərləridir.

Məktəblilərin milli-mənəvi, dini-dünyəvi dəyərlər əsasında tərbiyə olunmasında B.Vahabzadə irsinin geniş imkanları vardır. Bu nümunələrdən bir vasitə kimi istifadə etməklə gənc nəsli kamil bir vətəndaş kimi formalaşdırmaq mümkündür.

Açar sözl r: şeir, məktəbli, tərbiyə, vasitə, milli-mənəvi, dini-dünyəvi, vətənpərvərlik, vətəndaşlıq, şəhidlik, atributlar, məktəb həyatı, Azərbaycan təbiəti

ABSTRACT

The works of The National Poet Bakhtiyar Vahabzade are being studied systematically in all levels of schools (primary, secondary and high) in Azerbaijan. Especially, in the fifth grade "Martyrs", in sixth grade "The Flag", in the seventh grade "Azerbaijan", in the ninth grade " Latin language" poems and in the eleventh grade the life and the literary activity of the writer and the novel "Gulustan"are taught in monographic way to our students. At the same time, according to the demand of literature curriculum the works of the poet are read as a home reading by schoolchildren. At school measures the students present the samples of works of Bakhtiyar Vahabzade with great pleasure. The heritage of Bakhtiyar Vahabzade plays a great role in upbringing of our generation in the basis of values of national-moral and religious-world. It is a good way for formation of a real citizen of our young generation for future with the help of these heritage.

Key words: poem, schoolchildren, upbringing, national-moral, religious-world, citizen, martyrs.

Azərbaycan ədəbiyyatında milli istiqlal və azadlıq ideyalarını tərənnüm edən xalq şairi Bəxtiyar Vahabzadə yaradıcılığı çoxşaxəliliyilə diqqəti cəlb edir. Yaşından asılı olmayaraq hər bir insan B.Vahabzadə poeziyasının oxucusudur. Bu konteksdən yanaşsaq görərik ki, Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin bütün pillələrində (ibtidai, ümumi orta və tam orta təhsil) xalq şairi B.Vahabzadənin əsərlərindən nümunələr tədris olunur. Xüsusilə V-XI siniflərin ədəbiyyat dərslərində şairin əsərləri sistemli şəkildə məktəblilər tərəfindən öyrənilir. Belə ki, V sinifdə "Şəhidlər" poemasından bir parça, VI sinifdə "Bayraq", VII sinifdə "Azərbaycan" və X sinifdə "Latın dili" şeirləri, XI sinifdə isə şairin həyatı, yaradıcılığı və "Gülüstan" poeması monoqrafik şəkildə tədris olunur. Bunlarla yanaşı, məktəblilər ədəbiyyat proqramının tələbinə uyğun olaraq B.Vahabzadənin əsərlərini sinifdənxaric oxuyur və məktəbdə müzakirəsini təşkil edirlər. Aparılan araşdırmadan məlum olmuşdur ki, məktəblilər ən çox B.Vahabzadənin şeirlərini müstəqil oxuyurlar.

Ümumtəhsil məktəblərində təşkil edilən tədbirlərdə ("Beynəlxalq Ana Dili Günü", "Novruz bayramı", Respublika Günü", "31 Mart Azərbaycanlıların Soyqırımı Günü", "Müstəqillik Günü", "Dünya Azərbaycanlıların Həmrəylik Günü","Bilik Günü","Ümumxalq Hüzn Günü" və "Müəllim Günü"ndə və s.) müraciət olunan şeir nümunələri B.Vahabzadənin əsərləri olur. Deməli, məktəbliləri milli-mənəvi, dini-dünyəvi dəyərlər əsasında tərbiyə etmək üçün B.Vahabzadə irsinin geniş imkanları vardır. Bu imkanlardan optimal yollarla istifadə edərək, gənc nəsli kamil bir vətəndaş kimi formalaşdırmaq mümkündür.

Fikrimizcə, B.Vahabzadə yaradıcılığı məktəblilərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Çünki şairin əsərlərində də ön sırada vətənpərvərlik ideyası durur. Vətənin bütövlüyü, müstəqilliyi fikirləri B.Vahabzadə poeziyasının ana xəttini təşkil edir.

Vətən və vətənpərvərlik haqqında şairin maraqlı fikirləri var. B.Vahabzadə yazır: "... Vətən sevgisi insan duyğularının ən alisi, ən yüksəyi və ən müqəddəsidir. İnsan mənsub olduğu vətəni sevməklə özünü, cəmiyyət qarşısındakı borcunu tapmış olur. Vətən və xalq hissindən məhrum olan şəxs, bütün insani hisslərdən məhrumdur. Vətənini sevən adam həyatı sevir, dünyanı sevir. Çünki o nə üçün yaşadığını, nəyin naminə çalışdığını bilir. Vətən sevgisi insana məslək, amal gətirir. Məslək isə ürəyə cəsarət, qollara qüvvət, gözlərə işıq verir..." (B.M.Vahabzadə, 1976, 211). Bu fkirləri B.Vahabzadə öz poeziyasının ideyasına gətirmişdir.

Şair o taylı, bu taylı Azərbaycanın müstəqiliyə qovuşmaq üçün apardığı mübarizələrini tərənnüm edir. 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Demokratik Respublikası dövründə həyata keçirilən tədbirləri yüksək qiymətləndirir. Qəbul olunmuş üçrəngli bayrağın sevilməsini, onunla qürur duyulmasını poetik misralarla ifadə edir. "Bayraq" şeirində həkk olunmuş Ay-Alduzun və rənglərin tariximizlə, milli xüsusiyyətlərimizlə bağlılığını bu şəkildə bildirir:

Torpağın üstündə kölgələr salan,
Mənim varlığımın cilası – bayraq.
Zəfərdən doğulmuş Göytürkdən qalan
Qurdbaşlı bayrağın balası bayraq...

B.Vahabzadə şeirlərində Azərbaycan Respublikasının atributlarından olan Gerbinə və Himninə də hüsn-rəğbət ifadə olunmuşdur.

Cənublu soydaşlarımızın zaman-zaman apardıqları milli azadlıq hərəkatı və bu mübarizədə verdikləri şəhidlər şairin şeirlərinin mövzusu olmuşdur. 1941-1946-cı illərdə baş verən milli dirçəliş hərəkatı və onun liderlərinin faciəli taleyi şairi düşündürmüş və öz düşüncələrini ictimailəşdirərək poeziyaya gətirə bilmişdir. O, Arazın cənubunu da vətən adlandırır:

Arazın
bu tayı vətənim,
o tayı vətənim.
Vətəni görməyə amanım yox mənim...

Vətəni nəinki, sadəcə, görmək istəyir, həm də bütövləşmək, birləşmək üçün vahid cəbhədə mübarizə aparmağı təbliğ edirdi.

B.Vahabzadə vətənin ülviliyini tərənnüm edirdi:

Azərbaycan, sənsən mənim
Ülviyyətim şan-şöhrətim.
Adın mənim öz adımdır,
Sənsiz mənim nə qiymətim?..

Milli-müstəqillik yolunda şəhid olmağın müqəddəsliyini tərənnüm edirdi. Bu zaman insanın şəhidlik zirvəsinə qalxması ilə əbədiyaşarlıq qazandığını vurğulayır.

1990-cı ilin 20 Yanvar gecəsi SSRİ Silahlı Qüvvələri Bakı şəhərində dinc nümayiş keçirən silahsız insanları güllə-baran etdi. Qoca, gənc, uşaq demədən qarşısına çıxanların hamısını məhv etdi. Sovet ordusunun təcavüzü nəticəsində 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi,3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs olunmuş, 4 nəfər itkin düşmüşdür. Şəhər matəm içərisində idi. Hadisəni B.Vahabzadə "Şəhidlər" poemasında əks etdirdi. B.Vahabzadə 20 Yanvar gününü xatırlayarkən yazırdı: "Mənim nəslim həmişə qorxu içində yaşayıb. 20 Yanvar hadisəsində mənə təsir edən əsas amil o oldu ki, millətimin, xüsusən gənclərin qəlbimizdəki qorxu hasarını atıb hissin cəsarət meydanına keçdiyini öz gözlərimlə gördüm. Bu isə azadlığa çatmağın ilkin şərti idi. Azadlıq naminə qurban gedən şahidlərimiz bizə azadlığın zərurət olduğunu və lazım gələrsə, millətin bu yolda ölümə belə gedə biləcəyini sübut etdilər. Bu düşüncələr içində çırpınarkən fikrimə gələn bənd bu oldu:

Qatil güllәsinə qurban gedərkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

Bu bənd əvvəlcə, "Şəhidlər" mərsiyəsinin, sonra da eyniadlı poemasının bünövrə daşı oldu" (B.M.Vahabzadə, 1998, 23)

... İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyri, şəriylə,
Torpağın bağrına cəsədləriylə,
Azadlıq toxumu əkdi şəhidlər...

Həqiqətən, müstəqilliyə gedən yol çətin və qurbanlı oldu. 1990-cı ilin 20 Yanvarını Azərbaycan Respublikasının müstəqilliyinə gedən yolun başlanğıcı kimi qiymətləndirmək olar. Şəhidlər əbədi olaraq qan yaddaşımıza həkk olundular, onlar milli ideallarımıza nur saçdılar. "Şəhid anası" şeirində B.Vahabzadə mövzuya başqa müstəvidən baxır. Bəzi məmurların biganəliyi qarşısında şəhid anasının: "- Şəhid anasıyam, mənə rəhm elə!",- deməsindən şair qeyzlənir:

... Bu iki kəlmənin mətləbi nəydi?
Duymayıb, həm ona, həm sözə qıydıq.
- Şəhid anasıyam, - deməməliydi,
Biz onu gözündən oxumalıydıq...

Şairin əsərləri vasitəsilə məktəblilər ana dilini daha dərindən sevirlər. Şair əsərlərində bu məsələni dönə-dönə vurğulayır. Dil xalqın, millətin, onun mədəniyyətinin göstəricisidir. Hər bir insan öz ana dilini sevməli və o dildə danımağı bacarmalıdır. Bəziləri ana dilində danışmağı özünə ar bilir. Belələrini B.Vahabzadə qınayır və öz tənqidi münasibətini bildirir. 1954-cü ildə qələmə aldığı "Ana dili" şeirində yazırdı:

Ey doğma dilində danışmağı ar bilən,
fasonlu ədabazlar,
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar,
Bunlar qoy mənim olsun,
Ancaq vətən çörəyi sizlərə qənim olsun.

Ana dilini sevməyin hələ kifayət etmədiyini, onun işləkliyinə, tətbiqinə çalışmağı mühüm məsələ hesab edirdi. Azərbaycanın iki yerə bölünməsindən sonra onun dilinə yad sözlər çox daxil oldu. Cənubda ərəb-fars, Güneydə isə rus dili sözləri dilimizin gözəlliyinə təsir etdi. İndinin

özündə Cənublu soydaşlarımızla söhbət edərkən sözlərinin çoxu anlaşılmır. Bəziləri isə farsca danışır, ana dilini çox zəif bilirlər.

... Təbriz də, Bakı da Azərbycandır,
Bir elin ruhunu, dilini ancaq
Kağızlar üstündə bölmək asandır.

B.Vahabzadə "Latın dili" şeirində isə bir xalqın, millətin faciəsinə çevrilmiş problemi əks etdirmişdir.

Latın dili!
Hər sözündə dünya boyda yük daşıyır,
Latın dili!
Millət ölüb, dil yaşayır.
"Ana" deyən, "Torpaq" deyən, "Vətən" deyən
yox bu dildə.
Ancaq yenə yaşar bu dil...

Ədəbiyyat tariximizdə B.Vahabzadə fəlsəfi ideyalar aşılayan fikir, söz şairi kimi də əbədiləşmişdir. Doğrudur, ümumtəhsil məktəblərin XI siniflərində B.Vahabzadənin lirikası tədris olunarkən bu məsələ üzərində daha geniş dayanılır. Şair olum-ölüm məsələsinə aydınlıq gətirərkən, insanın dünyada xeyirxah işlər görməsini, bu dünyadan əbədiyyətə qovuşandan sonra xoş xatirələrlə yad olunmasını arzu edir. Ölümün müxtəlif yaşantılarını poetik dillə belə verir:

... Ömür
Ölüm məhkumluğunda
Nəfəs almaq fürsəti,
Ömür – cəza müddəti!

"Ölüm" şeirində göstərir ki, yaranışdan bilirik zamanın hökmü ilə hər kəsə ölüm qismətdir. Ölümdən o yana olan dünyanı dərk edə bilmirik, çünki ölüm buna mane olur. Ululərımız da söyləyib ki, torpaqla ölüm vəhdətdədir. Zamanı saxlaya bilsəydik, ölümün nə olduğunu anlayar-dıq, bəlkə insana hörmətdi? Ölənin qəbri üstündə göz yaşları tökürük, amma başa düşə bilmirik ki, bu proses insana şərəfdir, yoxsa, fəzillətdir.

Bəşər ölməzsə, bu dünya təzələnməz qocalar,
Bütün insanlıq üçün bir əbədiyyətdi ölüm.

B.Vahabzadə olum - ölüm, cavanlıq-qocalıq, insan - zaman, xeyir - şər, nəfs - nəfsin qorunması, işıq – qaranlıq və s. problemləri şeirlərində fəlsəfiləşdirə bilmişdir. İkili xarakterə malik olan həyatdan zövq almağı, mənalı yaşamağı, xalqına və millətinə fayda verməyi, yaxşı işləri və əməllərilə əbədiyaşarlıq qazanmağı tövsiyə edirdi.

B.Vahabzadə şeirlərinin fəlsəfəsində gözəlliyin mənbəyi kimi həyat və təbiətin vəhdəti götürülməsidir. Şairin əsərlərində Azərbaycan təbiətinin füsunkar gözəlliyi mühüm yer tutur. Uca dağları, çağlayan bulaqları, yaşıl meşələri olan ölkəmizin tərənnümü verilmiş şeirləri oxumaqla məktəblilər onları sevirlər. Təbiət gözəlliyi insan ruhunun məlhəminə çevrilir. Lakin hər adam bu gözəllikdən eyni şəkildə həzz almır. Sürətlə axan çay kiminsə əsəblərini sakitləşdirirsə, bəziləri ona adi hal kimi baxır. Ona görə də uşaqların qəlbində kiçik yaşlarından təbiətə məhəbbət aşılamaq lazımdır. B.Vahabzadənin "Yol-dağ", "Gəl, ana təbiət" və s. şeirlərində təbiət və insan, onların qarşılıqlı əlaqəsi məsələsi aydınlaşdırılıbdır.

Şairin şeirlərində müəllim, məktəb, məktəbli obrazları canlandırılır. Şairin obrazları qəlbləri riqqətə gətirir, məktəblilərdə oxumağa həvəs yaradır, uşaqlar arasında dostluq münasibətlərini möhkəmləndirir. Vaxtilə çap etdirdiyi, sonralar seçilmiş əsərlərinə daxil etdiyi "Məktəb illəri" silsilə şeirləri o illərin xatirəsi kimi canlandırılmışdır. Bu şeirləri məzmununa görə İ.S.Əliyeva iki yerə bölür: "... Bir qisim şeirlərində gənc nəsli tərbiyə edib yetişdirən müəllimə hörmət və məhəbbət hissi, ikinci qisim şeirlərində isə məktəblinin gözəl əxlaqi keyfiyyətləri tərənnüm olunur..." (İ.S.Əliyeva, 1988, 38)

İlk müəllimini heç zaman unutmayan şair, onun obrazını əks etdirən şeirlər yazmaqla yanaşı, publisistik yazılarında da bu məsələyə öz münasibətini bildirir: "Müəllim dediyim zaman həmişə mənim yadıma ilk müəllimim düşür. İlk müəllim! Bizə qələm tutmağı öyrədən, gözümüzə nur

verən, beynimizdə ilk naxış açan bu gözəl, xeyirxah insan həmişə bizim üçün ana qədər mehriban, ata qədər əziz olmuşdur. Adam ilk müəllimini nəsə, xarüqüladə bir varlıq kimi təsəvvür edir..." (B.M.Vahabzadə, 1976, 195).

Əlifba kitabı! Xəzansız bahar!
Üstündən nə bulud, nə də çən keçir.
Bütün elmlərə gedən cığırlar,
Bu sadə kitabın üstündən keçir...

Məktəbli müəllimdən, kitablardan öyrənərək gözəl əxlaqi dəyərlərə sahib olur. Bu yolda zəhmət çəkərək uğur qazanan məktəbliyə qızıl medal verilir.

... Həyat yollarına düşmüsən artıq.
Hələ qabaqdadır qələbən sənin.
Medalında yanan o parlaq işıq
Rəmzidir işıqlı gələcəyinin.

B.Vahabzadə əsərləri şagirdləri əməksevərlik, əməyə bağlılıq və peşələrə maraq ruhunda da tərbiyə edir.

Şairin lirik şeirlərilə yanaşı, epik və dramatik əsərləri də məktəblilərin tərbiyəsində mühüm rol oynayıır. Onun "İstiqlal", "Təzadlar", "Qiymət", "Atılmışlar" kimi əsərləri məktəblilər tərəfindən maraqla oxunur. "Gülüstan" poemasında Azərbaycanın yadlar tərəfindən güclə iki yerə bölünməsindən danışılır:

... Bir deyən olmadı durun, ağalar!
Axı bu ölkənin öz sahibi var!
Siz nə yazırsınız bayaqdan bəri,
Bəs hanı bu yurdun öz sahibləri?...

Poemada vətəni parçalayanlara qarşı nifrət hissi aşılanır. Şair bu əsəri ilə ölkənin tarixini unutmamağı, hər şeyi olduğu kimi qiymətləndirməyi təbliğ edir.

Hesab edirik ki, B.Vahabzadə şeirləri məktəbliləri milli-mənəvi, dini-dünyəvi dəyərlərimiz, soy-kökə bağlılıq ruhunda tərbiyə edir, onların kamil insan kimi formalaşmasında müstəsna rol oynayır.

D B YYAT

1. Əliyeva İ.S. Bəxtiyar Vahabzadənin lirikası. Bakı: Yazıçı, 1983
2. Vahabzadə B.M. Sənətkar və zaman. Bakı: Gənclik, 1976
3. Vahabzadə B.M. Dan yeri (şeirlər, poemalar). Bakı: Gənclik, 1973
4. Vahabzadə B.M. Bir ömür yuxu. Bakı: Azərbaycan, 1998
5. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün dərsliklər. Bakı: Çaşıoğlu, 2009

BAHT YAR VAHABZADE'N N ESERLER NDE ÜM T

Muhammet Mustafa Gül

Dr., Qafqaz Üniversitesi, Pedagoji Fakültesi
İngiliz Dili ve Edebiyatı Bölümü, Bakü
mgul@qu.edu.az

ÖZET

Azerbaycan Halk Şairi olan Bahtiyar Vahabzade,Türk dünyasında önemli bir yere sahiptir.Ülkesinin demir duvarlarla çevrili olduğu dönemlerde milletinin arkasında durmuş,milli mücadelede öncülerden olmuştur.Karanlık dönemlerde kalemini aydınlık günler için kullanan Vahabzade, ümide ayrı bir yer vermiştir.Türk dünyasının bağımsızlığını birinci derecede istiyen şair,Halkın pesimist düşüncelerden kurtulup geleceğe ümitle bakmaları adına şiirlerini optimist konulu ele almıştır.

Bu makalede Halk Şairi olan Bahtiyar Vahabzade'nin eserlerindeki ümit mevzuları ele alınacaktır.

Anahtar Kelimeler: Bahtiyar Vahabzade,Azerbaycan, ümit, özgürlük.

THE CONCEPT HOPE IN BAKHTIYAR VAHABZADE'S WORKS.

ABSTRACT

Bakhtiyar Vahabzadeh was one of the Azerbaijani National poets, who loomed consequential place in the Turkic world. He always supported his nation and spearheaded the national strife when his country was enclosed by iron walls. Bakhtiyar Vahabzadeh always made use of his pen in the dark periods to promise well. The great poet craved for the independence of the Turkic world, thence wrote his encouraging poems to hold out a promise to his nation and to break them free from the pessimistic contemplations.

This article is devoted to the theme of hope sited in the works of Bakhtiyar Vahabzadeh.

Key Words: Bakhtiyar Vahabzadeh,Azerbaijan,Hope,freedom.

16 Ağustos 1925 yılında doğan Mahmut oğlu Bahtiyar Vahabzade, Azerbaycan'ın(1)Tj/T9-1.5.14 0 TD0BT/

Şair olup bitenler karşısında o kadar dertli idi ki, kendi öz değerlerinden uzaklaşmış top-lum karşısında O'da dile geliyor ve şöyle diyordu:

Okuyup hak kitabını,
Çektim dünya azabını.
Çok içtim gam şarabını
Bir kez olsun dem olmadım.

Bugünümden perikmişim[2]
Geleceğe göz dikmişim.
Ömür boyu dert çekmişim,
Ama derde yem olmadım[3].

Vahabzade, hayatın zorluklarından geçmeden ve sıkıntılara tahammül etmeden geleceğe ümitle bakılamıyacağını da şiirlerinde yansıtmıştır.O, ümidi kendi iç aleminde yalnız bırakmamış ona sabrı da arkadaş etmiştir.Zamanın kendi şartları içerisinde sabrı da öne çıkarmış,ümit ile sabrın bir arada olması gerektiğini dizelerinde yansıtmıştır.Şu veciz ifadeler onun ne kadar sabırlı ve ümitli olduğu görülmektedir.

Gel kışa lanet yaza can deme
Kışın dertleri yaz içindedir.
İnişte yokuş var,yokuşta iniş.
En büyük ateş de buz içindedir[4].

Şair, kendi dünyasında çok derin tefekkürlere dalıyordu.Bu tefekkür aleminde, bir ömrün inançlara daha sadık kalınarak yaşanılması gerektiğini görüyordu.Kendi müktesebatında, olması gerektiği yerde olamayışından dolayı ayrı bir dert sarıyor ve yer yer ümitleri de kırılmıyor değildi.

Niye çaştım,niye çaşdım[5],
Güneşimden uzaklaşdım.
Ümidim yok sabahıma,
Men öz ömür servetimi
Uduzmuşam[6] günahıma.

Halk Şairi Bahtiyar Vahabzade iman esaslarına da önem veriyordu.İmanlı olan insanın en kötü şartlarda bile korkusuz olacağını bildiriyordu.Şu dizelerde O'nun iman konusunda ne kadar net olduğu görülmektedir:

Çarpıştım zaman zaman
Beni yaşattı iman.
Korkmadım fırtınadan,
Gittim borana[7] doğru.[8]

Bahtiyar Vahabzade iirlerinde Sevgi ve Ümit Örnekleri

Türk Dünyası'nın kalbinde geniş yer kazanan Şairimiz, diğer şairlerin seve seve işlediği sevgi mevzusunda da kendisine has bir şekilde ele almıştır. Sevgide ümidin daha çok olduğunu bildiren Şair,"Mirvari" şiirinde bir hanımın kendi ailesinin ve sevgisinin hiç bir zaman solmayacağını, hatta eşinin enin de sonun da geri döneceğine beslenen ümidin boşa çıkmıyacagı dile getirmiştir.

- Hiç olmasa rüyamda görseydim sevgilimi,
Ben onun hasretinde yanarım ateş gibi.

dizeleri kalbi sevgiyle çırpınan bir gencin ümit dolu duygularını yansıtmaktadır.

---

[1] Bahtiyar Vahabzade eserleri 9.cild,Elm Neşriyatı 2008, Bakü,s269
[2] Uzak düşmek.
[3] Türk dünyasının sesi B.V.,Qafqaz Araş.İnst.yayınları Bakü 2009,s123
[4] Türk dünyasının sesi B.V.,Qafqaz Araş.İnst.yayınları Bakü 2009,s9
[5] Şaşırmak
[6] Kaybetmek
[7] Fırtına
[8] http://www.ihvanforum.org/archive/index.php/t-18449.html

Şair, sevgiyi bazen ızdırabla, bazen de dert ve tasa ile açıklardı."Bir selama deymedi" şiiri, verdiği selamın cevabını almak ümidi ile yanan gencin acı feryadını dile getirmektedir.[1]

Her gün adlı şiirinde ise Üstad Vahabzade sevgilisini görmek için yanmaktadır.

Akşam düşür şehere...
Yanır gızıl çıraklar.
Akşam üstü yine de
Gönlüm seni soraklar[2]...

Gönül buza dönermiş
Adam yalgız[3] olanda.
Gözüm seni aktarır[4]
Her gün gaş garalanda [5]

Şair,sadece gerçek hayatta değil,rüya aleminde bile kendi sevgilisinin istekleri ile yaşıyan bir genci canlandırmaktadır.

Yukuma gelmiştin, danışdık hayli...
Biz öz özümüzü yaman danladık.
Niye gileyliyik[6],neden gileyli?
Düşündük,danıştık,duyduk,anladık.

Yukuda gurtardık[7] üzüntülerden
Garşıda ışık var,ümid var gülüm.
Yukumu sanada danışmaram men,
Yukular tersine yozular, gülüm. [8]

Bahtiyar Vahabzade sosyal problemlerin dışında yeni doğan çocuklara hatta okula giden öğrencileri bile şiirlerinde yansıtmıştır.O'nun şiirlerinde sevgi dolu bakışlar, çocuklara verilen ümit ve aynı zaman da geleceğe iten bir güç olduğu görülmektedir.Geleceğimiz olan çocukların her adımını şiirlerinde ebedileştiren şair,daha sonra bunu kızının timsalinde şöyle verir:

Gıymet defterine[9] bakıram senin,
A gızım, ne yahşi gıymetlerin[10] var.
Her beşin,her dördün üstünde yegin[11]
Ne geder zahmetin,alın terin var.

Onların her biri dönüb çırağa,
Ömür yollarına ışık tutacak.
Dönse de sevinçten yüreğin dağa,
Öz gıymeti olur heyatın ancak.[12]

Bahtiyar Vahabzade'nin Türkiye Özlemi ve Ümidi

Türkiye'nin kahramanlık hikayeleri ile büyüyen Bahtiyar Vahabzade,her zaman Türkiye'ye kavuşma hayalleri ve ümidiyle yaşamıştır.Evlerinde Türk askerinin kahramanlıkları anlatılır, Azerbaycan için gelen askerlerin hikayeleri konuşulurmuş.İçi alev alev Türkiye hasretiyle yanan şair,Türkiye'ye gitmek,kendi kanından ve canından olan Ata yurdum dediği insanlara kavuşmak

[1] Bahtiyar Vahabzade eserleri 2.cild, Elm Neşriyatı 2008, Bakü s469
[2] sormak
[3] yalnız
[4] Aramak
[5] Bahtiyar Vahabzade eserleri3.cild, Elm Neşriyatı 2008, Bakü ,s296
[6] Şikayet,rahatsızlık
[7] Bitirmek
[8] Bahtiyar Vahabzade eserleri 4.cild,Elm Neşriyatı 2008, Bakü,s423
[9] Karne
[10] Not
[11] Galiba
[12] Bahtiyar Vahabzade eserleri 1.cild, Elm Neşriyatı 2008, Bakü,s114

istiyordu.Bu hasret tam 35 yıl çeker. Nihayet 1961 yılında bu fırsatı yakalar ve İstanbul'a gider. Şairin yapmış olduğu ziyareti kendi azından dinliyelim:

"-Dedemin,babamın ve amcalarımın ağzından Türkiye hiç düşmezdi.Ben şimdi soyumdan gelen arzuların hayallerin ülkesi olan Türkiye'ye gidiyorum.Sabah erkenden kalkıp tıraş oldum. Otuz beş yıldır hasretini çektiğim,ismini zaman zaman andığımda bütün bedenimi titreten, koluma kuvvet,ayağıma takat,gözlerime ışık veren bir şehre, İstanbul'a gidiyorum.Ümitgahım, önünde boyun eydiğim, zorla elimden alınanadımın sahibi, namusumun, izzet ve şerefimin ko-ruyucusu, gören gözüm,vuran kolum, düşünen beynim,yardımcım dayanağım, çbayrağım, kaybettiğim tarihim,geçmişim ana dilim,şerefim hepsi sendedir.

Kamaranın penceresinden bakıyorum uzakta fener yanıp sönüyor.Allah'ım İlk defa Türk ışığı görüyorum.O ışıkta benim arzularım yanıyor.Ey fener,sen sana tarih boyu düşman olan bir milletingemisine yol gösteriyorsun.O geminin içinde sana can vermeye hazır birisi var."

Pasaport kontrolünden sonra Türkiye Cumhuriyeti mührünü gören şair duygulanır ve heyecan sarar.

"Ben sana kurban olayım.Ey benim Cumhuriyetim!Ey benim benden uzak vatanım!Benim için yanan ve bana elini uzatamayan vatanım!İzin belgesinin üzerindeki mührü döne döne öpüyorum.Otuz beş yıldır vesikalarımın üzerinde Rus dilinde yazılı ifadeler vardı.İlk defa şimdi kendi dilimde yazılı bir ibare var kimliğimde.Ömrümde sadece on saat benim kim olduğumu gösteren vesika ise ilk defa kendidilimdeydi.Ben ancak şimdi ben oldum.Nihayet İstanbul'a ayağımı basıyorum.Bu mukaddes toprağı eğilip öpmek istiyorum.Ama yol boyunca beni takip eden ajanlardan korkuyorum.Yan, ama öyle yan ki, alevin gözükmesin.İstanbul'da topu topu on saat kaldık.Şehri gezdik. İnsanlarla konuşmak istiyorum.Hal hatırlarını sorup; onların kalbine yol bulup girmek istiyorum.Ancak onların bana meyli yok" [1] diyen şair istanbulu ziyaret ettiği dönemde sokakların bakımsız,markette satılan ürünlerin pahalı oluşu,müzelerin bakımsızlığı, sokakların kirliliği karşısında hayal kırıklığına uğrar.Gece geç saatte yatağından kalkan şair uyuyamamış,geminin güvertesinde ellerini Allah'a açarak: "Ey Allah'ım! Sen Türkiye'nin geçmişteki kudretini ve azametini geri ver." diye dua eder.Vatanına yürek acısıyla dönen şair "İstanbul" adlı ümit dolu şiirini yazar.[2]

Bulacaktır eminim,
Türkoğlu hak yolunu.
O, şimdilik seyreder
Sağını solunu...[3]

KAYNAKLAR

1. Bahtiyar Vahabzade eserleri 1.cild,Elm Neşriyatı Bakü,2008
2. Bahtiyar Vahabzade eserleri 2.cild,Elm Neşriyatı Bakü,2008
3. Bahtiyar Vahabzade eserleri 3.cild,Elm Neşriyatı Bakü,2008
4. Bahtiyar Vahabzade eserleri 4.cild,Elm Neşriyatı Bakü,2008
5. Bahtiyar Vahabzade eserleri 9.cild,Elm Neşriyatı Bakü,2008
6. Bahtiyar Vahabzade eserleri 11.cild,Elm Neşriyatı Bakü,2008
7. Türk dünyasının sesi B.V.,Qafqaz Araş.İnst.yayınları Bakü, 2009
8. Bahtiyar Vahabzade,Ömürden sayfalar,Ötüken yayınları,İst.2000
9. Bahtiyar Vahabzade,age,Ankara1999

[1] Bahtiyar Vahabzade,Ömürden sayfalar,Ötüken yayınları,İst.2000,s.263-264
[2] Türk dünyasının sesi B.V.,Qafqaz Araş.İnst.yayınları Bakü 2009,s50
[3] Bahtiyar Vahabzade,age,Ankara1999,s.52

B XT YAR VAHABZAD RS N N ÖYR N LM S N YEN METOD K YANA MANIN Z RUR L Y N DA R

Bilal H S NL

f.d. dos., Azərbaycan Müəllimlər İnstitutu, Filologiya Fakültəsi
Azərbaycan ədəbiyyatı və tədrisi metodikası kafedrası
Bakı / AZƏRBAYCAN
bilalhasanli@yahoo.com

XÜLAS

Gənc nəslin xalq şairi Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığı ilə ilk ciddi tanışlığı ümumtəhsil məktəblərində ədəbiyyat dərslərindən başlanır. Ədəbiyyat dərslərində görkəmli sənətkarın şəxsiyyəti və yaradıcılığının bütövlüyü, vəhdəti, vətəndaşlıq mövqeyi, xalqımızın istiqlal mücahidi olması şagirdlərdə aydın təsəvvür yaradılmalıdır.

Bütün varlığı, yaradıcılığı ilə öz xalqına, onun taleyinə bağlı olan sənətkarın istər ictimai-siyasi lirikasında, istərsə də epik poemalarında, dram əsərlərində xalqa, xalq işinə sədaqəti, onun tarixi düşmənlərinə qarşı barışmazlığı, mətnaltı mənalar, simvollar vasitəsilə qırmızı imperiyanın iç üzünü açması ədəbiyyat dərslərində diqqət mərkəzində saxlanılmalıdır.

Şairin bədii irsinin leytmotivini vətənpərvərlik, vətən namusunun hər şeydən uca tutulması, milli birlik, istiqlal, azadlıq uğrunda mübarizə, ana dilinin qorunması, insanın ucalığı, mənəvi saflığı ideyalarının tərənnümü təşkil edir.

Ədəbiyyat dərslərində sənətkarın həyat və yaradıcılığı, monoqrafik şəkildə öyrənilən əsərləri müzakirə olunarkən bu cəhət nəzərə alınmalı, şairin vətəndaşlıq qayəsi, mövqeyi, ömür boyu apardığı istiqlal mücadiləsi konkret nümunələr əsasında aydınlaşdırılmalıdır. Ədəbiyyat təlimi prosesində ədibin ana dilimizin təəssübkeşi olmasından, Azərbaycanın müstəqilliyi, türk xalqlarının birliyi uğrunda mübarizə aparmasından söz açılmalıdır.

Açar sözl r: istiqlal, azadlıq, şeir, poema, xalq, milli, ədəbiyyat dərsləri, qırmızı imperiya, şair, ana dili, mübarizə.

ABSTRACT

The young generation with the first serious biography of the poet Bakhtiyar Vahabzadeh tour starts school literature classes. Classes of well-known artist's personality and creativity, integrity, unity, nationality, position, sacrifice for the freedom of our people to create a clear idea about the students.

The existence of creativity in its people and its destiny linked politically motivated public and lyrical works of the artist, as well as the epic poems, dramatic works, the people and the loyalty of the people, symbols and literature classes focus on opening the inner face of the red empire maintained.

The main aim of the poet's literary heritage, patriotism, honor, above all, upon the arrest of the homeland and national unity, sovereignty and the struggle for freedom, the protection of the native language of human glory, admiration of the ideas of moral purity.

Life and work of master classes, learned to monographic works on this aspect to be considered when discussing the poet's civic purpose, position, life-long struggle for independence had clarified on the basis of concrete examples. In the process of learning the guage and literature of the writer fanatic, Azerbaijan's independence, the struggle for the unity of the Turkic peoples of speech should take.

Müasir mərhələdə ümumtəhsil məktəblərində türk dünyasının görkəmli sənətkarı, xalq şairi Bəxtiyar Vahabzadənin bədii irsinin öyrədilməsi, sovet rejimi şəraitində yazılmış əsərlərinin təhlili yeni yanaşma tələb edir.

Ədəbiyyat təlimi prosesində müəllimin qarşısında şagirdlərdə qüdrətli sənətkarın şəxsiyyəti, həyat və yaradıcılığı, o cümlədən sovet rejimi şəraitində yazdığı bir sıra əsərlərin əsl mahiyyəti haqqında dolğun təsəvvür yaratmaq vəzifəsi durur.

Şairin həyat və yaradıcılığının öyrənilməsinə ümumtəhsil məktəblərinin ədəbiyyat proqramlarında xüsusi dərs saatları ayrılmışdır:

VI sinif: “Bayraq” şeiri – 2 saat

IX sinif: “Latın dili” şeiri- 3 saat

XI sinif: Şairin həyatı və yaradıcılığı. “Gülüstan” poeması - 4 saat

Şairin tərcümeyi-halı, yaradıcılıq yolu, monoqrafik şəkildə öyrənilən əsərlərinin öyrədilməsi zamanı aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılmalıdır: 1.B.Vahabzadə ana dilimizin təəssübkeşi, Azərbaycanın müstəqilliyi, birliyi uğrunda mübarizə aparan istiqlal şairi kimi; 2.Şairin yaradıcılığında türk xalqlarının taleyi, birliyi ideyasının bədii əksi;

B.Vahabzadə sovet rejiminin xalqa zidd mahiyyətini, Azərbaycana gətirdiyi bəlalardan bəhs edən əsərlər yazmasının səbəblərindən danışarkən yazır:”Mən sovet sisteminə və rejiminə qatı

düşmən olan, onunla barışmayan, əksinə namaz üstə ona lənət oxuyan, məhvini arzulayan savadsız, lakin açıq gözlü bir ailədə böyümüşəm... Hələ uşaq yaşlarımdan mən sovet rejiminin zülmünü, zorakılığını və dəhşətlərini öz gözlərimlə görüb ağlımla dərk etdim. Beləliklə, hələ uşaqlıqdan qəlbimdə sovet quruluşuna nifrət toxumları səpildi. Həmin bu toxumlar isə sonralar şeirə çevrilib cücərdi."[1]

O, kiçik yaşlarında Şəkidə kollektivləşmə əleyhinə xalq üsyanının şahidi olmuş, Bakıdan gələn rus qoşununun üsyanı yatırarkən camaata divan tutması, yaxın qohumlarının bu üsyanın qurbanı olması, atası və əmisinin qaçaqlara yardım etdiklərinə görə həbs olunması onun qəlbində silinməz izlər buraxmışdı.

Qələmi püxtələşdikcə şairin mövcud quruluşa nifrəti də ildən-ilə dərinləşir və bu gizli hissini ifadə etmək üçün yollar axtarırdı. Hələ kifayət qədər təcrübəsi, səriştəsi və ustalığı olmadığına görə universitetdə oxuduğu müharibə illərində sözünü birbaşa dediyi şeirlərini çap üçün yazmır, arxivində saxlayırdı.

Ədib sovet dönəmində mövcud rejimin təqiblərindən, senzuranın yasaqlarından xilas olmaq üçün öz yaradıcılığında başqa bir yol seçməyin lazım olduğunu anlamışdı. O, mövcud vəziyyətdən çıxış yolunu bir çox əsərlərini böyük M.F.Axundzadənin "zamanı və məkanı dəyişməklə sözünü demək " üsulundan istifadə edərək qələmə almaqda görmüşdür. Bu məqam nəzərə alınaraq, ədəbiyyat dərslərində "Latın dili", "Mərziyyə", "Yollar-oğullar","İstiqlal", "Ehramların önündə" və s. əsərlərin təhlili zamanı sənətkarın imperiyaya qarşı apardığı əqidə mübarizəsindən, senzuradan, manqurt məmurlardan qorunmaq üçün sovet ideologiyasına zidd olan fikirlərini "Ezop dili" ilə demək məcburiyyətində olmasından söz açılmalıdır.

B.Vahabzadə özü bu barədə yazırdı:"Sətiraltı mənalarda ürəyimi parçalayan hiss və duyğularımı, beynimi gəmirən fikirlərimi dilə gətirdiyim bütün əsərlərimdən bir məqalədə söhbət açmaq çox çətindir. Istiqlal arzusu və azadlıq duyğularının hamısını üzə çıxarmaq üçün mənim bütün əsərlərimi – dramlarımdan tutmuş şeirlərimə, şeirlərimdən tutmuş məqalələrimə qədər hamısını ələk – vələk eləmək lazımdır. Çünki bu duyğular və fikirlər, demək olar ki, mənim bütün yazılarıma səpələnmişdir.

Vətən, millət, onun tarixi, ədəbiyyatı, ana dili, təhsilin milliləşdirilməsi, xalqın yetirdiyi böyük şəxsiyyətlər, onların əqidə və amallarının tərənnümü və s. mənim istiqlal və azadlıq yolunda apardığım mücadilənin ayrı-ayrı qollarıdır."[2]

Qüdrətli sənətkarın 1988-ci ilə qədər sovet rejiminə qarşı yazdığı əsərləri iki qismə bölmək olar: bir qismi birbaşa, açıq-aşkar rejimin dəhşətlərini əks etdirən yazılar, o biri qismi isə senzuranı aldatmaq üçün təsvir olunan hadisəni, nəql olunan əhvalatı ya tarixə, ya da əcnəbi ölkələrə keçirmək yolu ilə yazılan əsərlər.

Birinci qismə aid olan əsərlər rejimin repressiya maşınından qurtulmaq üçün çap üçün deyil, sənətkarın şəxsi arxivi üçün yazılırdı. Bu əsərlərin böyük bir qismi ədibin 1991-ci ildə çap etdirdiyi " Nağıl-həyat " və 1996-cı ildə çap olunan " Körpü çaydan uzaq düşüb " kitablarında "Sandıqdan səslər " başlığı altında verilmişdir.

Hələ tələbəlik illərindən şairin ən böyük etirazı və üsyanı ana dilimizin qapılar dalında ağlar qalması, hakim rus dilinin təcavüzünə məhkumluğu idi. Ədib 1942-1953-cü illər arasında yazdığı şeirlərin böyük bir qismini 1988-ci ildə yazdığı " İki qorxu" poemasında dediyi kimi, yandırmağa məcbur olmuşdu. Yandırdığı bu şeirlərdən birinin bir bəndi belədir:

Bir vaxtlar şax-şax axardı
Bu gün donduruldu dilim.
Tapdalandı ayaq altda
Gör necə xar oldu dilim.

B.Vahabzadə bu duyğunun təbii davamı olaraq 1954-cü ildə indi məşhur olan "Ana dili " şeirini yazmışdır. Ana dilinin təəssübkeşi, doğma dilini böyük məhəbbətlə sevən B.Vahabzadə öz yaradıcılığında bu mövzuya dönə-dönə müraciət etmiş, dilimizin müqəddəsliyini, əvəzedil-

[1] Vahabzadə B. İstiqlal. Bakı: Gənclik, 1999, s. 49-50.
[2] Vahabzadə B. İstiqlal. Bakı: Gənclik, 1999, s.70.

məzliyini yüksək sənətkarlıqla vəsf etmişdir. Şair ana dilinə biganə yanaşan, bu dildə danışmağı özünə ar bilən ədabazları nankor adlandırır, öz doğma dilini qoruyub saxlamağın hər bir insan üçün vətəndaşlıq borcu olduğunu bir daha xatırladır. Şairin fikrincə, ana dili əslində milli düşüncə, milli mənəviyyat, əqidə məsələsidir. Ana dili ağsaqqal babaların, ağbirçək nənələrin bizə miras qoyduğu misilsiz xəzinədir. Milli dili bilməyən insan milli ruhdan, milli mənafe duyğusundan da məhrumdur:

Dil açanda ilk dəfə «ana» söyləyirik biz
«Ana dili» adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.

Şair doğma dilinə xor baxan, əcnəbi dillərdə danışmağı müasirlik, mədəniyyət hesab edib, öz dilində danışmağı bacarmayanları nifrətlə damğalayır:

Ey öz doğma dilində danışmağı ar bilən
Bunu iftixar bilən fasonlu ədabazlar,
ruhunuzu oxşamaz qoşmalar, telli sazlar.
Bunlar qoy mənim olsun
Ancaq vətən çörəyi,
Bir də ana ürəyi
Sizlərə qənim olsun.

Həmin şeiri dinləyib bəyənən S.Vurğun V.Leninin əsərlərinin hansı cildindənsə " Biz öz ana dilimizi və vətənimizi sevirik" cümləsini götürüb " Ana dili" şeirinin əvvəlinə öz əli ilə epiqraf yazmışdı. Şeir bir neçə gündən sonra çap edildi. Beləliklə, ustad şair Lenindən qalxan kimi istifadə etmək sərişləsini gənc Bəxtiyara öyrətdi. Ədib sonralar yazdığı "Leninlə söhbət " poemasında ustad şairin öyrətdiyi bu üsuldan daha geniş istifadə etmişdir.

Bəxtiyar Vahabzadə «Latın dili» şeirində öz fikirlərini təsdiq, hökm şəklində deyil, bədii suallardan geniş istifadə etməklə verərək əsərin oxucuya bədii-estetik təsirini gücləndirməyə, onu həmin suallar ətrafında dərindən düşünməyə sövq etməyə müvəffəq olmuşdur. Bədii sual formasının seçilməsi şairə xalqı ölən, lakin özü yaşayan latın dilinin xalqı yaşasa da, özü istifadəsiz qalan bir dillə müqayisə etməyə, bununla da qarşısında qoyduğu başlıca niyyətə çatmağa imkan yaratmışdır:

İndi söylə,
Hansı dilə ölü deyək?
Vətən varkən,
Millət varkən,
Kiçik, yoxsul komalarda
dustaq olan bir diləmi?
Yoxsa, uzun əsrlərdən
keçib gələn,
Xalqı ölən,
Özü qalan bir diləmi?

Şair bu misralarda oxucuya belə bir fikri çatdırır ki, əsl canlı dil yaşayan, istifadə olunan, insanlara xidmət edən dildir. Xalqı yaşasa da, özü yaşamayan, istifadəsiz qalan dil əslində ölüdür. Dili yaradan, ona həyat verən xalqdırsa, xalqı da yaşadan dildir.

9-cu sinifdə tədris olunan bu əsər üzrə ədəbiyyat dərsində şeirin məzmununun öyrədilməsi zamanı şagirdlərə aşağıdakı suallarla müraciət edilir:

1. Şeirdə latın dili haqqında hansı fikirlər söylənilir?
2. Latın dilindən elmin hansı sahələrində bu gün də istifadə olunduğu göstərilir?
3. Əsərdə hansı dil ölü dil hesab olunur?
4. Şair Vətən, millət üçün nəyi dərd sayır?

Əsərin müzakirəsi üçün şagirdləri müstəqil araşdırmaya, tədqiqata, sənətkarın niyyətini (əsərin ideyasını) aydınlaşdırmağa sövq edən sual və tapşırıqlardan istifadə məqsədəuyğundur:

1. Şair latın dilini döyüşlərdə zəfər çalıb ölən ərə bənzətməklə nə demək istəyir?
2. Şair latın dilini nə üçün yüksək qiymətləndirir?
3. Milləti, Vətəni dünyada olmayan bu dili o, nə üçün ölü dil saymır? Sənətkar hansı dili ölü hesab edir? Fikrinizi əsərdən nümunələrlə əsaslandırın.
4. Əsərdə azadlıq, müstəqillik haqqında hansı fikirlər söylənilir?
5. Şair azadlığı, müstəqilliyi nə üçün ilk növbədə ana dili ilə bağlayır?
6. Şeirdə şairin ana dili ilə bağlı fikirlərinin, hiss və həyəcanlarının necə, hansı bədii vasitələrlə ifadə olunub?
7. Sənətkarın əsərdə söylədiyi fikirlər sizdə hansı duyğular, düşüncələr doğurdu?

Müzakirə nəticəsində şagirdlərdə belə qənaət hasil olmalıdır ki, əslində bu əsər sovet rejiminin əsarətdə olan xalqların dilini sıxışdırıb çıxarmağa yönəlmiş siyasətinə etirazın ifadəsi idi.

Şair cəmiyyətdə yalan, saxtakarlıq mühiti yaradan qırmızı imperiyanın iç üzünü açmaq, ona öz kəskin münasibətini bildirmək üçün ilk baxışda adi görünən, ağlagəlməz mövzulardan istifadə edir. 1953-cü ildə yazdığı " Əmzik " şeirini şair o zaman 7-8 aylıq körpə olan qızı Gülzara həsr etmişdir. Anasının südü olmadığına görə uşaq ağlayanda onu əmziklə aldadırlar. Şair bu adi məişət hadisəsindən çıxış edib covet cəmiyyətində baş alıb gedən yalana, saxtakarlığa işarə vurmaq fürsətini əldən vermir:

Aldadırıq, aldanırıq elə biz,
Saxta əmzik ağzımızda bal dadır.
Uşaq ikən öz doğmaca anamız,
Böyüyəndə həyat bizi aldadır.

B.Vahabzadənin poemalarında da istiqlaliyyət, insanın, xalqın azadlığı ideyası aparıcı yer tutur."Bəxtiyar Vahabzadənin bir vətənçi şair kimi orijinallığı və sovet ədəbiyyatı prinsiplərindən uzaqlaşmaq səyləri onun poemalarında özünü daha qabarıq göstərir. İlk poemaları olan «Gülüstan», Füzuliyə həsr olunmuş «Şəbi-hicran», el muğamlarına həsr edilmuş «Muğam», dahi xalq şairi Sabirə həsr olunmuş «Ağlar-güləyən» kimi əsərlər 60-cı illər poeziyasında yeni hadisə idi və şairin ənənəvi poeziyadan və mövzulardan uzaqlaşmaq səylərini ifadə edirdi. Bu poemaların hamısında klassik ədəbiyyatımızın ovqatları, qəm, kədər, iztirab motivləri müşahidə olunur. Şair azadlıq və müstəqillik arzuları ilə yaşayan Azərbaycan xalqının kədər və faciələrini birbaşa təsvir edə bilməzdi, bu halda mütləq repressiyalara məruz qalardı. Ona görə klassik ədəbiyyat motivlərindən, Füzuli, Sabir kimi böyük şairlərin xalq kədərindən yazmaqla mənsub olduğu millətin, sovet zülmünün kədərini qələmə aldı.[1] B. Vahabzadənin sovet dövründə yazdığı şeir və poemalarda həm müstəqim, həm də rəmzi və simvolik mənalar vardır. Təlim prosesində sənətkarın yaradıcılığı üzrə müzakirələr zamanı həmin əsərlərdəki mətnaltı mənaya xüsusi diqqət yetirilməlidir.

Sovet imperiyasının xalqımıza öz qəhrəmanlıq keçmişini, tarixini unutdurmaq cəhdlərinə cavab olaraq şair məşhur «Gülüstan» poemasını yazmış, Vətənimizin düşmənlər tərəfindən parçalanması, xalqımızın öz azadlığını itirməsi barədə tarixi həqiqətlərdən bəhs edən bu əsərə görə görə təqiblərə məruz qalmışdır.

Poemanın mərkəzi mətbuatda işıq üzü görməsinə nail ola bilməyən şair onu "Nuxa fəhləsi" adlı rayon qəzetində çap etdirmişdir. Əsərin sorağı Mərkəzə çatanda şairə qarşı təqiblər başlamış, işlədiyi universitetdə ona şiddətli töhmət verilmiş, bir bəhanə ilə müəllimlikdən azad edilmişdi. Lakin qədirbilən oxucular əsəri əlyazması şəklində oxumuş, əldən-ələ ötürərək yaymışdılar.

Azərbaycanın birliyi və istiqlaliyyəti uğrunda çarpışan Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Pişəvərinin əziz xatirəsinə həsr olunmuş poemada şair "Azərbaycanın Rusiyaya birləşdirilməsinin" bayram edildiyi bir mühitdə iki od arasında qalıb parçalanmış Vətənin acı taleyindən ürək ağrısı ilə söz açmışdır. Əsərdə bir anın içində yurdumuzun iki pay kimi bölüşdürülməsi hökmünə çevrilən müqaviləyə müraciətlə sənətkarın dediyi sözlərdə xalqın kədəri, millətimizin qan düşmənlərinə nifrəti öz bədii əksini tapmışdır:

[1] Cəfərov N., Həbibbəyli İ., Əliyeva N., Bakıxanova A. Ədəbiyyat .Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik. Bakı: Çaşıoğlu, 2010, s.164.

Ey kağız parçası əvvəl heç ikən
Yazılıb qollanıb yoxdan var oldun.
Böyük bir millətin başını kəsən
Qolunu bağlayan hökmdar oldun.

Şairin Cənub mövzusunda yazdığı silsilə əsərlər Vətənin ayrılıq dərdini ürəyində gəzdirən xalqımızın nisgilli hislərini, duyğularını əks etdirir. Həmin əsərlərdə ikiyə bölünmək faciəsini yaşayan xalqın hər bir övladının qəlbində qövr eləyən dərdlər dil açıb danışır, bu ədalətsizliyə etirazını bildirir:

Yarım bu tayda qaldı,
Yarım o tayda qaldı.
Toyum burda çalındı,
Yarım o tayda qaldı.

B.Vahabzadənin hələ sovet dövründə beynəlxalq mövzuda yazılmış əsərlərində də dolayısı ilə Azərbaycan xalqının azadlıq idealı öz əksini tapmışdır. Şair öz istiqlaliyyəti uğrunda mübarizə aparan xalqlardan yazanda, onlarla həmrəyliyinin ifadə edəndə əslində Rusiyadan asılı vəziyyətdə yaşayan, öz sərvətlərinin xeyrini görməyən xalqları, ilk növbədə isə öz xalqını nəzərdə tutmuşdur.

B.Vahabzadə azadlıq uğrunda geniş xalq hərəkatının bilavasitə iştirakçısı olan, 20 Yanvar faciəsinə ilk etiraz səsi qaldıran, xalqın misilsiz qəhrəmanlığını və dərdini bədii ədəbiyyata gətirən dönməz əqidəli sənətkardır. İmperiya cəlladlarının silahından qorxmayan sənətkar şəhidlərin ruhuna "Şəhidlər" poeması ilə əbədi heykəl ucaltmışdır. Onun bu mövzuya həsr etdiyi əsərlərində ölümün gözlərinə dik baxan, qolundakı mütilik buxovlarını qırıb ataraq son və qəti mübarizəyə başlayan vətənpərvər insanların parlaq obrazları yaradılmışdır.

Həyat öz millətinin qəhrəmanlıq tarixini söz sənətində əks etdirən şairin belə bir inamını bir daha təsdiq etdi ki, ölümdən qorxmayan insanların azadlıq eşqini heç kəs boğa bilməz. Haqq səsini top-tüfənglə, ən güclü ordu ilə belə susdurmaq omaz:

O şənbə gecəsi, o qətl günü
Mümkünə döndərdik çox namümkünü.
Xalqın qəlbindəki qorxu mülkünü
O gecə dağıdıb sökdü şəhidlər…

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyir şəriylə.
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi şəhidlər.

Həmin matəm günlərini xatırlayan şair yazırdı ki, bəzən Cavanşir, Babək, Cavad xan, Çələbi xan kimi tarixi qəhrəmanlarımız haqqında oxuduğumuz kitablarda onların qorxmazlığından, şücaət və cəsarətlərindən əfsanəyə bənzər elə epizodlara rast gəlirik ki, adam bu boyda fədakarlığa inana bilmir. Bəzən mənə elə gəlir ki, yəqin xalq öz qəhrəmanlarını görmək istədiyi mərtəbədə əfsanələşdirmiş və onlar haqqında məlumat bizə şişirdilmiş və böyüdülmüş halda çatmışdır. Şənbə gecəsinin şəhidlərinin cəsarət və qəhrəmanlığını öz gözlərimlə görəndən sonra tarixi qəhrəmanlarımızın cəsarət və şücaətinə məndə şübhə qalmadı.

Dünənə qədər hər gün rast gəldiyimiz, bəzilərini tanımadığımız bu adi cavanlar bir gecənin içində nə boyda böyük qəlbə malik olduqlarını öz ölümləri ilə təsdiq edib qeyri-adiləşdilər. Zaman keçəcək, xalq bu igidlər barədə əfsanəvi dastanlar yaradacaq, şair və yazıçılarımız kitablar yazacaq.

Şair qara yanvar günlərində inanırdı ki, azadlıq uğrunda canını qurban verən şəhidlərin qanı yerdə qalmayacaq, əsrlər boyu arzuladığı azadlığa qovuşan xalqımız şəhidlərin xatirəsini əbədi yaşadacaqdır:

Onlar sübut etdi: hər qara zülmün
Əli uzansa da, ömrü gödəkdir.
Xalqın azadlığı sabah, biri gün
Şəhid yarasından göyərəcəkdir!

Şairin istiqlal şeirləri içərisində türk xalqlarının taleyi, türk dünyasının birliyi ilə bağlı əsərlər mühüm yer tutur. Qardaş Türkiyədə çox sevilən şair 1994-cü ildə "Türk dünyası ədəbiyyatına xidmət" mükafatına layiq görülmüşdür. Şairin böyük sənətkarlıqla yazdığı "Azərbaycan-Türkiyə" şeirində bir millət iki dövlətin tarixi köklərindən, xalqlarımızın bir-birinə bəslədiyi məhəbbət duyğularından, tarixin sınaqlarından çıxmış birliyindən iftixarla söz açılır:

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu.
O da ulu, bu da ulu,
Azərbaycan – Türkiyə!

"Aluştada Əmət xan Sultanın heykəli önündə" əsərində Krım türklərinin öz doğma vətənindən sürgün edilməsindən, bu cinayəti törədənlərdən bəhs edilir. Krım türklərinin faciəsini əks etdirən digər şeirində şair türk xalqlarının məruz qaldığı məhrumiyyətlərə, repressiyalara öz etirazını bildirir:

Krım, Yalta, Qızıldaş...bir xalqın ata yurdu
O millətə yad oldu, gəlməyə vətən oldu.
İndi necə ayıraq burda xeyirdən şəri,
Axı, haqqın gözləri oyum-oyum oyulmuş.
Torpağın altındadır torpağın sahibləri,
Gəlmələr torpaq üstə torpağa sahib olmuş.

Məlumdur ki, 1986-cı il dekabrın 17-də Alma-Atada qazax xalqının Moskvanın imperiya siyasətinə, milli hüquqları tapdalamasına qarşı etiraz mitinqi sovet rejiminin çöküşünün ilk carçısı oldu. Lakin imperiya cəlladlarının hələ güclü olduğu bir şəraitdə şair həmin faciəli hadisələrdən açıq danışa bilməzdi. O, bu hadisəyə öz münasibətini bildirmək üçün dostu, məşhur tarixçi alim Şirməmməd Hüseynovun da ad gününün həmin günə düşməsindən istifadə edib "17 dekabr" şeirini yazmışdır. Özünü mümkün repressiyadan qorumaq üçün bu təsadüfdən qalxan, dayaq nöqtəsi kimi istifadə edən şair yazırdı:

Sənin ad günündə gördünmü birdən,
Qaranlıq üfüqdə çaxan şimşəyi.
Həmişə zamanın lal axarından
Gözlə fırtınanı, gözlə çox şeyi.
Həmin o fırtına döndərib yönü
Başqa bir dövranın olar ad günü.
...Vaxtın axarında sular durulur.
Gerçək gül açanda solur riyalar.
Bir anın içində solub məhv olur
Yüzillik, minillik imperiyalar.

"Yollar-oğullar" poeması keçən əsrin 50-ci illərində Əlcəzair xalqının fransız imperialistlərinə qarşı mübarizəsinə, səkkiz il davam edən istiqlal hərəkatının qələbəsinə həsr edilsə də, şair mövzudan istifadə edərək əslində rus-Azərbaycan münasibətlərindən söz açmışdır. Antisovet mövqeyindən yazılmış bu əsərə görə şair təzyiqlərə məruz qalmışdır. Əsər müzakirəyə çıxarılmış, amma o zaman Yazıçılar İttifaqının sədri işləyən Mehdi Hüseynin sayəsində şair böyük bir təhlükədən qurtulmuşdu.M.Hüseyn mətbəədə yığılmış bu əsərin üstünə "İmperializmə qarşı yazılmış bu əsər nə vaxtdan antisovet olub?" sözlərini yazmış, aktual mövzuya həsr olunmuş poemanın nəşr olunmasının məsuliyyətini öz üzərinə götürmüşdü.

B.Vahabzadə Vətənin müqəddəratı, istiqlal mübarizəsi kimi taleyüklü məsələlərə dram əsərlərində də dönə-dönə toxunmuşdur.Görkəmli dramaturqun "Dar ağacı", "Fəryad" tarixi dramlarında sənətkar tarixi keçmişə müraciət etməklə, xalqımızın taleyində böyük rol oynamış şəxsiyyətlərin obrazlarını yaratmaqla oxucunu öz keçmişinə yeni nəzərlərlə baxmağa, ibrət dərsi almağa səsləyir. Ədibin uğurla tamaşaya qoyulmuş «Özümüzü kəsən qılınc» pyesi tarixi mövzuda yazılsa da, müasir dərdlərimizlə səsləşir.

BAHT YAR VAHAPZADE'N N "ANNEM ÖLDÜ MÜ" VE GURBANNAZAR EZ ZOV'UN "ANAMA SESLEN " RLER PENCERES NDEN ANNE

Ya ar KARAYUNUSO LU
Öğretim Görevlisi
Uluslararası Türkmen Türk Üniversitesi

ÖZET

Öteden beri Türk topluluklarında annenin çok özel bir yeri olagelmiştir. "Ana başa taç imiş/ Her derde ilaç imiş. Bir evlat pîr olsa da/ Anaya muhtaç imiş." Dizelerindeki anlam penceresinden anneye bakılmış ve anne bu saygın yerini de hep korumuştur. Evladın ne zaman başı darda kalsa, anneyi imdadına yetişir bulmuş, evlat daima annenin gölgesinde serinlemiştir. Kimi zaman anne güç kuvvet olmuş, kimi zaman moral takviye. Kimi zaman da yokluğuyla evladın dünyası yıkılmıştır.

Ezizov'un şiirinde anneden aldığı güçle bir evladın hayatın yükünü nasıl taşıyabildiği; Vahapzade'nin şiirinde ise annenin ölümüyle hayatın nasıl güçleştiği anlatılmış olması ve bu iki şiirin sanki Türk toplulukları şiirinin temalarının iki yüzünün özeti gibi durmasındandır.

Anahtar kelime: Gurbannazar Ezizov, Bahtiyar Vahapzade, anne, şiir.

MOTHER FROM THE VIEWPOINTS OF BAHTIYAR VAHAPZADE'S POEM "IS MY MOTHER DEAD?" AND GURBANNAZAR EZIZOV'S POEM "TO MY MOTHER"

ABSTRACT

Mother has very special place among all of the Turkic peoples. "Mother is a crown / she is a remedy for every illness/even if a kid is a pir/he is in need of his mother." Mother valued according to the aforementioned lines and always maintained esteemed position. Whenever a child needs help from mother, she comes and protects her child. Sometimes mother becomes powerful force and sometimes moral reinforcement. Sometimes her absence caused unprecedented problems for their children.

In his poem Ezizov reflects how a child can struggles with the obstacles in his life, while Vahapzade in his poem reflects how the life becomes difficult after the loss of a mother, both of whom present summary of life experience of Turkic peoples through the topic of their poems.

Keywords: Gurbannazar Ezizov, Bakhtiar Vahapzade, mother, poetry.

Giri

Anne, bireysel ve toplumsal yaşamda belirleyici unsurların başında olması bakımından dikkate değer bir temadır.

İnsan doğurup yetiştirmenin sorumluluğundan doğan riyasız, sevgi, fedakârlık ve yardım duygusu gibi insanca niteliklere sahip olan annelerin edebiyat metinlerindeki yansımaları, metin bağlamında ve şairlerimizin sanat anlayışları konusunda değerlendirilmekle birlikte bireysel dünyamızı geliştirmek için de büyük bir örnek oluşturur.[1]

Öteden beri Türk topluluklarında annenin çok özel bir yeri olagelmiştir. "Ana başa taç imiş/ Her derde ilaç imiş/ Bir evlat pîr olsa da/ Anaya muhtaç imiş." Dizelerindeki anlam penceresinden anneye bakılmış ve anne bu saygın yerini de hep korumuştur. Evladın ne zaman başı darda kalsa, anneyi imdadına yetişir bulmuş, evlat daima annenin gölgesinde serinlemiştir. Kimi zaman anne güç kuvvet olmuş, kimi zaman moral takviye. Kimi zaman da yokluğuyla evladın dünyası yıkılmıştır.

Hal böyle olunca da Türk topluluklarının edebiyatında da önemli bir yer tutmuştur "anne" teması. Biz de bu çalışmamızda iki farklı Türk toplumunun son dönem önemli temsilcilerinden iki şairi olan, Bahtiyar Vahapzade ve Gurbannazar Ezizov'un "Anne" temalı iki şiirlerini incelemek ve karşılaştırmak suretiyle, bu şiirlerin penceresinden "anne" yi anlatmayı hedefledik.

Doğan Aksan, şiir incelemelerine değinirken iki açıdan ele alır.

a. İçerik, öz: Şiirin konusu, ele aldığı olaylar, düşünceler, yansıtmak istediği duygu ve coşkular belirlenir.

[1]. Tosun, H. (2009) Cumhuriyet Dönemi Şiirinde Anne, Trakya Üniversitesi Sosyal Bilimler Enstitüsü, Türk dili ve edebiyatı anabilim dalı türk edebiyatı bilim dalı yüksek lisans tezi, Edirne

b. Sunuluş: şiirde ağırlığı olan öğeler, imgeler, betimlemeler, benzetme aktarma gibi anlam olayları….[1]

Özellikle bu şiirleri seçmemizin sebebi, Ezizov'un şiirinde anneden aldığı güçle bir evladın hayatın yükünü nasıl taşıyabildiği; Vahapzade'nin şiirinde ise annenin ölümüyle hayatın nasıl güçleştiği anlatılmış olması ve bu iki şiirin sanki Türk toplulukları şiirinin temalarının iki yüzünün özeti gibi durmasındandır.

1. **Ezizov'un iiri:**

"Ena yüzlenme/Anneye sesleniş" şiirinde şair bir gencin anneye seslenişini işlemiştir. Çocukluktan gençliğe yürüyüş dönemindeki, gencin duygularını resmeder. Kendine güvenini, korkusuzluğunu işler. Bu güven ve korkusuzluğun kaynağının da annesi olduğunu yeni söyleyişlerle, imgelerle dile getirir.

1.1. Ezizov'un şiirinde imgeler, orjinal yorumlar:

"Seniñ ukularñı duman dey syran,
Seniñ mukaddes, ak süydüñy emen
Ogluñ " mısralarında,[2]
-Uykuyu duman gibi sıyıran oğul
"Çagalıgmıñ ak kepdersin uçurip,
Oñ izyndan
yigit bolup bakyarın." Mısralarında[3]
-Çocukluğun ak güvercinini uçurup, ardından yiğit olup seyreden oğul
"Men giderin uzak-uzak yıllara,
Ak mayanıñ ak süydüny içerin.
Ikbalımı baglap titan yıldıza
Seniñ üçin
dünyeleri açarın."[4] Mısralarında,

- Uzak uzak (uzun uzun) yıllara gitmek ve Titan yıldızına ikbâlini bağlamak

Burada Ünal Zal'ın bu mısralarla ilgili –mısraları tercüme ederken- tesbitine değinmeliyiz, "Türkmen Türkçesinde Samanyolu'na 'ak devenin yolu' da denir. Bundan dolayı bu mısrayı (Ak mayaniñ ak süydüni içerin.) 'Samanyolu'nu fethederim' seklinde de aktarabiliriz.[5]

Buna göre, "Daha nice yıllar yaşarım. Senin için (annesini kastediyor), kısmetimi Titan yıldızında arar, Samanyolunda seyahat eder, dünyaları fethederim." Diyor şair.

"Bir yerde kyn bolup,
gaçsa mecalim,
Adamlara şübhe bilen garasam,
Inamsızlık,
Umitsizlik,
Tukatlık
Köçesinde sergezdan dey yöresem,"[6]
- Güvensizlik, umutsuzluk, üzüntü sokağında işsiz güçsüz gezinmek
"Horlanan
hem şemal yalan yüzümy
Seniñ
hiç zat bilen deñäp bolmacak
barmaklariñ arasından taparın."[7]

---

1 Aksan, D. Cumhuriyet Döneminden Bugüne Örneklerle Şiir Çözümlemeleri, sahife 24
2 Ezizov G, Serpay, sayfa, 27
3 A.g.e, sahife, 27
4 A.g.e, sahife, 27
5 Zal, Ü. Gurbannazar Ezızov'un Sıırlerı Üzerıne Dil Ve Üslûp Çalışması, doktora tezi, Gazi Ünıversıtesı Sosyal Bilimler Enstitüsü Türk Dili Ve Edebiyatı Ana Bilim Dalı Türk Dili Bilim Dalı,
6 Ezizov, Serpay, sahife, 27
7 A.g.e, sahife, 28

-Zayıflamış, rüzgar çarpmış yüzü -hiçbir şeyle değiştirilemeyecek- parmakların arasından bulmak

1.2. Anne için söylenen vasıflar:

"Seniñ mukaddes, ak süydüñi emen
Ogluñ
bu gün gidyär salkin sayañdan
satligiñdan," [1]

-Ak sütü mukaddes, gölgesi rahatlatan serinlikte, şatlığın, mutluluğun kaynağı, hasret duyulan

"Seniñ aladalañ çekiş güycüny yeñip,"[2]

-Evladı için daima kaygılanan, dertlenen..

"Bir yerde kyn bolup,
gaçsa mecalim,
Adamlara şübhe bilen garasam,
Inamsızlık,
Umitsizlik,
Tukatlık
Köçesinde sergezdan dey yöresem,
Horlanan
hem şemal yalan yüzümy
Seniñ
hiç zat bilen deñäp bolmacak
barmaklariñ arasından taparın."[3]

-Güvensizlik, umutsuzluk, üzüntü, caddesinde yürürken -hayalde bile olsa- şefkatli parmaklarıyla imdada yetişen, dünyada hiçbir şeyle kıyaslanamayan şefkatli parmakların sahibi

"Meniñ uly dövre düşünmezlikden
Dörän tukatlıgma diyersiñ:
«Yersiz!»"[4]

-Oğluna daima ümit olan

"Sen ogluña: «Duman içre gezyäñ» diyp,
igenmersiñ,
sözün kesä çekmersiñ."[5]

-Oğlundan şikayet etmez ve onun sözünü başka tarafa çekmez, gibi vasıfları taşıyan bir annedir.

1.3. Orjinal tesbitler:

"Seniñ aladalañ çekiş güycüni
yeñip,
bu gün giñ orbita çıkyarın.
Çagalıgmiñ ak kepdersin uçuryp,
Oñ izindan
yigit bolup bakyarın."[6]

-Annenin aladasının, dertlenmelerinin, kaygılarının kendine çeken ciddi bir güç olduğu ve artık bu güce rağmen geniş bir yörüngeye çıkan (sosyal hayata karışan; Y.K.) yiğidin çocukluğunun ak güvercinini uçurup onun da ardından bakmasıyla, şairin yer çekimine rağmen güvercin uçurması da dikkate değer.

"Men giderin uzak-uzak yıllara,
Ak mayanıñ ak süydüny içerin.

[1] A.g.e, sahife, 28
[2] A.g.e, sahife 27
[3] A.g.e, sahife, 28
[4] A.g.e, sahife, 28
[5] A.g.e, sahife, 28
[6] A.g.e, sahife, 27

Ikbalımı baglap titan yıldıza
Seniñ üçin
dünyeleri açarın."[1]
-Ak mayanın sütünü içmek (samanyolunda seyahat etmek)

2. Vahapzade'nin şiiri:[2]

Annesinin çok erken öldüğünü düşünen bir evladın içinde duyduğu hüznü, çaresizliği, büyük destekten mahrum kalışı anlatan bir şiir. Anne evladın yaşaması için yapılması gereken her ne ise onu mutlaka yapan, hep hayatın devamı için çırpınan bir varlıkken, annesini toprağa götürüyor olan bir varlık olmanın evlatta oluşturduğu acıyı resmeden bir şiir.

2.1. Vahapzade'nin şiirinde imgeler, orjinal yorumlar:

"Ne hız ellerini üzdün dünyadan
Balanı tek koyup nereye gittin?" mısralarında,
-Dünyadan ellerini üzmek
"Sen beni dünyaya getirdin anne
Bense yola saldım dünyadan seni..." mısralarında,
-Dünyadan yola salmak
"Ömrü başa vurdun altmış yaşında
Altmışın üstünde durup yaşında
Artık senin için durudgu zaman
Benim çün dolaşır
Gün olur akşam...
Vakit geçer sen benden uzaklaşırsın
Ben sana günbegün yakınlaşırım..." mısralarında,

-Ömrü başa vurmak; senin için duran zamanın benim için dolaşması ve günün akşam olması; zaman ilerledikçe, sen benden uzaklaşırken, benim sana gün be gün yakınlaşıyor oluşum.. gibi imge ya da yorumları tesbit etmek mümkün.

2.2. Anne için söylenen vasıflar:

"Güneş gurup etti... oda karardı...
Bir anda yok oldun sen hayal gibi."
-Grup eden güneş
"Beni boya başa yetirdin anne
Bize borçlu bildik her zaman seni
Sen beni dünyaya getirdin anne
Bense yola saldım dünyadan seni..."
-Evladı dünyaya getiren, boya başa yetiren

"Sen bana beşikte ninni çalmışsın
Bugün ninni çalsam sana ben de mi?
Senin şirin şirin ninnilerini
Sana gaytarayım cenazende mi?

'Uykun şirin olsun' diyerdin bana
'Uykun şirin olsun' deyim mi sana
Gerek ben başına dönüm dolanım,
Beni hayat için hep uyutanım,"
-Beşikte şirin şirin ninni söyleyen, Hayat için uyutan

"Sağken omuzunda hayatın yükü
Ölende ceseti çiyinlerdedir..."
-Hayatın yükü omuzunda olan,

"Derdimin gamımın ortagı sendin

[1] A.g.e, sahife, 27

[2] Burada işlenen Bahtiyar Vahapzade'nin "annem öldü mü" adlı şiiri, www.antoloji.com adresli siteden alınmıştır.

Niye yüz çevirdin ya niye benden? ...”
-Dert, gam ortağı

“Şimdi kime açsam derdimi bir bir
Kim benim derdime yanar sen kadar? “
-Evladın derdine yanan

“Bu ölüm sineme çekti dağ benim
Sen benim arkamda benzerdin dağa
Sanki de arkamdan uçtu dağ benim... “
-Evladın yaslandığı dağ

2.3. Orjinal tesbitler:

2.3.1 Anne ile evlat arasında sevgi ve naz ilişkisini anlatması bakımından orjinal imgeler kullanılmış. Her zaman sanki sen bize borçluymuşsun gibi davrandık, diyor. Ardından zıtlıklardan örülü şu imgeleri kullanıyor:

“Beni boya başa yetirdin anne
Bize borçlu bildik her zaman seni
Sen beni dünyaya getirdin anne
Bense yola saldım dünyadan seni...”

Sen beni dünyaya getirdin. Fakat şimdi ben seni dünyadan gönderiyorum

“Sen bana beşikte ninni çalmışsın
Bugün ninni çalsam sana ben de mi?
Senin şirin şirin ninnilerini
Sana gaytarayım cenazende mi?”

- Sen bana beşikte ninni söylemişsin; ben de dünyadan gönderirken, şirin şirin o ninnilerini sana söylesem reva mı?

“'Uykun şirin olsun' diyerdin bana
'Uykun şirin olsun' deyim mi sana
Gerek ben başına dönüm dolanım,
Beni hayat için hep uyutanım,
Söyle ölümçün
Nasıl uyutayım seni ben bugün?”

- “Uykun tatlı olsun” derdin, “uykun tatlı olsun” mu diyeyim, ya da sen beni hayat için uyutmuşken, şimdi ben seni niçin uyutayım?

“Bu nasıl dünyadır...
İnsanoğlunun
Hayali göktedir kendi yerdedir...
Sağken omuzunda hayatın yükü
Ölende ceseti çiyinlerdedir...
Bu nice dünyadır bu nice dünya
Ölüm hakikat hayatı rüya,”

- Hayali göklerde, kendi yerde olma; hayatın yükü sağken omuzunda, ölünce de onun cesedi başkalarının pazularında(omuzlarında); ölümün hakikat, hayatınsa rüya oluşu... gibi imgelerle çaresizlik oldukça vurucu dile getirilmiş.

2.3.2. Annenin ölümüyle ölümü kabullenmede zorlanış sezilmekte:

“Bu nasıl dünyadır anlayamam ben,
Cilvesi cürbecür, rengi cürbecür
Dün öz nefesiyle seni işiden
Bugün buza dönüp, taşa dönüptür”

- Bu dünya nasıl bir dünya, anlamak zor. Cilvesi de rengi de karmakarışık. Daha dün kendi nefesiyle, capcanlı işitip dururken; bu gün buza dönmüşlük, taş kesilmişliği anlamak zor.

"Bu nasıl dünyadır...
İnsanoğlunun
Hayali göktedir kendi yerdedir...
Sağken omuzunda hayatın yükü
Ölende ceseti çiyinlerdedir..."

- Bu nasıl bir dünyadır ki, hayalleri göklerde dolaşırken kendisi yerlerdedir. Yaşarken hayatın –adeta taşınmaz- yükünü omuzlanmıştır da, ölünce başka güçler onu taşır olmuştur.

"Derdimin gamımın ortagı sendin
Niye yüz çevirdin ya niye benden? ...
'Derdin bana gelsin' hani diyerdin
Niye dert ekledin derdime ya sen"

- Derdimin, gamımın ortağı senken, "dertlerin bana gelsin" derken, şimdi niye yüz çeviriyorsun ve dertlerime dert ekliyorsun?

"Annem, kimse seni darıltmamıstır,
Ben seni
Ben seni darıltan kadar.
Şimdi kime açsam derdimi bir bir
Kim benim derdime yanar sen kadar?"

- Benim kadar seni kimse üzmemiştir. Şimdi kim dinler beni ve senin kadar benim derdime kim yanar?

"Bilmem bilmem bilmem bu ölüm nedir
Hayat var iken
Nefesin ey anam hala evdedir
Kendin yer altında taşa dönmüşsün"

- Bilmem hayat varken, bu ölüm nedir? Nefesin hala cap canlı evde, ama kendin yerin altındasın.

2.3.3. "Dağ" hem bir çekilmez yük, dayanılmaz ızdırap, hem de dayanılacak bir kuvvet olarak iki zıt imgenin bir arada tesbiti de orjinal:

"Bu ölüm sineme çekti dağ benim
Sen benim arkamda benzerdin dağa
Sanki de arkamdan uçtu dağ benim..."

- Bu ölüm benim sineme-adeta-dağ çekti, dayanılmaz bir yük, ızdırap oldu. Senbenim arkamda dağ gibiydin. Sen gidince arkamdan o dağ uçtu gibi oldu. Dayanağım gitti gibi oldu.

2.4. Tekrarlar:

Gerek eş sesli/eş anlamlı, zıt anlamlı ikilemeler, gerekse aynı dörtlüklerde farklı vurgularla dildeki kelime tekrarının imkanlarından, şair bu şiirinde oldukça faydalanmıştır:

-"Nasıl yok oluyormuş bir anda insan
Sanki bu dünyada hiç yok imişsin..
Güneş gurup etti... oda karardı...
Bir anda yok oldun sen hayal gibi.
Şimdi düşünürüm senden ne kaldı..
Gönlünde hatıran kara hal gibi..." (yok olmak,yok olmak,yok; sen/senden; hayal gibi/hal gibi)

-"Beni boya başa yetirdin anne
Bize borçlu bildik her zaman seni
Sen beni dünyaya getirdin anne
Bense yola saldım dünyadan seni..." (boya başa; seni, sen, seni; beni,beni, bense)

-"Sen bana beşikte ninni çalmışsın
Bugün ninni çalsam sana ben de mi?

Senin şirin şirin ninnilerini
Sana gaytarayım cenazende mi?
'Uykun şirin olsun' diyerdin bana
'Uykun şirin olsun' deyim mi sana
Gerek ben başına dönüm dolanım,
Beni hayat için hep uyutanım,
Söyle ölümçün
Nasıl uyutayım seni ben bugün?" (sen, sana, senin,sana, sana, seni; bana, ben, bana, ben, ben; ninni,ninni; şirin şirin; 'Uykun şirin olsun', 'Uykun şirin olsun'; demek ve uyutmak)

-"Bu nasıl dünyadır anlayamam ben,
Cilvesi cürbecür, rengi cürbecür
Dün öz nefesiyle seni işiden
Bugün buza dönüp, taşa dönüptür"(cürbecür, cürbecür; dün/bugün; dönüp, dönüpdür)

-"Bu nasıl dünyadır...
İnsanoğlunun
Hayali göktedir kendi yerdedir...
Sağken omuzunda hayatın yükü
Ölende ceseti çiyinlerdedir...
Bu nice dünyadır bu nice dünya
Ölüm hakikat hayatı rüya
Derdimin gamımın ortagı sendin
Niye yüz çevirdin ya niye benden? ...
'Derdin bana gelsin' hani diyerdin
Niye dert ekledin derdime ya sen" (Bir önceki bölümle birlikte, bu nasıl dünyadır, bu nice dünyadır, bu nice dünya; dert/gam, dert, dert; niye, niye)

-"Annem, kimse seni darıltmamıştır,
Ben seni, Ben seni darıltan kadar.
Şimdi kime açsam derdimi bir bir
Kim benim derdime yanar sen kadar?
Evin her yerinde görülür yerin
Gözüm ahtarcıdır anne ey anne
'Ninem' 'hani' diyor küçük azerin
Ne cevap verem ana ey ana" (ben seni, ben seni; darıltmak; seni; ben; dert; anne ey anne; ana ey ana)

-"Bilmem bilmem bilmem bu ölüm nedir
Hayat var iken" (bilmem, bilmem, bilmem)

-Bugün yedin oldu...
Annem yedi gün,
Bizimle beraber ağlar odalar
Sana
Yalnız sana
Sana demek için
Gönlümde ne kadar bilsen sözüm var...(yedi, yedin;sana, sana, sana;)
-Annem ısmarlandın anne topraga
Bu ölüm sineme çekti dağ benim
Sen benim arkamda benzerdin dağa
Sanki de arkamdan uçtu dağ benim...(anne/anne toprak; dağ,dağ,dağ; arkamda, arkamdan)
-"Ömrü başa vurdun altmış yaşında
Altmışın üstünde durup yaşında
Artık senin için durudgu zaman

Benim çün dolaşır
Gün olur akşam...
Vakit geçer sen benden uzaklaşırsın
Ben sana günbegün yakınlaşırım...” (altmış, altmışın; yaşında, yaşında; durup, durudgu; senin için/benim çün; sen/ben; uzaklaşmak/yakınlaşmak)

3. Ortak ve farklı tesbitler ya da sonuç:

3.1. Her iki şair de şiirlerine anneden ayrılıkla giriş yapar.

3.2. Vahapzade’nin ayrılışı ölümdür, bu dünya itibariyle kesin bir ayrılıktır. Oysa Ezizov’un ayrılığı, mekan ayrılığından ziyade çağ geçişi, dönem ayrılışıdır. Daha doğru bir ifadeyle, çocukluktan gençliğe geçiyor olmasının neticesi olarak, sosyal hayata açılışını, kendi erkini yakalayışını anlatan bir ayrılıktır.

3.3. Ezizov’da ayrılan evlattır, kendisidir. Vahapzade’de ise ayrılan annedir.

3.4. Ezizov’da anneyi teselli etme içerikli minnet duyguları dile getirilirken, Vahapzade’de özlem, hasret ve hüzün içerikli minnet duyguları seslendirilir.

3.5. Ezizov’da yeni yetişkinliğin verdiği kendine güven duygusu baskınken, Vahapzade’de annesizliğin getirdiği çaresizlik duygusu baskındır.

3.6. Vahapzade vurguyu tekrarlarla sağlamayı tercih etmişken, Ezizov bu yolu kullanmamıştır.

3.7. Her iki şiirde de anne yüce bir varlıktır. Yavruyu dünyaya getirmiştir. Evlat ona çok şey borçludur. Anne iyi ve zor günlerde evladın yanındadır.

KAYNAKÇA

1. Aksan, D. (2003) Cumhuriyet Döneminden Bugüne Örneklerle Şiir Çözümlemeleri, Bilgi yayınevi, , Ankara
2. Ezizov G(1978) Serpay, “Türkmenistan” neşriyatı, Aşkabat
3. Tosun, H. (2009) Cumhuriyet Dönemi Şiirinde Anne, Trakya Üniversitesi Sosyal Bilimler Enstitüsü, Türk dili ve edebiyatı anabilim dalı Türk edebiyatı bilim dalı yüksek lisans tezi, Edirne
4. Zal, Ü. (2007), Gurbannazar Ezızov’un Şiirrleri Üzerine Dil Ve Üslûp Çalışması, Gazi ÜnıversitesiSosyal Bilimler Enstitüsü Türk Dili Ve Edebiyatı Ana Bilim Dalı Türk Dili Bilim Dalı, Ankara
5. www.antoloji.com

B XT YAR VAHABZAD POEZ YASI V M LL -M N V D Y RL R M Z

Qiym t M h rr mli

AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun
böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru
“Elimiz.Günümüz” qəzetinin baş redaktoru, şair-publisist
qiymet_549@box.az

XÜLAS

XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən söz düşəndə, ilk olaraq yada düşənlərdən biri təbii ki, Türk dünyasının böyük şairi, unudulmaz Bəxtiyar Vahabzadə olur. Əlbəttə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Hüseyn Cavid, Əhməd Cavad, Almas İldırım, Mikayıl Müşfiq və digər ünlü ədəbi simaların gerçəklikdə özünə əbədi iz qoymuş imzalarına qoşularaq, ötən əsrin ortalarında sanki artıq durğunlaşmağa üz qoymuş ədəbi mühitdə bir canlanma yaratmağa müvəffəq olan gənc bir şairin meydanı hələ ilk dövrlərdə o qədər də geniş deyildi. Lakin bu poeziya vulkanının ilk püskürmələri Azərbaycan və Ümumtürk ədəbiyyatında qısa bir müddətdə öz geniş əks-sədası ilə izini qoymuş oldu. Çünki Bəxtiyar Vahabzadənin şeirləri öz mütərəqqi ideyası və məfkurə saflığı ilə digər şairlərin şeirlərindən əsaslı surətdə fərqlənirdi: belə ki, həmin əsərlərdə sanki gələcəkdə ünlü bir şair, müqtədir söz sənətkarı kimi bütün dünyada şöhrət qazanacaq qələm sahibinin öz Vətəninin, millətinin azadlığı, müstəqilliyi uğrunda şam kimi yanan ürəyinin döyündüyünü açıq-aşkar görmək, hiss etmək mümkün idi. Və bu ürəyin döyüntülərini təkcə həmin şeirləri oxuyanlar deyil, onları dildən-ağızdan eşidib, bu döyüntüləri onların qəlbinə zərrə-zərrə köçürən misraların sahibi ilə həmfikir olanlar da duyur, hiss edir, bu ideyalardan bəhrələnirdilər. Bu insanlar həmin şeirləri su kimi içir, hava kimi ciyərlərinə çəkirdilər. Haqqın, ədalətin haçansa qələbə çalacağına, özgürlüyün insan oğlu insanın taleyinə şam-çıraq tutacağına inam yaranırdı bu minvalla hər kəsin qəlbində.

Bəxtiyar Vahabzadə təkcə Azərbaycan xalqının övladlarını deyil, bütün Türk vətəndaşlarını Vətən, Millət, Torpaq, Yurd-yuva sevdalısı olaraq görmək istəyir və onları bu yolda şam kimi əriməyə çağırırdı. "Yaşamaq – yanmaqdır!" – deyirdi böyük şair. O, bütün qurtuluşların yeganə nicat yolunu yana-yana yaşamaqda görürüdü. Çünki doğrudan da, "Şam əgər yanmırsa, yaşamır demək!"

Artıq 60-cı illərdə Vətən aşiqi, azadlıq carçısı kimi tanınıb-sevilən şair Bəxtiyar Vahabzadə öz yaradıcılığının ən aktiv, ən keşməkeşli dövrünə qədəm qoymuşdu. Şairin ideyaları milyonların qəlbinə ağ işıq kimi süzülərək, gələcəyin nurlu yollarında onlara bələdçilik etməkdəydi...

Açar sözl r: Vətən, Xalq, Torpaq, Türk, Sevgi.

XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən söz düşəndə, ilk olaraq göz önünə gələnlərdən biri təbii ki, Türk dünyasının böyük şairi, unudulmaz Bəxtiyar Vahabzadə olur. Əlbəttə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Hüseyn Cavid, Əhməd Cavad, Almas İldırım, Mikayıl Müşfiq və digər ünlü ədəbi simaların gerçəklikdə özünə əbədi iz qoymuş imzalarına qoşularaq, ötən əsrin ortalarında sanki artıq durğunlaşmağa üz qoymuş ədəbi mühitdə bir canlanma yaratmağa müvəffəq olan gənc bir şairin meydanı hələ ilk dövrlərdə o qədər də geniş deyildi. Lakin bu poeziya vulkanının ilk püskürmələri Azərbaycan və Ümumtürk ədəbiyyatında qısa bir müddətdə öz geniş əks-sədası ilə izini qoymuş oldu. Çünki Bəxtiyar Vahabzadənin şeirləri öz mütərəqqi ideyası və məfkurə saflığı ilə digər şairlərin şeirlərindən əsaslı surətdə fərqlənirdi: belə ki, həmin əsərlərdə sanki gələcəkdə ünlü bir şair, müqtədir söz sənətkarı kimi bütün dünyada şöhrət qazanacaq qələm sahibinin öz Vətəninin, millətinin azadlığı, müstəqilliyi uğrunda şam kimi yanan ürəyinin döyündüyünü açıq-aşkar görmək, hiss etmək mümkün idi. Və bu ürəyin döyüntülərini təkcə həmin şeirləri oxuyanlar deyil, onları dildən-ağızdan eşidib, bu döyüntüləri onların qəlbinə zərrə-zərrə köçürən misraların sahibi ilə həmfikir olanlar da duyur, hiss edir, bu ideyalardan bəhrələnirdilər. Bu insanlar həmin şeirləri su kimi içir, hava kimi ciyərlərinə çəkirdilər. Haqqın, ədalətin haçansa qələbə çalacağına, özgürlüyün insan oğlu insanın taleyinə şam-çıraq tutacağına inam yaranırdı bu minvalla hər kəsin qəlbində. Bəxtiyar Vahabzadə təkcə Azərbaycan xalqının övladlarını deyil, bütün Türk vətəndaşlarını Vətən, Millət, Torpaq, Yurd-yuva sevdalısı olaraq görmək istəyir və onları bu yolda şam kimi əriməyə çağırırdı. "Yaşamaq-yanmaqdır!" – deyirdi böyük şair. O, bütün qurtuluşların yeganə nicat yolunu yana-yana yaşamaqda görürüdü. Çünki doğrudan da, "Şam əgər yanmırsa, yaşamır demək!"

Artıq 60-cı illərdə Vətən aşiqi, azadlıq carçısı kimi tanınıb-sevilən şair Bəxtiyar Vahabzadə öz yaradıcılığının ən aktiv, ən keşməkeşli dövrünə qədəm qoymuşdu. Şairin ideyaları milyonların qəlbinə ağ işıq kimi süzülərək, gələcəyin nurlu yollarında onlara bələdçilik etməkdəydi...

Bəxtiyar Vahabzadə öz şeirləri ilə qəlbinin gözü kor olanlara qurtuluş yolu göstərməklə yanaşı, bütün insanlara sübut etməyə çalışırdı ki, VƏTƏN, MİLLƏT, XALQ məhfumları ən müqəddəs, ən toxunulmaz varlıqlardır. Onların müqəddəsliyinə xələl gələrsə, bu, artıq sənin yoxluğun, heçliyindir. Yox, əgər bu toxunulmazları göz bəbəyin kimi qoruya bildinsə, demək öz tarixini, milli varlığını qoruyub saxlamış oldun. Demək sən dünən deyil, beş-on il deyil, yüz il-beş yüz il deyil, minilliklər bundan əvvəl də varsanmış, sən bu gün də varsan, sabah da olacaqsan. Nə qədər ki, dünya var, insanlıq mövcuddur, sən də var olacaqsan! Bax, elə bu ideya üzərində pərvəriş tapan Bəxtiyar poeziyasının əbədiyaşarlığı heç bir dəlil-sübuta ehtiyacı olmayan həyat qanunu şəklini alıb. Bu əsərləri xalq, millət sətir-sətir öz qan yaddaşına köçürüb, bu şeirlər nəsillərə həyat dərsi verir. İnsanlar durulmağın, saflaşmağın, insanlaşmağın yolunu bu şeirlərdən öyrənirlər. Çünki Bəxtiyar poeziyası insanlaşmağın, bəşəriləşməyin, dünyəviləşməyin poeziyasıdır. Çünki onun dünyaya sığmayan şair könlündən süzülüb gələn misralara cılız hisslər yol tapa bilməyib. Bu böyük ürəyin xırdalanması, parçalanması, cılızlaşması heç mümkün də deyildi. Həm də ki, böyük Bəxtiyar yaratdıqlarını sadə və təmiz xalq dilində, hər kəsin anlayıb özü üçün nəticə çıxara biləcəyi bir dildə yazırdı. Cəmi iki bənddən ibarət bir şeirində təbiətin fəlsəfi mahiyyətini incə boyalarla bu cür verir şair:

Həm yerin,
Həm göyün sirrini aşkar
Oxudum bir gülün ləçəklərindən.
Böcəklər, çiçəklər, güllər, arılar,

Kim deyir ayrıdır biri-birindən?

Eşqdir yaşadan təbiəti də,
Çiçəklər torpağın min bir rəngidir.
Böcəklə çiçəyin məhəbbəti də
Ana təbiətin öz ahəngidir.

("Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri", II cild, 2008, səh. 277.)

Bəxtiyar müəllim təkcə təbiəti deyil, dünyanı, insanları ürəkdən sevirdi, həyata bütün qəlbiylə bağlıydı. O, bütün bəşəriyyəti vahid, canlı bir varlıq kimi təsəvvüründə canlandırır, buna obrazlı düşüncə və gerçəkliyin inikası prizmasınndan yanaşırdı. Yaradanın yaratdıqlarının məhvinə yönələn hər bir hərəkəti qəzəblə pisləyir, yamanlığı özünə peşə seçənləri düz yola gəlməyə səsləyirdi. O bunu təkcə arzu etmir, eyni zamanda öz əməlləri ilə hər kəsə nümunə olmağa çalışırdı.

Görə bilmirsənsə gözəllikləri,
Bu aləm sənincün günahkar olur?
Gözü buz bağlayan bulaqlar kimi,
Soyuq adamın da qəlbi kor olur.

("Heyrət", "Bəxtiyar Vahanzadə. Seçilmiş əsərləri", IV cild, 2008, səh 61-63.)

"Sən odu, atəşi özgədən umma" deyirdi böyük ustad. O, insanları bəsirət gözünü açaraq dünyaya baxmağa, həyat keşməkeşlərindən yetərincə baş çıxarmağa səsləyirdi.

Bir yanım gecədir, bir yanım səhər,
Bir əlimdə şəkər, birində zəhər.
Deyirəm, nolaydı bütün tərəflər
Hamısı olaydı kaş bir tərəfdə.

("Bir tərəfdə", "Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri", III cild, 2008, səh. 77.)

Bəli, şairin arzusu, istəyi insanları yalnız və yalnız xeyirxah əməllər müstəvisində birləşdirmək, onların beyinlərində özünə yurd salmış biganəlik, amansızlıq, düşüncə korluğu kimi sağalması o qədər də asan olmayan mərəzlərdən xilas etmək kimi nəcib hisslərdən ibarət idi.

Bəxtiyar Vahabzadə yaxşı anlayır və başqalarına da anlatmağa çalışırdı ki, cəmiyyətdəki və insanların şüurundakı ən dərin aşınmalar biganəlikdən, laqeydlikdən meydana gəlir ki, bunun da zərbəsi ən sonda övladı olduğun Vətənə, vətəndaşı olduğun ölkəyə dəyir.

Demə, daş yayınıb qardaşa dəydi,
Mən elə bildim ki, daş daşa dəydi.
Yurdun o başında yıxılan kəsin
Ağrısı qəlbində gərək göynəsin!

Ən böyük dəryanın birdir sahili,
Onu hər tərəfdən döyər dalğalar.
Bir böyük Vətəni, bir böyük eli
Tarimar eləyər "mənə nə var"lar.

("Mənə nə var?", "B.Vahabzadə. Seçilmiş əsərləri". II cild, 2008, səh. 254)

Doğrudan da, bu "mənə nə var"lar millətin evini yıxmadımı zaman-zaman? Xalq şairi Məmməd Araz çox güman ki, böyük Bəxtiyarın məhz həmin şeirindən təsirlənərək, "Məndən ötdü, qardaşıma dəydi" şeirini yazır. Bu məşhur şeirin yazılma tarixi həmin əsərin işıq üzü gördüyü "Məmməd Araz. Seçilmiş əsərləri" (Bakı, 1986) kitabında göstərilməsə də, burada başlığın altında onun məhz B.Vahabzadəyə ünvanlandığı göstərilir. Bu məsələ diqqətimizi bəlkə o qədər də cəlb etməzdi, lakin Məmməd Arazın sonralar dillər əzbəri olacaq bu şeirinin xalqımızın bütün nəsillərdən olan övladlarının qəlbində Vətən, millət, xalq sevgisinin daha alovlanmasına şərait yaratdığı danılmaz fakt kimi ortaya çıxır.

... Qəza ötsün məndən, - dedi,
Ötən kimi, "mən-mən" dedi.
"Mən-mən" dedi bir ölkədə nə qədər xan.

Onlar “mən-mən” deyən yerdə
Sən olmadın, Azərbaycan!

... Səndən ötən mənə dəydi,
Məndən ötən sənə dəydi.
Səndən, məndən ötən zərbə
Vətən, Vətən, sənə dəydi.
(“Məndən ötdü, qardaşıma dəydi”,“M.Araz. Seçilmiş əsərləri”, 1986. səh. 80-81.)

Bu şeir Azərbaycan tarixinin ən ağrılı, ən göynərtili səhifələrini gözlərimiz önündə canlandırır. Burada M.Araz Dədə Qorqud dövrünün xanlarına, Koroğlu dəlilərinə, Şəki, Bakı, Gəncə, Quba, Dərbənd xanlarına... üz tutur, onları öz içindən ovulmağa deyil, yumruq kimi birləşib yadelli işğalçılara qarşı mübarizədə səfərbər olmağa səsləyir. Şair onları xalqın taleyindəki məhrumiyyətlərə görə bağışlamadığını açıq-aşkar büruzə verir. O öz qənaətində tamamilə haqlıdır, çünki hələ 1959-cu ildə Bəxtiyar Vahabzadə “Gülüstan” poemasını qələmə alarkən, bir böyük həqiqəti xalqımıza qənim kəsilənlərin düz gözlərinin içinə qorxmadan, çəkinmədən hayqırmışdı: “Axı nə istəyirsiniz mənim xalqımdan, millətimdən? Hansı haqla bu xalqın taleyini sizlərə necə sərf edir, o cür həll edirsiniz? Bu millətin öz taleyinə sahib çıxmaq hüququ yoxmu? Bu haqsızlığı Allah götürərmi???”

Necə ayırdınız dırnağı ətdən,
Ürəyi bədəndən, canı cəsəddən?
Axı kim bu haqqı vermişdir sizə,
Sizi kim çağırmış Vətənimizə?
(“Gülüstan”, “Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri”, I cild, 2008. səh. 599.)

Ancaq unutmamalıyıq ki, Rus müstəmləkəçilərinin, eləcə də fars şovinistlərinin bu mənfur niyyətlərinin baş tutmasında yenə də “mənə nə var”, “məndən ötsün, kimə dəyir-dəysin” deyən “kökü özümüzdən olan baltalar”ın rolu olmamış deyildir. Belə olmasaydı, böyük Mirzə Ələkbər Sabir nədən yana-yana yazmalıydı ki: “Millət necə tarac olur-olsun, nə işim var, Düşmənlərə möhtac olur-olsun, nə işim var?”? Bu barədə B.Vahabzadənin fikirləri isə tamamilə müasir və orijinaldır (Eyni zamanda, unutmamalıyıq ki, bu cür şeirlərin yazılması Sabir dönəmində olduğundan daha artıq cəsarət tələb edən məsələdir). Müasir patriarxların üzünə sillə kimi çırpılan bu tipli nümunələrin mövcudluğu onları cəsarətlə meydana çıxaran şairin şəxsiyyətinin, simasının birbaşa göstəricisidır.

Bu gün qüsurunu bilirmi görən,
Dünən əsarətə könül verənlər?
Dünən azadlığı qəbul etməyən,
Bu gün azadlıqda dövran sürənlər?
(“Paradoks”, “B.Vahabzadə, Seçilmiş əsərləri”, VII cild, 2008, səh. 304.)

(Bu kimi misalların sayını istənilən qədər artırmaq olar, lakin nəzərə alsaq ki, Bəxtiyar Vahabzadə kimi vətəndaş-şairin qələmindən çıxan hətta istənilən sevgi şeirində belə Vətənə, doğulduğu torpağa və mənsub olduğu xalqa sonsuz məhəbbətin pozulmaz izləri aşkar duyulmaqdadır, deməli, onda biz bu təhlilləri aparmaq üçün bu qüdrətli söz sənətkarının 12 cildlik əsərlərinin hamısını bircə-bircə tədqiqata cəlb etməliydik.)

XIX-XX əsr Azərbaycan ədəbiyyatında elə bir yazıçı, şair tapmaq olmaz ki, o, yaradıcılığında qardaşı-qardaşdan ayrı salan, siyasət dəllallarının əlində alətə çevrilmiş günahsız bir xalqı ikiyə bölən, açılması müşkülə dönmüş, açarını sanki Arazın lal suları aparmış “Gülüstan” müəmması haqqında bircə əsər də olsun yazmamış, bu çirkin siyasəti lənətləməmiş olsun. Təəssüflər olsun ki, bəşər övladı tarix boyu bu cür haqsızlıqlara boyun əyməyə məcbur edilmişdir. Hazırda dünyanın super güc dövlətlərinin müsəlman ölkələrinin xalqlarına qarşı yeritdikləri ardı-arası kəsilməyən təzyiqlər, təhdidlər, qanlı müharibələr vaxtilə ortaya atılmış, əl altından həyata keçirilən “Parçala-hökm sür!” siyasətinin aşkar görünən tərəfləri deyilmi? Lakin bu dövlətlər öz güclərindən istifadə etməklə, nisbətən zəif ölkələri önlərində diz çökdürməyə can atsalar da, tarix sübut etmişdir ki, xalqlar əzilməyə məcbur edildikcə, onlar daha da mətinləşir, haqsızlığa, köləliyə qarşı daha da mübariz olurlar. Doğrudan da, bu yerdə şair öz qənaətində haqlıdır:

Gücünü, əzmini tök də meydana,
Qoşundan, silahdan sədd çək hər yana.
Torpağı ikiyə bölərsən, ancaq
Çətindir bədəni candan ayırmaq!

(Yenə orada: səh. 604)

"Mizan-tərəzidə haqq ölçüləndə" Avropanı "cismani", özünüsə (türk xalqını) ruhani adlandıran şair, Avropalı siyasətçiləri özlərinə məhz Azərbaycan adlı Şərq ölkəsi şairinin gözü ilə baxmağı tövsiyə edir:

Özünə dar gələn Qərbin mənliyi
Dibi görünməyən tamahındadır.
Batının Doğudan tək üstünlüyü
Gücündə, zorunda, silahındadır.

Mənəvi silahım – mərhəmət, vicdan,
Nəzakət, nəcabət yaşar qanımda.
Sənin qana həris silahlarından
Ruhum qüdrətlidir Allah yanında.

("Avropa birliyi","B.Vahabzadə. Seçilmiş əsərləri",VII cild, 2008, səh. 310.)

Qərb dövlətlərinin Türkiyənin, Azərbaycanın, eləcə də müsəlman ölkələrinin azadlıq və müstəqilliyinə qısqanclıqla yanaşmaları şairi mənən ağrıtsa da, o sarsılmır, çünki o, ədalətin, haqqın qələbə çalacağına, şərin, böhtanın qara bir tüstü kimi uçub dağılacağına hər zaman bütün varlığıyla inanıb. Ən başlıcası isə, canı qədər sevdiyi Türkiyəyə bəslədiyi böyük sevgi, bu qüdrətli Türk dövləti ətrafında türkdilli xalqların, ölkələrin yumruq kimi birləşməsi arzusu onun bütün varlığını sarmışdı. Məhz bu düşüncəylə də şair üzünü çox sevdiyi Türkiyəyə tutur:

Batı birliyində basıldın küncə,
Dözmə bu təhqirə, yenidən doğul.
Batı kölgəsində kölgələnincə,
Doğunun önündə sən bayraqdar ol!

(Yenə orada.)

Misallardan da göründüyü kimi, Bəxtiyar Vahabzadə təpədən-dırnağacan mili ruhlu şair, xalqın arzu və istəklərini özündə əks etdirən əsərlər yazan qüdrətli söz sənətkarıdır. Onun ana dilimizlə, dinimizlə, inanclarımızla, müəllimə, ağsaqqal-ağbirçəyə, böyüklərə, insana, insanlığa dərin hörmət, ehtiram və məhəbbət hissiylə qələmə aldığı şeirlər, poemalar, dram əsərləri bütün dövrlər üçün aktual sayılan məsələləri – milli-mənəvi dəyərləri özündə əks etdirdiyindən, bu əsərlər hər zaman xalq tərəfindən sevilir və təqdir olunur. Müəllifinə şöhrət qazandıran əsərlərin isə öz sahibinin adı və xatirəsi ilə birgə əbədi ömür sürəcəyi şəksizdir.

ƏDƏBİYYAT

1. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri, I cild, 2008,
2. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri, II cild, 2008,
3. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri, III cild, 2008,
4. Bəxtiyar Vahanzadə. Seçilmiş əsərləri, IV cild, 2008,
5. B.Vahabzadə. Seçilmiş əsərləri, VII cild, 2008,
6. M.Araz. Seçilmiş əsərləri, 1986.

B XT YAR VAHABZAD -SÖZL N Q OLUNMU M N V YYAT M NZ R L R

Min xanım Nuriyeva (T kl li)
Qafqaz Universiteti, Qafqaz Araşdırmaları İnstitutu

Bəxtiyar Vahabzadə adı təkçə respublikamızda deyil, onun sərhədlərindən çox-çox uzaqlarda da mütəfəkkir şair, lirik dramaturq, istedadlı alim və publisist, qeyrətli və cəsarətli ictimai xadim, sadə və səmimi insan kimi çəkilməkdədir. Ədəbiyyatımızın, bütövlükdə XX əsr poetik fikrinin görkəmli nümayəndəsi, Xalq Şairi Bəxtiyar Vahabzadə təkcə Azərbaycanın deyil, böyük Türk Dünyasının şairidir. 80- yaxın şeir kitabının, 20-dən çox poemanın, 10-dan artıq elmi-publisistik, iki monoqrafiya və yüzlərlə məqalənin müəllifidir. Bəxtiyar Vahabzadə hər bir misra üzərində, fikrin aydın və təsirli ifadəsi məqsədilə yorulmadan çalışan sənətkarlarımızdandır. Sözün başqa ədəbi növlərə nisbətən şeirdə daha çox bədiilik tələb etməsi və bu baxımdan şairin xüsusi obrazlılığa, ifadəliliyə malik olan poeziya dili örnəkləri sübut edir ki, həqiqi sənətkar gözəl bədii zövqün inkişafında, zahirən çox sadə görünən, həqiqətdə isə dərin bir məna ifadə edən bədii sözün qüdrətini duymaq hissini tam mənası ilə yüksəltməyə kömək etməlidir. Vahabzadə poeziyasının təsir gücü də elə bundadır. Şair canı və qanı ilə, bütün nəfəsi ilə bağlandığı ana dilinin sonsuz, hüdudsuz imkanlarından sənətkarcasına da istifadə etmişdi. Əlbəttə, başqa ədəbi növlərə nisbətən söz şeirdə daha çox bədiilik tələb edir və bu mənada poeziya dili xüsusi obrazlılığa, ifadəliliyə malik olur. Poeziyanın təsir gücü də elə bundadır. Şair poeziyada uzun illər mövcud olan və bərkiyən sözçülükdən, eyni zamanda ritorik pafosdan uzaqlaşmaqla təbii poetik hadisə və detallara üstünlük verməklə, hətta vəsf və tərənnümdənsə obrazlı düşüncə vəziyyətlərinə keçidlərlə buna nail olur. Onun istifadə etdiyi dil vahidləri obrazların səciyyələndirilməsi, təhkiyə üsulunun cazibəsi, təsvir edilən hadisələrin reallığı üçün çox böyük əhəmiyyətə malikdir. Bu mənada bədiiliyə, obrazlılığa xidmət edəcək bir kəlməni, fikrin sərrast ifadəsinə şərait yaradan hər hansı bir deyimi, uğurlu sözü, yerinə düşən sözü belə bədii tapıntılar adlandırmaqda haqlıyıq. Bədii tapıntılar həyatı öyrənmənin, dərin müşahidənin nəticəsində əldə edilir. Sənətkarın şeirlərinə və digər bədii parçalara qoyduğu “Gülüstan”, “Şəbi-hicran”, “Etiraf”, “Muğam”, “Ağ atlı oğlan”, "Həyat, sən nə şirinsən", "Ana dili", “Bir ürəkdə dörd fəsil”,“Bir ömür yuxu”, “Açılan səhərə salam”, “Özümüzü kəsən qılınc”və s. adlar sözlə cızılan, nəqş olunan mənəvi rəsmlərin bütövləşməsinə, tamlanmasına yardım etməklə həm də milli dilin sambalını, dəyərini artırmağa xidmət edir.

Şairin əsərlərində nəzərə çarpan rəngarəng obrazlılıq şairin bilavasitə canlı xalq dilinin zənginliklərindən yaradıcı surətdə istifadə etmək bacarığı ilə bağlıdır.(7,22) “Eynəkli cənabla təsbehli ağa” Gülüstan sülhü zamanı rus və İran tərəflərinə işarədir. Məhz gözəçarpıcı xüsusiyətlərlə, daha çox geyim detalları ilə şəxsi adlandırmaq bizim xalq danışığına xas olan bariz cəhətdir. Yəni şair istəsəydi həmin eynəkli və təsbehli şəxsiyyətlərin rəsmi adlarını da yaza bilərdi. Yaxud, ana dilində danışmağı *ar bilən fasonlu ədabazlar* deyə şairin müraciətindən aydın olan odur ki, kimsə pis geyimi və ya geriliyi özünə ar bilsə də öz doğma dilində danışmağı ar bilənlər ənənəsi ədəbiyyatımızın canlı qolundan gəlit. Bunun nümunələri Üzeyir bəy Hacıbəyov, Mirzə Cəlil, Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığında kifayət qədər örnəkləri vardır.

Fikrin kasadlığı sözün də bəsitliyinə səbəb olacaqdır – bu bəlli bir həqiqətdir. Əlbəttə şair bu yoldan uzaqdadır; fikrin konkret, həm də obrazlı ifadə tərzinə üstünlük verir...Beləliklə, parlaq, aydın fikrin ifadəçiləri olan ayrı-ayrı sözlər, ifadələr hikmətli ifadələrə çevrilir: “Görüş qışdan sonra gələn bahardır”, “Görən hara gedir bu millət, Allah”, “Yeklər cövlan edir şeş xanəsində.”, “Şeytan başqa, mələk başqa”, “torpaqdan pay olmaz”, “zaman ömrü əridər”, “Gül başqadır, çiçək başqa”, hikmət, ibrətamiz nəticələr, məna Vahabzadə şeiriyyətini səciyyələndirən əsas amillərdir. Bu hikmətləri yazarkən şair hələ gənc idi... məhz həmin zamanlarda görkəmli tənqidçi Mehdi Hüseyn bu fəlsəfəni həyatdan doğan, sağlam fəlsəfə adlandırmışdı. (6.74) Şairin yaşlı vaxtına aid şeirləri də onun gənclik illərindən qoruyub saxladığı səmimi, təmiz deyə insana həsr edilmiş qiymətli hisslərinin ifadəsidir. Hüseyn Mehdi şairin poeziyada çətin bir yol sayılan

psixoloji təsvir və təhlil yolu ilə getdiyini göstərir və Bəxtiyar Vahabzadə insan psixologiyasının dərindən-dərinə açanda oxucu burada zərərli meyl olan "fəsəfəçilik"lə deyil, şairin həyat haqqında sağlam mühakimələrinin xoş təsirli nəticələri ilə qarşılaşır. "Müəllif həyat və hadisələr haqqında aforizmlər işlədərkən də biz onları sonradan əsərə əlavə edilmiş parçalar kimi yox, hadisələr haqqında poetik mülahizə və mühakimələr kimi oxuyuruq. Bəxtiyar Vahabzadə dilində, ifadə tərzində də bir axıcılıq, lirizm və ahəngdarlıq görürük (7.19)Bəxtiyar Vahabzadə şeirlərində mövzular aləminin təbiiliyi, tipikliyi, hissi-idraki təsir gücü, səmimilik, mədəni əxlaqi dəyərlərin təbliği şairin qayəsini, amalını əks edir. Belə olan halda - şair üçün müqəddəs nədir, nələrdir? – dedikdə tərəddüdsüz olaraq göz önünə ana, ana dili, Vətən, xalq, ana torpaq, sevgi dünyası sandığı türk elləri, insanlıq, ləyaqət gəlir, bəli, bunlar həm də onun mövzularıdır. Ümid, arzu, mənəvi-əxlaqi sınaqlar, daxili təlatümlü dünya, əsrin adamı, zəmanənin şəxsiyyəti, müşahidənin miqyası, sevilmək,var olmaq eşqi... bunlar da-hamısı mövzudur. Mövzu həyatdan gəlir və ya belə demiş olsaq, mövzunu həyat diqtə edir:

Qatil gülləsinə qurban gedirkən
Gözünü sabaha dikdi şəhidlər.
Üç rəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

Poema 90-cı ilin ilk günlərində yazılmış və çap olunmuşdu. Baxın bu düşüncə tərzi saxta kommunist ideyalarının hələ nəfəsini alıb verdiyi bir zamanda meydana çıxmışdı. Demək ki, mövzunu "köhnəlməyə" qoymayan şairin əlüstü reaksiyası onun vətəndaş mövqeyini göstərir. Şair millətinin bu "təzə" faciəsinə "qəfil güllə", "qurban getmə", "gözünü sabaha dikmək", "bayraq çəkmək" kimi bircə bənddən götürə bildiyimiz ifadələri isə qədim söz yadigarlarıdır. Bu ürəkdə kök salan bir ağrıdır, təkcə bir adamın dilində yox, millətin dilində ağıdır... poemadakı rəngarəng nitq detalları: söz, məcaz, müqayisələr – hamısı bunu deyir. Bəxtiyar Vahabzadə təbiətdən, mənzərədən,onun təsvirindən çox hal-vəziyyət, insanın arzusu, qəlb həyəcanları ilə maraqlanır. İnsan dağ kimi əzəmətli, qaya kimi möhkəm, axar su kimi yumşaq, həlim, yaxud qış kimi sərt, düşüncəli, payız tək tutqun, yaz kimi şən, nikbin...təbiət mənzərələrini seyr edər kimi olursan; amma sözlə nəqş cızılmış mənzərələr sanki daha mənalı... Bəxtiyar Vahabzadə müəllim idi, müəllimliklə məşğul olurdu; həyata müəllim kimi baxırdı. Bu təcrübə sanki həyat haqqında, cəmiyyət, təbiət haqqında təsəvvürlərin genişləndirilməsinə, dərinləşdirilməsinə kömək etməyə sərf olunurdu. Bununla insani həyat təcrübəsi, ovqat, ənənəyə sadiqliyi, daim önəm verdiyi adətlər, müddəalar...mənəvi-ruhi dəyərlər misralara köçürülür, daha bundan sonrası isə göz önündə vərəqlənir, yaddaşlara yazılır. Şeirlərin ruhuna hopmuş hikmətlər, xalq ifadələri, aforizmlər-deyimlər, emosional məcazlar, fikir-obrazlar, qanadlı ifadələr dərin həyat müşahidələrinin, ixtiyar bir dünyagörüşün (bu mənada şairin gənclik və ahıl çağlarının şeirlərini ayırmaq olmur) məhsuludur. B.Vahabzadədə bizim ulu babalarımıza xas olan həyat hadisələrini mənalandırma qüdrəti, kiçicik həyat epizodlarını belə ümumiləşdirmə qabiliyyəti güclüdür. Məhz bu qabiliyyətin gücü ilə ayrı-ayrı sözlər, adi ifadələr hikmətli ifadələrə çevrilir; şair özü, müəllif isə, simvolik mənada haqq-ədalət obrazında görünür: *"gah göyə yüksəlir, gah enir insan", "görüş qışdan sonra gələn bahardır", "yeklər cövlan edir şeş xanəsində.", "bir salama dəyməyən eşqə ölüm yaraşır"; "çox əyilən görmüşəm əyilməyən başları"; "öz hissini dustaq eləyən bəxtiyar olmaz"; "şeytan başqa, mələk başqa"...* kimi mənəvi varlığı dolğun əks edən ifadələr məsəllərdən, atalar sözlərimizdən seçilmir. Onların vasitəsilə də dərhal etnoqrafik cizgilər, xətlər aydınlaşır.

Bir qələm əsrlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınc tək.
Öz sivri ucuyla bu lələk qələm,
Dəldi sinəsini Azərbaycanın.

Burada diqqəti əsasən "qılınc" və "qələm" sözləri cəlb edir; adi situativ məqamda bunlar əks sözlərdir, hər zaman zidd tərəflərin, xarakterlərin və keyfiyyətlərin daha da kəskin şəkildə ifadəsinə yardım edir. Bəs burada? Burada isə bu lüğəvi vahidlər daha çox sinonimik məqamda çıxış edir. "Gülüstan" poemasından aldığımız bu nümunədə qələm qılıncdan da müdhiş yaralar

açır: qılınc (xalqı) yarıya böldüsə də qələm – hər zaman ünsiyyətə, insani münasibətlərə vasitəçi, "istəklərin, gizli dərdlərin tərcümanı olan" qələm isə Azərbaycanın köksünü dəlir. Şair qələmin xəncərdən artıq gücə malik olduğu fikrini, əgər təbiri caizsə, xalqdan əxz etmişdi. Ümumxalq nitqində qələm barədə: "qələmi qırılsın", qələm belə yazmış", "qələm çalmaq","qələm düşmən əlində", "yazıya pozu yoxdur" və s. inanclar və hökmlər bu fikri təsdiqləyir. B.Vahabzadənin bütün ədəbi təcrübəsinin çıxış nöqtəsini təşkil edən canlı müşahidələr və müşahidələrə dayanan təhlillər nəticəsində bizi əhatə edən aləmdəki fərqlər böyüyür, zidddiyyətə, əksliklərə çevrilir, uçurum dərinləşir. Mənaca zidd sözlər buna kömək edir: *O qədər yaxın ikən, bu qədər uzaq oldun.* (yaxın-uzaq sözləri ilə zidd qütblər, münasibətin əks üzü) *Kimimiz bal içər, kimimiz zəhər; Xəyal gah dağdadır gah da aranda Gah göyə yüksəlir, gah enir insan; Həyat səni güldürəndə gülmüsən, hünərin var ağladanda gül görüm* Şairin əsərlərində əks mənalı sözlər mətnin bədii-estetik təsir gücünü artıran leksik vahid olaraq ciddi rola malikdir. Çünki bununla sənətkarın həm öz təhkiyə dilinə, həm də personajların nitqinə canlılıq gətirir, emosional təsir, qüvvətli kontrastlar yaradır, əşya və hadisələri daha inandırıcı, obrazlı, təsirli əks etdirir, müxtəlif anlayışların birbirlərinə əks, əlamətlərini qarşı-qarşıya qoyur. Antonim sözlər şairin təsvir və fikirlərində aydınlıq yaradan dil vahidləri kimi də qiymətlidir. Şair onların vasitəsilə rəngarəng məna incəlikləri yaratmaqla əsərlərin ideya məzmununun açılmasına, obrazların hərtərəfli səciyyələndirilməsinə, konfliktlərin düzgün ifadəsinə müvəffəq olur. Müəllif başqa hallarda olduğu kimi, "antonimləri obrazların vəziyyəti və hadisələrin səciyyəsi ilə bağlı şəkildə, məqsədə müvafiq tərzdə işlədir. (8.s. 29)

..."Bu günün fəlsəfəsini yaratmaq cəhdi"(5,202) dünyanın dünya boyda əksliyini görmək, dərk etmək, onu mənalandırmağa gətirir. Məhz çağın, zamanın nəbzi onun anlayanın barmaqları altında daha tez duyular...

Bu əsərlər bəs necə yaranmışdı, birdən-birəmi? Yox, şairin "göydəndüşmə" heç nəyi yoxdur. Vahabzadə qorxmamış, Gülüstan" yazmış... yazmış. Yenə də yazmış... Şair qorxularla üzüzə dayanmış, 37-ni dadmasa da repressiya dalğalarının müharibədən sonrakı illərdə qopardığı fırtınaların şahidi olmuşdu. Xəyanət etməmişdi, gəncikən bu xofu yaşamışdı, şər-böhtan onu da qorxutmuşdu, amma uzaq saxlamışdı onu hər bəladan.

Lakin həddindən artıq olan bu müşahidələr həyatın ümumi inkişaf qanunlarını, fəlsəfəsini təhlil etmə bəzən yanlış yola da gətirib çıxarar, nəticədə soyuq nəsihətlər, aqilanə olmadan artıq saxta, həm də qulaq yoran fəlsəfəçilik meydana çıxır . Bəxtiyar Vahabzadə poeziyasında poetik sistemlilik mövcuddur. Məhz bu səbəbdəndir ki, "onun lirik şeirlərinin əksəriyyətində və poemalarında folklor fəlsəfəsi bu günün fəlsəfəsinə çevrilə bilir; xalq müdrikliyi zəmanəmizin idraki-qnesioloji məzmununu əks etdirməyə ustalıqla, poetik üslubi sənətkarlıqla yönəldilir (5. 202) *Əgər olmasaydı, dəryaca dərdim, Dərdin yoxluğunu mən dərd edərdim... Şam əgər yanmırsa, yaşamır demək, Onun yaşaması yanmağındadır.* Demək ki, mənzərə yaradan misralar, əslində gerçək aləmin poetik ifadəsi sadədir, sadə olmalıdır. Və "*bircə ondan razıyam ki, özümdən narazıyam*" yaxşı yadımdadır, bu bizim gəncliyin hər gün təkrar etdiyi bir hikmətamiz söz idi. Saf duyğu və düşüncələr, hikmət və aqillik, tərəfsiz səmimi yozum; bir sözünə mini, milyonu şərik edən ürək ... təfəkkür... Şeirlərində insan sevgisi, həmrəylik duyğusu, vətəndaşlıq məsuliyyətinə çağırış məzmunu bədii mühakimənin gücü, poetik fəlsəfi ümumiləşdirmələr yolu ilə fikrin konkret ifadə tərzinə nail olmaq nəticəsində öz ifadəsini tapa bilir:

Sənin güvəndiyin dünya əzəldən
Əkilən, biçilən zəmi deyilmi ?
Yalan hakim olub, böhtan gözətçi,
Çürüyür zindanda həqiqət, Allah.

Bir-birinə bənzəsə də,
Yel başqadır, külək başqa.
Ətri də xoş, rəngi də xoş
Gül başqadır, çiçək başqa.

Haqqın yolu-öz yolumdur,
Əyilməyən düz yolumdur.

Xeyirlə şər sağ - solumdur
Şeytan başqa, mələk başqa.

İnsanı tez yorar düşüncələr də,
Verib nəfəsini dərd udar insan.
Özündən başqası olmayan yerdə,
İnsan olduğunu unudar insan...

Şeir könül məlhəmidir demişlər... Burada danışan dil deyil, könüldür susmayan.... nümunələrdə məhz adidən adi sözün, fəqət öz sehri ilə hər bir sətri, misranı necə formalaşdırdığını görürük. Həyatın fikri, bədii və poetik dərki qanadlı fikirlər, qanadlı ifadələr doğurmuş...

Şairin ayrıca bu bənzətmələri – bədii təyinləri kiçik çeşmələr tək qaynayır, coşaraq böyük və güclü türk dilinin və türk şeiriyyətinin nəhəng nəhrinə çevrilir. Şairin poetik nitqinin uğurlu bəhrələri sayılacaq: qüvvətli məcazlar, qanadlı ifadələr: *"tarixdən qədimdir", "zamandan qoca", qaytar tariximin qızıl çağını", "vicdan şahidliyi", "küçələr işıqlı, könüllər qara"; "özümdən narazıyam","ömürdən hədiyyə", "mənfəət meydanı", "vicdan güzgüsü"; "vicdan şahidliyi"; "könüllü dustaq", "könül gözü"; "ömrün fəsilləri"*, qəlb həyəcanlarını ifadə edən və oxucuda təbədüllatlar, ruhi emosiyalar doğuran ritorik suallar və hökmlər: *"hardadır səadət?"; "görən hara gedir bu millət?", "yadlarmı edəcək bu xalqa imdad?"; "zənciri kim vurdu şir biləyinə?"; "məzlumuq ya zalımıq biz?"; "ağıl namərd olar, ürək mərd olar"; "bir salama dəyməyən eşqə ölüm yaraşır"; "özümüzə zalım ikən, başqasına məzlumuq biz"; "ləyaqət, mətanət sıxıldı küncə"; "əbədini dünyada mən əbədi sanmadım"; "axı dünya fırlanır"; "yoxuşu düz yol bilmişik"; "biz yalanı körükləyib həqiqəti çıxdaş etdik", "ümidə heykəl qoyun"* və bu kimi söz örnəkləri həyat mənzərələrini mahiranə şəkildə nəqş etməklə bərabər ana dilimizin söz xəzinəsini də zənginləşdirməkdədir.

D B YYAT

1. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri (2 cilddə), Bakı. Öndər nəşriyyatı, 2004,(328,320 səh.)
2. Bəxtiyar Vahabzadə. Açılan səhərə salam, Şeirlər və poemalar, B., Yazıçı, 1979 (229 səh.)
3. Cəfər Xəndan. Seçilmiş əsərləri(3 cilddə), Bakı, Çaşıoğlu, 2010
4. Qəzənfər Kazımov. Sənət düşüncələri, Bakı, 1996 (576 səh.)
5. Həsənov Rüstəm. Bəxtiyar Vahabzadə poeziyasının sənətkarlıq məsələləri,- Dil və Ədəbiyat. Beynəlxalq elmi-nəzəri jurnal, Bakı, 2010, 2(73), s.202-204
6. Hüseyn Mehdi. Ədəbiyyat və sənət məsələləri, Azərnəşr, 1958
7. Hüseyn Mehdi.. Sənətkar həyatdan güc alır, "Azərbaycan" jurnalı, 1963, № 3, s. 3-22)
8. Səbinə Alməmmədova. Bəxtiyar Vahabzadə poeziyasının dili, Bakı, 2010

B XT YAR VAHABZAD YARADICILI INDA SLAM- RQ KONTEKST

Rasim N bi o lu Qurbanov

Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına
Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru
Rasim.gurbanov@gmail.com

XÜLAS

Xalq şairi Bəxtiyar Vahabzadənin ədəbi-bədii irsi milli məzmun və ümumbəşəri mündəricə səciyyəli olub dini-fəlsəfi anlayış və istilahlarla, islami-irfani mövzü və obrazlarla zəngindir.

Açar sözl r: Vahabzadə Bəxtiyar, dini – fəlsəfi, Şərq, İslam, Kontekst.

SLAMIC – ORIENTAL CONTEXT IN THE WORKS BY BAKHTIYAR VAHABZADEH

SUMMARY

The paper is dedicated to the religious – philosophical, mystical notions and terms in the works by B. Vahabzade, the Peeple's poet of Azerbayjan Republic.The author analyses his poetry from the point of view of islamic – oriental context.

Key words : Vahabzade Bakhtiyar, religious – philosophical, Oriental, Islam, Context.

–

Статья посвящена религиозно – философским , мистическим понятиям и терминам в творчестве народного поэта Азербайджанской Республики Бахтияар Вахабзаде. Автор анализирует его поэзию с точки зрения исламско – восточного контекста.

: Вахабзаде Бахтияр, религиозно – философский, восточный, ислам, контекст.

Böyük qırğız ədibi Çingiz Aytmatov yazır: “Vahabzadənin təlatümü, inkar və təsdiqi söz oyununda deyil, ali ehtirasdan, “əks-sədaliqdan”, qəlb inamından doğur. Bizi əhatə edən aləmdə hər nə varsa, şairi dərindən-dərinə düşündürür; xeyirlə şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq ehtirası Bəxtiyarın fitrətindədir”. (1, s. 5-6)

“Dünənə hörmət, bu günə alqış, /Sabaha inam/ İnam! İnam! İnam!” y(T4 A 1 Tf0 39 0 AK 5252 Fj 0 12 175.41

Yalan mamırlanıb ürəyimizdə
Haram maya tutub çörəyimizdə (1, s. 128)
Sirat körpüsündən kələklə keçdik.
Yalan mamırlanıb ürəyimizdə
Bu qalın mamırdan arınmaq çətin!
Günün damğası var kürəyimizdə,
Damğa bizimlədir çox illər yəqin.
Tərsinə yaşadıq bir qarış ömrü
Hələ sağım solda, solum sağdadır.
... Haqqa çətin gələr haqqından dönən,
Təzədən yaratsın Yaradan bizi ! (1, s. 129)

"Vətən marşı " (1, s. 132)
Sənin öz bayrağının kölgəsi cənnətdi sənə,
Sənin haqqındır azadlıq, sənin eşqindir iman,
Tapınar haqqa və insanlığa haqdan doğulan.

"Şəhid anası " (1, s. 142-143)
Şəhidi şəhidlik mərtəbəsindən
Endirir ananın giley – güzarı.
Bizdən kömək uman dərdli səsindən
Alışıb yazmazmı şəhid məzarı?
Ana qapılarda dilənir bu gün,
Oğul şəhid olmuş, yoxsa bunuçün (1, s. 142)

"Atatürk" (1, s. 143) "Sual varsa, cavab var" (1, s. 144-146)
Nədir arzum, diləyim tanrıdan imanla bu gün?
Talanan, bağrına dağlar çəkilən xalqım üçün :
Yeni fikrin küləyindən qoca millət darana,
Bizi birləşdirəcək bir Atatürküm yarana !

"Bir ömür yuxu " (1, s. 147-148)
Bu gecə yuxuda gördüm, ölmüşəm (1, s. 147)
Yox yuxu deyilmiş gördüyüm yuxu,
Həmin yaşadığım ömür yuxuymuş. (1, s. 148)

İslam peyğəmbəri Rəsul Allahın şərifi- hədislərinin birində deyilir : "İnsanlar hələ yatırlar, öləndə yuxudan ayılacaqlar".

Təbiətdə bir ahəng, tarazlıq, nizam olsun. (Amma insan ölüncə bu dəfə də o özü torpaq üçün yem oldu (1, s. 146).

Səmavi kitablara və dini - fəlsəfi inanca görə, insan (adam) torpaqdan yaranıb, torpağa da gömüləcəkdir.

Məni heyrətləndirəm bu cavabsız suallar?
Heykəllərə döndərir hər duyğumu, hissimi
Mehrab kimi, büt kimi
Onların qarşısında mən donmaq istəyirəm,
Hər birinə əlimlə toxunmaq istəyirəm.

Ömrün üç pillələri var : /dünən-günah, /Bu gün – dərd, Gələcək – ölümdür. /Günah – köhnə günahdır, unuduruq amma biz /Günahkardır cəddimizi. O zamandan bulanıb hey axsa da çox sular, / Tanrının cənnətindən cəddimizi qovdular. / Hakim ola bilmirik nəfsimizə o gündən (1, s. 145). Xülasə ola bilmirik şeytanın hiyləsindən. / Biz əl açıb dərgaha-/ Təzə adlar verdik bu gün köhnə günaha... / Tanrı hər şeydən əvvəl torpağı yaratdı ki, / Yaratmaq istədiyi insan üçün yem olsun.

Ulu tanrı adına açılıb əllərimiz. Bizi özümüzə qaytar, ilahi.

"Vicdan xəstəsiyik". Göydə aramasın Allahı insan / Hər kəlmə vicdan öz Allahındır

“Gözəl əsarət” : Həqiqətə əsir olmaq. / Əsarətin gözəli!
“Kimdir yaradan?”,“Dua”, “Məzarçı ilə söhbət”, “Mənəmlik – vicdan”, “Allahu – Əkbər”.
Allahın-səsidir vicdanın səsi,/Vicdanın səsidir Allahu-Əkbər. “Yunis karvanı” ,“Uzaqdan” (6, s. 554)

Sənin öz bayrağının kölgəsi cənnətdi sənə,
Sənin haqqındır azadlıq, sənin eşqindir iman,
Tapmaz haqqa və insanlığa haqqdan doğulan
Nədir arzum, diləyim Tanrıdan imanla bu gün? (1, s. 127-128)

Ölüm ayağında “Ənəl – həqq” deyən
Mənim Nəsimim də yadıma düşdü. (“Qaliley” şeiri)

Çürüyür zindanda həqiqət, Allah
Görən hara gedir bu millət, Allah
İtə ot verilir, ata ət, Allah
Əyləşib hökm edir xəyanət, Allah
Necə ucuzlaşıb ləyaqət, Allah
Əyrilik sayılır fərasət, Allah. (2, s. 87)

“Əskik olma xeyir-şərdə”
“Təzadlar”
“Vicdanın səsinə, dəm tutsun əməl ”
Dünyanın dərdini ovutsun əməl.
Diri ölü – cənnətə, / Demək - ədəbiyyətə.
Ölü diri –l cəhənnəmə, / Demək-puç bir aləmə
Budu cənnət, cəhənnəm. (1, s 115)

“Etiraf”
Kimsə bilməyəndə vicdanın səsi / Rahat buraxmayır səni hərrəsən
Xoşbəxtdir uymayıb özgə səslərə / Vicdanın səsini dinləyən insan
Xeyir-duz verək, biz bu birliyə,
Yolu Allahdan uman / Kim deyir miskin olur?
...Bizə zülmətdə işıq / Yenə, vallah din olur. (5, s. 210)

B. Vahabzadənin digər əsərləri kimi, bu əsərlər də xalqımızın milli-mənəvi oyanışında və özünüdərkində, müstəqillik ideologiyasının yaranmasında, təşəkkülündə və inkişafında önəmli rol oynamış. (3, s. 3)

D B YYAT

1. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə I c. (Şeirlər). Ön sözün (“Yaradıbdır inam məni, mən inamın övladıyam”, s. 4-7) müəllifi Çingiz Aytmatov. Tərtib edəni və redaktoru: Azər Bağırov. Bakı, “Öndər nəşriyyat”, 2004, 328 s.
2. Bəxtiyar Vahabzadə. Əsərləri, II cıld, Bakı, “Azərbaycan”, 2002, 576 s.
3. Bəxtiyar Vahabzadə. Tərtibçi – redaktordan s. 3. III c. Bakı “Azərbaycan”, 2002, 512 s.
4. Bəxtiyar Vahabzadə.IVc. (Nəbi Xəzri,“Bəxtiyar taleli Bəxtiyar”,s.3-5; Yaşar Qarayev. “Düşündürən poeziya”, s. 6-14). Bakı, “Çaşıoğlu”, 2002, 608 s.
5. Bəxtiyar Vahabzadə. V c. Aydın Məmmədov.“Vətən torpağından göyərmiş poeziya” (s.8-13). Bakı, “Çaşıoğlu”, 2002, 504 s.
6. Bəxtiyar Vahabzadə. VI c. Q. Yaşar. “Şairin və seirin milliliyi”, s. 3-10 Bakı, “Çaşıoğlu”, 2003, 776 s.

B XT YAR VAHABZAD POEZ YASI M LL M N V D Y RL R KONTEKST ND

T ran R himli

filologiya üzrə fəlsəfə doktoru, dosent
ADPU, Bakı
t_raqimli@mail.ru

XÜLAS

Məqalədə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, çoxcəhətli yaradıcılıq irsi ılə ədəbi və elmi-nəzəri fikrimizi zənginləşdirən Bəxtiyar Vahabzadənin poeziyasından bəhs olunur, şairin sənət yüksəlişini şərtləndirən amillərə nəzər yetirilir, lirik əsərləri çağdaş elmi mövqedən dəyərləndirilir. Böyük sənətkarın qırxıncı illərdən başlayıb müasir dövrümüzədək davam edən yaradıcılıq yolu xüsusi diqqətlə izlənilir, bu poeziyanın novator xüsusiyyətləri konkret bədii nümunələr əsasında analitik təhlilə cəlb edilir. Tədqiqatda Bəxtiyar Vahabzadə yaradıcılığı müasir poeziyanın başlıca ədəbi-estetik problemləri fonunda, xüsüsilə milli-mənəvi dəyərlər kontekstində araşdırılır. Şairin Azərbaycan idealına sonsuz sədaqəti, əsərlərində millət sevgisinin, milli adət-ənənələrin tərənnümü, poeziyasında ümumbəşəri duyğuların məhz mıllılık üzərində dayaq tapıb yüksəlməsi ümdə yaradıcılıq keyfiyyətləri kimi nəzərə çatdırılır. Azərbaycanda milli azadlıq hərəkatının öncüllərindən biri olan şairin xalqımızın azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsi, ana dilimizin saflığını, təmizliyini qorumaq yolunda xidmətləri, saflıq, ədalət, vicdan, xeyirxahlıq, mərhəmət, qayğı və s. mənəvi xüsusiyyətləri, ən ali insani keyfiyyətləri təbliğ edən şeirləri təhlil mərkəzinə çəkilir. Burada şairin poeziyasının milli-mənəvi aspekti görkəmli sənətkarın bütövlükdə yaradıcılığının bədii mündəricəsini zənginləşdirən, mahiyyətini ehtiva edən sənətkarlıq xüsusiyyəti kimi yüksək dəyərləndirilir.

Məqalə ali məktəblərin filologiya fakültəsinin xüsusi kurs və seminarların təşkilində əhəmiyyətli ola bilər.

Açar sözl r: çağdaş, poeziya, milli- mənəvi, vətəndaşlıq.

-

В статье повествуется о поэзии известного представителя современной азербайджанской литературы Б.Вахабзаде, художетсвенные достижения поэты оценены с современной научной позиции. С большим вниманием прослежен творческий путь поэта начавшийся с 40-х годов по сей день, новаторские особенности поэзии привлечены к исследования на основе конкретных художественных образцов. Творчество Б.Вахабзаде исследовано на фоне основных творческих направлений, художественно-эстетической проблематики современной поэзии, особенно в контексте национально-духовные цунности. На научном анализе конкретных поэтических образцов особое внимание обрашено в творчестве на вопросы тюркизма, патриотизма, любви к природе, божественной любви и др. и раскрыто своеобразное отношение творца к этой тематике а также к особенностям новаторства его поэзии. В исследовании поэзия поэта рассматривается в современном научном контексте, оценивается в аспекте основных направлений развития и важных творческих склонностей азербайджанского стиха. Произведения Бахтияря Вахабзаде оценивается как один из значимых образцов посвященных национально-духовной тематике в азербайджанской поэзии последних лет. В исследовании поэзия Б.Вахабзаде рассматривается в современном научном контексте, оценивается в аспекте основных направлений развития и важных творческих склонностей азербайджанского стиха.

Статья имеет применительное значение на научных семинарах филологических факультетов высших школ, посвящённых вопросам спецкурсов и спецсеминаров.

: современная, поэзия, национально-духовные, гражданство.

POETRY BAHTIYARA VAHABZADE IN THE CONTEXT THE NATIONAL-MORAL VALUES

SAMMARY

The article deals with the poetry of the well-known representative of contemporary Azerbaijani literature B.Vahabzade. The poet's literary achievements are appreciated from the up-to-date point of view. The poet's creative activity beginning from the 40-s of the last century up to now is attentively viewed and innovative properties of her poetry are analysed on the base of concrete fiction samples. B.Vahabzade creativity is investigated on the background of main directions of contemporary poetry and literary-aesthetic problems especially in the context national-moral values. His poetry is drawn into thorough analyse. Great attention is paid to turkism, patriotism, nature, divine love and other subjects in the poet's works as well as innovator properties of his poetry. The novel is valued B.Vahabzade's poetry is viewed on the modern scientific context, and also on the aspect of the main direkctions of development of new Azerbaijani poetry. as one of the significant samples dedicated to national-moral theme of Azerbaijani поетру of recent years.

The article assume importance in the orqanization of the scientific seminars about the literary criticism problems in the faculty of Philology in the higher schools, in the training of the special course and elective subjects.

Key words: modern, poetry, national-moral, citizenship.

Müasir Azərbaycan ədəbiyyatının ən parlaq simalarından olan Bəxtiyar Vahabzadə mayasını el ədəbiyyatından, ətrini vətən torpağından, gücünü xalq ruhundan alan möhtəşəm yaradıcılığı ilə bədii fikrimizin zənginləşməsində müstəsna rol oynamışdır. Şairin çoxcəhətli yaradıcılığı millətimizin keçmişi, bu günü, gələcəyi ilə bağlı fikir və duyğular, həyata, sənətə fəlsəfi görüş və baxışlar məcmusu kimi diqqətəlayiqdir. Azərbaycan xalqının yüzilliklərin sınağından çıxmış, daim inkişafda olan milli mənəvi-əxlaqi dəyərlərinə, adət-ənənələrinə sədaqət hissi, azərbaycançılıq məfkurəsi, türkçülük təəssübkeşliyi bu poeziyanın dayaq sütunlarını təşkil edir.

Ömrünün altmış ilini müqəddəs sənət qayəsinə xidmət üçün yorulmadan qələm çalan şair əsərləri ilə xalqımızı milli özünüdərkə səsləmiş, millətinin daim sevgi və ehtirama layiq olduğunu, bütün müqəddəs amalların fövqündə dayandığını nəzərə çatdırmışdır. Çingiz Aytmatov bu cəhətə diqqət yetirərək yazırdı: «Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. Bu müstəsna dərəcədə zəruri haldır ki, sən övladı olduğun xalqın nitq hissəsində fel olmağı bacarasan, xalqının canlı dil memarlığına öz töhfəni verə biləsən. Bununla yanaşı, Vahabzadənin poetik təfəkkür mədəniyyəti daha üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri səviyyəyə qalxır… İndiki halda sən azərbaycanlı şairi oxuyanda dünyanı duyursan.»[1]

Bədii yaradıcılığa İkinci Cahan Müharibəsi illərində başlamış B.Vahabzadə çox zəngin bir yaradıcılıq yolu keçmişdir. O, yetmişdən artıq şer kitabının, iki monoqrafiyanın, on bir elmi-publisist kitabın və yüzlərlə məqalənin müəllifidir. Şair tarixi və müasir mövzuda iyirmidən artıq iri həcmli poemasında («İztirabın sonu», «Etiraf», «Şəbi-hicran», «Gülüstan», «Sadə adamlar», <<Atılmışlar», «Təzadlar», «Ağlar-güləyən», «Yollar – oğullar», «Əbədi heykəl», «Dörd yüz on altı», «Vətənim mənim», «Hər baharın öz qaranquşu», «Qiymət», «Muğam», «Ləyaqət», «Bağışlayın, səhv olub»,«Şəhidlər» və s.) Azərbaycan gerçəkliyinin, onun ictimai-sosial, siyasi, mənəvi-əxlaqi problemlərinin geniş bədii panoramını vermişdir. Onun Bakı Akademik Dövlət Dram Teatrının səhnəsində tamaşaya qoyulan "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya?", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı" pyesləri dövrun ən aktual mili-mənəvi məsələlərinin dolğun bədii şərhi ilə diqqəti çəkir.

1943-cü ildə “Ana və şəkil” adlı ilk mətbu şeiri ilə yaradıcılıq aləminə qədəm qoyan şair “Yaşıl çəmən, ağac altı, bir də ki, tünd çay” şeiriylə məşhurlaşmışdır. Vətən həsrəti, yurd sevgisini tərənnüm edən bu lirik parçadakı vətənpərvərlik duyğusu sonralar şairin bütün yaradıcılıq örnəklərinin aparıcı motivinə, ilham qaynağına çevrildi. B.Vahabzadənin şeirdən-şeirə püxtələşən poetik istedadı «Mənim dostlarım», «Bahar», «Dostluq nəğməsi» kimi kitablarında toplanmış yaradıcılıq örnəklərində daha da cilalanaraq milli poeziyamızın nadir sənət inciləri sırasına daxil oldu. Bu şeirlərdə zəngin Azərbaycan mənəviyyatı, onun əzəmətli tarixi keçmişi, millətimizin əxlaq ucalığı, saf təbiəti tərənnüm olunur, sosial yaşantıları, arzu və istəkləri poetik fikir mənbəyinə çevrilirdi. Şairin lirikası hələ ilk sənət nümunələrindən öz enerjisini, tükənməz gücünü doğma xalqdan, Azərbaycan gerçəkliyindən alırdı.

Yaradıcılığının xalq şeiri ənənələri zəminində inkişaf etməsi, həyat hadisələrinin özünəməxsus poetik təqdimi, orijinal bədii təfəkkür tərzi, ənənəvi mövzulara fərqli məntiqi yanaşma, sadə mətləblərə dərin fəlsəfi münasibət bu poeziyanın ədəbi dəyərini təmin edən əsas məziyyətlərdəndir. Himalay Qasımovun yazdığı kimi, «şairin əqidəsinə görə, əsil səadət odur ki, başqaları üçün yanasan, millət odunu mənəvi içərin üçün çıraq edəsən, xalqı birliyə aparan yolu işıqlandırasan»[2] Şairin lirik qəhrəmanı ən yüksək insani dəyərlərə sahibdir, bu qəhrəman üçün həyatın mənası öz amalı, məsləki uğrunda səməndər quşu kimi yanmaqdadır:

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək,
Onun da həyatı yanmağındadır.[3]

Lirik qəhrəmanın bu qayəsi bütövlükdə B.Vahabzadənin sənətkar şəxsiyyəti, həyat yolu, yaradıcılıq fəaliyyəti üçün xarakterikdir. Çünki şair vətənin istiqlalı, millətin öz idealına qovuş-

[1] Vahabzadə B. Axı dünya fırlanır… Bakı, Yazıçı, 1987, c.8.
[2] Qasımov H. Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri (monoqrafiya). Bakı, Elm, 2004 s.184.
[3] Ващабзадя Б. Сечилмиш ясярляри. Эянжлик, 1967, с.3.

ması yolunda ictimai-siyasi xidmətləri, ideoloji mübarizəsi ilə, «ürəyinin yağı ilə» yazıb ərsəyə gətirdiyi misilsiz sənət örnəkləri ilə ömrünü bir şam kimi əritdiyini isbat etmişdir.

Rəngarəng mövzulara müraciət edən bu poeziya obrazların kamilliyi, bədii vasitələrin müasirliyi və orijinallığı, sənətkar axtarışlarının dərin fəlsəfi mündəricəsi ilə seçilir. Azərbaycan dilinin zəngin poetik imkanlarından məharətlə bəhrələnən şair fəlsəfi lirikanın ən gözəl nümunələrini yaratmağa müvəffəq olmuşdur. Yeqor İsayev «Bəxtiyar öz lirikasında lirik olduğu qədər filosofdur» deyərkən yanılmırdı. Ümumiyyətlə, şairin bütün əsərlərində dünyaya fəlsəfi baxış əsas keyfiyyət kimi diqqətəlayiqdir. Onun poetik fəlsəfi təfəkküründə əzəli və əbədi varlığın dərki ilə bağlı düşüncələr də önəmli yer tutur. Bu baxımdan şairin «Fəryad» pyesində yer alan «Allah» şeiri dərin fəlsəfi məzmunu ilə yadda qalır, insan təfəkküründə Yaradanı dərkin daha dərin qatlarına nüfuz etməyə səsləyir:

İdrakda yol açmış gecədən gündüzə Allah,
Güldürməsən öz könlünü, gülməz üzə Allah.
Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş,
Qəlbin gözü yanmazsa, görünməz gözə Allah.

Allah! Bilirik cism deyil, bəs nədir Allah?
Ən yüksək olan haqda, həqiqətdir Allah.
Dondunsa təkamül və gözəllik qabağında,
Dərk et bu, təəccübdə, bu heyrətdədir Allah.[1]

Burada Allahın insanlığa hörmət, ləyaqət, qeyrət, ilqar, sədaqət, məhəbbət kimi ən ülvi hisslərdə, sözlərdəki hikmətdə təcəllasını göstərən şair Yaradanı dərk etmək üçün bu ali keyfiyyətlərə dəyər verməyin, onları öz varlığında yaşatmağın əhəmiyyətini vurğulayır.

B.Vahabzadə poeziyasında lirik qəhrəmanın qarşısındakı problemlərin hissi-emosional, mənəvi müstəvidə bədii həlli üstünlük təşkil edir. «Bu poeziyada müasirliklə tarixilik, fəlsəfə ilə psixologiya, sosial zamanla bədii zaman vəhdət təşkil edərək nəhayətsizliyə, hüdudsuz idraka yol açır, lirik «mən» bəşəri məsuliyyətin daşıyıcısına, ümuminsani hisslərin ifadəçisinə çevrilir»[2]

B.Vahabzadə «əqidə şairi»dir. «Axı dünya fırlanır» şeirində «Çərxi-fələk istəyir lap dolana tərsinə, əqidəmi heç nəyə dəyişmərəm mən yenə» – deyən şairin təkcə yaradıcılığında deyil, bütövlükdə həyat yolunda əqidə uğrunda savaş mühüm istiqaməti təşkil edir. Şairin lirik qəhrəmanının zəfərlərə gedən yolu, nurlu sabahlarının cığırı əqidədən başlanır, onun uğurlarının başlanğıc nöqtəsi əqidədir. Ona görə də bu qəhrəman əqidə yolunda ölmə

/P MCID 0 BDC
BT
1 0 0 1 58.5 [illegible] Tm
/T1_0 1 Tf
0.445 5.J/T

bir cəhətidir.»[1] Millətinin tarixi keçmişinə sonsuz maraq, xalqının bu günkü yüksəlişini milli-tarixi zəmindən qoparmadan təqdim etmək, əsərlərində tarixi müasirlik qədər yaşatmaq, ona bu günün gözüylə baxmaq, ictimai ədalətsizliyə qarşı vulkan kimi püskürmək, zamanın və şəraitin sosial-siyasi məhdudluqlarından asılı olmayaraq vaxtında haqq səsini ucaltmaq cəsarəti B.Vahabzadə poeziyasının ən səciyyəvi xüsusiyyətlərindəndir.

Öz millətinin böyük sevgi və ehtirama layiq olduğunu dönə-dönə şeirlərində vurğulayan, onun xoşbəxt sabahına inamını ifadə edən şair insanın mənəvi yüksəlişində inamın rolunu xüsusilə önə çəkir. B.Vahabzadənin lirik qəhrəmanı "bütün ömrü boyu ciyəri ilə yox, ancaq inamı ilə nəfəs aldığını" car çəkir, düşməninə xitabən bildirir:

Demə ki, dəryayam dənizdir təkim,
Vallah quruyursan sən damla-damla
İnamdır əqidəm, gücüm, məsləkim,
Qələbə mənimdir bu inamımla![2]

«İnamdan doğulan» şairin lirik qəhrəmanının inamlarının zirvəsində isə o tay-bu taylı vətənin bütövlüyünə, Azərbaycanın tarixi ərazisinin bərpasına, onun daha xoşbəxt sabahlarına inam dayanır. Çünki bu xalqın el qeyrəti çəkən, «köləliyi yıxıb cəsarət mülkünü tikən», «susdurulan haqqı dindirən», «kütləni xalq edən müqaviləyə qanıyla qol çəkən», millət yolunda canından keçən igidləri var. Şairin «Şəhidlər» poemasında vurğuladığı kimi, «torpağın bağrına cəsədləriylə azadlıq toxumu əkən» şəhidlərin ruhu bu lirik qəhrəmanı vətən, millət yolunda yeni fədakarlıqlara, zəfərlərə səsləyir, vətən üçün qurban gedənlərin ölümsüzlüyünü bir daha xatırladır:

Zalım öyünməsin zülümləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə
Ölümü kamına çəkdi şəhidlər.[3]

Şairin dörd ay ərzində ilk misrasından son misrasınadək göz yaşı ilə yazdığı "Şəhidlər" poeması onun müşahidə etdiyi qanlı səhnələrin, barıt qoxulu yaxın tarixin dəhşətli yaşantıları əsasında qələmə alınıb. Burada millətimizin fəryadı, ağbirçək nənələrimizin naləsi, ana və bacılarımızın göz yaşı, cavan gəlinlərin vaxtsız ağarmış teli, nişanlı qızlarımızın ah-fəğanı, namərd güllələsinə tüş gələn körpələrimizin dodağında donan təbəssümü təsirli poetik dillə oxuculara çatdırılır.

B.Vahabzadə yaradıcılığında Azərbaycan mövzusu həmişə əhəmiyyətli yer tutmuşdur. Vətənin əsrarəngiz təbii gözəllikləri, onun dərəsi, dağı, daşı, çölü, düzü, çəməni bu poeziyanın baş lıca tərənnüm obyektidir, şairin lirik qəhrəmanı doğulub boy atdığı ana torpağa möhkəm, qırlmaz tellərlə bağlıdır. B.Vahabzadənin «Dağ çiçəkləri», «Göy göl», «Ana torpaq», «Dağlarım», «Yaylaqda» və s. şeirləri bu poetik ovqatın məhsuludur. İfrat Əliyevanın qeyd etdiyi kimi, «Şairə görə, nə qədər ucalsan da, səmalara uçsan da yenə torpağa, doğma torpağa bağlı olmalısan. Torpaqdan məhrum olmaq, ayağını yerdən üzmək səni gücsüz, çəkisiz, qiymətsiz edər.»[4] Məhz bu baxımdan şairin poeziyasında vətənpərvərlik milli-mənəvi dəyərlərin ən uca zirvəsində dayanır, bütünlükdə yaradıcılığından qırmızı xətt kimi keçir. Azərbaycan bu poeziyanın ana obrazı olaraq gözlərimiz önündə ucalır:

Azərbaycan, adın atəş,
Özün işıq,
sözün işıq,
Alovlardan yaranmısan
Biz adınla tanınmışıq.
Sən dosta dost
Düşmənimə göz dağısan.

---

[1] Qasımov H. Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri (monoqrafiya). Bakı, Elm, 2004 s.212.
[2] Ващабзадя Б. Сечилмиш ясярляри. Эянжлик, 1967, с.136.
[3] Vahabzadə B.Əsərləri.- "Çaşıoğlu" nəşriyyatı, 2002. s. 468.
[4] Azərbaycanın Bəxtiyarı: Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu. Bakı, Azərnəşr, 1995, c.368.

Alnın açıq,
Üzün ağdır –
Yenilməzlik bayrağısan.[1]

Bəxtiyar Vahabzadənin Azərbaycançılıq amalı böyükdür, o hər cür xırda, cılız hisslərdən uzaqdır. Şairin lirik qəhrəmanının Azərbaycan sevgisi yerliçilik meyillərindən uzaq, daha əzəmətli, geniş miqyaslı, bütöv vətən sevgisidir:

Mən həm bakılıyam, həm lənkəranlı,
Gəncəli, qubalı, həm naxçıvanlı.
Şəkili, şirvanlı, qarabağlıyam,
Bütöv Vətənimə, bütöv bağlıyam.[2]

Onun «Şəki» şeirində də bu bədii məntiqin davamını görürük. "Özünüz şəkili olduğunuz halda hələ Şəkiyə bir şeir həsr etməmisiniz" məzmunlu oxucu məktubuna cavab kimi yazdığı "Şəki" şeirində şair həmişə qəlbində gəzdirdiyi, heç vaxt bölünməyən, xırdalanmayan vətən sevgisini belə mənalandırır:

Bir nəğmə qoşmadım hələ mən sənə,
Dağlar bunu mənə kəsir sanmasın.
Mən dedim, vurğunam Azərbaycana,
Deyirəm, heç zaman xırdalanmasın
Könlimdən ucalan bu avaz, bu səs.
Böyükdür, ucadır məsləkim mənim.
Bala anasına "sevirəm" deməz,
Mən də deməmişəm, a Şəkim, mənim.[3]

Bəxtiyar Vahabzadə Azərbaycanda 60-cı illərdən başlayan milli azadlıq hərəkatının öncüllərindən biri kimi istiqlal mübarizəsi meydanına atılmışdır. Sovet rejimində milli varlığı tapdanan millətin dərdlərini rəmzlər vasitəsilə, və yaxud müxtəlif ədəbi üsullarla ifadə edən şair əsərlərində daim azərbaycançılıq ideyasını təbliğ etmiş, yaşatmışdır. Şair 1959-cu ildə yazdığı "Gülüstan" poemasında iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirmiş, rus və fars imperiyasının pəncəsi altında inləyən millətimizin azadlıq arzularını tərənnüm etmişdir. Bu poemaya görə şair təzyiqlərə məruz qalmış, 1962-ci ildə ildə "millətçi" damğası ilə Azərbaycan Dövlət Universitetində vəzifəsindən çıxarılaraq yalnız iki ildən sonra işə bərpa edilmişdir. Şair "Gülüstan" poemasında «Yoxmu qanımızda xalqın qeyrəti? Belə saxlayarlar bəs əmanəti?» – deyə bu müqaviləni böyük tarixi günah, millətimizə qəsd kimi qiymətləndirirdi. Cənubda Şəhriyarın «Heydərbabaya salam» poemasının şimaldakı əks-sədası «Gülüstan» poeması oldu. Poemada şairin millətinin haqqını tələb edən cəsarətli səsi üsyan edərək hayqırır:

Ağalar bilmədi birdir bu torpaq,
Təbriz də, Bakı da Azərbaycandır.
Bir elin ruhunu, dilini ancaq
Kağızlar üstündə bölmək asandır.[4]

Xalqının haqlarının müdafiəsinə qalxan şair milli təəssübkeşliklə yazdığı, sovet diktaturasını ifşa edən digər cəsarətli əsərlərini isə sovet ittifaqı dağılandan sonra "Sandıqdan səslər" başlığı altında nəşr etdirmişdir.

Ana dilimizə təəssübkeş münasibət də şairin yaradıcılığında dolğun bədii həllini tapan millimənəvi problemlərdən biri kimi nəzəri cəlb edir. Əhməd Bican Ercilasinin "Bəxyiyar Vahabzadə bizə öyrətdi ki, hər bir millətin ana dili o millətin namusu və vicdanıdır. O, nəsillərin bir-birinə ötürdüyü ən qiymətli mirasdır" qənaəti şairin Azərbaycan dilinin bütün incəliklərinə nüfuz etmə məharətindən və onu başlıca milli-mənəvi dəyər kimi tərənnümün məntiqindən doğurdu.

[1] Vahabzadə B. Seçilmiş əsərləri. Gənclik, 1967, s..134.
[2] Vahabzadə B.Əsərləri.- "Çaşıoğlu" nəşriyyatı, 2002, s.306.
[3] Vahabzadə B.Əsərləri.- "Çaşıoğlu" nəşriyyatı, 2002, s.327.
[4] Vahabzadə B. "Gülüstan", Bax: «Fəryad», Bakı, 1995, s.130.

B.Vahabzadə əsərlərində doğma ana dilini keçmişin yadigarı, gələcəyin qiymətli sərvəti kimi təqdir edir;

Dil açanda ilk dəfə ana söyləyərik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.

Bu dil,-bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil,- bir-birimizə əhdi-peymanımızdır.
Bu dil,- tanıtmış bizə bu dünyada hər şeyi.
Bu dil,-əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub nəsillərə biz də hədiyyə verək.[1]

Şairin ümumbəşəri problemlərdən, dünyanı düşündürən qlobal məsələlərdən bəhs edən şeirləri də millilikdən qaynaqlanır. Bütün ali mənəvi-əxlaqi dəyərlərin, eləcə də ümumbəşəriliyin kökündə millilik dayanır. B.Vahabzadə yaradıcılığı boyu bu həqiqətə sədaqətini nümayiş etdirmiş, sanki Jorj Leron Dalamberin «Əsil insan ailəsini özündən artıq sevən, yaxşı insan vətənini ailəsindən artıq sevən, ən yaxşı insan bəşəriyyəti vətənindən artıq sevəndir» qənaətini poeziyasında gerçəkləşdirmişdir. İnsanın mürəkkəb psixoloji aləmi, fəlsəfi təfəkkürü, sevgisi, sevinci, kədəri, dünya, həyat, ölüm, dostluq, sədaqət, milli mənlik, dini etiqad və s. haqqında duyğuları əks etdirən lirikasında bütün mövzular bu humanizmdən qaynaqlanır, mənbəyini ilkinliyə, milli varlığın daha dərinliklərinə – türkçülüyə, türkün ulu yurduna, torpağına məhəbbət və qayğıkeşlik, həssaslıq kimi ülvi hisslərdən götürür. Görkəmli şairin «Azərbaycan-Türkiyə» şeiri bu hiss və duyğuların ən bariz örnəyi kimi diqqəti cəlb edir. Şair bu şeirində Azərbaycanla Türkiyəni sevinci, kədəri bir olan, eyni amala, məsləyə xidmət edən, əzəmətli qəhrəmanlıq keçmişi, qədim tarixi ilə öyünməyə layiq iki qardaş ölkə kimi tərənnüm edir. Azərbaycanı «ana yurdum», Türkiyəni «ata yurdum»-deyə vəsf edən, bayraqlarındakı ay-ulduzun da eyni olduğunu vurğulayan B.Vahabzadə bu iki ölkəni «bir ananın iki oğlu» adlandırır, «bir amalın iki oğlu» kimi yüksək dəyərləndirir:

Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir
Azərbaycan-Türkiyə.

Bir millətik, iki dövlət
Eyni arzu, eyni niyyət.
Hər ikisi cümhuriyyət
Azərbaycan-Türkiyə.[2]

Bu cəhətdən Bəxtiyar Vahabzadə təkcə Azərbaycan millətinin deyil, bütünlükdə türk dünyasının böyük, əzəmətli və əbədiyaşar şairi kimi sevilir. «Mənə öz ömrümü uzatmaq deyil, şeirimin ömrünü uzatmaq gərək» deyən şair qüdrətli sənəti ilə xalqın şairi olmağı bacarmış, millətimizin qəlbində əbədiyaşarlıq hüququ qazanmışdır. Niyazinin dediyi kimi, "Bəxtiyar ona görə bəxtiyardır ki, onu xalq sevir; xalqı da ona görə bəxtiyardır ki, onun Bəxtiyarı var."

D B YYAT

1. Azərbaycan sovet ədəbiyyatı (ali məktəblər üçün dərslik). Bakı, Maarif, 1988.
2.. Azərbaycanın Bəxtiyarı: Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu. Bakı, Azərnəşr, 1995.
3. Vahabzadə B. Axı dünya fırlanır… (şeirlər). Bakı, Yazıçı, 1987.
4. Vahabzadə B.Əsərləri.- "Çaşıoğlu" nəşriyyatı, 2002, s.327.
5. Vahabzadə B. «Fəryad», Bakı, 1995.

[1] Vahabzadə B. Seçilmiş əsərləri. Gənclik, 1967, s..121.
[2] Vahabzadə B.Əsərləri.- "Çaşıoğlu" nəşriyyatı, 2002, s.386.

6. Vahabzadə B. Seçilmiş əsərləri. Gənclik, 1967.
7. Vahabzadə B. Açılan səhərlərə salam (şeirlər). Bakı, 1979.
8. Türk dünyasının Bəxtiyarı. (Bəxtiyar Vahabzadənin həyat, yaradıcılıq və ictimai fəaliyyəti haqqında məqalələr toplusu) I hissə. Azərb.dilində. Bakı, "Təfəkkür" NPM, 2002.
9. Qasımov H. Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri (monoqrafiya). Bakı, Elm, 2004
10. Ulutürk X.R. Ustadı Bəxtiyar Vahabzadə haqqında (monoqrafiya). Bakı, "Azərbaycan" nəşriyyatı, 1999.
11. Əliyeva İ. Bəxtiyar Vahabzadənin lirikası (monoqrafiya). Bakı, Yazıçı, 1982.

HEYDƏR ƏLİYEV VƏ BƏXTİYAR VAHABZADƏNİN ELM-PEDAQOJİ İRSİNƏ MÜNASİBƏT

Sərdarova Mehrivan Nağı qızı
ADPU, elmi işçi
Mehriban serdarova@mail.ru.

XÜLASƏ

Məqalədə ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinin, tarixinin, ədəbiyyatının, incəsənətinin inkişafında mühüm xidmətləri olan böyük şair, alim, pedaqoq, müəllim, Bəxtiyar Vahabzadənin çoxsahəli zəngin elmi, ədəbi-pedaqoji irsinə münasibəti tədqiq edilir.

Məlum olur ki, B.Vahabzadənin pedaqoji ideyalar ilə zəngin çoxsahəli irsi, eləcə də, şəxsiyyəti H.Əliyev tərəfindən daim diqqət mərkəzində olmuşdur. Həm də ona görə ki, gənc nəslin pedaqoji ideyalarla təlim-tərbiyə olunmasında B.Vahabzadənin ədəbi-pedaqoji irsindən istifadə mühüm əhəmiyyət kəsb edirdi.

Məlumdur ki, Azərbaycanın sevgisi, azərbaycançılıq hissi, xalq, millət sevgisi, dil sevgisi B.Vahabzadə yaradıcılığının leytmotivini təşkil edir. H.Əliyev B.Vahabzadənin vətənpərvərlik tərbiyəsindəki rolunu yüksək qiymətləndirir: "Vətənlə, xalqla, ana dilimizlə qırılmaz tellərlə bağlı olan hər bir misranızdakı hikmət ölkəmizin müstəqilliyi uğrunda vətənpərvər mübarizlərin yetişməsində böyük rol oynamış və gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsində bir örnək olmuşdur".

H.Əliyev B.Vahabzadənin milli-mənəvi dəyərlərə əsaslanan bugünkü cəmiyyətimizin quruculuğundakı rolunu yüksək dəyərləndirir: "Siz yüksək ideallar tərənnüm edən poeziyanızla millətin birliyinə, ləyaqətinə ehtiram hissi aşılamış və onların təntənəsi uğrunda səbrlə, yorulmadan, ardıcıl mübarizə aparmısınız. Bəşəriliklə milliliyin vəhdətindən qaynaqlanan əsərləriniz ölkəmizdə milli şüurun yüksəlməsinə güclü təkan vermişdir. Xalqımızın …azadlığa, istiqlaliyyətə olan sevgisini ifadə etməkdə siz bir çox siyasətçinin görə bilmədiyi işi görmüsünüz".

Müstəqil dövlətimizi gələcəkdə də yaxşı qura bilmək, qorumaq üçün gənclərə tarixi köklərimizi yaxşı bilməyi, onlara hörmət etməyi tövsiyə edən H.Əliyev B.Vahabzadənin "Özümüzü kəsən qılınc" pyesini, milli-mənəvi, dini dəyərlərə tapınmaqda, vicdana söykənməkdə, ləyaqət və inam tərbiyəsində "Hara gedir bu dünya" pyesinin əhəmiyyətini qiymətləndirmiş, məzmun etibarilə pedaqoji ideyalarla zəngin bu əsərləri elmi, ədəbi-pedaqoji hadisə kimi dəyərləndirmişdir.

H.Əliyev B.Vahabzadənin müəllimlik, pedaqoqluq fəaliyyətinə də yüksək qiymət verir: "İdeyalarınızla pərvazlanaraq müstəqil həyata qədəm qoyan neçə-neçə tələbə nəsli bu gün nə vaxtsa sizi dinləməkdən, sizin tələbəniz olmaqdan sonsuz qürur və şərəf hissi duymaqdadır". Və qəti əmindir ki, B.Vahabzadə yaradıcılığı, onun pedaqoji məziyyətləri, Azərbaycan Respublikasının müstəqillik yolları ilə inkişafı uğrunda bundan sonra da ən uca, ən ülvi amalların gerçəkləşməsinə xidmət edəcəkdir.

Açar sözlər: Bəxtiyar Vahabzadə, ədəbi-pedaqoji irs, ədəbiyyat, vətənpərvərlik, ana dili, ləyaqət.

Dünya mədəniyyəti tarixinə diqqət yetirsək görürük ki, elmə, təhsilə-maariflənməyə, mədəniyyətə yüksək qiymət verən xalqlar, dövlətlər və dövlət başçıları bununla nəinki öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, həm də dünya mədəniyyətinə, sivilizasiyaya böyük töhfə vermiş olurlar. Bu mənada böyük Mustafa Kamal Atatürkün bir müdrik kəlamı ibrətamizdir: "Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır".

"Dünyaya xalqlar, millətlər, insanlar arasında nizam, harmoniya yaratmaq üçün gəldiklərinə həmişə ürəkdən inanan türklər… qlobal proseslərin arxasınca deyil, önündə getməyə cəhd etmişlər[1]. Buna görədir ki, türklər əsrlər, minillər boyu dünya mədəniyyətinin ən mühüm qabaq-

[1] Nizami Cəfərov. Seçilmiş əsərləri, 3-cü cild, Bakı, "Elm", 2007, s.20.

cıl ideyalarını mənimsəməklə özləri də dünya mədəniyyətinə böyük töhfələr vermiş, zaman-zaman dünya miqyaslı mütəfəkkirlər, sənətkarlar, ictimai-siyasi xadimlər, dövlət adamları yetirmişlər.

Dünyada mənəvi, maddi mədəniyyət yarandığı bir zamandan elmimiz, təhsilimiz, maarifimiz, bütövlükdə mədəniyyətimiz ilə bu xəzinəyə nadir incilər bəxş edən xeyli sayda sənətkarlarımızın, fikir bahadırlarımızın, dövlət xadimlərimizin, bir sözlə, dünya tarixinə yaradıcı, inkişafetdirici təsir göstərən böyük türklərin hər zaman kəsiyində rolu məlumdur, danılmazdır. Bu baxımdan, XX əsrin II yarısından etibarən mədəniyyət tariximizə böyük əməllər sahibi, hələ canlı ikən əfsanəyə dönən, klassikləşən iki böyük azərbaycanlının adı – Heydər Əliyevin və Bəxtiyar Vahabzadənin də adı daxil olur.

Azərbaycanımızın varlığının, xoşbəxtliyinin qorunması yolunda həyatını verən bu böyük şəxsiyyətləri azərbaycançılıq, milli birlik, dövlətçilik, vətəndaşlıq və vətənpərvərlik amalı, əqidəsi birləşdirmişdir. H.Əliyev və B.Vahabzadə arasında geniş ictimaiyyətə bəlli olan mənəvi yaxınlığın, etibarlı dostluğun əsasında, kökündə, bir tərəfdən, bu amal dayanırdı, ikinci tərəfdən isə H.Əliyevin B.Vahabzadənin çoxsahəli zəngin irsinə münasibəti Azərbaycan tarixinə, ədəbiyyatına, elminə, təhsilinə, onun tədrisinə, təbliğinə, eləcə də Azərbaycan müəlliminə, pedaqoquna, maarifpərvər ziyalısına verdiyi dəyər ilə ölçülürdü. Azad sözə, hətta fikrə qadağa qoyulduğu sovet rejiminin sərt illərində içində gəzdirdiyi milli duyğuları "Xruşşov mülayimləşməsinin" qızğın vaxtlarında, 1959-cu ildə "Azərbaycanın birliyi və istiqlalı uğrunda çarpışanların əziz xatirəsinə" epiqrafı ilə başlanıb azərbaycanlıları azadlığa, birliyə, torpaqlarımızın bütövlüyünü qorumağa səsləyən "Gülüstan" poeması ilə B.Vahabzadə hələ o illərdə milli ruhlu H.Əliyevin diqqətini özünə cəlb etdi. Bu barədə faktlara yazıçı-jurnalist E.Axundovanın "Heydər Əliyev: Şəxsiyyət və zaman" kitabında keçmiş sovet DTK-nın təcrübəli çekistlərinin xatirələrində rast gəlirik. Belə ki, DTK sədri kimi H.Əliyev Arif müəllim adlı çekisti müsahibəyə dəvət edir. Onun Azərbaycan ədəbiyyatı ilə bağlı biliklərini yoxlayır. Arif müəllim Bəhmənyar, Fələki Təbrizi, Qövsi Təbrizi, Zülfüqar Şirvanidən maraqlı faktlar söyləyir. Hətta Zülfüqar Təbrizinin virtuoz sənətkar olmağı, hər sətrində üç qafiyə yazmağı haqqında bilgiləri ilə Azərbaycan tarixinə, ədəbiyyatına dərin bələd olan H.Əliyevi xeyli məmnun edir. H.Əliyev sanki öz fikirlərinə aydınlıq gətirmək üçün soruşur ki, onun fikrincə, kimdir indi Azərbaycan poeziyasının ən görkəmli nümayəndəsi? "…Dedim ki, Bəxtiyar Vahabzadəni yüksək qiymətləndirirəm. O susdu, sonra birdən soruşdu: "Bəs "Gülüstan" barəsində nə deyə bilərsiniz?" Cavab verdim: "Heydər Əliyeviç, baxır poemaya hansı aspektdən, hansı tarixi nöqteyi-nəzərdən yanaşasan. Əlbəttə, problemli məsələdir. Ancaq bu, axı, şair xəyalının məhsuludur". Əliyev gülümsündü: "Bəlkə də siz deyən düzdür"[1].

Üzərinə millətçilik damğası qoyularaq , daim nəzarətə götürülən, işdən çıxarılan, müxtəlif təzyiqlərəkl3õTD0 Tc 1 Tf1.365 0 TD0 Tc0 Tw<0525Ŧj/TTi1TT4 1 Tf0.445 0 TD96 Tw[.cn9 TD<052 Tf1.945

gətirib bugünkü vəziyyətə çıxartdı" fikirlərini söyləmiş və qeyd etmişdir ki, bu yazılara görə onu sıxıblar, təqib ediblər, incidiblər, kəm baxıblar, açıq və ya gizli tənqid ediblər, amma o, qəhrəmanlıq göstərib, heç nədən qorxmayıb, heç nə onun qarşısını kəsməyib, öz işini görüb. Bu "iş" Azərbaycan sevgisi, azərbaycançılıq hissi, xalq, millət sevgisi, dil sevgisi, "sevdiklərini" qorumaq və gələcəyə ötürməkdən ibarət idi.

Vətən, onun taleyi mövzusu, bununla əlaqədar vətənpərvərliyin təbliği, tərənnümü, aşılanması Bəxtiyar Vahabzadənin bütün yaradıcılığı boyu davam etmiş, onun yaradıcılığının leytmotivini təşkil etmişdir. H.Əliyev B.Vahabzadənin vətənpərvərlik tərbiyəsindəki rolunu yüksək qiymətləndirir: "Vətənlə, xalqla, ana dilimizlə qırılmaz tellərlə bağlı olan hər bir misranızdakı hikmət ölkəmizin müstəqilliyi uğrunda vətənpərvər mübarizlərin yetişməsində böyük rol oynamış və gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsində bir örnək olmuşdur[1].

Bəxtiyar Vahabzadənin həyatı, elmi-pedaqoji, ictimai-siyasi fəaliyyəti, bütövlükdə, şəxsiyyətinin milli mənlik şüurunun formlaşmasında, inkişafında, vətəndaşlıq duyğularının oyanmasında böyük təsir gücünə malik olmağı ilə bağlı müasirləri, XX əsrin görkəmli siyasi və dövlət xadimləri, elm, mədəniyyət, ədəbiyyat xadimləri hər zaman aktual olan qiymətli fikirlər söyləyiblər. Onun dostu, Azərbaycan mədəniyyətinin yorulmaz təbliğatçısı Əhməd Şmidenin "Bir insanın öz xalqını və öz doğma dilini dəlicəsinə sevə bilmək qabiliyyətini mən Bəxtiyar Vahabzadədən öyrəndim"-fikri, bu mənada, xüsusilə diqqəti çəkir.

Göründüyü kimi, vətənpərvərliyin, vətəndaşlığın Bəxtiyar Vahabzadə zirvəsi vardır. Çünki, vətənpərvərlik B.Vahabzadəyə görə, hər bir mənəvi keyfiyyətlərin, idealların fövqündə durmalıdır. Çünki "Vətən yalnız torpaq deyil. Vətən…bu torpağın üstündə yaşayan xalqın dili, tarixi, mədəniyyəti, adət-ənənəsi, bir sözlə, ruhu və psixologiyası ilə vətəndir! Vətənə bu mənəvi keyfiyyətləri ilə bağlanmış adam Vətən uğrunda hər fədakarlığa, hətta ölümə də gedə bilər"[2].

Göründüyü kimi, şairə görə, Vətən xalqımızın mənəvi-əxlaqi həyat təcrübəsi, adət-ənənəsinin toplandığı yaddaşdır. Vətən səhifələrində xalqımızın tarixi taleyi həkk olunduğu bir tarixdir. Bu tarixi unutsaq, keçmişimizin üstündən xətt çəkmiş olarıq. Vətən vicdandır! Bu vicdandan mərhum olmaq şərəfsizlikdir, rəzalətdir.

B.Vahabzadə vətənpərvərliyinin tərkib hissəsi olan ana dili məsələsi şairin yaradıcılığından qırmızı xətt kimi keçir. Şairə görə, dil insanı vətənə bağlayan amil, milli varlığın daşıyıcısı, xalqın varlığının mənəvi pasportudur. Ana dilinə münasibət, şair üçün, xalqa münasibətdir. B.Vahabzadə yaxşı bilirdi ki, insanın vətən, yurd hissi onun ana dili ilə ayrılmaz şəkildə bağlıdır. Ana dilinin olmadığı yerdə həqiqi vətən hissi mümkün deyil. Ana dilinin taleyi xalqın gələcək taleyi ilə ayrılmaz şəkildə bağlıdır.

Buna görədir ki, dilimizə xüsusi məhdudiyyətlərin qoyulduğu, dövlət idarəsinin hər bir sahəsində bütün sənədləşmə və ünsiyyətin rus dilində aparıldığı, məclislərdə ancaq bu dildə danışıldığı, rusdilli orta məktəblərin sayının süni surətdə artırıldığı bir vaxtda B.Vahabzadə xalq, millət qarşısında həyəcan təbili çalır, vətənpərvərlik amalı ilə Vətənimiz qarşısında tarixi xidmət göstərir. Təkcə elmi-pedaqoji fəaliyyəti ilə kifayətlənmir, insan qəlbinə tez yol tapan poeziyaya üz tutur, xalqa, millətə müraciət edərək vəzifənin nə qədər qlobal, ciddi və məsuliyyətli olduğunu göstərir. Göstərir ki, bu dil vətən, millət, torpaq sevgimizin başlanğıcıdır, ruhumuzun keçmişdən gələcəyə ötürücüsüdür:

Övladları yer üzünə səpələnsə
Pərən-pərən düşənlərin
Vəhdətidir ana dili,
Bu dünyanın
Hansı uzaq bucağında səslənirsə,
O bucağı mənim üçün
əzizlədən ana dilim!
Məni ana Vətənimin

[1] Heydər Əliyev və mədəniyyəti. "Nurlan" Nəşriyyat Poliqrafiya Mərkəzi. Bakı, 2008, səh.352.
[2] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri, XII cilddə, XI cild, Bakı,"Elm" 2009, səh.41.

Bütün oğul-qızlarına
Qohum edən ana dilim!
Sən gözlərə görünməyən
bir telsən ki,
Yol açmısan keçmişimdən gələcəyə,
Ana yurdun öz ruhunu
keçirirsən –
Bu nəsildən o nəsilə.
Bu ürəkdən o ürəyə
öz dərdimi, sevincimi
Dodağımda çağladanım,
Məni ana Vətənimə,
Bu günümə,
Sabahıma, dünənimə bağladanım.

B.Vahabzadənin millətin varlığına, özünəməxsusluğuna, milli özünüdərkinə və özünütəsdiqinə, milli ləyaqətinin qorunmasına əsaslanan milli mənlik şüurunun formalaşmasında, milli ruhda tərbiyə işindəki fəaliyyətinə H.Əliyev xalq adından belə qiymət verir: "Siz yüksək ideallar tərənnüm edən poeziyanızla millətin birliyinə, ləyaqətinə ehtiram hissləri aşılamış və onların təntənəsi uğrunda səbrlə, yorulmadan, ardıcıl mübarizə aparmısınız. Bəşəriliklə milliliyin vəhdətindən qaynaqlanan əsərləriniz ölkəmizdə milli şüurun yüksəlməsinə güclü təkan vermişdir. Bədii sözə böyük inam və hörmət bəsləyən xalqımızın imperiyaya, totalitarizmə qarşı nifrətini, azadlığa, istiqlaliyyətə olan sevgisini ifadə etməkdə Siz bir çox siyasətçinin görə bilmədiyi işi görmüsünüz".

Müdrik tövsiyələri ilə müstəqil dövlətimizi gələcəkdə də yaxşı qura bilmək, qorumaq üçün gənclər də tarixə və müasirliyə, dövlətə və dövlətçiliyə, müstəqilliyə, müasir dünyamıza yeni baxış, münasibət tərzi formalaşdıran H.Əliyev bu baxımdan B.Vahabzadənin "Hara gedir bu dünya", "Özümüzü kəsən qılınc" ("Göytürklər") pyesinin tamaşalarına baxdıqdan sonra məzmun etibarilə ibrətamiz olan, müasir və tarixi həqiqətlərə söykənən bu əsərləri ədəbi-pedaqoji hadisə kimi dəyərləndirmişdir. Belə ki, "Hara gedir bu dünya" pyesinin tamaşasından sonra yaradıcı kollektivin üzvləri ilə görüşü zamanı tamaşadan aldığı təəssüratları bölüşərkən bu əsəri fəlsəfi, psixoloji və eyni zamanda elmi əsər kimi dəyərləndirmişdir. B.Vahabzadənin bütün yaradıcılığının mədəniyyətimizin, incəsənətimizin, ədəbiyyatımızın inkişafındakı yüksək rolunu qiymətləndirməklə əsəri həm də elmi-pedaqoji aspektdən incəliklə təhlil etmişdir. Bildirmişdir ki, bu əsər aktualdır və aktuallığını heç zaman itirməyəcək, çünki "...insan nə qədər yaşayaçaqsa, bu mövzu bir o qədər də aktual olacaqdır"[1]. Əsərdə əqli təhsil və tərbiyə nəticəsində ən yüksək səviyyəyə qalxmış insan və insan cəmiyyəti onun xüsusiyyətləri, keyfiyyətindən bəhs edilməklə insan tərbiyəsi ön plana çəkilir". "....Bu əsərdən doğan məna ondan ibarətdir ki, gərək hər bir insan nə olur-olsun, paklıq, mənəvi saflıq, mənəvi təmizlik uğrunda mübarizə aparsın, insana xas olan mənfi keyfiyyətlərdən insanları xilas etməyə axıra qədər çalışsın" - fikirləri ilə tərbiyədən, tərbiyəçidən bəhs etməklə, həm də özünütərbiyə məsələlərinə toxunur: "Mən bu tamaşanı izlədikcə fikirləşirəm, vəzifə nədən ibarətdir – bunu qəbul etmək (yəni, cəmiyyətdəki naqisliklər: haramın halalı üstələdiyini, mənəm-mənəm hissinin önə çəkildiyini, inamsızlığın baş alıb getdiyini və s. – M.S.), onunla razı olmaq, yaxud da ki, mübarizə aparmaq lazımdır? Əsərin də ana xətti ondan ibarətdir ki, əsas qəhrəman Laçın bu mübarizəni aparır və öz fikrində, əxlaqında axıra qədər qalır. Demək, insanları bu nümunədə tərbiyə etmək lazımdır"[1].

H.Əliyev tərbiyə işinin çox çətin olduğunu da vurğulayır. "...müəyyən bir mərhələdə nəyəsə nail olmaq olur, sonra kimsə gəlib onu pozur"-fikri ilə pedaqogikanın əsas vəzifələrindən biri kimi tərbiyənin planlı, mütəşəkkil olması məsələsinə toxunur.

[1] Heydər Əliyev və mədəniyyəti. "Nurlan" Nəşriyyat Poliqrafiya Mərkəzi. Bakı, 2008, səh.369
[2] Bəxtiyar Vahabzadə. Əsərləri, XII cilddə, IX cild, Bakı, "Elm", 2008, səh.445

Göstərir ki, insan təbiətində xeyirlə şər yan-yanadır, müsbət cəhətlər ilə yanaşı mənfi cəhətlər də var, onlar azalmır, əksinə artmaqdadır. Buna görə də həyata nikbin baxmalı (nikbinlik prinsipi – M.S.), inam, ləyaqət, vicdana söykənməli, tərbiyə olunmalıdır. Bu fikirləri B.Vahabzadə surətlərin dili ilə də tez-tez səsləndirir: "İlahi, yalnız özünü düşünüb, başqasını tapdalayan, nəfsinin qulu olan insana necə ali insan demək olar"?, "Bugünkü şüurlu insan daha da yüksəlmək əvəzinə niyə əxlaqı unudub bu qədər aşağı enmişdir? "İlahi, gör əxlaq nə qədər pozulub ki, hamı özünü cəmiyyətə qarşı qoyub. Mən qarşıma qoyduğum məqsədi başa çatdıra bilsəydim, elmin əxlaqi prinsipinə qələbə qazandırar, bu yolun ilk yolçusu olardım". "Günah bizdə deyil, əxlaqımız və inamımız pozulub", "Əyrilik, yalan, riya, oğurluq, rüşvət ən adi normaya çevrilib. Bunları bacarmayanlara, başqa sözlə, əxlaqı pozulmamış adamlara əfəl, fərsiz, bacarıqsız deməkdən də çəkinmirik" kimi fikirlər ilə B.Vahabzadə bəlalardan xilas olmağın yolunu əxlaqın – vicdanın, ləyaqətin, inamın tərbiyəsində görür. Bu tərbiyədə dini təhsilin, tərbiyənin vacibliyini də vurğulayır. Ulu əcdadın dili ilə faciəyə düçar olmuş qəhrəmana deyir: "Allah qarşısında ucalmaq, onu dərk etmək imkanın var idi. Amma sən bundan qaçdın, özün-özünü kiçiltdin" və ya "İndi cəmiyyət Allaha tərəf dönür". Bu fikirlər ilə elmi, milli və dini anlayışları vəhdətdə götürməklə bütöv torpağı, azad vətəni, müstəqil dövləti olan bir millətin, xalqın mənəviyyatının ölməzliyinə, əbədi yaşayacağına inanır. Müsbət qəhrəman Laçının "İndiyəcən dünyada 15 min dəfə müharibə aparılıb" – fikirləri ilə cəmiyyətdəki zorakılıqdan, zülmdən, ədalətsizlikdən, vicdansızlıqdan, halal-haramın ortadan qalxmasından xilası elmə, idraka, fəlsəfəyə arxalanmaqda görür."Hara gedir bu dünya" sualının cavabını da insan Allahın köməyi ilə, elmin gücü ilə araşdırıb dərk etməlidir, həyat yolunu seçməlidir, gələcəyə çıraq tutmalıdır. Çünki bütün bəlalar mərhəmətsizlikdən, vicdansızlıqdan, allahsızlıqdan törəyir.

Göründüyü kimi, B.Vahabzadənin bu əsəri milli pedaqogikamıza dəyərli töhfədir.

Yuxarıda qeyd etdiyimiz kimi ,"Özümüzü kəsən qılınc" (Göytürklər") pyesi də H.Əliyevin təbirincə, dəyərli elmi-pedaqoji hadisədir. Çünki, o, "milli ideologiyamızın konsepsiyası olmalıdır" tələbini irəli sürməklə, milli ideologiyamızın formalaşması üçün düşünən beyinlərimiz, alimlərimiz və o cümlədən, təhsil sahəsində çalışan müəllim ordusunun qarşısında vəzifə qoymuşdu. Göstərirdi ki, bu ideologiyanı qurmaq, yaratmaq, təşkil etmək və eyni zamanda əməli surətdə həyata keçirmək üçün tarixi keçmişimiz yaxşı öyrənilməlidir, tarixi keçmişimiz ədəbiyyatda əks olunduğu üçün ədəbi irs gənclərə çatdırılmalı, tədris olunmalıdır. Göründüyü kimi, milli ideologiyamızın konsepsiyasının həyata keçirilməsində tarixə və müasirliyə yanaşma prinsipinin mühümlüyünü bilən H.Əliyev üçün "Özümüzü kəsən qılınc" əsərinin, tamaşasının hansı çəkiyə malik olduğu üzə çıxır.

Göstərilən məqsəd üçün tarixi mövzudakı əsərlərin vacibliyindən, aktuallığından danışaraq bu mövzuda əsərlər yazmağın əhəmiyyətini önə çəkmişdir: "Əsərin mövzusu, məzmunu və mənası çox böyük əhəmiyyət kəsb edir... Ədəbiyyatımızda hər bir janrda, mövzuda əsərlər olmalıdır. Ancaq tarixi mövzuda əsər yazmaq həmişə çox mürəkkəbdir, çətindir. Tarixi mövzuda əsər yazmaq çox zəhmət tələb edir... Belə bir əsər qədim tariximizin, o cümlədən millətimizin qədim köklərinin tarixinin böyük bir səhifəsini açıb ictimaiyyətə göstərir. Bunun özü böyük bir işdir. Və hesab edirəm ki, böyük yaradıcılıq qələbəsidir. Bunu Bəxtiyar Vahabzadə çox böyük məharətlə edibdir. Birincisi, o bu əsəri tarix və tarixi dəqiqlik əsasında yaradıbdır. İkincisi də onun bugünkü nəslə, "Azərbaycan ictimaiyyətinə ən böyük xidməti ondan ibarətdir ki, bu əsər həmişə yaşayacaq... Bu əsər gələcək üçün də çox böyük əhəmiyyət kəsb edir... Tariximizi araşdırıb bu gün üçün əhəmiyyətli, dəyərli olan səhifələrini indiki və gələcək nəsillərə çatdırmağın özü xalq, millət, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir....".Öz adından, bütün xalqımız, millətimiz, cəmiyyətimiz adından B.Vahabzadəyə bu əsərə görə xüsusi təşəkkür edən H.Əliyev "biz köklərimizin türk millətinə, qədim türk tarixinə bağlı olduğu ya deməmişik, ya da deməyə cəsarət tapmamışıq" - fikri ilə milli özünüdərkimizdə bu əsərin əhəmiyyətli cəhətini bir daha təsdiqləyir.

H.Əliyev fikrinə davam etdirərək bildirir ki, əsər məzmun etibarilə çox ibrətamizdir və təəssüflər olsun ki, bizim ulu əcdadlarımızın həyatında baş verən anlaşılmazlıqlar, ədavət, qardaşın qardaş əleyhinə çıxması kimi tarixi həqiqətlər bu gün də, 1450 il sonra yenə də mövcuddur. Və bu hadisələrin kontekstində əsərdən məlum olduğu kimi,milli özünüdərk, köklə bağlılıq, ənənə-

lərimizə, tarixən sözübütövlüyümüzə, sülhsevərliyimizə, mərdliyimizə, hörmət hisslərimizə, böyük-kiçik münasibətlərimizə və s. güzgü tutulur. Mənfi xüsusiyyətli obrazların ifşası ilə müsbət xüsusiyyətlərin ləyaqətli, vicdanlı insan tərbiyəsində rolu üzə çıxır. XXX

H.Əliyevin B.Vahabzadənin zəngin elmi-pedaqoji irsinə münasibətində onun müəllimlik, pedaqoqluq fəaliyyətinə də verdiyi yüksək qiymət diqqəti çəkir: "...ideyalarınızla pərvazlanaraq müstəqil həyata qədəm qoyan neçə-neçə tələbə nəsli bu gün nə vaxtsa sizi dinləməkdən, sizin tələbəniz olmaqdan sonsuz qürur və şərəf hissi duymaqdadır...." H.Əliyev öz milli dünyagörüşünün formalaşmasında, inkişafında Bakı Dövlət Universitetinin bir müəllimi, alimi kimi B.Vahabzadənin pedaqoji fəaliyyətini çox yüksək tutur:

"...Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan,inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, elmiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim - ... öz xalqının, millətinin milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəliyə getməsinə xidmət göstərir. Azərbaycanda milli azadlıq hərəkatının yaranması, meydana çıxması, inkişaf etməsi tariximizin səhifələrinin təxribatdan, təhrifdən qorunması... bunlar alimlərimizin, müəllimlərimizin, ali təhsil ocaqlarında çalışanların fəaliyyəti nəticəsində olmuşdur"[1].

B.Vahabzadənin maarifpərvər pedaqoq, müəllimlik fəaliyyətində əxlaqi-didaktik ruh aşılayan, məktəb, müəllim, kitab kimi anlayışları özündə ehtiva edən "Məktəb şeirləri" silsilə əsərləri özünəməxsus yer tutur. Bu əsərlərdə əlifbanın , ümumiyyətlə, kitabların, onları tədris edənin rolu, əhəmiyyəti barədə məlumat verilir. Bu günümüzün vacib, aktual məsələsi kimi mütaliəyə tələbatın "Kitab bilik mənbəyidir", "O, həyatda sizin ən yaxın dostunuzdur", "çoxlu kitab alın, oxuyun, çünki həyatda o sizi zənginləşdirəcək" fikirləri vurğulanır.

B.Vahabzadənin pedaqoji irsində müəllim xüsusi yer tutur, şairin təbirincə müəllim dünyada ən qiymətli kapital olan insanla işləyir, onun taleyini həll edir". Müəllimlərini minnətdarlıqla xatırlayan şair "onlar mənə bir çox bilgilərlə yanaşı, özümə kənardan baxmaq dərsini də öyrətdi",-deməklə özünəbaxış, özünüdərk, özünütərbiyə, özünütənqid kimi pedaqoji meyarların rolunu qabardır.

H.Əliyev B.Vahabzadənin elmi, ədəbi-pedaqoji irsinə münasibətini bu fikirlər zamanında olduğu qədər gələcəkdə də çox aktual olacaqdır: "Sizin qələminizdən çıxan, xalqımızın arzu və istəklərini tərənnüm edən əsərləriniz Azərbaycan Respublikasının müstəqillik yolları ilə inkişafı uğrunda bundan sonra da ən uca, ən ülvi amalların gerçəkləşməsinə xidmət edəcəkdir".

D B YYAT

1. B.Vahabzadə. Əsərləri, XII cilddə, III cild, Bakı, "Elm", 2008, 577 s.
2. B.Vahabzadə.Əsərləri,XII cilddə, IX cild, Bakı,"Elm",2009,828 s.
3. B.Vahabzadə. Əsərləri, XII cilddə, XII cild, Bakı, "Elm", 2009,838 s.
4. Elmira Axundova. Heydər Əliyev: Şəxsiyyət və zaman. Bakı, "Ozan", 2007, I hissə, 352 səh.
5. Nizami Cəfərov. Seçilmiş əsərləri, V cilddə, III cild, Bakı, "Elm", 2007, 324 səh.
6. H.Əliyev və mədəniyyət. "Nurlan" Nəşriyyat Poliqrafiya Mərkəzi, Bakı, 2008, 504 səh.
7. Heydər Əliyev: Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan", 1999, 452 səh.

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan", 1999, səh.232.

BAHT YAR VAHAPZADE'N N RLER NDEK VATAN SEVG S N N GÜNÜMÜZE YANSIMASI

Ramazan TOPDEM R
Yrd. Doç. Dr., Adıyaman Üniversitesi- Eğitim Fakültesi
rtopdemir02@hotmail.com

ÖZET

Türk Dünyası'nın meşhur şairi Bahtiyar Vahabzade halkın içinden gelmiş vatanını ve milletini seven bir halk şairidir. Milletin derdini kendi derdi bilmiş, ülkesinin acısını kendi acısı gibi kalbinde hissetmiş, milletinin sevinci ve dertlerini bütün varlığıyla yaşamış ve yaşamakta olan bir şairdir. Onu bazen bir şehidin ana babası, bazen sokaklarda yalınayak gezen bir yetim, bazen de vatanından zorla sürülmüş bir Karabağlı olarak görmekteyiz. Kendi deyişiyle "Ben Vahabzade değilim milettimin diliyim" diyen Vahabzade milletin içindedir. Halkın derdini kendine dert bilen bir Azerbaycan aydınıdır. Bahtiyar Vahapzade'nin "Tek arzum, yirmi birinci yüzyılda Türkiye'nin dünya muvazenesinde sözü geçen, dünyanın en güçlü devleti olmasıdır." demesi, Türkiye'ye olan sevgisinin derecesini gösteren en güzel ifadedir.

Anahtar Kelimeler: Vatan, Millet, Dil, Azerbaycan, Türkiye.

Giri

20. yüzyıl Azerbaycan Türk Edebiyatı'nın yaşayan en önemli temsilcilerinden biri olan Bahtiyar Vahapzade'nin şiirlerinin önemli bir kısmının konusunu insan teşkil eder. Bu insan, öncelikle şairin yaşadığı dönemin sosyal ve siyasal şartlarının biçimlendirdiği insandır. Vahapzade, şiirlerinde hem bu insanı hicveder hem de bu insan tipinin yerine şiirleri aracılığı ile meydana getirdiği insanı yerleştirir. O'nun şiirlerinde bu iki insan bir aradadır.

Bahtiyar Vahabzade'ye göre; şair ve şiir vatan sevgisinin, millet aşkının kor halinde temsilcisi olmalıdır. Milli kültürü, sanat, vatan sevgisini, aile sıcaklığını, ana, kardeş, evlat muhabbetini en güzel ve en güçlü olarak anlatmalıdır. Şair hak ve hakikat yolunda her türlü mücadeleyi yapmalıdır. Bir milletin maneviyat ve mukaddeslerine alt yapı olan değerleri, şair canı pahasına korumalı ve sevdirmelidir.

I. Bahtiyar Vahapzade'de Vatan Sevgisi: ki Devlet Bir Millet Ülküsü eklindedir

Küçük yaşlarından beri Vahabzadenin hayallerini süsleyen ülkemiz, onun gençlik yıllarında, Sovyetler Birliği döneminde, kalbini alevlendiren bir sevda haline gelir. Bir fırsat bulup Türkiyeyi ziyaret etmek isteyen Vahabzade, nihayet bu özlemini gerçekleştireceği zamanı 1961'de yakalarken: Yıllar sonra duygularını şöyle ifade eder:

Azerbaycan- Türkiye
Bir ananın iki oğlu,
Bir çınarın iki kolu
O da ulu bu da ulu
Azerbaycan- Türkiye

Bir Milletiz, iki devlet
Aynı arzu, aynı niyet
Her ikisi Cumhuriyet
Azerbaycan- Türkiye

Vahabzade, çocukluğundan beri özlemini çektiği, büyüklerinden birkaç kez dinlediği, hayallerinin ülkesi olan Türkiye'yi birkaç gün sonra gidip ziyaret edecektir. Şair, bu vuslat öncesinde duygu dolu anlar yaşar. Vahabzade'nin özleminin gerçekleştiği anlar tarifi zor anlardır. Şairin, ana vatanı olarak nitelendirdiği ülkemize yapmış olduğu unutulmaz ziyareti kendisinden dinleyelim:

"**Dedemin, babamın ve amcalarımın a zından Türkiye hiç dü mezdi. Ben imdi soyumdan gelen arzuların hayallerin ülkesi olan Türkiye'ye gidiyorum. Sabah erkenden kalkıp tıra oldum. Otuz be yıldır hasretini çekti im, ismini zaman zaman andı ımda bütün bedenimi titreten, koluma kuvvet, aya ıma takat, gözlerime ı ık veren bir ehre, stanbul' a, gidiyorum. Ümitgahım, önünde boyun e di im, zorla elimden alınan adımın sahibi, na-**

musumun, izzet ve erefimin koruyucusu, gören gözüm, vuran kolum, dü ünen beynim, yardımcım, dayana ım, bayra ım, kaybetti im tarihim, geçmi im, ana dilim, erefim hepsi sendedir.

Kamaranın penceresinden bakıyorum uzakta fener yanıp sönüyor. Allahım! lk defa Türk ı ı ı görüyorum. O ı ıkta benim arzularım yanıyor. Ey fener, sen sana tarih boyu dü man olan bir milletin gemisine yol gösteriyorsun. O geminin içinde sana can vermeye

İki kardeş ülkenin her zaman zor günlerinde birbirlerinin yanında olduğuna işaret eden Vahabzade, 1999 yılında ülkemizi derinden sarsan Marmara depremine bir Türkiye vatandaşı gibi üzülür, ona bu üzüntü ‘’Deprem’’ şiirini yazdırır. Şair duygularını sözü edilen şiirde şöyle ifade eder:

İşitince ata yurtta depremi,
Aktı yaşım, döndü başım Türkiye.
Her derdimin, her gamımın ortağı
Can kardaşım, can kardaşım Türkiye.
Var mı kaza, var mı bela bu kadar?
Seninleyiz biz ki ömür boyunca
Facianı biz uzaktan duyunca,
Gözlerimden aktı yaşım, Türkiye.
Öz hükmü var her zamanın, her anın,
Yaman günde yanındayız biz senin
Ana yurtta vatanımsan, vatanım,
Vatanımda vatandaşım, Türkiye.
Tarih boyu bu ahdimiz sarsılmaz,
Türk milleti har olmamış, har olmaz.
Her beladan Türkün beli kırılmaz.
Sen benim can sırdaşım, Türkiye.

Türkiyeyi derinden etkileyen depreme karşı teessüratını bu dizelerle ifade eden şair, iki ülke arasındaki sarsılmaz sevgi ve kardeşlik bağlarının hangi temeller üzerine bina edildiğini Azerbaycan-Türkiye şiirinde dile getirmektedir:

Bir ananın iki oğlu
Bir ağacın iki kolu
O da ulu, bu da ulu
Azerbaycan-Türkiye
Dinimiz bir, diliniz bir
Ayımız bir, yılımız bir
Aşkımız bir, yolumuz bir
Azerbaycan-Türkiye
Anayurt’ta yuva kurdum
Ata yurda gönül verdim
Ana yurdum, ata yurdum
Azerbaycan-Türkiye

II-**Vatan ve Millet Sevgisi**

Şair, vatanın, vatan topraklarının, ana dilinin mukaddesliğini şiirlerinde ve açık, net ve içten bir dille terennüm ediyor. “**Vatan sevgisi**” adlı makalesinde bu sevgiyi şöyle tarif ediyor: “**Vatan sevgisi insani duyguların en alisi, en yükse i ve en mukaddesidir. nsan ait oldu u vatanı sevmekle kendini, cemiyet kar ısındaki görevini yerine getirmi olur. Vatan ve halk duygularından mahrum olan ahıs bütün insani hislerden mahrumdur. Vatanı seven insane hayatı sever, dünyayı sever. Çünkü o niçin ya adı ını, neyin namına çalı tı ını bilir. Vatan sevgisi insana mukaddes bir gaye verir. Mukaddes gaye ise kalbe cesaret, kollara kuvvet, gözlere ı ık verir.”**[1]

Vahabzade söz ve dile iki açıdan bakar: Bir yandan sanatkârlık, diğer yandan ise milliliğin remzi olarak; vatanın, milli varlığın ayrılmaz parçası olarak görür. **“Vahabzade vatan ve millet a kını, ana dili sevgisini bir da gibi kalbinde ta ımı ve bunu okurlarına vermeye çalı mı tır. Hak ve adalet yolunda kar ısına çıkan bütün engellere ra men yaptı ı mücadeleden bir an bile vazgeçmemi tir.[2]”**

[1] Vahabzade, Bahtiyar, Vatan Millet Ana Dili, Ankara 1999, s. 74

[2] Vahabzade, Bahtiyar. Sanatkar və Zaman. Gençlik, 1 Say. 211, 1976 ; Gündoğdu, Bayram. Ön Söz Vahabzade, Bahtiyar. Soru İşareti. İstanbul, 2002, say.7

Diğer yandan üzerinde durduğu bir başka konuda eğitimin ana dilinde yapılmasıdır: "**Mili uurun ekillenmesinde ve ki inin kendini kavramasında ana dilde e itimin önemini ispat etmeye gerek yoktur. Fertlerin yeti tirilmesinde e itimin anadilde olmasının gereklili i hakkında dünyanın büyük dü ünür ve e itimcileri ciltlerle kitap yazmı lardır."12**

"**Yıllar ve Na meler**" makalesinde daha net görüyoruz: "**Yılın sonunun aralık ayının son günleri oldu unu kim söyleyebilir? Yine bütün günlerin, ayların, yılların hacmi, sınırı, ve de erinin bir oldu unu kim söyleyebilir? Bu soruları yüre i zengin, hisli Azerbaycan Halkı öyle cevaplandırmı tır:**

Azizim bin aya de er
Kı ın bin aya de er
Yıl var, bir güne de mez
Gün var, bin aya de er.

Vaktini aylara ve yıllara göre ölçen insanın zaman kavramı üzerine anlayı ını halk ne kadar güzel anlatmı tır. Ömür var; ilkbaharında kemale erer. Ömür var; kı ında da henüz bir çocuk gibi yeti kinle emiyor. Ömür var; ilkbaharı gelmeden, kı ı gelir. Ömür var; kı ında da ilkbaharını ya ar. Öylede yıl var; bütün güzelli i sefası ilkbaharında biter. Yıl da var; kendisi biter, sözü bitmez."

Dilde birlik yurtta birlik fikrini dile getirdi i Ana Dili iiri oldukça etkileyici ve ö reticidir:

Ana Dili

Dil açanda ilk defa 'ana' söylerik biz
'Ana dili' adlanır bizim ilk dersliyimiz
İlk mahnımız laylanı anamız öz südüyle
İçirir ruhumuza bu dilde gile-gile.

Bu dil - bizim ruhumuz, eşgimiz, canımızdır,
Bu dil - birbirimizle ehdi-peymanımızdır.
Bu dil - tanıtmış bize bu dünyada her şeyi
Bu dil - ecdadımızın bize goyup getdiyi
En gıymetli mirasdır, onu gözlerimiz tek
Goruyub, nesillere biz de hediyye verek.

III- Vatan Topra ı le lgili Hatıralar:

I.Hatıra: Ahmet Kabaklı'nın daveti üzerine Türkiye'ye gider. İstanbul'da birkaç gün konuğunu ağırlayan Kabaklı, Vahabzade'ye bir gün sonra Ankara'ya gitmek için uçakta iki kişilik yer ayırttığını söyler. Vahabzade de Kabaklı'ya uçakla değil de kara yoluyla gidip gidemeyeceklerini sorar. Kabaklı'dan bu konuda olumlu cevap gelince, İstanbul'dan Ankara'ya kara yoluyla gitmeye karar verirler. Yola çıkmadan önce Vahabzade eline bir kalem bir de defter alır. Yolda levhalarda gördükleri yer isimleri teker teker kaydeder. Bu isimlerin birçoğunun Azerbaycan'da, hatta kendi memleketi olan Şeki'de yer ismi olarak kullanıldığını görür. Ortak özelliklerin bu kadar çok olmasına sevinen şair, yolda mola verdiklerinde Kabaklı'dan izin ister hemen yanlarında kendileri gibi mola vermiş olan yolcuların masasına selam verip oturur. Oradaki yolcularla biraz sohbet ettikten sonar kendisini tanımadıklarını anlayan Vahabzade, masasına konuk olduğu Türkiye'li yolculara kendisinin nereli olduğunu sorar. Onlar da Vahabzade'yi tanımadıkları için konuşmasından Kars'lı ya da Ardahan'lı olabileceğini söylerler. Şair, yolcuların vermiş olduğu bu cevaba çok sevinir.

Şairi etkileyen bu olayların temelleri, iki ülke insanının sarsılmaz bağlarla birbirine bağlanmasına dayanmaktadır. Her dönemde tazelenen vefa numunesi diyebileceğimiz olaylar, haliyle, iki ülke insanını daha da birbirine yakınlaştırmaktadır.

II: Hatıra: 1918 yılında Ermeniler ve Ruslar birlikte Azerbaycan'da halkı katletmeye başladıklarında Azerbaycan hükümeti, Osmanlı devletinden yardım ister. O dönemde, Nuri Paşa komutasında bir orduyla Azerbaycan'ın yardım talebine cevap veren Osmanlı devleti, Ermeni ve Rusların işgal ettiği toprakları Azerbayacanlı ve Türk askerlerden oluşan Kafkas İslam Ordusu sayesinde tekrar istiklaline kavuşturur. Tabiî ki bu topraklarda binlerce asker şehid verilerek

bu başarı sağlanır. Bugün, Anadolulu'dan Azerbaycanlı kardeşlerinin zor günlerinde yanında olmak için gelip bu topraklarda canını veren binlerce asker, medfûn bulunmaktadır. Bunlardan birisi de Şamahı sınırları içerisindeki Acıdere mevkiinde bulunan Türk subayının kabridir. Azerbaycanlı kardeşleri için canını veren Türk askerine Vahabzade, yazdığı bir şiirle vefa borcunu yerine getirir. Şair bu şiirinde duygularını şöyle ifade eder:

Tenha Mezar

Yolun kenarında tenha bir mezar
Üstünde ne adı var ne soyadı.
Ey yolcu, arabanı eyle bu yerde
Soruş kimdir yatan tenha yerinde

O bir Türk zabiti kahraman, metin
Doğma kardeşine yardıma geldi.
Kırgına tutulan milletimizin
Haklı savaşına yardıma geldi.
Uzakdan hay verip senin sesine
Geldi, geldi dönmedi öz ülkesine.
Düşman saflarını o, soldan sağa
Biçip destesiyle cepheyi yardı.
Toprağın uğrunda düşüp toprağa
Senin toprağını sana gaytardı.
Özü koruduğu, hem can verdiği
Yolun kenarında defnedildi o.
Uğrunda canını kurban verdiği
Toprağı özüne vatan bildi o,
Yolcu arabanı bu yerde durdur.
O mezar önünde sen tazim eyle
Secde kıl, dua ver onun ruhuna
Ayak bastığın yer borçludur ona.

Vahabzade'nin eserlerinde de görüldüğü gibi, Türkiye onun gözünde kendi ülkesi kadar azizdir. Türkiye'nin mutlu gününde sevinen, üzüntülü günlerinde, Türkiye vatandaşı bir ferd gibi kederlenen şair, Türkiye'nin istikbaldeki yerinin dünyadaki müreffeh devletler arasında olmalıdır diyerek, Türkiye'nin dünyadaki büyük devletlerden birisi olmasını arzu etmektedir.

IV.Korkuyu Yenen Korkusuz Şair

Vahapzade yaşadığı ve ilk şiirlerini vermeye başladığı dönem, Azerbaycan'ın tarihî, sosyal ve siyasal açıdan bir kaos dönemidir. İçindeki düşünceler ve dışındaki sistemin çatışması şair ve insanı için bir ikilik getirecektir. Bu konudaki imge ve sezilerini "İkilik" isimli şiirinde şöyle ifade eder:

"Gözünle gördüğün men ayrı mendir
Esl men gözüne görünmeyendir
Özüm de bezmişem öz ses kûyumden
Düzünü ahtarsam göründüğümden ucayam
Bir fikrin dönmez kuluyam
Menim gâh sağımda gâh solumda
Bir göze görünmez men var men oyam"

Şiirde özellikle: "**Özüm de bezmişem öz ses kûyumden, düzünü ahtarsam göründüğümden ucayam**" sözleri, içinde bulunduğu şartlar gereği söz konusu olan bir ikilik ve şairin bundan duyduğu kaygıya işaret etmektedir. Şair, bu durumu bir başka şiirinde, "Eğer boylanmırsa sözüm özümden Başga men eyleşip menim yerimde Bir nâdan sözüne susuramsa men Demek gizlenmişem men öz sebrimde" şeklinde ifade ederek, davası uğruna asıl beninin saklamak zorunda ol-duğu, görünmeyen beni olduğunu bildirmek ister.

-Vahapzâde'nin şiirlerindeki insan için tehlikeli şeylerden biri korkudur. Vahapzade'yi korkutan korkunun bizzat kendisidir. Şâire göre korku insanı özü olmaktan uzaklaştırır, vicdanları susturur, adâleti ve hakikati engeller, zulmü destekler, zulm eden güçlünün başını sıvazlar, fikri öldürür, ruhu ve dili bağlar. Vahapzâde, korkuyu iblise benzetir. Vahapzade'nin yaşayarak anlattığı korku, onun ifadesiyle "**milletin kalbine kasten basılmı tır**" ve toplumsal bir korkudur.

Şair bu korkuyu bir şiirinde şu şekilde dile getirir:

"Men gorhuram, sen gorhursan
O da gorhur bu da gorhur.
Biz gorhuruz
Teze fikir beynimizde gelen kimi
Tez gorhurug.
Başkasından gorhduğumuz beş deyilmiş
Özümüzden biz gorhurug!
Gorhu gorhu!
Bir gurd olub yeyir bizi içimizden,
Ne gözleyir veten bizden?
İrade yoh
Kişilik yoh.
Biz gorhurug,
Biz susurug."

Rus korkusu ve ondan kaynaklanan, karşıdakine karşı duyulan korkuyu, " **ki Gorhuyu i ler**". Söz konusu korku, beraberinde yabancılaşmayı getirmiş, korkunun hüküm sürdüğü bu coğrafyada insanın hareket alanı oldukça daralmıştır. Bu şartlarda sanatkârın da doğru düşünüp söylemesi güç hatta imkânsızdır.

"Fikir ölür
Can sustalır
Ruh boğulur
Gorhu bizim dilimizde kilit olur
Beynimizde gıfıl olur
Derd budur ki bu derdi de
Biz ganırıg, biz bilirik
Gorha gorha
Özümüz de özümüzçün
Biz gorhuya çevrilirik"

Sonuç

Azerbaycan Türklerine karşı girişilen saldırılara kayıtsız kalmayarak. fikrini ve ıstıraplarını açıkça dile getirdiği; milletinin çocukları için döktüğü gözyaşlarını topladığı şiiri, Bahtiyar Vahabzade'nin ölçüsüz vatan sevgisinin bir ifadesidir. Vahapzade'nin şiir dünyasında yaşayan insan pek rahat değildir. O, çift yönlü bir gerilimin kıskacındadır. Bu insan, şairin kendi dünyası ile içinden çıktığı dış dünya –ki bu parçalanmış, kuşatılmış Azerbaycan'dır.

Bahtiyar Vahapzade, şiirinin kaynağını vatan toprağında aramıştır. Bütün söylemleri, ait olduğu milletinin milli ve manevi değerlerinden almıştır. "Azadlık Bedel İster" sözünü doğrularcasına yazdığı şiirleri bugün nesilden nesile heyecanla okunmaktadır. Kendi geleneklerine, goreneklerine bağlı olan şair şiirlerini sevgi üzerine inşa eder ve "Vatan Sevgisinin İmandan olduğunun bilinci ve kararlılığı ile yaşamıştır.

KAYNAKLAR

1. Gündoğdu, Bayram. Ön Söz Vahabzade, Bahtiyar. Soru İşareti. İstanbul, 2002, say.7
2. Vahabzade, Bahtiyar, Vatan Millet Ana Dili, Ankara 1999, s. 74
3. Vahabzade, Bahtiyar. Sanatkar və Zaman. Gençlik, 1 Say. 211
4. Vahabzade, Bahtiyar. Sanatkar və zaman. Gençlik, 1976, say. 211
5. Vatan, Millet, Ana Dili, (Atatürk Kültür Merkezi Başkanlığı Yayınları, 2000)

BƏXTİYAR VAHABZADƏ – ÜMUMMİLLİ VƏHDƏT NİDASI

Rahid Ulusel

Fəlsəfə elmləri doktoru, professor
Azərbaycanda Atatürk Mərkəzinin elmi əməkdaşı
uluselrahid@yahoo.com

XÜLASƏ

Çağdaş Azərbaycan poeziyasının patriarxı Bəxtiyar Vahabzadənin humanist fəlsəfi poeziyası milli mədəniyyətimizi dünya mədəniyyəti ilə bağlayan ən etibarlı, çoxtağlı körpülərdəndir. Bu körpü həm də Böyük Türk Dünyasını parçalanmaz edən poetik dünyagörüşünün hüdudlarını birləşdirir. Müəllif məqalədə ümummilli vəhdət nidası adlandırdığı Bəxtiyar poeziyasını diqqətlə izləyir, onun dərinliklərində gizlənən mənaları üzə çıxarmağa çalışır.

Açar sözlər: Bəxtiyar Vahabzadə, istiqlal şairi, milli müstəqillik, türk dünyası, milli düşüncə, fəlsəfi poeziya.

BAKHTIYAR VAHABZADEH – THE CALL OF THE NATIONAL UNITY

ABSTRACT

Patriarch of the modern Azerbaijani poetry – Bakhtiyar Vahabzadeh's humanist-philosophical poetry is one of the reliable bridges connecting our national culture with the world civilization. While making the whole Turkic World unbroken this bridge combines the frontiers of poetic outlook. In the article, the author pursues Bahtiyar's poetry very carefully labeling this poetry the national unity guider and tries to unearth the implicit features of this poetry hidden in its deepness.

Key Words: Bakhtiyar Vahabzadeh, liberty poet, national sovereignty, Turkic world, national thought, philosophical poetry.

Üçüncü minilliyin dan yerindən milli mədəniyyətimizin tarixi inkişafına şığımla baxdıqda bu yolun sonucunda onun başlanğıcındakı Dədə Qorqudun mifik obrazına bənzər gerçək bir ustad dayanır — Bəxtiyar Vahabzadə! Bütün fəaliyyəti və yaradıcılığı boyu Ümummilli Vəhdət nidası ilə hayqıran Bəxtiyar Vahabzadənin sənət və müdrikliyinin Dədə Qorqud çağında — xalq məhəbbəti və ümumtürk sevgisi ilə əhatə olunduğu, əsrinin ən möhtəşəm sənətkarları və siyasi xadimləri tərəfindən təqdir edildiyi bir zamanda, gecəsini gündüzünə qatıban millətinin diriliyi naminə çarpışarkən... acılar yeməsi, tənə və qınaqlara urcah olması ağrılı bir olay idi... Xatırladım ki, doxsanıncı illərin ortalarında Sabir Rüstəmxanlı «evi — istiqlal qərargahı», mənəviyyatı — müstəqilliyimizə çıraq olan Bəxtiyar Vahabzadənin belə qınaq hədəfinə çevrilməsinə, fəaliyyətinin haqsız olaraq yanlış yozulmasına qarşı çıxmışdı[1]. Belə haqsız münasibətin məqsədyönlü olduğu həm də ona görə düşünülür ki, həmin münasibət çağdaş Azərbaycan mədəniyyətinin simasını təyin edən yaradıcılarımız-Bəxtiyar Vahabzadə, Anar... xüsusunda ardıcıldır. Elə bil qəsdən ağacı kökündən çıxarmaq istəyirlər. Bəlkə bu yeni, inqilabi ruhlu bir mədəniyyətin yaradılması ehtirasından doğur?! Əsla! Şahidi olduğumuz yaxın tarixi dövrün vicdanlı araşdırılmasında belə həqiqi qənaətə varılır ki, bugünkü Milli Düşüncə Mədəniyyətimizin mənbəyi-iki böyük təkanla-XI-XX əsrin qovşağındakı *Maarifçilik və Dövlətçilik Hərəkatı* və XX əsrin 60—80-ci illərinin *Milli İdeya Hərəkatı* ilə əmələ gəlib. Sonuncu mərhələnin Xalq Azadlıq Hərəkatına, onun da Azərbaycanın müstəqilliyinə gətirib çıxarması-tarixin öz məntiqidir ki, Bəxtiyar Vahabzadə bu məntiqi gəncliyindən duyurdu və bütün yaradıcılığını da onun üzərində kökləmişdi. Sovet rejiminin ən qadağalı, sərt zamanlarında belə Bəxtiyar Vahabzadə həyatını təhlükə altına ataraq milli ruhumuzun yenilməzliyini sübut edən əsərlər yazırdı. O vaxtların Azərbaycan Gəncliyi (onların çoxusu xalq hərəkatımızın öndərləri oldular) Bəxtiyar Vahabzadənin gizli-gizli, əl-əl, tutiya-təbərrik kimi gəzən «Gülüstan» poemasının qəlbləri necə qığılcımlandırmasını unuda bilərlərmi?!

Bu çağacan Rus İmperiyası generalının üzünə iki şəxs tüpürüb: XIX əsrdə Qafqaz mücahidi Şeyx Şamil, XX əsrin 90-cı ilində xalqına divan tutulduğu 20 Yanvarın ertəsi günü Azərbaycan şairi Bəxtiyar Vahabzadə,-Fövqəladə vəziyyətdə Bakı şəhər komendantı general Dubinyakın üzünə. Bəxtiyarın bu hərəkəti-onun təkcə milli ləyaqətimizin qorxmaz müdafiəçisi olduğunun deyil, həm də sənətində ədalətsizliyə üsyankar münasibətinin rəmzi, əsilzadə jestidir.

[1] «525-ci qəzet», 1997, 15 iyul

Bəxtiyar Vahabzadənin yarım əsrdən çox dövrü əhatə edən zəngin əbədi və ictimai fəaliyyətinin bəzən sayılmaması, danılması, hətta mövqe sabitsizliyində nahaqdan suçlandırılması isə Sabirdən, Mirzə Cəlildən üzü bəri dəyərli mütəfəkkirlərimizin zaman-zaman tənə oxlarına tuş gətirilməsi faktını yada salır. Milli faciəmizin səbəblərindən biri bu deyilmi?!

Fəqət bir sənətkar ömrünün hər üzünü yaşamış Bəxtiyar Vahabzadənin iqtidarçılıq və müxalifətçilik hədəqəsinə heç cür sığdırılmayan sənət dünyasına münasibətdə iqtidarın da, müxalifətin də eyni yüksək fikirdə olması Azərbaycanın ictimai-siyasi həyatında demokratik mübarizənin fərəh, ümid və nikbinlik doğuran nəticəsidir.

Müxtəlif, hətta bir-birinə zidd siyasi qüvvələrin Bəxtiyar Vahabzadənin vətənpərvər poeziyasına münasibətdə vahid bir mövqedən çıxış etməsi bəlkə də Azərbaycanın gələcək taleyinin müəyyənləşməsində həlledici simvolik məqamdır. Deməli, *bütün Azərbaycan Bəxtiyar nöqtəsində birləşə bilər!* Buna görə də ümummilli vəhdət yaradan düşmənəsipər zəncirin Bəxtiyar həlqəsi qırılmamalı, sındırılmamalı, əksinə, möhkəmləndirilməli, gücləndirilməlidir!

Azman türk dünyasının siyasət və sənət korifeyləri də Bəxtiyar Vahabzadə yaradıcılığının birləşdirici türkçülük qayəsinə, vəhdətyaradıcı Azərbaycançılıq missiyasına, dərin fəlsəfi-poetik mahiyyətinə, bəşəriyyətçiliyinə görə bu Böyük İstiqlal Şairinə zamanın klassiki səviyyəsində qiymət vermişlər: «...Sizin ədəbi yaradıcılığınız bütün türk dünyasının mənəvi birliyi və yüksəlişi ilə yaxından əlaqəlidir. Odur ki, Sizi sadəcə Azərbaycanlı qardaşlarımızın deyil, çağdaş türk dünyasının qələm ustadı olaraq salamlayıram» *(Süleyman Dəmirəl)*; «...İndiki dövrdə Bəxtiyar Vahabzadənin yaradıcılığı milli-poetik fikrin ən böyük nailiyyətlərindən biridir... Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. Bu müstəsna dərəcədə zəruri haldır ki, *sən övladı olduğun xalqın nitq hissəsində fel olmağı bacarasan*, xalqının canlı dil memarlığına öz töhfəni verə biləsən» *(Çingiz Aytmatov)*; «Bəxtiyar Vahabzadə bütün ölkədə tanınan və sevilən şairdir... Onun poeziyasında Şərqə məxsus bütün gözəl keyfiyyətlər əksini tapıb...» *(Oljas Süleymanov)*; «Bəxtiyar Vahabzadə fəlsəfi fikirlərini şer dili ilə ifadə edən nadir şairlərdəndir. Onun fikirləri bəşəri, lakin duyğuları millidir. Mən onu «Gülüstan» poeması ilə tanımağa başlamışam. «Gülüstan» poeması... ayrılmışları birləşməyə çağıran bir manifest kimidir.., bölünən və kökündən ayrılan bir xalqın etiraz qışqırtılarıdır. Bəxtiyar Sovet hakimiyyətinin və istibdadının lap kəskin dövründə... xalqında milli şüur oyatmağa çalışmışdır» *(Cavad Heyət)*; «Bəxtiyar Vahabzadə bütün türk dünyasının ortaq səsi, aydınlıq üzü və gözəllik cizgisi, rəmzidir!.. Azərbaycan istiqlalının qazanılmasında Bəxtiyar Vahabzadə kimi mütəfəkkir şairlərin, yazıçıların müstəsna bir yeri var» *(Yavuz Büləndi Bakilər)*; «...Bu gün biz Vahabzadə şerinin qanadları ilə uçuruq» *(Əhməd Bican Ercilasun)*; «...Bəxtiyar Vahabzadə bədii-fəlsəfi mühakimə uğrunda döyüşən fikir şairidir. Şərq şerinin, klassik Azərbaycan poeziyasının ən dərin qatlarından süzülüb gələn bu keyfiyyət Bəxtiyar yaradıcılığında yeni bir parlaqlıqla üzə çıxır... O, özünü həmişə zaman axarının ön cərgəsində hiss edir» *(Xəlil Rza Ulutürk)*.

Zaman və sənət öndəri Bəxtiyar Vahabzadənin ümumxalq marağını mükəmməl formada, ardıcıl şəkildə və israrla ifadə etməsi son vaxtlar Azərbaycan mədəniyyətinin öyrənilməsinə daha çox diqqət göstərən Amerika Birləşmiş Ştatlarında (bu ölkədə və Azərbaycanda şairin ingiliscə iki kitabı nəşr olunub) duyulur və təqdir olunur[1].

Vətən müstəqilliyi ideyasını bir palıd ağacı əkirmiş kimi cücərdib yetişdirən Bəxtiyar Vahabzadənin ictimai-siyasi fəaliyyəti və ədəbi yaradıcılığı son on ildə-Azərbaycanın suverenliyi dövründə öz əvvəlki yanar vətəndaşlıq mövqeyindən və bədii-fəlsəfi məntiqindən qırılmadan daha sərrast milli-ideoloji siqlət, mükəmməl poetik monumentallıq və dərin müdriklik qatı kəsb edib. Şairin poeziyasında ümummilli vəhdət nidası ilə sanki ana vətən özü dilə gəlib söyləyir:

Yad əlində tapdanırkən şərəf-şan,
Türkün türklə ədavətə haqqı yox,
Hər işimiz başlanırkən sıfırdan,
Türkün türklə ədavətə haqqı yox.

[1] Kinzer S. In Azerbaijan, Poets Tear the Fences Down. // «New York Times», 14 October, 1997

Dayaq olsun bu gün gərək sol sağa,
Bu vəhdətdən yurdumuza gün doğa.
Bütün millət dönməliykən yumruğa,
Türkün türklə ədavətə haqqı yox.

Tarix bizi imtahana çəkirkən,
İmdad umur hamımızdan bu vətən.
Dünya da haqq səsimizə kar ikən,
Türkün türklə ədavətə haqqı yox.

Sındırıldı dəyirmanda pərimiz,
Əsir oldu divə bizim Pərimiz.
Dağılırkən ocağımız, pirimiz,
Türkün türklə ədavətə haqqı yox.

Nə çox imiş bu torpağa göz dikən,
Baxa-baxa gözümüzə mil çəkən.
Düşmənimiz dostumuzdan çox ikən,
Türkün türklə ədavətə haqqı yox.

Sinəsini yarmalıyıq zülmətin,
Bu məqsədlə getdiyimiz yol çətin.
Hər gün neçə şəhid verən millətin
Bir-birinə ədavətə haqqı yox.

Bəxtiyar Vahabzadənin son on səkkiz ildəki zəngin, məhsuldar yaradıcılığında müstəqillik dövrünün Azərbaycan həyatına özünəməxsus sənətkar baxışı dəqiq, aydın vətəndaş münasibətilə həmahəngcə meydana çıxır: müstəqilliyin gətirdiyi bütün uğurlara fərəhlənən şair əsarətdən azadlığa gedən yolda millətimizin yenidən özünüəsarətə düçar olmasının faciəsini dolğun metafora və poetik təzadlarla belə göstərir:

Əsarət odunda bişdi nəslimiz,
Azadlıq eşqinə yandıq, yaxıldıq.
Çatıb azadlığa bu məbəddə biz,
Şükür namazını qibləsiz qıldıq.
İndi biz azadıq, bizi bir zaman,
Şeytandan qoruyan abır-həyadan.

Azadıq düşmənə qəzəbdən, kindən
Millət hədəf olub öz nifrətinə.
Qurtarıb özgənin əsarətindən
Düşdük özümüzün əsarətinə.

Azadıq rəhmdən, insafdan da biz,
Millətin haqqıyla üzbəüz olduq.
Ana yurdumuzun qansız, rəhmsiz
Qəddar talançısı özümüz olduq.

Yoxdur əvəzimiz yalançılıqda,
Bu ona şər atır, o buna böhtan.
Yurdu dağıtmaqda, talançılıqda
Azadıq qorxudan, Allah xofundan.

İndi azadlığım mənə qənimdir,
Bu gizlin oyundan baş açmır fələk.
Məni kor quyudan çıxaran kəndir,
İndi boğazıma keçib halqa tək...

Bəxtiyar Vahabzadə xalq şairliyinin, millət vəkilliyinin, akademikliyinin nüfuzu, kefi, dəmi ilə yaşamır, sanki bu imtiyazları özünə qalxan edərək, Azərbaycan gerçəkliyindəki bütün yava-

lıqları mübariz bir vətəndaş barışmazlığı, bir ata, oğul, qardaş ağrısı ilə açıb tökür və sənətkar sözünün neştərinə sancır. Şair, onu susqunluqda, mövqeyini bildirməməkdə ittiham edənlərin dediklərinin əksinə olaraq, ən radikal müxalifətçidən də tutarlı məntiqlə, sərt, amansız tənqidi münasibətlə, tünd, qatı poetik boyalarla Azərbaycan cəmiyyətinin düşdüyü bəlaları — hakimiyyətin və milli sərvətlərimizin özünküləşdirilməsini, doyulmaz korrupsiyaçılığı, postkommunist qınından çıxmazlığı, monarxiya iddialarını, milli əxlaq və dəyərlərin «yenilik» adına batırılmasını, ümumiyyətlə, köhnəliyin, naşılığın bütün qırmızı, bihəya sifətlərini özünün poeziya, dramaturgiya və publisistikasında ifşa hədəfinə çevirir. Azərbaycan Cahiliyyəsi bu gün Bəxtiyar yaradıcılığında bütün uçurumları, dərələri, bataqlıqları ilə görünür.

«Xilasına yol axtaran Vətənin» dərdinə çarə etmək, onun Qarabağ yarasını sağaltmaq əvəzinə, sərvətlərini sümürmək hərisliyi ustad qələminin oxuna taxılır: "...Sən də insan, mən də insan // Doğulmuşuq bir anadan, // Qanda birik, canda birik // Anamızın xatirinə // Bəs niyə biz bir məxrəcə gələmmirik? // ...İş-gücümüz didişməkmi? // Leş üstündə didişərlər... Vətən leşmi?" Bu hərisliyin ən dəhşətlisi, dövləti çökdürən adı isə — «hakimiyyət davasıdır»: "...İqtidara yetişməkdən //Ayrı bir şey düşünməyir // Coşan qəlblər, qızan başlar. // Hakimiyyət davasıdır bu savaşlar. // Vətənçün gün ağlamayır // Nə o tərəf, nə bu tərəf // Bu Vətəni // Dədəsindən ona qalan əmlak sayır // Həm o tərəf, həm bu tərəf // Hər biri öz peşəsində // Namus ilə çalışanlar // Bu Vətənin dərdi ilə alışanlar // İkisinin arasında // qalıb ancaq yana-yana, // Müxalifdir həm o yana, həm bu yana."

Dartışmalar məmləkətində onun namuslu vətəndaşları ya lal edilib, ya qul bazarının yolçusudur, ya da yurdundan, evindən didərgin düşüb, çörək qazanmaq üçün qürbətə üz tutub: "Dəyanət, ləyaqət qalmadı bizdə // Hər gün gəlmələrlə dolur məmləkət. // Öz doğma, öz halal vətənimizdə // Gəlmə sahibkara əl açır millət."

Şair hətta qoşmalarında da bu milli faciələrimizi ozan harayıyla zilə çəkir: "...Yuxarılar əl çəkmədi nəfindən, // Beş-on yerdə saray tikdi kefindən, // Bircə loxma çörək üçün evindən // Perik düşən el, vətəndən küsübdür." Ustad bu faciələrimizin komizmini Qarabağ dərdini «Qarabağ» kafesində kef çəkənlərin ovqatında da görür və qəm üstündə oynamağın indiki durumumuza bab halını açır: "Bizim keyfimiz də keyf-damaq deyil, // «Yorulduq düşmənə qəzəbdən, kindən». // Toylarda oynamaq, oynamaq deyil, // Atılıb düşürük «dərdin» əlindən."

Bəxtiyar Vahabzadənin, ürəyində Zaman döyünən, Tarix yaşanan, Millətin ağrıları qövr edən nəcib, insani, kövrək və üsyankar poeziyasında Azərbaycan ruhu gəzişir. Milli əxlaqımızın ucalıq, Vətən duyğularımızın ölməzlik, Azərbaycanımızın ilahilik rişələri, şah damarları Bəxtiyar şerinin qəlbində birləşir. Buradan doğma yurdun canına uludan ulu, durudan duru, təzədən təzə ideya, söz, hikmət qanı axır...

Bu xalqı sökənlər müdam «xalq» dedi,
Nə özü ucaldı, nə endi xalqa.
Ömründə bir dəfə xalq deməyənlər
Kürsü məramilə söykəndi xalqa.

Özgənin fikrini bəyənməyənlər,
Özünü öyməkçün xalqı öyənlər,
Gah ona, gah buna «düşmən» deyənlər
Əslində özləri düşməndi xalqa.

Yüz yollu yüz nəfər kütlədir ancaq
Bir yollu beş nəfər qüvvədir ancaq.
Yüz yollu məmləkət ölkədir, ancaq
Bir sözlü məmləkət Vətəndi xalqa.

Möhtəşəm poeziyası dar mənafe, klan, partiya... qəliblərinə sığmayan Bəxtiyar Vahabzadə-Söz Sərkərdəsidir. Şairlikdən başqa ondan nəsə ummaq yersizdir. Nəyi varsa Bəxtiyar Vahabzadənin yalnız Şairliyinə sığdırıb... Nəyi varsa-verib, verir... Bircə Ruh şəklində görünən uçunmuş cüssəsi qalıb-Qüvvətli, Yenilməz!

Bu da böyük sənətin son akkordu. -Çağdaş Azərbaycan poeziyasının patriarxı Bəxtiyar Vahabzadənin 60 illik yaradıcılıq fəaliyyətinin (1945-2005) barı olan on bir cildliyi "Azərbay-

can" və "Çaşıoğlu" nəşriyyatları tərəfindən 2002-2005-ci illər arasında çap olunmuşdur. Azərbaycanda indiyədək heç bir şairin əsərləri bu həcmdə və miqyasda (cildlərin ümumi səhifəsi üst-üstə – 6848 !) nəşr edilməmişdir. Mütəfəkkir sənətkarın bədii yaradıcılığını bütün mərhələləri və janrları ilə, ictimai-siyasi fəaliyyətini bütün tərəfləri ilə əhatə edən, ümumiyyətlə onun yaradıcı şəxsiyyətinin gerçəyini görükdürən bu Külliyyat təkcə milli ədəbiyyatımızın deyil, bütövlükdə mədəniyyətimizin böyük hadisəsidir. Öncədən qeyd edək ki, Külliyyatın elə birinci cildində müəllifin xüsusi vurğuladığı bir məqama diqqətli olmaq gərəkdir: Şair, yaradıcılığının ilk mərhələlərində, xüsusən 1955-60-cı illərdə yazdığı əsərləri yenidən işləyib və o tədqiqatçılarından da xahiş edir ki, həmişə əsərlərinin "ən son çapını məqbul saysınlar". Elə bu fakt göstərir ki, böyük sənətkar öz yaradıcılığında yüksəksəviyyəliliyə, ayrı-ayrı əsərlərinin bədii və zaman taleyinə nə qədər həssas və məsuliyyətlidir.

Bəxtiyar Vahabzadənin Milli Ruhumuzun poetik ensiklopediyası olan Külliyyatı-bizim bütün zamanlar üçün ən böyük sərvətlərimizdəndir.

Bəxtiyar Vahabzadənin poetik yaradıcılığının, elmi axtarış və dəyərləndirmələrinin, eyni zamanda, ictimai-siyasi fəaliyyətinin geniş panoram-mənzərəsini yaradan Külliyyat müasir ədəbiyyat elminin ən yüksək səviyyəsində tədqiq olunmağa layiqdir. Biz isə daha çox poeziyası və bu poeziyanın ideya-fəlsəfi motivləri üzərində diqqət cəmlədiyimiz Külliyyat və onun yaradıcısı haqqında ümumiləşdirmələrimizi belə sonuclaya bilərik:

I. Külliyyat – Bir Əsərdir, tam bir Poetik Candır. Bəxtiyar Vahabzadənin ayrı-ayrı dövrlərə, janrlara məxsus əsərləri Külliyyatda bütöv bir orqanizm təşkil edir.

II. Külliyyat – ona görə Bir Əsərdir ki, o, şairin dünyanı-Vəhdət kimi dərk edən və sənətində dərk etdirən dünyagörüşünün məhsuludur. Sənətkarın poetik harmoniyasında Vəhdət-dünyanın sonsuz, qutsal, dadlı rəngarəngliyinin bəliridir, bu Büllurun sayrışmalarında hər zərrə özünü görür və idrak edir: bu harmoniyada bulunmaq nə qədər xoşdur!

III. Bəxtiyar Vahabzadə Külliyyatı-poetik Etikadır: daim insanı (həm də bu sənətin yaradıcısını!) insanlararası, toplumlararası, dünyalararası münasibətlərin ən yaxşısını, zərifini, ürəyəyatımlısını qurmağa, aramsız təkmilləşdirməyə, öz-özünə hesabat verməyə, öz-özünlə vuruşmada İblisi deyil, İnsaniliyi qalib çıxartmağa, katarsislərdən keçməyə, durulub-aydınlanmağa yönəldən Etika. Bu Etika – Kosmik Əxlaqın bir hissəsidir. Onu yetərincə kamil başarınca, insantəkcə Yeryaradıcı deyil, Kainatyaradıcı bir 420başlanğıc-varlıq missiyasına yüksələ bilər.

IV. Dünyanın İlahi Orqanikasını özünün Söz çevrəsində yaradan şair,Külliyyatında Əbədiyyəti və onun Mənası, Zirvəsi,Cövhəri-Tanrını eşidir, duyur və duyurur. Bu-ümumiyyətlə, dünya poeziyasının böyük Enerji-İdeya mənbəyidir ki, ruhsuzlaşma üzündən getdikcə sozalmaqdadır...

...Dünyaya şəfəqlər kimi Tanrım səpələnmiş
Qəlbin gözü yanmazsa, görünməz gözə Allah!..

V. Min illərin mənəvi yaddaşı (müqəddəslik, ülviyyət, kökəbağlılıq, milli sərvətlərin qədrini bilmə, qoruma və zənginləşdirmə, milli qürur, ailə çevrəsindən Vətən sərhədlərinəcən milli varlığı canında duyma, ruhunda yaşatma...) bütün təbii axarları ilə Bəxtiyar Vahabzadənin Söz Sənətinə süzülüb və burada okeanlaşaraq yenidən xalqın milli sərvətinə, mənəvi yaddaşına çevrilib.

VI. Bəxtiyar Vahabzadənin yaradıcılığı bir daha təsdiq edir ki, milli poetik ənənələrin enerjisi tükənməzdir. Bu tükənməzlikdən binə tutan sənət milli mədəniyyəti ümumbəşəri mədəniyyətə daşımaq, ona qovuşdurmaq, onda qərar tapdırmaq gücündədir.

VII. Bəxtiyar Vahabzadənin yaradıcılığı bir daha təsdiq edir ki, Şərq mədəniyyətinin, Şərq ruhunun enerjisi tükənməzdir. Çünki bu qat – mayasında insan mənəviyyatının təkamülünü yaşadan İlahi Proqramın kodları ilə qurulub. Şair bu böyük Mənəviyyat Məbədinin bir neçə kərpicini yonub-cilalayıb-hörən bənnadır.

Külliyyat – Məbəddə kərpic məqamındadır...

...Ağ-dalğam saçlarını heç zaman Hakimiyyət deyil, Vətən küləkləri sığallayan, Vətən çırpıntıları, iztirabları qəlbində tufan qoparan İstiqlal şairi Bəxtiyar Vahabzadə...elə hər zaman dissident oldu.-Çünki Böyük Sənət həmişə öz zamanı ilə dissonansdır...

Şerindən axan ulu qanlar heç zaman soyumayacaq, laxtalanmayacaq, kükrədikcə kükrəyəcək, aşıb-daşacaq, Dünyanın Böyük Türkü, Türk Dünyasının Bəxtiyarı!

BAHT YAR VAHAPZADE'N N RLER NDE AHLAK VE H KMET

Ceyhun Vedat UY UR

Prof. Dr., Pamukkale Üniversitesi Fen-Edebiyat Fakültesi
Türk Dili ve Edebiyatı Bölümü
Denizli / TÜRKİYE

ÖZET

Bildirimizde Bahtiyar Vahapzade'nin şiirleri taranmak suretiyle mısralarındaki ahlakî ve hikemî mısralar tespit edilecek ve bunlar şairin hayatı, fikrî dünyası ve gönül evreni dikkate alınarak yorumlanacaktır. Bahtiyar Vahapzade, toplum ve hakikat karşısında daima kendisini sorumlu hisseden bir şairdir. Bu sorumluluğun gereği olarak her fırsatta görevini yerine getirmeye çalışmış, inancından, toplumsal değerlerden ve evrensel ilkelerden süzüp devşirdiği hakikatleri sunmayı mukaddes bir görev saymıştır. ***Yalan ve hakikat, hayır ve er, vatan, halk, dil, ölüm, hayat, tefekkür, akıl, gayret, tarih, ecdat, namus*** gibi daha sayılabilecek pek çok kavram ve varlıkla ilgili mısralar söylemiştir. Bir atasözü sayılabilecek bu sözler, yeri geldikçe Azerbaycan-Türk atasözleriyle de desteklenmiştir. Atasözlerinin, gelecek nesiller için kıymeti nasıl tartışılmaz ise, Bahtiyar Vahapzade'nin toplum ve insanlık için çarpan yüreğinden süzülüp gelen ahlakî ve hikmetli mısraların bilinmesi, nesillere taşınması, anlaşılması da en az o kadar önemlidir. İşte bildirimiz, bu amaçla hazırlanmıştır.

Anahtar Kelimeler: Bahtiyar Vahapzade, Azeri şiiri, ahlak ve hikmet.

MORALITY AND WISDOM IN VAHAPZADE BAKHTIAR'S POEMS

ABSTRACT

In this paper by scanning Bahtiyar Vahapzade's poems we will detect his moral and oracular verses and these verses will be interpreted by taking into consideration the poet's life, his political world and universe of mind . Vahapzade Bakhtiar is a poet who feels himself responsible before the society and the truth. By the force of this reponsibility , he tried to perform his duty on all occasions and he assumed it as a sacred duty to present the truths which are drained from his beliefs, social values and universal principles. He said many verses about the concept and asset such as **lies and truth, prosperity and malignty, motherland, nation, language, death, life, consideration, wisdom, sedulity, history, ancestry, decency** and so on. Each of these verses can be considered as a proverb and when the occasion arises they are also supported by Azerbaijani-Turkish proverbs. We know that proverbs are inarguable about their value for future generations and we think that Vahapzade Bakhtiar's verses have the same value. Our aim is to make a contribution for the transfer of these verses from generation to generation by this study.

Keywords : Vahapzade Bakhtiar, Azerbaijan poetry, moral and wisdom.

20. yüzyıl Azerbaycan şiirinin tartışmasız en büyük şairlerinden biri olan (Doğumu 1925, Şeki) Bahtiyar Vahapzade, aslında sadece Azerbaycan'ın değil, bütün Türk dünyasının en büyük şairlerinden biridir. O, bu gücünü yazdığı şiirlerindeki samimiyetinden, dürüstlüğünden, coşkusundan, kendisi için değil başkaları için, halkı için yaşamış ve yazmış olmasından almaktadır. O, halkın, insanlığın, ilkelerinin ve haksızlığa uğramışların şairidir. **Vatan, halk, dil, geçmi e uzanan millî kökler, ana, insan, adalet** şairidir. Bahtiyar Vahapzade, ölüm karşısında, hayat karşısında duran, düşünen, sorgulayan bir filozof, bir mütefekkir gibidir. Bazen tabiat, evren, dünya hadiseleri karşısında hikmet söyleyen bir mutasavvıf gibidir. İnsanlıkta bulunması gereken ahlak, ahlakî değerler, Bahtiyar Vahapzade'nin şiirlerinin genel örgüsünü kuran en önemli temalardır.

Bahtiyar Vahapzade, olaylar, insanlar, evren ve hayatın değişmeyen kanunları karşısında Türk dilinin en güzel kelimeleriyle en tesirli, en bedii ifade yollarını bulabilmiş müstesna şairlerdendir. O, hayattan çıkardığı tecrübelerini bazen bir filozof, bazen bir mutasavvıf, bazen bir mütefekkir edasıyla ve derinliğiyle insanlara aktarmaya çabalayan bir ahlak mücahididir. Onun şairliği, böyle bir sorumluluk için vardır. Şair, bu hakikati biyografisini anlattığı sözlerde bizzat kendisi ifade ediyor: *"Sanat yollarındaki pek çok tecrübeme dayanarak diyebilirim ki, bir insan olarak duyumsadığım ve heyecanlandığım mevzularda yazarken başarı kazandım. Duyumsamadan uydurduğum mevzulara yönelince dilim takıldı, şiirim tesirsiz oldu, doğduğu gün ihtiyarladı. (…) Son otuz yıl zarfında silsile teşkil eden lirik aşk şiirlerim, aynı zamanda hayat ve zaman hakkındaki felsefi düşüncelerim ve dâhili ıstıraplarımdır. Ben bu şiirlerimde daha çok kendimim. Çünkü bunlarda daha çok samimiyim.* ***Samimiyet ise edebiyatın ve sanatın çarpan yüre i, atan ah damarıdır. Bu iirler benim kalbimin hal tercümesidir****. (…) Şiirlerdeki somut*

[10] Bəxtiyar Vahabzadə.Riyakar. Seçilmiş əsərləri. I cild.Bakı,"Öndər nəşriyyatı", 2004, səh.46.

Xalq xəzinəsi dərin və nəhayətsiz dəryadır. Bu dəryaya mahir söz ustadları baş vura bilər. Onlar o qədər qüdrətli söz mülkünə sahib olmalıdırlar ki, zaman-zaman xalqın yaratdığı hikməti zəiflətmədən yeni-yeni çalarlarla xalqa çatdıra bilsinlər. Məhz Bəxtiyar Vahabzadə kimi qüdrətli qələm sahibi bu xəzinədən faydalanmağa cəsarət etmiş, hətta o xəzinəyə hikmət sahibi kimi əlavələrini edərək, zənginləşməsinə yardım etmişdir.

Bəxtiyar Vahabzadə şeirlərinin təsir gücünü artırmaq üçün bayatılardan, laylalardan, alqış və qarğışlardan yeri gəldikcə istifadə etmişdir. O,"Habil segahı"adlı şeirində xalq arasında: "Burda bir qərib ölüb, Göy kişnər bulud ağlar" ağısından segah ahının təsirindən yaranan hissləri diqqətə çəkmək üçün ustalıqla istifadə edir:

Bədbəxt bir qəribin ah-amanından
Bəlkə göy kişnədi, bulud ağladı.[2]

Və ya "Beşik" şeirində xalq arasında məşhur olan "Layla"nın bir bəndi bütövlüklə şeirin içərisinə daxil edilmişdir. Bununla da B.Vahabzadə özünün yaratdığı beşiyin başında xalqdan gələn laylanı oxutmaqla onun möhtəşəmliyini bir daha təsdiq etmişdir.

Laylay dedim yatasan,
Qızıl gülə batasan,
Qızıl güllər içində
Şirin yuxu tapasan.[3]

B.Vahabzadənin yaradıcılığında dilimizə, milli dəyərlərimizə xor baxanlara qarşı amansız mövqe tutması diqqət çəkir. O, hətta bu hadisələrdən o qədər təsirlənir ki, qarğış etməkdən belə çəkinmir: Ancaq Vətən çörəyi

Bir də ana ürəyi
Sizlərə qənim olsun[4].
Və ya : Bu dildə dərs deyib qazandığın pul,
Yediyin çörək də haramdır sənə![5]

B.Vahabzadə poeziyasında alqışlara daha cox yer verilmişdir. Bu alqışlar çox zaman şairin yaratdığı ana obrazlarının dili ilə verilir.

Sən mənim ömrümdən kəsib illəri,
Balamın ömrünə cala ay Allah![6]

Və ya Anan duasında dedi:"Ya Allah
Balamın həmişə üzü ağ olsun!
Elə yaşasın ki, el ona pənah,
O da el-obaya bir dayaq olsun.[7]

B. Vahabzadə yaradıcılığının son 22 ilində demək olar ki, hər bir Azərbaycanlının qaysaqlanmayan qəlb yarası olan, itirilmiş torpaqlarımız, bu mübarizədə şəhid verdiyimiz nər oğullarımız, bir sözlə Qarabağ problemi mövzusuna əsas yer vermişdir. Bu mövzuya neçə-neçə şeirlər, poemalar həsr etmişdir. Onun bu istiqamətdə yazdığı əsərlərdə barışmadığı bir məqam diqqəti cəkir. Bu da odumuzdan, ocağımızdan, torpağımızdan pay verdiyimiz miskin qonşularımızın namərdliyidir. B. Vahabzadə bu namərdlərin hərəkətlərini əsərləri vasitəsilə tarixin yaddaşına köçürməklə gələcək nəsillərə çatdırmağı özünə borc bilmişdir. Bu məsələyə münasibətindən yaranan hər bir əsəri hikmət xəzinəsini zənginləşdirmək anlamında dəyərli əsərlərdir.

Xalq var, özü odsuz, ocaqsız qalır,
Odundan qonşuya pay verir özü.

---

1 Bəxtiyar Vahabzadə.Külək-ot. Seçilmiş əsərləri. I cild.Bakı,"Öndər nəşriyyatı", 2004, səh.111

2 Bəxtiyar Vahabzadə.Habil segahı. Seçilmiş əsərləri. I cild.Bakı,"Öndər nəşriyyatı", 2004, səh.23.

3 Bəxtiyar Vahabzadə.Beşik. Seçilmiş əsərləri. I cild.Bakı,"Öndər nəşriyyatı", 2004, səh.61.

4 Bəxtiyar Vahabzadə. Ana dili. Seçilmiş əsərləri. I cild.Bakı,"Öndər nəşriyyatı", 2004, səh.

5 Bəxtiyar Vahabzadə. Riyakar. Seçilmiş əsərləri. I cild.Bakı,"Öndər nəşriyyatı", 2004, səh. 46.

6 Bəxtiyar Vahabzadə. Ana hədiyyəsi. Seçilmiş əsərləri. I cild.Bakı,"Öndər nəşriyyatı", 2004, səh. 16.

7 Bəxtiyar Vahabzadə. Cavab. Seçilmiş əsərləri. I cild.Bakı,"Öndər nəşriyyatı", 2004, səh. 206.

Xalq da var, o odu əvəzsiz alır,
Qonşu torpağına dikir gözünü.[1]

Bu şeirdə mənfur düşmənimizin namərd hərəkətlərini diqqətə çəkməklə, eyni zamanda yeni bir məsəl yaratmağa müvəffəq olmuşdur.

Ümumiyyətlə, Bəxtiyar Vahabzadə yaradıcılığı həm xalqdan aldığı, həm də özünün yaratdığı hikmətlərlə zəngin möhtəşəm bir məbəddir. Bu məbədə uz tutan oxucular mənən kamilliyə çatacaqlar.

D B YYAT

1. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. I cild.Bakı,"Öndər nəşriyyatı", 2004, 321 səh
2. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. I I cild.Bakı,"Öndər nəşriyyatı", 2004, 275 səh.
3. Müasir Azərbaycan ədəbiyyatı. Bakı, Maarif nəşriyyatı, 1988, 533 səh.
4. Xalqımızın deyimləri və duyumları. Bakı, "Maarif" nəşriyyatı.1988. 378 səh.

BAHT YAR VAHABZADE LE LG L KIRGIZ STAN'DA YAPILAN ÇALI MALAR VE A R N GÜL STAN ADLI ESER N N KIRGIZ TÜRKÇES NE AKTARILMA SÜREC

Altınbek SMA LOV
Kırgızistan-Türkiye Manas Üniversitesi Öğretim Elemanı
Kırgız Milli Yazarlar Birliği Üyesi
Dünya Genç Türk Yazarlar Birliği Kırgızistan Temsilcisi

2010 yılına kadar Kırgızistan'da Türk Dünyasının büyük şairlerinden Bahtiyar Vahabzade ile ilgili hiç bir araştırma yapılmamış, hiç bir eser Kırgız Türkçesine aktarılmamıştır.

Bildiğimiz gibi, Vahabzade, 1960'larda başlayan özgürlük hareketlerinin öncülerindendir. Bu konuda kaleme aldığı 1959 tarihli Gülistan isimli şiirinde, ikiye bölünen (İran ve Rusya) Azerbaycan halkının yaşadığı felaketleri anlatmıştır. Adı geçen eserinden dolayı 1962 yılında milliyetçi damgası vurulan şair 2 yıllığına üniversitedeki görevinden de uzaklaştırılmıştır[2]. İşte bu olumsuzluklar ve Sovyet rejiminin baskılarından dolayı vatansever şairin eserleri Kırgızistan'da da yayımlanmamıştır.

Ancak Kırgız Cumhuriyeti kurulduktan sonra (1991), Azerbaycan halkının sıkıntılarının konu edildiği Bahtiyar Vahabzade'nin şiirleri, Cengiz Aytmatov'un büyüdüğü Kırgız bozkırlarını "ziyaret etmeye" başladı. Daha doğrusu, 2010 yılında, ilk defa Vahabzade'nin Gülistan adlı manzum hikâyesi Türk Dili Konuşan Devletlerin Politikasını Destekleme Fonu'nun yardımıyla Kırgız Türkçesine çevrildi. Kırgızistan-Türkiye Manas Üniversitesi öğretim elemanı, şair ve tercüman Altınbek İsmailov tarafından aktarılan bu eser, aynı yıl kitap olarak yayımlandı ve Kırgızistan'ın başkenti Bişkek'te adı geçen kitabın tanıtım programı düzenlendi.

Halk Şairi Bahtiyar Vahabzade'nin hem Azerbaycan, hem Kırgız Türkçesiyle, iki dilde yayımlanan Gülistan isimli kitabı Kırgız okurları, edebiyatçıları ve bilim adamları tarafından büyük bir ilgiyle karşılandı.

Bu eseri Kırgız Türkçesine aktarırken, gerçekten de çok zaman ve emek harcadığımızı belirtmeliyiz. Çünkü, şairin kullandığı dilin tadını hissederek, anlatmak istediği tüm mesajlarını yakalayarak, kafiyelerde yer alan fikir ve düşüncelerini hiç değiştirmeden olduğu gibi yansıtmaya çalıştık. Aynı zamanda bu işi kendimize düşen çok önemli bir görev olarak kabul ettik.

Prof. Dr. Mehmet Kaplan'ın dediği gibi, "Bahtiyar Vahabzade, şiirlerinde kafiye ve vezinden ustalıkla istifade eder. Onun şiirlerini okurken insan ses uyumunun ne kadar maharetle kullanıl-

[1] Bəxtiyar Vahabzadə. Xeyir-şər. Seçilmiş əsərləri. I cild.Bakı,"Öndər nəşriyyatı", 2004, səh. 215.

[2] Bahtiyar Vahapzade, Vikipedi, özgür ansiklopedi

dığını hisseder. Vahabzade'nin şiirleri mana ve içeriğine uygun yücelik duygusu telkin eden bir söz sihridir. Yahya Kemal'in dili kadar açık ve sadedir. Kafiyeler yeni yeni ve müstakildir. Mısranın sonunda gelmesi ona ayrı bir önem ve ağırlık verir. Vahabzade'nin şiirlerinde fikirler kafiyelerde düğümlenir. Duygular, fikirler ve hayaller, adeta, kafiyelerden fışkırır."[1] İşte böyle özelliklere sahip olan seçkin şiirleriyle tanınmış büyük şairin Gülistan adlı eserini tercüme ederken karşılaştığımız tüm zorluklarla başa çıktık.

Özellikle, Bahtiyar Vahabzade'nin kendi döneminin bütün yasaklarına, baskılarına rağmen, Gülistan gibi millî ruhlu muazzam bir manzum hikaye yazması ve bu eserdeki yerel kültürün zenginliği, içtenliği ve doğallığı bizi çok etkiledi.

Bildiğimiz gibi, "Sovyetler döneminde Kuzey Azerbaycan'ın 1813 yılında Rusya ile İran arasında yapılan anlaşmaya göre eski Rus İmparatorluğunun içinde kalması resmî kurumlar tarafından Azerbaycan halkının mutluluğu gibi gösterilmiştir. Ancak Bahtiyar Vahabzade, yalan siyasete itiraz ederek şiirde bu siyasetin iç yüzünü açmış, onu âşikârane ifşa etmiş, "gözlüklü" Rusla "topsakal" Fars arasında bölünen Azerbaycan'ın feci durumunu, mevcut olan gerçek boyutuyla göstermiştir:

İpək yaylığıyla o, asta-asta
Silib eynəyini gözünə taxdı.
əyilib yavaşca masanın üstə
Bir möhürə baxdı, bir qola baxdı.

Kağıza həvəslə o da qol atdı,
Dodağı altından gülümsəyərək.
Bir qələm əsrlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınc tək.

Öz sivri ucuyla bu lələk qələm
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı, ancaq dəmbədəm
Kəsdilər səsini Azərbaycanın.

O güldü kağıza qol çəkən zaman,
Qıydı ürəklərin hicran səsinə.
O güldü haqq üçün daim çarpışan
Bir xalqın tarixi faciəsinə."[2]

Kırgızca tercümesi şöyle:

Sürtüp cibek cooluk menen al asta,
Köz aynegin közgö taktı canagı.
Cay iyilip üstöldögü kagazda
Turgan möördü cana koldu karadı.

Anan al da ak kagazga cılıp cay,
Kolun koyup uurtunan cılmaydı.
Kalktı ekige bölüp kalem kılıçtay
Alıp keldi köp kılımdık muŋ-kaygı.

Abdan ötkür oşol kalem uç menen
Kökürögün teşti Azerbaycandın.
Kayra-kayra karşı çıksa, küç menen
Caagın captı kayran Azerbaycandın.

Acıratıp cüröktördü bir öskön,
Kol koygondo külüp turdu ırsayıp.

[1] Türk Edebiyatı Dergisi, Ocak 1984, Sayı 123.

[2] Yrd. Doç. Dr. Rövşen Alizade, Bahtiyar Vahabzadenin ''Gülistan'' manzum hikayesinde milli bağımsızlık teması. Karadeniz dergisi. 11.Ekim, 2010. Sayı 07.

Karagan cok çındık üçün küröşkön,
Kalktın açuu tagdırına kılçayıp.[1]

İlk önce ‘’Gülistan’ın’’ aslına, yani Azerbaycan Türkçesiyle yazılmış olan, bir az evvel örnek olarak gösterdiğimiz dörtlüklerdeki mısralara bakalım. Gördüğümüz gibi, mısralardaki hece sayısı on bir. Tüm dörtlüklerdeki mısralar ise kendi arasında *a-b-a-b* şeklinde kafiyelidir. Örneğin:

İpək yaylığıyla o, asta-asta **a** (11 hece)
Silib eynəyini gözünə taxdı. **b** (11 hece)
əyilib yavaşca masanın üstə **a** (11 hece)
Bir möhürə baxdı, bir qola baxdı. **b** (11 hece)

Tercümesine gelelim:

Sürtüp cibek cooluk menen al asta, **a** (11 hece)
Köz aynegin közgö taktı canagı. **b** (11 hece)
Cay iyilip üstöldögü kagazda **a** (11 hece)
Turgan möördü cana koldu karadı. **b** (11 hece)

Ortak kelimeler:

p k - cibek, **yaylı** - cooluk, **asta** – asta;
eyn - aynek, **göz** - köz, **taxdı** - taktı;
yilib - iyilip;
möhür - möör, **qol**-kol,

İkinci dörtlüğün aslı:

Kağıza həvəslə o da qol atdı, **a** (11 hece)
Dodağı altından gülümsəyərək. **b** (11 hece)
Bir qələm əsrlik hicran yaratdı, **a** (11 hece)
Bir xalqı yarıya böldü qılınc tək. **b** (11 hece)

Kırgızca tercümesi:

Anan al da ak kagazga cılıp cay, **a** (11 hece)
Kolun koyup uurtunan cılmaydı. **b** (11 hece)
Kalktı ekige bölüp kalem kılıçtay, **a** (11 hece)
Alıp keldi köp kılımdık muŋ-kaygı. **b** (11 hece)

Ortak kelimeler:

Ka ız - kagaz, **qol**-kol;
q l m - kalem;
böl - böl;
xalq- kalk, **qılınc** - kılıç,

Şairin Gülistan başlıklı manzum hikâyesi toplam 51 dörtlükten ibarettir ve bu dörtlüklerin hepsi yukarıda saydığımız gibi *a-b-a-b* şeklinde, 11’li hece ölçüsüyle yazılmıştır. Eserin Kırgızca tercümesi de baştan sona kadar aslındaki gibi 11’li hece ölçüsüyle ve *a-b-a-b* şeklinde dile getirilmiştir. En başta her mısradaki, her dörtlükteki, her kafiyedeki, her sözdeki manayı kaybetmeden, olduğu gibi yansıtmaya çalıştık. Bir az önce örnek verdiğimiz gibi, daha çok ortak kelimeleri kullandık.

Tabi, bu çalışmamız, büyük şairin iç dünyasını tanıtmaya çaba gösterdiğimiz ilk adımdır. İleride Bahtiyar Vahabzade’nin hayatı, eserleri ve edebî kişiliği üzerine büyük bir çalışma yapmayı düşünüyoruz.

Sonuç olarak, şu ana kadar söylediklerimizi tamamlamak için sözü şairin kendisine vermeyi uygun gördük: “En kutsal sevgi vatan sevgisidir. Bundan dolayı da vatan sevdalıları, millet delileri vatan sevgisini her türlü şahsi isteklerin, sevgilerin önünde tutar. Onların şahsi arzuları, istekleri, milyonların talepleri karşısında erir gider. Böyle olduğu zaman kendisi vatanlaşır, vatan onda temsil bulur.”[2] Yani:

[1] Вахабзаде Бахтыяр, Гүлистан. *Поэма*. Бишкек – 2010. 10-б. Kırgız Türkçesine aktaran Altınbek İsmailov
[2] Bahtiyar Vahabzade, (Konuşan: Bahtiyar Azizli) Yanan da Men, Yaman da Men, s. 236.

Vətən quşa bənzər, qanadlarının
Biri bu taydırsa, biri o taydır.
Quş iki qanadla uçar, yüksələr,
Mən necə yüksəlim tək qanadımla?
Ürəklər bu dərddən tüğyana gələr,
Axar gözümüzdən yaş damla-damla.[1]
Kırgızca tercümesi:

Meken kuşka okşoş eki kanatçan,
Teñ salmaktı karmap uçup baratkan.
Biri mında, biri tigil aymakta,
Aytçı kantip uçam calgız kanatçan.
Arman-muñdan et cüröktör tilinip,
Közübüzdön caş aralaş agat kan.[2]

KAYNAKLAR

1. Bahtiyar Vahapzade, Vikipedi, özgür ansiklopedi.
2. Gülüstan poeması / http zade. azeriblog.com
3. Türk Edebiyatı Dergisi, Ocak 1984, Sayı 123.
4. Karadeniz Dergisi. 11.Ekim, 2010. Sayı 07.
5. Erdal,K. Türk Dünyasının Sesi Bahtiyar Vahapzade. Qafqaz Üniversitesi, Qafqaz Araştırmaları Enstitüsü. Bakü-2009.
6. Вахабçаде Бахтыяр, Гүлистан. *Поэма.* Бишкек – 2010.

B XT YAR VAHABZAD N N YARADICILI INDA FAH NÜMUN L R N POET K FAD T RZ

M hs ti smayıl

Filologiya elmləri üzrə fəlsəfə doktoru
mehsetiismail@yahoo.com

XÜLAS

Bəxtiyar Vahabzadənin istər şeir yaradıcılığı, istərsə də şəxsiyyəti haqqında ümumiləşdirici fikir məhz MİLLİ ŞAİR sözüdür. Sovetlər ittifaqının ən amansız illərində şair milli ruhunu gizlətmədi. Hətta insanların ruhuna çəkilən sərhədləri şeiriyyəti ilə yerlə bir etdi. Xalqın içində xalqın öz sözünü deməkdən çəkinmədi. Şairin şeir yaradıcılığının bir üslubu da xalq nümunələrində yerli -yerində, ustalıqla istifadə etməsidir. İstər sözün orijinal ifadəsi, istərsə də sözün təsvir qarşılaşdırmalarında üslub aydın nəzərə çarpır. Şifahi nümunələri- deyimləri, atalar sözlərini, inamları şeirin poetik dilinə uydurmaq və ya fikrin ifadəsində bənzər söz seçimi ilə tarazlamaq şairin ustalığından, şeiriyyətin bütün imkanlarınından istifadə bacarığından xəbər verir.

Dünyaya gəlmədik biz əbəs yerə,
İnsanıq, insan da bizə gərəkdir.
Bağatək qınına çəkilənlərə
Ürək nə gərəkdir, dil nə gərəkdir

B.Vahabzadə şeirlərində oxucu yaradıcı şairlə yanaşı şəxsiyyətini ifadə edən şairlə də qarşı qarşıya dayanır.

Bəli, əsəbiyəm, çünki insanam,
Mənim nifrətim var, məhəbbətim var.
Quzuya da bəli,
Qurda da bəli?
Deyirsən olmasın baxışım mənim?
Nöqsanım budursa əgər...
Deməli,
Ancaq naxışımdır yanlışım mənim.

Bəxtiyar Vahabzadə milli ruhla dolu olan bir şair idi. Onu xalqa sevdirən və şeirlərini yaşadan da məhz bu səbəb oldu. Məqalədə şairin yaradıcılığında şifahi nümunələrin yaradıcı tərzdə poetik təsviri təhlil olunmaqla, bu üslubun zamana görə əhəmiyyətindən və töhfələrdən bəhs olunacaqdır.

Açar sözl r: şeir, milli ruh, ədəbi üslub.

[1] Вахабзаде Бахтыяр, Гүлистан. *Поэма.* Бишкек – 2010. 19-б.
[2] Вахабзаде Бахтыяр, Гүлистан. *Поэма.* Бишкек – 2010. 18-б.

WAY OF EXPRESSION OF ORAL SAMPLES TO CREATIVITY IN BAKHTIYAR'S VAGABZADA

Words the national poet expresses the generalized sense of creativity and Bakhtiyar's identity to Vagabzada. The poet even in cruel days of the Soviet Union didn't hide the national spirit. Even the verses crushed the borders interfering national enthusiasm. Wasn't afraid to tell people words. In the verses the poet very skillfully used models of oral creativity. It clearly is visible in all creativity of the poet. Use from oral models of creativity and settling of these samples to canons of the poem was result of skill of the poet.

In vain we came to the world,
It is necessary for us the person and mankind,
What disappeared in itself,
Not heart is necessary, language covered
In Bakhtiyar's poems to Vagabzada the reader meets also the creative poet and who well expresses those the personality.
Is I am nervous, because I am a person,
I have hatred and love for a century.
And a lamb is,
And to a wolf is?
You want, what there was no my opinion?
And if it is my sin...
To mean,
Beds are a pattern of my poem.
Bakhtiyara to Vagabzada was the poet of national spirit. Therefore the people loved its and its poems lived forever.
Keywords: poem, national spirit, literary way

Bəxtiyar Vahabzadənin istər şeir yaradıcılığın, istərsə də şəxsiyyəti haqqında ümumiləşdirici fikir məhz MİLLİ ŞAİR sözüdür. Sovetlər İttifaqının ən amansız illərində şair milli ruhunu gizlətmədi. Hətta insanların ruhuna çəkilən sərhədləri şeiriyyəti ilə yerlə bir etdi. Xalqın içində xalqın öz sözünü deməkdən çəkinmədi. Şairin şeir yaradıcılığının bir üslubu da xalq nümunələrindən yerli-yerində, ustalıqla istifadə etməsidir. İstər sözün orijinal ifadəsi, istərsə də sözün təsvir qarşılaşdırmalarında üslub aydın nəzərə çarpır. Şifahi nümunələri- deyimləri, atalar sözlərini, inamları şeirin poetik dilinə uydurmaq və ya fikrin ifadəsində bənzər söz seçimi ilə tarazlamaq şairin ustalığından, şeiriyyətin bütün imkanlarınıdan istifadə bacarığından xəbər verir.

Dünyaya gəlmədik biz əbəs yerə,
İnsanıq, insan da bizə gərəkdir.
Bağatək qınına çəkilənlərə
Ürək nə gərəkdir, dil nə gərəkdir[1]

Üçüncü misrada "Bağa çanağından çıxdı, çanağını bəyənmədi"[2] atalar sözünün qısa təsviri verilmişdir. B.Vahabzadə şeirlərində oxucu yaradıcı şairlə yanaşı şəxsiyyətini ifadə edən şairlə də qarşı qarşıya dayanır.

Bəli, əsəbiyəm, çünki insanam,
Mənim nifrətim var, məhəbbətim var.
Quzuya da bəli,
Qurda da bəli?
Deyirsən olmasın baxışım mənim?
Nöqsanım budursa əgər...
Deməli,
Ancaq naxışımdır yanlışım mənim[3]

Bəxtiyar Vahabzadə milli ruhla dolu olan bir şair idi. Onu xalqa sevdirən və şeirlərini yaşadan da məhz bu səbəb oldu.

Bəxtiyar Vahabzadənin şəxsi keyfiyyəti olaraq adlandıra biləcəyimiz duyğu dolu hisslərinin sərrast sözləri ilə cilovlayan, milli şeiri milli ruhu ilə çatdıran şair sözləri ilə bütövlük təşkil edir. Hələ sovet siyasi idarəçiliyinin ən güclü olduğu dönəmlərdə Bəxtiyar Vahabzadə Azərbaycan türklərinin qəlb yanğısını, milli dərdini ifadə edəcək "Gülüstan" poemasını yazdı. O zamankı şərtlər səbəbi ilə poema əlyazma nüsxəsində yayılmağa başladı.

[1] Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, Öndər, 2004, s.10.
[2] Atalar sözü. Bakı, Yazıçı, 1985 s. 98
[3] Yenə orda s.117.

Uzun müddət sonra da bizim orta məktəb illərində poemanı əlyazma nüsxədən çoxaldıb həmyaşıdlarımız arasında paylaşırdıq. Xalq poemanı sadəcə bir ədəbi nümunə örnəyi olaraq qarşılamadı. "Gülüstan" doğma Vətənə həsrətin simvoluna çevrildi. Oxucu onu bağrına basdı, milli ruha kökləndi. Şair xalqın ruhunu oxşarcasına dərdini poetik bir dildə ifadə edir. Bu poema heç şeirlə, şairlə əlaqəsi olmayan insanlar tərəfindən də maraqlı hadisə kimi qarşılandı. Şairi hər təbəqədən və hətta siyasi düşüncədən olan insanlar da tanıyaraq dəstəklədi. Tarixin keşməkeşli dövrünü milli düşüncə aspektində səsləndirən poema vasitəsilə şair xalqın azadlıq ruhunu, milli hislərini, birlik və bütövlük əzmini gücləndirmiş oldu. 1959-cu il sovetlər ittifaqının istər siyasi, istərsə ideoloji təbliğatı çox güclü idi. Belə bir dönəmdə milli mövzuda söz demək və "sovet insanı" meyarını ədəbi yaradıcılıqla dəyişdirmək cəhdi hər kəsin hünəri deyildi. Məhz bu səbəblərdən Bəxtiyar Vahabzadə xalqın milli şairinə çevrildi. O, "Gülüstan" poemasının ikinci hissəsində deyir:

Yazmışdım mən onu düz qırx il qabaq.
O vaxtdan bu yana çox sular axdı...
Üsullar dəyişdi, gedən bıçaqla,
Gələn pambıq ilə kəsdi başları[1]

"Pambıqla baş kəsir" ifadəsi xalq arasında qəddar, fırıldaqçı adamlar üçün işlənən ifadədir. Şair zəmanənin, siyasi rejimin amansızlığını qısa şəkildə xalq deyimi ilə izah edir.

Bəxtiyar Vahabzadə yaradıcılığında sınamalardan istifadə olunması da olduqca maraqlıdır. Şair "Soğan" şeirində təbiət hadisəsini, xalq yaradıcılığı nümunəsi sınamanı poetik dillə sosiallaşdırır.

Soğan qabığına baxdı, düşündü.
Başını buladı,
O, mənə döndü.
Dedi: - Sərt olacaq qış, bu il yaman
Dedim: - Nədən bildin?
Dedi: - Qabıqdan.
Qalındır,
Deməli,
Sərt keçəcək qış[2]

Bu dialoq folklorik inancın ictimai məzmun qazanmasını ifadə edir. Şairin söz boğçasında "Nəsənsə, özün ol" şeiri zamanla nəsilləri dəyişən və haçalanan fikirləri müzakirə xarakteri ilə təqdim edir.

Biz öz atamıza deyərdik bir vaxt:
"Unutma, hər günün öz hökmü var ha!.."
İndi oğlumuza deyirik ancaq,
"Gəl təzə nırx qoyma köhnə bazara"[3]

"Köhnə kəndə təzə nırx qoyma"[4] atalar sözü xarakter etibarilə mühafizəkarlığı xatırladıcı ifadədir. Buradakı işlənmə yeri özündən sonranı inkar və ya özündən əvvəli görüb formalaşdırmaqdır. Şair sözü şeirdə tərbiyyəvi hissləri aşılamaqdadır. Hətta bu şeirdə Bəxtiyar Vahabzadə aşıq Abbas Tufarqanlıdan nümunəni köklü-köməcli xalq yaddaşı kimi təqdim edir.

Əzəldən belədir, övladlarından
Atalar həmişə gileylənibdi[5]

Sonrakı Aşıq Abbas Tufarqanlının "Bəyənməz" rədifli qoşmasından bir bəndi təqdim edir.

"Ay həzarat, bir zəmanə gəlibdir,
Ala qarğa şux tərlanı bəyənməz.

[1] Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, Öndər, 2004, s.82.
[2] Yenə orda s. 266
[3] Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, Öndər, 2004, s. 36.
[4] Atalar sözü. Bakı, Yazıçı, 1985 s.445.
[5] Yenə orda s. 36.

Oğullar atanı, qızlar ananı,
Gəlinlər də qaynananı bəyənməz..."[1]

Sair;

Atamız deyərdi bunu bir zaman,
İndi biz deyirik övladımıza[2]

Ənənəçilikdən filoloji məzmun qazanan və və aşıq şeirinin mövzusu olan adətlər şairin yaradıcılığında bir daha tarixi dəyər statusu ilə qabardılır. Diqqətçəkici məqam odur ki, şair minillik yaddaş dayanağı olan atalar sözünü şeirlərində "sözünə qüvvət" möhürü olaraq yerli yerində sərrast ifadələrlə işlədir.

Gülmə öz kökünə, ayıbdır sənə!
"Ot kökü üstündə bitər, unutma,
Köhnə damğasını vurub atana,
Özgədən özünə sən ata tutma![3]

Şeirin ikinci bəndi "Ot kökü üstə bitər"[4] atalar sözü, dördüncü bəndin təsirli və vurğulu möhürü olaraq işlənmişdir. "Nəsənsə özün ol" şeirinin sonuncu misraları göstərir ki, şairin öz kəlamları deyim və atalar sözü xarakteri ilə folklorlaşır.

Nəsənsə, özün ol,
Kökündən yapış!
Dünənə arxalan,
Bu gündən yapış![5]

Bəxtiyar Vahabzadə yaradıcılığında dünya, zaman, vaxt anlayışı fəlsəfi notlar üzərində köklənmişdir.

Əzab adlı dəyirmandan narın çıx,
Keçəcəksən ələyindən dünyanın...[6]
Deyən şair realist və müdrik düşüncə ilə sonluğu da göstərir.
Arxasınca palaz kimi sürüdər
Bərk yapışsan ətəyindən dünyanın.[7]

1977- ci ildə qələmə aldığı "Dünyanın" şeirindəki bu misralarda 52 yaşlı müdrik insan tablosu görünməkdədir. Xalq arasında kəskin ifadə olaraq işlədilən "dünya fani, ömür fani", "Dünyaya çox da bel bağlama və ya ətəyindən yapışma, arxasınca iynə ipliyi olma, palaz kimi sürünmə" şairin poetik dilində ayrıca bir anlam qazanır.

Bəxtiyar Vahabzadə yaradıcılığının bir qolunu da onun publisist və elmi-nəzəri məqalələri təşkil edir. Şair "Dərin qatlara işıq" məqaləsində dilçiliyimizin problem məsələlərinə toxunur və söz yaradıcılığındakı üslubun, ədəbi məktəbin əsasının məhz xalq dilindən qaynaq alınmasına diqqəti çəkir. Müəllif yazır: "Ədəbi dil, xalq dili əsasında yaranır. Lakin bəzən biz qələm sahibləri sözləri darayıb, cümlələri elə ütüləyirik ki, bu "darama" və "ütüləmə" bizi xalqın ətli-canlı, dadlı-duzlu, səsli-nəfəsli dilindən uzaqlaşdırır. Nəticədə dilimizi candan-qandan, rəngdən –nəfəsdən, daddan-duzdan məhrum edilir, soyuq, quru dəftərxana dilinə çevrilir. Məsələn, aciz, bacarıqsız bir adamı quru dəftərxana dili ilə belə xarakterizə etmək olar: "Filankəs çox aciz adamdır. Sözü tutarsız və təsirsizdir. Sözü heç kəsin yanında keçməz, nüfuzu və hörməti yoxdur. Bacarıqsızdır" və s...

Bu uzun sicilləmələrin əvəzinə, bircə cümlə "Ağzı qatıq kəsmir" xalq ifadəsini işlətsək, həmin adamı daha dəqiq və daha gözəl xarakterizə etmiş olarıq. Belə xalq ifadələrinin gücü bir də orasındadır ki, bunlar tərcüməyə gəlmir. Tərcüməsi mümkün olmayan söz və ifadələr onu yaradan xalqın

[1] Yenə orda s. 36.
[2] Yenə orda s. 36.
[3] Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, Öndər, 2004, s. 37.
[4] Atalar sözü. Bakı, Yazıçı, 1985, s. 525.
[5] Yenə orda s. 38
[6] Yenə orda s. 283
[7] Yenə ordan s. 283

ruhundan, zövqündən, düşüncə tərzindən, adət və vərdişindən, həyat və məişətindən doğmuş ifadələrdir. Ruh və zövq, adət və vərdişlər isə heç vaxt tərcümə oluna bilməz[1].

Bəxtiyar Vahabzadə milli dəyərlərə bağlı qoruyucu bir ziyalı idi. O, yaxşı dərk edirdi ki, əsarətdə olan Azərbaycan türkləri üçün azadlığın yolu məhz milli dəyərlərinə, keçmişinə bağlılıqdan keçəcəkdir. Bu baxımdan şair C. Məmmədquluzadənin yaradıcılığındakı milli qoruyuculuq meillərini elmi təhlillə izah edərək öz fikirlərini də əlavə edirdi. O, yazır: "İnsan öz kökünü, öz əslini, yəni öz-özünü inkar edəndə yaşaya bilər, lakin özünü yaşamaz, özgəni yaşayar, bir sözlə, öz sifəti, öz varlığı olmaz. Beləsindən nə insanlıq ummaq olar, nə mədəniyyət, nə fərli bir fikir, nə fərli bir söz. "Əslini danan haramzadadır", "ördək qaz yerişi yeridi, paçaları aralı qaldı", "ot kökü üstə bitər" və s. atalar sözləri özünüdanma xəstəliyinə atəş açan atalarımızın müdrikliyinin ifadəsidir. Özünü sevməyən, özünü bəyənməyən, özgəsini necə sevə bilər, necə bəyənə bilər? Bu, elə böyük bir həqiqətdir ki, bunun heç bir izaha, heç bir təhlilə ehtiyacı yoxdur[2]. Göründüyü kimi, şair milli dəyər statusu qazanmış keçmiş ənənəçiliyə sadiqdir.

Xalq şairi, milli şair, söz ustadı Bəxtiyar Vahabzadənin şəxsiyyəti yaradıcı ruhu ilə vəhdətdə görünür. Şeir dünyası xalqın söz xəzinəsinə dayanan şairin öz misralarını elə ona xitabən ifadə etmək gərəkir: "varlıq səsidir, qopmuş o, türkün qopuzundan[3].

«D D QORQUD» MOT VL R MÜAS R AZ RBAYCAN POEZ YASINDA V B.VAHABZAD YARADICILI INDA

Yegan N hm tulla qızı smayılova

Bakı Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
yegane-n@mail.ru

XÜLAS

Məqalədə aparılmış tədqiqat göstərir ki, Azərbaycan şairləri «Dədə Qorqud» motivlərinə geniş şəkildə müraciət etmişlər. Qorqud ədəbi ruhu həmişə var olmuş, daim milli poetik düşüncəni qidalandırmışdır. XX əsrin birinci yarasında «Kitabi-Dədə Qorqud» eposunun çap olunaraq cəmiyyətimizdə məşhurlaşması yaranan «Dədə Qorqud» coşqusu müasir ədəbiyyatımızda bu günə kimi davam etməkdədir. Müasir poeziyada «Kitabi-Dədə Qorqud» motivlərindən istifadə ənənəsi daha sonra dövrün ab-havasına uyğun olmuşdur. Repressiyalar dövründə ona maraq zəifləmiş, lap sönmüş, sonralar yenə güclənmişdir. «Kitabi-Dədə Qorqud» mövzusu sovet dövrü Azərbaycan poeziyasında 50-ci illərdən başlayaraq getdikcə genişlənmiş, çoxlu şeir və poemalar yazılmışdır. B.Vahabzadə, N.Xəzri, İ.Səfərli, H.Arif, A.Abdullazadə, Hidayət, V.Cəbrayılzadə, N.Kəsəmənli, R.Z.Xəndan və b. şairlər «Dədə Qorqud» motivləri əsasında maraqlı poeziya nümunələri yaratmışlar.

THE MOTIVES OF "DEDE GORGUD" IN MODERN AZERBAIJANIAN POETRY AND B.VAHABZADE CREATIVITY

SUMMARY

The research carried out in the article makes it clear that Azerbaijanian poets widely used the motives of "Dede Gorgud" in their creation. After publication in the first half of the XX century the epos became popular and was a source of inspiration for skill reciters. Traditions of use the motives of "Dede Gorgud" in modern poetry complied with the atmosphere of the period. During the repressions the interest to the epos eased, almost faded, but later it intensified. From the fifties of the XX century the theme "Kitabi-DedeGorgud" in Azerbaijanian poetry of the Soviet period gradually broadened; a lot of rhymes, poems were written. B.Vahabzada, N.Khazri, I.Safarli, H.Arif, A.Abdullazada,

приобрел большую популярностü и послужил источником вдохновения для мастеров слова. Традиöия использования мотивов «Деде Коркуд» в современной поэçии в дальнейшем соответствовала атмосфере времени.

В период репрессий интерес к эпосу ослаб, почти угас, позднее же усилился. Начиная с 50-х г.г. XX в. тема «Китаби-Деде Коркуд» в аçербайджанской поэзии советского периода постепенно расширяется; пишется множество стихотворений, поэм. Б.Вагабçаде, Н.Хазри, И.Сафарли, Х.Ариф, А.Абдуллазаде, Хидаят, В. Джабраилзаде, Н.Кесеменли, Р. З.Хандан и другие аçербайджанские поэты соçдали интересные образсы поэзии по мотивам эпоса «Деде Коркуд».

«Kitabi-Dədə Qorqud» dastanlarının müasir Azərbaycan ədəbiyyatına təsiri probleminin ən çətin və ən mürəkkəb hissəsini dastanın motivlərinin müasir poeziyada necə inikas olunması təşkil edir. Çətinlik ilk növbədə materialın son dərəcə çoxluğu ilə bağlıdır. Azərbaycan poeziyası həmişə məzmun baxımından olduğu kimi, kəmiyyət cəhətindən də zəngin olmuşdur. Şairlərimizin, demək olar ki, hər biri öz yaradıcılığında «Dədə Qorqud»la bağlı hansısa poetik detaldan istifadə etmişlər. Bunun belə olması təbiidir. «Dədə Qorqud» xalqımızın bədii düşüncəsində əbədi yaşayan poetik ruhdur. Şairlərin təxəyyülündə ilhamın oyanması tarixən bu ruhun da oyanması ilə müşayiət olunmuşdur. Qorqud ədəbi ruhu həmişə var olmuş, daim milli poetik düşüncəni qidalandırmışdır. XX əsrin birinci yarasında «Kitabi-Dədə Qorqud» eposunun çap olunaraq cəmiyyətimizdə məşhurlaşması bu ruhu şairlərin təxəyyülündə kütləvi şəkildə coşdurdu. Həmin coşqu müasir ədəbiyyatımızda bu günə kimi davam etməkdədir.

Maraqlıdır ki, müasir Azərbaycan ədəbiyyatında «Dədə Qorqud» motivlərinin bədiiləşdirmə təcrübəsi Ə.Dəmirçizadənin keçən əsrin 40-cı illərində yazdığı «Dədə Qorqud» librettosu və «Qaraca Çoban» pyesi ilə başlandığı kimi, bu sahədə şeir yaradıcılığı da elə onun özünə məxsusdur. Şeirləri keçən əsrin 20-ci illərinin sonundan qəzet səhifələrində çap olunan Ə.Dəmirçizadə «Dədə Qorqud» motivləri üzərində yazdığı dram əsərlərində şeirlərdən də istifadə etmişdir. Alim-ədib bu şeirləri bəzən müstəqil əsərlər kimi mətbuatda da çap etdirmişdir (bax: 1).

Müasir poeziyada «Kitabi-Dədə Qorqud» motivlərindən istifadə ənənəsi daha sonra dövrün ab-havasına uyğun olmuşdur. Repressiyalar dövründə ona maraq zəifləmiş, lap sönmüş, sonralar yenə güclənmişdir. Ümumiyyətlə isə «Dədə Qorqud» Azərbaycan ədəbiyyatın heç vaxt tərk etməmişdir. Tədqiqatçı G.Babaxanovanın yazdığı kimi, «Dədə Qorqud kitabı» və 20-30-cu illər Azərbaycan sovet poemaları (ümumən poeziyası-Y.İ.) arasında mövzu, motiv, obraz, ideya, bədii ifadə vasitələri baxımından istənilən qədər paralellər aparmaq, səsləşmələr, bəhrələnmələr, təsirlənmələr aşkara çıxarmaq mümkündür» (2, s. 63-64).

N.Ələkbərli göstərir ki, «Kitabi-Dədə Qorqud» mövzusu sovet dövrü Azərbaycan poeziyasında 50-ci illərdən başlayaraq getdikcə genişlənir, çoxlu şeir və poemalar yaranır. B.Vahabzadənin, N.Xəzrinin, İ.Səfərlinin, H.Arifin, A.Abdullazadənin, Hidayətin, V.Cəbrayılzadənin, N.Kəsəmənlinin, R.Z.Xəndanın və b. şairlərin yaradıcılığında «Kitabi-Dədə Qorqud» motivlərinə çox rast gəlirik.

N.Ələkbərli eposun ədəbiyyata təsirinin çoxplanlı, mürəkkəb və geniş tədqiqat tələb edən iş olmasına işarə edərək göstərir ki, ədəbiyyatımızda «Kitabi-Dədə Qorqud» təsiri təkcə birbaşa deyil, həm də dolayısı ilədir. «Kitabi-Dədə Qorqud» poeziyasının, nəsrinin, bədii-fəlsəfi hikmətinin, orijinal poetikasının təsiri bir çox sənətkarların yaradıcılığında öz izlərini qoymuşdur. Bu təsirin izlərini onlarca şeirdə, hekayədə, miniatür və epik əsərlərdə müşahidə etmək mümkündür (3, s.16).

Maraqlıdır ki, Azərbaycan poeziyasında xüsusilə görkəmli şairlərin yaradıcılığında «Dədə Qorqud» motivlərindən istifadə kiçik janrlardan (şeirlərdən) monumetal janrlara (poemalara) doğru istiqamət götürmüşdür. Bu cəhətdən B.Vahabzadə, N.Xəzri, B.Səhənd, A.Abdullazadə, Z. Yaqub, N.Kəsəmənli, V.Aslan və b. şairlər Dədə Qorqud ruhunda təkcə kiçik həcmli şeirlər yox, eləcə də iri poemalar yazmışlar. Ədəbiyyatdakı bu prosesi bir dalğa hesab edən tədqiqatçı H.Həşimli göstərir ki, «Kitabi-Dədə Qorqud» motivlərinin yazılı ədəbiyyatda yeni bir dalğa ilə qüvvətlənməsi... (XX əsrin-Y.İ.) 70-ci illərindən başlanır. Bunun müəyyən obyektiv və subyektiv səbəbləri də vardır. O doğrudur ki, dastan Azərbaycanda ilk dəfə altmış il bundan əvvəl çap edilmiş, lakin stalinizm dövründə yayılmamış, qərəzli münasibətə hədəf olduğundan ədəbi prosesə təsirsiz qalmış, yalnız 60-cı illərdən sonra dastan yenidən ədəbi həyatda öz qanuni yerini bərpa etməyə başlamışdır.

«Kitabi-Dədə Qorqud» dastanlarının müasir Azərbaycan poeziyasına təsirinin səciyyəvi cəhətlərinin öyrənilməsi baxımından görkəmli Azərbaycan şairi S.Vurğunun yaradıcılığı diqqəti çəkir. Bu, «folklor və ədəbiyyat» məsələsidir. Ümumiyyətlə, «Kitabi-Dədə Qorqud»un hər hansı şairin, yazıçının yaradıcılığına təsiri məsələsi, folklor və ədəbiyyatın qarşılıqlı əlaqələri, prof. A. Hacılının yanaşmasından göründüyü kimi, tarixi poetikanın inkişafının folklor və ədəbiyyat mərhələlərinin qarşılıqlı münasibətləri ilə əlaqədardır (4, s. 12). Bu üzdən «Kitabi-Dədə Qorqud» eposunun S.Vurğunun yaradıcılığına təsiri daha böyük təsirin - ümumən milli folklorumuzun şairin yaradıcılığına təsirinin içindədir. Sonuncu təsir isə tədqiqatçıların göstərdiyi kimi şairin yaradıcılığında güclü şəkildə müşahidə olunur. Belə ki, «S.Vurğun bütün yaradıcılığı boyu xalq yaradıcılığının rəngarəng nümunələrindən məharətlə istifadə etmişdir. Şifahi xalq ədəbiyyatı, onun ideya və bədii xüsusiyyətləri, ondan istifadə yolları haqqında qiymətli fikirlər söyləmişdir» (5, s. 5). «Səməd Vurğun xalqın tarixinə, folkloruna... olduqca böyük diqqətlə, hörmətlə yanaşan bir insan olub» (6, s. 235). Görkəmli şair-ədib özünün ədəbi-tənqidi yaradıcılığında da milli-mənəvi irsə, folklora xüsusi yer vermişdir: «S.Vurğun ayrı-ayrı sənətkarların poetik fikir aləmindən, yaradıcılıq xüsusiyyətlərindən bəhs etməklə bərabər, ədəbi abidələrimizdən də söz açmış, onların mahiyyətini, ideya və spesifikasını açıqlamağa çalışmışdır. «Avesta», «Dədə Qorqud» kimi misilsiz abidələrin, mənəvi təcrübəmizin, milli təfəkkürümüzün təşəkkülündə, estetik düşüncənin formalaşmasında oynadıqları rolu şərh etmişdir» (7, s. 245). «Səməd Vurğun ədəbiyyata xalq yaradıcılığından, aşıq şeirindən gəldi. O, ilk yaradıcılığında belə, aşıq şeirində olduğu kimi, qeyri adi və böyük fikirləri adi, sadə və səmimi şəkildə deməyi bacardı... Onun şeirlərindəki sadəlik və səmimiyyət, əlbəttə, söykəndiyi xalq ədəbiyyatından gəlir. Buna görə də S.Vurğun xalq şeirinin yalnız formasından deyil, məzmunundan da sənətkarcasına istifadə etməyi bacardı» (8, s. 177). «S.Vurğun folklorla, xüsusilə aşıq yaradıcılığı ilə yaxın təmasda olmuş sənətkar idi. O, dünyaya gözlərini açandan saz səsi, aşıq oxuması eşitmiş, qucağında boy atdığı dünyanın yazılmamış qanunların, minillərlə funksional olmuş əxlaqi davranış modellərini aşıq məclislərində eşitmiş, dastan gecələrində mənəviyyat dərslərini almışdı» (9, s. 78). Sənətkarın folklora bağlılığı onun yaradıcılığında iki istiqamətdə inikas olunmuşdur: «1. Səməd Vurğunun poeziyasında ümümtürk mifoloji təsəvvürlərinin əksi; 2. Şairin soykökündən, əcdadların qan yaddaşından gəlmə türklük ruhunun ifadəsi olan ənənələrə münasibəti» (10, s. 182). S.Vurğunun yaradıcılığında əfsanə - folklor ilə həqiqətin çarpazlaşması onun əsərlərinin bədii dəyərlərini daha da artırmaqla yanaşı, onun yaradıcılığına «zamanla səsləşə bilən yeni məzmun gətirir» (11, s. 206).

Şair öz obrazlarını yaradarkən «Kitabi-Dədə Qorqud» dastanının obrazlar sistemindən metaforik vasitə kimi istifadə etmişdir. Prof. C.Abdullayevə görə sənətkarın «Fərhad və Şirin» poemasındakı Azər baba obrazı Dədə Qorqudu xatırladır. Alim belə hesab edir ki, Qorqud dədənin obrazı poemada Azər baba və müdrik Ozan obrazları arasında «bölünmüşdür». O yazır ki, Azər babanın müdrikliyi ilə Ozanın sazı və sözü sanki bir-birini tamamlayır və bizə elə gəlir ki, şair, ehtimal ki, bunları simvolik şəkildə mənalandıraraq, ağlı, idrakı, təcrübəni, müdrikliyi Azər babanın, mahnı, musiqi və incəsənəti isə Ozanın timsalında vermişdir. Lakin hər halda «Azər baba, üstə gəl Ozan, bərabərdir Dədə Qorqud» (Azər baba + Ozan = Dədə Qorqud) düsturuna mənaca haqq qazandırmaq mümkündür (12, s. 131-132).

Əlamətdardır ki, Azərbaycan şairlərinin yaradıcılığında «Kitabi-Dədə Qorqud» motivlərindən istifadə bütün hallarda milli-mənəvi dəyərlərlə bağlıdır. Şairlər eposa bu dəyərlərin qaynağı kimi müraciət etmişlər. Bunun belə olması isə qanunauyğun idi. Çünki «Kitabi-Dədə Qorqud» boylarında, tədqiqatçı İ.Rüstəmovun yazdığı kimi, «səxavət, qeyrət, sədaqət, ədalət, humanizm, gözəlliyin tərənnümü, musiqinin mahiyyəti, azadlıq problemi, sadə insanların səciyyəsi, ana müqəddəsliyi, vətənpərvərlik, doğruçuluq, əxlaqi saflıq, etibar kimi bəşəri problemlərlə qarşılaşırıq» (13, s. 18). Eposdakı bu milli-mənəvi, milli-əxlaqi keyfiyyətlər onun Azərbaycan xalqının etnik-psixoloji xüsusiyyətlərini inikas edən abidə olması ilə bağlıdır. Prof. Ə.Bayramov yazır ki, «Dədə Qorqud» dastanlarında öz əksini tapan etnik xarakter əlamətləri ümumən oğuz etnosunun «psixi sima»sının aynası kimi çıxış edir (14, s. 27).

Əslində, şairlərimizin, yazıçılarımızın eposa coşqun marağının əsasında elə bu amil durur. Özünü bir milli şəxsiyyət və sima kimi axtaran, milli özünütəsdiq ideyaları üçün alışıb-yanan ya-

radıcı subyektlər bütün bu ideya və idealları məhz «Kitabi-Dədə Qorqud» dastanlarında tapırdılar. Bu cəhətdən görkəmli şair B.Vahabzadənin dastanın obraz və ideyalarından istifadəsinin kökündə məhz milli ideyalar, milli özünütəsdiq idealları dururdu. Əlbəttə ki, S.Vurğun yaradıcılığı gözəl şairimiz B.Vahabzadəyə böyük təsir etmişdir.

«Azərbaycan oğluyam» şeirində «anasının torpaq», «atasının od olduğunu» və «oddan yarandığını» milli özünütəsdiqin ən ali və ülvi səviyyəsi kimi bəyan edən B.Vahabzadə milli varlığımızın «hünər» keyfiyyətini vəsf edərkən «Kitabi-Dədə Qorqud»dan məşhur adalma motivinə istinad etmişdir:

Hünər göstərməyincə
Adsız yaşamışam mən.
Dədəm Qorqud ad verdi
Mənə öz hünərimdən (15, s. 197)

Şair Qarabağ atını tərənnüm edərkən onu elimizin igidlik simvolu səviyyəsinə qaldırır və bu zaman ulu Bayadur xanı yada salır:

Qarabağın kürən atı -
Döyüşlərdə arxasıdır
Koroğlunun,
Bayandurun (16, s.46)

Başqa bir (adsız) şeirində ulu Dədə Qorqud sənətkarın onun ürəyini içəridən didən fikirləri, milli arzu və istəklərini bölüşdüyü həmsöhbət - həmdərddir:

Tutuşmuşam, çaxmaq yoxdur alışmağa.
Qaynayıram, təpərim yox, nə coşmağa, nə daşmağa.
Ürəyimin sözlərini oba-oba danışmağa
Dədə Qorqud timsalında ozan ola,
Bir qəribə yuxu gördüm, istəyimcə yozan ola! (16, s. 46)

B.Vahabzadənin "Özümüzü kəsən qılınc" pyesi "Dədə Qorqud" dastanlarındakı motivlər əsasında yazılmışdır. Pyesin əsasında qədim türk tayfaları arasındakı düşmənçilik və müharibələr mövzusu durur: özümüzü kəsən qılınc məhz budur. Şair tarixi mövzu ilə xalqımızı birliyə çağırır, tayfaçılıq və yerliçilik kimi eybəcər halların xalqımızın gələcəyi üçün təhlükə olduğunu vurğulayır.

Böyük şairin poeziyasında dastana bütün hallarda milli dəyərlər aspektində müraciət etməsinin səbəbləri onun bir məqaləsində belə izah edilmişdir: «Hər bir xalq üçün öz kökünü, ilkini və qaynağını bilmək vacibdən vacibdir. Ona görə ki, hardan gəldiyini bilməyən hara gedəcəyini də bilməz. Bu gün böyük xarüqələr yaradan, qəhrəmanlıqlar göstərən xalqımız bu qüdrəti və bu gücü haradan almış - deyə düşündüyümüz zaman keçmişə baxır, ilkimizi araşdırmalı oluruq. Bugünkü qəhrəmanlar kökləri əsrlərin dərin qatlarına işləyən nəhəng bir ağacın əsrimizdəki budaqlarıdır. Bu ağacın adı «Qorqud» ağacıdır (17).

Müasir Azərbaycan poeziyasında elə məqamlar var ki, birbaşa «Dədə Qorqud» poetik ruhunun varlığına bağlıdır (onun ifadəsidir). Belə şeirlərdə «Dədə Qorqud» zahiri planda olmasa da, bir ruh, daxildən, arxaik yaddaşdan gələn enerji simvolları kimi poetik mətnə daxil olur. Tədqiqatçı G.Əliyeva bu barədə Azərabycan poeziyasında xüsusi poetik üsluba malik olan B.Vahabzadə poeziyasının nümunəsində yazır: «70-90-cı illər poeziyasında Dədə Qorqud boylarından əksər hallarda ritorik və patetik istiqamətdə deyil, estetik yönümdə istifadə edilmiş, dastanların heyrətamiz sənətkarlıq xüsusiyyətləri çağdaş poetik fikrimizi zənginləşdirmişdir.

Azərbaycan şairləri «Dədə Qorqud» motivlərinə geniş şəkildə müraciət etmişlər. Qorqud ədəbi ruhu həmişə var olmuş, daim milli poetik düşüncəni qidalandırmışdır. XX əsrin birinci yarasında «Kitabi-Dədə Qorqud» eposunun çap olunaraq cəmiyyətimizdə məşhurlaşması yaranan «Dədə Qorqud» coşqusu müasir ədəbiyyatımızda bu günə kimi davam etməkdədir.

D B YYAT

1. Dəmirçizadə Ə. Su («Dədə Qorqud» librettosundakı şeirlərdən biri) // Abşeron, 1968, 14 dekabr
2. Babaxanova G. 1920-30-cu illər Azərbaycan poemalarının «Dədə Qorqud» dastanı ilə bağlılığı // «Dədə Qorqud» jur., 2007, № 2, s. 60-64

3. Ələkbərli N. «Kitabi-Dədə Qorqud» Azərbaycan ədəbiyyatında // «Azərbaycan» cur., 1999, № 9, s. 13-17
4. Гаджиев А. Поэтика современной проcы. Баку: Мутарджим, 1997, 204 с.
5. Əfəndiyev P. Səməd Vurğun və xalq yaradıcılığı. Bakı: Yazıçı, 1992
6. Məmmədli İ. Səməd Vurğun və Kəlbəcər ədəbi mühiti / XX əsr Azərbaycan ədəbiyyatı məsələləri (məqalələr toplusu). II kitab. Bakı: Elm, 2008, s. 229-237
7. Bağırlı A. Səməd Vurğunun ədəbi-tənqidi irsində milli-mənəvi irs problemi / XX əsr Azərbaycan ədəbiyyatı məsələləri (məqalələr toplusu). II kitab. Bakı: Elm, 2008, s. 238-248
8. Vahabzadə B. Folklor və S.Vurğun poeziyası / Vahabzadə B. Əsərləri. 12 cilddə, X c. Bakı: Elm, 2009, s. 172-185
9. Həkimov M., Rzasoy S. Yaddaş və şəxsiyyət. Bakı: Səda, 2004, 130 s.
10. Əliyev F. Səməd Vurğun poeziyasında soykökünə məhəbbətin tərənnümü / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VIII kitab. Bakı: səda, 1999, s. 182-186
11. Namazova N. Səməd Vurğunun «Ayın əfsanəsi» poeması və xalq əfsanələri / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. IX kitab. Bakı: Səda, 2000, s. 197-206
12. Abdullayev C. Səməd Vurğun və «Kitabi-Dədə Qorqud» dastanı / Dədə Qorqud – 1300. Bakı: Bakı Universiteti Nəşriyyatı, 1999, s. 125-134
13. Rüstəmov İ. «Dədə Qorqud»da insan gözəlliyi. Bakı: «Bilik» Cəmiyyəti, 1978, 48 s.
14. Bayramov Ə. «Kitabi-Dədə Qorqud» dastanlarında etnik-psixoloji xüsusiyyətlərin inikası. Bakı: Nurlan, 2000, 148 s.
15. Vahabzadə B. Əsərləri (1960-1969). 12 cilddə, II c. Bakı: Elm, 2008, 616 s.
16. Vahabzadə B. Açılan səhərlərə salam. Bakı: Yazıçı, 1979, 230 s.
17. Vahabzadə B. Qorqud obrazı və tarixi-ictimai hadisələr // «Ədəbiyyat və incəsənət» qəz., 1979, 29 iyun,

B XT YAR VAHABZAD N N ERL R N N RUS D L N T RCÜM M S L L R

Ofelya smayilova

AMEA Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçisi
ismayilova-ofelya@mail.ru

XÜLAS

Məqalədə Azərbaycanın görkəmli şairi Bəxtiyar Vahabzadənin poeziya nümunələrinin rus dilinə tərcüməsi xüsusiyyətləri nəzərdən keçirilir. Vətən sevgisi, türkçülük ideyaları Bəxtiyar Vahabzadə şeirlərində özünəməxsus poetik boyalarla təqdim olunmuşdur. Azərbaycan ədəbiyyatının məşhur şairi Bəxtiyar Vahabzadə poetik forma baxımından vətənpərvərlik, məhəbbət lirikası, insan və zaman haqqında düşüncələr, sənətkarlıq məsələləri ilə yanaşı, xalqın keçmişinə, bu gününə və sabahına aid olan problemləri də arayır, onların yaxşı və pis cəhətlərini qiymətləndirir. Bəxtiyar Vahabzadə milli özünədərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına dəyərli töhfələr vermişdir. Millətlərin başına gətirilən qanlı hadisələr, azadlıq mübarizəsinin boğulması, böyük şəxsiyyətlərin bu hadisələrə münasibəti ustad sənətkarın diqqət mərkəzində olmuşdur. Həyatımızda və zamanda olan ziddiyyətlər, mənəvi sarsıntıların təsviri, pak və ülvi hisslərin tərənnümü B.Vahabzadə yaradıcılığında öz təcəssümünü tapmışdır. Zaman və müasir insan, zaman və yoxluq, insan və ölüm səltənəti arasındakı təzadlar onu narahat edirdi. Bu mövzularla bağlı olaraq məqalədə şairin "Şəhidlər", "Saray-daxma", "Kaman nalə çəkir", "Son görüş", Baş daşında saat" və digər əsərlərinin rus dilinə tərcüməsi məsələsi öyrənilir.

Açar sözl r: B.Vahabzadə, türk, tərcümə, şeir.

Hər cür bəxtiyarlığa layiq olan ulu bir xalqın - Azərbaycan xalqının vətənpərvər ziyalısı, Xalq şairi, türk xalqlarının sevimlisi Bəxtiyar Vahabzadə (1925-2009) özünün hərtərəfli parlaq yaradıcılığı ilə xalqımızın dərin məhəbbətini qazanmışdır. Azərbaycan xalqının, dünya türklərinin bəxtiyarlığını hamıdan çox istəyən, ömrünü Vətən yolunda şam kimi əridən şair şirəsi el ədəbiyyatından, ətri Vətən torpağından, ruhu xalqın ürəyindən gələn əsərlərləri ilə insanları el yolunda oda, alova atılmağa səsləyirdi. O, Nazim Hikmətin «Sən yanmasan, mən yanmasam, o yanmasa, necə çıxar qaranlıqlar aydınlığa?» çağırışına qoşularaq «Yaşamaq yanmaqdır, yanasan gərək» - deyirdi.

Bəxtiyar Vahabzadə poeziyasının əsas missiyası sözün qüdrətini, gücünü insanlara çatdırmaq idi. Bu poeziyada keçmişimiz də, bu günümüz də, gələcəyimiz də, sevincimiz-kədərimiz də, zaman da, səma də, həqiqət də, xəyal da əks olunub, məhəbbət qanadlanıb uca səmalara, dağlara, göy dənizlərə pərvaz edib. Coşqun fikir selləri, odlu duyğular, fəlsəfi dərinlik onun şeirlərinin əsas leytmotividir. Türkün dilinə, tarixinə qəsd edənlərlə açıq döyüşməkdən çəkinməyən şair «Tanrı türkü qorusun» adlı şerində belə söyləyir:

Tarixlə bir yaşdadır
Bizim tarix yaşımız.
Nədən səni qorxudur
«Tanrı türkü qorusun» -
Duamız, alqışımız?

İnsana məslək və amal gətirən Vətən sevgisi Bəxtiyar Vahabzadə şeirlərində özünəməxsus poetik boyalarla naxışlanır. Onun poetik dünyasında Vətən anlayışı olduqca genişdir. Doğma torpağa bağlılıq, Vətən qarşısında övladlıq borcu, yüksək vətəndaşlıq, mərdanəlik və ülvi məhəbbət hissləri onun bütün yaradıcılıq ruhunu ifadə edir.

Bildiyimiz kimi, 90-cı illər Azərbaycan poeziyasının vətənpərvərlik ruhu, hər şeydən öncə, 20 yanvar hadisələrindən qaynaqlanır. Bu qanlı faciə poeziyamızın lirik ovqatını büsbütün «alt-üst» edərək onu yeni məcraya yönəldir. Bir tərəfdən bu mövzu dərd-hüzn kimi səslənsə də, digər tərəfdən qəhrəmanlıq, mübarizəlik simvoluna çevrilir.

Üsyankar söz ustadı, ömrü boyu ürəyi Vətən sevgisi ilə döyünən bir insan - Bəxtiyar Vahabzadə bu mövzuya müraciət etməmiş olmazdı. Dövrün ağır sınaq zamanında yazılmış «Şəhidlər» poeması vaxtında deyilmiş həqiqət idi və bu faciəni qələmə alan ilk şairlərdən biri də məhz Bəxtiyar Vahabzadə idi. O, bu həqiqəti vaxtı ilə «Gülüstan» poemasında da əks eləmişdi. Və şairin öz təbirincə desək, «azadlıq alınar, budur doğru yol, azadlıq verilmə

Deyir, biz götürdük, ey adi Allah,
Sən necə götürdün bu xəyanəti?!

Güllə səslərini çağa səsləri
Batırdı o gecə, şükür Allaha!
Doldu şəhidlərin boşalan yeri,
Naşükür olmayaq, vallah, bir daha![1]

Плывут гробы на согнутых плечах,
Плывут в потоке скорбные ковчеги.
И çреет гнев в çатмившихся очах,
Воçносят к небу ропот человека:
О, что çа горе, праведный твореö,
И это ли твое добро и милостü?
Мы вынесли погибелü и свинеö,
Но как душа твоя не омрачиласü?!

В ту ночü новорожденных первый крик
Глушит палüбу крутую понемногу.
И восполнял ущербный счет живых.
Так будем все же благодарны Богу![2]

Əsərin özü o dövrki siyasi həyatın mövcud vəziyyətindən necə təsiredici bədii lövhələr yaradırsa, bədii keyfiyyəti ilə seçilən bu tərcümə nümunələri də o qədər effektlidir. Gözəl şair, təcrübəli mütərcim C.Məmmədzadə və Ş.Ələkbərov həm orijinala sədaqət nümunəsi göstərmişlər, həm də bu böyük kədəri həssaslıqla, axıcı bir dillə, istedadının gücünə söykənərək yüksək bir formada rus oxucusuna çatdıra bilmişlər.

Azərbaycan ədəbiyyatının istedadlı şairi Bəxtiyar Vahabzadə poetik forma baxımından vətənpərvərlik, məhəbbət lirikası, insan və zaman haqqında düşüncələr, sənətkarlıq məsələləri ilə yanaşı, xalqın keçmişinə, bu gününə və sabahına aid olan problemləri də arayır, onların yaxşı və pis cəhətlərini qiymətləndirir. Oxucu da bu şeirlərdə özünün fəlsəfi mahiyyətini, intellektual təbiətini tapır. Şair gah oxucusunun hisslərini alovlandırır, onu heyranlıq içərisinə salır, gah da insanı zamanın real duyğuları ilə tanış edir və onu düşündürür.

Bu baxımdan görkəmli mütəfəkkir, yazıçı, böyük dramaturq M.F.Axundzadəyə həsr olunmuş «Saray-daxma» şeri çox səciyyəvidir. Şeirdə kiçik, dar daxmada doğulmuş böyük ürək sahibi Fətəli ilə işıqlı sarayda öz dövranını sürmüş xan həyatının təzadları təsvir olunur. Şair belə qənaətə gəlir ki, xan heç vaxt böyük sənətkarla tən gələ bilməz, zülmət daxmada doğulmuş Fətəli insanların ürəyində işıqlı saraylar yaradıb, xandan isə yalnız tikdirdiyi bircə saray qalıb. Şeiri rus dilinə istedadlı mütərcim, şair Vladimir Qafarov tərcümə edib. Gəlin şeirdən paralel misallar gətirək.

Saray-daxma

Balaca bir daxma… əyri dirəklər
Doğulmuş, yaşamış Fətəli burda.
Böyüyür çox zaman böyük ürəklər
Kiçik daxmalarda, dar daxmalarda.

Balaca daxmadan bir az o yanda
Durur xan sarayı…təzada bir bax.
İşıqlı saraydan zülmət axanda
Qaranlıq daxmadan nur axdı ancaq.

Xan öz dövranını sürdü xan kimi,
Fətəli dərd çəkdi gecəbəgündüz
Gələcək illərə ərməğan kimi,
Xandan saray qaldı, Fətəlidən söz[1]

[1] Vahabzadə B. Seçilmiş əsərləri. I c., Bakı: "Öndər" 2004, s. 288, 316.
[2] Вахабзаде Б. Стихи. «Литературный Азербайджан», 1991, № 1.

- ö

Эта хижина çначит немало-
Çдесü родился и жил Фатали.
В невеликих жилищах, бывало,
Величайшие люди росли.

А от хижины неподалеку
Воçвышается ханский двореö.
Там в угоду велüможному оку
Потрудилисü и кистü, и реçеö.

Но источником тüмы, а не света
Был двореö - воплощение çла,
А невçрачная хижина эта
Провоçвестниöей света была.

Пожил хан беспечалüно и громко -
Фатали надрывался в тиши,
Хан двореö свой оставил потомкам,
Фатали - самоöветы души[2]

B. Vahabzadənin 3 bənddə açdığı fikir, tərcüməçi tərəfindən 4 bənddə ifadə olunmuşdur, ikinci bəndin üçüncü və dördüncü misraları artırılmışdır, şair - tərcüməçi Vl.Qafarov müəllifin dilinin bütün zənginlik və incəliklərindən bəhrələnərək, şeirin ruhu ilə uyuşan mənanı əldə etmişdir.

Yasaq olunan siyasi mövzulardan biri də Azərbaycanımızın ikiyə bölünməsi, parçalanması mövzusudur. Bu mövzu yaradıcı insanları «həsrət poeziyası» kimi daim düşündürmüşdür. İmperiya əsarəti, xalqımızın milli yaddaşından uzaqlaşdırılması, kökünün, əslinin ona unutdurulması-bu ağrılı problemlər ülvi və pak hissləri tərənnüm edən bir şair kimi Bəxtiyar Vahabzadənin də diqqət mərkəzində olmuşdur. Şairin arzusu odur ki, ölkələr arasında keçilməz sərhədlər olmasın, insan üçün ən qiymətli olan azadlığa sərhəd dirəkləri maneçilik törətməsin. «Kaman nalə çəkir» şeri bunun təsirli nümunəsidir.

Kaman nal ç kir

Uzağ Britaniyada kaman nəğməsi…
Habil lal telləri dilə gətirmiş.
Bir xalqın kökündən gələn ah səsi,
Başqa bir xalqı da inildədirmiş.
Başqadır bu xalqın məsləki, dini
Fəqət, bu nəğməyə başlar əyilmiş.
Soyuq qanunların daş sərhədini
Sənətdən savayı kim aşa bilmiş?
Balaca bir çayı keçə bilməyən
Qardaşlar görüşür qürbətdə ancaq.
Dalıb qəlbimizin hönkürtüsünə
Oxuduq məktubu biz dönə-dönə:
«Ulduzları saya-saya.
Ayaq basır insan aya.
Mənim bu taydan o taya
Əlim çatmır sənə, qardaş»[3]

Поет кяман,
Не где-нибудü поёт,

[1] Vahabzadə B. Payız düşüncələri (şeirlər). Bakı: Yazıçı, 1981, s. 40.
[2] Вахабзаде Б. Письмо Евгению Евтушенко. «Азербайджан», 1995, 28 января.
[3] Vahabzadə B. Seçilmiş əsərləri. I c., Bakı: "Öndər" 2004, s. 307.

А в Лондоне туманном и далёком,
Поёт, ломая отчужденüя лёд.
В такие дни,
Когда в умах темно,
Когда в душе
И холодно, и пусто
Кому ещё переступитü дано
Беçмолвие граниö,
Как не исскуству?
Что мне скаçатü о судüбах роковых
Народа, раçделенного когда-то:
Лишü на чужбине
Брат встречает брата-
Çатерянный-
Живой среди живых[1]

Çerçivə məhdudluğundan şeirin rus variantının tam mətnini oxucuya çatdırmaq imkanı azdır. Tərcüməçi V. Zaytsev çevirmədə tam mənanı açmaq üçün həcmi bir qədər çoxaltmışdır, o mətnə böyük həssaslıqla yanaşsa da, bizlərin ürək ağrısı olan bu hissləri şeirdə o qədər də canlı verə bilməmişdir. Lakin bəzi parçalar olduğca təsirli, təbii və inandırıcıdır.

Bəxtiyar Vahabzadə milli özünədərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına dəyərli töhfələr vermişdir. Millətlərin başına gətirilən qanlı hadisələr, azadlıq mübarizəsinin boğulması, böyük şəxsiyyətlərin bu hadisələrə münasibəti ustad sənətkarın diqqət mərkəzində olmuş--dur. Görkəmli rus şairi Yevqeni Yevtuşenkonun Rusiyanın Çeçenistanda törətdiyi hadisələrə etiraz əlaməti olaraq ona verilən «Xalqlar dostluğu» ordenindən etiraz etməsi münasibətilə yazdığı «Yevtuşenkoya məktub» şeiri çox səciyyəvidir. Gəlin şeirdən bir parçanı nəzərdən keçirək.

Yevtu enkoya m ktub

Xalqların qanına susayan olkən
Sənə orden verdi: «Xalqlar dostluğu»!
Əhsən mərdliyinə, dəyanətinə!
Geriyə qaytardın sən bu ordeni.
-Çütbaşlı qartalın cinayətinə
Şərik eyləməyin-dedin-siz məni.
Belədir, qardaşım, görürük bu gün
Zülmün haqq üstündə son divanını.
Xalqlar dostluğunu bayraq eyləyən
Bir ölkə çeçenin tökür qanını[2]

Там, где с прошлых до наших времен
обираются судüбы народов.
Был, как многие, ты награжден
этим орденом «Дружбы народов».
Твой поступок достоин похвал,
ибо он по-мужски благороден:
Ты туда, где его получал,
воçвратил негодующе орден.
Ты воскликнул:-Двуглавый орёл
в преступленüе повинен кровавом.
Не желаю, чтоб кто-нибудü счел,

[1] Вахабзаде Б. Стихи. «Литературный Азербайджан», 1991, № 1.
[2] Vahabzadə B. Seçilmiş əsərləri. VI c., Bakı: “Çaşoğlu”, 2003, s. 223.

çarkən şeirləri qar üstündə qalır və şən adamlar gülür,şair isə boş sahildə tək qalır» (?!). Tədqiqatçı olmayan oxucu da məna uyğunsuzluğunu görməyə bilmir. Əlbəttə ki, Bəxtiyar Vahabzadə kimi qüdrətli ustadı tərcümə etmək çətindir. Tərcüməçi V.Zaytsev artıq sözlərdən istifadə etsə də, şeirin emosional təsir gücünü saxlaya bilməmişdir.

Həyatımızda və zamanda olan ziddiyyətlər, mənəvi sarsıntıların təsviri, pak və ülvi hisslərin tərənnümü B.Vahabzadə yaradıcılığında öz təcəssümünü tapmışdır. Zaman və müasir insan, zaman və yoxluq, insan və ölüm səltənəti arasındakı təzadlar onu narahat edir. Boynumuza dolaşan bu narahatlığa, qayğı və fikirlərə o, fəlsəfi yönümdən yanaşır, parlaq və cilalanmış bir şair idrakı ilə, sözün qüvvəsi ilə bizi də düşünməyə vadar edir. İnsan ömrünün sərhədlərini göstərən rəqəmlər baş daşında həkk olunur, şair həyatımızda baş verəcək bu hadisəyə öz münasibətini bildirir. Bu baxımdan «Baş daşında saat» şeri çox səciyyəvidir.

Ba da ında saat

Yazıldı saatsaz məzarı üstdə:
«Filan il doğuldu, filan il öldü».
Mərhumun kimliyi bilinsin deyə
Qəbrin baş daşına saat «hörüldü».

Yaşarkən - doğumu keçmiş zamandı,
Onun ölümüsə - gələcək zaman.
Ölümün özü də onda dumandı,
Ölüm gerçəyində dayanır zaman.
Dünyadan köçəndə əslinə baxsan,
Qəbrə yox, keçmişə gömülür insan.

Üz-üzə dayanır ölüm həyatla,
Zaman üst qatdadır, alt qata sığmır.
Həyatı anbaan ölçdük saatla,
Ölümsə zamana, saata sığmır[1]

Часы на могиле, приçнаюсü, меня напугали
Родился в таком-то и умер в таком-то году.
Чтоб поняли мы, кто лежит çдесü,
часы вмуровали
В надгробие: спи, часовщик! Помрачнев, отойду.

Покуда он жил, пребывало рождение в прошлом,
А в будущем времени пряталасü смертü,
как мечта
Туманная, чем-то сомнителüным
и невоçможным
Каçаласü, но вот их свяçала ка камне черта.

Смертü встретиласü с жиçнüю, их спор
беçнадежен и страшен.
Лежит на поверхности время, а там, под çемлей,
Оно недействителüно. Смертü не вмешается
в наши
Часы, öиферблат çатуманен неçдешнею
мглой[2]

Tərcüməçi A.Kuşner şerin əsas ruhunu düzgün duyaraq, hər misraya fəlsəfi duyğular aşılaya bilmişdir, orijinalın ideya və mahiyyətini, nəcib hiss və duyğularını rus dilində də eyni dərəcədə qoruyub saxlamış, daxili gözəllik üzə çıxmışdır, rus oxucusuna yaradıcı şeir nümunəsi çatdırılmışdır.

[1] Vahabzadə B. Seçilmiş əsərləri. V c., Bakı: "Çaşoğlu", 2002, s. 205.
[2] Xəlilov C. Lirik şerin epik ləngəri. "Ədəbiyyat" qəzeti, 2000, 20 yanvar.

Qırğız xalqının görkəmli yazıçısı Çingiz Aytmatov xalq şairimiz B.Vahabzadə haqqında belə fikir söyləmişdi: «Sən övladı olduğun xalqın nitq hissəsində fel olmağı bacarırsan, xalqının canlı dil memarlığına öz töhfəni verə bilmisən». Həqiqətən də, bu fikirlər şairin poeziyasında öz əksini tapmışdır. O, doğma dilimizin ən fəal daşıyıcısı və keşikçisi olmuşdur. Bəxtiyar Vahabzadə sözə yüksək qiymət vermiş, onun funksiyasını dəqiq müəyyənləşdirmişdir. Şairin «Üz-astar» şerində elə sözün müqəddəsliyindən söz açılır, onun fikrincə bəşəriyyətin gücü qılıncda, silahda yox, sözdə əksini tapmalıdır. Gəlin şerin Azərbaycan və rus dillərində səslənən parçalarına diqqət yetirək.

Üz-astar

Yarpaqları tez tökülər şerimin
Kökü yoxsa bu torpaqda, bu eldə.
Dadı, düzü varsa əgər şerimin,
Bu dad, bu duz bu dildədir, bu dildə.

Ana dilim, şerim sənə borcludur
Bu torpağa, bu Vətənə borcludur.
Bunu bildik, naşükürük amma biz,
Axı niyə sığışmırıq bir dilə?
Çalışırıq, istəyirik şerimiz
Gah o dilə, gah bu dilə çevrilə[1]

ö - ç

Листва со стихов опадет, если нет
Корней у них в почве родной и народе.
И сладостü и солü их, и теменü и свет -
Иç речи, в основе ее и природе.

Ты стих мой, в долгу перед речüю родной
В иçвечном долгу перед Родиной милой.
Мы неблагодарны, мы греçим двойной,
Тройной популярностüю греçим постылой.
Бытü переведенными жаждем, в иной
Яçык перетечü с той же болüю и силой[2]

Tərcüməçi A.Kuşner orijinalda olan mənanın sərrast, dəqiq tərcüməsinə nail olmuşdur, müəllif fikrinin mahiyyəti anlanılmışdır. Şerin zərif ruhu, səmimiyyəti və kövrəkliyi saxlanılmış və rus dilli oxucuya çatdırılmışdır.

Bəxtiyar Vahabzadə şeirləri ilə ürəkləri fəth edən güclü, qüdrətli bir şairdir. Onun qələmi dünyanı qan dənizində boğmaq istəyən cahangirlərin qılıncından və silahından daha kəskin və güclüdür. Həmişə türklüyü ilə qürurlanan, «bir millət - iki dövlət» arzusuyla yaşayıb-yaradan bu Azərbaycan oğlunun tabutunun örtüyi də Azərbaycan və Türkiyə dövlətlərinin bayrağı oldu.

D B YYAT

1. Vahabzadə B. Payız düşüncələri (şeirlər). Bakı: Yazıçı, 1981.
2. Vahabzadə B. Seçilmiş əsərləri. II c., Bakı: “Çaşoğlu”, 2002.
3. Vahabzadə B. Seçilmiş əsərləri. V c., Bakı: “Çaşoğlu”, 2002.
4. Vahabzadə B. Seçilmiş əsərləri. VI c., Bakı: “Çaşoğlu”, 2003.
5. Vahabzadə B. Seçilmiş əsərləri. I c., Bakı: “Öndər” 2004.
6. Xəlilov C. Lirik şerin epik ləngəri. “Ədəbiyyat” qəzeti, 2000, 20 yanvar.
7. Вахабçаде Б. Стихи. «Литературный Аçербайджан», 1991, № 1.
8. Вахабçаде Б. Писümо Евгению Евтушенко. «Аçербайджан», 1995, 28 января.

[1] Vahabzadə B. Seçilmiş əsərləri. V c., Bakı: “Çaşoğlu”, 2002, 204.
[2] Xəlilov C. Lirik şerin epik ləngəri. “Ədəbiyyat” qəzeti, 2000, 20 yanvar.

B XT YAR VAHABZAD POEZ YASINDA K

M mm dov C mil Oxt kin o lu
Qafqaz Universitetinin doktorantı
cmemmedov@qu.edu.az

M mm dova Vüsal Hüseynbala qızı
Qafqaz Universitetinin dissertantı
vusale.huseynqizi@gmail.com

XÜLAS

Hər sənətkarın yaradıcılığında vətən anlayışı böyük əhəmiyyət daşıyır. Çünki insanların dünyaya gəldiyi yer onların şəxsiyyəinin formalaşmasında mühim rol oynayır. Nəticə olaraq biz sənətkarın yaradıcılığında şəxsi keyfiyyətlərin əksini çox dəfə müşahidə edirik. Bəxtiyar Vahabzadənin poeziyasında da bu izlər mövcuddur. Lakin görkəmli şair poeziyasında sadəcə Şəkiyə yer verməmişdir. Bunun səbəbini şair Azərbaycanı bir bütöv olaraq sevdiyini, parçalanmaz olaraq qəbul etdiyini bildirmişdir. O hətta poeziyasında da Vətəni regionlara bölməyə razı olmamışdır. Bu səbəblə də Bəxtiyar Vahabzadənin poeziyasında çox az sayda Şəki haqda şeir mövcuddur. Say olaraq az olmasına baxmayaraq bu mövzudakı şeirlər forma və məzmun baxımından olduqca uğurludur. Məqalədə bu şeirlər tədqiq edilmişdir.

SHEKI IN THE POETRY OF BAKHTIYAR VAHABZADE

ABSTRACT

The motherland concept is very important in each poet's creative work. Because place where they were born has crucial role on formation of their character. As a result we can usually observe the reflection of poets' personal quailfications in his creative work. Such kinds of tracks exist in Bakhtiyar Vahabazade's poetry. But promınent poet didn't

. nt4072 0 TD0 Tc0 T0.4311 0 TD-0.0094 Tc-0.0011 TtiT9 1 a011rc-0.0008 Tw[e

Babam həyatında yalnız bir kərə
Faytonla Şəkidən Ağdaşa getmiş.
O baxıb uzanan dar gədiklərə,
təəccüb etmiş.
-Bu yerlər hamısı padşahındır?
Deyə, faytonçudan o xəbər almış.
Bəlkə də, dünyaya
o miskin, fağır
Babamın verdiyi bu, ilk sualmış.
Bir dünya bilirdi Şəkini babam,
bu yaşa qədər.
Onun gözlərində dünya bu gündən
Böyüdü, uzandı Ağdaşa qədər.
Səksən verst dağ yolu! Zarafat deyil.
Ən uzun, ən böyük yoldu babamçın.
Şəkidən Ağdaşa uzanan bu yol,
Böyüklük ölçüsü oldu babamçın.[1]

İnsanın keçdiyi bu mərhələlərdə, formalaşdığı bu prosesdə onda vətən sevgisi, vətənə bağlılıq və sədaqət kimi hisslər də meydana gəlir. Ən əsası da bu sevgi və sədaqət sadəcə fikirdə və hissdə qalmır və insanın əməllərində təzahür etməyə başlayır. Bu əməllər bəzən vətəni yağı düşməndən qorumaq, bəzən xalqın hisslərini və haqlarını dünyaya çatdırmaq, bəzən ölkənin bayrağını yüksəklərdə dalğalandırmaq, bəzən də qələmi və sənəti ilə bu sevgini insanlara aşılamaq və onu qəlblərə nəqş etmək şəklində özünü göstərir.

Əlbəttə ki, dünayaya Şəkidən baxmağa və onu tanımağa çalışan Vahabzadə üçün də vətən Şəkidən başlayırdı. Onun vətən sevgisi ilə yoğrulmasında ailəsi ilə birliktə, uşaqlıq dövrünü keçirdiyi mühit olaraq Şəki şəhəri də böyük rol oynamışdır. Vahabzadəni çox sayıda nəcib keyfiyyətlərlə yoğuran bu mühit və şəhər ona böyük düşünməyə yönəltmiş, həcmcə kiçik qəlbinin böyük vətən üçün atmasını öyrətmişdir. Hər keçən gün vətən və xalq sevgisi ilə dolub-daşan bu qəlb onun sevgisi və amalları kimi böyümüşdür. Beləcə böyük şair, Şəkini çox sevsə də, böyük düşünmüş, böyük Vətəni Azərbaycanı kiçik parçalara bölməmiş, onu hər zaman bir bütöv olaraq sevmişdir. O, "Özünüz şəkili olduğunuz halda, hələ Şəkiyə bir şeir həsr etməmisiniz " sualını bir şeirlərə cavablamış, vətəni Azərbaycana və doğulduğu şəhər Şəkiyə hisslərini belə ifadə etmişdir:

Bir nəğmə qoşmadım hələ mən sənə,
Dağlar bunu mənə kəsir sanmasın.
Mən dedim, vurğunam Azərbaycana,
Deyirəm, heç zaman xırdalanmasın
Könlümdən ucalan bu avaz, bu səs.
Böyükdür, ucadır məsləkim mənim.
Bala anasına "sevirəm" deməz,
Mən də deməmişəm, a Şəkim, mənim.[2]

“Bala anasına sevirəm deməz” misrasından göründüyü kimi şair vətəninə “sevirəm” deməsə də, Şəkini həddsiz dərəcədə sevmiş, onun sevgisini həmişə ürəyinin dərinliyində qoruyub saxlamışdır. O Şəkini–vətənini özünə ana bilmiş, özünü isə bala hesab etmişdir. Şəki sevgisini şeirlərində çox işlətməyən şair daim vətənin, doğulub boya başa çatdığı el-obanın sevgilisiylə yaşamışdır. Şair bir digər misrasında da Şəkinin adını az çəkməyinə və ona çox az şeir həsr etməsinə fəqli bir cavab verir. O, bildirir ki, onun şeirin mayası özülü Şəki və onun gözəlliklərindir. Buna görə də şair bir övlad kimi Şəkiyə qarşı özünü borclu hiss edir:

Mən sənə borcluyam öz balan kimi,
Çox da ki şeirimdə görünmür adın.

[1]Vahabzadə B. Seçilmiş əsərləri, 2 cilddə, 1-ci cild, Öndər nəşriyyatı, Bakı, 2004, səh. 191
[2] Cəfərov N. Seçilmiş əsərləri, 5 cilddə, 2-ci cild, Bakı, 2012, səh 182-183

Mənim oxuduğum nəğmələrimi,
Mənim qulağıma sən pıçıldadın.
Şerimin mayası - bu qaynar nəfəs
Sənin öz çiçəyin, sənin öz barın.
Şerimdə dil açıb danışmırmı bəs,
Sərin bulaqların, göy çinarların?[1]

Uşaqlıq insan həyatının ən gözəl, şən, xöşbəxt çağlarıdır. O anlardakı hər hadisə insanın yaddaşına əbədi həkk olur və insan nə qədər vətəndən uzaq qalsa da o şirin anlar heç vaxt unudulmur. Vahabzadədə zaman-zaman Şəkidən uzaqda da olsa o, doğma yurdu, orda keçirdiyi vaxtlari həmişə xatırlamışdır. Şəkidə keçirdiyi uşaqlar illərini şair heç vaxt unutmamışdır. Ədib şeirlərinin birində ata yurdunu təsvir edərək o yerlərinin həsrətinin çəkdiyini bildirmişdir:

Şəkidə məhlə var nə qədər desən,
Gəldim bu dünyaya "Yuxarı baş"da.'
Bir göz evimizdə nə desən vardı,
Taxça aşağıda, buxarı başda.
Çıxdı ahıllığım o evdən çölə,
Amma uşaqlığım yuxarı başda.
İndi mən həsrətəm ata yurduma,
Odu ürəkdədir, buxarı başda[2]

Şairə gorə onu bu torpaqlar şair kimi yetişdirmişdir. Vətən torpağında ciyərlərinə çəkdiyi o təmiz hava, suyundan içdiyi gur axan büllur kimi bulaqlar, başı qarlı uca dağlar, uşaqlığının qayğıkeş vaxtlarının keçdiyi yamyaşıl ucsuz, bucaqsız meşəliklər, yazda çiçəklərinin ətrində, yayda meyvəsinin barından, ləzzətindən doyulmayan, uzaq düşdükdə həsrət çəkilən hər qarış vətən torpağı Vahabzadə şeirinin qayəsi- özülü hesab edilmişdir.

Vətən və ana bir- birindən ayrı, o cümlədən bir-birinə mənaca çox yaxın sözlərdir. Gözümüzü doğma vətən torpağında açarkən ilk olaraq anamızı görürük. Beləliklə bu əziz şəxs və əziz məkan bizim üçün vəhdət halını alır və müqəddəsləşir. Böyük şair vətənini çox sevmiş ona övladliq borcunu, vəətəndaşlıq borcunu layiqincə yerinə yetirmək üçün əlində gələni etmişdirdir. O səngərdə xalqını, millətini qorumağa hazır olan əsgər kimi həmişə xalqına xidmət etməyə hazır olmuşdur. O özünün layiqli vətəndaş olmağında, ürəyi bu xalq üçün döyünən bir şair kimi yetişdirilməsində böyük rolu olan doğma torpaqlara həmişə minnətdar olmuşdur

Mən sənin qoynunda gəldim cahana,
Məni bəxş elədin Azərbaycana.
Həmişə mən sənin həndəvərində
Üçan bir quşam.
Bir eldə doğulub
xoşbəxtəm ki, mən
Böyük bir Vətənə oğul olmuşam.[3]

Göründüyü kimi Bəxtiyar Vahabzadənin dünyaya gəlib böyüdüyu Şəki şəhəri haqda çox az sayıda şeiri mövcuddur. Lakin, hər nə qədər şairin poeziyasında Şəki mövzusu açıq şəkildə görünməsə də biz onun izlərinə və təsirinə ədibin bütün poeziyasında rast gələ bilirik. Şəki haqda az şeiri olmasını da şair şəkili olmaqdan əvvəl azərbaycanlı olmasına bağlamışdır. Şairliyi ilə yanaşı böyük mürəfəkkir olan Bəxtiyar Vahabzadə bu üslubu ilə həm də millətini və xalqını birliyə və bərabərliyə səsləmişdir. O, Azərbaycanın bizi birləşdirən ən böyük dəyər olduğunu bizə aşılamağa çalışmışdır. O, vətəni Azərbaycanı həmişə bütöv olaraq görmək istəmişdir

D B YYAT

1. Alməmmədova S. Bəxtiyar Vahabzadə poeziyasının dili, Bakı, Elm, 2010
2. Cəfərov N. Seçilmiş əsərləri, 5 cilddə, 2-ci cild, Bakı, 2012

[1] Vahabzadə B. Seçilmiş əsərləri, 2 cilddə, 1-ci cild, Öndər nəşriyyatı, Bakı, 2004, səh. 73
[2] Vahabzadə B. Seçilmiş əsərləri, 2 cilddə, 1-ci cild, Öndər nəşriyyatı, Bakı, 2004. səh. 80
[3] Vahabzadə B. Seçilmiş əsərləri, 2 cilddə, 1-ci cild, Öndər nəşriyyatı, Bakı, 2004. səh. 73

3. Həsənov A., Ağayev Ə. Pedaqogika, Bakı, Nasir Nəşriyyatı, 2007
4. Mikayılov Ş. Ədəbiyyat nəzəriyyəsi: IX-XI-ci siniflər üçün dərs vəsaiti, Bakı, Maarif Nəşriyyatı, 2003
5. Vahabzadə B. Gəlin açıq danışaq, Bakı, Azərbaycan, 1989
6. Vahabzadə B. Seçilmiş əsərləri İki cilddə. I cild, Bakı, Öndər nəşriyyatı, 2004
7. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə, II cild , Bakı, Öndər nəşriyyatı, 2004

B XT YAR VAHABZAD N N S RL R N N N R PROBLEML R V B BL OQRAF YASININ YEN D N HAZIRLANMASI

Vüsal MUSALI

Doç.Dr., Bakı Dövlət Universiteti, Kitabxanaçılıq-informasiya fakültəsi
Kitabşünaslıq və nəşriyyat işi kafedrası
Bakı / AZƏRBAYCAN
tezkireshinas@gmail.com

XÜLAS

Böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin ilk kitabı 1949-cu ildə işıq üzü görmüşdür. Bu tarixdən sonra şairin əsərləri ardıcıl olaraq nəşr edilməyə başlamışdır. Şairin şəxsi biblioqrafiyasında 1995-ci ilə qədər işıq üzü görmüş kitab, məqalə, tərcümə və s. təsviri öz əksini tapmışdır. Ancaq 1995-ci ildən sonra da B.Vahabzadənin müxtəlif kitabları Azərbaycanda və xarici ölkələrdə çap olunmuş, şairin həyat və yaradıcılığı müxtəlif araştırıcıların tədqiqat obyektinə çevrilmişdir. Türkiyədə B.Vahabzadənin vəfatının ildönümünə həsr olunmuş simpozyumlar təşkil olunmuşdur. Bu baxımdan şairin şəxsi biblioqrafiyasının yenidən hazırlanması məsələsi gündəmə çıxmışdır. Məqaləmizdə şairin əsərlərinin nəşr tarixinə nəzər salınacaq, 1995-ci ildən sonra işıq üzü görmüş əsərləri dəyərləndiriləcəkdir.

Açar sözl r: Bəxtiyar, Vahabzadə, əsər, nəşr, biblioqrafiya.

Kitab dostu, sirdaşıdır
Bu dünyada hər bir kəsin.
Elə insan varmı görən,
Çevirdiyi vərəqlərdən
Qəlbi əsib, titrəməsin.
B.Vahabzad

Türk dünyasının böyük şairi, dramaturqu və ədəbiyyatşünası, Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə bədii yaradıcılığa 1943-cü ildə "Ana və şəkil" adlı ilk şeirini çap etdirdikdən sonra başlamışdır. O zamandan etibarən dövri mətbuatda şeirləri, elmi məqalələri, rəyləri müntəzəm çap olunmağa başlamışdır.

Şairin nəşr olunmuş əsərlərini strukturuna görə aşağıdakı kimi sistemləşdirmək mümkündür:

Bircildli əsərləri;

Çoxcildli əsərləri;

Seçilmiş əsərləri, əsərlər toplusu;

Monoqrafiyaları.

B.Vahabzadənin əsərlərini əsas mətnin tərtibinə görə isə mononəşr və toplulara (məqalələr toplusu) ayıra bilərik.

B.Vahbzadənin nəşr olunmuş kitab və məqalələri haqqında məlumat əldə etmək üçün şəxsi biblioqrafiyasına nəzər salmaq lazımdır. Bakı Dövlət Universitetinin professoru İfrat Əliyevanın hazırladığı və 1997-ci ildə nəşr etdirdiyi "Bəxtiyar Vahabzadə" şəxsi biblioqrafik göstəricisində şairin 1995-ci ilə qədər çap olunmuş kitab, məqalə, tərcümə və s. anotasiyalı biblioqrafik təsviri yer almaqdadır. İ.Əliyeva biblioqrafik göstəricinin əvvəlində yazır: "B.Vahabzadənin əsərlərinin biblioqrafiyasının yaradılmasında bu elmi-köməkçi biblioqrafik göstərici ilk təşəbbüsdür. Biblioqrafiya şairin 1943-1995-ci illərdə Azərbaycan və xarici dillərdə çap olunmuş bədii əsərlərini, elmi monoqrafiyalarını, dərs vəsaitləri və kitabçalarını, tərcümələrini, dövri mətbuatda çıxan məqalələrini, elmi-ictimai fəaliyyəti haqqında olan materialları əhatə edir"[1].

[1] Bəxtiyar Vahabzadə. Biblioqrafik göstərici / Tərtibçi prof. İ.Əliyeva. Bakı: Maarif, 1997, s. 4.

Sözügedən göstərici üç hissədən ibarətdir. Birinci hissə "Təbriklər" adlanır. Burada şair haqqında düşüncələr, B.Vahabzadənin həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixlərinə yer verilmişdir. Bundan əlavə bu hissədə Azərbaycan və xarici ölkələrin ədəbiyyat və mədəniyyət xadimlərinin B.Vahabzadə haqqındakı fikirləri yer almışdır. Kitabın ikinci hissəsində şairin kitabları, dövri mətbuatda, məcmuələrdə, dərsliklərdə dərc olunmuş əsərləri, xarici dillərdə dərc olunmuş əsərləri və tərcümələrinin biblioqrafik təsviri verilmişdir. Göstəricinin üçüncü hissəsi B.Vahabzadənin həyat və yaradıcılığı haqqında materialları əhatə edir.

B.Vahabzadənin ədəbi irsinin nəşri tarixi 1949-cu ildə nəşr olunan "Mənim dostlarım" kitabı ilə başlayır. Bundan sonra şairin "Bahar" (1950), "Dostluq nəğməsi" (1953), "Əbədi heykəl" (1954), "Çinar" (1956), "Sadə adamlar" (1956), "Aylı gecələr" (1958), "Şəbi-hicran" (1959), "Şeirlər" (1961), "Etiraf, Şəbi-hicran poemaları" (1962), "İnsan və zaman" (1964), "Seçilmiş əsərləri" (1967), "Köklər...budaqlar" (1968), Səməd Vurğun (monoqrafiya) 1968), "Dəniz sahil" (1969), "Dörd yüz on altı" (1970), "Seçilmiş əsərləri" I cild (1974), "Seçilmiş əsərləri" II cild (1975), "Seçilmiş əsərləri" I cild (1983), "Seçilmiş əsərləri" II cild (1984), "Axı dünya fırlanır" (1987), "Şəhidlər" (1990), "Nağıl-həyat" (1991), "Yanan da mən, yaman da mən" (1995), "Fəryad" (1995) kimi bir-birindən dəyərli əsərləri işıq üzü görmüşdür.

Şairin 1964-ci ildə Azərbaycan Dövlət Nəşriyyatında çap olunmuş "İnsan və zaman" adlı kitabında şeirlər və poemalar toplanmışdır. Kitabın "Narahat şair" sərlövhəli ön sözünü Mehdi Hüseyn yazmışdır. M.Hüseyn yazır: "Mən Vahabzadənin ədəbi portretini yazmıram, məqsədim onun poeziyasına təhlil vermək də deyildir. Mən yalnız onu demək istəyirəm ki, B.Vahabzadə, son dərəcədə sürətlə artan, yaradıcılığının həm mövzu dairəsini genişləndirməyə, həm də müstəqil bədii üslubunu yaratmağa inadla çalışan və bunun üçün də get-gedə oxucuların daha da rəğbətini qazanan görkəmli şairdir" (10). Bu kitabda şairin "İki saat", "Kimdir mənim düşmənim", "Səyahət dəftərindən", "Soruşma", "Şirin arzular" və s. kimi şeirləri və "Ağlar-güləyən", "Yollar oğullar" adlı poemaları yer almaqdadır.

B.Vahabzadənin "Seçilmiş əsərləri" 1967-ci ildə "Gənclik" nəşriyyatında çap olunmuşdur. Kitabda şairin şeirləri və poemaları verilmişdir. Kitabın redaktoru İ.Tapdıqdır. Kitab şairin

Yaşamaq yanmaqdır, yanasan gərək!
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa yaşamır demək,
Onun da həyatı yanmağındadır.

şeiri ilə başlayır. Burada şairin "Mənim şeirim", "İnsan və zaman", " Səyahət dəftərindən", "Həsrət nəğmələri", "Məktəb şeirləri", "Mahnılar" silsiləsindən olan şeirləri və "Etiraf", "Qəm içində", "Uçun, nəğmələrim", "Vaxt, sürət, fikir" verilmişdir.

Şairin "Seçilmiş əsərlər"i 1974-1975-ci ildə iki cilddə Azərnəşrdə işıq üzü görmüşdür. "Düşündürən poeziya" adlı müqəddiməni Y.Qarayev yazmışdır. Kitabın redaktoru M.Müştaqdır. ikinci cild 1975-ci ildə nəşr olunmuşdur və poemaları əhatə edir. "Bəxtiyar taleli Bəxtiyar" adlı son sözü xalq şairi N.Xəzri yazmışdır.

B.Vahabzadənin "Seçilmiş əsərləri" 1983-1984-cü illərdə iki cilddə Yazıçı nəşriyyatında nəşr olunmuşdur. Birinci cild 1944-1965-ci illərdə yazılmış şeirləri və poemaları əhatə edir. Redaktoru Q.İsazadədir.

B.Vahabzadənin 1991-ci ildə Yazıçı nəşriyyatında işıq üzü görən "Nağıl-dünya" kitabı Z.Yaqubun "Biri varmış, biri yoxmuş" sərlövhəli ön sözü ilə başlayır: "...nədir bu kitabı şairin əvvəlki kitablarından fərqləndirən cəhət...Bu kitabda çılğın, qaynar, ehtiraslı Bəxtiyardan daha çox qayğılı, düşüncəli, ağsaqqal Bəxtiyarı görürsən". B.Vahabzadə "Müəllifdən" başlığı altında bu kitabın yazılma səbəbini belə şərh edir: "Keçən yay arxivimi araşdırdım, gənclik illərindən yazmağa başladığım gündəliklərimi, çap olunmamış şeirlərimi varaqladım, keçdiyim yolları dəftər səhifələrində yenidən keçib həm fərəhləndim, həm də təəssüfləndim. Fərəhləndim, ona görə ki, gənclik illərimdə də həqiqəti görmüş, ağı qaradan seçib duyğularımı, fikirlərimi yelə verməmiş, müəyyən ölçüdə yazıya köçürə bilmişəm. kədərləndim, ona görə ki, ömür yollarında büdrəmələrim də olmuş, duyğu və fikirlərimi tam dəqiqliyi ilə yaza bilməmiş, zamanın tufanlarından ehtiyat eləmişəm. O

dəhşətli illərdə çapa verə bilmədiyim, yalnız yazmaqla təsəlli tapdığım bu saralmış vərəqlərdə çırpınan qəlbimin fəryadı, o zamanın ağrı və acılarıdır".

Bu kitabda B.Vahabzadənin "Sandıqdan səslər", "Ömür uzun, ömür qısa", "Qoşmalar, gəraylılar", "Səbəb axtarma", "Babası kimi" başlıqları ilə şeirləri toplanmışdır. Kitabda şairin "Gülüstan", "Vətən mənəm, mən vətənəm", "İki qorxu", "Şəhidlər" poemaları yer almışdır.

Şairin "Ağıl başqa, ürək başqa" adlı şeirlər kitabı 2000-ci ildə Azərbaycan nəşriyyatında, "İstiqlal" adlı kitabı 1999-cu ildə Gənclik nəşriyyatında, "Zaman və mən" adlı kitabı 1999-cu ildə Azərnəşrdə, "Hara gedir bu dünya?" adlı pyesləri əhatə edən kitabı 2001-ci ildə Azərnəşrdə çap olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il sərəncamı ilə B.Vahabzadənin əsərlərinin də latın qrafikası ilə təkrar nəşri həyata keçirilmişdir.

1995-ci ildən bu yana B.Vahabzadənin "Əsərlər" külliyyatı on iki cilddə 2001-2007-ci illərdə "Azərbaycan nəşriyyatı" və "Çaşıoğlu" nəşriyyatında işıq üzü görmüşdür. Burada şairin şeirləri, poemaları, məqalələri, publisistikası, son illərdə yazılmış və müvafiq cildlərə düşməyən və yenidən işlənmiş şeirləri yer almışdır. I, II, III, VIII, IX, X, XI, XII cildləri "Azərbaycan", digər cildlər isə "Çaşıoğlu" nəşriyyatında çap olunmuşdur.

"Əsərlər"in birinci cildi 2001-ci ildə Azərbaycan nəşriyyatında çap olunmuşdur. 1945-1960-cı illər arasında, yəni 15 il ərzində yazılan şer və poemalardan ibarət bu kitab külliyyatın I cildi hesab olunur.

Müəllifin əsərlərinin ikinci cildinə yaradıcılığının ən məhsuldar dövrlərindən birində-ötən əsrin 60-cı illərində (1960-1969-cu illər) qələmə aldığı və əsasən, həmin illərdə nəşr olunmuş əsərlərinin bir qismi daxil edilmişdir. Bu cild 2002-ci ildə nəşr olunmuşdur.

Xalq şairi Bəxtiyar Vahabzadənin çoxcildlik əsərlərinin üçüncü cildinə onun ötən əsrin 60-cı illərində (1960-1969) yazdığı şeirlərin bir qismi daxildir. Cilddə, həmçinin, şairin həmin dövr yaradıcılığının məhsulu olan 10 epik və lirik poeması da çap olunmuşdur. Kitab 2002-ci ildə çap olunmuşdur.

Müəllifin əsərlərinin dördüncü cildinə 1970-1979-cu illərdə yazdığı şeir və poemaları daxil edilmişdir. Kitab 2002-ci ildə "Çaşıoğlu" nəşriyyatında nəşr edilmişdir.

B.Vahabzadənin əsərlərinin beşinci cildinə yaradıcılığının ötən əsrin 80-cı illərini (1980-1989) əhatə edən və ənənəvi olaraq toplanmış əsərləri daxil edilmişdir. Cildə, həmçinin, şairin yaradıcılığının əvvəlki dövrlərinə aid olsa da, müxtəlif səbəblərdən "Əsərləri"nin müvafiq cildlərinə düşməmiş, yaxud müəyyən naqisliklərdə çap olunmuş bəzi şeirləri də salınmışdır. Bu cild də 2002-ci ildə çap olunmuşdur.

"Əsərlər"in altıncı cildi Çaşıoğlu nəşriyyatında 2003-cü ildə işıq üzü görmüşdür. Xalq şairi B. Vahabzadənin çoxcildli əsərlərinin bu cildinə onun XX əsrin 90-cı illərində yazdığı əsərləri daxil edilmişdir.

Səkkizinci cildə şairin müəyyən səbəblərdən "Əsərləri"nin VII cildinə düşməmiş bir neçə şeiri, müxtəlif illərdə ara-sıra yazdığı hekayələr, çoxşaxəli yaradıcılığında mühüm yer tutan, müasir mənəvi-əxlaqi və tarixi-qəhrəmanlıq mövzularında dram əsərləri, o cümlədən "İkinci səs", "Yağışdan sonra", "Fəryad", "Özümüzü kəsən qılınc" və s. pyesləri, habelə bir neçə tele-radio pyesi və ssenarisi daxil edilmişdir.

B.Vahabzadə 60 illik yaradıcılığı boyu bədii əsərlərlə yanaşı, müntəzəm olaraq, ədəbiyyatın nəzəri məsələlərinə, ədəbiyyat tarixinə, klassik ədəbiyyat və incəsənətimizin aktual problemlərinə, onların ayrı-ayrı görkəmli nümayəndələrinin yaradıcılığına dair elmi-tədqiqi və ədəbi-tənqidi məqalələr yazmışdır. Doqquzuncu cilddə onların bir qismi toplanmışdır. Sözügedən cild 2005-ci ildə Azərbaycan nəşriyyatında işıq üzü görmüşdür.

"Əsərlər"in X, XI cildlər publisistikasını, XII cild isə 2007-ci ilə qədər yazılmış, müvafiq cildlərə düşməyən və yenidən işlənmiş şeirlərini əhatə edir.

B.Vahabzadənin əsərləri 2001-2005-ci illərdə Azərnəşrdə 6 cilddə nəşr olunmuşdur.

B.Vahabzadənin "Seçilmiş əsərləri" 2004-cü ildə iki cilddə "Öndər" nəşriyyatında çap olunmuşdur. "Seçilmiş əsərlər"in bu ikicildliyi şairin əsərlərinin "Azərbaycan" nəşriyyatında 2001-

2002-ci illərdə işıq üzü görmüş I-III cildləri əsasında və "Çaşıoğlu" nəşriyyatında 2002-2003-cü illərdə nəşr olunmuş IV-VI cildləri əsasında təkrar çap edilmişdir. Kitabın birinci cildi şeirləri, ikinci cildi isə poemaları əhatə edir. Kitabın tərtibçisi və redaktoru isə Azər Bağırovdur. Birinci cildə ön sözü Çingiz Aytmatov yazmışdır. Birinci cildin ön sözü

Yaradıbdır inam məni,
Mən inamın övladıyam

misraları ilə başlayır.

Şairin "Seçilmiş əsərlərinin ikinci cildi müxtəlif illərdə qələmə aldığı "Şəbi-hicran", "Gülüstan", "İstiqlal", "Ağlar-güləyən", " Təzadlar", "Qiymət", "Muğam", "Atılmışlar", "İki qorxu", "Şəhidlər" poemalarını əhatə edir. Bu cild Azər Bağırov tərəfindən tərtib və redaktə olunmuşdur.

B.Vahabzadənin "Zaman və mən" kitabı 1999-cu ildə Azərnəşrdə işıq üzü görmüşdür. Bundan əlavə şairin "Sandıqdan səslər" kitabı 2002-ci ildə, "Sən olmasaydın..." adlı kitabı 2009-cu ildə çap olunmuşdur.

Ayrı-ayrı alim və tədqiqatçıların da B.Vahabzadəyə həsr olunmuş monoqrafiya və məqalələri də bu baxımdan diqqətəlayiqdir. Məsələn, Mail Dəmirli 2000-ci ildə "Şairin ədəbi görüşləri" adlı kitab çap etdirmişdir. Kitabın redaktoru Ş.Salmanov ön sözdə yazır: "Şair, yazıçı, dramaturq B.Vahabzadə müəyyən dərəcədə öyrənilmişsə də, bu sözü onun ədəbi görüşləri, tədqiqatçılıq fəaliyyəti barədə deyə bilmərik". Bu kitabın "Şairin poeziya görüşləri", "Klassik poeziya görüşləri", "Böyük poeziya məktəbi" və başqa bölmələrində B.Vahabzadənin ədəbi görüşlərinin müxtəlif tərəflərindən və məsələlərindən söz açılmış, ədəbiyyatımızın zəngin təcrübəsi, ədəbi prosesin meylləri əsasında həmin məsələlər işıqlandırılmışdır. Ən mühümü isə bu məsələlərə münasibətdə şairin mövqeyi göstərilir[1]. M.Dəmirlinin "Türk dünyasının Bəxtiyarı" adlı (2002) kitabı B.Vahabzadənin həyatı, yaradıcılığı və ictimai fəaliyyəti ilə bağlı qələmə alınmış məqalələri əks etdirir.

Ağəddin Mansurzadənin "Mən – Bəxtiyaram" adlı kitabı B.Vahabzadənin 75 illik yubileyinə həsr olunmuşdur. Kitabda müəllifin yaxından tanıdığı, dostluq etdiyi xalq şairi haqqında müxtəlif illərdə qələmə aldığı ədəbi-bədii publisistik məqalələri, söhbətləri, müsahibələri toplanmışdır. Kitabdakı məqalələr yazılış tarixinə uyğun xronoloji ardıcıllığla düzülmüşdür.

M.Musayevin "Parlament fəsilləri və Bəxtiyar Vahabzadə" sərlövhəli kitabı 2009-cu ildə işıq üzü görmüşdür.

Şairin vəfatından sonra R.Qafarlının redaktəsi ilə 2000-ci ildə "Bəxtiyar Vahabzadə əbədiyyət yolunda yaxud şairsiz ötən bir ilimiz" adlı kitab nəşr olunmuşdur. 2000-ci ildə "Azərbaycan" nəşriyyatında çap olunan "Bəxtiyar Vahabzadə. Foto kitab" şairin həyat yolunu fotolarla əks etdirməsi baxımından diqqəti cəlb edir. Kitab N.İbrahimov tərəfindən hazırlanmışdır.

2005-ci ildə Təhsil nəşriyyatında "Bəxtiyar dünyası" adlı məqalələr toplusu işıq üzü görmüşdür. Çağdaş ədəbiyyatımızın qüdrətli nümayəndəsi xalq şairi B.Vahabzadəyə həsr olunmuş bu topluda tanınmış alim və tənqidçilərimizin, qələm dostlarının görkəmli sənətkarın çoxşaxəli poetik, dramaturji və publisistik yaradıcılığının xalqımızın istiqlal mübarizəsi tarixindəki müstəsna rolundan bəhs edən, mətbuatda çap olunmuş yazıları toplanmışdır. Məqalələrdə şairin yaradıcılığı ilə bilavasitə bağlı olmayan məqamlarla əlaqədar bəzi ixtisarlar edilmiş, habelə üslubi xarakterli müəyyən redaktə işi aparılmışdır.

Son illərdə B.Vahabzadənin yaradıcılığı monoqrafik səviyyədə tədqiqata cəlb olunmuşdur. Onların arasında F.Səfiyevanın, S.Alməmmədovanın və V.Allahverdiyevin kitablarının adlarını sadalamaq mümkündür.

F. Səfiyevanın 2006-cı ildə "Bəxtiyar Vahabzadənin dramaturgiyası" adlı monoqrafiyası çap olunmuşdur. Kitab ən yeni dövr Azərbaycan ədəbiyyatının böyük şairi, görkəmli alimi, tanınmış pedaqoqu və ictimai-siyasi xadimi, xalq şairi Bəxtiyar Vahabzadənin dramaturji yaradıcılığının tədqiqinə həsr olunmuşdur.

S. Alməmmədovanın "Vahabzadə poeziyasının dili" adlı kitabı Elm nəşriyyatında 2010-cu ildə işıq üzü görmüşdür.

[1] Novruzov T. Şairin ədəbi görüşlərinə bir baxış // Xalq qəzeti, 2000-ci il 26 may.

V.Allahverdiyevin “Bəxtiyar Vahabzadə yaradıcılığında milli özünüdərkin bədii-fəlsəfi ifadəsi” sərlövhəli monoqrafiyası 2011-ci ildə Yazıçı nəşriyyatında çap olunmuşdur.

Bəxtiyar Vahabzadənin əsərləri ayrı-ayrı tədqiqatçılar tərəfindən tədqiqat obyektinə çevrilmiş, müxtəlif xalqların dilinə tərcümə olunmuşdur. Belə ki, B.Vahabzadənin ayrı-ayrı şeir və poemaları türk, rus, fars, özbək, alman, ingilis dillərinə tərcümə olunmuş və çap edilmişdir.

Türkiyəli tədqiqatçılar şairin həyat və yaradıcılığını bu və ya digər şəkildə tədqiqat obyektinə çevirmişlər. Məsələn, N.Demir “Bahtiyar Vahabzadenin “Veten ocağının istisi” adlı eseri üzerinde gramer çalışması” (1994), S.Kurtoğlu “Bahtiyar Vahabzade ve seçilmiş şiirlerinin dil incelenmesi” (1994), H.Mayadağlı “Bahtiyar Vahabzade ve eserleri” (1996), H.Nalbant “Azerbaycanlı şair Bahtiyar Vahabzadenin Muğam poeması (metin-inceleme) (2007), B.Gündoğdu “Bəxtiyar Vahabzadənin publisistikası” (2010) adlı dissertasiyalar müdafiə etmişlər.

Gazi Universitetində B.Vahabzadənin ildönünə həsr olunmuş “Ölümünün birinci yıldönümündü Bahtiyar Vahabzade” mövzusunda (2010) simpozyum təşkil edilmiş və sempozyumun materialları Gazi Universiteti “Türkiyat” dərgisində işıq üzü görmüşdür. Bundan əlavə “Erdem” dərgisi 2010-cu ildə “Bahtiyar Vahabzade Özel sayısı” nəşr etmişdir ki, burada da şairin yaradıcılığının müxtəlif aspektlərinə həsr olunmuş məqalələr yer almışdır.

Türkiyədə nəşr olunan “Türk lehçeleri ve edebiyatları” jurnalının bir nömrəsi” Bahtiyar Vahabzade özel sayısı” başlığı ilə çap olunmuşdur ki, burada da müxtəlif türk alimlərinin şairinin həyat və yaradıcılığına dair apardıqları araşdırmaların nəticələri öz əksini tapmışdır.

B.Vahabzadənin ədəbi irsi Türkiyədə türk tədqiqatçıları tərəfindən də araşdırılmış, kitabları işıq üzü görmüşdür. B.Vahabzadənin aşağıda adları qeyd olunan əsərləri Türkiyədə türkiyə türkçəsiylə, bəziləri isə Azərbaycan türkcəsiylə nəşr olunmuşdur: “Şeirlər: şeirlər və poemalar”. – İstanbul, Ötüken neşriyyatı, 1979; “Dovşana qaç, tazıya tut... Publisistik makaleler” Çeviren Y. Aslan. Ankara, Yeni düşünce yayınları, 1990; “Qarabağ melodyaları: şiirler, dram ve publisistika” Çevirən A.Şmide. İstanbul, Tür Dünyası Araştırmaları Vakfı, 1991; “Ürəkdədir sözün kökü” (Azeri türkçesiyle). Ankara, Diyanet Vakfı yayınları, 1991; “Hara gedir bu dünya” Çevirən Y.B.Bakiler. Ankara, Kültür Bakanlığı yayınları, 1991; “Şəhidlər (poema)” İstanbul, Cüng yayınevi, 1991; “Gün var min aya dəyər” / Çevirən B.İsmayıl. İzmir, 1992; “Son bahar düşüncələri” Çevirən B. İsmayıl. Ankara, Kültür Bakanlığı Yayınları, 1993; “Vatan, Millet, Ana dili”. Ankara 1999; “Gülüstan (poema)” Hazırlayan Seyfeddin Altaylı. Ankara, AKMBY, 1997; “Ömürden Sayfalar” İstanbul, Ötügen, 2000; “Gün var bir aya değer”. İstanbul, 2006; “Soru işareti” İstanbul, 2002.

Beləliklə, B.Vahabzadənin 1995-ci ildən 2012-ci ilə kimi işıq üzü görən əsərlərinin nəşri məsələlərinin araşdırılması və şairin biblioqrafiyasına sözügedən zaman kəsiyində nəşr olunmuş əsərlərin, məqalələrin, dissertasiyaların və s. əlavə olunması problemi və şəxsi biblioqrafik göstəricisinin yenidən nəşri öz həllini gözləməkdədir.

D B YYAT

1. Allahverdiyev V. Bəxtiyar Vahabzadə yaradıcılığında milli özünüdərkin bədii-fəlsəfi ifadəsi (monoqrafiya). Bakı: Yazıçı, 2011.
2. Almənmədova S. B.Vahabzadə poeziyasının dili. Bakı: Elm, 2010.
3. Əhmədov T. Azərbaycan yazıçıları. Ensiklopedik məlumat kitabı. Bakı: “Azərbaycan Ensiklopediyası” NPB, 1995, 637 s.
4. Piriyev Q. Mən Bəxtiyaram. B.Vahabzadənin 75 illik yubileyi münasibətilə çap olunan kitab haqqında // Xalq qəzeti, 2000-ci il 29 avqust.
5. Türkiyədə B.Vahabzadənin iki yeni kitabı nəşr edilmişdir // Yeni Azərbaycan, 1994 3 mart.
6. Vahabzadə B. Nağıl – həyat. Şeirlər və poemalar. Bakı: Yazıçı, 1991, 240 s.
7. Vahabzadə B. Biblioqrafik göstərici / Tərtibçi prof. İ.Əliyeva. Bakı: Maarif, 1997, 199 s.
8. Vahabzadə B. Zaman və mən. Bakı: Azərnəşr, 1999.
9. Vahabzadə B. Sandıqdan səslər. Bakı: Təfəkkür, 2002, 125 s.
10. Vahabzadə B. Ədəbi düşüncələr. Məqalələr toplusu. Bakı: Təhsil, 2000.
11. Vahabzadə B. Sən olmasaydın... Bakı: Araz, 2009.
12. Bəxtiyar Vahabzadənin poeziyası 6 cilddə çapdan çıxdı // Ədəbiyyat qəzeti, 2003-cü il 14 mart.

B XT YAR VAHABZAD V ALTMI INCILAR

(B xtiyar Vahabzad v 60-cı ill rin poetik prosesi)

Ya ar Qasımb yli

AMEA-nın Baş elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru
yashargasimov@mail.ru

XÜLAS

"Bəxtiyar Vahabzadə və altmışıncılar" məqaləsində vurğulanır ki, xalq şairi Bəxtiyar Vahabzadə XX yüzilin ikinci yarısındakı Azərbaycan poeziyasının ən görkəmli nümayəndələrindən biridir. Milli dərdlər və faciələr, xüsusən, 60-cı illərdən etibarən şairin yaradıcılığında bariz şəkildə nəzərə çarpmağa başlamışdır. Bəxtiyar Vahabzadə 60-70-ci illər poetik prosesinin mahiyyətini və yönünü müəyyənləşdirən, zamanın poetikasında silinməz izlər qoyan təkrarsız sənətkardır. Bu dövr Azərbaycan şeirində fəlsəfi lirika və fikir poeziyasının möhtəşəm uğurları məhz Bəxtiyar Vahabzadə yaradıcılığı ilə səciyyələnir. Eyni zamanda, poema janrının inkişafında, yeni poetik elementlər və motivlərlə zənginləşməsində Bəxtiyar Vahabzadənin xidmətləri əvəzsizdir. O, yalnız Azərbaycan poeziyası sərhədləri daxilində deyil, ümumiyyətlə, bütün Sovetlər Birliyi ədəbiyyatında və türk dünyasında tanınmış, etiraf edilmiş qüdrətli bir sənətkar olmuşdur.

Açar sözl r: Yeni şeir, Bəxtiyar Vahabzadə, altmışıncılar, Əli Kərim, Abdulla Aripov.

Bəxtiyar Vahabzadə XX yüzil Azərbaycan poeziyası tarixində özünəməxsus yer tutur. O, 40-cı illərin sonları və 50-ci illərin əvvəllərində ədəbiyyata gəlməsinə, onlarla şeir və poemalar yazmasına baxmayaraq, onun əsl böyük sənətkar kimi formalaşması və püxtələşməsi 60-cı illərə təsadüf edir. Bədii fikir tariximizdə 60-80-ci illəri son dərəcə məhsuldar və milli vətənpərvərlik duyğularının bariz surətdə nəzərə çarpdığı bütöv bir poetik epoxa kimi götürsək, Bəxtiyar Vahabzadə bu dövrün ədəbi simasını və dəst-xəttini müəyyənləşdirən qüdrətli sənətkarlardan biridir.

Bəxtiyar Vahabzadə yaradıcılığı ilə 60-cı illərin poeik prosesi arasındakı yaxınlığı və doğmalığı şərtləndirən əsas xüsusiyyətlərdən biri şair yaradıcılığının aparıcı tematikasının qeyd etdiyimiz dövrün əsas estetik motivləri ilə üzvi surətdə uyğunluğudur. İkinci bir tərəfdən isə Bəxtiyar Vahabzadə şeirlərini səciyyələndirən əsas lirik mündəricənin o vaxtlar hələ çox gənc olan altmışıncıların pərəstiş etdikləri poetik leytmotivlərlə üst-üstə düşməsidir. Burada bunu da əminliklə söyləmək mümkündür ki, altmışıncıların yeni estetik dünyagörüşünə yiyələnməsində və bədii axtarışlarının əsas istiqamətlərinin müəyyənləşməsində Bəxtiyar Vahabzadə yaradıcılığının qüvvətli təsiri olmuşdur. Həmin illərdə qələmə alınmış, şairin irsində və zamanın poetik yaddaşında mühüm yer tutan bir sıra bədii nümunələri burada xatırlamaq yerinə düşər: "Ana dili" (1954), "Təklik" (1956), "Dağda şəlalə kimi" (1960), "Kimdir mənim düşmənim" (1960), "Özümdən narazıyam" (1960), "Ana hədiyyəsi" (1962), "Vətəndən vətənə" (1962), "Səadət nədir" (1962), "Anam haqqında şeirlər" (1963), "Ağıl-göz" (1963), "Habil seygahı" (1964), "Mənim şeirim" (1964), "Azərbaycan oğluyam" (1966) və başqaları nəzərdən keçirdiyimiz dövrün poetik nəfəsini və abu-havasını nümayiş etdirən əsərlərdir.

"Ana dili" (1954) şeirini yeni poetik epoxanı başlayan və ədəbiyyat aləminə təşrif buyurmuş gənc nəsilləri cəsarətləndirən qiymətli bədii nümunələrdən biri hesab etmək olar. Bu şeir yeni poetik dövrün bünövrəsinə qoyulmuş ilk və möhkəm təməl daşlarından sayılmalıdır.

Dil açanda ilk dəfə ana söyləyirik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südü ilə
İçirir ruhumuza bu dildə gilə-gilə[1].

"Ana dili" şeiri müəllifin doğma dilinə, Vətəninə və millətinə sadəcə bir sevgi izharı deyildi. Daha çox analitik bir lirik səciyyəyə malik, estetik proqram yüklü bir şeir idi. Şair müdhiş və amansız 20-ci, 30-cu və 40-cı illərin qanlı-qadalı qadağalarından sonra ilk dəfə olaraq öz kökünə və mahiyyətinə müraciət edirdi. Həmin onilliklərin müxtəlif "izm"lərlə damğalanmış bədii arsenalına və salnaməsinə nəzər salsanız, "Ana dili" adlanan bir şeirlə çətin qarşılaşarsınız. Cəmi bir neçə on il ərzində ard-arda üç əlifba sınağından keçmiş bir millətə ana dilini xatırlatmaq, təbii ki,

[1] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Öndər nəşriyyat", 2004. səh. 8.

yasaq edilmişdi. Zira min illik ədəbi ənənələri, dədə-baba şeir yolunu unutmağa and içən (daha doğrusu and içdirilən!) 20 və 30-cu illərin poetik gəncliyi ana dili barəsində düşünə bilmək ovqatında deyildi. Zaman yeni ictimai-estetik vəzifələri diqtə edirdi. Gənc və təcrübəsiz qələm əhlindən keçmişə və tarixə deyil, yalnız bu günə sədaqət, milli birliyə deyil, siyasi birliyə əhd-peyman, dədə-baba və ana-nənələrə deyil, siyasi elitaya və partiyaya məhəbbət, mənbəyə, mənşəyə, mahiyyətə deyil, siyasi şüarlarla beyinlərə yeridilmiş təkcə absurd və abstrakt gələcəyə məhəbbət tələb edilirdi. Gənc Bəxtiyar Vahabzadə doğma xalqının beynini və şüurunu qapsamış zərərli və zəhərli düşüncə tərzini bənd-bənd, lay-lay, hissə-hissə sökməyə, dağıtmağa can atırdı. Şeirin hər bir misrasında zamanın sanki bir qadağası və məhdudiyyəti inkar edilir, aradan götürülürdü. Və köhnə, zərərli, xəstə düşüncə layları, qatları əvəzinə yeni, sağlam və həyati əhəmiyyətə malik, yaşarı özüllər, təməllər vurğulanırdı:

Bu dil, - bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil, - bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil, - tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil, - əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək[1].

"Ana dili" şeiri yalnız Bəxtiyar Vahabzadənin deyil, yeni zamanın poetik manifesti kimi səslənirdi. Yeni estetik epoxanın görməli olduğu bütün işləri və vəzifələri müəllif məharətlə sanki bir şeirdə cəmləmiş və ümumiləşdirmişdi. Gənc şair ana dilinin millət üçün nə demək olduğunu ehtirasla vurğulayırdı; ana dilinin tarixlərdən keçib gəlmiş ən mötəbər və müqəddəs sərvət olduğunu, millətin təkcə bu gün deyil, gələcəkdə də yaşaması və var olması üçün əsasların əsası olduğunu, onun milli özlük və özünəməxsusluq sənədi, milli namus və şan-şöhrət pasportu olduğunu söyləyirdi: "Ana dilim, səndədir, xalqın əqli, hikməti, Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış. Ürəklərə yol açan Füzulinin sənəti, Ey dilim, qüdrətinlə dünyalara yol açmış. Səndə mənim xalqımın qəhrəmnlıqla dolu Tarixi varaqlanır, Səndə neçə minillik mənim mədəniyyətim, Şan-şöhrətim saxlanır. Mənim adım, şanımsan, Namusum, vicdanımsan"[2].

Bəxtiyar Vahabzadənin "Ana dili" şeirini 50-ci illərin sonu və 60-cı illərdəki poetik proses kontekstində dəyərləndirərkən, qeyri-ixtiyari olaraq, həmin dövrün bir sıra böyük və möhtəşəm şeirləri də yada düşür. Xüsusən, gənc altmışıncılardan Əli Kərimin, Məmməd Arazın, Xəlil Rza Ulutürkün və başqalarının ana Vətən, ana dili və ana haqqındakı şeirlərini ayrıca qeyd etmək olar. Məsələn, poeziya həvəskarlarının bir çoxunun əzbər bildiyi Əli Kərimin məşhur "Qaytar ana borcunu" şeirini xatırlayaq. Bu şeirdə də Vətənə və anaya məhəbbət ana avazına, ana şivəsinə və ana dilinə sevgi ilə üzvi surətdə birləşmişdir: "Qaytar o dilindəki şirin-şirin sözləri! O sözü, o söhbəti, gülüşü anan verib, Ana dodaqlarından bala dodaqlarına. İndi ondan gen gəzən oğul ayaqlarına Yerişi anan verib. Qaytarsan o sözləri, sözsüz bir lal olarsan, Qaytarsan o yerişi, yerindəcə qalarsan"[3]. "Ana dili" və "Qaytar ana borcunu" şeirlərinin sonluğu da bir-biri ilə həmahəngdir. Hər iki müəllifin qəzəbli xitabı zamanın mənəvi-estetik ehtiyaclarından doğulmuşdu. Bəxtiyar Vahabzadə öz dədə-babasının və öz anasının dilində danışmaqdan xəcalət çəkənləri el-yurd içində rüsvay edirdi. Onlara üzünü tutub qəzəblə söyləyirdi:

Ey doğma dilində danışmağı ar bilən,
Bunu iftixar bilən
Modalı ədəbazlar,
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Qoy bunlar mənim olsun.
Ancaq Vətən çörəyi
Bir də ana ürəyi
Sizlərə qənim olsun!.

[1] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. səh. 8.
[2] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. səh. 8-9.
[3] Əli Kərim. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1974. səh. 23.

Əli Kərimin lirik qəhrəmanı da öz anasından üz çevirmiş nankor oğul haqqındakı tragik-emosional hekayəsini atəşin və odlu-alovlu müraciətlə bitirirdi. Təbii ki, o dövrdəki Azərbaycanda gənc şairin bu ehtiraslı və qəzəbli sözlərindən çoxlarına pay düşürdü. Bəxtiyar Vahabzadənin taleyüklü kədərini və milli yanğısını Əli Kərimin lirik qəzəbi və etirazları son dərəcə yüksək və emosional bədii intonasiyada tamamlayırdı: "Sən ki dərd verdin oğul, sənə gülüş verənə, Oğul demərəm sənə! Deyirəm ki, o boyu, buxunu qaytar geri! Deyirəm ki, varını, yoxunu qaytar geri! Qaytar ana borcunu, Gülüşünü, adını, sözünü qaytar geri! Qaytar onun borcunu, O borc sənin özünsən, Özünü qaytar geri"[1].

"Ana dili" və "Qaytar ana borcunu" şeirlərindən bəhs edərkən, ümumən, altmışıncıların bu mövzudakı poetik axtarışlarına toxunmaq vacibdir. Çünki "Ana" və "Ana dili" adlanan şeirlər bu mübariz pleyadanın yaradıclığında xüsusi çəkiyə malikdir. Elə Bəxtiyar Vahabzadənin "Ana dili" şeirindən başqa "Anam haqqında şeirlər"i, Əli Kərimin "Ana" şeiri, Xəlil Rza Ulutürkün "Anama məktub", ana və ata haqqında şeirləri, Məmməd Arazın "Anamdan yadigar nəğmələr" silsiləsi, "Nənəmin kitabı", "Ana torpaq", "Azəri qızı", "Ana yaşı" və s. bədii nümunələr 60-cı illərin poetik mənzərəsini müəyyənləşdirir. Bəxtiyar Vahabzadə və Əli Kərimin, ümumiyyətlə, Azərbaycan altmışıncılarının bu mövzudakı əsərlərini daha geniş müstəvidə - sabiq ümumittifaq ədəbi kontekstində nəzərdən keçirsək, bəhs etdiyimiz poetik tendensiyanın dərin köklərə və geniş miqyasa malik olduğunu müşahidə edərik. Xüsusi qeyd etməliyik ki, "Ana dili", "Ana", "Ana Vətən" haqqındakı şeirlər Baltikyanı respublikalar, Ukrayna, Mərkəzi Asiya respublikalarının poeziyasında, ələlxüsus da altmışıncıların yaradıcılığında bu mövzu aparıcı mövqeyə malik idi. Məsələn, bu nöqteyi-nəzərdən özbək altmışıncılarının mənəvi-estetik axtarışları daha səciyyəvidir. Qardaş Özbəkistanın 60-cı illərin ümumittifaq bədii prosesində böyük əks-səda doğurmuş son dərəcə istedadlı və vətənpərvər poetik gəncliyinin öncül nümayəndələri Erkin Vahidov, Abdulla Aripov, Rauf Pərfi, Aman Mətçan, Çolpan Erqaş, Maarif Cəlil, Camal Kamal, Həlimə Xudayberdiyeva, Aydın Hacıyeva, Məşrəb Babayev, Abdulla Şir, Süleyman Rəhman və başqalarının ilk lirikasında mühüm yer tutmuş "Ana dili", "Ana", "Ana torpaq", "Anacan", "Anama məktub" tipli şeirlər dediklərimizə parlaq misal ola bilər. Bəxtiyar Vahabzadənin 60-cı illərin poetik prosesi tərkibinə nə qədər və nə dərəcədə dərindən nüfuz etdiyini anlamaq üçün böyük sənətkarın "Anam haqqında şeirlər"i ilə böyük özbək şairi Abdulla Aripovun "Anacan" şeirini qısaca müqayisə etmək kifayətdir: "Anam öldü! Son nəfəs, Son hıçqırıq, Son nida! Bizə dedi əlvida! Bir saat əvvəl duyan, hiss eləyən bir insan Yatağında daş oldu. Heçliyə doğru axan Bir axına qoşuldu. Anamın ölümündən Bir an keçib, ancaq o, Daş olub insan ikən, Öz-özünü danıbdır. Bircə anda O bizdən Min il aralanıbdır"[2]. Abdulla Aripovun "Anacan" şeiri də eynən bu cür emosional və əlamli duyğular axını ilə başlayır: "Neçə gündür yox aramım, Gələmmirəm huşuma. Anacanım hey gecələr Girər mənin yuxuma. Əllərində ağ bir yelpik Ay nurunda parıldar. Anacanım işarəylə Öz yanına çağırar. Gətirər o əldə beşik, Gözlərində həyəcan. Yatmaq vaxtın çatdı deyər, Tez gəlsənə, balacan. Harayasa yüyürürəm, Ah-naləmdən çıxar od, Çox ağlama, deyib mənə, Göstərərlər bir tabut. Səhər çağı göz açaram, Qovrular təndə can. Anacanım, belə etmə, Şəfqət eylə, anacan"[3].

60-cı illərin poetik prosesində Bəxtiyar Vahabzadənin mövqeyini müəyyənləşdirərkən böyük şairin ədəbi proqram yönlü şeirləri ilə gənc altmışıncıların poetik manifestləri arasındakı uyğunluğu da vurğulamaq zəruridir. Görkəmli sənətkarın "Təklik" (1956), "Dağda şəlalə kimi" (1960), "Kimdir mənim dşmənim" (1960), "Özümdən narazıyam" (1960), "Habil seygahı" (1964), "Mənim şeirim" (1964), "Nəsənsə, özün ol" (1966) və s. şeirləri onun gənc altmışıncılarla əqidədaş və məsləkdaş olduğunu əks etdirir. "Təklik" şeirində müəllif qəlbinin bütün hərarəti ilə ədəbi həmrəyliyi tərənnüm edirdi.

Dünayaya gəlmədik biz əbəs yerə,
İnsanıq, insan da bizə gərəkdir.
Bağatək qınına çəkilənlərə
Ürək nə gərəkdir, dil nə gərəkdir.

[1] Əli Kərim. Seçilmiş əsərləri. İki cilddə. I cild. səh. 22-23.
[2] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. səh. 18-19.
[3] Abdulla Oripov. Yillar armonı. Toşkent, Ğafur Ğulam nomidaqi Adabiyot va sanat naşriyotı, 1984, səh. 141.

Çay-çaya qovuşmaz sular daşmasa,
Ulduzun ulduzla ünsiyyəti var.
Göydə buludlar da qoşalaşmasa
Nə ildırım çaxar, nə yağış yağar...

Yol tapa bilərmi saz ürəklərə,
Mizrab asta-asta telə dəyməsə?
Çıxarmı qönçədən tək bircə kərə
Bülbülün nəfəsi gülə dəyməsə[1].

Şair həyatdan və təbiətdən gətirdiyi ibrətamiz misallarla birliyin, həmkarlığın və həmrəyliyin bəhrəsini, nəticələrini oxucuya çatdırır. Bütün dünya və kainat məhz bu birliyin əsasında yaşaya və mövcud ola bilir. Şeirdə müəllif bunun əksini də göstərir. Yenə də təbii və həyati misallara müraciət edir. Əgər bir-birinə bağlılıq, qoşalıq, yaxınlıq, yəni birlik olmasa – nələr baş verər, nələr ola bilər? Şair birliyin və ünsiyyətin nəticəsini əks etdirə bildiyi kimi, təkliyin və yalqızlığın acı nəticələrini də təsirli poetik detallarla əyani şəkildə göstərməyə nail olub: "Öz el-obasını tərk etdiyindən, Tək-tənha dolanır bayquş bu gün də. Kolların dibində tək bitdiyindən Boynu bükük olur bənövşənin də. Od vurmasa, qabda su daşa bilməz, Quş da tək qanadla dağ aşa bilməz. Kösöyün iksi çöldə də yanar, Biri ocaqda da alışa bilməz"[2]. Təklik faciəsini göstərməklə böyük sənətkar təkcə qələm əhlini deyil, bütün millətini birliyə və həmrəyliyə səsləyirdi. Zira milli səadətin və tale aydınlığının yolu yalnız və yalnız milli birlikdən keçdiyini gənc və müdrik sənətkar dərindən anlayırdı. Bəxtiyar Vahabzadə zəmanəsinin böyük şairləri Rəsul Rza və Osman Sarıvəlli, Mirvarid Dilbazi və Nigar Rəfibəyli, Balaş Azəroğlu və Əhməd Cəmil, Söhrab Tahir və Hüseyn Arif, Nəbi Xəzri və Əliağa Kürçaylı və başqaları ilə yanaşı, eyni zamanda, ürəkdən sevdiyi və gələcəklərinə böyük ümidlər bəslədiyi gənc altmışıncılara – Əli Kərimə, Xalil Rza Ulutürkə, Məmməd Araza, Fikrət Qocaya, Nəriman Həsənzadəyə, Şahmar Əkbərzadəyə üz tutub deyirdi:

Qəlbimdə min sözüm, min söhbətim var,
Mən deyim, siz deyin, dil yorulmasın.
Yığılın, yığılın başıma, dostlar,
Mənim bir günüm də sizsiz olmasın.

Dostların qəlbidir yurdum, məskənim,
Ürəkdə bir nisgil gərək olmasın.
Sağlığım bir yana, a dostlar, mənim,
Soyuq məzarım da heç tək olmasın[3].

Bəxtiyar Vahabzadənin ədəbi arzuları altmışıncıların poetik manifestləri ilə tamamilə üst-üstə düşürdü. "Dağda şəlalə kimi" (1960) şeirində müəllif yeni ədəbiyyat yaratmağın yolları və üsulları haqqında dərindən düşünürdü. 30-50-ci illər ərzində konfliktsizlik "nəzəriyyəsi" və "vulqar sosioloqizm" kimi qeyri-həyati, qeyri-elmi təlimlərin cəmiyyət həyatındakı hökmranlığı nəticəsində milli mədəniyyətimiz acınacaqlı vəziyyətə düşmüşdü. Xalq siyasi ideyaları və şüarları, yəni bir fikiri, bir mənanı, bir rəngi, bir səsi, bir münasibəti ifadə etmək alətinə çevrilmiş ədəbiyyata və incəsənətə inamını itirmişdi. Söz sənətinə öz ləyaqətini, itirilmiş inam və etiqadları qaytarmaq üçün yeniləşmək hava və su kimi zəruri idi. Bu zərurəti isə cəmiyyətdəki daha çox istedadlı və gənc insanlar bütün kəskinliyi ilə hiss edirdilər. Bəxtiyar Vahabzadə və altmışıncılar zamanın, cəmiyyətin mənəvi ehtiyaclarını və ağrı-acısını dərindən hiss edən sənət adamlarının ön sıralarında idilər. "Dağda şəlalə kimi" şeirinin proloqunda və epiloqunda müəllif ilhamla öz zamandaşlarına xitab edirdi:

Bir rəngi yox, göylərin min rəngini sevirəm.
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm;
Həyatı həyat kimi yaşamaq istəyirəm. Yaşamaq istəyirəm![1]

[1] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. səh. 10.
[2] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. səh. 10.
[3] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. səh. 10-11.

Gənc və qüdrətli şair poeziyanı öz əzəli və əbədi məskəninə - insan qəlbinə, sevən və sevilən ürəklərə qaytarmaq istəyirdi. İnsanları miskin və müti həyat tərzindən, daş kimi donub yaşamaq, mövcud olmaq qismətindən xilas etmək istəyirdi. "Kədərdəki nəşəni, zövqü anlamayanlar, Həyatın nəşəsindən, fərəhindən nə anlar? Hər kədəri səadət, hər sevinci qəm izlər, Əsl könül həm qəmi, həm sevinci əzizlər. Tələtümsüz ürəklər qovuq kimi boş olur, Daim sevinc axtaran daim qəmə tuş olur" deyən şair öz yurddaşlarını və zamandaşlarını coşğun, tələtümlü, mübarizələrlə dolu, sevinc və qəmlərlə zəngin bir həyat sürməyə səsləyirdi. Şairin donmuş ürəkləri hərəkətə və əsl həyata dəvət edən ilhamlı avazı yaşamaq əzmi ilə çırpınan qəlblərə su kimi səpilirdi:

Çağlamaq istəyirəm dağda şəlalə kimi,
Səpilmək istəyirəm çöllərə lalə kimi.
Dərya olub, nəhr olub çalxanmaq istəyirəm.
Şığımaq istəyirəm başsız küləklər kimi,
Bəslənmək istəyirəm bütün ürəklərdə mən,
arzu, diləklər kimi[2].

Bəxtiyar Vahabzadənin o illərdə hələ çox cavan olan alovlu zamandaşı və əqidə yoldaşı, İstiqlal şairi Xəlil Rza Ulutürk zamanın bütün çərçivələrini sındıraraq və hüdudlarını aşaraq mühitə və cəmiyyətə səslənirdi: "Azadlığı istəmirəm, zərrə-zərrə, qram-qram, Qolumdakı zəncirləri gərək qıram!!!" "Dağda şəlalə kimi" şeirində isə lirik "mən" bir az başqa şəkildə, məhz o cür düşünürdü: "İstəmirəm həyatım sakitcə bir otaqda gəlib keçsin lal kimi... İstəyirəm döyüşəm qayaların başında düşmənlə qartal kimi". Məhz bu kimi qayəvi-estetik xüsusiyyətlərinə görə "Dağda şəlalə kimi" şeiri təkcə Bəxtiyar Vahabzadənin yox, ümumən, bütün yeni ədəbiyyatımızın proqramı kimi ədəbi mühitdə və cəmiyyətdə rezonans doğurmuşdu. Bu şeir, həqiqətən, yeni poetik epoxanın və yeni nəslin gur səsi idi:

Yaşamaq istəmirəm sürünüb dizin-dizin,
İstəyirəm ən uca zirvələrə mən qonam.
Xəfif sakitliyini neyləyirəm dənizin,
Onun qasırğasına, dalğasına vurğunam.
Qoy döysün yağış məni, boran məni, qar məni,
Həyatın boranları daim yaşadar məni[3].

Yeni Azərbaycan şeirinin estetik konsepsiyasını formalaşdırmaq gənc ədəbi qüvvələri uzun müddət düşündürmüşdür. Əslində sosialist realizmi adlanan bədii metod-ehkamın inkarı və bədii təcrübədən çıxarıb atılmasına 60-cı illərdən etibarən başlanılmışdı. Konfliktsizlik "nəzəriyyəsi" və "vulqar sosiologizm"in ləğvi prosesi istər-istəməz sosialist realizmi metodunun nüfuzuna da güclü zərbələr endirirdi. Köhnə ədəbi qayda-qanunların, onların necəliyindən, nə dərəcədə proqressiv və ya mürtəce mahiyyət daşımasından asılı olmayaraq, üstündən xətt çəkmək o qədər də çətin deyil. Ancaq yenisini yaratmaq həmişə ədəbi həyatı böyük çətinliklərlə üz-üzə qoyur. 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində də yeni bədii idrak və inikas sisteminin formalaşdırılması son dərəcə ağrılı və mürəkkəb bir proses idi. Köhnə ədəbiyyat tərəfdarları gənc nəslə müqavimət göstərir və aqressiv münasibət bəsləyirdilər. Gənc altmışıncılar məhz belə bir çətin və mürəkkəb şəraitdə öz ədəbi mübarizələrini davam etdirirdilər. Nəzərə alsaq ki, bu proses bütün keçmiş ümumittifaq ədəbiyyatında və böyük miqyaslarda gedirdi, onda bu yenilənmənin bütün miqyasını və hüdudlarını təsəvvür etmək mümkündür. Rus mədəniyyətindən tutmuş əyalətlərdəki milli ədəbiyyatlara qədər bütün məmləkətdə bir təzələnmə ovqatı hökm sürürdü. Bu böyük və möhtəşəm yenilənmənin ön sıralarında isə, təbii ki, poeziya gedirdi. Bu nöqteyi-nəzərdən 60-cı illərin canlanma və təzələnmə ovqatı ilə yoğrulmuş ədəbi gedişatına nəzər salanda şeir və ədəbiyyat haqqında, söz sənətinin müxtəlif problemləri haqqında təkcə ədəbi-nəzəri əsərlərin deyil, ədəbi-bədii əsərlərin də çoxluq təşkil etdiyinin şahidi oluruq. Burada Əli Kərimin, Məmməd Arazın, Xəlil Rza

[1] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. səh. 13.
[2] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. səh. 13.
[3] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. səh. 12.

Ulutürkün, Fikrət Qocanın, Ələkbər Slahzadənin və başqalarının “Şeir”, “Şeirə gətir”, “Şeirim”, “Mənim şeirim”, “Poeziya...” tipli şeirlərini göstərə bilərik. Bəxtiyar Vahabzadənin “Mənim şeirim” (1964) əsərini də məhz bu müstəvidə dəyərləndirmək lazımdır. Zamanın yeni bədii manifestinin yaradılması işində bu şeirin də özünəməxsus yeri və əhəmiyyəti vardır: “Əbədi bir od kimi öz içindən közərib, Hey yanır şeirim mənim. Bu günümdən sabaha boylanır şeirim mənim. Gəzib dildə-dodaqda, Uçur, uçur həmişə özümdən də qabaqda. İdrakımın gözləri, Əqidəmin ən təmiz, ən mənalı sözləri, Duyan ürəyi şeirim, Bütün diləklərimin ən saf diləyi şeirim”[1].

“Mənim şeirim”, “Kimdir mənim düşmənim”, “Dağda şəlalə kimi”, “Özümdən narazıyam”, “Nəsənsə özün ol” kimi şeirlərlə Bəxtiya Vahabzadə 50-ci illərin sonu və 60-cı illərin əvvəllərindəki bədii gedişatın yönünü və mahiyyətini müəyyənləşdirən qüdrətli bir qələm sahibi olduğunu sübut etmişdi. Məhz buna görə də o hadisələrdən və mübarizələrdən 50 ildən də çox vaxt keçməsinə baxmayaraq ədəbiyyatımızın və estetik fikrimizin yenilənməsində, milli vətənpərvərlik özülü əsasında yüksəlməsində atəşin altmışıncılarla birlikdə böyük sənətkarımız Bəxtiyar Vahabzadənin də gərgin əməyi və zəhmətləri unudulmur.

Beləliklə, yuxarıdakı mülahizələri ümumiləşdirərək əminliklə söyləmək mümkündür ki, 60-cı illər özünün bütün böyük-kiçik ədəbi zamandaşları yaradıcılığında olduğu kimi, Bəxtiyar Vahabzadənin poetik taleyində də tamamilə yeni bir mərhələdir. Bəxtiyar Vahabzadənin mövcud zamanla və ictimai-siyasi mühitlə poetik polemikası da bu dövrdən etibarən dərinləşməyə başlayır. Böyük şairin bədii fikir tariximizdə silinməz izlər qoymuş “İnsan və zaman”, “Kimdir mənim düşmənim” adlanan məşhur silsilə şeirləri, “Gülüstan”, “Şəbi Hicran”, “Etiraf” kimi ölməz poemaları, “Vicdan”, “İkinci səs” kimi bir neçə onillər səhnədən düşməyən əsərləri məhz 60-70-ci illərdə yazılmışdır.

Bəxtiyar Vahabzadənin altmışıncılıq hərakatına və ovqatına münasibəti əlahiddə öyrənilməyə layiq bir elmi problemdir. Onun Rəsul Rza, Osman Sarıvəlli, Əhməd Cəmil kimi ustad sənətkarlarla da, nisbətən özündən cavan şairlər – Əli Kərim, Məmməd Araz, Xəlil Rza Ulutürk, Fikrət Qoca, Ələkbər Salahzadə, Nəriman Həsənzadə, Şahmar Əkbərzadə və başqa o vaxtlar çox gənc olan altmışıncılarla da sıx yaradıcılıq əlaqələri olmuşdur. Böyük şair özünün yenilməz iradəsi və poetik cəsarəti ilə həmişə cavan həmkarlarını ruhlandırmışdı.

Bədii cəhətdən cazibədar və vətəndaşlıq qeyrəti ilə yoğrulmuş əsərləri Bəxtiyar Vahabzadəni yalnız Azərbaycanda deyil, onun sərhədlərindən uzaqlarda da şöhrətləndirmişdi. Şairin cəsarətli poeziyasını Rusiyanın, Ukraynanın, Türkiyənin, Baltikyanı respublikaların, Özbəkistan və Qazaxıstanın ədəbi ictimaiyyəti ürəkdən sevir, yüksək dəyərləndirirdi. Onun məşhur rus şairləri Yevg. Yevtuşenko və Rimma Kazakova, qazax Oljas Süleymanov və Muxtar Şaxanov, özbək Abdulla Aripov və Camal Kamal ilə yaradıcılıq dostluğu elm aləminə yaxşı məlumdur. Təkrarsız poeziyası və dramaturgiyası, ədəbi-tənqidi məqalələri və publisistikası ilə milli söz sənətimizi zənginləşdirən böyük şairin sənət dünyasında 60-cı illərdən etibarən yeni və geriyədönməz, milli duyğularla yoğrulmuş bir dövrün başlanması nəticəsində, ümumiyyətlə, Bəxtiyar Vahabzadə yaradıcılığının özü Azərbaycan poeziyasında müstəqil və özünəməxsus bir mərhələyə çevrildi.

D B YYAT

1. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, “Öndər nəşriyyat”, 2004.
2. Əli Kərim. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1974.
3. Abdulla Oripov. Yillar armonı. Toşkent, Ğafur Ğulam nomidaqi Adabiyot va sanat naşriyotı, 1984.

[1] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. səh. 25.

B XT YAR VAHABZAD M H MM D HAD HAQQINDA

slam Q ribli
AMEA Nizami adına Ədəbiyyat İnstitutu,
fil. f. d., aparıcı elmi işçi

XÜLAS

Bu yazıda Məhəmməd Hadi və Bəxtiyar Vahabzadənin sənətkar və şəxsiyyət olaraq oxşar cəhətlərinə nəzər salınır. B. Vahabzadənin M. Hadi irsinə verdiyi qiymət konkret əsərlər əsasında müəyyənləşdirilir. B. Vahabzadənin M. Hadiyə yüksək qiymət verməsinin səbəbləri açıqlanır.

Açar Sözl r: Məhəmməd Hadi və Bəxtiyar Vahabzadə, tərəqqi, qadın azadlığı, məhəbbət mövzusu, ictimai varlıq, dövlət və cəmiyyət.

SUMMARY

The article is about the similiar characteristics of Muhammed Hadi and Bakhtiyar Vahabzade as a master and a personality. Based on concrete works, it evaluates the appreciation by B.Vahabzade given to the Hadi's heritage. It uncovers the reasons why B.Vahabzade so highly appreciated M.Hadi.

Key words: Muhammed Hadi and Bakhtiyar Vahabzade, prosperity, woman freedom, love topic, public entity, state and society.

Məhəmməd Hadi və Bəxtiyar Vahabzadə XX əsrdə Azərbaycan xalqının bəşər mədəniyyəti və ictimai fikir tarixinə bəxş etdiyi möhtəşəm şəxsiyyətlərdəndir. Onların hər ikisini birləşdirən bir çox müştərək xüsusiyyətlər vardır ki, bir neçəsini qeyd etməklə əsas məsələnin şərhinə - ədəbiyyatşünas Bəxtiyar Vahabzadənin Məhəmməd Hadiyə münasibəti və onun yaradıcılığına verdiyi qiymət məsələsinə keçəcəyik.

- Biri XIX əcrin axırları XX əsrin əvvəllərində, ikincisi XX əsrin ortaları və ən əvvəl şair XXI əsrin əvvəllərində yaşayan bu iki şəxsiyyət və alovlu vətənpərvərdir;
- Hər ikisi şair olmaqla yanaşi böyük mütəfəkkir, ensiklopedik təfəkkürlü alimdir;
- Hər ikisi milli azadlıq mücadiləsinə canı və qələmi ilə əvəzsiz töhfələr bəxş edən fikir bahadırıdır;
- Hər ikisi böyük millətçi və böyük türkçüdür;
- Hər ikisi mahir tərcüməçi və kəsərli qələm sahibi olan publisistdir;
- Hər ikisi "azadlıq bülbülü", əsərləri və şəxsiyyətləri ilə millətə yol göstərən vətən aşiqi, hürriyyət pərvanəsidir.

Bu siyahını uzatmaq da olar. Lakin məqsəddən uzaq düşməməkçün əsas məsələyə keçirik.

B. Vahabzadənin M. Hadi şəxsiyyətinə və irsinə vurğunluğu gənc yaşlarından, hələ orta məktəbdə oxuduğu illərdən başlamış, o, 1942-ci ildə Bakıdakı 176 nömrəli orta məktəbi bitirdiyi il yazdığı və M. Hadiyə həsr etdiyi "Xəzan bülbülü" poeması ilə həyatı facilələrlə dolu olan böyük mütəfəkkirə məhəbbətini ifadə etmişdir. B. Vahabzadənin sonralar, bir sənəktar və alim kimi püxtələşdiyi zamanlarda yazdığı "Sənətkarın faciəsi" əsəri isə M. Hadinin ədəbi irsininə verilən obyektiv qiymət kimi bu gün də elmi dəyərini saxlamaqdadır

B. Vahabzadəyə qədər hadişünaslıqda müəyyən işlər görülmüş, M. Hadi irsinə müxtəlif münasibətlərlə bəzən biri digərini inkar edən qiymətlər verilmiş, bütün müəlliflər M. Hadini qeydsiz-şərtsiz böyük sənətkar kimi qəbul etsələr də, totalitar sovet quruluşunun sərt qadağaları ucbatından bu bənzərsiz "hürriyyət əndəlibi"nə mümkün qədər ehtiyatla yanaşmış, qiymətini verməkdə tərəddüd göstərmişdilər. B. Vahabzadə isə onların əksəriyyətindən fərqli olaraq M. Hadini olduğu kimi qəbul etməyə, onun həqiqi, layiq olduğu qiyməti verməyə cəhd etmiş, onu "ürəyi Vətən və xalq məhəbbətlə döyünən, taleyi Vətənimizin taleyi ilə sıx bağlı olan şair" kimi səciyyələndirmişdir.

B. Vahabzadə çox döğru olaraq qeyd edir ki, XX əsrin ilk əvvəllərində Azərbaycanın başına gətirilən müsibətlər, xalqın dərd və yaraları M. Hadi poeziyasının başlıca təsvir və tərənnüm obyektidir. B. Vahabzadəyə görə, xəyal və fikirləri xalqının xoşbəxt gələcəyi ilə bağlı olan şair yalnız Vətən və azadlıq eşqi ilə yaşamış, "öz həyatını düşünməmiş, vətənin və xalqın səadətini düşünmüşdür".

B. Vahabzadə bildirir ki, "Hadi haqqında yazanlar onu bədbin, kədərli adlandırmışlar". Lakin bu yazanlardan fərqli olaraq o, kədərin mahiyyətini açır və nədən nəşət etdiyini ,tutarlı şəkildə

əsaslandıraraq yazır: “Onun şeirlərində üsyankar ruhla yanaşı bədbin – kədərli hallarla da tez-tez rast gəlirik. Lakin bu kədər heç də şəxsi hisslərdən doğan kiçik bir kədər deyil”.

Müəllifin qənaətinə görə, bu kədər “ürəyi böyük hisslərlə döyünən, böyük arzularla yaşayan vətəndaş bir şairin böyük kədəri idi. Onun sətirlərinin musiqisində, ahəngində, sözlərin və səslərin düzülüşündə belə qüdrətlə səslənən qəzəb dolu iniltiyə səbəb, yalnız və yalnız başına min cür müsibətlər gətirilən xalqın və vətənin dərdi idi”.

M. Hadini M.Ə.Sabirlə müqayisə edən, onların hər ikisini xalqın dərdinə çıraq kimi yanan şair kimi səciyyələndirən B. Vahabzadə onlar arasındakı fərqi də görmüş, birinin, yəni Sabirin fikirlərinin - alovunun xalqa doğru-düzgün çatdığını, Hadinin alovunun isə xalqa çatmadığı qənaətinə gəlmişdir.

Əlbəttə, biz B. Bahabzadənin Hadi haqqında dediyi: “O, xalqdan uzaq, hücrə bir guşədə yanan çırağa bənzəyir. Xalq onun nə işığını görmüş, nə də istisini. Bizcə Hadinin birinci faciəsi bunda idi”, yaxud “Hadi Sabir kimi xəstə millətin nəbzini tuta bilmir, yalnız fəryad qoparır. Bu da Hadinin ikinci faciəsi idi” – fikirlərini qəbul etməsək də, hər halda bunların düşündürücü məqamlar olduğu qənaətindəyik. B. Vahabzadə M. Hadinin faciəsinin digər, üçüncü səbəbini isə onun zamanın dolaşıq hadisələrindən baş çıxara bilməməsində, bəzən özünü itirməsində, büdrəməsində və hətta yıxlımasaında görür və biz bu fikirlə də razılaşmırıq.

Məlumdur ki, M. Hadinin ədəbi-elmi irsinin böyük bir hissəsi “Sənətkarın faciəsi” əsərinin yazıldığı illərdə(1958) ədəbi və elmi ictaimaiyyətə məlum deyildi. Çox təbii ki, B. Vahabzadə mütəfəkir sənətkarın nəsr, elmi və publisistik əsərləri, xüsusilə Azərbaycan Demokratik Cümhuriyyəti illərində çap etdirdiyi əsərlərlə yaxından tanış ola bilməmişdi və bu səbəbdən də, yalnız Hadinin 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin çap etdirdiyi M. Hadinin “Seçilmiş əsərləri”nə əsaslanaraq qənaətlərini bildirirdi. Sonrakı araşdırmalar sübut etdi ki, dili bir qədər çətin olsa da, M. Hadi də M. Ə. Sabir kimi millətinə yaxın olmuş, xalqı onu başa düşmüş, cəsarətlə ki, millətinə və xalqına heç də M. Ə. Sabirdən az xidmət etməmişdi.

B. Vahabzadə M. Hadi yaradıcılığının əsas motivləri kimi aşağıdakıları göstərir:

1. Xalqımız arasında cahil, nadan çoxdur; xalq irəli getməli, tərəqqi etməlidir.

2. Qərb elmi-əbdan sayəsində irəli getmiş, elektriki kəşf etmiş, göyləri və yerləri özünə təslim etmi

q % ə %l0.275 0 TD (õ)Tj /TT3 1 Tf 0 Tc 0 Tw <0525>Tj /TT4 1 Tf 0445 0 Td0.275 0 TD

duyğuları ilə nəfəs alan, yalnız özü üçün yaşayan adamcığazlar Hadini necə başa düşsün? Hadi özü demişkən: "Əhli-hal anlar məni!".

Böyük ustadın dedikləri tamamilə doğrudur. Hal əhli olmayan, M. Hadinin hansı ideallar uğrunda mübarizə apardığını anlamayanlar, onun dünyagörüşü, Şərq və Qərb fəlsəfəsi, ilahiyyat elmləri, Azərbaycan xalqının azadlıq və mücadilə tarixi ilə tanış olmayanlar M. Hadini anlamaqda çətinlik çəkəcəklər. M. Hadini, eyni zamanda B. Vahabzadını – bu iki böyük fikir sahibini anlamaq üçün ali və ən ülvi hisslərlə yaşamaq, millət yolunda heç bir mənfəət, təltif, ad-san ummadan şam kimi ərimək lazımdır. Əks təqdirdə, "Yox millətimin xətti bu imzalar içində", - deyən mütəfəkkir M. Hadini, "Şair öz xalqımdır, bilin ki, onun, Kamala dolmamış katibiyəm mən", -deyən ustad B. Vahabzadəni anlamaq hər adama nəsib olmaz.

B XT YAR VAHABZAD YARADICILI INDA AVTOB OQRAF K ÖRN KL R

Nail S m dova

Filologiya elmləri doktoru, dosent
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, aparıcı elmi işçi
nailesamadova@yahoo.com

XÜLAS

Azərbaycan memuar ədəbiyyatı çox zəngin və qədim ənənəyə malikdir. Orta əsrlərdə müəlliflər xatirələr, tərcümeyi-hallar yazmasalar da bədii əsərlərində özlərinin həyat və fəaliyyətlərindən bəhs etmişlər. Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov və digər Azərbaycan klassiklərinin yaradıcılığında öz əksini tapan tərcümeyi-hal xüsusiyyətləri çağdaş ədəbiyyatımızda yeni çalarlar əxz etmişdir. Böyük Türk ədəbiyyatının çağdaş nümayəndəsi sayılan, görkəmli şair Bəxtiyar Vahabzadənin seirlərində klassik Azərbaycan-türk ədəbiyyatında olduğu kimi avtobioqrafik xüsusiyyətlər əks olunmuşdur. Bu örnəklər onun həyat və fəaliyyətinin ayrı-ayrı məqamlarını canlandırır. Əsərlərində şairin uşaqlığı, gəncliyi, şəxsi həyatının özəllikləri bədii dillə təsvir olunmuşdur.

Məqalədə Bəxtiyar Vahabzadənin avtobioqrafik özəlliklərə sahib olan əsərləri tədqiqata cəlb olunacaq, memuar janrının bu əsərlərdəki təcəssüm formaları araşdırılacaqdır.

Açar sözl r: Vahabzadə, avtobioqrafik, tərcümeyi-hal, memuar, klassik ədəbiyyat.

AUTOBIOGRAPHICAL SAMPLES IN THE ACTIVITY OF BAKHTIYAR VAHABZADEH

ABSTRACT

The Azerbaijani memoirs literature has very rich and ancient tradition. The authors of the middle ages had dealt with their own lives and activities in their memoirs, biographies, letters and fictions. The specific biographical features reflected in the activities of Khagani Shirvani, Nizami Ganjavi, Mahammad Fizuli, Abbasqulu Aga Bakikhanov, Mirza Fatali Akhoundov and other classical authors have brought new peculiarities to our contemporary literature. In the poems of Bakhtiyar Vahabzadeh, eminent poet and contemporary representative of the great Turkish literature, were reflected autobiographical features as it has always been observed in the classical Azerbaijani-Turkish literature. These samples show the some periods of the poet's life and activity. In his works B.Vahabzadeh described his child hood, youth and some features of the private life with a fictional style. In the article, the works with autobiographical features of Bakhtiyar Vahabzadeh will be drawn into research and also, embodiment forms of memoir genre in these works will be analyzed.

Key words: Vahabzadeh, autobiographical, biography, memoirs, classical literature.

Çox zəngin və köklü ənənəyə malik olan Azərbaycan memuar ədəbiyyatı XX əsrin əvvəllərində formalaşsa da onun ilkin qaynaqları orta əsrlər ədəbiyyatına gedib çıxır. Orta əsr şairləri xatirələr, tərcümeyi-hallar, ümumən həyat və yaradıcılıqlarını tam işıqlandıran əsərlər yazmamışlar. Onların həyat və fəaliyyətləri haqqında müasirlərinin əsərlərinə, təzkirələrə istinadən, ən əsası da müəlliflərin bilavasitə öz əsərlərinin tədqiqi nəticəsində fikir söylənilmişdir. Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov və digər Azərbaycan klassiklərinin əsərlərində tərcümeyi-hal xüsusiyyətləri əks olunmuşdur.

Artıq XX əsrin əvvəllərindən başlayaraq yaradıcı insanlar öz həyat yollarını xatirələr – memuarlar yazmaqla canlandırmağa çalışmışlar. Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə,

Əli Nəzmi, Abdulla Şaiq, Yusif Vəzir Çəmənzəminli, Məmməd Səid Ordubadi, Əziz Şərif və başqaları xatirələrində həm özlərindən, həm müasirlərindən, həm də yaşadıqları mühitin özəlliklərindən bəhs etmişlər.

XX əsrin ən böyük şəxsiyyətlərindən biri, Türk dünyasının görkəmli şairi Bəxtiyar Vahabzadə tərcümeyi-hal və xatirələr yazsa da, gündəlik tərtib etsə də, demək olar ki, onun hər bir şeiri həyat və fəaliyyətinin müəyyən mərhələsini, ayrı-ayrı məqamlarını əhatə edir. "Hər hansı şəxsiyyət barəsindəki təsəvvür, tarixdə oynadığı rolun xarakterindən, miqyasından asılı olmayaraq, həmin şəxsiyyətin tərcümeyi-halından başlanır... B.Vahabzadə yalnız yaradıcılığı ilə deyil, Allahın hamı kimi ona da verdiyi tərcümeyi-halı ilə də milli idealların ifadəsinə, milli istəklərin təzahürünə xidmət etmişdir".[1] Şairin əsərləri bir növ tərcümeyi-halıdır desək, yanılmarıq. Uşaqlıq xatirələrini yada salan şeirlərinin birində ("Dünyamı, mənmi?") şair yazır:

Uşaqlıq şəklimə hey baxıram mən,
İllər xəyalımdan süzülüb keçir.
Şirin xatirələr gözüm önündən
Gah ağlayıb keçir, gah gülüb keçir.

Küçədən tapdığım rəngli bir şüşə,
Könlümü nə qədər sevindirərdi!
Adamlar, adamlar məni həmişə
Oxşayar, əzizlər, xoş dindirərdi.

"Hər şəkildə bir anım" şeirində də xatirələr çözələnir. Ötən illərdən xatirə qalan kağız parçalarını – şəkillərini özünün cansız var-dövləti adlandırır və hər şəklə baxarkən o vaxtkı duyğuları, arzuları yada düşür. Şairin "Beşik", "Ata yurdu", "Babamın koması" kimi şeirləri də bu ruhdadır. 1965-ci ildə qələmə aldığı "Mənim ad günlərim" şeirində Bəxtiyar Vahabzadə ad günündə evdə hamının şən olmasına baxmayaraq özünün fikirli olmasını bildirir və bu məqamda yenə uşaqlıq illəri xatırlanır:

Ancaq... uşaqlıqda istərdim hər gün,
Bizim evimizdə məclis qurulsun.
Günlərin hamısı dönüb büsbütün
Məni sevindirən ad günüm olsun.

Atamın , anamın yeganəsiydim,
Arzusu, həvəsi, könül səsiydim.
Ömrün nə qəribə günləri vardı,

N.Cəfərov. Bəxtiyar Vahabzadə. Bakı, "Azərbaycan" nəşriyyatı, 1996, s.5.

Mənim ad günlərim bayram olardı.
Mən nə biləydim ki, dəyişir insan,
Ad günün, şad günün olmur bir zaman.

Aldığım o gözəl oyuncaqları
Qaçıb göstərərdim dostlara bir-bir.
Hanı, hanı ömrün o şən çağları?
Gedən, a qardaşlar, bir daha gəlmir...

Bəxtiyar Vahabzadə babasının ömür yolunu "Buludlar nə yaman gözəl olurmuş", atasının mənəvi dünyasını, xasiyyətini, ona olan münasibətini "Göynərti", anasının yoxluğundan çəkdiyi acını "Anam haqqında şeirlər"də, qızına olan istəyini "Qızım Gülzara", "Anam təzədən böyüyür" şeirlərində canlandırmışdır. Atasına həsr etdiyi şeirdən məlum olur ki, o öz sevgisini atasına bildirməyə, ona təsəlli verməyə sıxılırdı. Ona elə gəlirdi ki, atasını öpüb qucaqlasa yüngül çıxar və o, bundan darıxar. Halbuki o, hamıdan sevgi, qayğı umurdu. Lakin ata dünyasını dəyişəndən sonra şairin təəsüflə axıtdığı göz yaşları, çəkdiyi peşmançılıq hissləri, özünün dediyi kimi, "kimə gərək, nəyə gərək". Bütün bu hissləri keşirən şair övladlara müraciət edir:

Ey övladlar,
Ayıq salmaq istəyirəm indi sizi.

Gizlətməyin atanıza, ananıza sevginizi.
Olursunuz, duman olun, sis olmayın,
Nədə xəsis olsanız da
Sevgidə xəsis olmayın!

Eyni duyğular "Mənim xalam" şeirində də ifadə olunmuşdur. Anası dünyasını dəyişdikdən sonra onun ətrini xalasından alan Bəxtiyar Vahabzadə xala uşaqlarına deyir:

Xalam uşaqları, sizə sözüm var
İndidən yanmayan sonra bərk yanar.
Düzünü deyim ki, anam sağ ikən,
Qədrini o qədər bilməmişəm mən.

Ayıltmaq istərəm indidən sizi
Yaman nigaranam xalamdan yana.
İndidən yandırın ürəyinizi
Qoymayın od tutub sonradan yana.

Ədəbiyyatşünas İfrat Əliyeva şairin tərcümeyi-halının yaradıcılığı ilə bağlılığını belə səciyyələndirir: "Məktəb həyatının şirin xatirələri şairi daim düşündürür, qəlbini riqqətə gətirir, onun bu mövzuya marağını daha da artırır. Şagird dostları, tələbəlik illərinin sirdaşları sanki yeni libasda, yeni görkəmdə gəlib onun qarşısında dayanır və şairi duyub yaşadıqlarını qələmə almağa çağırır". Bəxtiyar Vahabzadənin gənclik dövrünü işıqlandıran şeirləri həyatının o illərində baş verən xırda məqamlarına aydınlıq gətirir. Şair ömür-gün yoldaşına həsr etdiyi "İyirmi beş il" şeirində Sabir bağında ilk görüşlərini yada salır, illərin göz qırpımında keçib-getməyindən, hələ toy səsi qulağından getməmiş oğlunun toy arzusunda olduğundan şirin-şirin söhbət açır. Şair ömür yoldaşına müraciətlə:

Demə qocalmısan, gülüm, doğrusu
Mənimçün bir az da sonalaşmısan.
Balamın anası, nə sirrdir bu?
İndi mənimçün də analaşmısan –

deyərək, zaman ötüşdükcə məhəbbətin də ilk dadının dəyişildiyini göstərir.

Bəxtiyar Vahabzadə tələbə ikən universiteti başa vurmağın, dahiləri oxuyarkən sevginin, hicrana son qoymaq üçün ailə qurmağın səadət olduğunu düşünsə də yanıldığını "Səadət nədir" şeirində, universitetdə müəllimlik etdiyi illərdə keçirdiyi hissləri, tələbələrə olan münasibətini "Tələbələrimə" şeirində canlandırmışdır.

"Dağda şəlalə kimi", "Mənim şeirim", "Ümid", "Tələtüm", "Axtarışlarım" və s. şeirlərində şairin lirik "mən"i ön plandadır. Bəxtiyar Vahabzadənin bədiilik və sənətkarlıq baxımından mükəmməl olan əsərlərində dövr və zamana münasibət, fəlsəfi düşüncələr, insan

və dünya haqqında fikirlər üstünlük təşkil edir. Bununla belə, şair dünyəvi aləmə münasibət müstəvisində öz mənəvi aləmini ifadə etməyə nail olmuşdur ki, bu da onun tərcümeyi-halının bəzi məqamlarının aydınlaşmasına imkan vermişdir. "Qeybdən" adlanan şeirində şair Quranı dinləyərkən aldığı mənəvi paklığı belə ifadə etmişdir:

Quranı dinlədim, nura boyandım,
Dili qanmasam da, mənanı qandım.
Düşdüm birdən-birə səsin sehrinə,
Anlaya bilmədim onun sehri nə?

Fikrim qanadlandı, məni uçurdu,
Bütün günahlarım üzümə durdu.
Qeybdən səs gəldi qulaqlarıma,
Bu səs inamımı çəkdi tarıma.
"Nədir dilədiyin qalan ömürdən-
Allah dərgahına hazırsanmı sən?"

"Mən kiçik bir ürəyəm" şeirində şairin həyatının müəyyən, konkret bir məqamı ilə yanaşı mənəvi dünyası da əks olunmuşdur. Şair yaşı çoxaldıqca arzularının daha da artdığını, köhnəsinə

çatmamış yeni arzuların yarandığını, dünənki istəyinin bu gün gözündən düşdüyünü poetik şəkildə bildirir.

Bəxtiyar Vahabzadə dost məzarını ziyarətə gedərkən qəbristanda yatanların çoxunun öz dost-tanışları, dünyasını dəyişən dostlarının həyatda olanlardan daha çox olduğunu görüb təəssüflənir və təəssüratlarını Xudu Məmmədovun xatirəsinə yazdığı "Çox imiş" şeirində canlandırır. "Görən niyə təklənirəm" şeirində şair itirdiyi illərin həsrətini çəkərək dost-tanışının çoxaldıqca təkləndiyindən şikayətlənir, ömrünün son dövrlərində yazdığı "İki günün bir-birinə bənzəsə..." şeirində isə hər günün ölümə bir addım olduğunu bildirir. "Salam olsun bahara" şeirini şair yataqda olarkən qələmə almışdır. Bu şeirdə Bəxtiyar Vahabzadə yaşadığı şirin, xoşbəxt illəri xatırlayır, qəfil ölüm qorxusu onu çox sarsıdır. Lakin bununla belə, çöldə quşların səsi, baharın gəlişi onu ölüm xofundan uzaqlaşdırır və şeir nikbin sonluqla tamamlanır.

Xatirə ədəbiyyatı yalnız insanın həyat və fəaliyyətini deyil, onun hiss və düşüncələrini, həyata və insanlara baxışını, çevrəsində olan şəxslərə münasibətini də ehtiva edir. Memuar janrının bir növü olan tərcümeyi-hallar, eləcə də Bəxtiyar Vahabzadənin əsərlərindəki avtobioqrafik örnəklər bu özəlliklərdən xali deyildir. Görkəmli şairin xarakterinin ayrı-ayrı çizgiləri "Özümdən narazıyam", "Səhvlərim, səhvlərim", "Narahat olanda", "Utanmaq, qızarmaq", "Kimdir mənim düşmənim?" və s. şeirlərində açıq-aydın görünür. Bu şeirlərdə mərd, mübariz, özünə tənqidi yanaşan, daima narahat bir insanın könül, qəlb çırpıntıları duyulur. Şair "Bəli, əsəbiyəm" şeirində ona "əsəbi" deyən şəxsin haqlı və soyuqqanlılığın ona biganə olduğunu bildirir:

Bəli, əsəbiyəm, çünki insanam,
Mənim nifrətim var, məhəbbətim var.
Quzuya da bəli,
Qurda da bəli?
Deyirsən, olmasın baxışım mənim?
Nöqsanım budursa əgər... deməli,
Ancaq naxışımdır yanlışım mənim.

Professor Nizami Cəfərov çox doğru olaraq qeyd etmişdir: "B. Vahabzadə həyatını elə yaşamışdır ki, hər vaxt hamının (ümumən, mənsub olduğu millətin) üzünə dik baxa bilər – haqqı tapdalananlar həmişə ona müraciət edib, ona güvəniblər... Ürəyinin genişliyi, haqqın nahaqqa boğdurulmasına dözməməsi, həqiqət uğrunda hövsələsizliyə varacaq qədər mübarizliyi, laqeydliyə, biganəliyə etirazı Bəxtiyar Vahabzadəyə (xalqın təbiri ilə Bəxtiyara) təkcə ayrı-ayrı adamların deyil, bütövlükdə Azərbaycan millətinin böyük sayğısını qazandırmışdır".[1]

Bəxtiyar Vahabzadə kindən-küdurətdən uzaq bir şəxsiyyət idi. Kiminləsə küsülü qalmaq onun üçün əzab idi. Xarakterindəki bu özəlliklər onun əsərlərində yansımışdır. "Küsmə" şeirində şair

Öldür, qadan alım, qəlbində kini
Barış, mənə danış könlündəkini -

deyərək bu əzabdan qurtulmağa çalışır. Şair həmsöhbətinin könlünə dəyəndə, günahkar olduğunu anlayanda özü-özünə düşmən kəsilir:

Səhvlərim yay kimi
Mənim əsəblərimi
Tez-tez çəkir tarıma
Dönür əzablarıma.
Çəkdiyim bu əzablar
Xoş gəlir mənə bəzən.
Onda qisas alıram
Elə bil öz-özümdən.

"Xeyir-dua" şeirində şairin bir daha gözəl qəlbə sahib olduğunu görürük.

Qızım, şir ürəyi var imiş səndə,
Dərdini kimsəyə bildirməsən də,

N. Cəfərov. Seçilmiş əsərləri. Beş cilddə, ikinci cild. Bakı, Elm, 2007, s.176.

Nələr çəkdiyini hiss edirik biz,
Dərdinə şərikdir ürəklərimiz -

deyən şair şikəst doğulmuş uşaqların anasına təsəlli verir.

Bəxtiyar Vahabzadə oxuculardan aldığı məktubların şirinliyini sətirlərə düzür, bu məktubların tənqidçilərin deyə bilmədiyi çox mətləbləri açıqladığını, könlünə dayaq olduğunu fərəhlə bildirir. Oxuculara cavab yazmasa da onlara borclu qalmır.

Ünvanı siz olan mənim hər şeirim
Sizə göndərdiyim məktublarımdır.

Bəxtiyar Vahabzadənin zəngin elmi, ədəbi-bədii və publisistik yaradıcılığından müxtəlif səpgili məqalələr, kitablar yazılmışdır. Haqqında yazılan xatirələr bir daha onun əsərlərinin tərcümeyi-halı, hiss və düşüncələri ilə həmahəng olmasından xəbər verir. Şair yaşadıqlarını, düşündüklərini qələmə alaraq gözəl ruha sahib olduğunu bir daha sübuta yetirir. 1950-ci illərdən Sovetlər İttifaqı dağılana qədər qələmə aldığı şeirləri Bəxtiyar Vahabzadənin özünün yazdığı kimi "qəlbimin fəryadı – yəni, o zamanın ağrı-acılarıdır".

Torpaqlarımız düşmən əlinə keçəndə şairin narahat qəlbinin çırpıntıları, duyğu və düşüncələri, hiss və həyəcanları "Əgər qorunmazsa istiqlalımız", "Həm oğul, həm ata", "Təzədən yaratsın yaradan bizi", "Söz alağı", "Yurd yad əlində" və s. bu kimi şeirlərində əks olunmuşdur.

Bəxtiyar Vahabzadənin yaradıcılığı haqqında istər Azərbaycanda, istərsə də onun hüdudlarından kənarda tanınmış yazıçı, şair və alimlər dəyərli fikirlər söyləmişlər. Yazıçı Nahid Hacızadə isə çox gözəl vurğulayır: "Böyük türk dünyasının söz-sənət kəhkəşanında bir ulduz parlayır – Bəxtiyar ulduzu. Bu ulduzun işığı yaxından da, uzaqdan da görünür. O, sərhədlər aşır, iqlimlər keçir..."[1]

Qeyd etmək lazımdır ki, müəllif şəxsiyyəti xatirə, gündəlik və tərcümeyi-hallarda önəmli mövqeyə malikdir. Müəllif hadisələrə real qəhrəmanın gözü ilə deyil, bilavasitə özü baxır, müşahidə aparır, çox vaxt hadisələrin iştirakçısı olur, müəyyən məsələlərlə bağlı hiss və həyəcanlarını, fikir və düşüncələrini bildirir. Bu mənada Bəxtiyar Vahabzadənin avtobioqrafik özəlliklərlə zəngin "Vaxt", "Layiqəmmi mən", "Qürub düşüncələri", "Gecikmişəm" şeirlərində müəllif şəxsiyyəti ön plandadır. "Mən türkəm" şeirində isə Bəxtiyar Vahabzadə inamla bildirir:

Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm, özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilərsən,
Mən ilk qaynağımdam türk oğlu türkəm!

1. N.Hacızadə. Bəxtiyar sehri, Bəxtiyar heyrəti... Bax: Türk dünyasının Bəxtiyarı (Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu). I hissə. Bakı, "Təfəkkür" NPM, 2002, s.254.

QAYNAQLAR

1. Cəfərov N. Bəxtiyar Vahabzadə. Bakı, "Azərbaycan" nəşriyyatı, 1996.
2. Cəfərov N. Seçilmiş əsərləri. Beş cilddə, ikinci cild. Bakı, Elm, 2007.
3. Əliyeva İ. Bəxtiyar Vahabzadənin lirikası. Bakı, Yazıçı, 1983.
4. Hacızadə N. Bəxtiyar sehri, Bəxtiyar heyrəti... Bax: Türk dünyasının Bəxtiyarı (Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu). I hissə. Bakı, "Təfəkkür" NPM, 2002.
5. Vahabzadə B. Əsərləri. XII cild. Bakı, Azərbaycan nəşriyyatı, 2007.
6. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə, birinci cild (Şeirlər). Bakı, "Öndər nəşriyyat", 2004.

TÜRK DÜNYASININ KÜLTÜR VE SANAT ADAMLARININ BAXT YAR VAHABZADE HAKKINDAK SÖZLER

Ramazan USLU

Yrd.Doç.Dr., Ağrı İbrahim Çeçen Unıversıtesi
Fen Edebiyat Fakultesi, Tarih Bölüm Başkanı
ruslu@hotmail.com

ÖZET

Vahabzâde hem Türk Edebiyatında hem de Dünya Edebiyatında tanınan ünlü bir şahsiyettir. Azerî Edebiyatında birçok yeniliğe imza atmış, yeri doldurulamayacak nadide bir sanatçıdır. Vahabzâde'nin şahsiyeti ve yaptığı faaliyetler ayrı bir tez konusu olacak kadar geniş çerçevede incelenecek kapasiteye sahiptir.

habzâde'nin şahsiyeti ve yaptığı faaliyetler ayrı bir tez konusu olacak kadar geniş çerçevede incelenecek kapasiteye sahiptir. Aşağıdaki satırlarda ünlü bazı Türkolog ve siyaset adamlarının Vahabzâde hakkındaki düşüncelerine yer vererek farklı bakış açılarıyla sanatçının tanınması amaçlanmıştır.

Cengiz Aytmatov'un Bahtiyar Vahabzâde ile ilgili fikirleri

Böyük yazar Gengiz Aytnatov Bahtiyar Vahabzade ile ilgili şu fikirleri söylemıştir."Bahtiyar Vahabzâde, hepimize has olan ihtiraslardan, doğrudan doğruya zaman, mekân ve fezanın mücerret âlemine günümüzün heyecanlarına, dünyanın atom tehlikesine köprü fikirler atar, köprü tablolar çizer. Yine her birimiz, bütün nesillere, insana, komşusuna, od ocağına ve bundan sonra bütün kâinata yüz tutar. Sanatkârlığının çiçeklenme ve müdriklik devrine kadem koyan büyük şairin ölçüsüz istidadı böylece meyve verir; böylece inkişaf eder. Zannımca, okuyucuların çoğu bugün kendisini, kendi dünyasını, kendi hırs ve heyecanlarını Bahtiyar'ın şiirlerinde bulabilir. Çünkü onun manzumelerinde zaman yaşıyor. Bizim kaygı yükümüzü taşıyan, derd ü serimize ortak olan, koynunda yaşadığımız zaman… Ve şiirlerin kudreti de işte bundadır.[1]

Süleyman Demirel'un Bahtiyar Vahabzâde ile ilgili fikirleri

Türkiye Cumhuriyetinin Cumhurbaşkanı Süleyman Demirel, Bahtıyar Vahabzade ile ilgili ilgili şu fikirleri söylemıştir. ''Sizin edebî kişiliğiniz bütün Türk Dünyasının manevî birliği ve yükselişiyle ilişkilidir… Sizi sadece Azerbaycanlı kardeşlerimizin değil, Çağdaş Türk Dünyasının bir kalem üstadı olarak selamlıyorum.''[2]^

Yavuz Bülent Bakiler'in Bahtiyar Vahabzâde ile ilgili fikirleri

Türkiyenin önemli alimlerinden biri olan Yavuz Bülent Bakiler Bahtiyar Vahabzade ile ilgili şu fikirleri söylemiştir. ''Türk Edebiyatı için Mehmet Akif, Yahya Kemal, Necip Fazıl ne ise Azerbaycan Edebiyatı için de Vahabzâde odur. Bahtiyar Vahabzâde, bütün Türk Dünyasının ortak sesinin, seven gönüllerin, aydınlık yüzlerin ve güzellik yolunun sembolüdür''[3].

Oljas Süleymanov'un Bahtiyar Vahabzâde ile ilgili fikirleri

Oljas Süleymanov'un Bahtiyar Vahabzâde ile ilgili fikirleri Oljas Süleymanov'un Bahtiyar Vahabzâde ile ilgili fikirleri söylemiştir:''Bahtiyar Vahabzâde, bütün ülkede tanınan ve sevilen bir şairdir. Ben onu hem insan hem yazar olarak tanıyan biriyim. O'nun şiirlerinde doğuya özgü bütün güzel nitelikler yansımıştır. O, bir halk şairidir. En büyük ödüllere layık görülmüştür. Lakin O'nun en büyük ödülü halkın sevgisidir. Bir genç, bana Bahtiyar'ın şiirini okuıdu. Sonra tercüme etti. —Bu bizim Bahtiyar'ın şiiridir. dedi. Doğuda en saygın kişileri soyadıyla değil, adıyla çağırırlar.''[4]

Sabir Rüstemhanlı'nın Bahtiyar Vahabzâde ile ilgili fikirleri

Sabir Rüstemhanlı'nın Bahtiyar Vahabzâde ile ilgili şu fikirleri söylemiştir ''… Yaratıcılığı halka ilahî bir inançla bağlıdır ve bu inanç onun sanatkârlık hayatında baĢlıca rolü oynar. Uykusunda hıçkıran ve hiç kimse tarafından işitilmeyen, sesi hiçbir aks ü seda vermeyen nice yazarlar var. Lakin Bahtiyar Vahabzâde'nin sesine daima ses verirler. O, bir değil, birkaç nesil okuyucunun vatandaş olarak yoğrulup yeniden (millî kimliğini kazanarak) doğmasından hiçbir teraziyle ölçülmeyecek büyüklükte bir iş becermiştir. Son on yıllarda millî şuurun saflaşması ve şekillenmesinde, halkın özünü bulup yeniden doğmasında Bahtiyar Vahabzâde yaratıcılığı kadar ardıcıl tesir göstermiş kuvvetlerin sayısı çok azdır. Bence sanatkâr için bundan büyük bahtiyarlık olamaz!.. Bahtiyar Vahabzâde'nin şiir ve poemalarında cemiyet hadiselerinin, insan hislerinin mahiyetini açan poetik tezatlar silsilesi, hislerin ve düşüncelerin daimi zıtlaşması ve reddi ve yeniden yaratılması müşahede edilir.[5]

---

1 Türk Lehçeleri ve Edebiyatları Dergisi, "Bahtiyar Vahabâde Özel Sayısı", sf. 20.
2 Nizami Caferov, " Türk Dünyasının Ortak Sesi", Azerbaycan Türkçesinden aktaran: Perviz Sultanov, Türk Lehçeleri ve Edebiyatları Dergisi, "Bahtiyar Vahabâde Özel Sayısı", sf. 39-40.
3 a. g. d. sf. 15.
4 a. g. d. sf. 16.
5 Halil İbrahim Usta, "Modern Azerbaycan Şiiri (Kuzey)", Türk Dili Dergisi, (Türk Şiiri Özel Sayısı 5), sf. 741.

KAYNAKLAR

1. AYTMATOV, Cengiz, —Yaradıbdır İnam Meni, Men İnamın Övladıyam, Türk Lehçeleri ve Edebiyatları Dergisi, —Bahtiyar Vahabzâde Özel Sayısı.
2. CAFEROV, Nizami, —Türk Dünyasının Ortak Sesi, Azerbaycan Türkçesinden aktaran: Perviz Sultanov, Türk Lehçeleri ve Edebiyatları Dergisi, —Bahtiyar Vahabâde Özel Sayısı
3. MUSAOĞLU Mehman, —Bahtiyar Vahabzâde ve Ana Dili, Türk Lehçeleri ve Edebiyatları Dergisi, -Bahtiyar Vahabâde Özel Sayısı
4. USTA, Halil İbrahim, —Modern Azerbaycan şiiri (Kuzey) || , Türk Dili, (Türk ġiiri Özel Sayısı 5)
5. YILDIRIM, Dursun,— —Payız Düşünceleri || Üstüne Düşen— Büyük Arzular, Türk Lehçeleri ve Edebiyatları Dergisi, —Bahtiyar Vahabâde Özel Sayısı

B XT YAR VAHABZAD YARADICILI INDA BR TAN YA MÖVZUSU

ahin X L LL

fil.e.d., prof., Qafqaz Universiteti, Pedaqoji fakültə
İngilis dili və ədəbiyyatı kafedrası
Bakı / AZƏRBAYCAN
shahin_khalilov@co.uk

XÜLAS

Azərbaycanın elmi-ədəbi və poetik düşüncə tarixində özünəxas böyük alim, şair sözünü qızıl hərflərlə yazan Bəxtiyar Vahabzadənin yaradıcılığı elmi-nəzəri fikrin həmişə diqqət mərkəzində olmuşdur. Onun yaradıcılığında Britaniya mövzusu müəyyən dəyərləri ilə diqqəti cəlb edir.

1978-ci ilin oktyabr ayında Böyük Britaniyada Azərbaycan mədəniyyəti günləri keçirilmişdir. Elm və mədəniyyət xadimləri ilə səfərdə olan Bəxtiyar Vahabzadə London, Qlazqo, Mançester, Edinburq və Nottinqam şəhərlərində olmuşdur. Azərbaycana qayıdarkən "Hayd Park", "Kiçik pəncərə", "Ölüm, ya olum" adlı şeirlərini yazmışdır.

Məqalədə filosof şair və alimin Britaniya mövzusunda yazdığı əsərlərin ideya-bədii təhlili ön plana çəkilmişdir.

Açar sözl r: Vahabzadə şeiri, Britaniya mövzusu, Hayd park, kiçik pəncərə, şeirin sonuncu misrası.

BRITISH THEME IN BAKHTIYAR VAHABZADEH'S CREATIVITY

ABSTRACT

The creativity of Bakhtiyar Vahabzadeh who has carved his works with the golden letters as the prominent scholar, and a poet in Azerbaijani scientific – literary and poetic history of thinking always has been in the spotlight of scientific theoretical study of literature. The British theme in poet's creativity is of great value with its certain peculiarities.

Bakhtiyar Vahabzadeh visited the cities of London, Glasgow, Manchester, Edinburgh and Nottingham while he was on tour with science and cultural workers on the Azerbaijani cultural festivity in October, 1978. When he returned to Azerbaijan he wrote his British poems, as "Hyde Park", "The Small Window", and "To be, or not to be".

The author of the article pays special attention to the idea-artistic analysis of the poems on the British theme of the philosopher poet and scholar.

Key words: Vahabzadeh's poetry, British theme, Hyde Park, the small window, the poems' final stanza.

XIX əsrin görkəmli ingilis şairi və ingilis ədəbi tənqidinin yaradıcısı Mətyu Arnold (Matthew Arnold, 1822-1888) ədəbiyyat və tənqid məsələlərinə həsr etdiyi araşdırmalarının birində şeiri dünyanın ən böyük kəşfi və elmi adlandırmışdır. Yəni şeir, poeziya olan yerdə əsaslı elmlərin yaranması labüddür deyən ingilis alimi həqiqətən də, şeirin böyük güc-qüdrətinin, insan qəlbinə hakim kəsildiyinin nə demək olduğunu dərk edib öz fəlsəfi formulasını yaratmışdır.

Azərbaycan türk şeirinin ən uca zirvələrindən birində özünün Bəxtiyar Vahabzadə zirvəsini yaradan böyük filosof şairimizin həm şeirləri, həm ədəbi-tənqidi, həm də publisistik əsərləri həmişə oxucular tərəfindən heyrət və heyranlıqla qarşılanmışdır.

Hər yüz ildən bir zamanın, dövrün yetişdirdiyi nəhəng söz sərrafları sırasında Bəxtiyar Vahabzadə imzası ilə meridianları yarıb keçib, şeirləri dünyanın neçə-neçə ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

Dağların qoynunda gəl-gəl deyən buz bulaqlar kimi ilin hər fəslində qaynar, ürəyi istidən yanan adamlara məlhəm olan dağ suyuna bənzəyir Bəxtiyar Vahabzadənin məlhəm şeirləri.

Düz 33 ildən çoxdur ki, kitab rəfimdə kağız qovluğun arasında saxladığım rəngi saralmış

"Ədəbiyyat və incəsənət" qəzetinin 20 yanvar 1979-cu il tarixli sayında Bəxtiyar müəllimin "Britaniya şeirləri"ni hər dəfə oxuyanda sanki bu böyük şairin o ölkəyə saldığı söz ilməsi bu haqda düşüncələrimi yazmağa sövq etdi.

Bəxtiyar Vahabzadə şeirinin fəlsəfi, poetik yükü ilə oxucunu həyəcanlandıran, qələmə aldığı sözü, misrası ilə içimizdəki ümid qığılcımını alovlandırıb yandıran söz sərrafıdır. O, dünyada baş verən irili-xırdalı çox-çox məsələlərə, hadisələrə öz şair sözünü, məramını şəstlə söyləyib, qəlbləri dəli misraların təbii, səmimi düzümü ilə heyrətləndirən müdrik-filosof şair kimi neçə-neçə mətləblərin sirrini açıb oxucusu ilə həmdəm, sirdaş olmuşdur. Qeyd etdiyimiz kimi Böyük Britaniya ilə Azərbaycan məmləkəti məsafəcə nə qədər uzaq olsa da, xarici ədəbiyyatla maraqlananlar həmişə bu ölkə və onun sənət adamları, abidələri, adət və ənənələrinə dair deyilən sözü maraqla qarşılamışlar. Bəlkə də bunun sirri indi dünyanın birinci dili səviyyəsinə yüksələn ingilis dilinin və bu dilin beşiyi sayılan İngiltərənin sirli-soraqlı söz dünyasıdır.

Şairin Britaniyaya həsr etdiyi şeirlər silsiləsinin birincisi "Hayd park" adı ilə təqdim edilmişdir. Şeirinin epiqrafında "Londonda "Hayd park" deyilən bir bağda hər kəs istədiyini danışmaq, hətta hökuməti ittiham etmək hüququna malikdir" söyləyən şair konkret bədii detallar və həyati faktlarla Hayd parkın təsvirindən çox bu bağda tüğyan edən çıxışların məramı haqqında insanlığın mənəvi dünyasına nüfuz edir. O, özünəxas sadə, səmimi üslubuna sadiq qalaraq ustalıqla eşitdiklərinin və gördüklərinin poetik ruhunu misraların içində nəğməyə çevirir:

"Hayd park!"
Bu bağda azaddır insan.
Azaddır məramı, fikri hər kəsin.
Ey qəlbi yaralı, fikri pərişan,
Qəlbindən keçəni qorxma, de gəlsin.[1]

Göründüyü kimi, şair bu bağın ziyarətinə gələnlər arasında ürəyini açmaq, sözünü demək istəyənlərə "bu meydan, bu şeytan" deyə ürəyini boşaltmağın məqamı çatdığını bəyan edir.

Belə bir deyim var ki, şeir oxucuya ya fakt verir, ya da ona unudulmaz bir əyləncə gətirir. Bəxtiyar Vahabzadənin Britaniya silsiləsində, o cümlədən "Hayd park" şeirində məna, məntiqi deyim, zəngin fakt və əyləncə məqamları bir-birilə qol-budaq olub oxucunun gözləri qarşısında yeni bir zəngin poetik aləm açır.

Şair Hayd parkda tarixi həqiqətlərin "əlindən yapışıb" dünya vətəndaşının mesajını poetik şəkildə təqdim edir. O, sadəcə bir parkın gözəlliyini deyil, bu gözəlliyin içində öz yerini axtaran həqiqətlə yalanın sözünü deyən natiqlərin portretinə şair ürəyinin səsini qatır. Şeirdə oxuyuruq:

Bu parkdan kənarda, bağdan uzaqda
Dolaşır ölkəni müdhiş yalanlar.
Ancaq həqiqəti, yalnız bu bağda,
Deməyə iznin var, ixtiyarın var.

Niyə həqiqətin qaradır üzü?
Ali məclislərdən niyə qovulmuş?
Sözdə hakimdirsə həqiqət özü
Yalan qarşısında müttəhim olmuş.[2]

Həqiqətin yalanın hüzurunda müttəhim olması zaman-zaman insanların acı taleyində nə qədər sarsıntı, əzab-əziyyət və məhrumiyyətlərin yuvasını qurarmış. Bu, adi fikir deyil. Bu, şair Bəxtiyar Vahabzadənin Londonun Hayd parkları kimi dünyanın min bir guşəsində insanlığın həqiqət harayının ürəklərdə zınqırov kimi səslənən, səsi içində batan vətəndaş fəryadının poetik rekviyemidir.

Ə ədə%

Azad, açıq ürəkli, cəsur olun!
Sizin atanız belə bir nümunəni yaradıb.

Azərbaycan şairinin görüşü Bernsin oğlanları ilə deyil, o günlərdən xatirə kimi yaddaşlara köçən, şairin Ayrşayədəki kiçik daxmasından asılan pəncərəyə tuş gəldi. O, şairin azadlıq idealını, şotland nəğməkarının söz sənətində cilvələnən milli ruhunun poetik təcəssümünü yaratdı:

Qəlbi işıq ilə dolan şairin,
Qisməti – evitək bir zülmət oldu.
Arzusu – azadlıq olan şairin
Qazancı – həmişə əsarət oldu.[1]

Şair Robert Bernsin komasındakı kiçik pəncərənin sözlə çəkilmiş unudulmaz lövhəsini çəkdi. Kiçik pəncərə işığa həsrət qalan şairin komasında zülmətlə işığın, xeyirlə şərin mübarizə "meydanı" oldu. Ürək yanğısından doğan, duyğulardan pərvazlanan Bəxtiyar Vahabzadə bədii ümumiləşdirmələrlə şəxsi müşahidələrinin yekununu bu misralarla ifadə edir:

Kiçik pəncərədən baxdı dünyaya,
Bütövlük yox oldu, bölündü hər şey.
O baxdı günəşə, o baxdı aya,
Ümidi, arzusu qaldı yarıda,
Düşdü çərçivəyə arzuları da.
...Arzular həmişə zülməti yarmış,
Gələcək günlərə salam aparmış.
Göz əgər görürsə...
Nə fərqi varmış
Pəncərə ya kiçik, ya böyük olsun.[2]

21 oktyabr 1978-ci il tarixdə yazıya alınan şeir Bəxtiyar Vahabzadənin poetik dünyasından qopan bir əsintini xatırladır. Bu şeir şairin hamıya, irili-xırdalı bütün dünya oxucusuna müraciəti kimi diqqəti çəkir, bütün insanlığın keçmişi, bu günü, gələcəyi haqqında işığın insanlar üçün nə demək olduğunun poetik lövhəsini yaradır.

Vilyam Şekspirin adı gələndə həmişə onun "Hamlet"indəki məşhur monoloqundan qopan "Olum, ya ölüm" yada düşür. Stratfordda Vilyam Şekspirin uyuduğu Triniti kilsəsini ziyarət edən Bəxtiyar Vahabzadə şeirinin əvvəlində kiçik bir qeydini yazmışdır: "Şekspirin doğulduğu Stratford şəhərində Şekspirin heykəli onun dörd surətinin – Maqbet, Otello, Lir və Hamletin heykəlləri arasında ucaldılmışdır". Hamletin dili ilə "Olum, ya ölüm" deyən haqq şairinin bu sualın cavabı haqqında fəlsəfi poetik düşüncələri dünyanı dərk etməyin ən incə mətləbləri haqqında nə qədər təbii və poetik səslənir. Şeirdə oxuyuruq:

"Olum, ya ölüm" deyə
Dörd yüz ildir düşünür.
Dörd min il, dörd milyon il
düşünəcək o yenə.
"Dünyaya sığmaz başı sığıbdır sinəsinə".
"Olum, ya ölüm" dedi,
Ondan əvvəlkilər də
Ondan sonrakılar da.
O nə ilkdir, nə də son.
Cavabı tapılmadı bu əbədi sorğunun.
Hamletin tunc heykəli... arxasında yaradan
Məxluğunun dililə danışdı zaman-zaman.
Atomlu əsrimizdə bu dünyanın taleyi
bağlı ikən bir ana,

[1] Yenə orada.
[2] Yenə orada.

“Olum, ya ölüm” – deyə
İndi dünyamız verir bu sualı insana.[1]

Beləliklə, oxucunun da, Britaniya mövzusuna maraq göstərən araşdırmaçının da ürəyində “olum, ya ölüm” sualı əbədi heykələ dönür. Şairin düşüncələrinin poetik ovxarında ürəklərdə nikbin duyğular yaranır. Bu, şair Bəxtiyar Vahabzadənin həmişə xatırlanan, ürəkləri riqqətə gətirən şah misralarının yaratdığı xoş duyğular assosiasiyalarıdır.

D B YYAT

1. Vahabzadə Bəxtiyar. Britaniya şeirləri. – “Ədəbiyyat və incəsənət” qəz., 20 yanvar 1979-cu il.
2. Vahabzadə Bəxtiyar. Əsərləri. XII cilddə. Bakı: Elm, 2008; 2009.
3. Vahabzadə Bəxtiyar. Gəlin açıq danışaq... (Məqalələr toplusu). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1989, 222 s.
4. Leask Nigel. Robert Burns and Pastoral. Poetry and Improvement in Late Eighteenth – Century Scotland. Oxford: Oxford University Press, 2010, 347 p.

B XT YAR VAHABZAD N N RUS D L N T RCÜM OLUNMU S RL R ND B D ADEKVATLIQ XÜSUS YY TL R

Tamilla bdülm cid qızı X lilova
Azərbaycan Tibb Universitetinin professoru
filologiya üzrə elmlər doktoru
imamverdi.hamidov@mail.ru

Статья посвящена особенностям художественной адекватности в русских переводах произведений Бахтияра Вагабзаде. Автор анализирует переводы народного поэта Азербайджанской Республики сравнительно с их оригиналами и приходит к такому заключению, что они играли большую роль в популяризации Б.Вагабзаде во всем мире.

: Вагабзаде, адекватность, Айтматов, перевод.

PECULIARITIES OF ARTISTIC ADEQUACY IN RUSSIAN TRANSLATIONS OF THE WORKS BY BAKHTIYAR VAHABZADEH

ABSTRACT

The paper is dedicated to the peculiarities of artictic adequacy in B.Vahabzadeh’s works translated into Russian. The author analyses Russian translations of the works by the People’s poet of Azerbaijan Republic comparatively with their originals and comes to such conclusion that they were of great importance in popularization of B.Vahabzadeh over the world

Key words: Vahabzadeh, adequacy, Aytmatov, translation.

Böyük rus mütəfəkkiri və tənqidçisi V.Q.Belimski vaxtılə yazırdı: «Hər bir dilin yalnız onun özünəməxsus olan vasitələri, xüsusiyyətləri və keyfiyyətləri vardır. Əsərin əslinə yaxınlıq onun hərfini deyil, ruhunu verməkdən ibarətdir. Bədii əsərləri tərcümə etməyin bircə qaydası var – tərcümə olunan əsərin ruhunu vermək; əgər müəllif özü rus olsaydı, əsərini necə yazardısa, tərcüməçi də əsərin ruhunu rus dilində elə verməlidir; başqa yol yoxdur» (1, s. 429).

Keçmiş SSRİ (indiki MDB və Pribaltika) məkanında milli ədəbiyyatlardan olan bədii əsərlərin rus dilinə tərcüməsi böyük əhəmiyyətə malik idi: rus dili vasitəsilə hər hansı bir konkret milli müəllif bir tərəfdən ölkənin başqa müttəfiq respublikalarında; digər tərəfdən isə xaricdə müxtəlif dillərə tərcümə edilməklə SSRİ sərhədlərindən kənarda oxunub tanınmaq imkanı qazanırdı.

Akademik Məmməd Arif yazırdı: «…rus dili vasitəsilə Azərbaycan ədəbiyyatının ən yaxşı nümunələri başqa sovet xalqlarının və bütün dünya xalqlarının malı olur… Azərbaycan sovet

[1] Vahabzadə Bəxtiyar. Əsərləri. XII cilddə. Bakı: Elm, 2009.

ədəbiyyatının elə görkəmli nümunələri vardır ki, rus dilinə tərcümə olunandan sonra… bir çox xarici dillərə də tərcümə edilmişdir» (2, s. 341).

Bu baxımdan görkəmli sənətkarımız – Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin ayrı-ayrı yaradıcılıq nümunələrinin və bütövlükdə kitablarının rus dilində nəşri təkcə onun özü üçün deyil, ümumiyyətlə milli ədəbiyyatımız üçün əlamətdar hadisələrdən olmuşdur. Bəxtiyar Vahabzadənin bir sənətkar olaraq xaricdə tanınıb şöhrət qazanmasının ilkin başlanğıcı hesab edilə bilən rus dilindəki əsərlərinin və kitablarının tərcüməşünaslıq nöqteyi-nəzərindən təhlil və tədqiqlə araşdırılması və onların orijinalla müqayisədə bədii adekvatlıq xüsusiyyətlərinin üzə çıxarılıb qiymətləndirilməsi aktual ədəbi-nəzəri vəzifə kimi qalmaqdadır.

Məhz B.Vahabzadə əsərlərinin rus dilinə tərcümələri əsasında Çingiz Aytmaton, Yeqor İsayev, Lev Ozerov, Yevgeni Yevtuşenko və b. kimi görkəmli ədəbi simalar, söz-sənət adamları onun yaradıcılığını yüksək qiymətləndirmiş, haqqında dəyərli fikirlər söyləmişlər.

Şairin əsərlərini rus xalqının R.Kazakova, Y.Yevtuşenko kimi məşhur sənətkarları, habelə Q. Registan, A.Kronqauz, V.Zaytsev, T.Kamennaya, M.Pavlova, E.Yeliseyev, V.Luqovoy, N.Qrebnev, A. Xaldeyev, V.Lifşits, L.Şereşevski, A.Yudaxin, N.Novikov, Y.Morits, İ.Şklyarevski, A. Peredreyev, E.Balaşov, L.Latının, A.Kuşner və b. kimi tanınmış şair və mütərcimlər sətri tərcümə vasitəsilə Azərbaycan dilindən rus dilinə bədii tərcümə etmişlər.

Bu sahədə Azərbaycanın V.Qafarov, M.Vəkilov, A.Axundova, S.Məmmədzadə kimi qələm sahiblərinin fəaliyyəti də təqdirə layiqdir və onların B.Vahabzadədən rus dilinə birbaşa etdikləri tərcümələr öz bədii-estetik xüsusiyyətləri ilə seçilirlər.

Böyük qırğız yazıçısı Çingiz Aytmatov öz qələm dostu haqqında yazır: «Bu yaxınlarda Bəxtiyar Vahabzadənin yeni şeirlər kitabmı oxudum. Şeirlər ruscada böyük heyranlıqla oxunur. Həmin şeirlərdə zaman yaşayır-bizim qayğı "yükümüzə" tab gətirən, dərd-sərimizə şərik olan, qoynunda yaşadığımız zaman! Şeirlərin qüdrəti də məhz bundadır. Eyni sistemə daxil olan türk mənşəli dillərimiz bir-birinə yaxın olduğuna görə azərbaycanlılar məni çox asanlıqla inandırırlar ki, indiki dövrdə Bəxtiyar Vahabzadənin yaradıcılığı orijinalda milli poetik fikrin ən böyük nailiyyətlərindən biridir. Zəngin Azərbaycan ədəbi ənənələri müqabilində bu cür nüfuz və şöhrət qazanmağın çox-çox çətin olduğunu asanca təsəvvürümə gətirirəm. Bununla belə, unutmaq olmaz ki, ənənələr yalnız və yalnız müasirliyin gərdişində, yeni yaradıcıların yeni sözündə yaşayır» (3, s. 4).

Ç.Aytmatovun B.Vahabzadədən dərhal nümunə gətirdiyi məhşur dördlüyü orijinalda və rus dilinə tərcümədə nəzərdən keçirək:

Ya amaq – yanmaqdır

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək,
Onun da həyatı yanmağındadır!

–

Способность пламенеть – в ней наша сила.
Свети другим – хоть день, хоть час один!
Свеча – и та, когда горит – светило.
Когда погашена – лишь воск и стеарин (4, с. 10).

Mütərcim N.Qrebnova şeiri demək olar ki, tam adekvat şəkildə rus dilinə çevirmişdir.

B.Vahabzadənin başqa bir şeirinin rus dilinə tərcüməsini bədii adekvatlıq baxımından orijinalla müqayisə edək:

50 ya

Mən necə oldu ki, çatdım əlliyə?
- Yox, deyə bilmərəm,
Dedilər: - Niyə?
Bir içim su kimi içdim mən onu.
Əllicə an imiş, demə, əlli il.
İllərin nə təhər sovuşduğunu

Bilərək yaşamaq, yaşamaq deyil.

Bilmədim...
Könlümün həyəcanları,
Qovladı bu dağdan o dağa məni.
Ömrün arzu dolu pilləkanları
Uçurdu budaqdan-budağa məni.

Gün doğdu...
Həvəslə,
Yanan ürəklə
Çalışdım, vuruşdum...
Gün axşam oldu.
İli qarşıladım təzə diləklə,
Bir də ayıldım ki, il tamam oldu.

Yol getdim...
Saymadım yağışı, qarı.
"Məqsədə tələsən dincəlməz" – dedim.
Yanımdan ötüşdü, saya bilmədim.

Elə qanadlandım,
Mən elə uçdum,
Sürətim döndərdi ayı həftəyə.
Arzular ardınca göylərə uçdum,
Yerin təqvimləri yaramır göyə.

Zəhər də içmişəm, bal da yemişəm.
Ömrümün yolları min keşməkeşdə,
Mən vaxtı heç zaman gözləməmişəm,
Vaxt özü qapını döyüb həmişə.

Məni yaşadan da tələtüm oldu,
Dalğalar qoynunda ötdü anlarım.
Mənim zaman ölçüm, vaxt ölçüm oldu,
Ölçüyə gəlməyən həyəcanlarım.

Mühit dənizidir önümdə masa,
Ləpədir ömrümün hər anı, qardaş.
Dalğalar ürəkdə baş qaldırmasa,
Həyatda axtarma dalğanı, qardaş.

Yaşadım, bildirib vaxta həddini
Dəli dalğaları mən yara-yara.
Yaşadım...
Eşq olsun vaxtın həddini
Özünə sığdıran çırpıntılara!

Zirvədən ötübdür, döşə qar yağır,
Yol əsir,
qapını qış döyür...
Nə qəm.
Əllimi xərclədim...
Xöşbəxtliyimdir,
Neçəm qaldığını deyə bilmərəm.

Gah müdrik qocayam, gah cavanam mən,
Yadıma salıram gah da ilkimi.
Könlümə sığmayan tələtümündən
Yaşadım əllimi bircə il kimi (3, s. 198-199).

V.Şirokovun tərcüməsində:

Как все-таки вышло, что мне пятьдесят?
И что я отвечу? Мол, рад ли – не рад?..
Как будто воды долгожданный глоток,
Я выпил из разом, - все годы лишь миг.
Но был мой глоток небывало глубок,
Я знаю сегодня: он – в сердце проник.

Волнения сердца опять и опять
Меня от вершины мгновенно к другой,
Влекли… Не успел я вершин сосчитать,
Ведь я же не ведал, что значит покой.

И солнце всходило. И сердце влекло
В дорогу… А полдень уже миновал…
Уж вечер сутулится недалеко,
А я лишь ступил на большой перевал!

Как путник иду… Не считая дождей,
Снегов не считая и резких ветров.
И все же доволен я жизнью своей,
Ее повторить неустанно готов.

Так крылья расправил. Так к цели летел,
Что скорость расплавила месяцы в дни.
Я к солнцу, наверно бы, так долетел,
Ведь в космосе время – земным не сродни.

И яду испил, но и меду поел…
И все-таки юно иду по земле.
Я время свое торопить не хотел,
Само оно часто случалось ко мне.

Его я измерил не стуком минут –
Волненьями сердца, его частотой…
Ученые, может, когда-то найдут
Изменчивость времени в жизни людской.

Когда ты наполнишь делами года,
Они пролетят, как часы или дни.
Но если ты – пуст и бездельник, тогда
Для сердца не вспыхнут полета огни.

Пусть время имеет границы свои,
Я жил не в угоду минутным страстям;
Полвека отдал настоящей любви,
ЕЕ не измерить секундам и дням.

Взошел на вершину, где ветер поет,
Где снег… В дверь мою постучала зима.
Я прожил полвека… И счастье мое,
Что все-таки это – не старость сама.

То старец спокойный, то юноша я…
То я детство вернусь без забот и невзгод…
Но сердце от бурь роковых не тая,
Я прожил свои пятьдесят – словно год! (4, с. 141-142).

Şübhəsiz, mütərcim Bəxtiyar şeirini yüksək ustalıqla rus dilində səsləndirmişdir.

Vaxtilə tənqidçi L.Ozerov yazırdı: «На русском языке вышло шесть книг Бахтияра Вагабзаде. Настоящая книга является в известной мере итоговой. Это избранные стихотворения в просмотренных и заново сделанных специально для этого издания переводах.

Поэзия Бахтияра Вагабзаде-это поэзия поиска верных духовных ориентиров. Одни стихи могут быть сильней, другие слабей, но сквозь всю их массу ярко прочерчивается линия этого поиска. Мы получаем своего рода азербайджанский вариант фаустианства» (5,с.4-5).

Tənqidçinin Vahabzadə poeziyasında faustçuluq kimi ümumbəşəri-fəlsəfi ideyanı görməsi əlbəttə ki, onun şeirlərinin məhz rus dilində mükəmməl tərcümələri ilə dərindən tanışlığı sayəsində mümkün olmuşdur.

Lakin B.Vahabzadənin heç də bütün əsərlərinin tərcüməsi bədii adekvatlığa tam cavab vermir. Məsələn, «Dəmiryolçu» şeirinin (6, s. 544) tərcüməsində zəruri olan ekspozisiya – birinci bənd atılmışdır:

Əlindəki fanar ilə işıqladıb dövrəsini,
Dəmir xəttin yanı ilə gedir qoca dəmiryolçu.
Uşaqlardan eşidincə paravozun fit səsini
Bilir hansı yolla gəlir, bilir hansı qatardır bu (5, s. 14-15).

«Çinar» şeirində isə birinci misra belədir: «Çayın kənarında *cavan* bir çinar» (6, s. 82). Rus dilində tərcümədə isə «cavan» sözü verilməmişdir:

За деревней возле яра
У ручья росла чинара (5, s. 19).

Şairin əsərlərinin orijinal ilə rus dilinə tərcümələri arasındakı fərqli cəhətlər bəzən müəllifin özündən gəlir. Bu barədə B.Vahabzadə özünün «Müəllifdən qeydlərində» yazırdı:

«Tədqiqatçılarımın nəzərinə bir cəhəti də çatdırmaq istəyirəm: 1955-60-cı illərdən sonra mənim üslubum, yazı tərzim artıq formalaşsa da, yaradıcılıq yolum müəəyyənləşsə də, ondan sonra, lap son yazılarımda da bəzi şeirlərimdə müəyyən dəyişikliklər aparmaq, ya ixtisar, ya da bir-iki bənd əlavə etmək mənim adətimdir» (6, s. 6).

Beləliklə, «çoxdan sübut olunmuşdur ki, bədii tərcümə işi yaradıcılıq işidir, sənətkarlıq işidir. …Yaradıcı tərcüməçi öz işini ürəkdən sevməli, onu ehtirasla, ilhamla görməlidir» (2, s. 346). Bu baxımdan xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığından rus dilinə edilmiş tərcümələrin bədii adekvatlıq xüsusiyyətlərini, fikrimizcə, qənaətbəxş hesab etmək olar.

D B YYAT

1. Белинский В.Г. Полное собрание сочинений. Том II. Москва, АН СССР, Институт Русской лит. (Пушкинский дом) 1953, 800 с.
2. Məmməd Arif. «Bədii tərcümə», (s. 340-364). Seçilmiş əsərləri. Üç cilddə. I c. Bakı, Az. SSR Elm.Akad. Nəşriy. 1967, 620 s.
3. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri, II cilddə. Ic.,Ön sözün («Yaradıbdır inam məni, mən inamın övladıyam», s. 4-7) müəllifi Çingiz Aytmatov. Bakı, «Öndər» nəşr. 2004, 328 s.
4. Бахтияр Вагабçаде. Мы на одном корабле. Иçбранное. Перевод с аçербайджанского. Автор предисловия («Прикосновение словом», с. 5-6). Е.Исаев. Редактор С.Мамедçаде. Баку, «Яçычы», 1983, 350 с.
5. Бахтияр Вагаб.4<028<025 Tf3TJ/TT19-0.0019 Tc<025.0016aTj/TTT4 626 Tc2.6647 01 Tf0.2455 0 TD0.0001 Tc[<0242026b

BAHT YAR VAHABZADE'N N DEVLET VE YÖNET M ANLAYI I

Eyüp ZENG N

Yrd. Doç. Dr., İstanbul Üniversitesi, Avrasya Enstitüsü
ezengin@yahoo.com

Fethi GED KL

Prof. Dr., İstanbul Üniversitesi, Hukuk Fakültesi
gediklifethi@gmail.com

ÖZET

Bahtiyar Vahapzade'nin yaşadığı dönem (1925-2009) Azerbaycan halkı için sosyal ve siyasal açıdan sıkıntılı bir dönemdir. Çocukluk ve gençlik yılları Sovyet Rusya'nın Azerbaycan'da sosyalist sistemi kurma ve yerleştirme politikalarının yoğun bir şekilde uygulandığı ve halkın baskı ve istibdat altında tutulduğu dönemde geçmiştir. İlk şiirlerini yayınlamaya başladığı yıllarda Sovyet sistemi baskı ve yıldırma politikalarını bütün şiddetiyle uygulamaya devam etmiştir. Sovyetler Birliği'nin dağılmaya başladığı ve Azerbaycan'ın yeniden bağımsızlık kazandığı dönem ise Şair'in olgunluk dönemi olmuştur. Farklı sosyal ve siyasal sistemler içerisinde yaşayan Vahapzade, gerek Sovyetler Birliği gerekse de Bağımsızlık döneminde yaşanan, yönetimden kaynaklanan sıkıntılara eserlerinde yer vermiştir. Şair'in iç dünyasındaki düşünceler ve beklentiler ile, dışındaki devlet ve yönetim anlayışının yani Sovyetler Birliği sisteminin çatışması, eserlerine bir ikilik-düalizm olarak yansımıştır. Bu çalışmada Bahtiyar Vahabzade'nin Devlet ve Yönetim anlayışı değerlendirilmeye çalışılmıştır.

Anahtar Kelimeler: Bahtiyar Vahabzade, Azerbaycan, Devlet, Yönetim, Sistem

1. Giri

Bahtiyar Vahabzade, XX. yüzyıl Azerbaycan Türkçesinin en dikkate değer şairlerinden birisi ve belki de birincisidir. Kendisine has şiir söyleyişiyle ülkesinde yaşanılan hayatı ve kültür değerlerini büyük bir ustalıkla dile getirmiş ve ortaya koymuştur (Aktaş, 2010: 19-27). Yaklaşık 70 yıllık sanat hayatı içerisinde millî duygu ve düşünceler içerisinde kaleme aldığı 40 kadar şiir kitabı, tiyatro eserleri ve bilimsel çalışmaları ile Türk milletine hizmet eden şairin saçtığı ışık yüzyıllardır bağımsızlık mücadelesine sahne olan Azerbaycan topraklarında millî şuurun canlı kalmasında önemli rol oynamıştır. Sovyetler Birliği'nin dağılması ile birlikte 1990'da başlayan bağımsızlık hareketlerine de büyük bir destek vermiş olan Vahabzade, Bağımsızlık sonrası dönemde de çeşitli defalar milletvekili seçilmiştir. Halkın kendisine karşı olan bu teveccühü, onun milleti ile ne kadar güzel bütünleşebildiğinin, onların duygu ve düşüncelerine ne ölçüde tercüman olabildiğinin de en büyük göstergelerindendir (Türkmen, 2009: 173-176).

Vahabzade, Azerbaycan'ın yetiştirmiş olduğu en büyük şairlerden birisidir (Karaman, 2009: 12). Bütün Türk dünyasında olduğu gibi Türkiye'de de millî şuur sahibi hemen herkes tarafından tanınan ve büyük bir hayranlık ile okunan Vahabzade, edebiyat çevrelerince de özellikle Türkçenin yaşayan en büyük şairi olarak tanımlanmıştır (Türkmen, 2009: 173-176). Vahabzade ismini duyan birçok Türk aydını, ilk önce, onun en mümeyyiz vasfı olan şairliğini haklı olarak hatırlar. Oysaki Vahabzade güçlü bir şair olması yanında, geçmiş ve geleceğin izdivacını akıl ve tefekkür yoluyla gerçekleştiren bir fikir adamı, dünyada olup biten hadiselere bigane kalmayan, bu olayları isabetli suretteanaliz eden hatırı sayılır bir entelektüel, aynı zamanda ülkesinde, Türkiye'de, Türk dünyasında, kısaca İslam âleminde, cereyan eden hadiseleri çok yakından takip eden, olumlu gelişmeler karşısında sevinen, olumsuz gelişmeler karşısında ıstırap çeken bir çile adamıdır (Karaman, 2009: 12).

Edebi eserler, tarihi-sosyal bir veri niteliği taşımaktadır. Sanatçının bulunduğu zaman ve şartların etkisinden kurtulması mümkün değildir. İçinde bulunulan sosyal şartlar ve coğrafi faktörler toplumun yapısını etkilemekte, bireyin duygu, düşünce ve davranışlarında da etkisini göstermektedir. Özellikle birey ele aldığı konuları değerlendirirken ve belli tavır alışları sergilerken bu durum daha da belirginleşmektedir. Vahabzade için gerek etkilenme ve fikri oluşum süreci bakımından, gerekse işlediği konuların malzemesini oluşturması bakımından içinde bulunduğu sosyal muhit tam bir müşahede sahası olmaktadır. Yaşadığı dönemin şartları ve Vahabzade'nin eserlerinde bu etkilenmenin yüksek seviyede gerçekleştiği görülmektedir.

2. Aldi i Görevler

Bahtiyar Vahabzade, Üniversite öğretim üyeliği ile birlikte birçok resmi ve gayri resmi görevlerde bulunmuş, sosyal hayata faal bir şekilde hizmet etmiştir. Aldığı görevler şunlardır: 1945 yılı Ocak ayında Azerbaycan, Yazarlar Birliğinin başkanı Samet Vurgun'un da tavsiyeleri ile Yazarlar Birliğinin üyesi olmuştur. 1947 yılında Bakü Devlet Üniversitesinde asistan olarak göreve başlamıştır. 1981 yılında, Sovyetler Birliğinin ve Yazarlar Birliğinin VII. Kurultayında Sovyetler Birliği Yazarlar Birliği'nin İdare Heyeti'nin, aynı zamanda Azerbaycan Yazarlar Birliğinin İdare Heyetinin üyeliğine seçilmiştir. Bu görevleri ile birlikte, aynı zamanda Azerbaycan İlimler Akademisi ve Azerbaycan Komünist Partisi Bakü komitesinin de üyesi olarak görev yapmıştır. Gerek Sovyetler Birliği döneminde, gerekse de Azerbaycan'ın bağımsızlığı sonrası dönemde Azerbaycan Milli Meclisinde milletvekili olarak görev yapmıştır (Karaman, 2009: 25).

3. Devlet ve varlık ko ulları

Çağdaş insan toplumlarında, en büyük örgütlenme olan Devlet, insanların bütün ilişkilerinde en önemli ve en etkili koordinatördür. Kişilerin doğumlarından ölüp gömülmelerine kadar her şeyle Devlet mekanizması ilgilenmektedir. Devlet kendisine özgü nitelikleri, araçları ve gücü olan bir örgütlenmedir (Dönmezer, 1984: 369-373). Müstebit veya esarete dayanan bir Devletin ülkesinde sağladığı asayiş ve düzen ile, demokratik sistemdeki bir Devletin sağladığı düzen arasında çok geniş ölçüde fark bulunması mümkündür. Devlet çok önemli fonksiyonlar gören bir toplum yapısıdır (Dönmezer, 1984: 369-373).

Devlet örgütlenmiş bir toplumdur. Her örgütlenmiş toplum gibi devletin de bir düzeni vardır. Devlet, Arapça kökenli bir deyimdir, elden ele geçen iktidar, saltanat anlamına gelir. Devleti soyut olarak tanımlamakta güçlük vardır. Şimdiye kadar yapılan tanımlamalar doyurucu olmamıştır. Yazarlar, devleti tanımlarken, devletin ögelerinden birine ağırlık verme yolunu yeğlemişlerdir. Genel olarak devlet tanımlarında iki eğilim görülür. Bunlardan biri, devleti bir "toplum" olarak, diğeri de, bir "iktidar" olarak gören yaklaşımlardır. Devlet yerleşik bir topluluk dışında düşünülemediği gibi, topluluğu olmayan bir siyasal iktidar da düşünülemez. Bu iki görüş birlikte ele alındığında devletin varlık koşulları üç noktada toplanabilir: bunlar, topluluk, ülke ve egemenliktir. Egemenlik devletin varlık koşullarından olmakla birlikte, devlet çarkını işletecek ve devletin amacını gerçekleştirecek olan da, siyasal iktidardır Gözübüyük, 2008: 12-19). Devlet dışa ve içe karşı toplum adına hareket edebilen, bu amaçla güç kullanabilen, toprağı ve insanıyla tüm bir ülkeyi temsil eden, onun simgesi olan bir kurumdur (Kışlalı, 1987: 88).

3.1. Devletin varlık ko ulu olarak insan toplulu u: millet

Devletin meydana gelebilmesi için bir insan topluluğuna (devletin insan unsuru) ihtiyaç vardır. Bir tek kişi yalnız başına devlet olamaz. Bir devletten söz edebilmek için o devlet ülkesinde toplumu oluşturan insanlar arasında devamlı bir ilişkinin doğmuş olması gerekir (Esener, 2000: 209-217).

Devlet, her şeyden önce bir insan topluluğudur; milyonlarca insandan oluşmaktadır. Bunlar arasında amaç birliği de vardır. Devletin varlık koşullarından olan topluluğa halk, ya da ulus adı verilir. Devlet ile ulus aynı şey değildir. Devlet olmadan da ulus olabilir. Devlet, belli bir yerde yerleşmiş bir insan topluluğunu gerekli kılar. Burada önemli olan topluluğun devlet olarak örgütlenme isteği ve yeteneğidir. Bu düzeye ulaşan topluluklar ulus adını alır. Devlet uygulanan devlet biçimine göre, çok uluslu da olabilir (Gözübüyük, 2009: 12-19).

Devletin varlık, ya da oluşturucu unsuru olarak, belli bir arazi üzerinde yaşayan insan topluluğu, inkar edilemeyecek doğal bir gerçeği ifade etmektedir. Günümüzde bu insan topluluğu millet kavramı ile ve devletler de milli devlet olarak nitelendirilir. Millet, bireylerin birbirleriyle aynı zamanda maddi ve manevi bağlarla birleşmiş olduklarını hissettikleri ve kendilerini, öteki milli toplulukları oluşturan bireylerden farklı olduklarını kabul ettikleri bir insan topluluğudur (Teziç, 2009: 117-120).

Millet, kendi birliğinden haberdar olan, siyasi bakımdan devlet şeklinde teşkilatlanmış ve milli devlet kurma kabiliyetine sahip sürekli ve teşkilatlı insan zümreleridir. Millet aynı zamanda gelişmiş olan bir milliyettir. Milletin ortaya çıkışında birçok faktör etkili olmakta ve bunlar birlikte rol oynamaktadır. Sadece dil ve din birliği yeterli değildir. Ortak ülkü ve bir arada olmayı gerektiren ortak irade büyük önem taşımaktadır (Erkal, 1987: 33-37).

İnsan topluluğunun niceliği (miktarı) önemli değildir; ama niteliği önemlidir. Her insan topluluğu devlet kuramaz. Bir arada yaşayan insanların bir devlet kurabilmeleri için, birtakım bağlar ile birbirine bağlanmış olmaları gerekir. Birbirine birtakım bağlarla bağlanmış olan insanlardan oluşmuş topluluğa millet denir. Belirli bir insan topluluğunun bir devlet kurabilmesi için millet niteliğinde olması gerekmektedir (Gözler, 2011: 33-41).

Millet, devletin demografik yapısını meydana getirir. Bu yapının temel ögesi ise insandır. Buna göre millet, insanlardan meydana gelen bir topluluktur. Ancak her insan topluluğu millet olamaz. Millet olabilmek için bu insan topluluğunda maddi ve manevi bazı ortak unsurların bir arada bulunması gerekmektedir. Genel olarak millet, "geçmişte, günümüzde ve gelecekte; hatıraları yönelişleri olan varlık" şeklinde tanımlanır. Milleti meydana getiren unsurlar maddi ve manevi olmak üzere ikiye ayrılır. Soy, toprak ve ekonomi (emek) maddi unsurları; dil, din, kültür ve ülkü (ideal) birliği ise manevi unsurları meydana getirir (Doğan, 2004, 137).

3.2.1. Millet ve Vahabzade : milletin ortak ba ları:

3.2.1.1. Türk Medeniyeti:

Türk dünyasıyla yakından ilgilenen şair bir makalesinde Türk medeniyetine olan hayranlığını şu satırlarda dile getirir: "Milli medeniyetimizin ortaya çıkarılması için milli psikolojimizi çok iyi öğrenmeliyiz. Medeni milletler bu hususta çok mesafe kat etmişler. Maalesef bu hususta biz hala yol alamadık. Bence milli karakter öğrenilmeden milli unsurları tayin etmek çok zordur. Öncelikle asırlar boyu atalarımızın sahip oldukları adet ve ananelerimizi tekrar hayata geçirmeliyiz. Burada Kaşgarlı Mahmut'u, Orhun Yenisey Yazılarını, Oğuznameleri çok iyi öğrenmeliyiz" (Karaman, 2009: 230).

Aynı zamanda Türk'ü İslam'dan ayırmak olmaz. Bir yerde, "İslam Araplar arasında başladı, Türkler korudu" diye bir cümle okumuştum. Bu çok doğru bir fikirdir. On asırdır İslam'a Türkler bayraktarlık yapmıştır. Türk medeniyetini İslam medeniyetinden ayırmak doğru değildir" (Karaman, 2009: 230).

3.2.1.2. Dil

Vahabzade'nin, özellikle II. Dünya Savaşından sonraki ilk on yıl ve onu takip eden senelerde Azerbaycan Türk toplumunun bir tercümanı haline geldiği görülür. Vahabzade sadece idarî sistemdeki çarpıklıkları, tarım ve sanayi alanındaki aksaklıkları değil; aynı zamanda millî, manevî konuları, insanî meseleleri ele alma hususunda da oldukça başarılı eserler vermiştir. Vahabzade' nin bir ömür boyu vermiş olduğu mücadelede, azatlıkla eşdeğer tuttuğu ana dili büyük önem arz etmektedir. Yazmış olduğu makalelerde ve şiirlerde bu hususdaki hassasiyetini görmek mümkündür. Ona göre ana dilini bilmeyen bir insanın o millete ait olduğunu iddia etmeye hakkı yoktur. Dilini bilmeyen milli düşünce ve vatanperverlik bakımından onursuz olur. Onlar için vatan mefhumu şahsi ev, millet düşüncesi de yakın akraba anlamına gelmektedir. Ana dilini bilmeyen bireyler milletin ruhuna, maneviyatına ve tarih şuuruna biganedir ve o milletin evladı değildir (Karaman, 2009: 61).

Vahabzade'nin, ana dili üzerine yazdığı eserlerinde, yarım asrı geçen büyük bir mücadelenin seyrini görmek mümkündür. Bu mücadele tehlikeli olduğu kadar heyecanlı, heyecanlı olduğu kadar onurlu bir başkaldırıştır. Şairin, bu mücadelede ölümle burun buruna geldiğini, ölümün soğuk nefesini adeta teneffüs ettiğini hissetmek mümkündür (Karaman, 2009: 68).

3.2.1.3. Tarih

Vahabzade, Türk milletinin kökünün tarihin derinliklerinde olduğunu, fakat bu niteliğimizi kendi menfaatimiz doğrultusunda değerlendiremediğimizi dile getirir. En köklü milletlerden birisi olan Türk milleti için, "Bu hususiyetimizi ilme çevirebildik mi?" diye kendisine sorduğu soruya, "Ne yazık ki hayır.» diye cevap verir. "Biz her ne kadar geçmişimize tarihimize hayran kalsak da, geçmişimizi objektif deliller içerisinde, sözü dolandırmadan, gizletmeden, Allah korusun Stalinci görüşlerin tazyiki altında gerçekleri değiştirmeden, ilmi eserler ortaya koyamadığımızdan dolayı bu hakikate hiç kimseyi inandıramadık. Muhteşem tarihe sahip olmak hünerse, aynı zamanda o geçmişe layık eserler ortaya koymak ve bu eserleri diğer milletlere ulaştırmak da bir o kadar beceridir. Ne yazık ki büyük istidat, ilmi yetenek gerektiren ikinci hüneri bir kenara bırakıp, daha çok, fazla bir beceriye gerek duyulmayan birinci hünere yapışmışız (Karaman, 2009: 195-198).

Milletimizin büyüklüğünden, tarihte ortaya koyduğu başarılardan avunuruz. Tarihi araştırmaları icra edecek kadroların kurulması önem arz etmektedir. Uzun yıllar boyunca tarihimizi klişeleşmiş tarzda ve şablonlarla tarih yazan kadrolara imkânlar sağlanmış, meydan onlara kalmıştır. Daha kapsamlı, verimli ve ilmi metotlarla eserler vücuda getirenlere fırsat verilmemiş, çeşitli yaftalarla onlar susturulmuştur. Ortaya atılan her yeni fikrin önü kesilmiştir. Bilinçli bir şekilde ortadan kaldırılmıştır. Fikir hürriyetine, ilmi araştırmalara önem verilen günümüzde cumhuriyetimizde, tarih alanında gerçekler, yeni fikirler inzibati usulle değil, ilmi yollarla doğrusu yanlışından (Vahabzade, 1991: 146) ayrılmalıdır."

